AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

Layihənin rəhbəri: Elbay Qasımzadə
Redaktor: A.B.Şirəlizadə

**Ş.S.Fətullayev-Fiqarov. Bakının memarlıq ensiklopediyası.**
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, – 528 səh.

Slaydlar, ağ-qara fotoşəkillər müəllifə və Asim Talıbova məxsusdur.

Kitabda Bakının qədim tarixi hissəsi olan İçərişəhər, əsas memarlıq kompleksləri, Şirvanşahlar Sarayı Kompleksi, şəhərin planlaşdırma strukturunun xüsusiyyətini müəyyən edən magistrallar, küçələr, yaşayış, mülki və dini memarlıq abidələrindən bəhs edilir.

Forştadt – Bakının yeni hissəsi, milli memarlıq abidələri kimi haqq qazanmış ictimai və ticarət mərkəzlərinin yaradılması, ona tərəf yönələn magistrallar, küçələr, müxtəlif səciyyəli və təyinatlı yaşayış tikililəri, bina və qurğular, Bakının bədii simasında parlaq iz qoymuş memar və inşaatçılar haqqında məlumat verir.

Kitabın inkişafının xronoloji prinsipləri memarlığın qədim dövrdən 1920-ci ilədək təsvirini təqdim edəcək və Azərbaycanın paytaxtının orijinal memarlıq abidələri ilə tanışlığa vasitə olacaqdır.

**ISBN** 978-9952-32-020-6
978-9952-32-064-0

© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Ş.S.FƏTULLAYEV-FİQAROV

# BAKININ
# MEMARLIQ ENSİKLOPEDİYASI

Bakı – 2013

# MÜƏLLİF SÖZÜ

Bakının memarlığı minillik boyunca inkişaf edirdi: Sasanilər dövründən, İslamın erkən dövrünü keçib, Şirvanşahlar Sarayının ansamblında özünün ən yüksək zirvəsinə yetişərək memarlığın yeni sərhədlərinə çıxdı.

Şah İsmayıl Xətai, 1501-ci ildə Bakını hücumla tutmaqla, şəhəri viran etdi və Azərbaycanın islam memarlığının nadir abidəsi sahibsiz qalaraq çətin vəziyyətə düşdü, bu da Saray Kompleksinin tədricən boşalmasına səbəb oldu. Kompleksin ciddi memarlıq məktəbi olan möhtəşəm abidələr, XVIII əsrə qədər səyahətçilərin, coğrafiyaçıların, tarixçilərin diqqətini cəlb etməmişdi. Yalnız sonralar, XVIII-XIX əsrlərin kəsişməsində, islam sənətinin bu abidəsinə böyük maraq yarandı.

Bu kompleksin arxitekturasının memarlara olan təsiri təkcə Şirvan bölgəsində deyil, həmçinin onun hüdudlarından çox uzaqlarda - İslam Şərqinin ölkələrində özünü göstərirdi. Osmanlı Türkiyəsində, Səfəvi İranında, Orta Asiyada olan abidələrdə Şirvanın memarlıq irsi əks etdirilmişdir, bu, xüsusilə də portalların kompozisiya üsullarında, naxışlarda, konstruktiv quruluşlarda özünü göstərir.

Kompozisiya üsulunda quruluşların təfsiri, Ərdəbildə məşhur Şeyx Səfi Kompleksində, Səmərqənddə Şahi Zinda məqbərəsində, İstanbulun bəzi abidələrində açıq-aydın izlənilir.

Təsadüfi deyil ki, XIX-XX əsrlərin hüdudlarında yaşayan Bakının baş arxitektoru, sonralar görkəmli memar, burada və Varşavada bir çox binaların müəllifi, mülki mühəndis K.B.Skureviç yazırdı ki, islam memarlığında unikal olan Şirvanşahlar Sarayı Kompleksi, özünəməxsus tərzinə, yer səthində yerləşməsinə, həcmli-məkan dərkinə, arxitektura quruluşlarının təfsirinə və bina fasadlarının gözəl ornamental örtüyünə görə, nəcib bədii xüsusiyyətli daşdan - əhəngdaşından düzəldilib.

Sonralar Bakının arxitekturasında müəyyən bir zəifləmə müşahidə olunur. Şirvanşahlar dövründə dini, mülki və mədəni-məişət binaları, karvansaralar, hamamlar, ovdanlar, məqbərələr, məscid şəklində tikilən qurğular nümunəvi irs olub Azərbaycanın qızıl memarlıq fonduna daxil oldu.

Növbəti dövrdə, yəni XVII-XVIII əsrlərdən başlayaraq, Bakının memarlığında yeni inkişaf cəhdi izlənilir, lakin, şəhərin ictimai-iqtisadi şəraitinə görə, bu inkişaf cəhdi özünü başqa həcmdə və başqa üslubda, lakin yerli memarlıq xüsusiyyətləri istiqamətində göstərir.

XIX əsr, Bakının həyatına Rusiyanın istilası ilə daxil olur: inzibati işlərdə, eyni zamanda da memarlıq və inşaat sahələrində öz qayda-qanunlarını qurmağa çalışaraq, o, ev inşaatı üslubunun yeniliklərinin üstünlüyünü açıq-aşkar təbliğ edirdi.

XIX əsrin birinci yarısında, şəhərin tikintisi hərbi mühəndislərin nəzarəti altında, memarlıqda rus klassisizmi istiqamətində aparılırdı. Bu elə bir dövr idi ki, yerli memarlar, ənənəvi inşaat üsullarını tətbiq edərək, həmçinin də arxitekturanın onlara indiyədək tanış olmayan cəhətlərinə diqqət yetirirdilər. XIX əsrin ikinci yarısından başlayaraq, şəhərin memarlıq və tikinti fəaliyyəti kökdən dəyişir. Şəhər mühəndisi və memarı vəzifələrinin tətbiqi, Bakının abadlaşdırılması üçün peşəkar memarlıq layihələrini həyata keçirməyə yol verməkdədir.

Bu istiqamətdə, Sankt-Peterburqdan gəlmiş mühəndis və arxitektorlarla yanaşı, yerli memarlar da, 1860-cı illərdə Bakının və Şamaxının memarı adını alan Qasım bəy Hacıbababəyov öndə olmaqla, iştirak edirlər. Onun tələbəsi, sonradan isə köməkçisi olan Məşədi Mirzə Qafar İsmayılov, 1880-ci illərdən başlayaraq, İçərişəhərin xeyli hissəsini abadlaşdırmışdır, həmçinin, Forştadtında də onun iri həcmli dini və yaşayış binaları qalmışdır.

Peşəkar memarların, eklektika və üslublaşdırma dövründə Bakının abadlaşdırılmasında bilavasitə iştirakı, tikililərin memarlıq istiqamətini təyin etdi. Yerli şəraitdə bu, yenilik idi və buna görə də, ənənəvi memarlıq üslubları ilə bərabər, müxtəlif yanaşmalı layihələr sifarişçilərin çox xoşuna gəlirdi.

Şəhərin özünəməxsus üslubu iki istiqamətdə - klassik Şirvan-Abşeron memarlıq məktəbinə söykənən yerli istiqamət və tez bir zamanda məşhurluq qazanmış və vətəndaşlıq hüququ almış Avropa istiqamətində təşəkkül edirdi.

25 illik qısa zaman ərzində, 1913-cü ilə qədər, müxtəlif üslublu tikililər Bakının mərkəzi kvartallarını əhatə edib, onun kənarına çıxdı, şəhərin Şamaxinka, Təzə-Pir, Qanlı-Təpə, Kərpicxana kimi tarixi rayonlarını da qismən əhatə edib, vağzal sahəsinin təsir zonasına daxil oldu.

Şəhərin vahid memarlıq zonası yarandı ki, burada, Z.b.Əhmədbəyov, Q.b.Axundov, İ.V. Qoslavski, K.b.Hacıbababəyov, M.M. Q.İsmayılov, A.S. Kandinov, İ.K. Ploşko, Y.Y. Skibinskiy, K.B. Skureviç, N.P.Tverdoxlebov, N.A. fon der Nonne, A.V.Eyxler, İ.B. Edel və başqalarının yaradıcılığı təqdim olunmuşdur.

Zivər bəy Əhmədbəyovun rəhbərliyi altında milli memarlıq abidələrinin öyrənilməsinə xüsusi diqqət yetirmək lazımdır (məhz onun təşəbbüsü ilə, mülki mühəndis Ömər bəy Abuyev İsmayıl bəy Nəbi oğlu Qacarla birlikdə 1918-ci ildə, Azərbaycan memarlıq incəsənətinin şah əsəri olan Şirvanşahlar Sarayı ansamblının ölçülməsi ilə məşğul oldu). Məşhur incəsənət tarixçisi V.M.Zummer, İsmayıl bəy Nəbi oğlunun ölçülmə işlərini və yerinə yetirilmiş cizgilərini yüksək qiymətləndirmişdir [16]. Əfsuslar olsun ki, kompleksin qrafik cizgiləri hələ aşkar olunmayıb, lakin,

Azərbaycan Respublikasının EA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda kitabın müəllifi onun ölçmə eskizlərini aşkar etmişdir.

Bakının hər tarixi küçəsində möhtəşəm memarlıq incəsənətinin abidələri təqdim olunub, onlar şəhərin əzəmətinə yaraşıq verən qiymətli daş-qaşa bənzəyirlər. Lakin son zamanlar, bazar iqtisadiyyatı dövründə, tarixi irsə olan münasibət kəskin şəkildə dəyişmişdir.

Memarlıq abidələrinin fasadları tanınmaz hala düşərək dəyişdirilir, xüsusilə də binaların birinci mərtəbələri mağazalara və reklam lövhələrinə çevrilib, zövqsüzlüyə düçar olub, özünəməxsusluğunu itirir. Qeyd etmək lazımdır ki, şəhərin dövlət binalarından başqa bütün binalarının ilkin görünüşü, sahibləri tərəfindən qorunub saxlanmışdırlar.

Həmçinin, memarlıq abidələrinin fasadlarının yeniləndirilməsi, acınacaqlı məsələdir, şəhərin tarixi xatirəsinin dəyişilməsinə yol vermək olmaz, Bakının zəngin bədii xüsusiyyətlərinin hər çalarını qoruyub saxlamaq lazımdır.

Biz zəngin bir memarlıq irsi əldə etmişik, lakin onu qorumağı bacarmırıq. Şüşəli və betonlu müasirlik, şəhərin mərkəzi tarixi kvartallarına israrla daxil olur və memarlıqda ahəngsizlik yaradır. İrsimizə qarşı baş verən dağıdıcı proses bu sürətlə davam etsə, biz, istedadlı memarlar nəslinin yaratdıqlarından məhrum olacağıq. Mən, onların xatirəsi önündə baş əyirəm, onlar valehedici, rəngarəng memarlıq möcüzəsi yaratmışdırlar.

1979-cu ildə şəhərsalma METLİ (Mərkəzi Elmi-Tədqiqat Layihə İnstitutu – tərcüməçi) (Moskva) Bakı şəhər icraiyyə komitəsinin Baş APİ-nin sifarişi ilə, "Riyazi üsulları və EHM-ı tətbiq etməklə, memarlıq və şəhərsalma abidələrinin tikililərinin və Bakı şəhərinin tarixi mərkəzinin mühafizə zonalarının və nizama salınma zonalarının sərhədlərinin və rejiminin təyini" mövzusu üzərində işləyirdi (mövzunun rəhbəri: memarlıq namizədi S.K.Reqame). "Qorunması təklif olunan binaların və onların ətrafında olan binaların tarixi və memarlıq cəhətdən tədqiqatı" bölümünün hazırlanmasını şəhərsalma METLİ (Mərkəzi Elmi-Tədqiqat Layihə İnstitutu – tərcüməçi) hazırkı kitabın müəllifinə sifariş etdi.

Bölümün məqsədləri, bədii cəhətdən dəyərli binaların və onların ətrafında olan, həmçinin, tarixi mərkəzin müəyyən bir sahəsi üçün səciyyəvi mühit təşkil edən binaların göstərilməsindən ibarət idi.

Bura, Bakının mərkəzindəki şəhərsalma və bədii vəziyyətin ümumi səciyyəvi xüsusiyyəti, bədii cəhətdən dəyərli binaların və onların ətrafını təşkil edən binaların dövlət tərəfindən qorunması üçün əsaslandırılma daxil oldu.

Tədqiqat zamanı, müxtəlif üslubda çoxsaylı yaşayış, mülki, dini, inzibati bina və tikililər aşkar olunmuşdur. Binaların, Bakının memarlıq-planlaşdırma və həcmli-məkan quruluşunda xüsusiyyətləri və yerdəyişməsi müəyyənləşdirildi. Nəticədə,

XIX-XX əsrlərin əvvəllərindəki Bakının çox dəyərli memarlıq irsinin 850-dən çox mövzusu mənim tərəfimdən Forştadtında aşkar olunmuşdu və Azərbaycan Respublikasının Nazirlər Sovetinin 145 saylı 27 aprel 1988-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş, dövlət tərəfindən qorunması lazım olan memarlıq abidələri olaraq siyahıya daxil olunmuşdur.

1989-cu ildə "İnşaatnəşr" ("Stroyizdat") nəşriyyatı (Moskva), AFR-nın mətbəələrinin birində nəşr olunmalı "Bakının memarlıq abidələrinin soraq kitabçası"nı, qonorar əsasında, müəllifə sifariş etdi. Vaxtı ilə tədqiq olunmuş material müəllif tərəfindən işləndikdən sonra "Kitabça"da öz yerini tutdu. Kitab tamamilə nəşr olunmağa hazır idi, lakin, SSRİ-nin dağılması bu işi dayandırdı.

Nəhayət, 1996-cı ildə, menecer Naimə xanım Qaramanlının sayəsində "Bakının memarlıq ENSİKLOPEDİYA"sı adlı kitabın dərci edilməsi münasib şərait yarandı.

Kitabın məzmunu, oxucunu, Bakının memarlıq cəhətlərini təsəvvür edə biləcək şəkildə qurulmuşdur. Müəllif, şəhərin şəhərsalma quruluşu ilə tanış edir, onun qədim hissəsi olan İçərişəhəri, abidələri, minillikdən çox inkişaf edən şəhərsalma vəziyyəti haqqında bəhs edir, daha sonra kitaba, memarlıq abidələri ilə birlikdə Forştadtının küçələri əlifba sırası qaydasında daxil edilmişdir, şəhərin genişləndirilmiş mərkəzində hər bir tarixi məna açıqlanmışdır.

***Fətullayev Ş.S.***

# BAKI – MEMARLIQ FENOMENİDİR

Abşeron yarımadasının ərazisi qədim zamanlardan insanların məskunlaşdığı və yaşadığı ərazi olub. Bunun üçün həm təbii şərait, həm təbii qazın çıxması və ətraf mühitin oda həsr edilmiş ibadətxanalara çevrilməsinə imkan yaradırdı. Belə bir məskənlərin əsasında Bakı şəhəri yarandı. Müasir Bakının cənub-qərbində, Xəzər dənizinin yaxınlığında Qobustan rayonu yerləşib. Burada, Böyükdaş, Kiçikdaş, Cınqırdaş və Yazılı təpəsinin qayalıqlarında təsvir olunmuş otyeyən və cütdırnaqlı heyvanlar, bu geniş sahələrdə otlayırdı [3]. VIII minillikdən XIX əsrin sonunadək müddətə aid olan müxtəlif ov səhnələri, ayin və mərasim prosesləri əks olunmuşdur. Böyükdaş dağının ətəyində tapılan, bizim eranın 80-90-cı illərin maraqlı latın yazısında belə deyilir: "İmperator Domisian Sezar Avqust Germanika dövründə, XII Fulminata legionunun senturionu Lüsiy Yuliy Maksim bu yazını yazdı" [2].

Antik müəlliflər (Klavdiy Ptolemey b.e. II əsri), bizanslı Pontiyalı Prisk (V əsrin birinci yarısı) Qafqaz Albaniyasının şəhərləri, xüsusilə də "əbədi atəş" haqqında xəbər verirlər. Həmçinin, ərəb tarixçisi Əl-Balazuri 754-cü ildə Şirvanın nefti və duzu haqqında məlumat verir. Orta əsrlərə aid Bakı şəhərinin ərazisində saxsı, həmçinin memarlıq abidələrinin hissələri aşkar olunmuşdur, burada məşhur Qız qalası (VI-VII əsrlər) yerləşir.

X əsrdən başlayaraq, ərəb coğrafiyaçıları və tarixçilərinin əsərlərində Bakı kiçik şəhər kimi qeyd olunur. Ağ və tünd boz neftin mənbələri haqqında xəbər verilir. Bakının rahat buxtası və limanı tacirləri və səyahətçiləri cəlb edirdi. Şəhər, tədricən, Zaqafqaziya və Orta Asiya arasında Xəzər dənizi vasitəsilə yük-boşaltma məntəqəsinə çevrilirdi (Azərbaycan tarixi. Bakı, 1970, səh.42).

XII əsrdə Bakı ilk dəfə öz qala divarlarını Şirvanşah Əbül-Hica Manuçöhr II-nin (1120-1149-cu illər) dövründə əldə edir, sonra isə Şirvanşahlar sülaləsinin ikinci iqamətgahına çevrilir. Dənizin səviyyəsi azalandan sonra, Bakı ilə üzbəüz, hündürlüyü 70-72 sm, eni 25-50 sm, qalınlığı 12-15 sm olan daş lövhələrdən ibarət uzun "Bayıl daşları" adlandırılan, bəzək haşiyəli qala divarlarının qalıqları aşkar olunmuşdur.

Lövhələrdə qala haqqında yazı qalmışdır: karvansara 1235-ci ildə memar-ustad Zeynəddin Əbu Rəşid Şirvani oğlu tərəfindən inşa edilmişdir.

Azərbaycanın bu əraziləri monqolların hücumuna məruz qalmadı və Bakı, Beyləqan, Şamaxı, Gəncə, Şəmkir və s. qədim şəhərlər kimi viran edilmədi və buna görə, həm Bakıda, həm Abşeronun kəndlərində - Bilgəhdə, Mərdəkanda, Buzovnada, Maştağada, Nardaranda, Şüvəlanda və bir çox başqa yerlərdə inşaat davam edə bilərdi. Həmçinin,

Şirvan-Abşeron memarlıq məktəbinin üslubi inkişafına güclü təkan verən Şirvanşahlar Sarayı Kompleksinin inşaatı da buna zəmin yaratdı. Yeni dini və mülki tikililər nümunələri yaranır, Bakı – İçərişəhər memarlıq-planlaşdırma quruluşu nizamlanırdı. Yeni magistrallar, şəhərsalma qovşaqları təyin edilir, XVII-XVIII əsrlərdə tikililər daha çox sıxlaşır, küçələrdə ticarət cərgələri çoxalır. XVIII əsrin sonu - XIX əsrin əvvəlində Bakı, Xəzər dənizinin qərb sahilində yerləşən, geniş yayılmış ticarəti və çox əhalisi olan əsas liman idi.

XIX əsrin başlanğıcında, 1806-cı ildə Rusiya imperiyası Bakını öz tərkibinə daxil edir [44]. Feodal Bakı – İçərişəhər (daxili şəhər) Forştadtla yanaşı inkişaf edir, lakin qala divarları arasında sıxışdırılmış şəhər, binaların mərtəbələrini artırmaqla çıxış yolu tapır. Köhnə yaşayış evləri sökülüb, birinci mərtəbələri saxlanılır, abadlıq və daxili planlaşdırma quruluşuna uyğun olan yeni, daha müasir üst mərtəbələr tikilir. Forştadtın üslubu Azərbaycan Respublikası tərəfindən qoruq zonası elan edilən İçərişəhərin həcmli-məkan quruluşunda yüz il (1800-1920) ərzində əks olunmuşdur. Bakı xanlığının mərkəzi - kiçik feodal şəhəri olan Bakı 1806-cı ildə Rusiyaya birləşdirildikdən sonra, onun həm planlaşdırma, həmçinin memarlıq cəhətdən tarixi inkişafında yeni mərhələ başlandı. 1859-cu ildə Bakı qəzası Bakı quberniyasının mərkəzinə çevrildi. Yaxın və Orta Şərq ölkələri, Orta Asiya və Rusiya ilə ticari əlaqələri inkişaf etdirmək üçün, Bakının dəniz kənarında yerləşməsi və rahat buxtası, ərazi genişlənməsi və inkişafı üçün əlverişli idi. Lakin quberniya rəhbərliyi Bakının nə iqtisadi, nə şəhərsalma inkişafına lazımi diqqət yetirmirdi.

XIX əsrin ikinci yarısından başlayaraq, Abşeronun neft yataqlarının planauyğun istehsalı dövründən, Bakı, nəinki Çar Rusiyasının, hətta bütün dünyanın ən iri sənaye və iqtisadi mərkəzləri sırasına çıxır.

Zəngin neft ehtiyatlarına sahib olan və neft istehsalına yerli və xarici firmaların iri kapitalları qoyulan, keçmişdə az nəzərə çarpan bu kiçik şəhərlə, Rusiyanın heç bir yaşayış məntəqəsi inkişaf sürəti və özünəməxsusluğuna görə ayaqlaşa bilmirdi. Bakı o zamanlar böyük iqtisadi yüksəlişdə idi. İstehsaledici qüvvələrin və istehsal münasibətlərinin inkişafı ilə yanaşı, şəhərin ərazisi də genişlənir, onun planlaşdırmasında və tikililərində, ictimai bağlar, bağçalar, bulvarlar, meydançalar, müxtəlif memarlıq təfsirli möhtəşəm binalar, düz magistrallar kimi yeni elementlər meydana gəlir. Bütün bu hallar hələ yetərincə öyrənilməmiş, sistemləşdirilməmiş və ümumiləşdirilməmişlər, hərçənd bəhs edilən dövr, yalnız elmi maraq doğur-

*"Bayıl daşlarının" bir hissəsi. Memar ustad Zayn-ad-din. 1235-ci il.*



mur, həmçinin, şəhərin geniş tarixi ərazisinin davamlı yenidənqurması ilə əlaqədar, praktiki əhəmiyyətə də malikdir.

Bakı yalnız təbii-coğrafi yerləşməsinə, XIX - XX əsrlərin əvvəlindəki tarixi inkişafına, Şərq və Qərbin bədii mədəniyyətlərinin kəsişdiyi ərazisinə görə deyil, həmçinin də memarlıq fenomenliyinə görə nadir şəhərdir. Burada, memarlıq ənənələrinin, yüksək inşaat mədəniyyətinin, xalq memarları ilə peşəkar arxitektorların birgə yaradıcılığının nəticəsində özünəməxsus bədii sistem yaranmışdır. Belə bir sintez nəticəsində müxtəlif təyinatlı və məzmunlu, fərqli həcm və siluet həlli olan gözəl tikililər meydana gəldi. Bu, sadəcə uzun dar küçələrlə şəhər kvartallarının şəhərsalma mənzərəsində təsvir olunmuş müxtəlif üslublu, memarlıq istiqamətli və rəngarəng binalar deyil, həmçinin həcmli kütlələrin fərdi memarlıq ifadəsində vahid, dərk edilmiş təfsiridir.

Tarixi mərkəzin ümumi memarlıq-planlaşdırma quruluşundakı, demək olar ki, hər bina, fəal bədii mövqe tutur, bütövlükdə isə onlar, memarlıq fenomeni olan Bakının əhəmiyyətini göstərən bədii sima təşkil edirlər.

XIX – XX əsrlərin əvvəllərində, Rusiyada [33], özünəməxsus görünüşlü, memarlıq-planlaşdırma və həcmli-məkan cəhətli, ümumi Avropa memarlığı istiqamətində inkişaf edən şəhərlərin sayı çox idi. Bu cəhətdən Bakı istisna hal təşkil edir, burada yerli milli memarlıq və Avropa arxitektura üsulları, quruluşları, bir-birinə təsir göstərib zənginləşərək, şəhər ərazisində vahid yaradıcılıq meydanında birləşdilər. Belə bir yeni mühitdə iri miqyaslı, əhəmiyyətli memarlıq-planlaşdırma məsələləri həll olunurdu, kompozisiya quruluşuna, bədii ifadəsinə və daxili məzmununa görə həmin dövrün başqa şəhərlərinin binalarından fərqlənən tikililər yaradılırdı. Buna, binaların fasadlarının üzlüyü üçün estetik keyfiyyətlərinə görə gözəl yerli daşın - əhəngdaşının istifadə olunması və çox əsrli daş emalı ənənəsi az kömək göstərmədi.

Yerli və Avropa üsullarının və mövzularının birgə istifadəsi, Bakının özünəməxsus bədii surətini müəyyənləşdirərək, şəhər binalarının orijinallığına çox təsir edirdi.

Şəhərin surəti, bir neçə nəsil xalq memarlarının və peşəkar arxitektorların yaradıcılığı sayəsində tam yüzillik boyunca yetişirdi. Bununla belə, hər memarlar nəsli, şəhərin müəyyən inkişaf dövrü üçün səciyyəvi olan memarlıq prinsipləri əsasında binaları layihələndirir və tikirdi. Şəhər tikililərinin hər memarlıq və planlaşdırma inkişafı dövrünün xüsusiyyətləri, surətin estetik incəliyi, bütövlükdə vahid memarlıq mənzərəsini yaradır. Tarixi mərkəzin, bu və ya digər dövrün orijinallığını dinamik inkişafda göstərən memarlıq təbəqələrinin ümumi qiymətləndirilməsində bu vəziyyətin əhəmiyyəti böyükdür. Memarlıq ənənələrinin ardıcıl ötürülməsi əsl memarlıq əsərlərinin yaradılması üçün təkan idi.

Demək olar ki, bütün bina və tikililər öz dövrlərinin bədii xüsusiyyətlərini açıqlayaraq, bütün şəhər ərazisinə təsir göstərir, burada nəhəng memarlıq irsi toplanmışdır - onu qorumaq, müasir şəhərin quruluşuna daxil etmək lazımdır, onun təhrifinə və ya dağıdılmasına yol verilməməlidir. Bir çox binalara diqqətlə baxmaq vaxtı gəldi, son zamanlara qədər

laqeydliklə və qeyri-ciddiliklə yanaşılan bu tikililəri layiqincə qiymətləndirmək anı yetişdi. Ümumiyyətlə, memarlıq tarixinin təcrübəsi göstərir ki, bina və ya tikililəri tarixi abidə kimi qiymətləndirmək üçün müəyyən bir müddət (təxminən, 40-50 il) lazımdır ki, bu və ya digər tikilinin əhəmiyyəti daha yaxşı hiss edilsin və bədii irsdə onun yeri bilinsin. Bununla bağlı, hazırkı əsərdə, yalnız 1920-ci illərədək tikilən binalar şərh olunacaqdır.

XIX-XX əsrlərin əvvəllərinin müxtəlif xüsusiyyətli və təyinatlı şəhərinin zəngin memarlıq irsi bu gün artıq heç bir şübhə oyatmır. O, qorunması və bərpa edilməsi üçün sistemləşdirilməli, öyrənilməli və ümumiləşdirilməlidir. Memarlıq abidələri, demək olar ki, Bakı şəhərinin tarixi mərkəzinin bütün ərazisini tuturlar, onlar həm ayrı-ayrı rayonlar, məhəllələr və küçələrin ümumi sistemində kompleks şəklində, həm də sıravi küçələrin və ya magistrallar boyunca yerləşmişlər.

Əsasən bədii dəyərli binaların yerləşdiyi tarixi mərkəzin ümumi sərhədləri, XIX-XX əsrlərin əvvəllərinə təsadüf edən tikililəri ilə şəhər ərazisinin öyrənilməsi və təhlili əsasında bizim tərəfimizdən qəbul olunub.

Tarixi kvartalların memarlıq abidələri siyahısına daxil edilmiş tikililərin istiqamətini, üslubi və bədii cəhətlərini, o cümlədən, onların əhəmiyyətini, abadlaşdırmanın inkişafına çoxlu qüvvə sərf etmiş yerli memarların və peşəkar ustadların yaradıcılığında aşkar etməyə imkan verdi.

Tarixi kvartalların sərhədləri əsasən növbəti küçələr hüdudunda müəyyən edilib: cənubda – II Aleksandrın Sahili (Neftçilər pr.), qərbdə - Yuryevskaya (Cavid pr.), şimalda – Balaxanskaya küç. (Füzuli küç.), şərqdə - Stanislavskaya (Azadlıq pr).

Bu ərazinin hüdudlarından kənarda ayrı-ayrı bədii binalar olan küçələr tədqiq olunmuşdur ki, bu da dövrün şəhər mühitinin qorunması üçün müsbət əhəmiyyət daşıyır. Tarixi kvartalların tikililərinin təhlili 850-dən çox tikili aşkar etdi. Onların qorunması üçün tikililərin mühafizə zonasını və tənzimlənmə zonasını ayırmaq lazımdır. Bütün bu tikililəri əhəmiyyətinə görə üç qrupa ayırmaq olar: 1 – memarlıq abidələri, 2 – şəhərin bədii mühitini təyin edən tikililər, 3 – fon tikililər. Qruplardan asılı olmayaraq, tarixi mərkəzin bütün tikililəri vahid memarlıq-planlaşdırma mühit təşkil edirlər ki, bu mühitin pozulması, zəngin bədii ənənələri olan şəhərin özünəməxsus simasının həmişəlik itirilməsinə gətirib çıxaracaq.

Birinci qrup tikililərin qiymətləndirilməsində, yəni, binaların memarlıq abidələri kimi əhəmiyyətinin müəyyənləşdirilməsində, şərh edilən dövrdə şəhərin memarlığının formalaşmasında və inkişafında onun rolu, Bakının tarixi kvartallarının şəhərsalma quruluşunda yeri, bədii xüsusiyyətləri, daxili planlaşdırma, Azərbaycanın memarlıq tarixinə daxil olmuş bu və ya digər məşhur bakılı memarın yaradıcılığı nəzərə alınırdı. Bütün bu şərtlər, təbii ki, bu və ya digər obyekt olan memarlıq abidəsində eyni zamanda tam əks oluna bilməz. Bir dəfə əsas yeri tarixi obyekt olaraq bina tutacaq, başqa halda – həm sahəsinin, həm mənzillərinin daxili planlaşdırma quruluşu, üçüncü halda isə, məsələn, fasadların bədii həlli və s.

Şəhərdə bir çox binalar var ki, onların fasadları yalnız əhəngdaşının naxış və dekorativ material kimi ustalıqla istifadəsi nöqteyi-nəzərindən maraq doğurur, böyük sevgi və fantaziya ilə yonulmuş fraqmentlər isə əsl sənət əsərləridir. Bu da Azərbaycan memarlığında bir dövrdür, ona görə də binanı qiymətləndirdikdə, memarlıq abidələri olan Bakı tikililərinin bu cəhətini mütləq nəzərə almaq lazımdır. Binalar müxtəlif üslubda qurulmuşdurlar: order üslublu, qotika, İntibah dövrü, moderndən tutmuş, memarlığın yerli milli-romantik variantına qədər. Bununla belə, onların çoxu həm ayrı-ayrılıqda, həm də hissələrlə memarlıq və bədii dəyərə, yüksək emosional qüvvəyə malikdirlər və ətraf tikililərə təsir göstərirlər. Məsələn, Bakıda qotika üslubu, müasir zamanda öz timsallarından uzaqlaşaraq, XIX-XX əsrlərin ən gözəl nümunələri ilə göstərilmişdir. Onlar, öz ifadəli kompozisiyalarına, memarlıq kütlələrinin ümumi quruluşuna, daş üzərində incə hörülmüş naxışlara görə öz dövrlərinin əsl abidələri kimi şəhərin quruluşuna fəal daxil oldular.

Məsələn, modern tikililərinə bədii dəyər nöqteyi-nəzərindən baxsaq, o zaman əminliklə demək olar ki, onlar, özünəməxsusluğuna, elementlərin bədii düzülüşünə görə şəhərin memarlıq irsi üçün böyük əmanətdir ki, bu da onlara "Bakı moderni" adlandırılmağa haqq verir.

Ayrı-ayrı modern tikililər bütün tarixi məhəllələr boyunca səpələnib, lakin onlar öz ifadəli həcmli-məkan və memarlıq təfsiri, əla kompozisiya və dekorativ keyfiyyətləri ilə fərqlənirlər ki, bu da müxtəlif üslublu tikililərə malik olan şəhərin bədii siması üçün çox böyük əhəmiyyət kəsb edir. Öz göstəricilərinə görə, onlar şəhər tikililərinin fəal elementləri, tarixi irsin ayrılmaz bir parçası və memarlıq abidələridir.

Fasadlarda bütün üslublarda nəzərə çarpan şəkildə təsvir olunmuş binaların xüsusiyyətləri, şəhərin memarlıq irsində və formalaşmış ətraf tikililərdə onların əhəmiyyətini obyektiv qiymətləndirmək imkanını verir. Lakin binaların daxili məkan quruluşu, onların planlaşdırılması, birlikdə həcm həllinin mahiyyətinin təşkili görünməz qalaraq, irs obyekti kimi tam qiymətləndirilmir. Halbuki, şəhər məhəllələrinin memarlıq-planlaşdırma quruluşunda, yerli xüsusiyyətlər üslubunda və plan dəyişikliklərinin təkamülünü şəhərin abadlaşdırma dövrlərində açıqlayan maraqlı tikililər az deyil. Onlar da milli irsin hissəsidir və memarlıq abidələridir.

XIX əsrin ikinci yarısından başlayaraq, Bakıda, yaradıcılıqları Azərbaycan memarlıq tarixinə məxsus olan memarlar və mülki mühəndislər çalışmışlar: Əhmədbəyov Z.b., Axundov X.b., Baev N.Q., Borisoqlebskiy K.A., Botov M.D., Buynov D.D., Hacıbababəyov K.b, Hacınski M.Q., Qoslavski İ.V., Qrosseti F.V., İsmayılov M.M., Kandinov A.S., Lemkul F.A., Marçenko N.Y. Nikitin A.A., Nikulin F.A., Ploşko İ.K., Polyakov A., Skibinskiy Y.Y., Skureviç K.B., Simonson B.O., Tverdoxlebov N.N., Termikelov Q.M., fon der Nonne N.A., Ştern P., Şuşerov A.M., Edel İ.V., Eyxler A.V. Bu memarların tikililəri olmasaydı Bakı şəhəri, sözsüz ki, belə gözəl simaya malik ola bilməzdi, bu tikililər şəhərə bəzək verir, onlar öz dövrlərinin memarlıq abidələrinin sırasına həqiqi incəsənət əsərləri kimi daxil olmuşlar. Memarlıq abi-

dələrini şəhər sistemində həmişə fərqli üslublu, keyfiyyətli və dəyərli tikililər mühiti əhatə edir. Bu tikililər, tarixi məhəllələrin ümumi quruluşunda ikinci dərəcəli element olaraq, daha çox həm üslubi, həm planlaşdırma, həm konstruktiv cəhətdən memarlıq abidələri ilə bağlıdırlar və kompleks şəklində, XIX-XX əsrlərin əvvəllərinin dəyərli tikililərini tamamlayan və ona xüsusi məna verən bədii mühit yaradırlar. Nəhayət, memarlıq abidələri və onların bədii mühitini yaradan tikililərlə yanaşı, tarixi məhəllələrin quruluşunda öz yerini tutan, müəyyən funksiyalar daşıyan və təmiz yonulmuş daş üzlüklü, sərbəst memarlıq üsulları ilə, "aqlay" bloklarından hörülmüş, ciddi fasadları ilə, xüsusi üslub əlamətləri olmadan ilk sadalanmış iki qrupun tikililəri ilə həmahəng şəkildə uyğunlaşan və onu tamamlayan fon tikili mövcuddur.

Bütün bu qrupların tikililəri yığcam şəklində tarixi məhəllələrin ərazisində yerləşib, mərkəz və sıravi küçələrin abadlaşdırılmasında vacib bənd təşkil edir, eyni zamanda bu və ya digər memarın yaradıcılığını, həmçinin də şəhərin müəyyən inşaat dövrünü əks etdirirlər.

Bu barədə, daha səciyyəvi, Bakının özünəməxsus memarlıq ENSİKLOPEDİYASI - Nikolayevskaya küçəsinin (İstiqlal) abadlaşdırılmasıdır ki, onun formalaşmasında və inkişafında XIX-XX əsrlərin hüdudlarında şəhərin bütün görkəmli memarları iştirak etmişlər: Məşədi Mirzə Qafar İsmayılov (ev №23, 1889-cu il, № 35, 1896-cı il), mülki mühəndislər İ.V.Qoslavski (ev № 25, 27, 1893-1896-cı illər, № 4, 1900-1904, № 8, 1898-1901), D.D.Buynov (ev № 33, 1888, № 6, 1901-1904-cü illər), İ.K. Ploşko (ev № 10, 1908-1913-cü illər, № 41, 1912-ci il), Q.M. Termikelov (ev №21, 1912, №2, 1910-1912-ci illər).

Order sistemi, Venesian Qotikası, milli-romantik xarakterli müxtəlif üslublu bu tikililər şəhərin inkişafı, binaların yüksək memarlıq səviyyəsi, sənətinə sadiq olan memarları haqqında parlaq təsəvvür yaradırlar.

Tarixi məhəllələrin quruluşunda Bazarnaya və M.Qorki küçələri arasındakı tikili, şimalda onların Balaxanskaya küçəsi ilə kəsişmələrindən qabaq, əsas üslubi istiqamətdə və orderli - ordersiz sistemlərin klassik şəklində çox maraqlı memarlıq-planlaşdırma təşkilini təqdim edir. Tikili, öz binalarının miqyasına (bu, Forştadtın ən köhnə rayonudur) və fasadların bədii həllinə görə, XIX əsrin ikinci yarısının şəhər memarlığı haqqında, o dövrdə üstünlük təşkil edən üslublar haqqında düzgün məlumat verir.

Tarixi məhəllələrin bu rayonunun böyük hissəsi, daşdan yonulmuş klassik üslubda memarlıq detalları ilə bu kiçik səliqəli məhəllələri abadlaşdıran mühəndis N.A. fon der Nonnenin adı ilə sıx bağlıdır. Vorontsovskaya küçəsində İ.V.Qoslavski (ev № 19, 1897-ci il), Qafar İsmayılov (ev № 36, 1896-cı il), A.Varşamov və başqaları öz yaradıcılıq izlərini qoymuşlar. Tarixi məhəllələrin bu hissəsində, hazırkı rayonun müəyyən bədii mühitini təsvir edən tikililərin üç qrupu təqdim olunub.

Yuxarıda göstərilən tikinti üçün ayrılmış rayondan fərqli olaraq, Mixaylovskaya və Mariinskaya, şimalda isə Kolyubakinskaya küçələri arasındakı məhəllələrin abadlaşdırılmasında funksiyaların qarışıqlığı üstünlük təşkil edir.

Keçmişdə bu ərazidə pasajlar, banklar, Tağıyev teatrı, burjua sinfinin yaşayış evləri yerləşirdi. Belə məzmun artıq maraqlı həcmli-məkan və müxtəlif üslubların təfsiri ilə memarlıq həllinə səbəb olur - order sisteminin klassik forma qanunlarından tutmuş möhtəşəm "Bakı moderninə" kimi. Tarixi məhəllələrin bu sahəsi ilə, Qoslavskinin (Qorçakovskaya küç., 2, 1893-cü il, 4, 1893-1902-ci illər, 7, 1896-cı il), K.B. Skureviçin, Y.Y. Skibinskinin və N.P. Tverdoxlebovun (Tağıyev, Lalayev pasajları – Olginskaya küç., 4, 6, 1883-1896-cı illər), Kalantarovun (Mixaylovskaya küç., 11, 1884-cü il), A.S.Kandinovun (Milyutinskaya küç., 3, 1890-1892-ci illər, Milyutinskaya küç., 5, 1901-ci il, Baryatinskaya küç., 6, 1908-1910-cu illər), İ.K. Ploşkonun (Qorçakovskaya küç., 13, 1913-cü il, Polis, 11, 1912-ci il) və digər memarların yaradıcı bioqrafiyaları sıx bağlıdır.

Şəhərin bu hissəsinin abadlaşdırılması, həm ticarət-sənaye burjuaziyasının uğurlarını, həmçinin də, klassik kompozisiyaların "alovlu" modernlə yan-yana olduğu, İntibah mövzularının isə XX əsrin başlanğıcının rasionallığı ilə uyuşduğu kimi memarlıq hadisələrini daha aydın əks etdirir. Hər binanın özünəməxsus memarlıq kompozisiyası və üslubi xüsusiyyətləri ilə, dövrün dəyərli irsi olan tarixi məhəllələrin ümumi ahəngində fəal iştirak etməsi bu sahə üçün səciyyəvidir.

Tarixi mərkəzin ərazisində memarlıq abidələrinin əsas həcmini öz quruluşunda, Nikolayevskaya küçəsinin tikilisi, Bazarnaya və M.Qorki küçələri arasındakı köhnə məhəllələr, həmçinin keçmiş burjuaziya məhəllələrinin sahəsini saxlayırlar. Mərkəzin digər hissələrində memarlıq abidələri ayrı-ayrı qruplar şəklində müxtəlif küçələrdə cəmləşdirilib. Məsələn, maraqlı abidələr toplusu, Birjevaya küçəsi, 1-9-da təqdim olunub: o, eyni həcmlidir və onun bir üslubi order sistemi vardır, lakin fasadların görünüşü özünəməxsusdur. Bu cür bina topluları tarixi məhəllələr quruluşunda həm memarlıq, həm estetik cəhətdən çox dəyərlidir. Bu tikili arasında həmçinin Telefonnaya (B. Morskaya və Stanislavskiy küçələri arasında) küçəsi öz möhtəşəm yaşayış evləri, fasadların yüksək səviyyəli memarlığı və "aqlay" daş bloklarından ustalıqla yerinə yetirilmiş bədii detallarla seçilir. Memar İ.V.Edelin klassik formada olan yaşayış evləri, mülki mühəndis İ.K.Ploşkonun modern üslublu yaşayış evləri, A.V.Eyxlerin alman kilsəsi qotikası şəhərin bu hissəsində müvafiq memarlıq mühiti yaradır.

Tarixi mərkəzin bütün küçələrində, bədii mühit və ətraf mühitin tikilisi ilə əhatəyə alınmış memarlıq abidələri var. Onların qorunması və bərpası, estetika və təəssür cəhətdən XIX-XX əsrlərin başlanğıcının Bakısı kimi ecazkar memarlıq möcüzəsini gələcək nəsillərə çatdırmağa zəmin yaradacaq.

# XIX – XX ƏSRLƏRİN ƏVVƏLLƏRİNDƏ BAKININ ŞƏHƏRSALMASI

1806-cı ildə Bakı Rusiya imperiyasının tərkibinə daxil oldu və bu zamandan şəhərin ərazisinin orta əsrli qala divarları hüdudundan kənara genişlənməsi və inkişafı tarixində yeni dövr başlandı [34].

Özünün coğrafi cəhətdən yerləşməsinə görə (şəhər Xəzər dənizinin qərb sahilində yerləşir) orta əsrlər Bakısı, həm əla buxtalı dəniz limanı kimi, həm də Rusiyadan İrana ticarət yolları keçən şərqi Zaqafqaziyadakı strateji məntəqə kimi çox əlverişli mövqe tuturdu. Rusiyanın İranla XVIII əsrin sonunda və XIX əsrin əvvəlində aparılan müharibələri çar hökumətindən Bakı qalasının möhkəmləndirilməsini tələb edirdi. Bakının müdafiə qabiliyyətini gücləndirmək üçün fərqli vaxtlarda şəhərin möhkəmləndirilməsi layihəsinin iki variantı hazırlanmışdır.

1796-cı ildə tərtib olunmuş birinci variant, "Bakı şəhərinin sahəsinin planı və ona yığınların mühafizəsi üçün layihələndirilən istehkamın təyinatı". adlanırdı. Layihədə İçərişəhər qalasının cənub-qərb istiqamətdə, ən azı, iki dəfə, təxminən köhnə "İnturist" mehmanxanası yerləşən əraziyə qədər genişlənməsi nəzərdə tutulmuşdur. Layihələndirilən istehkamlar dəniz sahilində qaladan başlanırdı. Qaldırılmış nişanların xətti ilə keçərkən, divarlar yerin səthini təqib edib keçmiş şəhər Dumasının yanındakı İçərişəhər istehkamına sıx birləşirdilər. 1798-ci ilin əvvəlində I Pavelin əmri ilə rus qoşunları Azərbaycanı tərk etdilər və Bakı qalasının genişlənməsi baş tutmadı.

1807-ci ildə mühəndis, mayor Xristian 2-ci Truzson yeni bir plan hazırladı: "Şəhərin yanında, şimal tərəfində ondan 200 sajin məsafədə, şəkildə təqdim olunan yeni qalanın qurulması haqqında layihəni təqdim etməklə Bakı şəhərinin sahəsinin və onun ətrafının planı".

Bu layihə üzrə, şəhərin kənarında, dəniz sahilində, geniş, düz və açıqlıqda qala tikmək nəzərdə tutulmuşdu. Buradan ətraf və Bakı şəhəri yaxşı görünürdü. Sahəsinə görə yeni qala, 1790-cı ildə layihələndirilən qaladan kiçik idi və təxminən dörddə bir hissəsini təşkil edirdi.

Dörd istehkamlı qalanın ulduz şəkilli planın şəkli üzrə həlli və sahədə yerləşməsinə görə dəqiqliyi, ətraflı düşünülməsi və öyrənilməsi ilə birinci variantdan üstün idi. Çox güman ki, 2-ci Truzson başqa məqsədlər güdürdü: o, hərbi-dəniz limanının yaranması haqqında düşünmürdü və o zamanın istehkam sənətinin bütün qaydalarına cavab verən qalanın tikilməsini nəzərdə tuturdu. Ola bilsin ki, o vaxtlar Sankt-Peterburqda yaxşı tanınmış Petropavlovsk qalasının istehkam quruluşu qalanın kompozisiya üslubuna təsir göstərmişdir.

Köhnə qala ilə heç bir bağlılığı olmayan təzə qalanın tikilməsi, ehtimal ki, sonradan, Forştadtının boş ərazisində inkişafı zamanı, başqa planlaşdırma qə-



*Bakı qalasının planı. Mühəndis X. 2-ci Truzson. 1796-cı il.*




*Nəzərdə tutulmuş yeni qalanın planı. Mühəndis 2-ci X.Truzson. 1807-ci il.*

rarına səbəb olardı. Bununla belə, köhnə qaladan kənar, yeni şəhərin təməlində tamamilə başqa planlaşdırma həlli əsas olardı.

Çox güman ki, yeni şəhərin planlaşdırmasında radial, ümumi mərkəzli, prospektlərlə birlikdə cizgi ola bilərdi ki, yerin səthi və ərazi bunun üçün əlverişli idi. Məhz belə planlaşdırma sxemi Rusiyanın yeni kənar şəhərlərinin inşaatında geniş tətbiq olunurdu, bunu, XIX əsrin ikinci yarısında Orta Asiya şəhərlərinin hərbi mühəndislər tərəfindən hazırlanmış bir çox planlar təsdiq edir [188].

Qalanın iri şəhərsalma elementi kimi yeni özəyinin yaranması, qala-şəhəri olan tarixi cəhətdən formalaşmış Bakını və yerin relyefini nəzərə almayan planlaşdırma ideyaların inkişafına səbəb olardı. Beləliklə, nəticədə şəhərin inkişafı, əvvəlcədən qəbul olunmuş, gələcək şəhərə özünəməxsusluq verə biləcək ətraf mühit elementləri ilə uyğunlaşdırılmamış planlaşdırma sxemi ilə şərtləndirilir. Əgər tikinti bu istiqamətdə getsəydi (görkəmli memarlıq abidələri olan köhnə qalanı nəzərə almamaq şərti ilə), o zaman yeni qalanın və şəhərin kiçik, lakin öz planlaşdırma quruluşuna görə nəfis ərazisi Bakının tarixi inkişafından kənarda qalardı. Bu, Orta Asiyanın bir çox şəhərlərində köhnə və yeni, düzbucaqlı, bir-biri ilə bağlı olmayan sahələrin dəqiq bölünməsi kimi nəticələrə gətirib çıxara bilərdi.

Yeni qalanın qorunması ilə inzibati və ticarət mərkəzinin yaranması, köhnə Bakının əhalisinin ticarət işini kəskin surətdə endirərdi. Tarixən formalaşmış, iri karvansaraları, bazarları və uzunluğu 600 m qədər sıralanmış (Şamaxı qapılarından Salyan qapılarınadək) ticarət cərgələri olan ictimai mərkəz öz əhəmiyyətini itirə bilərdi; qalada yeni yaşayış evlərinin və binaların inşaatı tədricən dayandırılardı. Nəticədə, köhnə qalanın ərazisi öz tarixi planlaşdırma və memarlıq abidələri ilə birlikdə tənəzzül edə bilərdi, vaxt ötdükdən sonra isə hətta tərk edilə bilərdi. Bununla belə, onun ərazisində milli memarlığın Qız Qalası (V-VII əsrlər), Şirvanşahlar Sarayı Kompleksi (XV-XVI əsrlər), Cümə məscidi (XIV-XIX əsrlər) və s. kimi görkəmli abidələri yerləşirdi. Öz memarlıq orijinallığından xeyli itkilər çəkən şəhər kimi Gəncənin adını çəkmək olar: Gəncə qalasının ləğvindən sonra onun istehkamları dağıdılmışdır.

Rusiya üçün əlverişli olan Zaqafqaziyadakı hərbi hadisələr Xəzərin sahilində bahalı qala inşaatından imtina etməyə gətirib çıxartdı və bu da Bakı üçün faydalı oldu. Rusiyaya birləşdirilmədən sonra, Bakı qalasının uzun müddət hərbi və inzibati məna daşıması, qalanın inkişafını və onun yanında Forştadtın yaranmasını təyin etdi.

Şəhərin inkişafı tarixi özəyə tabelik şəraitində baş verirdi ki, bu da Bakının kapitalizm dövründəki memarlığının inkişaf tarixində böyük rol oynamışdır.

Lakin 1807-ci ildə qalanın tərtib edilmiş layihəsi yerinə yetirilməsə də, Bakı qalasının zonasında istehkamın yaradılması ideyası, görünür, hərbi qüvvələri narahat edirdi: aşkar olunmuş qrafik sənədlərdən görünür ki, 22 yanvar 1833-cü ildə Bakıda "Daxilində nəzərdə tutulmuş küçələrin və istehkamın tikilməsi üçün yerin göstərilməsi ilə Bakı qalasının əsas Planı" sxematik plan hazırlanmışdır. Bu layihə



*Bakı qalasının təkrar planlaşdırma layihəsi. Plan. 1835-ci il.*

6 oktyabr 1835-ci ildə yenidən işlənmiş "Bakı qalasının planı, orada istehkam və Qalanın qurulması nəzərdə tutulmaqla və Qalanın arxasında Forştadtının genişləndirilməsi" planı ilə əvəz edilmiş və Qafqazın rəhbərliyinə təsdiqlənməsi üçün təqdim olunmalı idi. Bu plan üzrə, Bakı qalasının ərazisi tarixən formalaşmış planlaşdırma və tikililərlə birlikdə əsaslı rekonstruksiyaya uğrayırdı: şəhərin orta əsrlərdən qalmış şəhərsalma mənzərəsi bütövlükdə, keçmiş əsrlərin abidələri ilə birlikdə, dəyişdirilən Şirvanşahlar Sarayı Kompleksindən başqa məhv olunurdu.

Bakı qalasının yenidən qurulması üzrə fərqli vaxtlarda irəli sürülmüş üç layihə təklifindən axırıncısı qalanın taleyinə qarşı ən amansızı oldu ki, onun qədim planlaşdırmasını və tikililərini ləğv etdi.

1835-ci ilin layihəsinin reallaşdırılması üçün ilk öncə qalanın bir neçə mindən ibarət olan bütün sakinlərini köçürtmək, güzəştli şərtlərlə onlara Forştadtının zonasında tikili üçün sahələr vermək və bu məqsədlər üçün xeyli vəsaitlər almaq lazım idi. Rəhbərlik layihəni qəbul etmədi, çünki iqtisadi fikirlərdən başqa, onu da nəzərə almaq məcburiyyətində idi ki, qalanın yer-

li əhalisi miras mülklərini könüllü şəkildə buraxıb getməyəcək, məcburi köçürülmə isə arzuedilməz hadisələr törədə bilər.

O zamanlar qala, istehkam sistemi ilə möhkəmləndirilmiş ikiqat divar sırası ilə məhdudlaşdırılmışdı, bu da ərazi genişlənməsinin qarşısını alırdı. Lakin qalanın hüdudları kənarında da əhalinin çoxdan yerləşdirilmiş şəhərətrafı - peşə və ticarət həyatı ilə sıx bağlı olan rabad var idi. Qədim qalanın formalaşmış planlaşdırma strukturu, əslində, əhalinin ən kasıb təbəqələrinin yaşayış yeri olan rabadla tamamlanırdı. Hasarlanmamış və tez-tez hücumlara məruz qalan, dağıdılan rabadı, fərqli sıxlıqlı tikililərə malik idi, onlar hərdən ayrı-ayrı qəsəbə, kəndlər şəklində olurdular.

Rabadın ərazisində həmçinin iri həcmdə mülki və dini xarakterli qurğular tikilirdilər. Müxtəlif vaxtlarda burada, Bakı xanlarının saray kompleksindən başqa, karvansaralar, məscidlər, hamamlar və digər tikililər, o cümlədən böyük yaşıl massiv – şəhərkənarı "Xan bağı" yarandı. Bakı xanlarının qalası, məscidlər və karvansaralar ümumi yaşayış tikililəri sırasında üstünlük təşkil edirdilər. Bu nəticəyə gəlmək olar ki, qala ilə rabad, xüsusilə də XVIII əsrin ikinci yarısından başlayaraq, birlikdə vahid, təbii inkişaf edən şəhər vəhdəti təşkil edirdilər. Müəyyən ticarət və ictimai mərkəzi olmayan rabad tabelik vəziyyətində idi. Burdan da o, Şamaxı qapıları ilə bağlı olduğu qalaya meylli idi.

*Bakı qalasının yanında Bayır-Şəhərin layihəsi. Baş plan.1822.*



15-16 hektar sahəsi olan rabadın tikilisi, çoxsaylı karvansaraların düzüldüyü Şamaxı yolu boyunca qaladan şimal tərəfdəki ərazini tuturdu. Bulaqların bol suyu rabadla qalanı təmin edirdi.

Feodal Bakı öz hüdudlarını qala qapılarından kənara genişləndirirdi – burada, sahəsinə görə (21,5 hektar) qaladan geri qalmayan yeni yaşayış rayonu əmələ gəldi. Qalanın ətrafında və rabadın sərhədində Abşeronun qiymətli nemətləri olan zəfəran bağları yerləşirdi. Sonralar bu bağlar şəhər tikililəri ilə sıxışdırılıb çıxarılmışdır.

1806-cı ildən sonra rabadın viran edilmiş və tərk edilmiş tikilisi tədricən yaşayış səviyyəsi almağa başladı. Lakin 1826-cı ilin müharibəsi zamanı rabad o dərəcədə dağıdılmışdı ki, heç axıra kimi düzələ bilməmişdi; qalanın ətrafında geniş esplanada və düzbucaqlı nizamlı planlaşdırması olan forştadt yaradıldı.

Bakı Rusiya imperiyasının tərkibinə daxil olan kimi hərbi hökumət orqanları, İranla müharibə ehtimalına qarşı qalanın möhkəmləndirilməsi ilə məşğul oldular. 1807-ci ildən 1811-ci ilədək ikiqat divarların bərpası üzrə əsaslı iş yerinə yetirilirdi. Bu divarlar, Şamaxı və Salyan qapılarında istehkamlarla və çöl istehkamlarla əlavə möhkəmləndirildi. İstehkamların tam xətti boyunca dərin quru xəndək qazılmış, daşla döşənilmiş və torpaq bəndlə örtülmüşdür. Eyni zamanda, şəhərin hərbi müdiriyyəti, imperator xəzinəsinin gəlirlərini çoxaltmaq məqsədi ilə, Bakının vəziyyətini ticarət limanı kimi istifadə etmək qərarına gəldi və bununla bağlı 1809-cu ilin avqustun 6-da gömrükxana açıldı. Rüsumun daxil edilməsi İran tacirlərinin narazılığına səbəb oldu və onlar ticarət keçidindən yan ötüb malları qaçaqmalçılıq yolu ilə keçirməyə başladılar. Bunun birbaşa nəticəsi ticarətin zəifləməsində və xəzinənin gəlirinin azalmasında özünü göstərdi.

Bununla belə, müxtəlif sahələr üçün (Bayılın sərhədində, qalanın ərazisində) gömrükxana binalarının layihələrinin hazırlanması ilə həm 1829-cu ildə, həm də 1830-cu ildə məşğul olunurdu.

Forştadtın qalanın yaxınlığındakı mövqeyi, hazırkı münasib yerləri daha yaxşı istifadə etməyə can atan yerli hakimiyyətin diqqətini cəlb etməyə bilməzdi. Rabadın ərazisini, vahid və nizamlı planlaşdırması və Avropa modelli kvartalları olan yeni forştadta kimi təşkil etmək məqsədi ilə, 1809-cu ildə qalanın əsas planı tərtib edildi.

Qala və forştadtın planlaşdırılması sxemi hazırlanarkən, təkcə məskənin quruluşu deyil, həmçinin də strateji səciyyəli qurğuların inşaatı nəzərə alınmışdır [18]. Bakı qalasının effektli müdafiəsi üçün, hücum ehtimalı nəzərə alınarkən, qala ilə forştadtın arasında tikilidən eni təxminən 350 m olan boş esplanada saxlanılmışdır. Yeni rayonun planlaşdırılmasının sərhədlərinə rabadın, hələ də funksional məzmunu qalan və hərbi hakimiyyətin strateji məqsədlərinə zidd olmayan şəhərsalma elementləri daxil oldu. Əsas odur ki, Şamaxı yolunun əhəmiyyəti, lazımi dərəcədə qiymətləndirilmişdir və forştadtın düzbucaqlı planlaşdırma sistemi onunla əlaqələndirilmişdir.

Bundan başqa, bu rayonda içməli su mənbələri, həmçinin çoxdan fəaliyyətdə olan, yaxşı hazırlanmış su təchizatı sistemi nəzərə alınmışdır.

Yerin rahat səthi kütləvi sıralama tikililər üçün əlverişli idi.

Forştadtın planlaşdırılması sxemində, tarixi-təbii amillər əsasında, inkişaf edən şəhərin qədim və yeni hissələrini birləşdirmiş, nizamlı kvartallar sistemi tətbiq olunmuşdur.

Bu, məhəllələrin üz tərəflərinin qala divarları tərəfə açılması və onların istehkam qurğularının (qüllələrlə, istehkamlarla) elementləri ilə birləşdirilməsində görünürdü.

Qalanın ətrafında şəhər ərazisinin genişləndirilməsi zamanı, qalanın Forştadtla əlaqəsi fikri nəzərə alınmışdır.

Bu prinsip gələcəkdə, planlaşdırmasına görə özünəməxsus, arxitekturasına görə koloritli və bədii simasına görə tam, geniş magistralın – Nikolayevskaya küçəsinin (İstiqlal) yaradılmasına kömək edirdi.

Həndəsi düz məhəllələrə parçalanan forştadt hələ yeni planlaşdırmanın üstünlüklərini əks etdirmirdi. Məhəllələrin tikilməsi dərəcəsi minimal idi.

Bu, İranla hərbi toqquşmaların forştadtda həcmli inşaata imkan verməməsi ilə izah olunurdu. Bakı qalasının döyüş hazırlığı həmişə birinci dərəcəli məsələ idi, 1828-ci ilin Türkmənçay müqaviləsi üzrə Şimali Azərbaycanın Rusiyaya birdəfəlik birləşməsinə qədər. Məhz buna görə forştadtın tikilməsi məsələləri təsadüfən yaranırdı.

1810-cu ilin sxematik planı xırdalıqları ilə həll olunmamışdır, amma yenə də forştadtın inkişafı tarixində əhəmiyyətli mərhələ kimi qeyd olunmuşdur və intizama salan şəhərsalma (lakin şəhərin inkişafı perspektivi nisbətində incəlikdən kəm olan) sənədi oldu. Şəhərin ərazisinin sürətli genişlənməsi zamanı yeni tikili, mövcud olan küçələrin davamında yerləşirdi. XIX əsrin sonunadək Bakının perspektiv Baş planı yox idi ki, bu da inqilabdan qabaqkı dövrün şəhərsalması üçün səciyyəvidir.

Tədricən, forştadtın məhəllələrinin bir hissəsi, əsasən əhalinin ən kasıb təbəqələrinin sayəsində, məskunlaşdırıldı. Fransız səyahətçisi Qambanın şahidliyinə görə, 1820-ci ildə bütün forştadt yeni gildən qurulmuş tikililərdən ibarət idi.

1822-ci ildə tərtib olunmuş "Bakı qalasının, ona yaxın olan vəziyyətin və mövcud dövlət və sakinlərin həm qalada, həm də ondan kənarda olan tikililərini göstərməklə əsas planı" həmin bu vaxta aiddir.

1822-ci ilin planı, forştadtın formalaşmasının bir sıra məqamlarını göstərir və onun əsl vəziyyətini xarakterizə edir. Bu planda 1810-cu ilin əsas planının bütün planlaşdırma xüsusiyyətləri saxlanılmışdır, lakin, geniş eksplanadaya riayət edilməsi və yeni kvartalların istiqamətinin qala divarlarının konturuna və istehkamlara bağlılığın hesabında, kvartalların qaladan uzaqda qövsşəkilli yerləşməsi sxemi davam etdirilmişdir.

Maraqlıdır ki, 1822-ci ilin əsas planında forştadtın mövcud tikilisi qeyd olunub, eyni zamanda, yeni kvartalların qırmızı xətlərinə nə dərəcədə riayət olunduğu göstərilib və qeyd olunub ki, forştadtın təzə hissəsində kvartalların tikililərinin sıxlığı cüzidir. Tikili hələ də xaotik səciyyə daşıyırdı, ona görə də, kvartalların layihə xətlərinə və küçələrin istiqamətinə riayət edilməyib. Ehtimal ki, tikilinin bir hissəsi hələ rabaddan qabaq qalmışdır və təbii ki, təzə kvartalların sərhədi içinə daxil oldu; 1806-cı ildən qabaq tikilmə tarixi olan, indiyədək qalan bir sıra evlər buna sübutdur [8].

Belə ardıcıllığa iqtisadi cəhətdən haqq qazandırılmışdır, lakin ona az

riayət edilirdi, çünki şəhərin, o zamanlar xeyli uzaqlaşdırılmış təzə rayonuna, nə hərbi komendant, nə Bakı qalasının və forştadtın rəhbəri tərəfindən nəzarət edilmirdi. 1810-cu və 1822-ci illərin planları, yeni nizamlı tikili rayonunun yaranmasını qeyd etsələr də, onun planlaşdırmasının parçalanmış xüsusiyyətini əks etdirmişlər. Nizamlılığına görə, Bakının yeni rayonları, XIX əsrin ilk üçdə birinci hissəsinin Rusiya şəhərlərinə xas olan planlaşdırmanı xatırladırdı [25].

Forştadtın planları tərtib ediləndə, o zamanın rus şəhərsalma sənətinin qədim qalaların və yaşayış məntəqələrinin yanında Avropa üslublu şəhərlərin salınması Baş planların tərtibi ilə müşayiət olunmalı əsas prinsiplər nəzərə alınmamışdır [7]. Baş planlar, yerli tarixi və topoqrafik şəraiti, ərazi ayrılmasını, ictimai və ticarət mərkəzlərinin yerləşdikləri məkanları, ictimai istifadə üçün yaşıl əkmələri (bağları, bağçaları, parkları) və bu hissələr arasına qarşılıqlı əlaqə qurulma nəzərə alınaraq hazırlanırlar.

XIX əsrin birinci üçdə bir hissəsində Rusiyanın bir çox, bunun əsasında geniş şəhər inşaatı aparılan, yeni şəhərləri belə planlarla təmin edilmişdilər.

Bakı üçün perspektiv şəhərsalma sxemləri və planları 1898-ci ilə qədər hazırlanmamışdır, və yalnız 1898-ci ildə, "fondernonovskiy" adlandırılan natamam və planlaşdırma cəhətdən zəif plan meydana gəldi.

Buna baxmayaraq, plan, şəhərin sonrakı inkişafında qiymətli şəhərsalma sənədi oldu [32]. Belə vəziyyət, Bakının forştadtının inkişafının ilk mərhələsində, şəhərin planlaşdırmasında və tikilməsində ümumilikdə özünü göstərdi. Əslində Bakının ərazi genişlənməsi, şəhər memarplanlayıcısının iştirakı olmadan, özbaşına, nizamlı məhəllələrin düzbucaqlı şəbəkəsi çərçivəsində davam etdirilirdi.

Əslində, Bakının 1822-ci ilinin Baş planı adlandırılan plan əlavə düzbucaqlı məhəllələrin yaranmasına yol verirdi. Bu planın hazırlanması zamanı, forştadt, şəhər rayonunun ilk inkişaf mərhələsini keçirdi ki, sonradan o, gözəl şəkildə ucaldılmış və memarlıq nöqteyi-nəzərindən dəyərli olan tikililəri ilə, şəhərin ən mühüm rayonu olacaqdır. Hələlik isə, gömrükxana, komendant evi, zabitlər və əsgər kazarmaları, ticarət və sənət cərgələri, karvansaralar, siluetləri Bakının yeknəsəq feodal tikililərinə ifadəlik və özünə xas xüsusiyyət bəxş edən şəhər və kvartalların minarəli məscidləri olan qala, şəhər həyatının qaynar nöqtəsi olaraq qalırdı.

Bakının keçmiş hakimi Hüseynqulu xanın qoşunları forştadt və ətraf kəndləri viran edib, 1826-cı ildə qalanı iki aylıq mühasirəyə aldıqdan sonra onun daxili həyatının gərginliyi daha da artdı. Viran qalmış yerlərdən gələn sakinlər qalanın divarları içində qorunurdular, beləliklə, bura yığılmış camaatın sayı çoxalırdı. Forştadtın düşmən hücumu üçün açıq və müdafiə qurğuları ilə örtülməyən ərazisi, o vaxtlar məskunlaşmaq üçün təhlükəli bir zona sayılırdı. Hüseynqulu xan tərəfindən Forştadtının talan edilməsindən qorxan sakinlər (sonralar da) hesab edirdilər ki, qülləli, istehkamlı, həmçinin dərin xəndəklə və torpaq səngərlə əhatə olunmuş, hündür, möhkəm qala divarlarının qoruması altında yaşamaq daha güvənli idi. Zaqafqaziyanın bu zonasında, həm coğrafi mövqeyinə görə, həmçinin də istehkam imkanlarına

görə Bakı qalası, ən əlverişli və möhkəm qala sayılırdı. Divarları xətti boyunca mis və çuqun toplarla gücləndirilən qala, demək olar ki, əlçatmaz idi. Bundan əlavə, onun divarları altında Xəzərin narahat dalğaları durmadan çırpınırdı. Dünya ilə qalanı iki qapı birləşdirirdi – əskərlərin sayıq nəzarəti altında olan Şamaxı qapısı və Salyan qapısı. Bu cür müdafiə sistemində xaricdən qəfildən hücum halları istisna edilirdi: "Dan yeri sökülən andan, qapıların yanındakı taxta körpülər qaldırılırdılar, qapılar bağlanırdı və şəhər yuxuya qərq olurdu" [8].

Türkmənçay müqaviləsi imzalandıqdan sonra yeni sosial-iqtisadi və siyasi şəraitdə sülh inşaatı başlandı: Azərbaycan kapitalizm dövrünə ayaq basdı. Bu, şəhərlərin inkişafına təkan oldu, bununla belə, onların abadlaşdırılmasında, başqa çalarlı memarlıq-bədii növlərdən istifadə olunurdu.

İnzibati və ticarət mərkəzi kimi Bakı qalası forştadtın genişlənməsinə manea ola bilməzdi. Məhəllələrin düzbucaqlı şəbəkəsi, inkişaf edən şəhər rayonunun geniş, işıqlı təmiz havası olan küçələri forştadtın artmasının perspektivliyini təsdiq edirdi.

Bakı Xəzər dənizində olan ən gözəl limandır. Rusiya ilə ticarət edən fars şəhərlərinə yollar bu limandan başlamışdır. Xəzər dənizində əsas ticarət məntəqəsi olaraq, kənar zonalarda duz və neftlə zəngin olan Bakı, Quba, Şirvan və Muğandan gəlmə əhali üçün cəzbedici bir mərkəzə döndü. Təbii ki, əhalinin artması Forştadtının genişlənməsi sayəsində şəhər ərazisinin böyüməsinə gətirib çıxarırdı: "1807-ci ildə Bakı qalasında 500 ev hesablanmışdır, 1832-ci ildə isə, kameral hesabdarlığa əsasən, Forştadtın və qalada 1358 ev hesablanmışdır" [20]. Bu məlumatlar, forştadtın tikililərinin sıxlığını təsəvvür etməyə imkan verirlər, sahəsinə görə o, qalanın ərazisini ötüb keçmişdi və şərq istiqamətində artmağa meylli idi.

Forştadtın inkişafını müşahidə edərək və onun köçkünlər üçün cəzbedici qüvvəsini nəzərə alaraq, qəza şəhərinin rəhbərliyi, bu ərazinin tənzimlənməsinin zəruriliyi və sakinlərin bir hissəsini forştadta köçürməklə qalanın sıxlığının müəyyən qədər azaldılması barədə fikrə gəldi. Köçürülmə təklifi bəzi sakinlər tərəfindən həvəslə qarşılandı, çünki tikililər üçün torpaq sahələri, demək olar ki, pulsuz təqdim olunurdu: "şəhər gəlirlərinin xeyrinə yalnız cüzi faizlərin ödənilməsi ilə".

Əlavə məhəllələrin qurama planları üzrə forştadtın genişlənməsi, minimal planlaşdırma tələblərini təmin etmirdi və onun düzgün inkişafını ləngidirdi, halbuki tikdirmək istəyənlərin sayı çox idi. Deməli, Bakı "planın təsdiqi ilə, öz yarımxarabalığından daha gözəl görkəmdə yaranardı və liman şəhərinin daha layiqli adı görünərdi".

1843-cü ildə, Bakının növbəti Baş planının hazırlanması müddətinə, 1832-ci ilin tikililəri ilə müqayisədə forştadt xeyli böyümüşdür və küçələr istisna olmaqla, sahəsi 46 hektara qədər hesablanmışdı. Şəhərin sürətli inkişafı, qalanın müdafiə əhəmiyyətini itirdiyi və ticarət fəaliyyətini cəzb edən mərkəzin tədricən forştadtın geniş və açıq məhəllələrinə keçirilməsi dövrü ilə üst-üstə düşdü. Bunu, 1842-ci ildə Bakıda olmuş məşhur səyahətçi İvan Nikolayeviç Berezin qeyd etmişdir. O yazırdı ki, burada, forştadtda, "şəhərdəkindən daha çox açıqlıq var, küçələr genişdir, evlər dağıdılmış yer-

lərdə deyil, bəzi evlər bağlarla bəzədilmişdir"[5].

Qalanın müdafiə əhəmiyyətinin zəifləməsi, ictimai qəbildən olan hallarla da təsdiqlənirdi – qala divarları arasında, cənub-qərb hissəsinin boş meydanı, bağa çevrilmişdir (əvvəlki yaşıllaşdırmalar əsasında). Şəhər başçısı yazırdı: "Hələ Bakı qəza şəhəri olan və bütün şəhər əhalisi yalnız qala daxilində cəmləşən vaxtlar, iki qala divarları arası hərbi idarə tərəfindən qorunurdu və orada, şəhərin o vaxtkı kiçik əhalisi üçün gəzinti yeri olan ağaclı, kollu böyük bir xiyaban var idi".

Esplanadanın hüdudunda, bir neçə məhəllə şəklində tikililərin yaranmasını, həmçinin, şəhər inşaatının artan tələbləri və forştadtın formalaşması simptomu kimi izah etmək olar. 1845-ci ilin planında, şəhərsalma elementlərinin, yəni sonradan şəhər planlaşdırmasının təməlini təşkil edəcək əsas qovşaqların yaranması qeyd olunmuşdur. Bu artıq, forştadtın baş magistralının - cənubda Şamaxı qapıları ilə düz yolla bağlı olan, şimalda isə Şamaxı yolunun keçdiyi meydanla qurtaran Bazar küçəsinin dəqiq istiqamətidir. Beləliklə, artıq 1840-cı illərdə yol magistrala çevrildi, Abşeron yollarının onunla birləşdiyi qovşaq isə, sonradan Poçtovaya adlandırılan meydanla möhkəmləndirildi.

Forştadtın təkmilləşdirilməmiş planlaşdırması şəhərin inkişafı üçün, əhəmiyyətli şəhərsalma mənası daşıyırdısa, həcmli-məkan quruluşu hələ yaranma dərəcəsində idi və bir-ikimərtəbəli yaşayış tikililəri ilə, həmçinin, karvansaralarla, hamamlarla, ticarət cərgələri və anbarlarla təqdim olunmuşdur. Həmin zonada, hökumətin etirafına görə, hazırkı mərhələdə forştadtın genişlənməsi üçün maneə olan dövlət və hərbi qurulmalar yerləşdirilmişdir. Bu, əsasən, şəhərin şərq kənarında karantin (Qoqol və Kamenistaya küçələrinin rayonu), qərbdə isə - əsgər kazarmalarıdır.

Forştadta bəzi dövlət binaları xanların tikililərinin yerində qurulurdu. Bir sıra hallarda köhnə tikililər yeni təyinat üzrə istifadə olunurdular. Şamaxı yolu ilə Poçtovaya meydanının birləşdiyi yerdə yerləşən Kazak postu, poçt stansiyasının binası, onun yaxınlığında Spasskaya küçəsi, 30-da donanma ekipajı ilə və ya, o zamanlar deyilən kimi, donanma həyəti ilə tutulmuş ikimərtəbəli karvansara forştadtın qədim tikililərindən idi və şəhər həyatının xan dövrünə aid idi.

Qalanın dar və ensiz küçələrindən (bundan əlavə, qarnizonun nəzarəti altında olan şərait) daha çox forştadtın sərbəst məhəllələrinə, geniş küçələrinə və nəzarətsiz, azad yaşayış şəraitinə üstünlük verən tacirlərin, əsnafların, xırda dükançıların və başqalarının axını sayəsində əhalinin fasiləsiz artması şəhərin məskunlaşdırılan ərazisinin genişlənməsinə kömək edirdi. Rusiya torpaqlarına birləşdirilən vaxtdan (1806-cı il) Birinci Dünya müharibəsinin başlanğıcına qədər (1914-cü il) Bakının sürətli inkişafı, şəhər ərazisinin abadlaşdırılmasına aid dörd mərhələdən keçdi: 1843-cü ilə qədər, 1843-1878, 1878-1900, 1900-1914-cü illər [29].

1843-cü ili şəhər inkişafının yeni mərhələsinin başlanğıcı kimi hesab etmək olarsa, Bakının quberniya mərkəzinə çevrilməsindən öncəki dövr (1859-cu il), işlənməmiş Baş planın olmadığı şəraitdə, dönüşün dəlaləti idi.

40-cı illərlə müqayisədə, XIX əsrin 50-ci illərinin əvvəlində Bakının yeni rayo-



*Bakı qalası ilə forştadtın baş planı. 1854-cü il.*

nunda şəhərsalmada irəliləyişlər nəzərə çarpmağa başladı. Strateji və müdafiə obyekti kimi qala öz əhəmiyyətini itirdi, lakin o, inzibati mərkəz olaraq qalırdı, çünki burada təkcə dövlət binaları və dükanları deyil, həmçinin müxtəlif idarələrin məmurlarının və varlı vətəndaşların ən yaxşı evləri yerləşirdi. Forştadtın "müntəzəm şəkildə küçə və məhəllələrə bölünmüşdür, hərçənd, bir çox yerlər hələ abadlaşdırılmamışdır" [30], qala da öz hüdudlarından yavaş-yavaş çıxmağa başladı.

Qalanın önündəki sərbəst sahil zolağı (eni 10 m-dən çox olan), "gəmilərlə poçt paroxodları üçün gətirilən taxta-şalbanın və daş kömür anbarı, eyni zamanda qayıqların və "bakinka" adlandırılan orta ölçülü dəniz gəmilərinin qurulması üçün verf kimi" [164] işlədilirdi. Gömrük idarəsinin qarşısında, yüklənmə və boşaldılma üzrə əməliyyatlar keçirilən ticarət körpüsü yaradıldı, qalanın xarici divarının cənub küncündə isə daha iri Salyan körpüsü quruldu. Beləliklə, əvvəllər heç istifadə olunmayan, körpülü və saraylı sahil zolağı, şəhər təyinatlı ticarət-anbar ərazisi kimi istifadə edilməyə başladı. Bakı, iri sənaye mərkəzinə çevrildikdən sonra, körpülər sahilin nəinki bu hissəsini tutdular, hətta, şəhər əhalisinin dənizə çıxışını kəsib, şərqə doğru davam etdilər. 1850-ci illərdə sahil boyu şərqə tərəf hələ "çoxlu ov quşlarının olduğu və ovçuları özünə cəlb edən, qamışla dolu bataqlıqlar uzanırdı" [40].

Bilavasitə qalaya birləşən zonanın ərazi dəyişdirilməsi başlandı; forştadtın

yeni məhəllələri ilə onun struktur əlaqəsi inkişaf edirdi.

Əhalinin qala divarları arasında şəhərin qapalılığı haqqında adət edilmiş təsəvvür məhv olunurdu, ev tikilişinin köhnə adət-ənənələri dağıdılırdı; qalanın səssiz yeknəsək küçə və dalanları forştadtın geniş küçələrindən geri qalırdılar.

Bakı qəzasının planlaşdırması və abadlaşdırmasının səciyyəvi xüsusiyyəti üçün, "Bakı qalasının forştadt və ətraf ərazi ilə birlikdə, kontr-eskarpdan 2,5-dən 3 verstə qədər, Baş planı. 1854-cü ildə menzula vasitəsi ilə naturadan çəkilmişdir" bu plan çox faydalı və dəyərli oldu. Mövcud planlaşdırmanın bu planı, məzmun bütövlüyünə görə daha əsaslı idi və məhəllələrin abadlaşdırılması dərəcəsini müəyyən edirdi ki, bu da forştadtın qurulmuş hissələrinin inkişafının ümumi istiqamətini və meylliliyini müəyyən etmək imkanı verdi.

Bu vaxta, forştadtın sahəsi, qalanın – İçərişəhərin ərazisini (21,5 hektar) üstələyib 64 hektara çatdı. Lakin şəhərin yeni, başqa tarixi şəraitdə formalaşan vəhdətinin üstünlüyü təkcə bu göstəricilərlə müəyyən edilmirdi. Tamamilə başqa şəhərsalma strukturu formalaşırdı; onun inkişafının üstünlüyü və potensial imkanları, qala-şəhərlərlə (feodal Bakı da onlara məxsus idi) müqayisədə açıq-aydın görünürdü [9].

Qəbul olunmuş sxem çərçivəsində qalaraq, ilk öncə düzbucaq planlaşdırma sistemi ilə formalaşan forştadt, sonradan mühüm dəyişikliklərə uğradı. O, sahil zolağının konturundan, ərazinin, onun ərazisindən keçən və onu, ölkənin digər yaşayış məntəqələrinə bağlayan yolların relyefindən, xammal mənbələrindən, sənayenin yerləşməsindən və digər amillərdən asılı olaraq, inkişaf edirdi, tamamlanırdı və genişlənirdi. Bütün bunlar, həmin o orqanik şəhərsalma sintezini təşkil etdi ki, onun əsasında Bakının özünəməxsus, individual, kapitalizm dövrünün iri sənaye şəhərlərinə xas olan cəhətlərini daşıyan memarlıq-planlaşdırma strukturu formalaşdırdı [43].

Qəza şəhəri olan Bakının, məhəllələrin dağınıqlığına və mərkəzin göstərilməməsinə görə, uğursuz planlaşdırma sxemi var idi.

Forştadt, dəyişkən bir vəhdət olaraq, öz əvvəlki hüdudlarından çıxıb ətraf təpəliklərin yamaclarında döşənirdi və en dairəsi istiqamətində 1 km məsafəyə qədər uzandı. Məhəllələrin forştadtda mövqeyində, şərqə tərəf inkişaf istiqaməti izlənilir.

Əvvəlki kimi, forştadtın şərqdə ən uzaqlaşdırılmış hissəsi, məhəllələrin düzgün abadlaşdırılmasına mane olan karantin idi. Forştadtın şərq hissəsinin şimal sərhədi, planda hələ nəzərdə tutulan Balaxanı küçəsi ilə keçirdi və forştadtın ərazisindən qərbdən şərq istiqamətində keçən Suraxanı küçəsi ilə müqayisədə, onun rolu planlaşdırmada zəif ifadə olunmuşdu.

Forştadt Bazarnaya küçəsindən bəri qərb hissəsi yığcam zona təşkil edirdi və özünün yeni kvartalları ilə Nijnyaya Naqornaya küçəsinə qədər çatırdı. Sonra kvartalların forması itirdi, malikanələrin ayrı-ayrı sahələri, Bakının ən abadsız rayonu kimi qalan dağlıq hissəsinin nizamsız tikililərini ifadə edirdi.

Forştadtın abadlaşdırılmış məhəllə kütləsində küçələrin dəqiq şəbəkəsi müəyyənləşdirildi: en dairəsi istiqamətində - Gimnaziçeskaya, Karantinnaya, Aziats-

kaya, Kamenistaya, Tserkovnaya və Suraxanskaya küçələri; meridian istiqamətində - Persidskaya, Spasskaya, Bazarnaya, Vorontsovskaya, Armyanskaya, Tatarskaya küçələri.

Primitiv abadlığa baxmayaraq, küçələr, şəhər planlaşdırmasının mühüm elementləri kimi, forştadtın planlaşdırma quruluşuna daxil oldular və sonradan xüsusi bir dəyişikliyə məruz qalmadılar. Bazarnaya küçəsi əvvəlki kimi bütün tikiliyə nisbətdə mərkəzi və mehvər mövqeyi tuturdu. Baş magistral kimi onun əhəmiyyəti, Şamaxı quberniya mərkəzinə çevrildikdən, Bakı isə tabelik vəziyyətinə keçəndən sonra daha çox gücləndi.

Bazarnaya küçəsinin, faktiki olaraq, rəsmi magistrala çevrilməsi və daha qızğın, gur olması ilə bağlı onun tikililərində, ticarət müəssisələrinin (mağazalar, dükanlar, karvansaralar) sayının artması sayəsində dəyişikliklər baş verdi. İçərişəhərdəki Qaranlıq sıralar adlandırılan, Şamaxı qapılarından Cümə məscidinə qədər uzanan ticarət sıraları, Bakı ticarətinin mərkəzi sayılsa da və səyahətçiləri, xüsusi ilə də A.Düması (ata), şərq bazarının xaosu içində gəzişən tamaşaçıların gözləri önündə öz sənət əsərlərini yaradan sənətkarlarla və ustalarla valeh etsə də, şəhərin işgüzar mərkəzi artıq forştadtın mərkəzi magistralında - Bazarnaya küçəsində yerləşirdi.

Planlaşdırması ilə o, Şamaxının, Şuşanın küçələrini xatırladırdı, lakin arxitekturasına görə Şamaxının əsas ticarət küçəsinə yaxın idi, eyni zamanda tikililərin böyüklüyünə görə ondan xeyli geridə qalırdı. Şamaxının üstünlüyü şübhəsiz idi, çünki, forştadtı yarımmütəşəkkil surətdə abadlaşdırılan və ilk öncədən tərtib edilmiş Baş planı olmayan Bakıdan fərqli olaraq, Şamaxı artıq 1832-ci ildə, tarixi və coğrafi şəraiti nəzərə alan plan üzrə inşa edilirdi [22].

Bazarnaya küçəsinin artmış mahiyyəti qəza müdiriyyətinin diqqətini də cəlb etdi və o, küçəyə az-çox təmtəraqlı görkəm vermək qərarına gəldi, təbii ki, əyalət şəhərinin imkan dairəsində.

Şamaxı yolunun trassası ilə üst-üstə düşən forştadtın əsas küçəsində, xiyaban şəklində agaclar vardır ki, onları qala divarlarına qədər uzatmaq istəyirdilər.

Bakının 1854-cü il Baş planında, Şamaxı qapılarını forştadtın baş magistralı ilə birləşdirən mövcud xiyaban artıq qeyd olunmuşdur. Beləliklə, xiyaban, forştadtın, gələcək inzibati və işgüzar mərkəz olması məsələsində həlledici element oldu.

Bazarnaya küçəsinin Şamaxı yolu ilə davamı üçün, forştadt qərb və şərq istiqamətlərdə torpaqlara yiyələnmə yolunda da inkişaf etdi. Bu, Şamaxı tərəfindən quberniya mərkəzi ilə əlaqələrin güclənməsindən irəli gəlirdi. Bazarnaya küçəsi ilə yalnız ticarət nəqliyyatı deyil, həmçinin də poçt yükləri də keçirdi. Karvansaralar “forştadtın hüdudlarından az qala arası kəsilməyən cərgə ilə çox uzağa uzanırdı, şimalda ondan Şamaxı küçəsi ilə, indiki 1-ci Qanlı-Təpədən 6-cı Qanlı-Təpəyə qədər daxil edilməklə, harada ki, üzümlüklərdən və bağçalardan başqa heç bir şey yox idi” [8].

Şamaxı yolunun təbii istiqaməti, Şamaxı və Quba küçələrinin yanında yolayrıcının yaranmasına səbəb oldu və istiqamətləri üzrə yeni tikililər başlandı. Müdiriyyət forştadtın yeni çəkilən küçə-

lərinin və kvartallarının qırmızı xətlərini reqlamentə salmamışdır; qəza şəhəri olan Bakı üçün, forştadtın artmasını tənzimləyən sxematik perspektiv plan belə hazırlanmamışdır. Bunun nəticəsi olaraq, məhəllələrin düzbucaqlı şəbəkəsi yarım-mütəşəkkil inkişaf prosesində yolların istiqamətinə asanlıqla uyğunlaşırdı, bu və ya digər görkəmi alaraq, yeni şəhərsalma elementləri yaradırdı.

Forştadtın məhz bu inkişaf yolu, kapitalist Bakının planlaşdırma strukturunun əsas formalaşma istiqaməti olaraq, ona xas olan səciyyəvi cəhətləri təyin etdi və sonradan bu cəhətlər Böyük Bakının şəhərsalma fonduna daxil oldu [14].

Forştadtın bütün istiqamətlərdə inkişaf edərkən və onun tikililəri tədricən ikimərtəbəli yaşayış evləri və karvansaralarla təkmilləşərkən, esplanada hələ ki, tikilisiz boş qalırdı və 1880-ci illərdə ləğv olunan neft anbarları və duz yığınları üçün ayrılmışdır.

Anbarlardan yuxarıda, esplanada ilə, demək olar ki, arası kəsilməyən qəbiristan zolağı uzanırdı, Bazarnaya küçəsini Şamaxı qapıları ilə birləşdirən alleyanın yanında bitirdi.

Bazarnaya küçəsi hüdudunda tənzimlənmiş Şamaxı yolu, esplanadaya çıxıb üç qola ayrılırdı. Onlardan biri Şamaxı qapıları vasitəsi ilə qalaya dönürdü və Qaranlıq sıralardan keçərək, dənizə çıxırdı, digər iki qol isə qalanı şərqdən və qərbdən dolanıb keçirdi.

Şərq qolu, hələ 1870-ci illərin əvvəlində duz yığınları yerləşən tərəfə - dənizə yaxınlaşırdı; burada da sonradan gəmilərin təmiri üçün ellinq və sərnişin körpüsü yaradıldı. Duz yığınlarına gedən yol Mixaylovskaya küçəsinə döndü.

Qərb qolu, şərq qolu kimi dəniz tərəfə, neft anbarları və duz yığınları yerləşdiyi yerə yaxınlaşırdı. Bu qol, vaxt ötdükdən sonra Nikolayevskaya və Sadovaya küçələrinə dönmüş, dənizin lap kənarında Salyan qapılarından Bayıla gedən yolla kəsişirdi. Bu yolların kəsişməsində 1858-ci ildə "Xəzəryanı ticarət cəmiyyətinin" daş anbarları tikilmişdir (bu binada Azərbaycan ensiklopediyasının redaksiyası yerləşirdi).

Forştadtın vahid magistralının bütün üç qolu dənizlə, sahil ilə sıx bağlıdır. Esplanada kvartallara bölündükdə, onlar mərkəzin ümumi planlaşdırma strukturuna uğurla daxil oldular və qalanın ətrafında halqa magistral şəklində planın əsasını təşkil etdilər.

Qeyd etmək lazımdır ki, forştadtın genişlənməsində və inkişafında onun planlaşdırmasına topoqrafik qaydada bir çox elementlər bilavasitə və ya vasitəli təsir göstərmişdir ki, bu şəhərin qurama planlarının tərtib edilməsində müəyyən dərəcədə nəzərə alınırdı. Beləliklə, forştadtın,tarixi topoqrafiya mühüm rol oynadığı mərkəzinin yer səthini göstərən plan, onun ümumi Baş planda inkişafından çox qabaq müəyyən edilmişdir. Ərazinin strukturunun pozulması və ya dəyişilməsi böyük xərclərə gətirib çıxarırdı, bunu da qəza şəhəri az gəlirləri ilə ödəyə bilmirdi.

K.F. Spasskiy-Avtonomov, forştadtın tənzimlənməsində şəhərin imkanlarının məhdudluğunu açıqlayaraq, yazırdı: [30] "Şəhərin gəlirləri orta və təxminən 6 min rubl gümüş pula çatır. Şəhərin xərcləri 4 min rubl gümüş pul civarındadır; xərclərin əsas maddəsi şəhər polisinin vəzifələrini saxlamaqdan ibarətdir. Şəhərdə və forş-

tadta daimi sakinlərin ümumi sayı hazırkı vaxt 7431 nəfərə çatır".

Bakı qalasının hələ müdafiə vəziyyətində olduğu sayılan dövrdə (həqiqətdə isə onun bu rolu artıq itirilmişdir) mülki inşaat məsələləri qaldırılmırdı.

Lakin forştadtın ərazisinin genişlənməsi, cənub-qərb hissədə "Xəzəryanı ticarət cəmiyyətinin" daş anbarlarının meydana gəlməsi, esplanadanın şimal sərhədlərinin bəzi pozuntuları – bütün bunlar, şəhərlərin, o cümlədən də Bakının inkişafında və abadlaşdırılmasında müəyyən dərəcədə maraqlı olan Zaqafqaziya diyarının ali müdiriyyətinin diqqətindən uzun müddət kənarda qala bilməzdi.

Məhz buna görə, Bakının quberniya mərkəzinə çevrilməsindən bir qədər öncə, Qafqaz ordusunun baş qərargahı forştadtın planlaşdırması barədə yenidən məsələ qaldırdı, bu isə onun planlaşdırmasının və abadlaşdırılmasının tənzimlənməsinə başlanğıc olardı. "Lakin yaşayış kvartallarının planlaşdırması işi çox təcili olmadı, nəinki, qaydasızlığı forştadtın əlavə kvartalların salınmasını çətinləşdirən şəhər torpaqlarının sərhəd çəkilməsi [8]".

Bunu, "Bakı şəhərinə məxsus olan bütün torpaqlarla, onun otlaq torpaqlarının, sərhədlərinin planı," təsdiq edirdi.

Şəhər inkişaf etdikcə, forştadtın ərazisi genişləndikcə, əhalinin sayı artdıqca, Bakının liman kimi – Rusiya ilə İran arasında tranzit ticarət mərkəzi kimi də əhəmiyyəti artırdı.

"Yəqin ki, buna görə hələ 1839-cu ildə, siyasi, tarixi və coğrafi nöqteyi-nəzərdən admirallığı Həştərxandan Bakıya keçirtmək məsələsi qaldırılmışdır" [26].

Limanın inkişafı ilə əlaqədar liman zonasının yaradılması ideyası irəli sürülmüşdür və 1855-ci ilin fevralın 22-də "Bakı limanının binalarının nəzərdə tutulan yerləşdirilməsinin Baş planı" tərtib olunmuşdur və 5 aprel 1855-ci ildə təsdiq edilmişdir. Dəniz idarəsi Bakı limanının binalarının yerləşdirilməsi üçün ərazi seçimi zamanı dar idarəçilik maraqlarını rəhbər tuturdu - plana diqqətlə baxanda bu açıq-aydın izlənilir.



*Bayılın planı. Mühəndis A.Türin. 1863-cü il.*

Qala və daş körpü, Baş planın tərtibatçılarının, forştadtın hər yöndə genişlənməsini nəzərə almadan, söykəndikləri nöqtələr idi. Limanın nəzərdə tutulan ərazisinin dəqiq sərhədləri (müasir rayon "Azneft" binası), mövcud tikililər və relyefə uyğun idi, bunun sayəsində o, üçbucaq şəklinə bənzəyirdi. Bir tərəfdən limanın ərazisi bilavasitə qala xəndəyinə, digər tərəfdən isə - dənizin içinə çıxmış daş körpüyə birləşirdi.

Baş plana görə, bu zona bütöv birlik təşkil edən üç paralel, bir-birindən asılı



*Bayılın planı 1890-cı illər.*

sektora bölünmüşdü. Birincisi, kilsə, lazaret və kazarmlar üçün yerlər nəzərdə tutulmuş ictimai mərkəz təşkil edirdi. Limanın ictimai mərkəzi öz strukturuna qurğuların nomenklaturasını məhdudlaşdırıllmış şəkildə daxil edirdi; orada, nə hazırkı sektorun ərazisini təşkil edəcək meydan, nə eyni tonlu mənzərəni canlandıracaq yaşıl əkmələr nəzərdə tutulmamışdır.

İkinci, istehsal sektoru adlandırılan, 1855 və 1856-cı illərdə emalatxanaları və mağazalarının tikilməsi nəzərdə tutulan sektor, tamamilə başqa cür idi: korpusların blokları şəklində liman qurğularının planı gec rus klassisizmi üslubunda hazırlanmışdır. Üçüncü sektor, uzunluğu 378 m olan ellinqlə birlikdə daş sahil təşkil edirdi. O, limanın istismar hissəsi idi. Bakı limanının binalarının layihəsinin reallaşması məsələsi uzandı, sonra isə kəsildi.

Dəniz idarəsi, Daş körpünün yanındakı ərazinin, dəniz limanının geniş baxılan (yəni, məsələ, liman əməliyyatlarının yerinə yetirilməsinin yalnız funksional tərəfi ilə bitmirdi) məqsədlərinə tam uyğun gəlmədiyini nəzərə alaraq, bundan əlavə, dəniz məmurlarına xidmət edən ayrı rayonun yaradılmasını nəzərdə tuturdu və Qafqaz diyar müdiriyyətindən, şəhərin istifadə olunmayan otlaq torpaqlarının özgəninkiləşdirməsinə icazə istədi. 1858-ci ildə "Admirallığın tikilməsi və limanın komandiri tərəfindən təqdim edilmiş plana müvafiq olaraq, Bayıla köçürülməli olan dəniz məmurlarının bostanları üçün Bayıl burnunda otlaq torpaqların planı" tərtib edildi.

Həmin il, Dəniz idarəsi üçün ayrılmış ərazi, tikinti meydançasına çevrildi. İşlərin sürətli gedişində qısa zaman ərzində admirallığın və limanın ümumi konturları, həmçinin hərbi məskun məntəqəsinin xətti kənarında salınmış kvartalların formaları görünməyə başladı. Bununla, şəhərin, "neft qızdırması" dövründə yüksək inkişaf etmiş müstəqil hərbi-inzibati və yaşayış rayonunun təşkil edilməsinə əsas qoyuldu. Bu planda maraqlısı odur ki, şəhərdən uzaqlaşdırılmış ərazidə yeni rayonun yaradılmasında, planlaşdırmanın optimal həlli üçün, ərazinin relyefi, Bakıdan Bibi-Heybətə gedən mövcud yol və sahil zolağı nəzərə alınmışdır.

Onlar cəmdə Bayılın əsas hissələrini - admirallıqla limanı, inzibati-ictimai zo-

nanı, zabit və matros kvartalları ilə tikinti üçün ərazini dəqiq ayırmaqla, Bayılın planlaşdırmasını yönəltdilər.

Yeni rayonun traktovkasınını belə xüsusiyyəti, dar idarəçilik maraqlarına və ümumşəhər ərazisindən ayrılılığa baxmayaraq, öz zəmanəsinin müsbət şəhərsalma ideyalarını ifadə edirdi. "Böyük knyaz Konstantin, limanın sərəncamında olan sahədən torpaqların kiçik hissələrlə, Bakı limanı ilə xidmət üzrə bağlı olan şəxslərə paylanmasına icazə verdiyi vaxtdan" bu liman şəhərinin yaradılması başlandı: "torpaq, evlərin tikilməsi və bağların salınması üçün ən sərfəli şərtlərlə paylanırdı"[45].

Qəza Bakının ömrünün son illərində və hətta o, quberniya mərkəzinə çevrildikdən sonra, Bayılın formalaşması müstəqil şəkildə, forştadtın inkişafın dan asılı olmadan baş verirdi.

6 aprel 1863-cü il tarixli "İnşa edilən Bakı limanının binalarının Bayıl burnunda yerləşməsinin Baş planı" yeni məskun yerlərinin mövcud vəziyyətini təsbit edirdi və onun yaranma tarixinə, yəni 1858-ci ilə qədər formalaşan xüsusiyyətlərini açıqlayırdı. Bu planın dəyəri əvəzedilməzdi: Dəniz idarəsinə, bütöv bir rayon üçün, ayrılmış ərazinin planlaşdırması əvvəlcədən hazırlanmışdır; liman, ictimai-məişət və yaşayış təyinatlı qurğularla abadlaşdırılması nəzərdə tutulan məhəllələr, həmçinin mühəndis qurğuları üçün ərazinin müəyyənləşdirilməsi nəzərə alınmışdır. Bütün bunlar, Bayılın sonrakı inkişafı üçün böyük əhəmiyyət daşıyan mütəşəkkil planlaşdırma strukturunu həyata qaytardı.

Bu Baş plan həmçinin ona görə qiymətlidir ki, Bayılın bünövrəsi qoyulandan bəri onun tarixi formalaşmasını təsəvvür etmək və onun sonrakı inkişaf mərhələlərində planlaşdırma səciyyəvi xüsusiyyətini müəyyən etmək imkanını verdi.

"Bakı limanının 1880-ci il üzrə qurğuların göstərişi ilə, Dəniz idarəsi üçün ayrılmış ərazinin Baş planı" mühüm şəhərsalma sənədi kimi qeyd olunur. Bayılın əvvəlki Baş planı ilə onu müqayisə etdikdə, görmək olar ki, Dəniz idarəsinin yeni ərazisinin planlaşdırma layihəsi, Bibi-Heybət rayonu da daxil olmaqla, 4 km$^2$ sahənin yiyələnməsini nəzərdə tuturdu. Yeni plana görə, Dəniz idarəsinin ərazisi, tikinti üçün zona və ictimai zonaya, həmçinin bağçılıq üçün yerlərə ayrılmışdır. Relyefin mürəkkəbliyi səbəbindən, yaşayış məhəllələri limanın əsas tikilisindən bir qədər kənarda salınmışdır. Düzbucaq formalı məhəllələr dörd sıra ilə dənizə yaxınlaşırdılar. Dörd sıradan ibarət olan küçələr uzununa sahilə gətirib çıxarırdılar, çoxsaylı köndələn küçələr isə tikililər üçün ərazini parçalayırdı, küçələr, liman rayonunda mövcud küçələrdən daha enli planlaşdırılırdılar.

Yaşayış məhəllələri və bağçılıq üçün yerlər arasında (sahildən Bayıl ərazisinin sərhədlərinə qədər) dar zolaqda ictimai mərkəz yerləşmişdir. Lakin onun planlaşdırması hələ hazırlanmayıb, yalnız bazar, meydan və bağın tikilməsi üçün məhəllələr təyin edilmişdir. Mərkəzdən cənub-qərbdə, 213x213 m ölçüdə, yəni 4 hektardan çox, bağlar üçün iri kvadrat sahələr ayrılmışdır.

Perspektivli "Abadlaşdırılmış və yeni hazırlanan, Dəniz idarəsinin məmurlarına paylanması nəzərdə tutulan, sahələrə bölünmüş kvartalların qeydi ilə,

Dəniz idarəsinə məxsus olan Bakı şəhərinin yanında Bayıl burnunun planı".

Bayılın ərazisi sürətlə abadlaşdırılanda və Bakıya meylli olanda, təxminən XIX əsrin sonunda hazırlanmışdır.

Layihədə olan yeni, sahələrə bölünmüş yaşayış məhəllələri, küçə şəbəkəsinin istiqamətlərini saxlayan mövcud planlaşdırma sxeminin davamı idi. Ərazinin mürəkkəb relyefi, məhəllələrin dənizə tərəf dönən terraslar şəklində yerləşməsini təyin etdi.

Bayılın mərkəz hissəsi limanın rayonunda qaldı, yalnız tikilən hissə sərt enişləri tutub öz torpaqlarının hüdudlarından kənara çıxıb yaxın rayonlarla birləşən şəhərə tərəf artırdı.

## QUBERNİYA ŞƏHƏRİ – RUSİYANIN ƏN İRİ SƏNAYE MƏRKƏZLƏRİNDƏN BİRİDİR (1859-1920-ci illər)

1859-cu ilin may ayının 15-də faciəli zəlzələ nəticəsində Şamaxı xarabalığa çevrildi. Bununla bağlı, Qafqazın canişini knyaz A.İ.Baryatinskiy 1859-cu ilin iyunun 7-də Şamaxı hərbi qubernatoruna belə yazırdı: "Mən, bütün quberniya müəssisələrinin Bakıya köçürülməsinin faydası haqqında fikirdə dayandım. Bu şəhərin dəniz sahilində mövqeyi, burada limanın tikilməsi, Bakının ilk çıxış nöqtəsi olan gələcək dəmiryolu, şübhəsiz ki, az bir müddətdə onu əhəmiyyətli liman şəhərinə döndərəcəkdir və şəhərin əvvəlki yerində təzələnməsi ilə bağlı qorxunu aradan qaldıraraq, sakinlərə firavanlıq şəraiti verəcəkdir" [41].

1859-cu ilin dekabrın 6-da 11-ci Aleksandrın fərmanı çıxdı: "1) İndiki Şamaxı quberniyasının İdarəetməsini və orada yerləşən bu quberniyanın bütün quberniya müəssisələrini Şamaxı şəhərindən Bakı şəhərinə köçürtmək; 2) Bakı şəhərini quberniya dərəcəsinə qaldırmaq; 3) Sonra Şamaxı quberniyasını gələcəkdə Bakı quberniyası adlandırmaq" [41]. Beləliklə, məsələ Bakının xeyrinə həll olundu. Lakin quberniya mərkəzinin Bakıya keçirilməsi ilə bağlı problemlər çox çətin oldu – gündəlik quberniya həyatının zəruri məsələlərinə şəhərin hazırlıqsızlığı özünü göstərirdi: çoxsaylı quberniya müəssisələri üçün yararlı bina yox idi, qala ərazisinin əhalisi həddindən çox idi, mənzil böhranı hiss olunurdu və s. Divarlarla hasarlanmış qalada yaşayış sahəsinə olan yüksək tələbat, artıq forştadta ikimərtəbəli binalar nadir hallar təşkil edən zaman, burada çoxmərtəbəli evlərin tikilməsi üçün təkan oldu [8]. Qədim yaşayış evləri sökülüb, əvəzinə iki, üç və hətta dördmərtəbəli evlər tikilirdi. Mövcud əsaslı ikimərtəbəli evlər yenidən tikilirdilər, çoxları üstdən tikilirdilər.

Lakin qala divarları arasındakı, sahəsi cəmi 21,5 hektar olan ərazi qalanın çətin urbanizasiya məsələsini uğurla həll etməyə mane olurdu. Hərçənd forştadt inkişaf edirdi, yenə də, 1867-ci ildə qalanın hərbi qurğu kimi ləğv edilməsindən qabaq, əhalinin varlı təbəqəsi və məmurlar, forştadtın təzə kvartallarında deyil, İçərişəhərin divarları arasında, hətta dar küçələr və səssiz dalanlarda da olsa belə, yaşamağa üstünlük verirdilər.

Bakı quberniya şəhərinə çevrildikdən sonra, onun qala olaraq əhəmiyyəti qabaqcadan həll olunmuşdur. Tikinti üçün ayrılmış sahənin mərkəzi, hər yöndə məhdudiyyətsiz inşaat aparıla biləcək

forştadta keçdi, məhz forştadtın sayəsində şəhər ərazisinin genişlənməsi gedirdi.

Quberniya rəhbərliyi dərk edirdi ki, qala artıq ümumşəhər mərkəz mövqeyini itirirdi; kapitalizm münasibətləri başqa, feodal şəhərlə uyğunlaşmayan miqyaslar irəli sürürdü. Məhz buna görə forştadtın abadlaşdırılması hər cür dəstəklənirdi. İkiqat fayda alınırdı: birincisi – torpaq sahələrinin satışından şəhərin gəlirləri artırdı və ikinci – forştadt əsaslı tikili əldə edirdi. 1859-cu ilin fərmanından sonrakı illər, demək olar ki, əhalinin Bakıya axını dərhal çoxaldı, ticarət daha da inkişaf etdi.

Bu fakt həmin dövrdə yaşayanlar tərəfindən qeyd edilmişdir. Onlardan biri yazırdı: "Görünür, Bakı günbəgün dəyişilir və zaman, sakinlərin, onun zahiri mühitində və ictimai məişətində təsvir olunan fəaliyyətini puç edir. Sıxıcı qala divarları arasından yavaş-yavaş forştadta çıxırlar..., Avropa sayağı çoxlu sayda yeni və gözəl daş evlər peyda oldu" [76].

Qeyri-mütəşəkkil qaydada yaranmış orta əsrli planlaşdırma strukturu, kapitalizmdən qabaqkı dövrün məhsulu kimi, Böyük Bakının orqanizminə daxil olub ayrılmaz hissəyə döndü və sürətlə inkişaf edən şəhərin əsas formalaşan rayonlarını birləşdirən bənd oldu. 1864-cü ilin "Qurama" planı əsas şəhərsalma məsələlərini həll etmirdi; o, yalnız mövcud planlaşdırmanı möhkəmləndirirdi və bununla, şəhər tikililərinin ilk öncə qəbul edilmiş müntəzəm sistem üzrə gələcək inkişafının xüsusiyyətlərini müəyyən edirdi. B.Butnik-Siverskinin fikrincə, "bu, forştadtın birinci, öz praktiki əhəmiyyətinə görə uğursuz planı" [8], hələ iri miqyaslı əsas şəhərsalma məsələlərini həll etməmişdir, lakin, növbəti fikirlərə



*Bakı qalası ilə forştadtın baş planı. 1864-cü il.*

görə, bu planın mənfi qiymətləndirilməsi ilə tam razılaşmaq olmazdı.

Mövcud tikililər və küçələrin planlaşdırma şəbəkəsi planı tərtib edənlərin yaradıcı təşəbbüsünü xeyli dərəcədə sıxırdı, amma buna baxmayaraq, bəzi kompozisiya elementləri daxil edilməklə, sonradan şəhərin orqanizminə memarlıq-məkan qovşaqları kimi daxil edilən, təxmini nişanlama şəklində olsa belə, esplanadanın planlaşdırması hazırlandı. Bu, Şamaxı qapılarının qarşısındakı Kolyubakinskaya meydanı və ya Parapetdir və gələcək Molokan bağının yerindəki boş yerdir. Bundan əlavə, qalanın ətrafındakı kvartallar qaydaya salınmışdır – onların mövqeyi qala divarlarının konturu ilə uyğun gəlirdi; şəhərin qədim və yeni hissələrini birləşdirən dayaq elementlərə olan kimi küçələr istehkamlara birləşdirilirdilər.

Artıq forştadt qalanın ətrafı kimi çıxış etmirdi; indi qala və forştadt plana görə vahid idi. Beləliklə, 1864-cü ilin planı mərkəzi rayonun əmələ gəlməsi faktını

və onun şəhər təşkil edən elementlərini ilk dəfə qeyd etdi. Onilliklər ərzində planın əsas istiqamətlərinin inkişafı dəyişiksiz keçmişdir.

Esplanada zonasının planlaşdırmanın hazırlanması forştadtın quruluşunu tamamladı. Qalanın yanında nəzərdə tutulmuş yarımhalqavari magistralın sayəsində, forştadtın bitirilməmiş qalan küçələri tamamlandı və bilavasitə bu magistrala çıxış yarandı. Onun vasitəsi ilə esplanadanın qalanın ərazisi və ümumşəhər planlaşdırmada rolu daha da çoxalan sahillə əlaqə baş verirdi. Məhz buna görə 1864-cü ilin Baş planını qeyri-praktik və məqsədyönsüz kimi qiymətləndirmək olmaz.

O dövrün şəhər tikililəri Bakının iqtisadi uğurlarını əks etdirirdi. Ticarət fəaliyyətinin cəmləndiyi mərkəzi hissədə, hərəsi bir kvartal tutan karvansaralar cərgələri, evlərin birinci mərtəbələrində ticarət dükanları və hələ ki, boş ərazilər üstünlük təşkil edirdi. Hərçənd ikimərtəbəli binalar şəhərin ümumi həcmli-məkan strukturunda üstünlük təşkil etmirdilər, onların rolu qızğın küçələrdə get-gedə daha aydın görünürdü. Çox təmkinlə yerinə yetirilmiş ikimərtəbəli tikililər, bilavasitə öz vəzifəsinə, yəni gələn tacirlərin yerləşdirilməsinə və ticarət əməliyyatlarının yerinə yetirilməsinə cavab verirdilər.

Tikintidə geniş tətbiq edilmiş yerli tikinti materialı olan əhəngdaşı, karvansaraların və ticarət binalarının memarlığında öz izini qoymuşdur. Birinci mərtəbələr, bir qayda olaraq, qübbələrlə örtülmüşdü, fasadlarda azacıq irəli çıxan pilyastrlarla ifadə olunmuş kvadrat diraklərdə müstəqil özəklər ahəngini təşkil edirdilər.

Sadə profilli mərtəbələr arası dartıcı qüvvə, fasadların kompozisiyasını tamamlayırdılar. Divarların hörmələrinin yüngülcə yonulmuş daşları fonunda, fasadların əsas, mükəmməl formaya çatdırılmış dekorativ və konstruktiv elementlər, sıravi binanı vahid bədii nümunəyə çevirirdilər.

Bakının bu şəhərsalma dövrü görkəmli Azərbaycan memarları, forştadtın yaranma prosesi zamanı şəhər mərkəzinin formalaşmasında böyük rol oynamış Qasım bəy Hacıbababəyovun (1811-1874-cü illər) yaradıcılıq fəaliyyətinə təsadüf etdi. O zamanlar forştadtın planlaşdırmasının mükəmməlləşmə illəri idi: məhəllələrin konturları daha dəqiqləşirdi, tikililərin arxitektura təfsiri isə daha da aydınlaşırdı. Lakin sahilyanı zolaq hələ şəhər rəhbərliyinin diqqət mərkəzində deyildi.

1862-ci ildə bütün sahil boyunca yerləşəcək anbar tikililərinin layihəsi tərtib edildi. Lakin şəhərin sürətli inkişafına, "1863-cü ildə icazə verilmiş Avropa-fars tranzitin onun ərazisindən istiqaməti" çox təsir etmişdir, sahilin abadlığının təkmilləşdirilməsinə təkan verirdi. "Bu sahil, köhnə, şəhəri dəniz sahilindən ayıran və hava axınının qarşısını alan lazımsız şəhər divarını əvəz etdi" [42]. 1865-ci ildə sahil səmtdən qala divarını ləğv etməyə icazə verildi. Daşın inşaat materialı kimi satışından əldə olunan məbləğ 44 000 rubl təşkil etdi ki, bu da "limanın və tezliklə yaraşıqlı fərdi evlər cərgəsi ilə bəzədilən gözəl daş sahilin inşaatına sərf olundu" [42].

Memar Qasım bəy xeyli mühəndis və planlaşdırma işləri aparmışdı,o cümlədən, müasirlərin sözlərinə görə, şəhərin yaraşıqlı tikililərindən olan sahilin inşaatında da iştirak etmişdi. 1867-ci ildə sahilə su kəməri çəkildi, fəvvarələr tikildi və s.

Bakının su təchizatı məsələləri əvvəlki kimi acınacaqlı olaraq qalırdı. 1860-cı illərdə şəhərin cəmi üç su nohuru var idi – Xanskiy, Tsitsianovskiy, Komendadskiy və bu səbəbdən, hər yeni su kəməri xətti, mövcud şəbəkənin genişləndirilməsi və rekonstruksiyası Bakının təsərrüfat həyatında mühüm hadisə olurdu. Qasım bəy bu üç su nohurunun və ümumşəhər su kəmərinin genişləndirilməsində və təkmilləşdirilməsində iştirak edirdi. Tsitsianovskiy su nohurunun layihəsi üzrə onun ətrafında bağça salınmışdır, sonradan o, sərin bağa çevrildi.

Qasım bəy, forştadtın Parapet adlandırılan, şəhər planlaşdırmasının bəndlərindən biri olan mərkəzi meydanının inşaatını həyata keçirmişdir. Memarın iri tikilisi, 1868-ci ildə onun tərəfindən layihələndirilmiş böyük karvansara idi (indiki "Araz" kinoteatrı). Karvansaranın layihəsi qrafika cəhətdən, sonradan görkəmli memar olan Məşədi Mirzə Qafar İsmayılov tərəfindən yerinə yetirilmişdir. 30 il ərzində Məşədi İsmayılov əsasən Bakıda binaların layihələri və inşaatı ilə məşğul olurdu və özündən sonra dolğun memarlıq irsi saxlamışdır.

1864-cü ilin planının hazırlanmasına qədər, şəhərin sürətli inkişafı səbəbindən sənəd artıq köhnəldi: şəhər sərhədlərindən kənarda sənətkar və fəhlə camaatının qeyri-mütəşəkkil halda qəsəbələri yaranırdı. B.Butnik-Siverskinin [8] öz əsərində qeyd etdiyi kimi, bu qəsəbələr Bakı amfiteatrının şimal-qərbdən cənub-şərqə tərəf ikinci terrasını əhatə edirdilər və 1859-cu ildən 1871-ci ilə qədər yaranmış iki yaşayış rayonunu təşkil edirdi.

Birinci yaşayış rayonuna müasir küçələrlə (qərbdə - Vorontsovskaya, şərqdə - Qoqol, Cənubda – Verxnyaya Priyutskaya və şimalda – 10-cu Qanlı-Təpə küçələri ilə) sərhədlənmiş ərazi məxsus idi. Xeyli iri olan bu sahə (40-45 hektar) qalanın ərazisindən, demək olar ki, iki dəfə böyük idi və sərbəst tikiliyə malik idi. İkinci yaşayış rayonu sanki birincinin davamı idi və şərqdə, növbəti küçələrin sərhədində yerləşirdi: Krasnovodskaya küçəsi – qərbdən, Tatyaninskaya küçəsi - şərqdən, Nijnyaya Priyutskaya – cənubdan və 5-ci Qanlı-Təpə küçəsi – şimaldan, yəni sonradan Qanlı-Təpə adlandırılan həmin o meydanda, 1913-cü ilin əhalinin siyahıya alınmasına görə isə o, Qanlı-Təpə yujnaya adlandırılırdı (ərazisi 30-35 hektara yaxın idi). Forştadtın kənarında yaşayış rayonları, əsasən Dağüstü qərb zonada, aul üslublu tikililər şəklində əmələ gəlirdilər. Bakının inkişafı əvvəlcə qərb və şimal-qərb istiqamətlərdə, sonradan miras mülkiyyətinə çevrilən nəzarətsiz



*Memar Qasım bəy Hacıbababəyov (1811-1874-cü illər).*



*Bakı sahili. 1864-cü ilin fotoşəkli.*

şəhər torpaqlarını zəbt edən inşaatçılar sayəsində gedirdi.

Forştadtın şimal-şərq hissəsindəkı 70-75 hektar sahəsi olan yaşayış rayonları ümumşəhər tikililərin xeyli faizini təşkil edirdi. Bakının 1864 və 1878-ci illər üzrə, forştadta bitişən əraziləri əks etdirən planlarının öyrənilməsi, bu yaşayış rayonlarının "forştadtdan kənarda yerləşən sənətkarlıq qəsəbələrin ilk mənbələri" kimi olduğunu təsdiq etmədi. Ehtimal ki, onlar sonradan, neft sənayesi və onunla bağlı sənayelər, kapitalizm istehsalat üsulunun ilk hüdudlarını adlayıb sürətlə inkişaf etməyə başlayanda yaranmışdırlar. Esplanadanın yalnız cənub-şərq hissəsində, forştadtın təsir zonasında, 1860-cı illərdə kiçik Molokan qəsəbəsi yarandı ki, onun yerində Mariinskiy bağçası salınmışdır.

Ərazinin tarixi topoqrafiyasının səciyyəvi xüsusiyyəti üçün çox qiymətli sənəd olan "Bakı şəhərinin otlaq torpaqlarının planı" 1866-cı ilə aiddir. Planda, forştadtla qalanın əraziləri və şumluq torpaqlar, sahil zolağı boyunca şərq istiqamətində bir neçə kilometrə, gələcək sənaye şəhəri Qara Şəhərə qədər uzanan və şimalda Torqovaya küçəsinə yaxınlaşan qumluqlar və daş çıxarılan yerlər, bağlar və qəbiristanlar, yollar və bataqlıqlar əyani şəkildə göstərilmişdir.

Planda hər şey incəliklə qeyd olunurdu, haşiyədən çıxma halları çox az idi. Bunlar, şəhər sakinlərinin bağ sahələrindən görünür ki, burada torpaq malikanələrin sərhədləri ilə yanaşı, sahələrin ölçüləri və onların sahibləri dəqiqliklə göstərilib.

"Bakı şəhərinin otlaq torpaqlarının planı"nda göstərilən torpağın sahəsi 1128 hektar təşkil edirdi və burada, tikilən yerlərdən əlavə, topoqrafiya xüsusiyyətləri göstərilmişdir. Topoqrafiya, şəhərin iqtisadi inkişafından asılı olaraq, tədricən dəyişilirdi. Lakin bu planda, Bakının kvartallarından bir az uzaqlaşdırılmış qəsəbələr qeyd olunmamışdır. 1864-cü ilin Baş planı dəyişdirilməmişdir, halbuki həm 1868-ci, həm də 1869-cu ildə Bakının yeni layihəsinin tərtib edilməsi cəhdləri göstərilmişdir. Lakin, cəhdlər lokal səciyyə daşıyırdı və şəhərin inkişafının ümumi məsələlərini həll etmirdi. Onun tikilisi, 1864-cü ildə təsdiq edilmiş sərhədlər kənarında dəqiqliyini itirirdi. Bu daha çox forştadtın qərb hissəsində görünür ki, burada müxtəlif şəkildə kvartallar təşkil olunublar, küçələr isə təsadüfi istiqamət almışlar.

Şəhər sakinlərinin şəhərətrafı bağları şərq tərəfdən, təxminən, Krasnovodskaya küçəsinin sərhədində başlayır və enli zolaq şəklində şimalda Balaxanı yolu arası ilə, cənubda isə su basılmış torpaqlar boyunca o əraziyə qədər davam edirdilər. Bir neçə ildən sonra, burada şəhərin, Qara şəhər adlandırılan sənaye hissəsi yerləşdirildi. Əgər qala ilə forştadtın sahəsi 109,25 hektar təşkil edirdisə, Qara şəhərə qədər salınmış bağlar (şəhər otlaqlarının müxtəlif yerlərindəki sahələr sayılmasa) 46 hektar tuturdular.

1862-ci ildə şəhərin otlaq torpaqlarında, bostan və bağ torpaqları 166,5 hektar təşkil edirdilər ki, bu da qala ilə forştadtın ümumi sahəsindən çox idi. Lakin, şəhər ərazisi böyüdükcə bu rəqəm ilbəil azalırdı və bağlar yox olurdular.

Bağ sahələrinin yerində karvansaralar, dükanlar, yaşayış evləri və o zamanlar "nafttil zavodları" adlandırılan kustar neft müəssisələri ucaldılırdı. Bu sadə zavodlar hələ XIX əsrin 60-cı illərindən yaranmağa başlandı. Onlar, yaşayış məhəllələri sahələrində nizamsız şəkildə tikilib yerləşdirilirdilər.

Sənaye korpusları Balaxanı yolu boyunca yerləşmişdilər, çünki xammal bazası Balaxanı qəsəbəsində yerləşirdi və yol qəsəbəni bütün zavodlara birləşdirirdi. Zavod binalarının yollara nisbətdə rahat yerləşməsi şəhər üçün çox əlverişli idi, lakin tezliklə mənfi tərəflər də üzə çıxdı: zavodlardan çoxlu his, tüstü və çirk gəlirdi.

**Qara şəhər.** Zavodların yaranması Bakının sənaye həyatının gələcək canlanmasının carçısı idi. Bakının həqiqi və daha da güclənən inkişafı, 17 fevral 1872-ci il tarixində neft sənayesində iltizam üsulunun ləğv edilməsi haqqında qanunun çıxmasından sonra başlandı. Bakı üçün bu, çox böyük əhəmiyyətli hadisə oldu və nəinki Azərbaycanın, hətta bütün dünyanın neft sənayesinin inkişafı yolunda əsl qabaqcıl addım oldu, həmçinin də Bakının şəhərsalmasına təsir göstərdi. Abşeron yarımadasında yerləşən adi bir şəhər qısa bir zamanda məşhurlaşıb, öz hüdudlarından çox uzaqlarda şöhrət qazandı. Yerli və rus kapitalistlər səhmdar şirkətlər təşkil etməyə başladılar. İri xarici kapital nümayəndələri buraya axışdılar və sonradan əsas sahələri tutdular. 1874-



*Qara şəhərin planı. 1899-cu il.*

cü ildə İsveç təbəəsi Robert Nobel Bakıya gəldi və növbəti il bir şirkət təsis etdi ki, bu da Nobel qardaşlarının neft istehsalı ortaqlığına çevrildi [46]. 1889-cu ildə Fransa kapitalının F.Rotşildin timsalında nümayəndəsi tərəfindən Xəzər - Qara dəniz cəmiyyəti təsis edildi, XIX əsrin lap axırlarında isə Bakıya İngiltərə kapitalının nümayəndəsi Ceyms Vişau gəldi. Daha sonra Bakı neft sənayesinə Belçika, Almaniya, ABŞ və digər ölkələrdən kapitallar axmağa başladı.

Çoxsaylı neftayırma zavodları 1870-ci illərin əvvəllərində şəhərin böyük torpaq sahələrini nizamsız şəkildə tuturdular. Neft sənayesinin sürətli inkişafı, ərazinin əsasən şərq istiqamətdə, üç müvazi yollar boyunca (sonradan Balaxanı, Suraxanı və Telefonnaya küçələri) genişlənməsinə səbəb oldu. Forştadt üçün belə yaxınlıq nə onun inkişafına, nə də münasib həyat şəraitinə kömək etmirdi. Məsələ burasındadır ki, zavod tikililəri artıq xeyli sahələri tutmuşdular və nizamlanmış olsalar da, əhali üçün narahat, his və tüstü buraxan zavodlar ərazisi təşkil edirdilər [28].

Sakinlər tərəfindən şikayətlər və ictimai həyatın canlanması quberniya



rəhbərliyini, seliteb rayonun yanında zavodun inkişaf etməsi probleminə ciddi yanaşmağı məcbur etdi, çünki bu, şəhərin təbii inkişafına böyük maneə ola bilərdi. Quberniya rəhbərliyi, fotogen (neft) zavodlarının şəhər otlaq torpaqlarına keçirdilməsi haqqında məsələ qaldırdı. 1870-ci ildə zavod qurulması üçün orada sahələrin ayrılması haqqında məsələ qaldırıldı. Bu məsələ o qədər mühüm idi ki, baxmayaraq ki, üç yol ərazisində artıq çoxlu sayda fotogen zavodlar var idi, "şəhər kvartallarının yaxınlığında yerləşən 147 fotogen zavodun sökülməsi haqqında keçmiş Qafqaz canişininin hökmü bildirildi". Bu hərəkət əslində, neft sənayesi sahiblərinin böyük maya qoyduqları, şəhərin daxilindəki iri zavod rayonunu ləğv etdi.

Belə bir miqyasda şəhər və ictimai maraq lehinə sahibkarların hüquqlarının pozulması - kapitalist Bakı tarixində müstəsna fakt idi. Zavod rayonunun otlaqların şərq sərhədlərinə yerləşdirilməsi üçün, 1876-cı ildə yeni ərazinin planlaşdırması layihəsi tərtib edildi. Burada, şəhərdə ləğv olunmuş zavodların əvəzinə yeni fotogen zavodlar tikildi. "Şəhərdə sa-

nitariya şəraitinin yaxşılaşdırılması üçün" fotogen zavodları Qara şəhərdən kənarda tikmək qəti qadağan idi.

Beləliklə, qismən Keşlə kəndinin otlaqlarında və əsasən şəhərdə - yerli sakinlərin bostan və bağları yerləşdiyi otlaqlarda yaranan Qara şəhər, qaralmış zavod tikililərinə görə belə adlandırıldı.

Forştadtın yaşayış məhəllələrindən xeyli ayrılıqda, 2 km-dən çox məsafədə, sənaye zonasının əsası qoyuldu. Sənaye rayon üçün, Rusiyanın şəhərsalma tarixində ilk dəfə tikilinin müntəzəmliyi prinsipinə əsaslanan planlaşdırma layihəsi hazırlanmışdı. Planlaşdırma layihəsinə görə, Qara şəhərin kvartalları düzbucaqlı yerləşmə şəbəkəsində olacaqdı.

Geniş, düz magistrallar sənaye rayonunun iri kvartallar birləşdirirdilər. Belə magistrallardan biri, çoxsaylı körpülərlə bilavasitə bağlı olan şəhər meydanı ilə bitirdi.

Xırda məhəllələr və ensiz küçələri olan forştadtın planlaşdırması ilə müqayisədə, Qara şəhərdə, yeni dövr üçün səciyyəvi olan iri planlaşdırma dairəsi və sənaye zonasının seliteb rayonundan uzaqlaşdırılmasının vacibliyi anlayışı dəqiq müəyyənləşdirildi.

İlk öncə Qara şəhərin yalnız cənub kvartallarında fotogen zavodları tikdirildi, onun şimal hissəsinin kəndarası yollar və cığırlar şəbəkəsi Balaxanı kəndi ilə birləşdirirdi. Neft sənayesinin inkişafı ilə bağlı neftayırma zavodlarının tikilməsinin sürəti artırdı və Qara şəhərin şimal hissəsində də, 1876-cı ilin [12] Baş planında işlənmiş planlaşdırmaya müvafiq tikililər çoxaldı.

Yalnız bataqlıq ləğv etdirildikdən sonra Qara şəhərin sahil zolağı istismara verildi. Sonradan Qara şəhərin planlaşdırması dəyişməmişdir, lakin onun tikililəri, texniki nailiyyətlərdən və zavod istehsalının təkmilləşdirilməsindən asılı olaraq, həmişə yenilənirdi.

Qara şəhərin ərazisi layihə sərhədləri daxilində tikildikdən sonra, zavod sahibləri yeni, istismar üçün rahat torpaqlar axtarmağa başladılar. Zavodların xüsusiyyətlərinin dəyişməsi səbəbindən, Qara şəhərin hətta iri kvartalları yeni zavod tələblərini təmin etmirdilər. Sahiblərə artıq torpaq vahidləri kimi ayrı-ayrı kvartallar deyil, dəmiryolu keçə biləcək geniş sahələr lazım idi.

Qara şəhərə Keşlə kəndinin torpaqları daha yaxın idi ki, burada tezliklə daha bir sənaye şəhərciyi yaradıldı [45]. 1902-ci ilin sonuna qədər burada, neft sənayesi ilə bağlı 20-yə qədər iri neftayırma zavodu və ticarət müəssisəsi yerləşirdi: Montaşevin və Ko zavodları, Xəzər – Qara dəniz cəmiyyətinin zavodu, Şibaevin kimya zavodu, Nobelin Villa Petrolea yaşayış qəsəbəsi və s. Bu, Ağ şəhər adlandırılan Qara şəhərin məntiqi davamı idi. Məhz Ağ şəhərdə Bakının sənaye-zavod rayonunun keyfiyyətləri əks etdirilmişdir. Qara şəhərin düzbucaqlı plan şəbəkəsi ki, burada müəyyən nizamlılığa hələ riayət edilirdi, inkişaf etmiş kapitalizm dövründə, boş torpaqlardan istifadə yollarını təqdim etdi. İndi artıq hər şey sənaye sahiblərinin maraqlarına və zavod tikintisinin texniki tələblərinə tabe idi; Ağ şəhərin ərazisinin istifadəsində tək və müntəzəm planlaşdırma nəzərə alınmırdı.

Yalnız ayrı-ayrı zavodların ərazisi və onlara birləşmiş sahələr az-çox mütəşəkkil surətdə həll edilirdi və onların abadlaşdırılmasına müəyyən diqqət yetirilirdi.

XX əsrin başlanğıcında Bakıda artıq böyük sənaye rayonu var idi. Sənaye və zavod sahibləri şəhər rəhbərliyindən daha tədbirli idilər və ona görə də zavod rayonunun yeni planlaşdırma quruluşunun forştadtın kiçik məhəllələri və dar küçələrinin yanında üstünlüyünü tez bir zamanda qiymətləndirdilər.

**1870-ci illərin şəhərsalma tədbirləri.** Neft torpaqlarına olan iltizam üsulunun ləğv etdirilməsi (1872-ci il) və neft sənayesinin inkişafı – şəhər təsərrüfatının bütün sahələrinin fəallaşdırmasına təkan verən Ümumrusiya əhəmiyyətli bir hadisədir. İstiqamətləndirici perspektiv Baş planın olmaması səbəbindən mövcud olan xaotik inkişaf təhlükəsinin qarşısının alınması məqsədilə 1872-ci ildən şəhərin bəzi artan hissələrin tənzimlənməsi və onların planlarının tərtib edilməsi üzrə layihə işləri aparılırdı.

Formalaşan şəhərin müxtəlif hissələri onun ərazi artımının prosesində iqtisadi, coğrafi və siyasi şəraitdən asılı olaraq təşəkkül tapırdı. Belə ki, Bakı qalasının hərb məntəqəsi kimi ləğv edilməsi esplanadanın geniş zolağının istifadə edilməsinə, ümumşəhər mərkəzinin və yerli burjuaziyanın yerləşdiyi abad məhəllələrlə birgə mərkəzi rayonun yaradılmasına imkan verdi. Qara Şəhərin meydana gəlməsi, Zaqafqaziya dəmiryolunun Bakıya qədər uzadılması, dəmiryolu stansiyasının və vağzalın tikintisindən (1883) sonra əhəmiyyətli dərəcədə artmış şərq istiqamətində tikinti üçün ayrılmış zonanın inkişafına təkan verirdi. Şəhərin şimal istiqamətində böyüməsi Şamaxı poçt yolu boyunca baş verirdi. Şəhərin inkişafının mövcud ilkin şərtləri və əhalinin artmış rifahı quberniya idarəçiliyinə şəhərin rayonlarının planlarının tərtib edilməsi zərurətini diktə edirdi. 1872-ci ildə məhəllələrin bölünməsi üçün şəhərin cənub-şərq hissəsinin planının şəklinin çəkilməsi yerinə yetirilmişdir. Eyni zamanda buna bənzər işlər, ən kasıb əhali tərəfindən özbaşına tikilmiş şəhərin qərb rayonu üçün də aparılırdı. Məhəllələr qismən nizama salınmış və forştadt (Forştadtın) küçələrinin mövcud istiqamətlərinə bağlanmışdır. Lakin şəhərin mərkəzi küçələrinin və məhəllələrinin aydın xətlərlə planlaşdırılması ətraflarda öz şəhərsalma quruluşunu itirirdi. Məhəllələrin tikintisində şəhərin ümumi planlaşdırma quruluşunun tam mənzərəsini verməyən qurama planların məhdudiyyəti aşkar olunurdu. 1873-cü ildə Bakı şəhərinin ümumi planının tərtib edilməsi üçün ilk addımlar atıldı, hansı ki, işlə əlaqədar "ümumi planın plana çəkilməsi üçün mərz çəkmə məmurları partiyasının təyin edilməsi haqda" göstəriş meydana çıxdı. Qafqaz canişini tərəfindən təsdiq edilmiş planın əldə olunması (18 yanvar 1899-cu il) üçün 25 il lazım gəldi. Bakının ümumi planının tərtib edilməsi sahəsində bürokratik süründürmələr davam edərkən, şəhər həyatı öz axarı ilə gedir və şəhər kənarının hansı hissəsinin daha intensiv inkişafından asılı olaraq, Bakının böyüməsi əlavə məhəllələrin hesabına baş verirdi. Belə ki, şəhərin şərq hissəsinin planı canişin tərəfindən 1873-cü ildə təsdiq edilmişdi, Qara şəhərin planı isə onun tərəfindən 1876-cı ildə təsdiq edilmişdi. Şəhərin şimal və qərb ətraflarına gəldikdə, 1876-cı ildə onların da təsdiq olunması üçün ayrıca planlar tərtib edilmişdi.

Şəhərin daha çox sıx-sıx tikilmiş və sıx məskunlaşmış qərb hissəsi forştadtın əsasını təşkil edirdi və şəhər orqa-



*Bakının planı, 1878-ci il.*

nizminin yerdə qalan yenidən yaradılan və layihələndirilən hissələri üçün birləşdirici mənbə idi. Məhz buna görə, şəhərin tikinti üçün ayrılmış ərazisinin nizama salınması oradan başlayırdı. Forştadtın planlaşdırılması bir çox hallarda qeyri-qənaətbəxş idi: burada kor-təbii inkişafın qalıqları, küçələrin təsadüfi istiqamətləri, məhəllələrin konfiqurasiyalarının müxtəlifliyi, çoxsaylı dalanlar və s., hökmranlıq edirdi.

Burada, Təzə-Pir məscidinin ətrafında, 1878-ci ilə kimi sonralar Təzə-Pir adlandırılan böyük rayon yaranmışdı. Hələ XVIII əsrdə, bəlkə də erkən, orada ictimai tikililərin bütöv bir kompleksinin və su kəməri yollarından birinin mövcud olması ilə əlaqədar bu sahə mənimsənilmişdi. 1796-cı ilin planında qəsrin, məscidin və karvansaranın binaları, onlardan cənuba və cənub-şərqə tərəf isə qalanın geniş ətrafı qeyd olunmuşdu. Qəsrin himayəsi altında yerləşən məscid yerli əhali üçün cəlbedici qüvvəyə malik idi. Daha sonralar, hərbi əməliyyatlar zamanı (1826), qəsr və karvansara yox olduqda, salamat qalmış məscid, Təzə-Pir forştadtının yeni yaşayış rayonunun şəhərsalma faktoru oldu.

Bakının quberniya mərkəzinə çevrilməsi və onun fəal kapitalist inkişaf yoluna daxil olması, ətraf kəndlərin böyüməsinə dərhal öz təsirini göstərdi. Qalanın erkən cənub-qərb ətraflarından biri olan Çəmbərəkənd kəndi - yüksək zirvələrdə yerləşir və cənuba, dənizə tərəf istiqamətdə böyüməyə və forştadt ilə yaxınlaşmağa meyllidir. Bakının bu ətrafının dəqiq arixini müəyyən etmək çətindir, Bayılov kəndi, Təzə-Pir rayonu və digərləri, sonralar yox olmuş məskənlər kimi onun hələ XVIII əsrdə mövcud olması istisna edilmir.

XIX əsrin ikinci yarısında, orada artıq 20-dən çox kəndli evləri var idi. Bu kənd çoxsaylı qarışıq, dar küçələri, xəlvəti döngələri və dalanlardan ibarət aul uslublu kənd idi. Burada yoxsul kəndlilər və matroslar yaşayırdı. 1871-ci ilə qədər onun ərazis 4 dəfədən çox artmışdı.

Çəmbərəkənd kəndi hər hansı bir tikinti qaydalarına riayət edilmədən, kortəbii inkişaf edirdi: təbii ki, onun qarmaqarışıq planlaşdırma quruluşunu bir növ nizamlamaq və şəhərin böyüyən rayonunun normal inkişafı üçün layihə tərtib etmək lazım idi.

Təsdiq edilməmiş layihələrsiz tikilmiş, özbaşına tutulmuş sahələr, yeni məhəllələrin nizama salınması və bölünməsi zamanı bir-birinə zidd planlaşdırma hallərinə səbəb olurdu. Bax buna görə, "özbaşına tikənlərin" tikililəri səbəbindən məhəllələrin sərhədlərinin və küçələrin istiqamətlərinin nişanlanması təbii çətinliklərlə müşayiət olunurdu, hansıları ki, ciddi inşaat nəzarəti olmadan hərdən aşmaq mümkün olmurdu və buna görə də bəzi yerlərdə təsadüfi planlaşdırma vəziyyəti qalırdı.

"Tikintiyə olan tələbat və şəhərin mümkün qədər düzgün tikilməsi üçün bütün vəsaitləri vermək arzusunda olan keçmiş quberniya rəislərinin göstərişləri və şəxsi sahibkarlar tərəfindən təxmin edilən öz torpaq sahələrində tikib abadlaşdırmaq zamanı naturada, yerlərdə rast gəlinmiş və rast gəlinən plandan müxtəlif dəyişikliklərə və kənara çıxmalara səbəb, şəhərin təsdiq edilmiş, yəni 1864-cü ilin planından kənara çıxmalar belə geniş sahə üçün planlaşdırılmamışdı...", quberniya idarə heyətinin iclasında qeyd olunurdu.

Yaranmış vəziyyət, 5 mart 1875-ci ildə quberniya idarə heyətini şəhərin qərb hissəsində sahələrin tikilməsi üçün şəxsi sahibkarlar tərəfindən təqdim edilən layihələrin "şəhərin bu hissəsinin planlaşdırılması və nizama salınmasına qədər təsdiq edilməməsi" haqda qərar çıxartmasına məcbur etdi.

Quberniya administrasiyası bina tikənlərə layihə sənədləri əsasında böyük ərazinin düzgün nizama salınması imkanının verilməsi məqsədilə şəhər memarından şəhərin qərb hissəsinin planının tez tərtib olunmasını tələb edirdi.

Şəhərin qərb hissəsinin plana çəkilməsi yerölçən Ostrovskiyə və şəhər memarı vəzifəsini icra edən A.Koşinskiyə təklif edildi.

Yerin şəklinin çəkilməsi zamanı həm yerölçən, həm də şəhər memarı çox məhdud planlaşdırma məqsədləri güdürdülər: onlar faktiki olaraq mövcud vəziyyəti təsbit etməklə məşğul idilər. Quberniya idarə heyətinin inşaat bölməsi bu planları nəzərdən keçirərkən ümumi planın yaradılması üçün onlara bəzi əlavələr edilməsinin tələb olunduğunu mü-

əyyən etdi. Qərb hissənin ümumi planının tərtib edilməsi 10 iyun 1877-ci ildə şəhər memarı O.Porfirova təklif edildi, hansından ki, "planın yerindəcə tərtib edilməsi mümkün qədər tez və məhəllələrin bölünməsi və tikilmə xətlərinin çəkilməsi zamanı rəhbərlik üçün çox vacib olan ümumi planın həqiqətdə tərtib edilməsi" tələb olunurdu.

Bir ildən sonra Porfirov qubernatora şəhərin qərb hissəsinin nizama salınması üzrə ümumi planını təqdim etdi. Şəhərsalma nöqteyi-nəzərindən öz vəzifəsini o, geniş şəkildə başa düşürdü. Yaranmış vəziyyəti və şəhərin böyümə perspektivini nəzərə alaraq, Porfirov şəhərin qərb hissəsində əhəmiyyətli dərəcədə genişlənməsini qabaqcadan nəzərə almışdı. Daha əlverişli planlaşdırma həlli məqsədilə bəzi tikililəri sökərək, o, küçələrin istiqamlərinin yönəltməsini yerin relyefinə uyğun olaraq müəyyən etdi.

Belə ki, şəhərin qərb hissəsindəki meydanların birini Təzə-Pir məscidi rayonunda nəzərdə tutmuşdu. O, burada köhnə tikililərin sökülməsini və "o yerdə bir dənə də olsun ictimai meydanın olmaması səbəbindən şəhərin ictimai faydası və abadlaşdırılması üçün boş torpaqlarla birlikdə meydana çevrilməsini" nəzərdə tuturdu. Porfirov müasir Niyazi küçəsi ərazisində yeni meydanın yaradılmasını təxmin etməklə şəhərin sahil boyu və Çəmbərəkənd ətrafı istiqamətində inkişafını da nəzərə alırdı. Eyni zamanda o, Çəmbərəkəndin yenidən qurulması layihəsini işləyib hazırladı.

Bu barədə dair Porfirov yazırdı: "Belə qərar Bakı şəhərinin və xüsusilə də Çəmbərəkənd yerinin daimi sakinlərinin xahişlərinə əsaslanmışdı və şəxsi qənaətimə görə tərtib edilən planda bütün Çəmbərəkənd yerini göstərməyə məcbur idim, harada ki, şəhər sakinləri çöx köhnə evlərdə yaşayır və hər yağışdan sonra evlərinin düzəldilməsi xahişləri ilə müraciət edir; bu arada təsdiq edilmiş Baş planın olmaması səbəbindən onların evlərinin tikilməsi və düzəldilməsi qadağan olunurdu". Quberniya idarə heyəti sakinlərin çətin vəziyyətdə olduqlarını və bu yerin təsdiq edilmiş planı olmaması səbəbindən tikintinin qadağan olunmasını bilərək Çəmbərəkəndin tikilməsinin nizama salınması üçün Porfirovun layihəsindən istifadə etmədi, memarın şəxsi ifadəsinə görə onun həlli yollarını "nəzərdən qaçırdı" və bu haqda planlaşdırmanın müəllifi çox heyfsilənirdi.

Porfirovun planı quberniya idarə heyətinin inşaat bölməsində dəstəklənmədi və Çəmbərəkənd ərazisinin nizama salınması işi bir çox illər uzadıldı.

Quberniya idarə heyəti Porfirovun planını qeyri-qənaətbəxş hesab etməklə, 1878-ci ilin iyununda "küçələrin istiqamətləndirilməsində böyük dəyişikliklər etməməklə... küçələrin və məhəllələrin nizama salınması zamanı tikintisi artıq başlamış fərdi sakinlərin tikililərini nəzərə almaq təklifi ilə" əlavələrin və düzəlişlərin edilməsi üçün bütün layihə materiallarını yeni şəhər memarı – ştabs-kapitan A.Laudanskiyə təhvil verdi.

Quberniya idarə heyəti planların tərtibatçılarından mövcud tikililərin saxlanılmasını tələb edirdi (hətta əgər o məhəllələrin nizama salınması və küçələrin istiqamətləndirilməsinə mane olurdusa belə). Şəhərin rayonlarının planlaşdırılması zamanı bu əsas tələb idi. Quberniya administrasiyasının baxışla-

rının məhdudluğu və praktisizm onun bütün fəaliyyətini müəyyən etdi və Bakının kompozisiya quruluşuna yaxşılaşdırmaların daxil edilməsində memarların cəhdlərini heçə endirirdi.

Bakının memarı vəzifəsini icra edən A.Laudanskiy inşaat bölməsinə nəhayət ki, qənaətbəxş qəbul edilmiş, məqsədlərə və vəzifələrə cavab verən, şəhərin qərb hissəsinin ümumi planını təqdim etdi.

Laudanskinin planı, yekun qərar üçün yenicə yaradılmış Bakı şəhər idarəsinə göndərildi (1878-ci il). Orada o, bir çox həll edilməmiş planlaşdırılma məsələləri, sxematizm və ümumi şəhərsalma ideyasının olmamasına görə peşəkar tənqidə məruz qaldı. Plan üzrə ekspert, Bakı şəhərinin memarı O.Porfirov çıxış edirdi. 13 iyul 1878-ci ildə o, öz yekun qərarını təqdim etdi.

Porfirov müəyyən etdi ki, planda bir çox məhəllələrin düzgün göstərilməsi səbəbindən tikintinin xarakterinin müəyyən edilməsində qarışıqlıq yaranmışdır. O, aşkar etdi ki, azad sahələr kimi hesab edilən şəhər sahələri tikilirdi, mövcud məhəllələrin və küçələrin xətlərinə riayət olunmamışdı, bu xüsusiyyətləri nəzər almaqla inşa edilmiş köhnə tikililərin düzgün həllinin təlqin edilməsinə baxmayaraq yeni məhəllələrin bölünməsində isə yerin relyefi nəzərə alınmamışdır. Ostrovski və Porfirov tərəfindən tərtib edilmiş planlarda göstərilmiş, şəhərsalmanın vacib elementləri kimi meydanlar da, həmçinin planlaşdırmaya daxil edilməmişdi.

Porfirov yazırdı ki, "təsdiq edilməsi üçün nəzərdə tutulmuş plan, şəhər memarı Laudanskiy tərəfindən naturada yoxlanılmadan Ostrovskinin və Koşinskinin planlarından köçürülmüşdür". Bu arada, vaxtilə quberniya idarə heyəti, O.Porfirovun planını qeyri-qənaətbəxş hesab etməklə, hər cəhətdən şəhərin xeyri üçün onun daha diqqətəlayiq hesab edilməsinin gərəkli olmasına baxmayaraq, Laudanskiy tərəfindən tərtib edilmiş plana (yoxlamadan) üstünlük verdi.

Görünür ki, Laudanskiy yerin təftiş edilməsi üzrə işlərin aparılmasını lazım bilmədi və sadəcə olaraq öz sələflərinin materiallarından istifadə etdi.

Bax buna görə, şəhərin qərb hissəsinin planlaşdırılmasına düzgün olmayan münasibətdə müşahidələrin və aşkar edilmiş faktların əsasında ekspertizanın yekun rəyində Porfirov xüsusi olaraq qeyd etdi ki, "həm şəhərə, həm də xüsusi şəxslərə, təsdiq olunması üçün nəzərdə tutulan plan, əhəmiyyətli dərəcədə zərərdən başqa heç bir fayda gətirə bilməz; birincisi, özünün tam olmadığına görə, ikincisi isə, Çəmbərəkənd və forştadt arasındakı yerdə məhəllələrin düzgün olmayan bölünməsinə görə".

Aydın oldu ki, bu ərazi üçün layihə iki variantda tərtib edilmişdi: məhəllələrin yerləşdirilməsinin düzbucaqlı sistemi ilə və "məhəllələrin şəkillərinin çəpəki çəkilməsi ilə". Yerin relyefindən asılı olmayaraq, şəhərin planlaşdırılma strukturuna daxil olmalı məhəllələrin planlaşdırılması variantının hər ikisini nəzərdən keçirərkən, şəhər idarəsinin texniki qeyd etdi ki, "təsərrüfat nöqteyi-nəzərindən şəhər üçün məhəllələrin düzbucaqlı şəklinin çəkilməsi üzrə nizama salınmasının xərcləri çox mənfəətlidir, texniki olaraq isə düzgündür. Çəpəki çəkilmə isə mənfəətli deyil, gigiyenik və qəşənglik nöqteyi-nəzərindən isə olduqca münasib deyil".

Lakin nə o, nə də bu variant həqiqətə çevrilmədi, ona görə ki, Baş plan bununla, axıra qədər işlənib hazırlanmadı. Porfirovun planından başqa bütün planlar, məhdudlaşdırılmış səciyyə daşıyırdı. Yalnız Porfirov öz layihəsində mövcud vəziyyəti düzgün qiymətləndirməklə bu inkişaf edən rayonların sakinlərinin və şəhərin ümumi maraqlarını nəzərə almışdı. O, Bakının inkişaf prosesində daimi olaraq meydana çıxan əlavə məhəllələrin planlaşdırılmasının qurama layihələrini əvəz edə bilən perspektiv plan təklif etdi.

Porfirovun planı, şəhərin qərb hissəsinin peşəkarcasına işlənib hazırlanmış yeganə Baş planı idi. Onun quruluşuna məhəllələrə bölünməklə ərazinin genişlənməsi daxil idi və yerin xüsusiyyətini və mövcud tikililəri, qalanın ətrafında magistralı, həmçinin Təzə-Pir və Bağ meydanı kimi təşkil edici elementləri nəzərə alırdı. Baxmayaraq ki, Porfirovun planı layihə sənədi kimi hüquqi qüvvəyə minməsə də, lakin sonralar, ayrı-ayrı hallarda Nikolayev küçəsinin nizama salınması zamanı (hətta xüsusi olaraq müəllifin özü tərəfindən) ondan istifadə edilirdi.

Nə qədər paradoksal olsa da, bütöv bir zavod ərazisinin yox edilməsindən sonra (yaşayış məhəllələri zonasında yerləşmiş 147 zavod), şəhər təsdiq edilmiş perspektiv Baş planı əldə edə bilmədi, baxmayaraq ki, Bakının quberniya mərkəzinə (1859-cu il) çevrilməsindən kifayət qədər vaxt keçmişdi (20 il) və yalnız 1878-ci ildə şəhərin ümumi Baş planının tərtib edilməsinə başladılar. Baş planın tərtib edilməsi zamanı şəhərsalma və maliyyə çətinlikləri ilə birgə şəhər idarəsinin yaradılması ilə əlaqədar quberniya idarə heyətində də inzibati dəyişikliklər meydana çıxdı. Bu Bakının perspektiv planının təxirə salınmasının ilkin şərti oldu.

**1878-ci ilin planı.** 1878-ci ildə yerölçənlər tərəfindən çəkilmiş "Quberniya şəhəri olan Bakının yerləşməsinin" faktiki planı mürəkkəb planlaşdırılma vəziyyətini qeydə alırdı. Bakı buxtasının sahilindəki geniş sahə bir-birindən asılı olmayan üç inzibati-ərazi hissələrindən ibarət idi: aqlomerasiyanın mərkəzində - Bakı, cənubda – admirallıqla birgə Bayıl və şərqdə - sənaye-zavod zonası (Qara şəhər). "Aqlomerasiyalar bir növ şəhərin xələfidir və müasir sənayeləşmənin xüsusi məhsulu qismində meydana gəlirlər. Hər bir belə aqlomerasiyada, öz yolu boyunca xırda tikililəri udaraq durmadan genişlənən əsas şəhər başda durur", - deyə Piter Self özünün "Şəhər öz sərhədlərindən çıxır" kitabında yazırdı.

Bayılın planlaşdırılması quruluşu onun sıx tikilməsi və şimal-qərb istiqamətində sahil boyu böyümə tendensiyası ilə artıq müəyyən edilmişdi. Qısa müddət ərzində Qara şəhər layihələşdirilən sahənin üçdə birini tutmuşdu. Əraziləri müxtəlif xarakterinə və təzyinatına görə cinahlardan qoruyan Bayıl və Qara şəhər, prinsip etibarilə bu üç müstəqil hissələrin bir-birini cəzb etmələrinə baxmayaraq, şəhər torpaqları xaricində yerləşirdi və planlaşdırılma quruluşuna daxil edilirdilər. İnkişaf edən neft sənayesi bu hissələrin birləşməsinə, əhalinin artımına və şəhər büdcəsinin artmasına yardımçı oldu. Əgər 1864-cü ilin planına görə Bakının ərazisi özü-özlüyündə yığcam, lakin çox da böyük olmayan ərazidən ibarət idisə (cəmi 89,3 ha), onda 1878-ci ilə kimi şəhər bütün istiqamətlərdə, başlıca olaraq, şimala tə-

rəf, Şamaxinka rayonunun meydana gəldiyi yerdə Şamaxıya aparan böyük poçt yolu" boyunca və qərbə tərəf, Dağüstü rayonun hüdudlarına doğru genişlənərək Qərb platosu yamacları boyunca genişlənmişdi.

Şimal istiqamətində tikilmə, 1864-cü ilin Baş planında nəzərdə tutulmuş məhəllələri yarım kilometrdən çox adlayıb keçmişdi. Şəhər torpaqlarının şərq hissəsində dəmiryolu xəttinin və vağzalın (1883) meydana çıxmasına qədər "Şamaxıya aparan böyük poçt yolu" şəhərin Rusiyanın digər hissələri ilə əlaqəsi üçün böyük əhəmiyyətə malik idi. Məhz buna görə Şamaxinka rayonu tikinti üçün xüsusi olaraq əlverişli yer oldu; buradaca, yol boyu memarlıq nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb etməyən və tikintinin yalnız tətbiqi təyinatına cavab verən karvansaralar yerləşmişdi.

Şərqdə böyük sənaye rayonu - Qara-şəhərin yaranmasına baxmayaraq, Bakı şərq istiqamətində zəif inkişaf edirdi (1878-ci ilin Baş planına əsasən). Beləliklə də, o 1864-cü ilin Baş planında layihələşdirilmiş, məhəllələrin hüdudlarından kənara çıxmadı.

Amma şəhərin sərhədi ilə sənaye rayonu arasındakı ərazi boş deyildi, lakin eyni zamanda o nizama da salınmamışdı. Burada hələ zavodların qalıqları salamat qalmışdır (Telefonnaya küçəsi və vağzal rayonunda Masumovun zavodu, Suraxanı küçəsində Venzerin və Krasilnikovun zavodları və başqaları). Bu ona görə baş vermişdi ki, zavodların sökülməsindən və onların Qara şəhərə köçürülməsindən sonra bəzi sahibkarlar tikililəri müxtəlif emalatxanalar və evlər kimi saxladılar.

Petrovski meydanından Qara şəhərə qədər 300 m-dən artıq endə olan sahil zolağı bataqlıq yerdən ibarət idi. Onun məmimsənilməsi dəmiryolu stansiyasının və magistrala çıxan yolların meydana çıxması ilə yalnız bir neçə ildən sonra uğurla başladı.

Qaladan cənub-şərqə tərəf olan məhəllələrin bir hissəsi dəniz kənarına bilavasitə yaxınlaşaraq bütövlüklə formalaşdı. Şəhər dairəsində yerləşən sahil zolağı da həmçinin nizama salındı; Merkuryevski küçəsi və sahil boyu arasındakı məhəllələr sırası kimi o da aydın ümumi şəkil aldı. İşlər hələ 1868-ci ildə memar Qasım bəy tərəfindən, o, şəhərin bu hissəsinin abadlaşdırılması və mərkəzin tikilməsi ilə məşğul olarkən aparılmışdı.

Olqinskaya və Milyutinskaya küçələri arasında meydana gəlmiş məşhur "Qafqaz və Merkuriy" adlı gəmi şirkətinin doku uzun illər, Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər öz tikililəri ilə şərq istiqamətində dəniz kənarının və bulvarın böyüməsinə mane olurdu. Genişləndirilməsi üçün şəhər öz torpaqlarını geri almağa nə qədər çalışsa da şirkət güclü idi.

1878-ci ilin planına görə Nikolayevski və Sadovaya küçələri sahəsi zəif inkişaf etmişdi, onun əsaslı tikintisi cüzi idi, Çəmbərəkənd və şəhərin cənub-qərb hissəsi arasında ara qalmışdı. Sadovaya küçəsi rayonunda neft məhsullarının dəniz vasitəsilə daşınması üçün qablama materiallarının hazırlanması ilə məşğul olan müəssisələr yerləşirdi.

Bu rayonun münasib yerdə yerləşməsi, daha sərfəli şəhər sahələrini ələ keçirməyə və gəlirlər əldə etmək məqsədi ilə onları tikməyə can atan burjuaziyanın diqqətini hələlik cəlb etmirdi. Zavodların Qara şəhərə köçürülməsi çəllək istehsal edən müəssisələrin fəaliyyətini

*Bakı stansiyasında vağzal binasının layihəsi. Birinci mərtəbənin planı.*





*Dəmir yolu vağzalının ümumi görünüşü (Ş.S. Fətullayevin şəkili).*

çətinləşdirdi. "Qablaşdırma materiallarının bu yerdən neftayıran zavodlara çatdırılması mənfəətsiz oldu. Çəlləkçilərin yeni əraziyə köçmə məsələsini həll etdikləri zaman, Nobel ilk dəfə neftdaşıyan gəmiləri işə salır" [8]. Bununla da, işlərinin təşkil edilməsinin hər cür imkanlarını itirərək əksəriyyəti öz fəaliyyətini dayandırdı və çəlləkçilərin kustar müəssisələrinə ağır zərbə endirildi və yalnız onlardan ən iriləri Qara şəhərin sərhədində yerləşdilər.

Çəlləkçi müəssisələrinin ləğvi və sənaye zonasının yaxınına köçürülməsi sayəsində Sadovaya küçəsi rayonu burjuaziyanın "təmiz" məhəllələri rayonuna çevrildi. Şəhər hüdudlarından kənara çıxmış Dağüstü hissədəki məhəllələr aullar kimi tikilirdi. Buna bənzər nizamsızlıq Şamaxinka, Kərpicxana və Qanlı-Təpə rayonlarında da müşahidə olunurdu.

1878-ci ilin planında, sonralar ictimai bağlar və parklar olmaqla mərkəzi rayonun planlaşdırma quruluşunda vacib yer tutmuş yaşıl əkililər də qeyd olunmuşdu. Onların təsiri bu rayonun hüdudlarından kənara yayıldı: Qubernator və Mariinski bağları, Sisianov parkı.

1864-cü ilin planı ilə müqayisədə, o zaman onun genişlənməsi şimal və şərq istiqamətlərində məhəllələrin iki cərgəsi ilə məhdudlaşırdı, 1878-ci ilin planı şəhərin

nə dərəcədə böyümüş olduğunu görmək imkanını verir. Qalanı və həmçinin müvafiq olaraq 20-30 məhəllələrin tikilmiş olduğu Bayılı və Qara şəhəri saymamaqla, indi Bakının tikilmiş məhəllələrinin sayı 120-yə çatmışdı.

Qərbdən şərqə olan iki son nöqtələr arasında şəhər dəniz kənarı sahil zolağının uzunluğu təqribən 2 km idi. O, bulvarla birlikdə möhtəşəm dəniz kənarına çevrilə bilər və şəhərin bəzəyi ola bilərdi. 1878-ci ilə kimi şəhər ərazisinin diametri qərbdən şərqə 1,5, cənubdan şimala isə - təqribən 2 km (ümumi sahəsi 250 ha) idi. Əgər 1864-cü ildə forştadtın tikilmiş sahəsi 89.3 ha təşkil edirdisə, 1878-ci ildə isə Qara şəhər və Bayılı saymamaqla, şəhərin ərazisi 250 ha-a çatmışdı. Bu hələ neft sənayesinin inkişafının kustar xarakter daşıdığı bir zamanda baş verirdi.

Qısa müddət ərzində (təqribən 15 il) tikintinin sürəti, o dövrün Rusiya şəhərləri üçün qeyri-adi olmaqla, təqribən üç dəfə artmışdı. Bakının sürətli inkişafına digər faktorlar da təsir göstərmişdi: Bakı limanının artan əhəmiyyəti, şəhərin quberniya mərkəzinə çevrilməsi və qalanın hərbi məntəqə kimi ləğv edilməsi.

Məhz bu dövrdə Bakının mühüm şəhərsalma xüsusiyyətləri müəyyən olundu: indiyə qədər də qorunub saxlanılmış spesifik rayonlara bölünmə, inzibati-ictimai mərkəzin və şəhərin cinahlarda olan hissələrinin formalaşması (cənubdan – Bayıl, şərqdən isə - Qara şəhər). Elə o zaman Böyük Bakının əsası qoyuldu.

Sonralar şəhərin intensiv olaraq böyüməsi, əsasən şərqə və şimal-şərqə, Bakının inkişaf planlarında nəzərdə tutulan tikinti üçün ayrılmış sahələr və sənaye zonaları arasında aranı tamamilə ləğv etməklə, şəhər məhəllələrinin zavod rayonlarına sıx yaxınlaşdığı yerə yönəlmişdi.

Şərq hissəsinin əlavə məhəllələrinin 1873-cü ildə təsdiq edilmiş planı, orada yerli şəraitin nəzərə alınmasına baxmayaraq, hələ həqiqi əsas almamışdı. İlk əvvəl bu planda küçələrin eninin minimal ölçüləri nəzərdə tutulmuşdu (10 m) "bir tərəfdən, cüzi sayda boş torpaqların olması səbəbindən tikinti üçün daha çox yerlərin verilməsi, digər bir tərəfdən isə - bu küçələrin daşla döşənməsi üçün gələcəkdə şəhərdən tələb olunacaq xərclərin azaldılması nöqteyi-nəzərindən".

Lakin qubernator, şəhərin şərq hissəsində əlavə məhəllələr planını təsdiq etmədi və geniş küçələrin (26-27 m) layihələndirilməsini təklif etdi (gigiyenik nöqteyi-nəzərindən), yəni, şəhərin mövcud olduğu hissəsindən də geniş, harada ki, artıq hələ o dövrdə hətta birikimərtəbəli tikinti zamanı sıxlıq hiss olunurdu. O, qeyd edirdi ki, şəhərin ərazisinin yeni hissələrinin vahid yerləşməsi üçün "birinci mənfəətləri ikinci mənfəətlərin xeyrinə qurban vermək lazımdır".

Şəhər nəhəng templərlə inkişaf edirdi. Onun sənaye və ərazi artımı Rusiya imperiyasının əksər iri şəhərlərindən xeyli çox idi. "Bakı şəhərini Amerika tipli şəhər kimi hesab edilməsi qəbul edilmişdi, yəni onun inkişafının intensivliyi Amerikanın iri şəhərlərinin böyüməsi kimi başgicəlləndirici idi", - deyə 1923-cü ildə V.Smirnov yazırdı [29] və bununla razılaşmamaq olmazdı.

İqlim və topoqrafik xüsusiyyətlər əsasında, o dövrün şəhərsalma tələblərinə uyğun olaraq, tikinti üçün ayrılmış yeni layihələndirilən rayonları inkişaf etdirmək

və formalaşmış hissələri nizama salmaq üçün şəhərin ümumi Baş planının tərtib edilməsi zərurəti getdikcə daha kəskin hiss olunurdu. Bakının memarlıq-planlaşdırma quruluşunun təşkil edilməsində yeni mərhələ 1878-ci ilə aid edilir.

Şəhər ərazisi genişlənirdi, yeni rayonlar meydana gəlirdi və bununla da mərkəz və ətraflar arasında ziddiyyətlər kəskinləşirdi. Abadlaşdırmağa gəldikdə, şəhər Duması ətraf rayonları lazımi diqqətdən kənarda qoymaqla, həmişə üstünlüyü mərkəzi məhəllələrin yaxşılaşdırılmasına verirdi.

Şəhərin şimal-şərq hissəsində, tikinti üçün ayrılmış və sənaye zonaları arasında, iri yaşıl massivin yerində, 1880-ci illərin əvvəlində dəmiryolu vağzalının binası tikilirdi. Bu rayonda dəmiryolu binaları kompleksi və yollar üçün ərazinin seçimi yalnız, nisbətən sakit relyefin olması ilə deyil, həm də şəhər ilə əlaqələndirilmiş Abşeron yollarının birləşən qovşağı ilə də qabaqcadan müəyyən edilmişdi. Bakının iqtisadiyyatına güclü təsir göstərən, yaxınlıqda perspektivli sənaye-zavod rayonunun inkişaf etdiyi də nəzərə alınırdı. Şəhər məhəllələrinin qərbdə, şərqdə isə - Qara şəhərin ən ucqar sərhədləri olmaqla, iri şəhərin həndəsi mərkəzində dəmiryolu qovşağının meydana çıxması, müxtəlif xarakterli zonaların vahid şəhərsalma strukturunda birləşməsini sürətləndirdi.

Bakı üçün o da səciyyəvi idi ki, yerin tarixi topoqrafiyası şəhər ərazisinin memarlıq-planlaşdırma təşkilinə təsir göstərirdi və Baş planları tərtib edənləri onun xüsusiyyətləri ilə hesablaşmağa məcbur edirdi. Bakının ümumi planlaşdırılma sxemi o prinsipə əsaslanmışdı ki, kapitalist şəhərinin çox sürətlə böyüməsi ilə əlaqədar meydana çıxan ziddiyyətlərə baxmayaraq, mövcud yollar şəbəkəsi şəhər orqanizminin planlaşdırma strukturu üçün əsasdır.

1880-ci illərdə, ardınca vağzal rayonunda şəhər torpaqlarının çoxsaylı "işğalçılarının" qeyri-mütəşəkkil tikintiləri başladı. Yaranmış vəziyyət, Dağüstü platonun qərb hissəsində yaranmağa başlamış və sonralar şəhər idarəsinin uğursuz nizama salma cəhdlərinə bənzər, şəhərin yeni qeyri-mütəşəkkil rayonunu yarada bilərdi.

Sistemsiz rayonun yaranmasının ilkin şərtlərini istisna etmək məqsədilə Uprava, mövcud küçələrin istiqamətləri ilə şərtləşdirilmiş, onun iri, lakin uzadılmış məhəllələrə bölünməsinin planlaşdırılmasının tərtib edilməsi üzrə addımlar atmağa cəhd etdi. Dəmiryolu qovşağının meydana gəlməsi sahibkarlara iqtisadi mənfəətlər vəd edirdi və buna görə də, hələ Xəzər və Qara dəniz sahillərini özündə birləşdirmiş, dəmiryolu nəqliyyatının açılışına qədər vağzal rayonunda sahələrin kortəbii şəkildə alınmasına başlanıldı. Nəinki Balaxanı yolundan şimala və cənuba tərəf olan boş sahələr, həm də dəniz kənarı zolağındakı sahələr də alınırdı. Sonuncu, "dəniz sahilində çürümüş bataqlıq suyunun yoluxdurucu atmosferindən əhalini xilas etməyi" nəzərdə tutan Upravanı qane edirdi.

Torpaqların zəbt edilməsi elə vüsət almışdı ki, şəhərin başçısı kömək üçün Bakı qubernatoruna müraciət etmək məcburiyyətində qalmışdı. 7 may 1882-ci ildə o, yazırdı: " Bu zəbt etmələr, hal-hazırda çox böyük miqyas almışdı... həm də özü-özlüyündə, tikililərin memarlıq şərtləri

qəbul edilmir, evlər kəndlərdəki daxmalara bənzər düzgün olmayan qarışıq kiçik qruplarda tikilir. Bu cür tikililər həm gecə, həm də gündüz, bütöv bir fəhlə kütləsinin köməyi ilə qaldırılırdı". "İşğalçılar" bir çox hallarda küçələrin istiqamətlərinə riayət etmirdilər və tikinti işləri sistemsiz aparılırdı. Əgər hər hansı bir dərəcədə, hələ də onların ümumi istiqamətləri ilə hesablaşırdılarsa, onda detallarda onların konturlarını müxtəlif çıxıntılarla birgə elə əyri-üyrü xətlərə gətirib çıxarırdı ki, ilkin istiqamət planlaşdırma mənasını itirirdi.

Ərazinin yenidən planlaşdırılan şərqi və şimal-şərqi hissələri və hətta gələcək – Balaxanı və Bolşaya Morskaya magistralları – qarma-qarışıq xarakterə malik idilər. Bu primitiv tikintiyə yalnız polisin köməyi ilə "cərrahi" müdaxilə, yeni məhəllələrin düzbucaqlı şəbəkəsini yaratmağa və forştadtın mövcud istiqamətləri ilə uyğunlaşdırılması imkanını verdi.

Hiss olunurdu ki, gələcəkdə, sahil zolağı və dəmiryolu stansiyasının yaxınlığında yerləşmiş bu rayonun qarşısında şəhərin ticarət və sənaye həyatında vacib rolu dayanırdı. Təəccüblü deyil ki, xüsusi sahibkar mühitinin mürəkkəb şəraitində ehtimal edilən ərazinin planlaşdırılması və məhəllələrə bölünməsi üçün tam mənası ilə güc tətbiq etmək lazım gəlirdi.

Bakı-Tiflis (1883) dəmiryolu hərəkətinin açılış müddətinə kimi yeni məhəllələrin nizama salınması sabitləşdi və küçələrin istiqaməti dəqiqlik formasını aldı. Lakin özbaşına tikintinin izləri hələ də aradan qaldırılmamışdı. Onlar şəhərin istənilən yerində hiss olunurdu, köhnə və yeni məhəllələrin nizama salınmasında böyük çətinliklər yaradırdı.



*Mühəndis N.A. fon der Nonne (1832-1908-ci illər).*

Paradoksal haldır ki, mübahisəli ərazilərin sahəsi 3329 ha, mübahisəsiz ərazilərin sahəsi isə - cəmi 534,4 ha təşkil edirdi. Təbiidir ki, mübahisəli torpaqların şəhər torpaqlarından altı dəfə çox olduğu belə bir halda, şəhər üçün qiymətli olan bu torpaqların nizama salınması cəhdləri nəticəsiz qalırdı.

Bakının sənaye və iqtisadi cəhətdən yüksəlişi torpaqların qiymətlərinin şişirdilməsinə səbəb olurdu; torpaq "işğalçıları" çoxdankı sahib olma müddətindən spekulyativ əməliyyatlar üçün istifadə edirdilər. Şəhər üçün çox mühüm olan bu torpaq məsələsinin nizama salınması üzrə geniş şəhərsalma proqramı ilə Dimanın qlasnılarından biri (*inqilabdan əvvəl: şəhər Duması üzvü*) – H.C.A.Tağıyev çıxış etdi. O, təklif edirdi ki, "şəhər Düması elə indicə, örüş torpaqlarının planı-



*Deburun yaşayış evinin ümumi görünüşü. Müh. N.A. fon der Nonne.*

nın tərtib edilməsi haqqında düşünsün, yəni, küçələri, bağları, bulvarları, meydanları, bazarları, məscidlər, kilsələr üçün torpaq sahələrini, məktəbləri və s., ictimai idarələri layihələşdirsin və tərtib edilmiş planı təsdiq edilməsi üçün hökumətə təqdim etsin".

Qlasnının fikrincə, mübahisəli torpaqlar üzrə məsələnin həlli üçün bütün torpaq sahələri öz sahiblərinə havayı olaraq elə mütləq şərtlə güzəştə gedilməli idi ki, layihələndirilən plan üzrə bağların, bulvarların, meydanların, küçələrin və ictimai idarələrin – məscidlərin, məktəblərin, hamamların və digərlərinin tikilməsi üçün şəhərin ixtiyarına keçəcək torpaqların miqdarı qədər mübahisəçi – şəhərlilər öz tərəflərindən həmin torpaqları şəhərə güzəştə getsinlər. Bundan başqa digər bir şərt də mövcud idi, torpaq sahələrinin sahibləri beş il müddətində öz sahələrinin yarısını və ya üçdə bir hissəsini ağaclarla əkməyə borclu idilər.

Qlasnının ərazini geniş küçələr, meydanlar, bağlar və bulvarlarla zənginləşdirə biləcək nəhəng örüş torpaqlarına bütün şəhərsalma elementləri ilə birgə düzgün planlaşdırmanın inkişafını vermək təklifi bütün tərəflərin problemlərini həll etmiş olurdu. Cənub iqlim zonası üçün vacib olan özəl torpaq sahələrinin yaşıllaşdırılması məsələləri də həll olunurdu.

Sonralar, polkovnik Nikolay Avqustoviç fon der Nonne tərəfindən işlənib hazırlanmış Bakının Baş planında, qlasnının maraqlı təklifinin əsas şərtləri istifadə olunmuşdu. O təəccüblü idi ki, Bakının ümumi Baş planının tərtib edilməsi məsələləri ilə özünün məşğul olmasına borclu olduğu halda ictimai idarə, yerli ərazilərin hüdudlarında qurama planların yaradılması və üzünün köçürülməsi ilə kifayətlənirdi.

Bakının şərq hissəsində, daha sonralar, vasitəsilə vağzal, sənaye zonası və Abşeronla əlaqələri yerinə yetirən ümumşəhər əhəmiyyətli magistrallara çevrilmiş küçələr meydana gəldi. Onlardan birincisi, 1913-cü ildə Romanovskaya adlandırılmış Telefonnaya küçəsi idi. Orada başlıca olaraq, nəqliyyat idarələrinin binaları və topdansatış ticarət müəssisələri cəmləşmişdi, zirzəmi mərtəbələrini isə mal anbarları tutmuşdular. Əsas yola çıxan yolları kəsib keçdikdən sonra bu magistral Qara şəhərə istiqamətlənirdi, daha sonra isə Ağ şəhər rayonunun içərisinə uzanırdı. İkinci magistral – Balaxanskaya da, pərakəndə ticarətin qızğın arteriyasına, sənətkar cərgələrinin, kustar emalatxanaların və karvansaraların rayonuna çevrilmişdi.

Bakı dəmiryolu qovşağı, şəhərin içərisindən keçən, dəmiryoluna paralel olaraq Balaxanı şosesi boyunca inkişaf etməyə başlamış Zavağzal (Vağzalın arxası) rayonunun həyatını fəallaşdırdı. Burada dəmiryolu emalatxanaları, mal anbarları, depo peyda oldu, dəmiryolu fəhlələri, xırda qulluqçular və məmurlar burada yerləşdilər.

Dəmiryolu idarəsi ilk yaşayış evlərini öz mühəndislərinin layihələri üzrə yol boyu tikirdi. Elementar avadanlığın (su kəməri, kanalizasiya) olmaması, işgüzar və ticarət mərkəzlərinin uzaqlığı, həm də onlardan dərə-təpəli relyeflə "ayrılmış" olması ilə əlaqədar, Zavağzal rayonu əvvəlcə zəif tikilirdi.

Mərkəzi məhəllələrin (burjua) tikilməsi ilə əlaqədar, Molokan qəsəbəsi özünün Molokan (Mariinski) bağı rayonundakı çarvadarlıq həyətləri və at tövlələri ilə birgə tamamilə söküldü, molokanlar isə tamamilə yeni və hələ ki, perspektivsiz olan Zavağzal rayonuna köçürüldülər. Burada onlar, dəmiryoluna perpendikulyar və Balaxanı şosesinə paralel yerləşən iri məhəllələrin, küçələrin düzbucaqlı şəbəkəsi ilə planlaşdırılması və tikintisi indi də 8-ci və 9-cu Zavağzal, 2-ci və 4-cü Slobodskaya küçələri arasında salamat qalmış yeni molokan çarvadarlıq qəsəbəsini yaratdılar.

Zavağzal rayonunun əksinə olaraq, Balaxanı küçəsi tərəfindən cəzb edilən, vağzalın və dəmiryolu stansiyasının təsir dairəsində olan pərakəndə ticarəti, kustar və sənətkar emalatxanaları cərgəsi ilə Qanlı-Təpə rayonu şimal istiqamətində, mövcud və şəhərin şərq və şimal-şərq hissələrinin yenicə yaranmış küçələrinin xətləri boyunca sürətlə inkişaf edirdi.

Nəinki Qafqazın, həm də Rusiyanın bütün şəhərlərindən kəskin seçilən Bakının getdikcə artan iqtisadi əhəmiyyəti, burada əhalinin bir yerdə cəmləşməsinə səbəb olurdu. İnkişaf edən sənaye şəhər həyatının bütün sahələrinə təsir göstərir və Bakı "amfiteatrının" ərazisinin genişlənməsini qabaqcadan müəyyən edirdi.

Bakı öz təsirini, tamamilə müstəqil dəniz koloniyası – Bayıl rayonuna da yayırdı. Əgər hələ yaxın keçmişə qədər, iq-

tisadi cəhətdən ilkin şərtlərin olmaması səbəbindən o zəif inkişaf edirdisə, Qara şəhərin yaranması, Bayılın yanında, Bibi-Heybət rayonunda neft mədənlərinin açılması Bayılın Bakı istiqamətində genişlənməsinə təkan verdi.

Bayıl burnunu keçməklə dəni boyunca şəhərdən müqəddəs müsəlman ziyarətgahı – məscidi olan Şıxov kəndinə gələn yeganə yol, ən əvvəl zəvvarların yolu idi. Özlərinə qapanmış və şəhərin ticari-sənaye həyatında iqtisadi cəhətdən iştirak etməyən dəniz koloniyasının ilk yaşayış məhəllələri elə həmin yol boyunca meydana çıxdılar. Zəvvarlar yolu, hətta Bayıl burnunun tikintisi zamanı fəal nəqliyyat yolu kimi də xidmət edə bilməzdi.

1870-1880-ci illərin hüdudlarında başlamış Bibi-Heybət neft mədənlərinin gücləndirilmiş şəkildə istismarı heç nə ilə diqqətəlayiq olmayan bu yolun əhəmiyyətini artırdı: o Bibi-heybət neft mədənlərindən neftin Qara şəhərin zavod ərazisinə çatdırılmasında mühüm arteriyaya çevrilirdi. Geriyə, mədənlərə tikinti materialları və mədən avadanlıqları daşınırdı.

Yolun ikitərəfli istismarı onun hər tərəfinin tikilməsi xarakterinə gətirib çıxartdı. Tezliklə, dəniz koloniyasının yanında, yolun istiqaməti boyunca mədənlərdən asılı olan fəhlələr və xırda qulluqçular, qəlyanaltıxanalar, çayxanalar və dükanlar cərgəsi əldə etdilər. Bayıl bu ticarətdən gəlir əldə etməyə başladı və eyni zamanda kapitalist münasibətlərinin məcrasına cəlb edildi. Xırda alverlə məşğul olan, istefaya çıxmış dəniz qulluqçuları da, həmçinin şəhər məhəllələrinə, işgüzar və ticari mərkəzə yaxın olmağın onlara hansı mənfəətləri vəd etdiyini başa düşdülər. Hələ də şəhər idarəsindən asılı olmaması kimi hesab edilsə də və hüquqi cəhətdən 1912-ci ilə qədər müstəqil dənizçi qəsəbəsi kimi qalmasına baxmayaraq, o vaxtdan bəri Bayıl, şimal istiqamətində tikilməyə və şəhərlə yaxınlaşmağa can atırdı. XIX yüzilliyin düz sonuna kimi, gələcək tikinti üçün ehtiyatda saxlanılmış ətraf rayonlarla, qəsəbələrlə və örüş torpaqlarla birgə şəhərin ümumi planlaşdırılma konturu müəyyən olundu. Mərkəzi məhəllələrin həddindən artıq sıx və intensiv yerləşdirilməsi aydın oldu. Onların ərazisi demək olar ki, artıq tamamilə tikilmişdi və boş torpaqların ehtiyatı tükənmişdi. Neft sənayesi ilə bağlı işlərin daha gəlir gətirən olduğunu hesab etmələrinə, yerli kapitalistlərin həvəssiz ev tikintisi ilə məşğul olmalarına baxmayaraq, hər halda yenə də, mərkəz məhəllələrində torpaq sahələri ilə spekulyasiyaya başlanıldı.

**1898-ci ilin planı.** Bayıl burnundan Ağ şəhərə qədər uzanmış tikintinin sürətli tempi və şəhərin ərazi cəhətdən böyüməsi və şəhər təsərrüfatının getdikcə artan həcmi, səciyyə etibarı ilə bərabər dəyərli olmayan tikintinin nizama salınması ilə əlaqədar geniş dairəli məsələlər, əlavə məhəllələrin qurama planlarından "müasir tələbləri və fikirləri tam təmin edən, Bakı şəhərinin Baş planının" tərtib edilməsini israrla tələb edirdi.

1889-cu ilin 8 fevralında Bakının qubernatoru şəhərin başçısına "Bakının ümumi planının təsdiqlənməsi üçün təqdim edilməsi işinin sürətləndirilməsi haqda" yazırdı. "İndiyə qədər şəhər tərəfindən belə bir plan təqdim edilməmişdir"...

Ayrı-ayrı rayonların pərakəndə halda planlaşdırılmasını əlaqələndirən və

hansısa bir cəhətdən şəhərin perspektiv tikintisini nizama salan, birləşdirici planın yaradılmasında təxirəsalınmaz tələbatın vaxtı çatmışdı. Bakının Baş planının işlənib hazırlanması tarixində, on ildən artıq davam edən, növbəti mərhələ başladı. Bu müddət ərzində, xüsusilə şimal və şimal-qərbi hissələrdə, şəhərin planlaşdırılma strukturu daha çox mürəkkəbləşmişdi, yəni, əvvəllər tikintisi şəhər hüdudlarından kənarda aparılan Dağlıq plato rayonu, aul tipli qarma-qarışıq planlaşdırılmanı qoruyub saxlamış, mexaniki olaraq şəhərin hüdudlarına girmişdi.

1887-ci ildə şəhər idarəsi Bakı şəhərinin Baş planının tərtib edilməsi üçün yerölçən A.Bubnovu dəvət etdi və yalnız bununla məşğul olmağı ona tapşırdı. Əslində isə Bubnov əsas məsələlərin həllindən həmişə torpaqla əlaqədar mübahisələrin yoluna qoyulmasına yayınırdı və böyük əhəmiyyətli sənədi nəzərdə tutulmuş vaxta qədər hazırlaya bilmədi. Bubnov, nivelir əsası olmadan, texniki cəhətdən işlənib hazırlanmamış, şəhərin ayrı-ayrı hissələrinin yalnız altı planşet planlaşdırılmasını yerinə yetirməyə müvəffəq oldu. Tezliklə o, bu işdən kənarlaşdı.

Bubnovun materialları, Baş planların təsdiq edilməsi haqda Daxili işlər Nazirliyinin 66 nömrəli 10 mart 1870-ci il tarixli sərəncamı ilə müəyyən edilmiş mövcud müddəalara uyğun gəlmirdi. Bakının qubernatorunun şəhər başçısına "şəhərlərin məhz təsdiq edilmiş planlar üzrə tikilməsi və Bakı şəhəri üçün belə bir planın olmaması... şəhər ərazisinin düzgün inkişafına mane olması haqda", dəfələrlə söylədiyi fikirləri diqqətsiz qalırdı.

Nümunə kimi, şimal ətraflarda əhalinin ən kasıb təbəqələri üçün xeyriyyə qəsəbələrinin yaradılması haqda Dumanın 1897-ci il qərarı göstərilə bilər. Belə qəsəbə üçün 109,25 ha torpaq sahəsi ayrılmışdı. Onun ərazisinə - 450-dən 900 kv.m-ə qədər üç növ torpaq sahəsi daxil idi (torpaq sahələrinin ümumi miqdarı 1037). Orta ailənin beş nəfərdən ibarət olması şərtilə qəsəbənin əhalisi 5000 sakin təşkil edə, yəni müasir mikrorayon əhalisinin sayına çata bilərdi. Qəsəbənin ümumi sahəsinə ictimai idarələrin yerləri – məktəblər, xəstəxanalar, dini ayinlər üçün ibadət binaları və digərləri də daxil idi.

Şəhər hüdudlarından 2-3 km uzaqlıqda yerləşən qəsəbə, elementar abadanlıq növlərindən məhrum idi. Tikinti materiallarının gətirilməsi üçün yolların, su kəmərinin, ticarət müəssisələrinin, ictimai binaların (hamamların, məktəblərin və s.,) olmaması, ilk dövrdə, sakinlərə narahatlığın acısını çəkməyə məcbur etdi. Lakin, artıq 1899-cu ilin birinci yarısına qədər evlərin sayı 400-ə çatdı və onların içərisində bir neçə iki-üçmərtəbəli evlər də var idi.

Şəhər rayonlarındakı mövcud sıxlığın əksinə olaraq, burada geniş küçələr və sərbəst tikinti qabaqcadan nəzərə alınırdı. Şəhərin digər hissələri qarşısında bu qəsəbənin mühüm üstünlüyü idi. Qəsəbə, sənaye zonasından və sıxlaşdırılmış yaşayış məhəllələrindən uzaqda, Bakı amfiteatrının yuxarı terrasında, əlverişli iqlim xüsusiyyətləri olan yerdə yerləşirdi.

Məhz bu rayonda, sovet dövründə professor A.P.İvanitskinin layihəsi üzrə Sovet İttifaqında abad fəhlə qəsəbələri arasında birincilərdən Məmmədyarov adına qəsəbə yarandı. Xeyriyyə yönümlü qəsəbənin planlaşdırılması isə şəhərin di-

gər hissələri üçün adi hallərdən kənara çıxmırdı. Güclü külək rejimi ilə Bakının iqlim şəraitində tam əlverişli səmtləşdirilməsilə birgə geniş üz tərəfi ilə cənuba çevrilmiş məhəllələrin yerləşdirilməsinin düzbucaqlı sistemi tamamilə qəbul oluna bilən idi. Qəsəbə şəhərdən təcrid olunmuş kimi planlaşdırılmamışdı, onun əsas konturları və meridional küçələrin istiqaməti mövcud şəhər küçələrinin davamı ilə razılaşdırılmışdı.

Tədricən tikilərək, şəhər məhəllələri qəsəbələrə yaxınlaşarkən, onlar da öz növbəsində böyük məişət mənfəətləri vəd verən şəhərlə yaxınlaşırdılar. Belə hallarda abadlaşdırmanın sadə növləri (səkilərin düzəldilməsi və s.,) qəsəbəyə də yayıla bilərdi.

Bakının inkişafında belə bir qaydada görüntü müşahidə edilirdi, sonralar ümumi planlaşdırılma strukturuna daxil edilmiş şəhər və onun gələcək hissələri, elə bil sinxron inkişaf edirdi, biri-biriləri ilə yaxınlaşırdılar, yəni mərkəzdən - ətraflara və əksinə, hansı ki, şəhərin ümumi formalaşmasını sürətləndirirdi.

O dövrdə tez-tez, Baş planların tərtib edilməsi və layihə işlərinin aparılması ilə şəhər idarələrinin torpaq şöbələrinin nəzdində olan yerölçənlər məşğul olurdular. Onlar iqlimin xüsusiyyətləri, yerin xarakteri ilə hesablaşmadan, şəhərin bu və ya digər hissələrinin quruluş imkanlarını nəzərə almadan, planlaşdırmanın ibtidai əsaslarına söykənmiş həllər təklif edirdilər.

Belə vəziyyət təkcə Rusiyada deyil, kapitalizmin özünün iqtisadi və sənaye qələbələrinin çox sürətli yüksəlişində şəhərsalmanın əsl incəsənətinin, şəhərin planlaşdırılması həllində rasionalizmlə və praktisizmlə əvəz olunduğu Qərbi Avropa şəhərlərində də müşahidə olunurdu. "Memarlığın məqsədlərindən və həcmli-məkan kompozisiyasından ayrılmış planlaşdırma, küçələri çəkən və məhəllələrin ölçülərini və konfiqurasiyaların mexaniki olaraq müəyyən edən mühəndislərin və hətta yerölçənlərin ixtiyarına keçirdi" [32].

Məhz Bakı da belə bir vəziyyətə düşdü, o dövrdə, məsələn, Yelizavetpolda (Gəncə), 1868-ci ildə onun quberniya mərkəzinə çevrilməsindən dərhal sonra şəhər rəhbərliyinin səyləri mövcud tikintinin nizama salınmasının və gələcək tikintinin istiqamətləndirilməsinin mümkün edilməsi əsasında şəhərin inkişafının perspektiv planının yaradılmasına yönəldilmişdi.

Cari işlərlə yüklənmiş öz əməkdaşlarının gücü ilə yaxın zamanlarda şəhərin Baş planının yaradılmasına müyəssər olmayacaqlarına əmin olan Bakı Upravası nəhayət ciddi addımlar atmaq qərarına gəldi. Bu xüsusilə, ərazilərin genişlənməsinə və nəticə etibarı ilə onun nizama salınması zərurətinə gətirib çıxaran, cürbəcür binaların tikintisi haqda sakinlərin çoxsaylı ərizələri ilə stimullaşdırılırdı.

4 mart 1897-ci ildə Bakı şəhər Duması nəhayət, polkovnik N.A. fon der Nonne tərəfindən şəhərin planının tərtib edilməsi haqda xüsusi olaraq yaradılmış Upravanın plan üzrə komissiyasının qərarını təsdiq etdi. O, bu işi 16 ay ərzində, 33500 rubla yerinə yetirməyi öz öhdəsinə götürdü.

Qlasnılar belə bir məsələ qaldırırdılar ki, niyə Upravada güclü tərkibli mühəndis və memarların olmasına baxmayaraq, üstünlük özəl şəxsə - N.A. fon der Nonneyə verilmişdir. Şəhərin perspektiv planını yaradarkən, işin yaradıcı

xarakteri səbəbindən, İ.V.Qoslavski, K.B.Skureviç kimi mülki mühəndislər, İ.V.Edel, A.V.Eyxler, Y.Y.Skibinskiy və başqaları kimi memarlar, onun memarlıq-planlaşdırma quruluşuna daha çox bədii əsas gətirə bilər və onun kompozisiyasında zəruriliyinə şübhə edilməyən, həmin çatışmayan şəhər formalaşdıran elementlərə nail ola bilərdilər. Lakin, onlar başlıca olaraq, şəhər qulluğunda çalışırdılar, peşəkar ustalıqlarına görə nəinki fon der Nonnedən geridə qalmırdılar, hətta ondan üstün idilər, xüsusilə Bakının baş memarı – Qoslavski. O, Bakının memarlıq-tikinti mühitində istedadlı bir memar kimi seçilirdi, onu hətta Qafqazın Rastrellisi adlandırırdılar.

Praktiki nöqteyi-nəzərdən Upravanı daha çox fon der Nonne qane edirdi, belə ki, o, 1883-cü ildən 1894-cü ilə qədər şəhər mühəndisi idi və Bakını yaxşı tanıyırdı. Şəhər uzun illər fon der Nonnenin bilavasitə rəhbərliyi altında genişlənirdi və tikilirdi, üstəlik həm də, çoxdan bəri təcrübəli mühəndis və memar kimi tanınırdı. Nəhayət, şəhər qulluğundan azad fon der Nonne digər tapşırıqlarla rəsmi olaraq yüklənə bilməzdi.

Şəhərsalma elminin dəyəri yenicə yaranan dövrdə, lazımi qədər qiymətləndirilmirdi və buna görə də, şəhər planlarının tərtib edilməsinə, başlıca olaraq, yerölçənlər, istiqaməti göstərənlər, mühəndislər cəlb edilirdilər, lakin bunların səriştələri müasir şəhərin memarlıq-planlaşdırma tələblərinə cavab verən layihələrin yaradılmasına imkan verə biləcək mütəxəssislər deyildilər.

Fon der Nonne plan komissiyasında vaxtında müzakirə edilməsi üçün ilkin layihə planı hazırladı. O diqqətəlayiqdir ki, şəhərin Baş planının müzakirə edilməsində iqtidarı olan bu komissiyanın tərkibinə Upravanın tikinti şöbəsinin mühəndisləri və memarları daxil edilmədilər, hətta şəhərin baş memarı Qoslavski də dəvət edilməmişdi. Ən vacib şəhərsalma məsələlərinə Upravanın belə münasibəti Bakının inkişafı üçün Baş planın əhəmiyyətinin lazımi qədər qiymətləndirilməməsini təsdiqləyir. Bu son dərəcə ciddi layihə sənədinə yanaşma dar idarəçilik praktisizmi ilə müəyyən edilirdi.

1898-ci ilin 1 mayında plan üzrə komissiya şəhərin qaralama planı ilə tanış oldu, fon der Nonne tərəfindən qəbul edilmiş göstərişlərlə tamamlayıb bir neçə iradlar etdi, hansı ki, sonra 27 oktyabr 1898-ci ildə Bakı Duması tərəfindən təsdiq edilmiş layihəni Upravaya təqdim etdi. Bakının ümumi planının işlənib hazırlanması vaxtına yaxın 1898-ci ildə, qaladan şimala tərəf yerləşmiş məhəllələr, düzgün düzbucaqlı şəbəkə şəklində yerinə yetirilmişdi. Bu rayon, təxminən Fars və Erməni küçələri arasındakı ərazini əhatə edirdi.

Sıx tikilmiş xırda məhəllələri ilə birgə forştadta ən "köhnə" olan bu mərkəzi rayon, şimal-qərb-şərq istiqamətində inkişaf edən şəhərin yeni məhəllələri və rayonları üçün təməl idi. Yaşayış məhəllələr sistemində hər hansı bir memarlıq ansamblını istisna edən forştadtın mexaniki planlaşdırılması özünü göstərirdi. Ansambl elementlərinin ilk nişanələri 1864-cü ilin Baş planında meydana çıxdı. Lakin ansambl tikililər, kompozisiyalı şəhərsalma elementlərinin yaradılması və Bakı amfiteatrının gözəl imkanlarının istifadəsi tamamilə inkar edilirdi. Planları

tərtib edənlərin - yerölçənlərin adi planlaşdırma düşüncələri ilə məhdudlaşdırılan memarlar, özlərinin bütün enerjilərini fərdi tikintidə, sifarişçilərin maraqlarına tabe olan həcmli-məkan məsələlərinin həllinə yönəltdilər. Məhz bu səbəbdən, şəhərin tikintisi, məsələn, dənizkənarı şəhər olan Odessanın planlaşdırılması əsasına qoyulmuş həmin ilkin şərtlərə malik deyildi. Şəhər Upravasının uzaqgörən olmaması səbəbindən Bakıda şəhərin kompozisiya strukturunu formalaşdıran ansamblların yaranması mümkün deyildi.

Fon der Nonne müqavilə ilə sıx bağlı idi, belə ki, özəl sahibkarların maraqlarını nəzərə almaq lazım gəlirdi. Layihənin işlənib hazırlanması zamanı o, mövcud tikilmə ilə hesablaşmalı idi, hərçənd ayrı-ayrı hallarda, ola bilsin ki, heç olmasa, küçələrin lazımi minimal eninin təmin edilməsi üçün bütün köhnə tikililərin sökülməsi məqsədəuyğun olardı. Bununla belə o, çox şey etdi. Fon der Nonnenin tapşırığı nə dərəcədə uğurla həll etməsi, gələcəkdə şəhər memarları tərəfindən planın yerinə yetirilməsi zamanı, planlaşdırılma və texniki qəbildən olan mübahisəli məsələlərin meydana çıxdığı zaman aydın oldu.

1870-ci illərdən başlayaraq, Bakının Baş planının yaradılması, təbii olaraq, fon der Nonnenin işinə də iz qoymaya bilməzdi, hansı ki, özünün məhdud şəhərsalma bilikləri səbəbindən, vahid inkişaf etməkdə olan planlaşdırma orqanizmi kimi şəhərin bütün ərazisinin yaradıcı anlamına varmadan yalnız əsas layihə nişanlarını - sxemi verməyi bacardı.

Fon der Nonne o dövrün minimal şəhərsalma tələbləri əsasında şəhərin yeni cəmlənən hissələri ilə mövcud tikintini bir arada bağlamağı vacib hesab edirdi.

1898-ci ildə mühəndis fon der Nonne tərəfindən tərtib edilmiş "ehtimal edilən nizama salma və genişləndirmənin göstərilməsi ilə quberniya şəhərinin yerləşməsinin mövcud və layihələndirilən planı" [37], şəhərin planlı şəkildə inkişafı üçün yeni mərhələ sənədi və eyni zamanda, 1878-ci ildən başlayaraq, Bakının iqtisadi yüksəlişinin gur başlandığı dövrdən onun nəhəng böyüməsini xarakterizə edən layihə sənədi idi.

O vaxtdan bəri 20 il keçdi və şəhər hamını, tam mənası ilə sənaye və iqtisadiyyat sahələrində özünün nəhəng uğurları ilə heyrətləndirdi: o iti sürətlə böyüyüb artırdı.

Dağüstü hissə və qarma-qarışıq tikintisi ilə Çəmbərəkənd qərb istiqamətində inkişaf edirdilər. Keçmişdə bu rayonlar şəhər hüdudlarından kənarda yerləşirdilər və sərbəst tikililərlə genişlənirdilər: onlara şəhər inşaat komitəsinin təsiri şamil edilmirdi. Şəhər ərazisinə girərkən bu rayonlar, hələ uzun müddət aul xarakterini qoruyub saxlayırdılar.

Paralel küçələr, əsasən, şəhər yoxsullarının azmərtəbəli evləri ilə tikilmiş Şamaxinka rayonunun planlaşdırma strukturunu aydın şəkildə müəyyən edirdi. Qarma-qarışıq planlaşdırılması ilə Kərpic-xana və Qanlı-Təpə rayonu böyüyüb genişləndilər. Zavağzalnıy artıq formalaşdı və şərq istiqamətində böyüməyə meylli olan Sahil rayonlarında tikinti genişləndi. Bütün bu rayonlar, tikintinin intensiv getdiyi və ticarət həyatının cəmləşdiyi dəmiryolu ilə vağzalla bilavasitə bağlı idilər.

Özünün zavod məhəllələri ilə demək olar ki, tam tikilmiş Qara şəhər, Ağ şəhər



*Olqinskaya küç., 4. H.Z. Tağıyevin Pasajı. İnteryer. Mülki mühəndis K.B.Skureviç. 1896-1899-cu illər.*

*Olqinskaya küç., 4. H.Z. Tağıyevin Pasajı. Fasadın hissəsi.*



rayonunu əmələ gətirməklə sahil zolağını və şəhər torpaqlarının şərq hissəsini tutdu.

Sıx tikilmiş, çox parçalanmış və ikiüçmərtəbəli binaları ilə Bakının mərkəzi rayonu, İçərişəhərə çox sıx yaxınlaşaraq esplanadanı tamamilə tutdu. Bayıl da həmçinin Bakı istiqamətində böyüməyə başladı. Şəhərin ticarət və sənaye fəaliyyəti, gəmilərin yan alması üçün çoxsaylı körpülərin, anbarların və digər tikililərin meydana çıxdığı sahil zolağının mənimsənilməsinə imkan yaratdı. Şəhərin əhalisi praktiki olaraq dənizdən ayrı düşmüşdü. Bayıl doklarından Ağ şəhərin sərhədlərinə qədər, sahil zolağında gəmilərin yan alması üçün 45 körpü yerləşmişdi və bunların arasından "Qafqaz və Merkuriy", "Lebed", "Kaspiy" və başqa şirkətlərin tikililəri seçilirdi.

Təkcə varlı məhəllələri, pasajları, iri mağazaları və mehmanxanaları ilə işgüzar və ictimai mərkəz kimi formalaşmış şəhərin mərkəzi hissəsinin nizama salınmasına ehtiyac yox idi və yeni planın sisteminə tərkib element kimi daxil olurdu.

Əvəzində Çəmbərəkənd və Dağüstü hissə, onların mürəkkəb relyefini nəzərə almaqla güclü yenidən planlaşdırmaya məruz qaldılar. Bir vaxtlar şəhər planının maraqları naminə yerinə yetirilmiş belə yenidən planlaşdırma cəhdində fon der Nonneni günahlandırırdılar; onu onda günahlandırırdılar ki, Baş planı tərtib edərkən o, layihələndirilən küçələr üçün hesablarına torpaq sahələrinin zorla alındığı sahibkarların vəziyyətini nəzərə almadı. İdarə başa düşürdü ki, Çəmbərəkənddə və Dağüstü hissədə düz və geniş küçələrin çəkilməsi, şəhərin digər hissələri ilə onların əlaqəsini yaxşılaşdıra bilərdi, lakin fon der Nonnenin təklifi vaxtsız idi, belə ki, zorla alınan torpaq sahələrinə görə boş şəhər kassasının ödəməyə imkanı yox idi.

Dağüstü rayon böyük yenidən planlaşdırma işlərini və mərkəzi məhəllələrlə əlaqə üçün çoxsaylı giriş yollarının təşkil edilməsini tələb edə bilərdi. Mövcud şəhər magistralları Dağüstü rayona gedib çatmırdı, onların inkişafı əhalisinin sosial təbəqəsinin başlıca olaraq, ən kasıb təbəqələrlə müəyyən edildiyi ətraflara şamil edilmirdi.

Özlərinin mürəkkəb mikrorelyefləri və qarma-qarışıq tikintisi ilə Kərpic-xana və Qanlı-Təpə rayonları fon der Nonnenin planı üzrə onların yaranmış strukturunun imkan verdiyi dərəcədə nizamlanırdı; şəhərin bu hissəsi hələ indiyə qədər keçmişin izlərini qoruyub saxlayır.

Bakının dəniz fasadı praktiki olaraq yaradılmamışdı. Gəmilərin yan alması üçün özəl şirkətlərin körpüləri ilə tutulmuş halda qalan dəniz kənarının köklü dəyişikliklərinə fon der Nonne risk etmədi. O, yalnız onu boş zolaqda genişləndirdi və bulvarın düzəldilməsini nəzərdə tuturdu. Şəhərin ətraf hissələrində başlıca olaraq, yoxsullar yaşayırdı və buna görə də, onlarla hesablaşmadan yenidən qurma işlərini aparmaq olardı. Lakin dəniz kənarında tikinti aparan zaman iri kapitalın maraqlarına toxunmaq lazım gələrdi. Sahil zolağının planlaşdırılması zamanı dəniz kənarı "Qafqaz və Merkuriy" cəmiyyətinin daş anbarları ilə dayandırılırdı, hansı ki, nəzərdə tutulan bulvarın yaradılması üçün həddindən artıq narahatlıq yaradırdı. Dəniz kənarının bu sahəsini layihədə fon der Nonne həll edilməmiş saxladı.

Özünün qəşənq quruluşu ilə, lakin artıq elementar abadlıq elementlərinə

cavab verməyən orta əsrlərə aid qala, şəhər Dumasında daimi müzakirələr və mübahisələr mövzusu idi. "Qala bizim başımızın daşıdır, ona hansı tərəfdən baxsaq, o elə pozuntulardan... ibarətdir ki, əsaslı sökülmə aparmadan onları düzəltmək mümkün deyil; və belə sökülmə layihələri dəfələrlə təklif edilmişdi...". Hətta bəzi şəhər başçıları hesab edirdilər ki, "bütün sahənin şəhər tərəfindən alınması və onun plan üzrə tikilməsi, şəhər üçün mənfəətli əməliyyat ola bilər". Dumada çıxış edərkən qlasnılardan biri qeyd etdi: "əgər qala Londonda, Parisdə olsaydı, şəhərin ən yaxşı hissəsi ola bilərdi. Biz qalanın sakinlərini, onlara məskən salmaları üçün başqa yerlər verməklə, indi yaşadıqları darısqallıqdan, həmin sanitar biabırçılığından onları azad etməyə borcluyuq". Heç bir real qərara gəlmədən, gələcəkdə vəsaitlər axtarıb tapmaq və şəhərin bu tarixi özəyinin mümkün qədər faydalı şəkildə istifadə edilməsi niyyəti ilə Duma İçərişəhər haqqında məsələni açıq saxladı.

Fon der Nonne İçərişəhərə, əsaslı şəkildə yenidən qurma tələb edən sıravi xarakterli ərazi kimi baxırdı. O, nə formalaşmış orta əsrlərə aid həcmli-məkan quruluşu, nə də ki, memarlıq abidələrinin qorunub saxlanılması vəzifələri ilə hesablaşmadı və əslində, özünün qala planında, tikinti ərazisinin "cərrahi" əməliyyatını qabaqcadan nəzərdə tutdu.

Layihə üzrə qalanın ərazisi məhəllələrə elə parçalanırdı ki, onun üçdə biri 17-20 m enində küçələrə keçirdi. Küçələrin eni haqda inşaat nizamnaməsinin şərtlərini qəbul edərək fon der Nonne, qalanın planlaşdırılmasının tarixi quruluşunu – çoxsaylı küçə və dalanları nəzərə almadı. O, standart planlaşdırmanın mexaniki üsulları ilə kifayətləndi; nəticədə - küçələr şəbəkəsini iri həcmli olmaması, hansıların ki, enişləri və istiqamətləri yerin relyefinə uyğun olaraq qəbul edilmişdi. Memarın bu kimi təklifi, demək olar ki, qalanın bütün sakinlərinin maraqlarına toxunurdu və onlar Qafqazda baş rəisliyi icra edən şəxsə planın həllinə yenidən baxılması və onun ləğv edilməsi xahişi ilə şikayət təqdim etdilər.

Quberniya idarə heyəti fon der Nonnenin layihəsini müzakirə etdi və məsələnin yalnız iki həllinin mövcud olduğunu müəyyən etdi: "ya qala hissəsini hər hansı bir nizamlama etmədən saxlamaq (hansı ki, əlbəttə arzuolunmazdır), ya da ki, çoxsaylı döngələrin və küçələrin mövcud istiqamətlərindən çəkinmədən, yeni küçələr layihələndirmək". Belə ki, for der Nonne öz layihəsində ikinci həllə tərəfdar idisə, quberniya idarə heyətinin inşaat bölməsi "qala hissəsinin layihə planının qənaətbəxş tərtib edilməsini..." müəyyən etdi. İnşaat bölməsi əlbəttə ki, qalanın tarixi əhəmiyyətini lazımi qədər qiymətləndirmirdi və buna görə də, qədim şəhərin mövcud səciyyəvi planlaşdırma əlamətlərinin konkret həllinin və o dövrün yenidən qurma tələblərinin istifadəsi imkanlarının axtarıb tapılmasını vacib hesab etmirdi.

Lakin, sıx yaşayış tikililəri ilə əhatə edilmiş Şirvanşahlar SarayKompleksi, Qız qalası, Cümə məscidi kimi qala tikililərinin nadirlik əhəmiyyətini nəzərə alaraq, ekspertiza onların tamaşa üçün açılmalarını, rahat küçələrin çəkilməsini və nəhayət onların ətrafında meydanların yaradılmasını vacib hesab etdi.

Qalanın memarlıq irsinə bu cür münasibət müasircəsinə səslənir və fon der

Nonne tərəfindən yerinə yetirilmiş, planlaşdırmanın layihəsini nəzərdən keçirmiş ekspertlərə qarşı ehtiram hissi doğurur. Qalanın özü-özlüyündə memarlığın nadir abidəsi olmasına baxmayaraq, memarlıq və tarixi cəhətdən maraq kəsb etməyən, şəhərin sıravi meydanı kimi baxılan Azərbaycan memarlığının bu abidələrinə onlar böyük əhəmiyyət verirdilər.

Eyni zamanda, milli memarlığın öyrənilməsi üzrə ciddi tədqiqatlar aparılmırdı, bir qayda olaraq, nadir və monumental binaların təsbit edilməsi ilə kifayətlənirdilər. Qalanın planlaşdırılması məsələləri və onun "kiçik" obyektləri ilə də, həmçinin məşğul olmurdular.

Xoşbəxtlikdən İçərişəhər, bəzi işbazların ümid etdikləri dəyişikliklərə məruz qalmadı. O qala divarlarına salınmış, müəyyən nöqteyi-nəzərdən yeganə tarixi ansambl kimi Sovet hakimiyyəti qurulana qədər demək olar ki, tam qorunub saxlanıldı. Kapitalizm dövründə, bəzi iri Avropa şəhərlərinin tarixi rayonlarının məruz qalmış olduqları, öz maraqlı tikililərini qəmgin şəkildə cansıxıcı olan çoxmərtəbəli gəlir gətirən evlərin yerinə vermiş, xüsusilə Parisin, Praqanın kədərli aqibətlərindən İçərişəhər xilas oldu.

Fon der Nonne tərəfindən işlənib hazırlanmış Baş planda Bakı qalasının yenidən planlaşdırılması xüsusi məsələdir. Onun bütün layihə işi şəhərin mövcud hissələrinin nizama salınmasına və başlıcası, - mülki tikinti ilə intensiv məşğul olan, artan şəhər əhalisi üçün yeni ərazilərin genişləndirilməsi və planlaşdırılmasına yönəldilmişdi.

Fon der Nonnenin planına görə, layihələndirilmiş ərazi şəhərin planlaşdırılmış sahəsini iki dəfə artırırdı. Şimalda Müsəlman və Dağüstü qəsəbələrə, sonra daha uzağa, şimal-şərqdə Zavağzal rayonuna keçməklə, o qərbdə bütün Dağüstü platonu əhatə edirdi. Planlaşdırılmış nəhəng sahənin relyefi yekcins deyildi, bu da, əlbəttə ki, şəhərin ayrı-ayrı hissələri və onların planlaşdırma strukturları, hansılarının əsası kimi qəbul edilmiş məhəllələrin yerləşməsinin düzbucaqlı sistemi arasında qarşılıqlı əlaqəni çətinləşdirirdi.

Dağüstü qəsəbə rayonu (indi Məmmədyarov adına), Qanlı-Təpənin küçələrinin mövcud şəbəkəsinə bağlanmışdı, şimal-qərb istiqamətində məhəllələrin davamı isə dəmiryolu xəttinin yaxınlığında kəsilən Zavağzal rayonunun küçələri ilə əlaqələndirilmişdi. Dağüstü plato rayonu faktiki olaraq, müstəqil həll edilirdi və onun planlaşdırılmasında düzgün üslublu məhəllələrlə kifayət qədər əlaqə müəyyən edilmədi. Əsas kimi qəbul edilmiş yeni planlaşdırma məhəllələrin ölçüləri nəinki şəhərin köhnə hissələrinin məhəllələrindən iri idilər, həm də 1920-ci illərin şəhərsalma normalarının tələblərinə uyğun gəldilər.

Yeni ərazidə məhəllələrin bölünməsi zamanı fon der Nonne, ərazinin mürəkkəb relyefə malik olması halları istisna olmaqla, relyefin xüsusiyyətləri ilə hesablaşmağa çalışırdı. Lakin Bakının planlaşdırılması layihəsində fon der Nonne, təkcə yenidən layihələndirilən ərazinin məhəllələrə bölünməsi ilə kifayətlənmirdi, həm də şəhərsalma üslubunda struktur elementləri də cəsarətlə daxil etdi. Demək olar ki, onun tərəfindən şəhərin bütün layihələndirilən rayonlarında müəllifin ideyasına görə, şəhər ansambllarının birləşdirici elementləri olacaq meydanlar nəzərdə tutulmuşdu: əslində isə



*Bakı ərazisinin genişlənməsi sxemi. XIX əsrin sonu (Ş.S. Fətullayevə görə).*

onların təqribən hamısı lokal, qeyri-miqyaslı xarakter daşıyırdı.

Yaşayış məhəllələrinin mərkəzində yerləşməklə, meydanlar nəhəng ölçülərə malik idilər. Onlara gəlib çatan magistralların və ya heç olmasa, kompozisiyaya xüsusi əhəmiyyət verən, geniş abad küçələrin olmaması, onları hər hansı bir bədii-memarlıq və planlaşdırma ideyasından məhrum edirdi.

Öz məqalələrində fon der Nonnenin Baş planına səciyyəvi xüsusiyyət vermiş müəlliflər, "eyni zamanda şəhərin mərkəzi hissələrində onların demək olar ki, olmaması halında, şəhərin ətraf ərazilərində meydanlar üçün nəzərdə tutulmuş nəhəng, yöndəmsiz, boş yerləri" qeyd edirdilər [21]. Məhz buna görə fon der Nonnenin planı tənqidə məruz qalırdı. Heç şübhə yoxdur ki, məqalə müəlliflərindən heç biri şəhər Upravasının arxivində və quberniya idarə heyətində saxlanılan layihələndirmə materialları ilə tanış deyildilər. Hekayə isə belədir. 1898-ci ilin iyun ayında, şəhər Dumasının iclasında şəhərin planının müzakirəsi zamanı, o cümlədən, yeni ərazilərdə meydanların yerləşdirilməsi məsələsinə də toxunurdular. Fon der Nonnenin planına görə, meydanların ölçüləri tamamilə miqyaslı nəzərdə tutulurdu və orta məhəlləyə bərabərləşdirilirdi. Bu cür üslublu meydanlar planlaşdırmanın məntiqi təzahürü idi. Yerləşməsindən və ölçülərindən, həmçinin əhatə olunan tikintinin səciyyəvi xüsusiyyətindən onla-

rın estetik məzmunu – təntənə, təmtəraq, qapalılıq, açıqlıq asılı idi.

Lakin dumanın qlasnıları fon der Nonneyə "plana görə onların kiçik olmaları səbəbindən meydanların ölçülərinin və saylarının artırılmasını" təklif etdilər. Qlasnıların belə "yaradıcı" iştirakı nəticəsində, Bakının layihələndirilən hissələrində, aydın ifadə edilmiş təyinatı olmadan, tikintinin bitişik strukturunun məkanında əvvəlcədən fəaliyyətsizliyə məhkum edilmiş nəhəng meydanlar peyda oldular. Məhz bu haqda, "şişirdilmiş ölçülər səbəbindən məndəcər kimi qalmağa məhkum olunmuş, nəhəng bazar meydanlarının sistemsiz yerləşməsinə" gileylənən prof. A.P. Ivanitskiy yazırdı [17].

Fon der Nonne, həmçinin öz vaxtında şəhər hüdudlarında onların meydana çıxmasının reallığına inanmayan qlasnıların skeptik münasibətlərinə səbəb olmuş, enli və geniş bulvarlar formasında böyük sayda yaşıl sahələrin yerləşməsini nəzərdə tuturdu. "Bakı şəhərinin yenidən planlaşdırılması" məqaləsinin müəllifi Y. Livşits yazırdı ki, "bu bulvarların eni 60-dan 120 sajinə qədər (128-dən 298, 7 m-ə qədər) ölçüdə planlaşdırılmışdı. Hətta əgər inanılmaz xərclər yolu ilə bu bulvarların yaradılmasını praktikada həyata keçirmək müyəssər olsaydı, düzgün demək lazımdır ki, buna heç bir nöqteyi-nəzərdən bəraət qazandırmaq olmazdı" [21].

Bu məqalənin müəllifinin yanlış proqnozunu, şəhərin şimal hissəsini kəsib keçən və küləkdən effektiv qoruyan zolaq olan, mövcud bulvarın möhtəşəm yaşıllığı təsdiq edir. Meridional istiqamətdə və yuxarıda təsvir edilən kəsib keçən fon der Nonne tərəfindən nəzərdə tutulmuş digər bulvar, S.Vurğun küçəsindəki yaşıl zolağa çevrildi.

Şəhərin planlaşdırılmasına, yeni tikinti üçün ayrılmış zonanın mərkəzində geniş, böyük uzunluğu olan bulvarların daxil edilməsi fon der Nonnenin layihəsinin son dərəcə böyük məziyyəti oldu. Sonralar, prof. İvanitskiy məhz bundan istifadə etdi. 1898-ci ilin planını yüksək qiymətləndirməklə, İvanitskiy yazırdı ki, "o vaxtlar, quyulardan, sisternlərdən və dəniz suyunun şirinləşdirilməsindən istifadə edən, su kəməri olmayan Bakı üçün bu göstərilmə (bulvarların düzəldilməsi – Ş. F.) cəsarətli və eyni zamanda vacib idi" [17].

Fon der Nonne bu problemi həll etməyə çalışırdı və yaşıl massivi cənub şəhərinin sakinləri üçün gözəl istirahət və əyləncə yeri kimi xidmət edə biləcək şəhərin Baş planında böyük park təklif etdi. Xüsusilə, yay aylarında, yaşıllığın olmaması və Bakının güclü küləklərinin (xəzri) onu yaşayış üçün qeyri-münasib zonaya çevirməsi səbəbindən məhz belə bir yaşıl massivə Bakının ehtiyacı var idi. Başlıca olaraq bu, yay vaxtı şəhərdən çıxmaq və yaşayış evləri rayonlarından həddindən artıq uzaqda olan bağ və bağçalara getmək imkanları olmayan zəhmətkeş insanların çoxminlik ordusunun həyatına öz təsirini göstərirdi. Yaşayış məhəllələrinin mərkəzində münasib bir parkın olması, şübhəsiz tikinti üçün ayrılmış xeyli ərazinin mikroiqliminin dəyişməsində müsbət rol oynayardı. Eyni zamanda o, mexaniki olaraq kəsilmiş məhəllələrin planlaşdırılma strukturuna iri şəhərsalma miqyasının kompozisiya elementini daxil edərdi.

İvanitskiy Duma qlasnıları tərəfindən dəstəklənməyən fon der Nonnenin fikri və təklifi barədə bilmirdi. Qlasnılardan biri parkın sahəsini şəhərin bütün



*Rus pravoslav Aleksandr-Nevskiy kilsəsi. Memarlığın akademiki R.R.Mar-feld. 1888-1898-ci illər. İnşa edən mülki mühəndis İ.V.Qoslav skiy. Şəkilin müəllifi Ş.S.Fətullayev.*



*Mühəndis Məmməd Həsən Hacınski. 1875-1931-ci illər.*

hissələrinə bölünməsini tələb edirdi, ona görə ki, "plan üzrə layihələndirilmiş belə parkın, xüsusilə Bakıda saxlanılması çox çətindir". Nəticədə fon der Nonnenin planına görə layihələndirilən bulvarların ümumi sahəsi 100 ha-dan çox təşkil etdi; onlardan 22 ha Dağüstü platonun payına düşdü, yerdə qalan sahə isə kəsişən bulvarlar arasında bölüşdürülürdü.

Planın tərtib edilməsində bir tərəfli yanaşmada fon der Nonneni qınamayaraq, bəzi müəlliflər hesab edirdilər ki, yenidən planlaşdırılmış ərazilərdə nəhəng sahələri və iri yaşıl massivləri qabaqcadan nəzərə alarkən, o, hətta şəhərin mövcud hissəsində "gələcək ağaclar üçün heç olmasa bir neçə yer belə" nəzərdə tutmamışdı" [21]. Məlumdur ki, fon der Nonnenin şəhərin planı ilə məşğul olduğu o zaman, mövcud məhəllələrin hüdudlarında və mərkəzi hissələrdə boş sahələr yox idi, üç-dörd mərtəbəli evlərlə sıx tikilmiş məhəllələri isə başçalar, bağlar və meydanlar üçün ayrılmasına real imkan yox idi.

Dağüstü plato və Zavağzal tərəfə şəhərin genişlənməsi üçün torpaqların düzgün seçimi tamamilə özünə bəraət qazandırır. Yaşayış məhəllələrinin quruluşunda, yeni rayonlarda və geniş dəniz kənarlarının yaradılmasında iri yaşıl massivlərin təşkil edilməsi ideyasının dəyərini qəbul edərkən, qeyd etmək lazımdır ki, ümumiyyətlə götürdükdə planın memarlıq-planlaşdırma məlumatları o qədər də yüksək deyildi.

Planın ümumi kompozisiyası təsadüfidir və işlənməmişdir, onun tərkib hissələri mövcud tikinti ilə uyğunlaşdırılmamışdır, küçələrin ayrılması yoxdur. Rayonların birləşdirilməsi üçün magistrallar nəzərdə tutulmamışdır; nə Dağüstü platoda, nə də ki, Zavağzal rayonunda meydanlara və bulvarlara gətirib çatdıran və onların planlaşdırma kompozisiyasının struktur elementləri ola biləcək magistrallar göstərilməmişdi. Yaşıl əkililərin yerləşdirilməsi də, həmçinin şəhərin ümumi planlaşdırma strukturu ilə əlaqələndirilməmişdir. Belə ki, Sofiya bulvarı (22 ha) Dağüstü platonun cənub sərhədində və yaşayış məhəllələrinin əsas kütləsindən xeyli aralıda (3 km-ə qədər) yerləşmişdir. Əlverişli yerdə yerləşməsinə baxmayaraq (Bakı amfiteatrının şimal kənarında), Aleksandriyskiy bulvarı sona qədər işlənib hazırlanmamışdı. Aleksandriyskiy bulvarı kəsib keçən və enli zolaqla mövcud məhəllələrin içərilərinə doğru uzanan Staroselskiy bulvarı da heyrət

doğurur. Elə belə də, onun tikintisi başa çatdırılmadı.

Bununla belə, ideyasında müsbət planlaşdırma elementlərinin təməli qoyulmuş fon der Nonnenin planı "irəliyə atılmış iri bir addım idi" [17]. Özünün bütün nöqsanlarına baxmayaraq, fon der Nonnenin planı, M.H.Hacınskinin planı və 1920-ci illərdə İvanitskiy tərəfindən işlənib hazırlanmış Bakının Baş planı da daxil olmaqla, gələcək planlaşdırma işləri üçün işin kökü oldu.

Mövcud və planlaşdırılmış hissələrin sahəsi təqribən 1750 ha təşkil edirdi və onların yarısı yeni rayonların payına düşürdü. Ərazinin böyüməsinin belə perspektivi əhalinin çox nəhəng artımı ilə şərtləndirilmişdi. 1910-cu ilə kimi Bakı əhalisinin artım tempinə görə, Paris, London və Nyu-York kimi nəhəng sənaye mərkəzlərini özündən geridə qoymuşdu.

1878-ci ilin planı ilə müqayisədə şəhər torpaqlarının sərhədləri - mənimsənilməsi gözlənilən, özünə 5000 ha-dan artıq əlavə etməklə genişlənmişdir. Fəaliyyətinin ilk günündən başlayaraq, fon der Nonnenin planı, şəhərin Baş planı üzrə müfəssəl surətdə materialların işlənib hazırlanmaması səbəbindən çətinliklərlə qarşılaşan Duma və şəhər mühəndisləri arasında daimi mübahisələr və müzakirələr mövzusu oldu.

Baş plan üzrə bütün sonrakı layihə işləri "kağız üzərində" layihələndirmə səciyyəsi daşıyırdı, mühəndis M.H.Hacinskinin sonrakı redaktəsi ilə fon der Nonnenin planı isə Bakının tikilməsinin nizama salınması üzrə yeganə sənəd olaraq qalmaqda idi.

XIX–XX əsrlərin hüdudlarında Bakı, intensiv ticarət və işgüzar həyatının getdiyi, böyük və kifayət qədər abadlaşdırılmış şəhər hesab olunurdu. Yastı damları ilə iki-üçmərtəbəli evlərin fonunda, İçərişəhərin şaquli minarələri, özünün görünüşü ilə İstanbulu, Tiri, Sidonu, Əlcəzairi və ya İzmiri xatırlatmaqla şəhərin tikintisi Bakı amfiteatrının bütün terrasları üzrə səpələnmişdi.

Bakının mərkəzində pasajlar, iri dükanlar, mehmanxanalar, məşhur ticarət və sənaye şirkətlərinin idarələri və özəl bankları ilə birgə qəşəng küçələr uzanırdı. Yerli milyonçuların sarayları və varlanmış tacirlərin imarətləri, teatrlar və klublar, təhsil müəssisələri, "gəzişən piyadaların ora-bura var-gəl etmələri, konkaların daimi zəngləri, Xəzərin dalğalarında minlərlə gəmiləri və çox gözəl evləri ilə möhtəşəm və dəbdəbəli dənizkanarı" [27]. Bakı şəhərinin ümumi bədii siluetinə İçərişəhərin kənarlarında, amfiteatrın müxtəlif hissələrində yerləşmiş kult tikililərinin şaquli xətləri öz kölgəsini salırdı.

Şəhər ətraflarına gəldikdə isə, tikilmələrinə və abadanlığın olmamasına görə onlar az cəlbedici idilər. Epidemiyaların mənbəyi olmuş şəhərin abad olmayan bu hissələrinin yaxınlığı, mərkəzin varlı məhəllələrinin sakinlərinə də mənfi təsir göstərə bilərdi və istər-istəməz Dumanın narahatçılığına səbəb olurdu. İçərişəhərin abad olmayan zonasının sıxlığının aradan qaldırılmasına çoxdan ehtiyac var idi. Qalada yaşayış evlərinin çoxusunun köhnə olması səbəbindən onların əsaslı təmiri və ya onların yerində yeni tikililərin inşaası nəzərdə tutulmurdu, sakinləri isə şəhərin digər rayonlarında ev tikmələri üçün o qədər də varlı deyildilər, 13 oktyabr 1900-cü ildə Duma,



*Mühəndis Vilyams Lindley. 1917-ci ilin fotosu. Bakı, Şollar, Sankt-Peterburq, Frankfurt-Mayne su kəmərləri layihələrinin müəllifi.*

əsasən qalanın və şəhərin kasıb sakinləri üçün Müsəlman qəsəbəsinin yaradılması haqda qərar qəbul etdi [27].

Fon der Nonnenin planına görə - daha sonra şərqə tərəf getməklə, nəzərdə tutulan Staroselskiy və Aleksandriyskiy bulvarların kəsişdiyi yerdə qəsəbənin salınmasının ilk planını tutdular. Burada bina tikənlər üçün təqdim edilən güzəştli şərtlər, sahələrə tələbatın artmasına səbəb oldu. Lakin, qəsəbənin əsas arteriyalardan və şəhərin ticarət mərkəzlərindən uzaqlığı onun mənimsənilməsinin qabağını alırdı. O diqqətəlayiqdir ki, qoy hətta fon der Nonne tərəfindən eskiz şəklində işlənib hazırlanması olması ilə yeni qəsəbələr, planın şəhərsalma həllinin vahid tərkib hissələri idilər.

Bakının əfsanəvi sərvətlərə malik olması haqda geniş yayılmış fikirlərə baxmayaraq, şəhər geniş şəhərsalma işlərinin aparılmasına imkan verə biləcək maliyyə vəsaitlərinə malik deyildi. 1878-ci ildə Bakının şəhər özünüidarə etmə statusu əldə etdiyi zaman, onun əsaslı şəkildə tikilmiş sıx məhəllələri ilə birgə mərkəzi hissəsi, inzibati-ictimai mərkəz kimi artıq formalaşmış idi və gələcəkdə şəxsi mülklərin zorla alınmasının mümkün olmaması səbəbindən hər hansı bir dəyişikliklərin edilməsi istisna olunurdu.

Şəhərin mərkəzində, başlıca olaraq, yenidənqurma xarakterli işlər aparılırdı. Mərkəzin hüdudlarından kənarda şəhərsalma, gələcək perspektiv ilə müəyyənləşdirilən planlaşdırılma təklifləri ilə məhdudlaşdırılırdı. Belə ki, aul üslublu tikililəri qoruyub saxlamış, əlverişli iqlim keyfiyyətləri və relyefin mənzərəli xüsusiyyətləri ilə birgə Çəmbərəkəndin çoxdan bəri nizamlanmağa ehtiyacı var idi. Dumanın rəyinə görə bu ən mühüm məsələlərdən biri idi. Fon der Nonne mövcud şəraiti nəzərə almırdı və planlaşdırmanı boş ərazidə olduğu kimi həll etdi. Görünür o, bu rayonun keçiş üçün sərt, əlçatmaz, dolaşıq dalan və döngələr şəbəkəsi ilə küçələrin yerinə düzgün və əlverişli enişlər, enli küçələr və geniş məhəllələr yaratmağı qarşısına məqsəd qoymuşdu.

Təklif edilmiş planın həyata keçirilməsi böyük xərclər bahasına başa gəldiyindən onun həlli çətinliklər törədirdi. Fon der Nonnenin planının bu hissəsinin qeyri-real olmasını nəzərə alaraq, Uprava 1903-cü ildə xüsusi komissiyanın tərkibində şəhər mühəndisləri İ.K.Ploşko, P.İ.Koqnovitski və A.V.Eyxlerə Çəmbərəkəndin planlaşdırılmasının yeni layihəsinin tərtib edilməsini tapşırdı.

Rayonun relyefi, şəhər mühəndislərinin fikrincə "öz təbii şəraitinə görə,



*Bakının planı.*
*1918-ci il.*

hal-hazırda məskunlaşma üçün münasib olmaması təqdirində, onlar tərəfindən tamamilə asanlıqla bağlar, bulvarlar və ağaclıqlara çevrilə bilməsi..." ideyasını saldı. Şəhərin bu hissəsinin effektiv və abadlaşdırılmış rayona çevrilməsi məqsədi ilə yaşıl ağaclarla əvəzlənən terrasların tikilib abad edilməsi, azad tikililərin bağlar və bulvarlarla əhatə olunması ideyası ilə birgə burada ictimai bağların və bağçaların yaradılması həyata keçmədi. Düzdür, daimi fəaliyyətdə olan su kəmərinin olmaması şəraitində, bu kimi həllin reallığı şübhəli idi. Bütün köhnə Çəmbərəkəndin yenidən planlaşdırılması planı bütünlüklə 1908-ci ildə tərtib edildi, lakin bu sənəd aşkar edilmədi. Yalnız o məlumdur ki, inqilaba qədər Çəmbərəkənd rayonu yenidənqurmaya məruz qalmamışdı.

Çəmbərəkəndin nümunəsində görünür ki, mövcud vəziyyətə planlaşdırma xarakterli istənilən dəyişikliklərin edilməsi cəhdi, Dumanın dediyinə görə şəhər vəsaitlərinin məhdudiyyəti səbəbindən, həqiqətdə isə - ətrafların probleminin həllinə sinfi yanaşma səbəbindən həyata keçirilməmiş qalırdı.

Bax buna görə, ilk əvvəl meydana çıxmış Bakının rayonları, onun iqtisadi inkişafı və ərazisinin genişlənməsinə baxmayaraq şəhəri mürəkkəb planlaşdırma orqanizminə çevirmiş, sahibkarların imkanlarından asılı olan torpaq sahələri istisna olmaqla, öz quruluşunu xüsusi dəyişikliklər edilmədən qoruyub saxlayırdı.

Boş şəhər torpaqlarında, əsasən gəlmə olan əhalinin özbaşına hərəkətlərinin qarşısını almaq məqsədilə Uprava, ümumşəhər planlaşdırma quruluşunun hissəsini təşkil edən - Müsəlman, Yeni, Molokan qəsəbələrinin inşa edilməsini "tətbiq edirdi". Qəsəbələrin sistemi boş torpaqların tutulmasına mane olurdu, şəhər mütəşəkkil ərazi əldə edirdi, icarədarlardan isə şəhər xəzinəsinə bir qədər vəsait daxil olurdu. Bununla əlaqədar, Uprava təqribən 200 ha ərazidə, Aleksandrovskiy və Moskovskiy bulvarlarının sərhədində Yeni adlanan qəsəbənin yaradılması qərarına gəldi. Onun planlaşdırılması Upravanın üzvləri arasında fikir ayrılığına səbəb oldu və Yeni qəsəbə layihəsi üçün bir növ daxili müsabiqə elan olundu. İki planlaşdırma variantı təklif edildi: Upravanın üzvü A.Ovsyanko–Kulikovskiy tərəfindən təqdim edilmiş onlardan birincisində, Qara şəhərin məhəllələrinin bölünməsini xatırladan, eni və uzunluğu 64 m olan məhəllələrin standart planlaşdırılması təklif olunurdu; Upravanın inşaat bölməsinin mühəndisi M.H.Hacinski tərəfindən təqdim edilmiş ikinci variant başqa xarakterli idi. Müəllif indiyə qədər Bakıda tətbiq olunmamış planlaşdırmanın yelpik sxemini təklif etdi. Bu sistemə görə küçələr, Parisdə Ulduz meydanı və ya Vyanada – Rinqştrassedəki kimi şüalar şəklində şaxələnirdi.

Bu kimi planlaşdırma variantı, həmçinin fon der Nonnenin planında da var idi. Onda Moskva bulvarı, Aleksandrovskinin davamı kimi gələcək qəsəbənin təbii sərhədi idi, lakin Yeni qəsəbənin yerləşdiyi yerlə iti bucaq yaratmaqla istiqamətini dəyişirdi. Fon der Nonnenin Baş planının hazırki hissəsinin həll edilməməsi, şübhəsiz ki, Hacınskini şəhərsalma tarixində bu məşhur planlaşdırma üsuluna əl atmağa məcbur etdi. Hacınskinin Yeni qəsəbənin planlaşdırma layihəsi qəbul edildi.

"Yelpik" adı almış qəsəbənin planlaşdırılması, şəhərin ümumi planlaşdırılması ilə əlaqələndirilmişdi. Hacınskinin planına gözəl təfsir edilmiş iki böyük bağça və iri meydan cəsarətlə daxil edilmişdi. Bağçalar və meydan, qəsəbənin mərkəzində yerləşməmişdi və təkcə onun sakinləri üçün nəzərdə tutulmamışdı. Bu elementlər tikinti üçün ayrılmış nəhəng şimal massivinin vahid kompozisiya zəncirini təşkil edirdi. Belə ki, üçbucaqlı bağça – şaxələnən küçələrin qovşağı – qərb tərəfdən bilavasitə şərqə məhəllələri ilə həmsərhəd idi, meydan isə hər iki qəsəbəyə xidmət edirdi.

"Yelpiyin" planlaşdırılmasını işləyib hazırlayarkən Hacınski, həyatın özünün tələb etdiyi kompozisiya elementlərini daxil etdi. "Yelpik", kompozisiyasına, yerin və yanaşı olan rayonların ümumi quruluşu ilə əsas elementlərin uyğunlaşdırılmasına və işlənib hazırlanmasına görə Bakı şəhərinin inkişafında yeni müsbət mərhələyə dəlalət edirdi.

Hacınski artıq 1911-ci ilə kimi sosialist inkişaf dövründə də təsdiq olunmuş, məskunlaşma və tikilmə üçün daha perspektivli olan şəhərin bütün şimal və şimal-şərqi rayonlarını layihələşdirdi. Şəhər salma mütəxəssisi kimi o, şübhəsiz ki, irəli getmişdi, çünki artıq o dövrdə bu sahədə fon der Nonneyə məlum olmayan biliklərə sahib idi. Şəhərin Baş planı üzrə sonrakı işlər, əslində, heç nəyi dəyişmirdi və mühəndislər N.A. fon der Nonne və M.H.Hacınski tərəfindən işlənib hazırlanmış vahid planlaşdırmanı qoruyub saxlamaqla, yerli əhəmiyyətli düzəlişləri daxil edirdi.

Bakıdan 190 km-də yerləşən Şollar mənbəyindən su kəmərinin inşaası ilə əlaqədar, şəhərin təsərrüfat həyatı canlandı. Tanınmış mühəndis V.Lindseyin layihəsi üzrə su kəmərinin çəkilməsi ilə həm kanalizasiya problemi, həm də kütləvi yaşıllaşdırma məsələləri həll olunur [35], eyni zamanda tramvayın yaradılması layihəsi və şəhər təsərrüfatının digər aspektləri işlənib hazırlanırdı.

Bakı Dumasının sakinlərin tutmuş olduqları torpaqlardan çıxartmaqla şəhərin planlaşdırılmasının "avqiyev tövlələrini" qaydaya salmağa qərara gəldiyi zaman, aydın oldu ki, əhalisi çox sıx olan məhəllələrdə 1340 bina tikənlər mövcuddur (sayca təqribən 10000 nəfər insan, əsasən, yoxsullar) və onları çoxdan tutmuş olduqları yerdən çıxartmaq mümkün deyil. Lakin planlaşdırılmış və abadlaşdırılmış məhəllələrin yaxınlığında sanitar cəhətdən belə bərbad rayonları saxlamaq da düzgün qəbul edilmirdi.

Təxminən 40 il ərzində Duma, yoxsulların yerləşdirilməsi üçün şəhərin qərb hissəsində örüş torpaqlarının mənimsənilməsi proqramının işlənib hazırlanmasına kömək edəcək tədbirlər görmürdü. Nəhayət, şimal torpaqlarının bütün otlaqlarını bu məqsədlər üçün ayıran zaman məsələ müsbət həll olundu. Onların planlaşdırılması layihəsi şəhər Upravasının torpaq bürosu tərəfindən işlənib hazırlanırdı. Yeni məhəllələr üçün ayrılmış torpaq sahəsi (270 ha), sərhədləri: cənubda – 1-ci Popereçni küçəsi ilə, şəhər qəbiristanlığının yaxınlığında; şimalda – Səlyan alayının kazarmaları ilə; qərbdən – 10-cu Xrebtovıy küçəsi ilə; şərqdən – şəhərin tikilmiş hissələri ilə - 1-ci Xrebtovıy küçəsi ilə, özü-özlüyündə hamar və tikilmə üçün çox rahat ərazidən ibarət idi. Şimaldan cənuba düzbucaqlı

şəklində uzadılmış geniş ərazi, hələ fon der Nonnenin planına görə planlaşdırılmış və hətta təsdiq edilmişdir, lakin həlli o qədər də uğurlu deyildi.

Yeni layihə tərəfindən qərb torpaqlarının bütün sahəsi boyunca yaşıl ağacların əkilməsi nəzərdə tutulurdu; kiçik həcmli torpaq sahələrinin mənimsənilməsi kasıblar və bina tikənlər üçün gücü çatan idi. Yeni şəhər rayonlarının səmərəli şəkildə planlaşdırılmasına mühüm əhəmiyyət verən torpaq bürosu, gigiyena və sanitar cəhətdən yeni məhəllələrin abadlaşdırılması imkanlarını daha geniş istifadə etməyə can atırdı. "Müasir sanitariyanın ümumi qəbul edilməsi ilə bu məsələnin düzgün həlli, şəhərlərin sağlamlaşdırılması üzrə tədbirlərin kökündə olmalıdır", - deyə Upravanın məruzəsində qeyd edilirdi. Buna əsaslanaraq, torpaq bürosu, yeni məhəllələrdə, şəhərin mərkəzi rayonlarında olduğu kimi, həyat üçün əlverişsiz şəraitin yaradılmasını yolverilməz hesab edirdi.

Yuxarı Dağüstü küçədən vağzala qədər olan geniş ərazinin tarixi böyümə və inkişafı səbəbindən - en dairəsi istiqamətində Kolyubakinski küçəsindən şimalda – Şamaxinkaya qədər, Krasnovodskaya və Kamenistaya küçələrinin kəsişməsində bir uğursuz tikili, Kubinskaya meydanı və kiçik Bağırov bağçası (600 kv. m.) yerləşirdi. Burada əhalinin əsas kütləsi yaşayırdı.

Aydın idi ki, yerləşdirilmə üçün nəzərdə tutulmuş örüş torpaqlarının yeni sahəsini başqa cür planlaşdırmaq lazım idi.

Hələ tam yaxşı təşkil edilmiş şəhər təsərrüfatı səbəbindən, tarixi mərkəzin kökündən və ya qismən yenidən qurulmasında geniş istifadə oluna bilən həmin maliyyə vəsaitlərinə Bakı malik deyildi. Özünün dar, həmişə düz olmayan küçələri, az saylı kiçik bağ və bağçaları, planlı şəkildə işlənməmiş meydanları ilə şəhərin planlaşdırılmasının mənfi tərəfləri şəhərlərin müasir sanitariya və gigiyena tələblərinə cavab verən, tamamilə yeni, səmərəli və gözəl (yeni rayonun layihəsini tərtib edənlərin fikrincə) planlaşdırılmasına yer verməli idi.

Torpaq sahəsi 273 ha olan "Bakı şəhərinin örüş torpaqlarının tikilməmiş qərb hissəsinin daha yaxşı planlaşdırılması üçün" torpaq bürosunun texniki hissəsi tərəfindən iki variant təklif edildi. Meydanların, məhəllələrin, yaşıl əkililərin və küçələrin ümumi normativ göstəricilərini qoruyub saxlamaqla hər iki variant, özləri ilə tamamilə əks planlaşdırma strukturunu təmsil edirdi.

Küçələrin radial yerləşməsi ilə - birinci variant, özünün düzülüşü ilə yelpiyin ikili təsvirini xatırladırdı. Küçələrin fərqləndirilməsi mövcud deyildi, nə magistral (prinsip etibarı ilə onların tələb olunmasına baxmayaraq), nə də ki, sıravi küçələr, onların eni – 25,6 m., qəbul edilmişdi - göstərilməmişdi. Lakin tərtibatçıların qeyd etdikləri kimi, "cəlbedici perspektivə malik, küçələrin yerləşməsinin gözəlliyinin" görünən tərəfində, son nəticədə, şəhərin örüş torpaqlarının qərb hissəsinin planlaşdırılması və tikilməsinin həcmli-məkan və bədii-memarlıq tərəfini müəyyən edən, torpaq sahəsi 273 ha-ya malik geniş ərazinin işlənib hazırlanmış inzibati-ictimai mərkəzinin tamamilə olmamasını qəbul etmək olmazdı.

Mürəkkəb relyefi üzündən köhnə yaşayış məhəllələrindən ayrı salınmış,

işgüzar və inzibati mərkəzdən uzaqda olan, məsələn Bakının tarixi rayonlarının olduqlarından daha əlverişli şəraitdə layihələndirilmiş, 15000 insana hesablanmış, yeni yaşayış rayonu, özünün xüsusi ticarət və ictimai mərkəzinə malik olmalı idi. Şəhərin qərb torpaqlarının yeni məhəllələrinin və bağçalarının mütənasib planlaşdırılmasında ictimai mərkəzin yeri əks olunmamışdı.

Beləliklə, kiçik Kubinskaya meydanının və Bağırov bağçasının yerləşdiyi formalaşmış məhəllələrin geniş ərazisində, şəhərin planlaşdırma strukturunda mövcud vəziyyəti tamamilə məntiqlə tənqid edən layihənin müəllifləri, özlərinin yeni rayonunun planlaşdırılmasında, ola bilsin ki, başqa cür şəhərsalma həllini tələb edəcək inzibati-ictimai özəyi gözdən qaçırmışdılar. İctimai meydanların və dini ayinlər üçün binaların yeri də, həmçinin göstərilməmişdi, baxmayaraq ki, məhəllələrin quruluşunda onların yerləşdirilməsi mütləq idi.

Digər varianta görə planlaşdırma daha dəqiq və səmərəli təqdim edilirdi, o üç cərgəli paralel bulvarların və bağçaların əhatə olunduğu və kəsişdiyi küçə və məhəllələrin düzbucaqlı şəbəkəsinə əsaslanırdı. Onların kəsişdiyi yerlərdə elliptik formalı bağçalar yerləşirdi. Beləliklə, üç oval bağça, elə bil, yaşayış rayonunu təşkil edən üç yaşayış kompleksinin mərkəzi "idi". Layihənin bu variantının müəllifləri, layihələndirilən rayonun 273 ha olan ümumi sahəsindən təqribən 50 ha-nı yaşıl əkililərə ayırdılar.

Şərq və qərb sərhədləri də həmçinin, bulvarlar şəklində layihələndirilirdi. Magistralların köndələn oxlarında bağçalar nəzərdə tutulmuşdu. Onların ritmi yaşayış rayonunun bu hissəsinin şəhərsalma əhəmiyyətini qeyd edirdi.

Lakin bu variantda da, ictimai və işgüzar mərkəzlər mövcud deyildi. Yaşıllıqların bolluğu (bütün sahənin 1/5 hissəsindən azacıq) ilə yeni məhəllələrin planlaşdırılma layihələrinin hər iki variantı o fikirə gətirib çıxarır ki, layihələrin müəllifləri XX əsrin əvvəlində E.Hovardın geniş yayılmış bağ-şəhərlər ideyasından istifadə etmişlər.

Yaşıllaşdırma ilə münasibətdə bu layihələrin tərtibatçıları, geniş bulvarlar şəklində təqribən 100 ha (1/9 hissə) yaşıl əkililəri qabaqcadan nəzərdə tutan, örüş torpaqlarının (900 ha) planlaşdırılması ilə məşğul olan fon der Nonnedən də uzağa getdilər. Yeni layihələrin tərtibatçıları qeyd edirdilər ki, əlverişli iqlim və topoqrafik şəraitləri səbəbindən Dağüstü rayon (Çəmbərəkənd və qəsəbələr ilə birgə) böyük gələcəyə malikdir və onun düzəldilməsinə çəkilən bütün xərclər artıqlaması ilə öz xərcini çıxardacaq və şəhər xəzinəsinə qayıdacaqdır. Həmin dövrün müasir əsaslarına söykənən yaşayış rayonunun səmərəli şəkildə tikilməsinin yaradılması üzrə tapşırığın genişliyi, bax elə bu layihədə insanı özünə cəlb edir.

Torpaq bürosu "yerləşməsinin gözəlliyinə görə üstünlüyə malik küçə və bulvarların radial yerləşdirilməsi variantının qəbul edilməsini..." tövsiyə etdi. Duma səs çoxluğu ilə birinci variant üzrə şəhərin torpaqlarının otlaqlar olan hissəsinin planlaşdırılması layihəsini təsdiq etdi.

Torpaq bürosu hesab edirdi ki, torpaq sahələrini tikinti işlərini aparanlara təqdim edənə qədər ərazilərin texniki cəhətdən hazırlanması, istiqamətlərin

*1806-cı ildən 1918-ci illər ərzində Bakının bölünməsi. (Ş.S. Fətullayevə görə).*



göstərilməsi və küçələrə daşların döşənməsi, kanalizasiya və işıqlandırmanın yoluna qoyulması, su kəmərinin çəkilməsi və s., vacibdir. Belə qabaqcıl üsullarla böyük torpaq sahələrinin yaşayış məhəllələri üçün mənimsənilməsi Bakı üçün tamamilə yeni bir təzahür idi. Rusiyanın şəhərlərində də bu üsulun tətbiq edilməsi, həmçinin maliyyə məhdudiyyətləri səbəbindən real imkanlar əldə etmədi.

Yaşayış massivlərinin layihələndirilməsi və ərazidə tikilmənin aparılmasına qədər onun ilkin texniki hazırlığı kapitalist Azərbaycanın şəhərsalma tarixində çox vacib səhifə idi. Bu səmərəli üsulu düzgün başa düşmüş və yüksək qiymətləndirmiş torpaq bürosunun faydalı təklifi, şübhəsiz ki, planlaşdırmada müsbət fakt idi.

Radial küçələr ilə birgə yeni məhəllələrin planlaşdırılmasının qəbul edilmiş variantında "iti və dəyirmiləşdirilmiş küncləri ilə - meydanların necə tikilməsi məsələsi, mahiyyəti üzrə sərt tənqidə məruz qaldı". Upravanın mühəndisləri sübut edirdilər ki, prinsip etibarı ilə radial planlaşdırma çoxlu nöqsanlara malik idi, o Qərbi Avropanın şəhərsalma praktikasında tətbiq olunmurdu "və faktiki olaraq keçilmiş mərhələ idi". Qeyd edilmişdi ki, bəzən "qəsəbə" adlandırdıqları bu yaşayış rayonunun müxtəlif məntəqələrinə şəhər tərəfdən rahat giriş yolu problemi həll edilməmişdi. Nəqliyyatın hərəkətinin dəqiq qrafiki işlənib hazırlanmamışdı, magistrallar, gələcək bazarlar və digər ictimai binalar üçün torpaq sahələri ayrılmamışdı.

Eyni zamanda qeyd edilirdi ki, radial planlaşdırma layihəsi yerin şəraitinə uyğunlaşdırılmayıb: bəzi küçələr təpənin qılıcı boyu gedir, digərləri "dərənin dibi boyunca", bu da gələcəkdə axarların düzəldilməsinə imkan vermir və su kəmərinin, tramvayın, kanalizasiyanın və s., düzəldilməsini üç dəfə bahalaşdıracaq".

Nəhayət, planda belə bolluca göstərilmiş yaşıl ağaclar, əkilə bilməzdi, belə ki, "layihələndirilmiş bulvarlar, hər hansı bir su ilə gətirilmiş torpaq təbəqəsindən məhrum, möhkəm qayaların üzərində yerləşdirilmişdi, bu isə gələcəkdə gözəl bulvarlar planında bir dənə də kolun böyüdülməsinə imkan vermir".

Yeni yaşayış rayonunun layihəsini tərtib etmiş yerölçənlər peşəkar tənqidə məruz qaldılar və qəsəbənin planlaşdırılmasını yenidən işləməli idilər. Müəlliflər başa düşdülər ki, yalnız yerölçmə məlumatları və tanış planlaşdırma motivləri əsasında konkret bir ərazinin planlaşdırma layihəsini tərtib etmək mümkün deyil.

Layihədə bütün ərazini dəlib keçən geniş küçələr, tikilmə üçün rahat məhəllələr, bulvarlar və bağçalar qabaqcadan nəzərdə tutulmuşdu, lakin bütün bunlarla birgə planlaşdırma quruluşuna təsir göstərə biləcək, onu kompozisiya məzmunu ilə zənginləşdirə biləcək və yerli təbii şəraitə uyğun ona həyat verə biləcək şəhərsalma ideyası mövcud deyildi.

Qəsəbənin layihəsinin mexaniki izahı, elə ilk müzakirədəcə aşkara çıxardılmış, onun əhəmiyyətli dərəcədə memarlıq-planlaşdırma nöqsanlarını qabaqcadan müəyyən etdi. Bu geniş şəhər ərazisinin bundan sonrakı işlənməsi hansı istiqamətdə gedirdi, şəhər mühəndislərinin tənqidi iradları nəzərə alınmışdımı, yoxsa iş atılıb qalmışdı? Bu suallara cavab

vermək üçün bizim əlimizdə nə arxiv, nə də ki, dərc edilmiş məlumatlar var.

Hər halda, "Quberniya şəhəri Bakının mövcud və layihələndirilmiş yerləşməsi planında (1918-ci il)", geniş düşünülmüş iri yaşayış massivi nəzərdə tutulan yerdə, heç bir dəyişiklik qeydə alınmamışdır. Fon der Nonne tərəfindən təklif edilmiş bu yerin planlaşdırılması qalmışdı və hətta Səlyan kazarmalarının yanında bir neçə məhəllə tikilmişdi.

1915-ci ildə torpaq bürosu artıq neçənci dəfə idi ki, Çəmbərəkəndi yenidən qurmağa, onu abadlaşdırmağa, "yaylıq" kimi adlandırılan torpaq sahələrinin xırdalanmasını (95-196 kv. m.), çoxsaylı dalan və döngələri ləğv etməyə cəhd edirdi. Çəmbərəkəndin qarma-qarışıq planlaşdırılmasında qayda-qanun yaratmaq üçün ictimai istifadə üçün ayrılmış mülk torpaqlarını ləğv etmək, əvəzində isə Çəmbərəkəndin tikilmələrdən azad digər yerlərində sakinlərə pay torpaqlar vermək lazım idi.

Şəhər torpaq sahiblərinin ümidlərini doğrultmadı və torpaq bürosu, layihəsini dumaya müzakirələr üçün təqdim etdiyi "yerli" əhəmiyyətli – Çəmbərəkəndin 26 məhəlləsinin nizamlanması işi ilə məşğul oldu. Planlaşdırma layihəsinin 60-ı üçün tərtib edildiyinə baxmayaraq, az sayda məhəllələrin seçilməsi, yekcins ərazi vahidinin yaradılması məqsədilə təbii şərait və tikilmənin səciyyəsi ilə əsaslandırılırdı. Dolaşıq küçələr, dalanlar və döngələr şəbəkəsi ilə nizamlanması lazım 26 məhəllədə 372 torpaq sahəsi var idi, onlardan 286-ı (yəni 80%) köklü dəyişikliyə məruz qalırdı, dəqiq desək, - faktiki olaraq məhvə məruz qalırdılar, belə ki, onlar küçələr üçün ayrılır və ya iri mülk torpaqlara birləşdirilirdi.

Torpaq bürosu nizama salınmış torpaq sahəsində elə sahələr yaratmağa can atırdı ki, "hansılar ki, öz ölçülərinə görə heç olmasa elementar ictimai gigiyena tələblərinə cavab versin". Bu məhəllələrdə əlverişli ölçülü 276 sahənin yaradılması planlaşdırılırdı. Həmçinin xəstəxanalar, məktəblər, məscidlər və digərləri üçün yerlər qabaqcadan nəzərdə tutulmuşdu, bağçalar və meydanların yaradılması ehtimal edilən yerlərdə, məhəllələr dəqiq göstərilmişdi.

"Xəyali layihələrə uymamaqla" yerölçənlər, ümumilikdə hələlik yalnız Çəmbərəkəndin bu 26 məhəlləsinin sakinlərini normal məişət şəraiti ilə təmin etməli olan ictimai binaları və ictimai istifadə üçün ayrılmış yerləri göstərməklə öz fəaliyyətlərini konkret işlə məhdudlaşdırdılar.

Bakının ictimai dairələri, ola bilsin ki, digər bir proqramın, örüş torpaqlarının qərb hissəsinin mənimsənilməsi üzrə daha geniş proqramın həll edilməmiş qaldığını yaddan çıxartmaqla, şəhər Upravasının torpaq bürosunun işini yüksək qiymətləndirdi. "Belə və ya digər yolla, - deyə "Kaspi" qəzetinin müxbiri yazırdı ki, - Bakının Dağüstü hissəsinin abadlaşdırılması üzrə əsas məsələlərdən biri hər halda formal olaraq həll edildi. Layihələndirilmiş yaxşılaşmanın ardınca həqiqi yaxşılaşmanın nə qədər tez baş verəcəyini, - zaman göstərəcək".

Rusiyada fevral burjua inqilabı, coşqun ictimai və siyasi həyata cəlb edilmiş şəhərin çoxlu təsərrüfat məsələlərinin həllini təxirə salmağa məcbur etdi.

1917-ci ildən Azərbaycanda Sovet hakimiyyəti qurulanadək (28 aprel 1920-ci il) Bakıda daha elə də xüsusi layihə-planlaşdırma işləri aparılmamışdı. 1918-ci ildə hər hansı bir dəyişikliklər edilmədən, əvvəlkilərin nöqsanlarını saxlamaqla və şəhər ərazisində yeni tikilməni qeyd edən yalnız şəhərin planı meydana çıxdı.

Bütöv bir yüzillik boyunca (1806-1918-ci illər), Bakının memarlıq-planlaşdırma strukturunun formalaşma prosesi getdiyi zaman, onun bu istiqamətdə inkişafı heç də həmişə bir bərabərdə olmayıb.

Tarixi, siyasi və sosial şəraitlərdən asılı olaraq, şəhər ərazisinin tikilməsi prosesi sıçrayışlarla inkişaf edirdi. Lakin bu prosesdə, qala divarlarının hüdudlarından kənarda meydana çıxmış və qısa müddət ərzində iri sənaye mərkəzinə və nəhəng ərazi törəməsinə çevrilmiş şəhərin durmadan böyüməsi müşahidə edilirdi.

XX əsrin birinci yarısında Zaqafqaziyanın iqtisadiyyatında sonuncu yerlərdən birini tutan, lakin tezliklə hər cəhətdən regionun bir çox şəhərlərini özündən geridə qoymuş şəhərin uğurlarına yalnız heyrətlənmək qalır.

1914-cü ilə kimi örüş torpaqları ilə birgə Bakı 4972,58 ha sahəni tuturdu; istifadə səciyyəsinə görə o aşağıdakı qaydada bölüşdürülürdü:

Şəhərin hüdudlarında Bakının sahəsi 2300 ha təşkil edirdi, müqayisə üçün göstərmək lazım idi ki, həmin vaxta qədər Peterburqun ərazisi 8505 ha, Moskvanın ərazisi isə 6705 ha təşkil edirdi. Bakının ərazisində cəmi 1018 məhəllə var idi, onlardan 800 (78,58%) bütövlüklə və ya qismən tikilmişdi, 218-i isə (21,42%) tamamilə boş qalırdı. 1913-cü ilə kimi şəhərdə 9388 şəxsi torpaq sahələri qeydə alınmışdı, onlardan 9218-i (93,740/0) tikilmiş, 616-ı isə (6,26%) boş qalırdı.

Şəhərin səciyyəvi xüsusiyyətləri üçün Bakının ərazi inkişafını parlaq şəkildə nümayiş etdirən şəkil bu cəhətdən nümunəvidir.

1806-cı ildə forştadt hələ mövcud deyildi, 1822-ci ilə qədər isə onun tikilmə sahəsi artıq 6 ha təşkil edirdi; 1855-ci ilə qədər o 10 dəfə artdı və 60 ha-ya çatdı. Lakin digər şəhərlərlə müqayisədə, məsələn, Tiflis – Zaqafqaziyanın inzibati mərkəzi ilə, Bakı tamamilə seçilməyən qəza şəhərciyi kimi göz qabağına gəlirdi. Azərbaycanın Gəncə, Şuşa (279, 68 ha) və Şəki kimi şəhərləri haqda danışmasaq, Quba (113,62 ha), Lənkəran (316, 83 ha), Səlyan qəsəbəsi (103, 79 ha), sahələrinə görə Bakıdan üstün idilər.

İnqilabdan əvvəlki dövrdə, 1898-ci ilə qədər, şəhərin tikilən torpaq sahəsinin 900 ha-ya çatdığı zaman Bakı, ərazisinin böyüməsində ən yüksək nöqtəyə çatdı. Sonrakı iyirmi il ərzində şəhər böyüməyə davam edirdi və 1918-ci ilə qədər təqribən 1300 ha-ya bərabər ərazini əhatə etdi. Torpaq sahəsi, Dumanın öhdəsindən gələ bilmədiyi nəhəng şəhər təsərrüfatına malik, tikinti və sənaye üçün ayrılmış zonalara bölünmüşdü. Ətraflar abadlaşdırılmamış qalırdı, onların memarlıq cəhətdən zahiri görünüşü mərkəzi rayonların zəngin məhəllələri ilə kəskin təzad təşkil edirdi.

M.Q.Dikanskiy "Mənzil məsələsi və onun həllinin sosial təcrübələri" (S-Pb, 1908) adlı kitabında 100 il ərzində bəzi Avropa və Amerika şəhərlərinin əhalisinin artımı haqda maraqlı məlumatlar gətirir, onların içərisindən əyani şəkildə görünür ki, məsələn, Berlin 6,5, Brüssel – 5, Lon-

don – 4, Boston – 20, Nyu-York isə 30 dəfə artmışdı. Bütün məlumatlara görə, Bakı bu cəhətdən bütün məlum göstəriciləri adlayıb keçdi; onun əhalisi elə sürətlə artırdı ki, vur-tut 60 ildən artıq il ərzində (1855-1917-ci illər) 33,4 dəfə artdı: 1850-ci ildə o 7400 nəfər insan təşkil edirdi, 1918-ci ilə qədər isə əhalinin sayı artıq 248300 nəfər sakinə çatdı.

100 il ərzində Bakı kiçik şəhərcikdən, düzbucaqlı planlaşdırma strukturu ilə təpələrin terraslarında sərələnmiş, fərdi şəhərsalma ifadəsi əldə etmiş iri sənaye mərkəzinə çevrilmişdi.

Həmin dövr ərzində Bakının böyümə prosesi İran Azərbaycanı və İran şəhərlərinin inkişafının gedişatı ilə müqayisədə daha da heyrətamizdir. Zəif iqtisadiyyat, kustar sənaye, dəmiryolu nəqliyyatının və böyümə perspektivi olmadan, məhdudlaşdırılmış həyatla yaşamış, şəhərlərdə özünüidarə etmə orqanlarının olmaması – İran şəhərlərinin ümumi səciyyəvi xüsusiyyəti belədir və təəccüblü deyil ki, XIX əsrin ortalarında onlar son dərəcə zəif inkişaf edirdilər. Hətta İranın paytaxtı Tehran, inşaatın genişliyi ilə fərqlənmirdi. XX əsrin əvvəlində Bakı kimi İranın qala şəhərləri (Astrabad, Bender-Buşur, Disful, Burucird, Kirman, Sultanabad və digərləri) qala divarları içərisində qapanmış və ərazinin inkişafı üçün real imkanlara malik deyildilər. İranda feodal münasibətləri çiçəklənirdi, ölkə hələ kapitalist inkişaf yoluna qədəm qoymamışdı, orada şəhərlərin sürətlə böyüməsinə, şəhər əhalisinin sayının artımına səbəb olan sənaye kapitalizminin mənbələri mövcud deyildi.

# İÇƏRİŞƏHƏR – QALA ŞƏHƏR

İçərişəhərin ərazisində zərdüşt dövrünün, müsəlman vaxtının və kapitalizm əsrinin abidələri saxlanmışdır. 21,5 ha kiçik torpaq sahəsi, özünün bütün inkişaf tarixi boyunca yaşayış və mülki inşaata imkan verən, yerli əhalinin iqtisadi imkanları və potensial güclərinə uyğun olaraq elə də xüsusi sıçrayışlar olmadan inkişaf edirdi.

İçərişəhərin planlaşdırılma quruluşu ilk əvvəl, şəhərin yaradılmasının əsasını qoymuş, tədricən şəhərsalma özəklərinə çevrilərək yaşayış tikililəri ilk alov məbədləri ətrafında qruplaşaraq gələcək Qız qalası (VI-VII əsrlər) rayonunda formalaşmağa başladı.

Alov məbədləri zonasında Qız qalasının yerləşməsi ətraf sahəni orta əsr Bakısının inkişaf dinamikasında daha fəal şəhərsalma faktoruna çevirir.

XII əsrdə Bakını özünün iqamətgahına çevirmiş, şirvanşah Axsitan-bin Manuçöhr dövründə möhkəm qala divarlarının inşası ilə, İçərişəhərin məhəllələrlə tikilməsinin əsasını qoymuş, məhdud hüdudlarda, müəyyən ərazinin ətrafında şəhərin konturunu möhkəmləndirdi [6].

Həmin yüzillikdə Şirvanşahlar tərəfindən şəhər ərazisinin ən yüksək nöqtəsində saray tikililərinin inşası artıq XV əsrdə nadir memarlıq obyektləri ilə birgə yeni saray kompleksinin yaradılmasına gətirib çıxartdı.

Beləliklə, şəhərin mərkəzi və ticarət magistrallarının cəmləndiyi, eyni zamanda dəniz kənarına, Qız qalası və Cümə məscidi zonasına (XIV əsr) tərəf meyl ilə birgə bu güclü şəhərsalma qovşağının çevrəsində ətraf mühitin mənimsənilməsinin çox gözəl mərhələsi başlandı.

1078-79-cu illərdən etibarən (Sınıqqala məscidi) dini ayinlər üçün binaların meydana çıxması və onların bütün şəhər ərazisində dislokasiyası, özünəməxsus memarlıq üslubu yaratmaqla, İçərişəhərin canlı şəhərsalma məğzini təşkil etmiş yaşayış məhəllələrinin də formalaşmasını qabaqcadan müəyyən etdi.

Yaşayış mühitinə daxil edilmiş məhəllə məscidləri, başlıca olaraq, ümumi tikililərdən o qədər də seçilmirlər, lakin onların həcmli izahı, stilistik həlli kult memarlığının xarakterini büruzə verir.

XVIII əsrin sonuna kimi onun ərazisinin yaşayış məhəllələri ilə tam mənimsənilməsi nəticəsində İçərişəhərin şəhərsalma sistemi Şirvanşahlar Sarayı Kompleksi ətrafında üç terraslaşdırılmış küçələr şəklində maraqlı həll əldə etdi. Hazırki halda, radialla birgə meridional terraslaşdırılmış küçələrin dəniz kənarına tərəf yerləşdirilməsi, 60-dan çox yaşayış məhəllələri ilə birgə mənzərəli planlaşdırma sxemini yaratdı.

Bakı qalasının ərazisinin olduğu, bu mürəkkəb çoxplanlı həcmli-məkan quruluşunun bütün orijinallığını açan yerin relyefi fəal element idi. Bu şəhərsalma və həcmli-məkan quruluşunda birinci və



*İçəri-şəhər. Tikilmənin ümumi görünüşü.*

ikinci ardıcıllıqla əsas və ikinci dərəcəli elementlər dəqiq müəyyən olunmuşlar.

Əgər İçərişəhərin ümumi siluetində Şivanşahlar Saray Kompleksi şəhər kompozisiyasının üstünlük təşkil edən faktoru kimi özünün aparıcı mənasını saxlayırsa, onda ticarət magistralının əsaslı binalarla tikilməsi başqa cür bədii imkanları meydana çıxardır. [10]

Belə ki, İçərişəhərin əsas küçələri – Böyük qala küçəsi və ya Bolşaya Krepostnaya, Kiçik qala küçəsi və ya Malaya Krepostnaya, Gertsen, Tverskaya, Sabir və başqaları, mənzərəli yerləşməyə malikdirlər, burada məskun xarakterli çoxsaylı abidələr şəhərsalma sisteminin ümumi tikilməsinə ayrılmaz surətdə daxil olmuşlar. Eyni zamanda kiçik küçələr də özlərinin quruluşunda memarlıq abidəsi kimi yaşayış evlərinə malikdirlər. İncə çəkilmiş detallarla və əla tikilmiş fasadlarla birgə kamera üslublu yaşayış evləri İçərişəhərin həcmli-məkan kompleksində öz yerlərini tutdu.

XVIII əsrdə Şamaxı darvazaları yanında bütün şəhər boyunca ticarət magistralının formalaşmasını möhkəmləndirmiş Bakı xanları binasının geniş kompleksi meydana çıxdı.

Nadir Qız qalası, alov məbədlərinin qalıqları, qala divarları və qəsr, saraylar və yaşayış evləri, divan-xana və karvan-saraylar, məscidlər və mavzoleylər, hamamlar və ovdanlar özlərinin tarixi və memarlıq dəyərlərini əsrlərin içərisindən keçməklə gələcək nəsillərə gətirib çatdırmışlar.

## QALA DİVARLARI, DARVAZALAR VƏ QƏSR

İçərişəhərin cənub-şərq hissəsini əhatə etmiş, daha sonra Şamaxı istiqaməti tərəfdən şəhərin şimal hissəsini bağlamış daş qala divarlarının birinci cərgəsinin tikintisinə XII əsrdə Qız qalası rayonunda başlanıldı. Sonra divarlar relyef üzrə şimal-qərb istiqamətində, Nikolayev küçəsinə paralel (indiki İstiqlal) olaraq keçdi və müasir Azneft meydanı rayonunda qapandı. Şəhər divarlarının cənub-şərqi və çənub-qərbi hissələri arasında dəniz sahili boyu tamamlayıcı tikildi. Beləliklə, şəhər divarlarının qapalı dairəvi və möhkəm müdafiə sistemi yarandı. Bütün perimetr boyunca şəhər divarları yarımdairə şəkilli qüllə və istehkamlarla təchiz edilmişdi. Azneft rayonunda divarlar daha sıx qüllələr cərgəsi ilə möhkəmləndirilmişdi.

Qala darvazaları ilə birgə şəhər divarlarının müdafiə sisteminə, qəsrlə birgə həmçinin donjon (əsas qüllə) da daxil edilmişdi. Şimaldan Şamaxı, cənubqərbdən isə Səlyan darvazaları açılırdı. Dənizə tərəf üç darvaza yönəlmişdi, onlardan biri əsas idi və "Qavanskiye" (Liman) adlandırılırdı.

Donjonla birgə qəsr müdafiə sistemində üstünlük təşkil edən vəziyyəti tuturdu və şəhəri şimal tərəfdən qoruyurdu. Hal-hazırda "İsmailiyə" (indi

*İçəri-şəhər. Qız-Qalası tərəfdən tikilmənin ümumi görünüşü.*



*İçəri-şəhər. Yaşayış evinin ümumi görünüşü. 3-cü Maqomayevski döngəsi, 3. XIX əsr. Ş.S.Fətullayevin şəkli.*



Azərbaycan EA-nın binası) binasına bitişən qəsrin donjonu (XII-XIII əsrlər) salamat qalmışdır. Dörd yaruslu möhkəm düzbucaqlı tikili künclərdə yarım silindrli qüllələrlə bərkidilmişdir. Donjonun yuxarısı ilə keçmişdə orijinal tacı təşkil edən merlonlar (qala bacaları arasında tökülmüş torpaq hissə) sistemi keçirdi. 1952-53-cü illərdə donjon qismən bərpa edilmişdi, təxminən bütün yaruslar əvvəlki vəziyyətinə gətirilmişdi.

Əsrlər boyunca qala divarları təmir edilir, yenidən qurulur və yenilənirdi. İkinci cərgə qala divarlarının inşaasının tamamlanmasına yaxın dövrdə, 1656-cı ildə açılışında – Həştərxan, Saray qalasından – Moskva çarının səfirləri iştirak edirdi; hərbi qüllələrin ritmi ilə, memarlıq üslubunda işlənmiş, yarımtəmiz hamar yonulmuş daşdan tikilmiş şəhər divarları, özü-özlüyündə möhtəşəm bədii panoramanı təcəssüm etdirirdi.

Qala divarlarının ikinci cərgəsi birincidən xeyli aşağı idi və orta hesabla 10-15 metr aralı idi. 1730-cu illərdə mühəndis – polkovnik Qarber qala divarlarına beş istehkam tikib əlavə etdi. Hələ 1608-1609-cu illərdə Şah Abbasın idarəçiliyi dövründə Zülfüqar xanın əmri ilə Şamaxı darvazaları ilə üzbəüz, qala divarlarının ikinci cərgəsində epiqrafika yazıları və sifarişçinin titulu ilə birgə darvazalar tikildi.

1859-cu ildən sonra, Bakının quberniya mərkəzinə çevrildiyi və qala kimi əhəmiyyətini itirdiyi zaman hakimiyyət, yeni yaşayış evlərinin tikintisi üçün yerli sakinlərin qismən istifadə etdikləri qala divarlarının ikinci sırasının sökülməsi xahişi ilə dəfələrlə ali Qafqaz rəhbərliyinə müraciət edirdi.

İkinci divarların sökülməsinə icazə 1883-cü ildə alındı və eyni zamanda Zülfüqar-xanın darvazalarını Şamaxı darvazalarının yanındakı birinci qala divarlarının sahəsinə köçürülməsi baş verdi. Köhnə şəhər darvazalarında Şamaxı darvazaları qorunub saxlanılıb, qalan dördü XIX əsrin sonunda sökülüb.

Şamaxı darvazaları iki hərb qüllələri arasında yerləşib. Forştadt tərəfdən çatma tağlı özünəməxsus portal şəklində xüsusi olaraq nəzərə çarpdırılır. Tağın üzərindən darvazaların bəzəyi olan, mürəkkəb formalı kronşteynlər şəklində asma mağzallarla birgə möhkəm pərvaz keçir. Asma mağzallı divarların təmiz səthi üzərində, üzləri bir-birinə tərəf çevrilmiş şirlərin, mərkəzdə isə - öküz başından ibarət Şirvanşahların qabarıq gerbi yerləşir. Bununla bərabər, qala tərəfdən darvazalar divar qalınlığı enində tağtavanla örtülmüşdür.

Zülfüqar xanın darvazaları Şamaxı darvazalarından yeddi metr aralı məsafəyə köçürülmüşdü və bu zaman sonuncuların həcmi, rəsmi və kompozisiya üsulları təkrarlanmışdı, onlar Şah Abbas darvazaları adını aldılar. Nəticədə İçərişəhər və forştadt cüt darvazalar şəklində çox maraqlı kompozisiya və ya iki hərb qülləsi arasında "Qoşa qapı" əldə etdi. Sonralar, bərpa etmə zamanı (1952-53-cü illər), qala divarları hərb qüllələri ilə birgə bütün uzunluğu boyunca merlonlarla tamamlanmış və asma mağzallarla təchiz edilmişdi. Bakının sürətli inkişafı və İçərişəhər əhalisinin artımının forştadtla qarşılıqlı əlaqəsini Şamaxı darvazalarının artıq təmin edə bilməməsi, Bakı sakini Tağıyevin vəsaitləri hesabına planlaşdırılmış, Bazar küçəsinin



*İçəri-şəhər. Şamaxı darvazalarının fraqmenti. XVII əsr.*

mehvərində yeni darvazaların açılmasını tələb etdi. layihə 1878-ci ildə memar A. Koşinski tərəfindən tərtib olundu, lakin Peterburqda təsdiq edilmədi. Bununla belə, elə həmin il darvazalar quruldu, lakin hərbi mühəndis-polkovnik Popennin layihəsi üzrə. Profilləmə və formaların tamamlanması sayəsində fərqli şəkildə aydın çəkilmiş dörd-mərkəzli çatma tağlı hamar yonulmuş təmiz əhəngdaşından olan darvazalar, plastiki cəhətdən zənginləşdirilmiş və hərbi memarlığın münasib memarlıq elementi kimi təqdim etdirilir. Bakının qala divarlarına ayrılmaz surətdə daxil edilmiş darvazaların memarlıq kompozisiyası, memarlar üçün memarlığın yerli üslub xüsusiyyətlərinə müraciət etmələrinin uğurlu nümunəsi idi.

Şirvan darvazaları XX əsrin əvvəlində, Bakı şəhər Duması binasının **(indi Bakı Soveti)** yaxınlığında, iki hərb qülləsi arasında tikilmişdi və özü-özlüyündə qala divarları daşlarının yarımtəmiz hörmə fonunda təmiz yonulmuş daş bloklardan yerinə yetirilmiş, bir az profillənmiş və bəzədilmiş böyük çatma tağdan ibarətdir.

İçərişəhərin cənub-qərb hissəsindəki köhnə Səlyan darvazalarından heç nə saxlanılmamışdır, qapı yeri formasında yeniləri isə XIX əsrin ikinci yarısında açılmışdı və keçmiş qubernatorskiy bağına çıxır.

Realnı məktəbin və Bakı Duması binaları arasında memar A.V.Eyxlerin layihəsi üzrə 1907-ci ildə, yerli relyefin ən hündür nöqtələrində İçərişəhəri forştadtla birləşdirən, iri daş bloklardan qabaq üslublu iki marşlı pilləkən inşa edildi. Təmkinli, lakin dəqiq işlənmiş memarlıq detalları, eyniləşdirilmiş profil elementləri, pilləkənə bitişik qüllənin divarında qabarıq şəkildə yonulmuş Bakı şəhərinin gerbi bütövlükdə həcmli-plastik bədii kompozisiya təşkil etdi.

İçərişəhərin qala divarları arxasında 1500 il ərzində, səhifələri – Bakının qiymətli mirvariləri olan, Abşeron memarlığının özünəməxsus şəhərsalma və məkan memarlıq poeması yaradılırdı.

## DİNİ AYİNLƏR ÜÇÜN KULT BİNALARI VƏ HAMAMLAR

Məhəmməd və ya Sınıq-qala məscidi (azərb. Dağıdılmış qüllə), gələcəkdə olacaq Minarə küçəsinin yaxınlığında, ustad rəis Məhəmməd Əbubəkr oğlu tərəfindən h.q. tarixi ilə 471-ci (1078-79-cu illər) ildə tikilmişdir [4,24]. Şimal tərəfdən kiçik vestibül hissə, cinahlardan uzadılmış və örtülmüş daş məhəccərlərlə iki "şəbəkə" ilə cənub divarının mehvəri boyunca mehrabla zəngin bəzədilmiş birkameralı ibadətgah zalına bitişir. Zalın üstü möhkəm çatma formasında olan tağtavanla örtülüb, əlavə olaraq, həm şərqdən, həm də qərbdən naxışla birgə ensiz yarığa oxşar pəncərələrlə bəzədilmişdir. Tağtavanın çevrəsi boyunca, Bakı-Abşeronun daş memarlığı üçün səciyyəvi olmayan, kiçik ölçülü bişmiş kərpicdən ensiz zolaq ilə dekorativ motiv döşənmişdir.

Stalaktitdən olan karnizin halqası ilə məscidə bitişik silindrik formalı minarə həndəsi şəkilli daş plitələrlə hasarlanmış azançı üçün eyvanı, - "şərəfəni" saxlayır. Minarənin daş vintşəkilli pilləkəni ibadətgah zalının səviyyəsinə aparır. Müəyyən hündürlükdə minarədən, iri daş bloklarla döşənmiş məscidin damına çıxış yerləşdirilb. Quran məzmunlu ərəb yazısının küfi hörmə naxışı stalaktit qurşağın altından keçir.

1988-ci ilin arxeoloji qazıntıları tamamilə gözlənilmədən məscidin həcmli-məkan strukturun üzə çıxartdı. Həmişə özünün alçaq forması ilə qəbul edilən minarə, kvadrat şəkilli bünövrədə düzgün tənasüblü formada meydana çıxdı, ibadətgah zalının altında isə çatma formalı daş tağtavanla örtülmüş daha aşağı otağın olması meydana çıxdı. Bu yerin alt təbəqəsində islamaqədər sitayişlərin dini mərasimlərinin elementləri görsənirdi. Güman edilir ki, məscid, bu yerlərdə müsəlman dininin bərqərar olmasına qədər fəaliyyət göstərən alov məbədinin bünövrəsi üzərində inşa edilmişdi.

Məscidin cənub fasadı minillik daş divarın fonunda mehrabın son dərəcə qabağa çıxan yarımsilindrik həcmi və çatma pəncərələrin oyuqları ilə irəli gərilmiş proporsiyalar formasında qarşımızda durur. Məscidin həcmli kompozisiyasının dinamikası yeni nöqteyi-nəzərdən ətraf tikilmələr üzərində hökmranlıq edən minarəni ifadə edir, aparılmış bərpa işləri Bakı-Abşeronun ən qədim məscidinin memarlıq simasını tamamilə aşkarladı.

**XIDIR** – məscidi, 1301-ci ildə inşa edilmişdir və memarlıq-planlaşdırma həllində təzahür etmiş pilləkən-küçədə yerləşmişdi; düzbucaqlı məscid iki mər-

təbədən ibarətdir, lakin onların arasında birbaşa əlaqə yoxdur. Yuxarı – ibadətgah zalı, aşağı – həyətdən giriş ilə yardımçı yer kimi xidmət edirdi. Kiçik, qəsdən nəzərə çarpdırılma kimi profillənmiş portal, üstü möhkəm çatma formalı tağtavanla örtülmüş ibadətgah zalına aparır.

Hörgüsü açılmış formada cənub divarında, mehvərin uzunlaması boyunca, cinahlardan uzadılmış iki pəncərə və "şəbəkə" həndəsi şəkilli daş məhəccərlərlə son dərəcə profillənmiş stalaktitli yarıgübbəli tağtavanlı mehrab yerləşir. Buna bənzər kompozisiyadan daha əvvəl Məhəmmədin məscidində (1078-79-cu illər) istifadə edilmişdi. Şimal-şərqi küncdə xeyli hündürlükdə, divarın qalınlığında düzəldilmiş və dama aparan pilləkən damasına giriş var, o azançı üçün minarə əvəzinə ibadətə çağırış yeri kimi xidmət edirdi. İbadətgah zalının interyeri milli memarlığın ciddi formalarında həll edilmişdi. Daxili məkanın proporsional parçalanması, kompozisiya üsulu və daş elementlərin parlaq şəkildə ifadə edilmiş qabarıq naxışlarında mehrabın bədii-təfsiri sayəsində zal çox təsirli formada göz önündə durur. Qərb fasadının dəqiq şaqul blokları və mənzərəli şəkildə cənubun profillənmiş çatma pəncərələri və epiqrafik ərəb yazısının geniş zolağı ilə bütöv daş divar fonunda yerin relyefi, portalın qəsdən nəzərə çarpdırılması səbəbindən məscidin həcmli kompozisiyası, milli memarlığın ən nəcib formalarında göz önündə durur.

İrəliyə çox çıxmış daş suaşıranlarla məscidin perimetri boyu zəif profillənmiş daş merlonlar çələngi bu dövrdə artıq formalaşmış kompozisiya üsullarını



*İçəri-şəhər. Yaşayış evinin podval mərtəbəsinin interyeri. XVIII-XIX əsrlər. B.Krepostnaya küç., 19.*

meydana çıxarır. Məscid milli memarlıq abidələrinə məxsusdur və "İçərişəhər" qoruq zonasının ərazisində yerləşir.

1988-ci ildə daş tağtavanın aşağı mərtəbəsində, giriş-portalında və ibadətgah zalının interyerində qismən bərpa işləri aparılmışdı. Məscidin həyəti abadlaşdırılmışdır.

**GİLEY** – məscid, iki mərhələdə inşa edilmişdi: ilk əvvəl 1309-cu ildə Şirvanşahlar dövründə, sonra isə XIX əsrin ikinci yarısında. Köhnə hissə, xaçın-qollarının – dərin tağtavanlardan, küncıərdə isə - kiçik otaqlardan ibarət xaç – günbəz kompozisiya sistemini təqdim edir. Cənub divarında mehvər boyu çox eşilmiş mehrab görsənir. Mehvərlər boyu çatma daş tağtavanlar və onların üzərindən sallanmış ikili əyilmiş günbəz şəklində iri memarlıq formaları vasitəsilə ibadətgah zalı, parlaq şəkildə ifadə edilmiş həcmli plastika kimi gabağa çıxır. Memarlıq elementləri və detalları ilə profillənmiş və bəzədilmiş ciddi proporsiyalı mehrəb, ciddiliyi və həcmli kütlələrin tektonluğu ilə fərqlənən ibadətgah zalının daxili məkanının interyerini zənginləşdirir. Məscidə tikilib əlavə edilmiş yeni hissə, planlaşdırma sxeminin bütövlüyünü pozmur, onun rahatlıq imkanlarını genişləndirmiş, prinsip etibarilə, tağtavanlarla, qarınaltı tağlarla və çatma formalı günbəzlə daxili məkanın formalaşmış memarlıq mühitini təkrar etməklə ibadətgah zalının kompozisiya quruluşuna ayrılmaz surətdə daxil oldu. Əlavə edilmiş hissə, proporsional parçalanma, memarlıq formalarının şəkil xüsusiyyətləri və pəncərələrin yarımsirkullu tağları ilə təqdim edilmiş, yeni elementlərlə fərqlənir. Burada Avropa istiqamətli memarlıq üsullarının yeni ifadə forması basıb girir. Bu xüsusilə, yerli memarlığa bir qədər yad olan, qədim məscidin hamar divarlarına qarşı dolğun elementlərin stilistik təfsirinin qoyulduğu, fasadın həllində əyani şəkildə göz önünə çıxır. Giley məscid - İçərişəhərin memarlıq abidəsi və ayrılmaz hissəsidir.

**MOLLA-ƏHMƏD MƏSCİDİ**, İçərişəhərin məhəllə məscidlərinə aiddir, sifarişçi Nəsrəddin Quştasp bin Həsən Hacıbabadır, memar-ustad, Nardaran kəndində qəsr (1301-ci il) və Bibi-Heybət kəndində minarəli məscid (XIII əsrin sonu) də daxil olmaqla, Abşeronda məşhur tikililərin müəllifi Mahmud ibn Saddır. Məscid düzbucaqlı planda, həcmcə kiçik və bir zallı olaraq XIV əsrin əvvəlində tikilmişdir. Cənub divarında kiçik mehrab, köndələninə kəsilmiş dirəklərin qarınaltı tağları ilə birgə alçaq çatma formalı daş tağtavan – görünüşü gözə çarpmayan simmetriyasız fasad, bir az profillənmiş giriş və iki gecikmiş pəncərələri ilə qəsdən nəzərə çatdırılmışdır. Fasadın yuxarı hissəsində geniş zolaqlı ərəb xəttinin iki sətirli tikinti yazısı, həm sifarişçi, həm də hərbi, dini və xatirə tikintisi sahəsində fəal çıxış etmiş memar haqqında zəngin və məzmunlu məlumatı verir. Onun yaradıcılığında memarlıq irsinin bir hissəsi kimi, Şirvanşahlar sülaləsi dövrünü əks etdirən stilistik üsulların inkişafı görünür.

**ÇİN** – məscidi, Şirvanşahlar Saray Kompleksinin orbitində yerləşmişdir. Fasadın üzərindəki epiqrafik yazılar onun 777-ci ildə (1375-ci il), Fədlallah İmam Osman – Şirvani oğlunun vəsiyyəti ilə inşa edildyi haqda məlumat verir, buna görə də məscidi hərdən onun adı ilə ad-

*İçəri-şəhər. Tağıyev darvazalarının ümumi görünüşü. Mühəndis Poppen. 1878-ci il.*



*İçəri-şəhər. Qala divarı və Şirvan darvazaları.*



landırırlar [25]. Planda qabağa gərilmiş düzbucaqlı dördbucaq, üstü çatma şəkilli tağtavanla örtülmüş bir kameralı ibadətgah zalını təqdim edir. İnteryerin cənub divarında mehvər boyu düzbucaqlı çərçivəyə alınmış beş yaruslu stalaktit yarıqübbəli tağtavan ilə bütövlükdə Şirvan-Abşeron memarlıq məktəbinin müəyyən kompozisiya motivlərini təşkil edən, kiçik cinahlarda uzadılmış divar oyuqları yerləşdirilir. Əsas fasadın simmetriyasız həlli ilə məscidin ciddi həcmli-məkan kompozisiyası klassik üslublu giriş-portalı ilə qəsdən nəzərə çarpdırılmışdır. Portalın profillənmiş düzbucaqlı çərçivəsi, çatma şəkilli qapı yeri və ərəb yazısının epiqrafik başlığı, plastik formada, demək olar ki, fasadın bütöv divarının fonunda təqdim edilmişdir. İçərişəhərin orta əsrlərə aid portalları arasında məscidin portalı - ən yaxşılardan biridir. Abidə fasadın üzərindəki epiqrafik lövhəciyin xəbər verdiyi kimi Məsud Əli tərəfindən 1186-cı ildə bərpa edilmişdir (1772-1773-cü illər).

Şeyx İbrahim məscidi, Səlyan darvazalarına çıxmaq üçün burada öz istiqamətini dəyişən ticarət magistralının strukturunda yerləşmişdir. Fasadın üzərindəki epiqrafik lövhə sifarişçinin adını – Hacı Əmir şah Yaqub oğlu olduğunu öyrənmək imkanını verir, digər lövhəcik məscidin Ağa – Qafar Hacı Murad oğlu tərəfindən bərpa edildiyi haqda məlumat verir. Əsas lövhəcik məscidin h.q. ilə 818-ci ildə (1415-16-cı illər), "Sultan İbrahim şeyxin oğlu, Sultanın" dövründə inşa edildiyi tarix haqda məlumat verir [24].

Məscid – düzbucaqlıdır, üstü çatma çevrəli daş tağtavanla örtülüb, mehrab



*İçəri-şəhər. Məhəmməd (Sınıx-qala) məscidinin kəsik görünüşü. Tverskaya (M. Mənsur) küç., 42. 1078/79-cu illər. Memar C. Qədirovun çertyoju.*



*İçəri-şəhər. Məhəmməd məscidinin planı (Sınıx-qala). Tverskaya (M.Mənsur) küç., 42. 1078/79-cu illər. Memar C.Qədirovun çertyoju.*

ənənəvi olaraq köndələninə kəsilmiş dirək divarında deyil, uzunlama divarda yerləşdirilir. XIX əsrdə divarın düz səthinin üç düzbucaqlı çərçivəyə bölünməsi vasitəsilə məscidin fasadı Avropa memarlıq təfsiri əldə etdi. Hər birisinin içərisində yarıqşəkilli tamamlanma ilə olan pəncərə yerləşdirilmişdi, giriş isə portal formasında həll edilmişdi. Milli memarlıq abidəsi kimi qədim məzmunu saxlamaqla, burada Avropa və yerli motivlər vahid memarlıq platformasında bir-birinə toxunurlar.

**HACI BANU** məscidi, Şirvanşahlar Saray Kompleksinin sahəsində yerləşir, kiçik ərəb-bütpərəstlik yazısının bildirdiyinə görə memar Hacı-Banu tərəfindən XVI əsrdə inşa edilmişdir. Mərkəzi – günbəz planında, girişlə üzbəüz mehvər boyunca iri həcmli, hörgüsü açılmış şəkildə stalaktitdən olan bir neçə yaruslu mehrab yerləşir. Digər bir epiqrafik lövhəcik məscidin 1320-ci (1902/03-cü illər) ildə təmir olunduğu barədə xəbər verir. Bu zaman böyük yenidənqurma işləri görülmüşdü, vestibül və qadınlar (şəbistan) üçün hissələr əlavə edilmiş, model zalı cüt yarımsirkullu pəncərələr vasitəsilə ikili işıqlandırma əldə etdi. Nüfuz etmiş avropalaşmanın özü haqda xəbər verməsinə baxmayaraq, məscidin yenidən qurulması zamanı interyer və eksteryer milli-memarlıq üsullarını və motivlərini qoruyub saxlayırlar. Küçənin enişi istiqamətində mənalı siluet və xüsusi olaraq incə nəzərə çarpdırılması ilə birgə kub formasında olan bünövrənin üzərindəki daşdan düzəldilmiş Abşerona aid kürəvi-konusşəkilli günbəzin təfsiri yerli memarlığın səciyyəvi cizgilərini uğurla ifadə edir. Məscid – orta əsr dövrünün abidəsidir və "İçərişəhər" qoruq zonasının strukturuna daxildir.

*İçəri-şəhər. Bərpa edilənə qədər Məhəmməd məscidi və minarəsinin ümumi görünüşü.*



**HACI HEYBƏT** məscidi kiçikdir, yaşayış məhəllələrinin sıravi tikililərinə daxildir, memar Hacı Heybət Əmirəli oğlu tərəfindən 1206-cı (1791-ci ildə) ildə tikilmişdir [25]. Düzbucaqlı planda kvadrat şəkilli vestibül, xidməti otaqdan və taxçaları ilə birgə ibadətgah zalından ibarətdir. Məscidin memarlıq-konstruktivlik strukturu, yerli üsullara sarsılmazlığı və bağlılığı qoruyub saxlamaqla daşdan düzəldilmiş tağtavanlar və çatma şəkilli tağlarla təqdim edilmişdir. Sadə ifadə edilmiş tağşəkilli giriş və memar haqqın-



*İçəri Şəhər. Bərpa edildikdən sonra Məhəmməd məscidinin ümumi görünüşü. Bərpa işi üzrə layihənin müəllifi memar C.Qədirov.*

da məlumat verən Quran məzmunlu epiqrafik lövhə məscidin həcmli-məkan həllini nümayiş etdirir. İbadətgah zalının interyerində, künclərin birində - memarın və onun həyat yoldaşının qəbrləri var. Məscid XVIII əsrin abidələrinə aiddir və İçərişəhərin kult tikililərinin inkişafında əhəmiyyətini qoruyub saxlayır.

**BƏY** – məscidi 1895-ci ildə tikilmişdir [25]. Onun tikintisində Məhəmməd Həşim əl–Bakui oğulları, Hacı-baba və Hacı Cavad, həmçinin tanınmış Bakı milyonçusu Ağa-Murtuza Muxtarov, İbrahim Şirvani (xəttat), Mir Əli ən-Naki, Mir Təki, b. Səid Hüseyn (usta-memar) iştirak etmişlər. Daha qədim məscidin yerində tikilmiş və düzgün qurulmuş minarənin xüsusi olaraq nəzərə çarpdırılması ilə tamamlanmış, axarlı əyri xətli ümumi təsəvvürü ilə küçənin planlaşdırılması səciyyəsinə çox uğurla daxil edilmişdir. Məscid, Bakıda sənaye kapitalizmi şəraitində, lakin yerli memarlıq ənənələrində kult binalarının yeni memarlıq axtarışının əsasını qoydu. İlk dəfə olaraq Şirvanşahlar dövrünün Bakı memarlıq məktəbi üçün səciyyəvi olan həcmli-məkan kompozisiyasını istifadə etməyə çalışırdılar. İnteryer vestibül və üçnefli (interyerin bir hissəsi olan, bir və ya iki tərəfdən sütunlarla ayrılmış, uzadılmış düzbucaqlı otaq) ibadət zalı və de-



*İçəri-şəhər. "Gileyli" məscidi 1309-cu il. Tverskaya küç., 5. Fasad, kəsim, plan. Memar C. Qədirovun çertyojları.*



*İçəri-şəhər. "Şeyx İbrahim" məscidi. 1415-ci il. Minarə küç., 25. Fasad, kəsim, plan. Memar C.Qədirovun çertyoju.*



*İçəri-şəhər. Qasım bəyin hamamı. (Şirin-hamam) XV əsr.*

korativ dolğun ifadəli forması ilə xüsusi olaraq nəzərə çarpdırılmış şəkildə açılmış hörgü üslublu mehrabla təqdim edilmişdir. Bəy məscidi elə üsulla həll edilmişdir ki, orada Avropa, şərq və yerli memarlıq-konstruktiv prinsiplər toqquşmuşdur. Burada heç bir motivlərlə örtülməmiş aydın eklektika göz qabağındadır, belə ki, həcmli məkan kompozisiyasında və fasadın təfsirində hissələrə ayrılma və order memarlığının elementlərindən istifadə edilmişdi, nalşəkilli pəncərələr və portal yerli memarlıq ruhunda yerinə yetirilmişdir. Divarların daş hörgüsü, təraşlı, sivri-uclu günbəz və daş üzərində oyma yüksək mükəmməllik səviyyəsinə çatmışdır. Məscid – memarlığın üsul və motivlərini memarlar tərəfindən yeni



tərzdə istifadə etməyə can atmalarını xüsusi olaraq nəzərə çarpdırmaqla göstərən, dövrün abidəsidir.

**XANLAR** – məscidi (Firdovsi küç., 21), XIX əsrin sonunda Xanlarov qardaşları tərəfindən öz evlərinin yanında tikilmişdir (memar Məşədi Mirzə Qafar İsmayılov). Kiçik məscid uzadılmış düzbucaqlı dördbucaq şəklində yaşayış məhəllələrinin sıravi tikililərinə daxil edilmişdir, giriş dar döngə tərəfdən yerləşdirilmişdir. İbadətgah zalı, mərkəzi hissəsi baraban üzərində günbəzlə tamamlanmış, yanları isə tağtavanlarla örtülmüş qarınaltı tağlar vasitəsilə üç seksiyalara bölünmüşdü. Zalın uzunlamasına mehvəri boyunca maraqlı plastik memarlıq kompozisiyasını təqdim edən, cinahlardan uzadılmış pəncərələrlə birgə zəngin bəzədilmiş mehrab yerləşdirilmişdir. Bütün interyer, daxili məkanın bütün sisteminə təmtəraqlıq və dəbdəbə verən bitki səciyyəli bəzəkli motivlərlə dolğunlaşdırılmışdır. Məscid - "İçərişəhərin" ərazisində tikilmiş sonuncu kult memarlığı abidələrindən biridir.

"İçərişəhər" ərazisində Hacı Qayıb və saray hamamlarından başqa, Qasım-bəyin (XV əsr), Ağa-Mikayılın (XIX əsr), Ağa Zeynalın (XIX əsr) hamamları yerləşir.

**QASIM BƏY HAMAMI** və ya Şirin-hamam, Şirvanşah Xəlilullan I-in dövründə, Səlyan darvazalarının yanında inşa edilmişdi. Hamamın planlaşdırma strukturu, vestibül hissənin, soyunulan yerin, çimmə bölmələrinin, xəzinə və odluq kamerasının, olması ilə birgə yerli memarlığın ənənəvi üsullarına əsas-

*İçəri-şəhər. "Hacı Bani" məscidi. XVI-XX əsrlər.*
*8-ci K.Qala döngəsi., 20. Fasad, kəsim, plan.*
*Memar C.Qədirovun çertyojları.*

lanmışdır. Soyunulan və çimmə bölmələri künc kameraları ilə xaçşəkilli günbəzi olan otaqlardan ibarətdir. Hamamın mərkəzi hissəsi – üzərində əsas günbəzlər yerləşdirilmiş səkkizüzlü forma şəklindədir. Tağlar, tağtavanlar və günbəzlər vasitəsilə bölünmüş hamamın daxili sahəsi memarlıq və konstruktivlik formaların çox yüksək dərəcədə vahidliyi ilə fərqlənir. Zalın həcmli plastikası memarlıq kütlələrinin üfüqi və şaquli parçalanması ilə əldə edilmişdir. Taxtapuşların konstruktiv sistemi hamar dam örtüyünün geniş sahəsində çoxsaylı böyük və kiçik daş günbəzlər formasında gözəl ifadə edilmişdir. Su ilə təmin etmə, isitmə və qızdırıcı sistemlər, divarların qalın qatlarında və döşəmə altında yerləşdirilmiş keramik borular vasitəsilə həyata keçirilirdi. Bərpa etmə işləri 1970-ci illərin sonunda aparılmış və hamam yaşıl aptek üçün uyğunlaşdırılaraq düzəldilmişdi. Qasım-bəy hamamı, dövlət tərəfindən mühafizə edilən orta əsrlər dövrünə aid mülki memarlığın maraqlı abidələrindən biridir.

**AĞA MİKAYIL HAMAMI**, XIX əsrdə Şamaxı sakini Ağa Mikayıl tərəfindən inşa edilmişdir və İçərişəhərin magistral küçələrindən birində yerləşmişdir, - onun girişi isə Paralel küçə tərəfdəndir. Əsas otaqların daxili quruluşunun genişliyi və mütəşəkkilliyi ilə fərqlənir. Soyunulan və çimmə bölmələri – kvadrat şəkillidir, dörd mərkəzi dayaqlar sayəsində inkişaf etmiş həcmli-məkan kompozisiyası əldə etmişdir. Memarlıq kütlələrinin tikintisi xarakteri, daş günbəzlərin şaquli mehvərlərinə keçilməsi üçün nazik profillərlə hissələrə ayrılmış və proporsional yaruslarla müəyyən edilmiş çatma şəkilli tağlar, tağtavanlar və günbəzlər vasitəsilə ifadə edilmişdir. Milli memarlıq formalarında dəqiq fasad və dam örtüyü üzərində üstünlük təşkil edən günbəzlərin təsirli həcmləri hamamın həllinin əsasını təşkil etmişdir. Binanın bütün həcmi üzərindən qətiyyətli siluetlə görünən müasir raket şəklində olan tüstü bacasının təfsiri maraq kəsb



*İçəri-şəhər. "Bəylər" məscidi. 1895-ci il. Saray (Məmmədyar) küç., 47. Kəsim, plan.*



*İçəri-şəhər. Minarə küç., Hacı Qayıbın Hamamı. XV əsr.*

edir. Abidə, İçərişəhərin mülki sisteminə fəal element kimi daxil olmuşdur.

**AĞA ZEYNAL HAMAMI**, özünün həm sifarişçisi, həm də sahibi olduğu hamamı XIX əsrin ikinci yarısında inşa etmişdi. Hamam yaşayış tikililərinin sisteminə daxil edilmişdir və soyunulan, çimmə bölmələri, xəzinə (qaynar və soyuq suların saxlanıldığı yer) və odluq kamerası şəklində əsas qruplara bölünmüş, daxili məkanın həllinin ənənəvi üsullarını qoruyub saxlamaqla bu mühitdən seçilmirdi.

## ŞİRVANŞAHLAR SARAYI ANSAMBLI

Hökmranlıq edən yüksəklikdə yerləşib, onun binaları şəhərin ümumi planında və xarici simasında üstünlük təşkil edirdi. Ansambl Azərbaycan memarlığının əsl şah əsəridir. Bu ansamblın yüksək bədii-memarlıq keyfiyyətləri, Azərbaycan memarlığında bütöv bir üslubun istiqamətinin yaradılmasına imkan yaratmış, ayrı-ayrı tikililərin yerin relyefi üzərində ustalıqla yerləşdirilməsi, siluetlərin gözəl həlli, imkanlardan və yerli əhəngdaşlarının dekorativ xüsusiyyətlərindən məharətli istifadəsi və daş üzərində möhtəşəm oyması ilə fərqlənir [16].

Ansambl XV-XVI əsrlərdə, həcmli həllərin çoxplanlılığına imkan yaradan, müxtəlif səviyyələrdə yerləşmiş üç kiçik həyətlər ətrafında formalaşmışdı. O, aşağıdakı binalardan: kvadrat şəkilli həyətin yaxınlığında yerləşmiş "Divan-xana" (XV-ci əsr) sarayından, alim Seyid-Yəyha Bakuvi`nin (XV əsr) mavzoleyindən, orta həyətdə yerləşən, Key-Qubad (XVII əsr) məscidindən, həmçinin Muradın (1584-cü il) darvazasından ibarətdir. Aşağı həyətdə saray məscidi (1441) və Şirvanşahların sərdabəsi (1435-ci il) "Türbə" inşa edilmişdir.

Daha aşağıda, hamamı su ilə təchiz edən, möhtəşəm ovdanla birlikdə böyük saray hamamı (hamam, XV əsr) tikilmişdir. Sarayın tələbkar əzəmətli binası qapalı saray məkanında üstünlük təşkil edən mövqeni tutur. Ümumi həcm üzərində xeyli irəli çıxmış, xüsusi olaraq nəzərə çarpdırılan möhtəşəm portal, proporsional parçalanmaların ciddiliyi və demək olar ki, bütöv divarların təmizliyi ilə xarakterizə olunur. Sarayın ikimərtəbəli binasının daha qədim bünövrə üzərində inşa edilməsi istisna edilmir və planın mürəkkəb konfiqurasiyası ilə qeyd edilmişdir. Yuxarı mərtəbə aşağı mərtəbənin planlaşdırma strukturunu təkrarlayır. Mərkəzi səkkizüzlü zal və ona bitişik eyni formalı "bölüşdürücü vestibül" ətrafında qruplaşmış "enderuna" və "biruna" üslublu qabaq və yaşayış otaqlarının təşkiledici elementləri idilər. Həyətin şərqi və cənub fasadlarının çevrələrinin möhkəmlilik həlli planı, cənuba və şərqə, dənizə tərəf yönəlmiş, yonulmuş erkerlərin meydana çıxması, bütün binadan keçən uzununa və eninə olan istiqamətlərdə əsaslı divarların olmaması heyrət doğurur. Məhz



*İçəri-şəhər. Şirvanşahlar sarayı fonunda "Bəylər" məscidi.*

onun planlaşdırma sxemi, buna bənzər strukturun mənşəyi haqda bütövlükdə tədqiqatçıların müxtəlif fərziyyələrinə səbəb olmuş, orijinal həcmli-məkan kompozisiyasını doğurdu. Aşağı və yuxarı mərtəbələrin otaqları çatma şəkilli tağtavanlarla, portalın arxasındakı səkkizüzlü zal isə - günbəzlə örtülmüşdür. Sarayın bərpa edilməsi layihəsi 1977-ci ildə memarlar A.B.Salamzadə, E.İ.Kanukov və E.V.Avalov tərəfindən tərtib edildi, lakin binanın memarlıq mahiyyətinə zidd olan lüzumsuz təmtəraq və birtərəfliliyi səbəbindən reallaşdırılması qəbul olunmadı. Bu süjet kompozisiyasının daha maraqlı həlli memar F.Miralayevə təklif olundu, lakin o, öz işini saziş şərtinə qədər gətirib çatdırmadı. Sarayın bərpa edilməsinin yeni layihəsi təcrübəli bərpaçı N.K.Rzayevin (1991-ci il) rəhbərliyi altında memarlar qrupu tərəfindən hazırlanmışdır. Bu bərpa layihəsinin yerinə yetirilməsinin tanınmış türk şirkəti "ENKA"ya verilməsi nəzərdə tutulurdu. Lakin hər halda bərpanı yerli qüvvələrlə yerinə yetirmək qərarına gəldilər.

*İçəri-şəhər. "Bəylər" məscidinin minarəsi.*



**DİVAN-XANA.** Sarayın şimal-qərbinə, hündür stilobat (sütunlar üçün özül) üzərində rotondadan (girdə və yarımgirdə qübbəli kiçik bina) ibarət, memarlığın xüsusi dünyası, Divan-xana bitişir. Səkkizüzlü zal beş cəhətləri ilə özünəməxsus orderin yonulmuş sütunları üzərindəki çatma şəkilli arkadalardan ibarət açıq qalereyaya yönəlmişdir. Arkadaların səthi, bununla, kölgələrin yarımtonları ilə birgə divarın xüsusi plastikasını əmələ gətirən hamar və nəcib profillərlə xüsusi olaraq nəzərə çarpdırılır. Zalın üzərindən ikiqat örtülmə ilə çatma konturlu yonulmuş daş günbəz qabağa çıxır. Yonulmuş arkadalar qalereyasının hamar damı üzərindən qabağa çıxmaqla günbəzin mahiyyəti daha da artır. Qərb arkadada rotonda dinamik ifadə edilmiş əzəmətli portalla tamamlanır [31]. Onun çatma taxçası, stalaktitlərin mürəkkəb sisteminə söykənən nəcib nahamar yarımqübbə ilə tamamlanıb. Giriş qapı yeri üzərindəki timpanlar (binanın heykəllərlə və s. ilə bəzədilən qabaq hissəsi) səthi daş üzərindəki möhtəşəm naxışlarla örtülmüşdür. Portalın haşiyələnməsinin ciddiliyi ornamentli müxəlləfatın zərifliyini və mahirliyini daha da




*İçəri-şəhər. Şirvanşahlar saray ansamblının planı.*

çox nəzərə çarpdırır. Bu sadəcə olaraq, mükəmməllik dərəcəsinə çatdırılmış Abşeron memarlığının portal kompozisiyası deyil, klassik surətlərin inkişaf proseslərinin dərinliyindən doğan varisliyin, Şərqin böyük incəsənətinin memarlıq fəlsəfəsidir.

Sütunlar sırası ilə rotondanı əhatə edən arkada, üfüqi profilli bütöv daş bloklar vasitəsilə zalın həcmi ilə birləşdirilmişdir. Burada parlaq şəkildə ifadə olunmuş memarlıq kütlələrinin tektonikası, konstruktiv formaların əla həlli ilə qeyd olunub, binanın qeniş miqyası bütün memarlıq elementləri və detalları ilə uyğunlaşdırılmışdır. Özünəməxsus orderin sütunu fərdi səciyyə daşıyır və rotondanın ümumi kompozisiyasında, özlüyündə əhəmiyyəti olan həlqədir. Sütunun fərdiyyəti vahid şaquli blokdan olan memarlıq formasının həllində xüsusi olaraq nəzərə çarpdırılmışdır. Rotonda zalının interyerinin daxili məkanı, stalaktitlərin tələbkar şəkli ilə çatma formalı günbəzə keçən, çatmalı səkkizüzlü keçidli tağlar formasında olan, yalnız konstruktiv formalardan tikilmişdir. Təmiz yonulmuş daşlardan döşənmiş bütün interyer, müəyyən memarlıq sisteminin həcmli plastikasını və materialın həssaslıqla hiss edilməsini meydana çıxardır.

Divan-xananı kompozisiyanın tamamlığı, memarlıq formalarının mükəmməlliyi və ornamentli müxəlləfatın yerinə yetirilməsinin virtuozluğu fərqləndirir. Burada Azərbaycan memarlığında yeni stilistika istiqamətinin, müs-



*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Şirvanşahlar sarayının binası. Ş.S. Fətullayevin şəkili.*

təsna nəfis nəticələrə gətirib çıxartmış həcmli-məkan həllərinin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur.

Divan-xananın kvadrat şəkilli həyətinin ətrafında perimetr boyunca konturu və qurulma prinsipi rotonda ilə oxşar olan sütunlar üzərində açıq tağlar sırası qalereyası yerləşmişdir. Həyətin qalereyası hündürlüyünə görə Divan-xananın nişanından aşağıdır və möhkəm stilobat (sütunların özülü) üzərində səkkizüzlü rotondanın hakimlik edən həcmi üçün özünəməxsus fon təşkil edir.

Şirvanşah Xəlilulla I-in sarayında alim-münəccim SEYİD YƏHYA BAKUVİNİN MƏQBƏRƏSİ (XV əsr), özü ilə həcmdə piramida şəkilli alaçıq kimi tamamlanmış, planda səkkizüzlü formanı təmsil edir. Məqbərənin daxili məkanı yeraltı sərdabaya və uzadılmış formada yuxarı kameraya bölünür. Yuxarı kameranın səkkizüzlü fiquru, kürəşəkilli günbəzlə tamamlanmış kiçik künc tromplarla (üçbucaqlı oyuqşəkilli tağtavan) barabana çevrilir. Üzərilərindən o qədər də mürəkkəb şəkili olmayan haşiyəyə keçən yuxarı kamera, şaquli dərəcələrlə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Günbəzin bütöv dairəsi kainatın sonsuzluğunun özünəməxsus obrazını yaradan bəzəkli naxışla örtülmüşdür, dünyanın cəhətlərinə yönəldilmiş və "şəbəkə" üslublu daş məhəccərlərlə örtülmüş kiçik pəncərə yerləri, məqbərənin yuxarı kamerasını işıqlandırır, çatma şəkilli giriş qapısı yeri iri daş bloklardan düzəldilmişdir. Məqbərənin divarlarına rəngin və hündürlüyün şaquli əvəzlənməsi yolu ilə təmiz yonulmuş daş-



*İçəri-şəhər. Şirvan-şahlar sarayının an-samblı. Divan-xana binasının portalı (piştağı).*



*İçəri-şəhər. Şirvan-şahlar saray ansamblı. Divan-xana binasının portal ilə birgə bir hissəsi. Ş.S. Fətullayevin şəkili.*

la üz çəkilmişdir. İçərisindən üzü daşla çəkilmiş piramida şəkilli alaçığa keçən haşiyə hissəsi mürəkkəb olmayan profilin dartıcıları ilə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Məqbərənin mürəkkəb olmayan, lakin mənalı kompozisiyası, həcmli kütlələrin yeni stilistika üsullarını əks etdirir, məqbərə ayrılmaz surətdə Key-Qubadə məscidinin strukturuna daxil olur və onunla vahid bütövlük təşkil edir. Yaxınlığında "sultan Muradxanın (III) dövründə, 994-cü ildə (1585-86-cı illər) Bakı sakini Ulu Rəcəb – baba bakui" Vəlyankuh`dan (Təbrizin ətrafı) olan ustad Əmir-şah tərəfindən inşa edilmiş Muradın darvazaları yerləşir.

KEY-QUBAD MƏSCİDİ, XVII əsrdə, ənənəyə görə ilkin planı təkrarlayaraq, daha qədim bünövrələr üzərində qurulmuşdur. Günbəzin söykəndiyi iki cüt sütunlarla məscidin düzbucaqlı planına vestibüllə birlikdə portal bitişirdi. Məqbərəyə girişlə yanaşı ibadətgah zalının cənub divarında mehrab yerləşirdi. Sütunlarla zalın künclərini formalaşdıran üstləri tağtavanlarla örtülmüş kiçik qapalı məkanlara çevrilmişdi və interyer xaçşəkilli-günbəz həllini əldə etmişdi. Özünəməxsus orderin memarlıq təfsiri sayəsində sütunlar da həmçinin fərdi səciyyə əldə etdilər, Yəhya Bakuvi məqbərəsi ilə ayrılmaz surətdə bağlı

olan məscidin həcmli-məkan kompozisiyası, həndəsi cizgilərin mükəmməlliyi və memarlıq elementlərinin təmkinliyi vasitəsilə xüsusi olaraq nəzərə çarpdırılaraq formaların xüsusi plastikasını əldə edir. Məscid 1918-ci ildə erməni vəhşiləri tərəfindən yandırılmışdı.

Məqbərə və Key-Qubad məscidi ilə orta həyət, özünün yerləşməsi səbəbindən bütün Şirvanşahlar Saray Kompleksinə münasibətdə neytral mövqe tuturdu və sanki seyr etməyə gələn insanı son akkorda, aşağı həyətin obyektləri, Şirvanşahların sərdabası (türbə) və saray məscidi ilə görüşə hazırlayır.

Sərdaba, şərq fasadının "kompozisiyalı və dekorativ portalının seçilməsi ilə nəzərə çarpdırılmış" özü ilə dəqiq prizmalı həcmi ifadə edir. Binanın simasının mənalığını kompozisiyanın aydınlığı və memarlıq formalarının təfsirinin ciddiliyi müəyyən edir. Gözəl və ustalıqla yerləşdirilmiş işıq və kölgə ləkələrinin təzadına cəhd, üfüqi detallara şaquli detalların, həmçinin sıx naxışlı böyük səthlərə daş hörgü şəbəkənin qarşı qoyulması, Şirvan memarlıq çevrəsi üçün ənənəvi şəkildə səciyyəvidir, oyma naxış ustalıqla yerinə yetirilmişdir" [31].

Düzbucaqlı plan klassik proporsiyalarla, daxili məkan dəqiq həll ilə fərqlənir. Portalın dərinliyində çatma şəklində kiçik giriş qapı yeri, nadir hallarda rast gəlinən sivri-uclu günbəzlə örtülmüş vestibülə

*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Divanxananın binası.*





*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Divan-xana binasının portal ilə birgə bir hissəsi. Ş.S. Fətullayevin şəkili.*

aparır. Vestibülün yan tərəflərində günbəz və tağtavanlarla örtülmüş – xidməti otaqlar var. Zal – xaçşəkilli-günbəz formasındadır. Xaçın qolları çatma şəkilli tağtavanlarla örtülmüşdür. Mükəmməl çəkilmiş günbəz mürəkkəb olmayan kürəvi yelkənlər sisteminə söykənir. Günbəzin səthi, zirvəsində özünəməxsus ləçəklərlə tamamlanan tilli qurşaqlarla xüsusi olaraq nəzərə çarpdırılmışdır.

Memarlıq kütlələrin tektonikasının hökmranlıq etdiyi interyerdə əsas elementlər, mükəmməllik səviyyəsinə gətirib çatdırılmış konstruktiv formalardır. Burada memar Əlinin yüksək ustalığı sayəsində həyata keçirilmiş, kamil bədii stil üçün səciyyəvi olan memarlıq üsulları ardıcıllıqla meydana çıxır.

Sərdabanın portalı Azərbaycan memarlığında ən yaxşıları sırasına aiddir. Onun mükəmməl proporsiyalı həcmi, üstü müstəvi həndəsi naxışlarla örtülmüş, zalın günbəzinin çatma şəkilli fonunda aydın görünür, bir vaxtlar ona, firuzə rəngli şirə kərpiclərlə üz çəkilmişdi [6]. Portalın camaxatanı, dörd yaruslu stalaktitlər qurşağına söykənən, konxanın diş-diş səthi ilə birgə çatma şəkilli yarımgünbəzlə tamamlanmışdır. Arxivoltlar (tağın qövsünü divar səthindən fərqləndirən haşiyə) və timpanlar (binanın heykəllərlə və s. ilə bəzədilən qabaq hissəsi) daşdan qüsursuz yerinə yetirilməklə stilləşdirilmiş bitki ornamenti ilə örtülmüşdür.

Mürəkkəb ornamentli naxışla damcı formalı portalın medalyonları özünəməxsus bir şəkildədir. Memar-inşaatçı-usta Əlinin adı ilə güzgü kimi təkrarlanan yazılar ora ustalıqla hörülərək daxil edilmişdir. Tikilmə tarixi giriş yerinin üzərində iki sətirli yazı ilə bildirilməklə əks olunmuşdur: “Allahın peyğəmbərinin adaşı, dinin müdafiəçisi, ən böyük sultan və dahi şirvanşah Xəlilulla, - qoy Allah onun hökmranlığını və hakimiyyətini əbədi etsin, - bu işıqlı sərdabanı (məqbərə) öz anası və oğlu üçün, – Allah onlara rəhm eləsin, - 839-cu ildə h.q. (1435-36-cı illər) tikməyi əmr etdi”.



*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Sultan Murad portalının bir hissəsi. 994-cü il (1585-1586-cı illər).*

**SARAY MƏSCİDİ.** Aşağı həyətdə sərdabanın yanında yerləşmişdir. Ucu yüngülvari sivrilmiş iki günbəzlə tamamlanmış onun prizmalı həcminin sabitliyi, binanın şimal-şərq küncündə yüksələn,

qamətli minarə ilə kölgələndirilmişdir. Məscid böyük ibadətgah zalından, qadınlar üçün nəzərdə tutulmuş kiçik zaldan və bir neçə kiçik xidməti otaqlardan ibarətdir. Onların hamısı planın yığcam düzbucaqlı dördbucağına daxil edilmişdir [6].

Sərdabaya tərəf yönəldilmiş əsas – şimal girişi portalla xüsusi olaraq nəzərə çarpdırılmışdır. Məscidin kompozisiyalı mərkəzi – mərkəzi həcmi kürəşəkilli yelkənlərə söykənən, üstü bir az sivrilənmiş günbəzlə örtülmüş iki cərgə pəncərəsi olan ibadətgah zalıdır. Günbəzin kvadratından, xaçşəkilli-günbəz sistemini əmələ gətirən tağtavan şəkilli dərin oyuqlarının mehvərləri boyunca qollar ayrılır. Oyuqlar aynalı tağtavanlarla örtülmüşdür. Məscidin interyerinin mənalığının daxili məkan həlli həcmli kütlələr və konstruktiv formalar vasitəsilə əldə edilmişdir. Cənub divarında mehrab qarşısında daş məhəccərlərlə hasarlanmış kiçik meydança keramik firuzə rəngli plitələrlə döşənmişdir.

*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Divan-xananın tağlar sırasının bir hissəsi. Ş.S. Fətullayevin şəkili.*



Məscidin həcmli-məkan kompozisiyası, minarənin prizmalı həcminin və dinamik şaquli üzərindən sanki daş günbəzlərin qayrılmış formaları ilə təəccüblü həmahəngliklə müəyyən olunur, azançının üzərində duraraq möminləri ibadətə çağırdığı eyvanın stalaktit qurşağı ilə tamamlanır. Minarə stalaktit qurşağın altında yazı ilə işarələnmişdir, hansı ki, bildirir: "Ən uca və ən qüdrətli Allaha (xeyir-dua) alqış olsun və seçilmiş Məhəmmədə dua. Daha sonra ən böyük Sultan Xəlilulla bu minarəni açmağı əmr etdi. Qoy Allah onun hökmranlıq etdiyi günlərini və səltənətini yüksəklərə qaldırsın. Hicrinin səkkiz yüz qırx beşinci ili (1441-ci il)".

**SARAY HAMAMI** (hamam, XV əsr) və Ovdan (yeraltı su anbarı). Hamam aşağı həyətdən qərb tərəfdə və sonuncudan ən aşağı işarələrdə yerləşmişdir; kifayət qədər iri ölçülüdür, mehvər boyunca şimal-cənuba uzadılmışdır və özü ilə planlaşdırma cəhətdən buna bənzər tikililərin klassik növünü təmsil edir. Hamam iki bölmədən ibarətdir: soyunma yeri və mərkəzdə səkkizüzlü zallarla birgə çimmə yerini, lakin bütövlükdə, künc otaqları ilə birgə xaçşəkilli-çimmə sistemini təqdim edir. Seksiyalar arasında hərarət rejimini əlaqələndirən və nizamlayan aralıq kameralar mövcuddur. Çimmə bölməsi, otaqların döşəməsini

və taxtlarını külxanadan (odluq kamera) gələn qaynar hava ilə, istilik ötürən kanallar sistemi vasitəsilə qızdırılırdı. Hamamın içərisi mərkəzi hissələrdə günbəzlərlə, qalan hissələri isə bayır həcmində aşkar edilmiş tağtavanlarla örtülüb. Hamamın ayrı-ayrı otaqlarında mayolikadan (kaşı) istifadə edilmişdir.

Hal-hazırda, torpaq qalaqlarından təmizlənmiş hamam, demək olar ki, tamamilə açılmışdır və özünün ilkin memarlıq-planlaşdırma simasını açıb göstərməklə konservasiya edilmişdir.

**OVDAN (XV əsr).** Torpağın üzərində yeraltı su anbarına girişin bünövrəsi salamat qalıb. Düzbucaqlı haşiyədə çatma şəkilli qapı yeri, çox böyük ölçülərdə kameraya gətirib çatdıran, dərin pilləkənin başladığı yerdə yuxarı kameraya aparırdı. Kiçik keçidlər onu pilləkəndən, digər tərəfdən isə - su anbarının bitişik böyük tutumundan ayırır. Su, yeraltı qalereyaların şaxələnmiş şəbəkəsindən – kəhrizlərdən gəlirdi.

Ticarət magistralı və ya Minarə küçəsi, Şamaxı darvazalarından Səlyan darvazalarına qədər bütün uzunluğu boyunca, bu istiqamətdə onun inkişafını müəyyənləşdirmiş Dəniz kənarının təsiri altına düşdü. Küçənin əsası, ola bilsin ki, artıq məşhur Qız qalasının (Qız qalası, VI-VII əsrlər) inşasından sonra, alov kompleksini təşkil edən, alov məbədlərinin yerləşdiyi rayonda qoyulmuşdu. XI-XII əsrlərin hüdudlarında, səlcuqlar, daha sonra şirvanşahlar dövründə sasanilər dövrünə (VI-VII əsrlər) aid binanın qalıqları üzərində Ləzgi- məscidi (1169-cu il) tikilir.

Minarə (XV əsr) ilə birgə **CÜMƏ** – məscidi (1309-1310-cu illər), alov məbə-



*İçərişəhər. Şirvanşahlar saray ansamblı. Məscidin minarəsinin bir hissəsi.*



*İçərişəhər. Şirvanşahlar saray ansamblı. Seyid Yəhya Bakuvinin məqbərəsi. Ş.S. Fətullayevin şəkili.*





*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Türbənin portalının bir hissəsi.*

dinin bünövrəsi üzərində inşa edilmişdir. Elə buradaca məscid-məktəbi (XIV əsr) meydana çıxır.

XIV əsrdə müəyyən dərəcədə, əsaslı binalar sayəsində magistralın planlaşdırma və həcmli-məkan quruluşu formalaşmağa başladı. Bunun nəticəsində küçənin istiqamətinin səciyyəsini həll edən, Qız qalası və Cümə məscidinin yanında kompozisiya qovşaqları irəli sürülür. Şirvanşahlar Kompleksinin yaradılması və Bakıda Şirvanşahlar sülaləsinin ikinci iqamətgahının yerləşməsi ilə Cümə məscidi minarəsi ilə adlandırılmış xüsusilə Minarə küçəsində həm də mülki binaların inşası fəallaşdı.

XV əsrin ikinci yarısı, XVI əsrin əvvəlində Minarə küçəsində, şəhərin ticarət magistralının əsas memarlıq-planlaşdırma elementlərini möhkəmləndirmiş, içərilərindən əsasən ikimərtəbəli olan – Qasım-bəyin, Buxarskinin, Multanın, Xanski və ya "Böyük karvansara" (XV əsr) olan səkkizə yaxın karvansara tikilir. Yerli və əcnəbi tacirlər, bütün yol boyu örtülmüş və "Tünd sıralar" adını almış karvansaraların və çoxsaylı dükanların fəal sahiblərinə çevrildilər. Buradaca, Qız qalası ilə üzbəüz Hacı Qaibin (XV əsr) və geniş həyəti olan məscid (XVII əsr) tikilmişdir.

Qız qalası və Cümə məscidi arasında olan küçənin kiçik bir hissəsində, 1988-ci ildə başlamış və indiyə qədər davam edən arxeoloji qazıntılar, hamamın geniş kompleksinin, karvansaranın və digər mülki tikililərin geniş binalarını aşkar etdi. Yenidən meydana çıxarılmış obyektlər küçənin tikilməsinin memarlıq məzmununu gücləndirir, bərpa edil-

*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Türbə binasının ümumi görünüşü. Memar Əli. 1435-ci il. Ş.S. Fətullayevin şəkili.*



*İçəri-şəhər. Şirvanşahlar saray ansamblı. Məscidin şimal tərəfdən ümumi görünüşü. Ş.S. Fətullayevin şəkili.*



*İçəri-şəhər. Ramazanovun yaşayış evinin şimal fasadının bir hissəsi.*

mədən və konservasiyadan sonra yolun profili və səciyyəsi yeni təfsir əldə etdi.

Hazırda Minarə küçəsi uzun əsrlərdən bəri davam edən təbəqələşmədən sonra öz səviyyəsini dəyişib. Bir çox tikililər tökülmüş torpaq altında qalmışdı və naməlum olaraq qalırdılar. İlkin nümunə öz parametrlərini itirmişdi və tikilmənin infrastrukturu ilkin başlanğıc özülündən məhrum edilmişdi. Qarşıda tökülmüş torpağın torpağaltı qat səviyyəsinə qədər götürülməsi və aşkara çıxarılmış memarlıq sisteminin mövcud əyani-məkan mühitinə daxil edilməsi gözlənilir.

İçərişəhərin cənub-qərbində, XV əsrin müsəlman Şərqində olduğu kimi, Səlyan darvazalarının yaxınlığında, "Şirin hamam" və ya Qasım-bəyin hamamı, yanında isə karvansara və yaşayış tikilisi inşa edilmişdi. Məhz bu zonada cənub-qərbi məhəllələrin formalaşması başlandı.

Gec feodalizm dövründə, Bakı xanları zamanı (XVIII əsr), Şamaxı darvazalarının yaxınlığında geniş daxili həyətləri, məscidi, hamam və ovdanları ilə birgə saray binalarının nəhəng kompleksi meydana çıxdı.

XIX-XX əsrin hüdudlarında kapitalizm dövrü də həmçinin ticarət küçəsinin tikilməsinə öz düzəlişlərini əlavə edir, az mərtəbəli yaşayış tikililəri sökülür, neft və ticarət əməliyyatlarında varlanmış mülklərin sahibləri məhdud torpaq sahələrində üç-dörd mərtəbəli binalar inşa edirlər. Ramazanovların, Useynovların, Qəni Məmmədovun və başqalarının bu evləri öz memarlığı və silueti ilə Minarə küçəsinin ümumi səciyyəsini və miqyasını dəyişdilər. Tikilməyə, binaların fasadlarının vacib həcmli və kompozisiya elementləri olan yaraşıqlı tərzdə şüşələnmiş "şüşəbənd" eyvanları ilə qeyd edilmiş şərq koloriti əlaməti ilə qərb stilistik təmayülü daxil oldu.



*İçəri-şəhər. Ramazanovun yaşayış evinin ümumi görünüşü. XX əsr. Buxarskaya (V. Məmmədov) küç.,24. Ş.S. Fətullayevin çertyoju.*



*İçəri-şəhər. Ramazanovun yaşayış evinin fasadının bir hissəsi.*

Hal-hazırda küçənin tikilmə xarakterində heç nə dəyişməyib, keçmişin ilkin siması qorunub saxlanılıb və qədim abidələr arxeoloji qazıntılar prosesində geri qaytarılıb.

**Minarə küçəsi, 45.** Qəni Məmmədovun yaşayış evi yerli həcmli-məkan elementlərinin iştirakı ilə barokko formasında 1908-ci ildə inşa edilmişdir. Üçmərtəbəli bina, dükanların iri qapı yerləri ilə dərin çıxıntılı hörgü və iki yuxarı mərtəbələrin təmiz əhəngdaşından olan yonması ilə birgə proporsional surətdə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Daş üzərində incə oyma ilə bədii gözəlliklə dolğunlaşdırılmış və əsaslı surətdə profilləşdirilmiş pəncərə yerləri binanın plastik vasitələrinin bütün qammasını təcəssüm etdirir. Fasadın əsas kompozisiya elementi – riflənmiş səthi ilə tamamlanmış ikimərtəbəli taxtadan olan şüşələnmiş eyvan - "şüşəbənd", diqqəti cəlb edir. Xüsusi olaraq nəzərə çarpdırılmış memarlıq formaları və pərvazın üzərindən keçən epiqrafiki ərəb hörmə yazısı ilə birgə bütün şüşəbənd boyu taxta üzərində oyma naxışlar – Bakının memarlığında özünəməxsus üslubi istiqamətdir. Özlərinin ciddi formaları və elementləri ilə Minarə küçəsinin qədim abidələri arasında bu yaşayış evi onu dövrələyən tikililərdən özünün təmtəraqlılığı: interyerlərin möhtəşəmliyi, xüsusilə pilləkən yerində modern üslubunda olan pəncərələrin vitrajları ilə seçilir.

Minarə küçəsi, Seyid-Yəhya Murtuza məscidi (XVII əsr), İçərişəhərin şəhərsalma sisteminə daxil idi və karvansaralar zonasında tikilmənin mürəkkəb elementi idi. XX əsrin 20-ci illərində, öz dövründə

ticarət magistralının üslubi formalaşmasında gözə çarpan dərəcədə rol oynamış dini ayinlər üçün olan binanı tamamilə örtən, hər tərəfdən təsadüfi görkəmsiz birmərtəbəli binalarla tikilmişdi.

1980-ci illərin sonlarında bitişik meydanın yenidən qurulması zamanı, böyük yenidən bərpa etmə işləri tələb etmiş, ümumi ilkin simasını aşkarlamaqla binanı yığılmış torpaq laylaşmalarından və əlavə tikililərdən azad etdilər. Bərpa edilmə layihəsinin müəllifi memar L.Hüseynova, nəticədə inandırıcı həllə imkan vermiş tarixi materialları, ikonoqrafiya məlumatlarını son dərəcə dəqiqliklə aşkar etmişdi. Məscidin planlaşdırma quruluşu tam olaraq açılmışdı, portal hissəsi müəyyən edilmişdi, günbəzin çevrəsi və konturu azad edilmişdi, aşağı çoxüzlü baraban əvvəlki vəziyyətinə qaytarılmışdı, cənub, qərb və şərq divarlarındakı pəncərə yerləri təmizlənərək yenidən bərpa edilmişdi. Məscid plan və həcminə görə XVII əsrin ikinci yarısında Bakı – Abşeronda formalaşmış ənənəvi dini ayinlər binalarına aiddir. Məsciddə dərin portal, arxasında vestibül və interyerin xaçşəkilli günbəz həllini açan kiçik otaq var. Məscidin küncləri kiçik hücrələrlə tutulub, yuxarı mərtəbəyə qalxma – divarın qalın qatında düzəldilmiş pilləkənin çox hündür olan pillələri ilədir. Məscidin xaçşəkilli planının qolları aynalı tağtavanlarla xüsusi olaraq nəzərə çarpdırılmışdır. Çatma şəkilli günbəzə keçid yelkənlər vasitəsilə baş verir. Cənub divarının mehvəri boyunca mehrab bədii gözəlliklə stalaktit qurşaqla dolğunlaşdırılıb və kiçik konxa ilə tamamlanıb. Məscidin daxili quruluşunda xüsusi yer, daş konstruktiv üsullara və memarlıq formalarına mənsubdur. Burada həcmli kütlələrin tam tektonikası mövcuddur. Əsas elementlərin daş konstruksiyalarının məharətlə yerinə yetirilməsi, həmçinin bəzəkli motivlərlə düzülmüş kiçik otaqların çatıları, bu kamera üslublu bina ilə heyranlıq hissinə səbəb olur. Məsciddə hal-hazırda Bakının memarlıq muzeyi yerləşir.

**Minaretskaya** (A.Zeynallı), **51**. CÜMƏ MƏSCİDİ. Belə fərz edirlər ki, 780-ci (1378-79-cu illər) ildə atəşpərəstlər məbədinin yerində inşa edilmişdi. Lakin məscidin divarına quraşdırılıb keçirilmiş tikinti yazılarından biri bildirir ki, "bu tikilini rəcəb ayının 709-cu ilində (1309-10-cu illər) (imarət) əmir Şərif-ad-Din Mahmud yeniləşdirmək əmrini vermişdir" [1].

Otaqların çoxsaylı bölmələri ilə qeyri-düzgün altıbucaqlı formasında məscidin qeyri-adi planı və kvadrata daxil edilmiş, pilləli tağtavanlar sistemi ilə örtülmüş nisbətən böyük ibadətgah zalı binanın daxili sahəsinin özünəməxsus həllinə səbəb oldu. Məscidin şimal divarında ibadətgah zalının mehvəri boyunca möminləri ibadətə çağırmaq üçün şərəfə - eyvanı saxlayan, stalaktit qurşaqdan olan tac ilə möhtəşəm şəkildə aydın çəkilmiş minarə XV əsrdə inşa edilmişdi.

Minarənin şaquli xətti və suvarılan kaşılarla ibadətgah zalının günbəzinin konusşəkilli həcmi memarlıq kütlələrinin dinamikasını yaradır və Şirvanşahlar Saray Kompleksində də əks olunmuş məscidin ümumi kompozisiyasına yenilik, qeyri-adi stilistik istiqamət gətirirdi.

XIX-XX əsrlərin hüdudlarında Bakı varlılarından biri Hacı Şıxəli Dadaşov, xeyriyyə niyyəti ilə qədim abidənin yerinə tamamilə yeni məscid binası inşa


1908

etmək qərarına gəldi. Mərkəzdə dörd sütunlarla kiçik diametrli günbəzi saxlayan kvadrat şəkilli ibadətgah zalı, şimal və qərb tərəfdən piştağların qabağa çıxan həcm tipləri, məscidin planlaşdırma həllini tamamlayır. Binanın memarlıq üslubu eklektikdir, şərq və qərb klassik motivlərindən istifadə edilmişdir. Əsas girişin piştağında Azərbaycan memarlığının əsas memarlıq prinsipləri öz əksini tapmışdır: daş üzərində naxışlı oyma, geniş ornamental palitra və gözəl epiqrafika. Əsasən, daş üzərində tikinti və naxış işlərinin keyfiyyəti mükəmməlliklə işlənmişdir və əfsuslar olsun ki, indiyə qədər naməlum qalan memarın fikrini incəliklə yerinə yetirmiş daşyonan-ustaların mahirliyi heyran edir.

**Minaretskaya, 55.** LƏZGİ MƏSCİDİ – 1169-cu ildə ustad Nəcəf Aşur İbrahim oğlu tərəfindən inşa edilmişdir. Məscid adını, XIX-XX əsrlərin hüdudlarında neft canlanması dövründə Bakıya sənaye müəssisələrinə qazanc dalınca gələn Dağıstanlı fəhlələrə İçərişəhərin yerli sakinləri tərəfindən bu məscidi onlara ibadət üçün verdikləri zaman almışdır.

Məscid, iki tağdan ibarət və tağtavanla örtülmüş otağın qalıqları şəklində Sasanilər dövrünün abidəsi üzərində inşa edilmişdir. Məscid - paralelepiped həcmindədir, cənub fasadında isə daha sonralar iki kiçik pəncərə açılmışdı. Məscidin şimal-şərq tərəfindəki kiçik çatma şəkilli giriş, möhkəm üslublu, çatmalı tağtavanla örtülmüş geniş bir kameralı ibadətgah zalına aparır. Parlaq şəkildə göstərilmiş açıq formalı qarınaltı tağ, vizual cəhətdən ibadətgah zalını iki hissəyə bölür. Daşdan düzəldilmiş tağ, çoxlu bitki və həndəsi naxışlarla, timpan və mehrab – XII əsrin stalaktit konxası ilə bəzədilib. XX əsrin əvvəlində ibadətgah zalının cənub-qərb küncündə Bakı sakini tərəfindən ikinci mehrab inşa edilmişdi, lakin artıq eklektik formada.

Bayır tərəfdən məscidin qədim hissəsinə təmiz yonulmuş iri daş bloklardan üz çəkilib, yuxarı, daha sonrakı – şaqula riayət olunmaqla, xırda daşlarla üz çəkilib. Sadə profilli pərvazın üzərində cənub fasadının mehvəri boyunca "Allah" sözü kufi xətti ilə yazı olan daş plitə quraşdırılmışdır.

1970-ci illərdə, məscidin yenidən bərpa edilməsi prosesində arxeoloji qazıntılar zamanı binanın cənub hissəsinin altında Sasanilər dövrünə məxsus iki yarımsirkulyar üslublu tağ əla qalmışdır. Tağların arxasında – tağtavanla örtülmüş otaq yerləşir. Daha sonrakı qazıntılar, ola bilsin ki, üzərində səkkiz əsrdən çox müsəlman məbədinin durduğu qədim binanın digər hissələrini aşkar edəcək.

**Minaretskaya,** MƏKTƏB-MƏSCİDİ, 1301-ci ildə inşa edilmişdi, o eyni zamanda məhəllə məscidi kimi də xidmət edirdi. Məscid kvadrat şəkilli ibadətgah zalından və əsas həcmdən bir az irəli çıxan, şimal tərəfdən ona bitişik düzbucaqlı otaqdan ibarətdir. Özünün kiçik ölçülərinə baxmayaraq ibadətgah zalı, planda kiçik künc çıxıntıları sayəsində, interyerin həcmli-məkan həllində çatma tamamlama ilə o qədər də dərin olmayan taxçalarla göstərilmişdir. Kürəvi konusşəkilli günbəz və künc mövqelərin şaquliliyi interyerin həcmli plastikasını müəyyən edir.

Məscidin bayırdan olan zahiri görünüşü, kəskin təfsir edilmiş bütöv daş divarların və düzbucaqlı formada profil-

*İçərişəhər. Qəni Məmmədovun yaşayış evinin ümumi görünüşü. 1908-ci il. Minaretskaya küçəsi, 45.*




*İçəri-şəhər. "Seyid Yəhya Murtuza məscidi". XVII əsr, Minaretskaya küç. Fasad, kəsik, plan. Ş.S. Fətullayevin çertyojları.*

lənmiş girişin fonunda günbəzlə nəzərə çarpdırılmışdır. Fasadın üzərindəki epiqrafika, həm məlumat elementi kimi, həm də ornamental motiv kimi mühüm yer tutur. Məscidin aşağı hissəsi arxeoloji işlərin intizarında qalmaqla hələlik üzərinə tökülmüş torpağın altındadır.

**Minaretskaya, 12,** HACI QAYİBİN HAMAMI, XV-XVII əsrlərin hüdudlarında inşa edilmişdir, müsəlman şəhərinin əsas elementlərindən biri kimi ticarət magistralının kompozisiya quruluşunda özünün həcmli-məkan siması ilə fəal rol oynayır.

Hal-hazırda, uzun əsrlərdən bəri tökülmüş torpaq nəticəsində hamam, küçənin qeyd edilmiş səviyyəsindən daha aşağıda yerləşir. Plana görə hamam üç qrup otaqlardan ibarətdir: vestibül, soyunma otağı və çimmə otağından. Bütün otaqlar, planda iki xaçşəkilli üslublu zalların: soyunma və çimmə otaqlarının ətrafında qruplaşırlar. Daxili məkanın təşkil edilməsinin dəqiqliyi, əla texnoloji sistem, isitmə və su təchizatının həlli hamamı fərqli edir. Əsas və köməkçi otaqların memarlıq-məkan təfsiri, günbəzlər, tağtavanlar, tağlar formasında, onların fərdi quruluşunda çatıların konstruktiv üsullarının müxtəlifliyi ilə səciyyələnir. Memarlıq formalarında zahirə çıxarılmış otaqların zəngin çatı sistemləri, hətta kiçik kameraların interyerlərinə son dərəcə gözəl mənalılıq vermişdir. Burada memarın qeyri-adi istedadını qeyd etməyə imkan verən hamamın daxili məkanının həllində memarlıq və konstruktiv formaların böyük fantaziyası göz qabağındadır. Onun əlində daş, bütün bədii əsər atributları ilə birgə orijinal binanın yaradılması vasitəsinə çevrilmişdi.

Dərin taxca ilə dinamik formalı çatma tağla nəzərə çarpdırılmış iri piştağ-giriş şəklində hamamın xarici zahiri görünüşü də az maraq kəsb etmir. Hamamın üfüqi həcmi üzərindən daxili otaqların üstünü örtən böyük və kiçik günbəzlər görünür. Əyani-məkan mühitinə əhəmiyyətli dərəcədə fəal enerji daşıyan mənalı memarlıq formalardan olan dolğun həcmli plastika yaranmışdır. Başlanmış bərpa işləri, xüsusilə interyerlərdə tam olaraq yekunlaşdırılmamışdır, həmçinin bir həcmdə binanı bütövlüklə meydana çıxartmaq üçün küçə tökülmüş torpaqdan təmizlənməmişdir.

**Minaretskaya, 10,** П-şəkilli qala şəraitində nisbətən böyük meydanı əhatə edən bina açıq üslublu qalereyanı təmsil edir. 1964-cü ilə qədər sahədə ağaclar bitirdi, küçənin abadsız olan hissəsi idi. Həmin il bu yerdə beton və şüşədən ibarət müasir üslublu restoran layihələşdirdilər. Özül yerinin qazıntısı zamanı bazar adlandırılan yerdə tağ sırası aşkar edildi. Şəhərin köhnə planlarında bu sahə göstərilmişdir. Arxeoloji qazıntılar demək olar ki, meydanın tamamilə, tağ sırasının isə qismən ümumi konturunu aşkara çıxartdı [23]. Bərpa etmə planına görə (memar Ş.S.Fətullayev) 1964-cü ildə tağ sırası bərpa edildi və meydan abadlaşdırıldı. Binanın tağ sırası – özül və kapitel (sütunun başlığı) ilə vahid şaquli daşdan olan sütunlar blokuna söykənir. Qala – şəhərin tikilmə sıxlığı şəraitində meydanın bütün perimetri boyunca sütunlarla birgə tağ sırası – istisna bir təzahürdür. Cənub tərəfdən meydan ənənəvi memarlıq formalarında simmetriyasız kompozisiyalı məscidi (XVII əsr) bağlayırdı. 1806-cı ildə rus qoşunları tərəfindən Bakının alınmasından sonra məscid kilsəyə çevrildi. Sovet dövründə məscid və kilsə dağıdıldı və keçmiş ticarət küçəsinin yataq yolu genişləndirildi.

Şimal-şərqdə Qız qalasından küçənin əks hissəsi cənub-qərbdəki böyük karvansaraya qədər karvansaralar, ticarət sıraları, anbarlar və dükanlarla tikilmişdi.

Əfsanələrlə, rəvayətlərlə əhatə edilmiş **Minaretskaya, Qız qalası,** islama qədər, Sasanilər dövrünə (VI-VII əsrlər) aiddir. Onun bilavasitə təyinatı hələ indiyə qədər mübahisələrə səbəb olur: müdafiə tikilisi, atəşpərəstlər məbədi, qədim dövrün rəsədxanası və s.. O, Ba-



*İçəri-şəhər. Cümə məscidi. Plan, kəsik.*

*İçərişəhər. Cümə məscidin minarəsi. XV əsr.*



kının memarlığında və şəhərin siluetində xüsusi yer tutur. Qüllənin silindrik həcmi sahil qayasının üzərində yerləşir, tikilinin divarlarını XIX əsrin ikinci yarısında Xəzər dənizinin suları əhatə edirdi [15].

Hündürlüyü 30 və bünövrəsində divarların qalınlığı 5 metr, yuxarıda isə 4 metr olan daşdan tikilmiş Qız qalası daxili məkanda səkkiz yarusa bölünüb. İkinci mərtəbədən sonuncu mərtəbəyə qədər əlaqə divarın qalınlığında olan vintşəkilli pilləkənlərlə həyata keçirilir. Yarusların işıqlandırılması cənub tərəfdən yerləşdirilmiş ensiz yarıqlar vasitəsilə baş verir, mərtəbələr yastı daş günbəzlərlə örtülmüşdür.

Qüllənin daralan silindrik həcmi şərq tərəfdən demək olar ki, düz zirvəyə kimi ucalan və planda doqquzluğu formalaşdıran böyük çıxıntı ilə mürəkkəbləşdirilib. Binanın təfsiri, üçüncü yarusdan başlayaraq onun səthinin qabırğa formasında bir daşla nazik üfüqi qurşaqlarla bölünməsi, həcmli plastika, onun formasının həllinin qeyri-adiliyi dünya memarlığında analoqlara malik deyildir.

"Böyük karvansara" və ya "Xanskiy" adlanan Minaretskaya, XV-XVI əsrlərin hüdudlarında inşa edilmişdi, planda kvadratşəkilli olmaqla, daxildə kəsilmiş künclərlə düzbucaqlı geniş həyətə malikdir, arxasında fərdi istifadə üçün yaşayış özəkləri olan bütün perimetr boyunca eyvanla əhatə olunmuşdur. Şimal-cənub mehvəri boyunca, dənizkənarı və ticarət küçələrini birləşdirən otaqlar qrupu ilə birgə iki tərəfə çıxışı olan iki giriş yerləşir. Həyət müxəlləfatının memarlığı, yastı düzbucaqlı çərçivəyə alınmış çatma tağlar – eyvanlar vasitəsilə ənənəvi formalar üzərində inşa edilmişdir. Profili



*İçəri-şəhər. Ləzgi məscidi binasının ümumi görünüşü. 1169-1171-ci illər. Minaretskaya küç., 55.*



*İçərişəhər. Qədim məscidin yerində yeni Cümə məscidi binasının inşası. 1899-1900-cu illər.*

*İçəri-şəhər. Yeni Cümə məscidin piştağı. 1899-1901-ci illər.*



*İçəri-şəhər. Yeni Cümə məscidin bir hissəsi. 1899-1901-ci illər.*





*İçəri-şəhər. Məscidin həyət tağ sırasının ümumi görünüşü. XVII əsr. Minaretskaya küçəsi.*



*İçəri-şəhər. Dənizkənarı tərəfdən Qız qalası. (VI-VII əsrlər).*



*Qız qalasının ümumi görünüşü. Ş.S.Fətullayevin rəsmi.*

*İçəri-şəhər. Qasım bəyin karvan saray binasının həyəti. XV əsr.*



mürəkkəb olmayan pərvaz binanın perimetri boyunca binanın daş fasadlarını birləşdirir. Ticarət küçəsi tərəfdən karvansara, həyət sahəsi ilə bilavasitə əlaqəsi olmayan dükanlarla verilmişdi. Ticarət magistralının şəhərsalma sistemində karvansara mühüm yer tutur və onun tikilməsində hakim mövqe tutur.

**Minaretskaya, ikimərtəbəli karvansara,** XV əsrdə inşa edilib və Şirvanşah Xəlilullah I tərəfindən istifadə üçün Bakı sakini Qasım bəy və onun varislərinə verilmişdi. Karvansara bir mehvər boyunca yerləşmiş iki tərəfə çıxışı olan iki girişə malikdir: dəniz ticarəti ilə əlaqədar olan dənizkənarına və ticarət magistralına.

Demək olar ki, planda kvadratşəkilli olan karvansara daxili məkanda arxalasında ayrıca otaqlar yerləşmiş, perimetr boyunca eyvanlarla əhatə olunmuş, səkkizüzlü formalı həyətdən ibarətdir. İkinci mərtəbənin planlaşdırılması alt mərtəbəni təkrarlayır və iki tərəfə çıxışı olan dəhlizə malikdir. Pilləkən meydançası divarın qalınlığında girişdə düzəldilib. Həyət sahəsinin arxitekturası qəsr hissəsində ayna həlli ilə iki yaruslu çatma şəkilli tağ sırası ilə verilib. Seksiyaların hər mərtəbədə dəqiq yastı düzbucaqlı çərçivələrə bölünməsi daş formaların konstruktiv sistemini memarlıq üsullarının ən yaxşı təbirini əks etdirir. Otağın və eyvanların üst örtüklərinin tağtavanları – çatma formalıdır, künc otaqlar isə kiçik gümbəzlərlə verilmişdir. Daş konstruksiya mülki memarlığın bu həcmli-məkan kompozisiyasının üzərində inşa edildiyi yeganə elementdir.

Karvansaraya girişlər binanın bütün hündürlüyü boyu qabağa çıxmış piştağlarla və birinci mərtəbə səviyyəsində dərin taxcalarla nəzərə çatdırılıb. Cənub-şərq tərəfdən karvansara şəhərin şəhər divarları sistemində onun eyni zamanda müdafiə səciyyəsini nəzərə çarpdıran küncdəki bütöv qüllələrlə bərkidilib.

**"Buxara" karvansarası,** İçərişəhərin Şamaxı darvazalarından gələn ticarət magistralının yolu üzərində XV əsrin hüdudlarında inşa edilmişdir.

Qabağa çıxan piştağla, planda kvadrat şəkilli karvansara, onun perimetr boyunca eyvanlar və fərdi özək – hücrələrlə əhatə olunduğu səkkizüzlü həyət formasına malikdir. Nəzərə çarpdırılmış dərin çatma formalı taxcalı giriş və həyət sahəsinə keçid boyunca ön tərəfdə yerləşdirilmiş kiçik hücrələr sanki karvansaranın vestibül qrupunu təşkil edirdi. Səkkizüzlü rahat həyət, səyyahların və tacirlərin gündəlik ticari əməliyyatlardan sonra açıq səma altında toplaşdıqları özünəməxsus bir zal idi. Yastı çərçivəyə alınmış çatma tağ, həyətin daxili məkanının bütün perimetri boyunca vahid üsulla birləşdirilmiş əsas memarlıq kompozisiyanın həlqəsini təşkil edirdi. Rəsmə görə mənalı, səciyyəvi möhkəm formalı tağ, karvansaranın memarlıq-planlaşdırma quruluşuna fəal surətdə daxil oldu və Bakı-Abşeronun mülki tikililərinin stilistik formalaşmasında mühüm yer tutdu.

1964-cü ildə aparılmış bərpa işləri (memarlar N. K. Rzayev, Ş.S. Fətullayev), əhatə olunmuş tikilmələr fonunda onun həcmli-məkan həllinin açılmasına imkan vermiş, karvansara binasını daha sonrakı tikililərdən və qat-qat yığılmış torpaq qatlarından tamamilə azad etdi [23].

"Buxara" ilə üzbəüz, həmçinin XV əsrdə inşa edilmiş Abşeronda alov məbədlərinə ziyarət edən hind tacirləri və



*İçəri-şəhər. "Buxara" karvan sarayının ümumi görünüşü. XV əsr.*

zəvvarları üçün sığınacaq kimi xidmət etmiş "Multanı" karvansarası yerləşirdi. Planda kvadrat şəkilli, kəsilmiş küncləri ilə eyni formalı həyəti ilə "Multanı" karvansarası qismən köhnə tikililər üzərində ucaldılıb, stilistik cəhətdən "Buxara" karvansarasına yaxın olan, onun plan sistemini müəyyən edən inkişaf etmiş giriş və vestibül qrupuna, eyvanlarla birgə perimetr boyunca həyəti əhatə edən dəqiq səciyyəvi memarlıq-planlaşdırma quruluşuna və onların arxasınca fərdi yaşayış üçün ayrı-ayrı özəklərə malikdir. Üstünlük təşkil edən elementlər çatma şəkilli tağlar və örtüklərdəki tağtavanlardır.

Eyvanların dərin lociyaları ilə fasadların ciddi və rasional surətdə bölünmüş üfüqi və şaquli xətləri həyət məkanına özünün həcmli plastikası ilə böyük dolğunluq gətirir.

Restoran və çayxana kimi istifadəyə verilmiş 1970-ci ildə qismən bərpa edilmiş karvansara, yerli sakinlər və həmçinin şəhərin əcnəbi qonaqları arasında çox məşhurdur.

*İçəri-şəhər. Qız qalasına görünüş ilə "Buxara" karvan sarayının əsas fasadı. Ş.S. Fətullayevin rəsmi.*



# İÇƏRİŞƏHƏRİN ƏTRAFI BOYUNCA DAİRƏVİ MAGİSTRAL

Sadovaya, Nikolayevskaya, Mixaylovskaya və Naberejnaya Aleksandra II (Niyazi, İstiqlal, A. Əliyev və Neftçilər pr.) küçələri, dairəvi səciyyəlidir, İçərişəhərin ətrafında XIX-XX əsrin hüdudlarında formalaşmışdır. Onlar sökülmüş qala divarlarının birinci sırasının yerində deyil, paralel olaraq salınmışdı. Bütün tras boyu yerin relyefi çoxlu çuxurlar, təpəciklər və çökmələrlə birgə yekcins deyildi. Dairəvi magistralın istiqamətinin göstərilməsi şəhər Dumasının rolunun və əhəmiyyətinin möhkəmlənməsinin artması ilə tədricən həyata keçirilirdi və şəhərin tarixi məhəllələrinin quruluşunda aparıcı mövqe tutmuş görkəmli binalarla tikilirdi [16].

**Sadovaya küçəsi** (Niyazi), Bayıl rayonuna tikilmələrin yayıldığı yerdən, şəhərin mərkəzi hissəsini tamamlayan meydandan (indiki Azneft meydanı) başlayırdı. O, magistralın daha təmtəraqlı hissəsinin, Nikolayevskaya küçəsinin formalaşması üçün memarlıq zəmini hazırladı. Uzunluğu 450 m olan Sadovaya küçəsi bir neçə maraqlı binalarla tikilib.

**Sadovaya** (Niyazi), **1.** 1890-cı illərin əvvəlində Kokorevskiy adlandırılan sahədə, əsas hissədə memar P. Şternin layihəsi üzrə Seyid Mirbabayevin üçmərtəbəli gəlir gətirən evinin tikilməsindən sonra "Azneft" yanındakı meydan özünün memarlıq simasını dəyişdi. Bina Bakının şəhərsalma quruluşunda ən fəal mövqe tutur. Gəlir gətirən evinin sahəsi bütün perimetri boyunca iki yaruslu otaqlar sırası ilə tikilib. Xarici çevrə boyu ev, künc hissələrdə, planda xüsusi olaraq nəzərə çarpdırılmış, həcmin qəşəng



*Sadovaya küçəsinin planı.*



*İçəri-şəhərin ətrafında dairəvi magistralın planı.*

*Deburun yaşayış evinin şimal fasadı. Mühəndis N.A. fon der Nonne. 1890-cı illər.*



düzülüşünü müəyyən etmiş üçüzlü forma əldə edir. Xüsusi olaraq nəzərə çarpdırılmış günbəzşəkilli tamamlama və əsas fasadın mərkəzi hissəsi ilə binanın üçmərtəbəli monumental həcmi, həm də Fransa intibahının stilistik istiqamətində də memarlıq kompozisiyanı aşkara çıxartdı. Rizalitlərlə (binanın irəli çıxan hissəsi) birgə yüksək səviyyəyə çatdırılmış künc hissələrin formaları və xüsusi olaraq nəzərə çatdırılmış mehvər kompozisiyası binanın bədii mühitini genişləndirdi. Hər mərtəbəli üfüqi hissələrə ayırma, dərin və yastı olaraq yonulmamış daşla hörmə vasitəsilə şaqul boyunca azalma sistemi ilə mərtəbələrin aşkar edilmiş kütləsi, həcmin kompozisiyasının geniş açılmış görünüşünü verdi.

Fasadın zəngin plastikası, memarlıq detallarının əla tapılmış forması, daşın işləməsinin fərdi xüsusiyyətə malik olması, mükəmməllik səviyyəsinə çatdırılmış tikinti mədəniyyəti, binanın obrazında vacib estetik mühiti formalaşdırdı. İstifadəsinə və həllinə görə otaqların interyeri əsas fasadın eksteryerindən geri qalmır.

**Sadovaya, 9.** Gimnaziya ilə qonşuluqda, demək olar ki, qeyd olunmuş eyni yerlərdə, tezliklə polkovnik N.A. fon der Nonnenin layihəsi üzrə 1890-cı ilin əvvəlində inşa edilmiş Deburun dəbdəbəli imarəti peyda oldu. Həmin dövrdə, bu imarəti layihələşdirən zaman küçənin kənar xətləri boyunca meydança boş idi və bu bina digərləri ilə qonşuluqda deyildi. Portiklərin (binaya bitişik sütunlu eyvan) sütunlarının yaxşıca aydın çəkilmiş klassik formaları, rizalitlərin korinf orderi, pəncərə haşiyələrin incə pofilləri, bi-

rinci mərtəbənin dərin, ikinci mərtəbənin isə yüngülcə yonulmamış daş fonunda mənidar plastikası imarətin arxitekturasının kompozisiyasının tamlığını və təntənəliyini yaradırlar.

Fon der Nonnenin binası - əsas fasadda portiklərin, yanda – lociyaların və digər plastik vasitələrin fəal surətdə istifadəsi yolu ilə yaşayış evinin həcmli-məkan həllinin ilk cəhdidir. Müstəvi perimetral tikilmələr arasında bu şəhərdə üçüncü ölçüdə yeganə tarixi binadır. Planlı və memarlıq həllinin fərdiliyi ilə seçilir: pəncərələri əsas fasada yönəlmiş otaqların anfiladası zallarla tamamlanır. Pilləkənlər və tualetlər də daxil olmaqla, bütün otaqlar birinci işıqla işıqlandırılır. Hazırki halda, qonşuluqdakı tikililərdən azad olan boş sahə memara öz binasını tamamlanmış və bütöv orqanizm kimi təfsir etmək imkanı verdi. Şəhərsalma nöqteyi-nəzərindən ən uğurlusu, bu küçənin relyefinin yüksəldilmiş işarələri üzərində qoyulmuş Sadovıy 9-dakı ev oldu. O, şəhər ərazisinin bitişik hissəsinin sonrakı yenidən planlaşdırılmasında istinad oldu, onun həcmi və səmərəli yerləşməsi isə onun arxasınca bu torpaq sahəsində uğurla həll edilmiş binaların əhatəsində kompozisiyalı aksent mövqesini bərkitdi. Onun sakit üfüqi hissələrə ayrılması Nikolayevskaya, 21-də İctimai məslis binasının və Sadıxov qardaşlarının yaşayış evinin şaqulləri ilə yaxşı həmahənglik təşkil edir.

Şəhərin Baş planının işlənib hazırlanması ilə məşğul olarkən onu qalanın ətrafı ilə gedən gələcək magistralın tikilməsinə daxil etməklə sarayın yerini uğurla təyin etmiş mühəndis fon der Nonneyə haqq qazandırmaq lazımdır. 1890-cı illərdə, bu bina tikilən zaman, küçənin qırmızı xətləri boyunca olan ərazi tikilmələrdən azad idi və memarın öz işində əli-qolu bağlı deyildi.

Bütün korpus boyu profillənmiş stilobatla iki mərtəbəyə bölünmüş Sadovıy küçəsi tərəfindən fasad, dərin olmayan rizolitlərlə xüsusi olaraq nəzərə çarpdırılmaqla üç mehvərə malikdir. Mərkəzi mehvər, həm də kiçik günbəzlə nəzərə



*Sadovaya küçəsinin ümumi görünüşü. Aerofotoçəkiliş.*



*Mirbabayevin yaşayış evinin ümumi görünüşü. Memar P.Ştern. 1890-cı illər.*

*Mirbabayevin yaşayış evinin əsas girişi üzərindəki eyvanın kronşteynləri.*

çarpdırılmışdır. Fasadın bütün kompozisiyası girişləri xüsusi olaraq nəzərə çarpdıran İoniya orderinin yüngül lociya-portikləri ilə zənginləşdirilmişdir. Bu üsul fasadın mənzərəli kompozisiyasının yaradılmasına səbəb olurdu. Yaxşıca aydın görsənən portiklərin sütunlarının klassik formaları, rizalitlərin Korinf orderi, pəncərə haşiyələrinin incə profilləri, birinci mərtəbənin dərin, ikinci mərtəbənin isə yüngül yonulmamış daşları fonunda gözəl plastika kompozisiyanın tamlığını və sarayın arxitekturasının təmtəraqlığını yaradır. Saray, Bakı şəraitində buna bənzər tikililər üçün nadir xüsusiyyətlərə – yan fasada bitişən, xüsusilə 1930-cu illərdə torpaq sahəsinin yerinə yetirilmiş yenidən qurulmasından sonra fasadların gözəl seyr edilməsi xüsusiyyətlərinə malikdir. Memar K.İ.Sençikov tərəfindən sarayın həcmi yenidən salınmış bağçanın kompozisiyasına daxil edildi və bunun sayəsində şəhər balaca olsa da, bütöv, ayrılmaz surətdə ansambl əldə etdi.

**Sadovaya** (Niyazi), **11.** 1885-ci ildə küçənin yüksəldilmiş işarəsi üzərində ikimərtəbəli Mariinski gimnaziyası inşa edildi (mülki mühəndis M.D. Botov). Klassik formalarda ucaldılmış ictimai tikili, şəhərin ictimai mərkəzindən uzaqlaşdırılmış dairəvi magistralın qərb hissəsinin mənimsənilməsi üçün təkan oldu.

**Nikolayevskaya küçəsi** (İstiqlal). Onun mənimsənilməsinin başlanğıcı, memar F.Lemkulun layihəsi üzrə kustar





*Sadovaya küç., 1. Mirbabayevin yaşayış evinin şimal fasadının bir hissəsi.*

emalatxana sıralarının inşa edilməsini nəzərdə tutan vaxta, 1878-ci ilə təsadüf edir. Sonra 1882-1883-cü illərdə burada Taurekin taxtadan düzəldilmiş sirki peyda oldu. Yalnız 1890-cı illərin əvvəlində, bütövlüklə inzibati-ictimai tikililər üçün yerin ayrılması ilə bu yerin (sahəsi təqribən 3 ha olan) nizama salınması layihəsi yerinə yetirildi. İnşası nəzərdə tutulurdu: Qubernator evi, şəhər Dumasının və Upravasının binası, realnı məktəbi, məscid və ticarət sıraları. Bu tikililərə qala divarları boyunca yer ayrılırdı, küçənin əks tərəfində isə yaşayış evlərinin inşa edilməsi nəzərdə tutulurdu. 20 il ərzində küçə möhtəşəm ictimai, mülki və yaşayış binaları ilə tikilib abadlaşdırıldı. O ansambl xüsusiyyətinə malikdir, tikililər isə - memarlıq abidələri statusuna malikdirlər. Dairəvi magistralın bu hissəsinin şimal-qərbindən cənub-şərqinin küncünə kimi binalar şəhərsalma mövqeyini tutur. Zəngin memarlıq tikilmələri arasında aşağıdakı binalar xüsusi olaraq seçilirlər: Sadıxov qardaşlarının yaşayış evi (1910-1912-ci illər), İctimai məclisin yay binası (1910-1912-ci illər), Bakı şəhər Dumasının binası (1900-1904-cü illər), H.Z.Tağıyevin qadın məktəbi (1898-1901-ci illər), İsmailiyyə (1907-1913-cü illər) və digərləri. Milli-romantik, klassik və neoqotikadan tutmuş stilistik istiqamətlərin müxtəlifliyinə baxmayaraq, küçənin tikilib abadlaşdırılmasında yenə də klassik memarlıq üsulları üstünlük təşkil edirdi [19].

Memarlıq-planlaşdırma quruluşu və həcmli-məkan sistemi kimi Nikolayevs-



*Sadovaya küç., 1. Mirbabayevin yaşayış evinin vestibülünün interyeri.*

kaya küçəsi, Bakı şəhərinin özünəməxsus ensiklopedik şəhərsalma formasını təşkil etdi. XIX-XX əsrlərin əvvəllərinin əsas memarlıq təzahürləri, indiki dövrə qədər öz stilistik cizgilərini tam olaraq qoruyub saxlamış bu bədii panoramada əksini tapdı. Memarlar D.Buynov, İ.Qoslavski, K.İsmayılov, M.Ploşko öz yaradıcılıqları ilə Bakı şəhərinin tarixi zonasında bütöv şəhərsalma ansamblının yaradılmasına səbəb oldular [17].

**Nikolayevskaya, 2,** İctimai məclisin yay binası (indiki Filarmoniya binası), 1910-1912-ci illərdə, ən yaxşı, Sadovaya küçələrinin ən əlverişlisində inşa edilmişdi, Bakı amfiteatrının ikinci terrasının yüksəldilmiş işarələrində tikilmişdi. Bina nəinki, onun tikilməsi üçün torpaq sahəsi ayrılmış Qubernator bağının kompozisiyasına, həm də XX əsrin əvvəlinə qədər formalaşmış ətraf memarlıq mənzərəsinə də çox gözəl surətdə uyğun gəldi.

Palladiya ruhunda İtaliya intibahı, memarın üzərində dayandığı tikilinin obrazlı həllinə son dərəcə yaxşı uyğun gəlirdi. Bu həll, memarlıq-planlaşdırma ideyasını, tikili üçün ayrılan torpaq sahəsinin yerləşdiyi yeri – yerin uduşlu relyefini və iqlim xüsusiyyətlərini qabaqcadan müəyyən etdi. İctimai məclisin binası, işıq və kölgənin həcmli kütlələrinin plastik ifadəsi vasitəsinin olduğu, terrasların, verandaların bolluğu ilə birgə mənzərəli və mənalı kompozisiyanı təmsil edir, o bir az İntibah dövrünün İtaliya villasını xatırladır.

Künc sahəsi, binanın kompozisiyasında, simmetriya üsulunu saxlamaqla

planlaşdırma həllinin seçimini qabaqcadan müəyyən etdi. Plan artıq keçid və dəhlizlər olmadan, aydın və sadə şəkildə təfsir edilmişdi. Bütün əsas divarlar bir-biriləri ilə əlaqəlidir və vahid konstruktiv sxemi təşkil edir. İctimai məclisin qalan bütün otaqlarının bitişdiyi planda ellips şəkilli zal, memarlıq-planlaşdırma kompozisiyasının mərkəzidir.

Bina dənizə, mənzərəli Bakı buxtasına tərəf yönəldilib. Cənub tərəfdən o, klassik orderləri istifadə etməklə, incə və zərif şəkildə aydın göstərilmiş təntənəli çoxyaruslu kompozisiya kimi qəbul edilir. Əsas həcm memarlıq kütlələrinin artan ritmik özəyi üzərində - yan qanadlardan mərkəzə doğru inşa edilib. Bütün həcmli-məkan quruluşu dekorativ fənərlə birgə günbəz və minarə üslublu cinahlardan çıxan düzgün quruluşlu qüllələr tamamlayıb. Fasad mövzusunun inkişafını davam edən dekorativ işləmələr interyerin həllini maraqlı edir. Bu binada memarlığın daxili və xarici məzmununun vahidliyini pozan eklektikaya yer yoxdur, arxasında proporsiyaların təmizliyinin, formaların gözəlliyinin və bütövlüyün həmahəngliyini açan, memarlıq düşüncəsinin məntiqinə birlikdə tabe edilmiş, İtalyan intibahının ən gözəl mənasında



*Sadovaya küç., 9. Deburun yaşayış evinin interyeri.*



Sadovaya küç., 9. Deburun yaşayış evinin ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.

yalnız stilizasiya mövcuddur. Bu binada 1918-ci ildən 1920-ci ilə qədər "Musavat" partiyasının rəhbəri Məmməd Əmin Rəsulzadənin rəhbərliyi altında Azərbaycan Demokratik Respublikasının birinci parlamentinin iclasları keçirilirdi.

**Nikolayevskaya, 4,.** Geniş vestibülü, enli dəhlizləri, mərmər pilləkəni, ustalıqla işlənmiş interyerlərlə birgə Bakı şəhər Dumasının üçmərtəbəli binası şəhərin tarixi hissəsinin şəhərsalma sistemində üstün mövqe tutur. Barokko memarlıq motivlərinin istifadəsi ilə, lakin maraqlı interpretasiyada mülki mühəndis İ.Qoslavskinin layihəsi üzrə 1900-1904-cü illərdə inşa edilmiş bina özündə kompozisiyanın klassik üsullarının cizgilərini daşıyır. Onun əsas fasadı ciddi simmetrik həll sxeminə malikdir. Qüllələrin əsas mehvərini xüsusi olaraq nəzərə çarpdırmaqla memar, ona qarşı əsas fasadın üfüqi hissələrə ayrılmasını qoydu. Qülləni əsas fasadın mərkəzində qoyaraq, onu əsas həcmlə ayrılmaz surətdə bağlamaqla Qoslavski bütün kompozisiyaya - Nikolayevskaya küçəsinin mərkəzi şəhər magistralına, o zamanlar çatışmayan gözəllik verdi. Həm bütövlükdə, həm də detallarda əla görünən əsas detalların klassik mütənasibliyi, fasadların daş elementlərinin heykəl uyğunluğu ilə işlənməsi, təntənəli formalarda yerinə yetirilmiş, şəhərdə yeganə sırf inzibati bina

*Sadovaya küç., 9. Deburun yaşayış evinin fasadının bir hissəsi.*



*Sadovaya küç., 9. Deburun yaşayış evinin interyeri.*






*Nikolayevskaya küçəsinin planı.*

olan – Duma binasının mənalı fasadının yaranmasına səbəb oldu.

**Nikolayevskaya, 6,** keçmiş Realnı məktəbinin binası (inqilabdan qabaq orta məktəb), 1901-1904-cü illərdə mülki mühəndis D. Buynov tərəfindən inşa edilmişdi, ilkin layihə 1892-ci ildə tərtib edilmişdi, lakin həm layihədə, həm də smetada əhəmiyyətli dərəcədə çatışmazlıqların və nöqsanların olması səbəbindən qəbul edilməmişdi. Yenidən işlənmiş layihə 1900-cü illərin əvvəllərində İtalyan İntibahı stilində təsdiq edildi. Bina qırmızı xətt boyunca küçənin rəvan xəttinə daxil edilmişdir və yan qanadlarının bucaq altında yerləşmiş olduğu mərkəzi hissənin əzəmətliliyi ilə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Fasadın klassik quruluşu, birinci mərtəbənin çox əsaslı şəkildə yonulmamış daş hörgüsü ilə açıq-aydın ifadə olunmuş kürsülük və Korinf pilyastrları (bir tərəfi divara bitişmiş dördkənarlı sütun) və çox çıxarılma pərvazla möhkəmləndirilmiş iri tağ yerləri ilə birgə tamamlayıcı yuxarı mərtəbə, magistralın memarlıq-planlaşdırma quruluşunda bu binanın əhəmiyyətini müəyyən etmişdi. Fasadın gözəl plastikası, işlənmə mədəniyyəti və detalların aydın çəkilməsinə münasibət Realnı məktəbinin bütün kompozisiyasında aşkar edilmişdir. Yüksək relyefdə daşdan düzəldilmiş, yan qanadların yuxarı künclərində klassik memarlıq motivinin kompozisiyasının dekorativ ornamental inkişafı müstəsna diqqətə layiqdir.

**Nikolayevskaya, 8.** H.Z.Tağıyevin (mülki mühəndis İ.Qoslavski, 1898-1901-ci illər) qadın müsəlman məktəbi, Nikolayevskaya küçəsində qala divarları yanında inşası nəzərdə tutulmuş tikililərdən birincisi idi. Planda П-şəkilli məktəb, sahənin cənub tərəfində yerləşən, qala divarı sayəsində əmələ gəlmiş, qapalı həyətə malik idi. Bu müsəlman şəhərinin iqlim və məişət şəraitinə son dərəcə yaxşı cavab verirdi. Bir qədər irəli çəkilmiş, binanın mərkəzi hissəsi, təkcə inzibati qrupun planlaşdırma-yerləşdirilməsi ilə xüsus olaraq nəzərə çarpdırılmamış, həm də həcmlə ifadə edilmişdir. İkimarşlı mərmər pilləkən, yaxşı yerinə yetirilmiş interyerlər, pərvazlar və memarlıq detalları təmkinlə, lakin zövqlə aydın şəkildə göstərilmişdir.



*Nikolayevskaya küçəsinin ümumi görünüşü. Aerofotoçəkiliş.*

*Nikolayevskaya küçəsinin ümumi görünüşü.*



*Nikolayevskaya küç., 2. İctimai məclisin yay binasının ümumi görünüşü (indiki M. Maqomayev adına Filarmoniya). 1912-ci il.*



Nikolayevskaya küçəsi tərəfdən əla yerinə yetirilmiş fasad binanın həllində müstəsna yer tutur. Onun üslubu "şərq" üslubudur, lakin bu "standart" layihə deyil, Çar Rusiyası şəhərlərinin bina və tikililərində əks olunmuş dekzotikaya aludə olmaq demək deyil. Bu, detalların profillərinin gözəl yerinə yetirilməsi və daş üzərində dərin oyması ilə çox plastik və koloritli memarlıq əsəri yaratmış istedadlı ustanın işidir.

Qoslavskinin tikilisi haqqında o vaxtkı Bakı mətbuatı belə yazırdı: "Bakı şəhərinin ən yaxşı küçələrindən birində yerləşməklə; məktəbin....binası, onun bütün hissələrinin nəfis sadəliyi və həmahəngliyi ilə olduqca sərfəli şəkildə əvəz edilmiş artıq fikrin olmaması səbəbindən memarlıq quruluşuna görə ən gözəl binalardan biri kimi özü ilə şəhəri bəzəyəcəkdir". Bu binada 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının parlamenti yerləşirdi.

**Nikolayevskaya, 10.** Bu yerdə 1898-ci ildə mülki mühəndis İ. Qoslavskinin layihəsi üzrə bazar layihələndirilmişdi. Bazarı inşa etmədilər, şəhərin ən gözəl tikililərində biri - oğlu İsmayılın xatirəsi üçün Bakı milyonçusu Ağa Musa Nağıyevin sifarişi üzrə yaradılmış "İsmailiyyə" xeyriyyə cəmiyyətinin binası ucaldılana qədər sahənin yeri on il ərzində boş qalmışdı; layihə mülki mühəndis İ. Ploşko tərəfindən yerinə yetirildi və inşa edildi (1907-1913-cü illər).

"İsmailiyyə" cəmiyyəti üçün ayrılmış yer planlaşdırma nöqteyi-nəzərindən küçənin quruluşunda sərfəli mövqe, lakin memarlıq aspektindən isə məsuliyyətli mövqe tuturdu. Venetsiya qotikasında "İsmailiyyənin möhtəşəm palatsosu (sarayı)" son dərəcə plastik və yaxşı göstərilmişdir. Materialda əsl memarlıq simfoniyasını təcəssüm etdirmiş memarın ustalığı və bənnaların sənətkarlığı güclü emosiyalara və heyranlığa səbəb olan bu bina bədii əsər kimi nümayiş etdirilir. Şəhərsalma nöqteyi-nəzərindən "İsmailiyyə" binası, 1920-ci illərin əvvəlində "Kaspi" nəşriyyatının yaxınlığındakı yerdə M. Ə. Sabir bağının əsası qoyulan zaman xüsusilə seçilməyə başladı.

**Nikolayevskaya, 21** (İstiqlal), Sadıxov qardaşlarının mənfəət evi 1910-1912-ci illərdə inşa edilmişdi. 1909-cu ildə bu evin layihəsinin tərtib olunması üzrə ümumrusiya müsabiqəsi elan edilir, müəllif birinci mükafat əldə edir. Bina Sadovaya və Nikolayevskaya küçələrinin küncündə inşa edilib və özünü künc qüllə hissəsi ilə xüsusi olaraq nəzərə çarpdırılmışdır, o, məsul şəhərsalma mövqeyini tutur. Binanın arxitekturası – şərq xarakterlidir, lakin usta interpretasiyasında, yerli iqlim şəraiti lociya və eyvanların çoxluğuna səbəb olmuşdur. Bina fərqli kompozisiya quruluşu və memarlıq işləmələri, yerli memarlığın zərif elementləri və detalları ilə qeyd edilmişdir. Yaşayış evi zəngin həcmli plastikaya və yüksək tikinti mədəniyyətinə malikdir. Onun planlaşdırılma quruluşu ənənəvi şüşəbəndlərsiz (şüşələnmiş qalereya) otaqların iki sıralı düzülüşü ilə seçilir. Ön və yaşayış otaqları əla göstərilmiş interyerlərə malikdir. Düzgün çatma tağla xüsusi olaraq nəzərə çarpdırılmış ön giriş, ilk işıqla işıqlandırılmış mərmər pilləkənli vestibülə aparır. Əgər yaşayış evinin arxitekturası özündə stilləşdirmənin cizgilərini daşıyırsa, bu o dərəcədə cazibə qüvvəsi və istiliklə nüfuz etmişdir ki, tikilməsindən təqribən





*Nikolayevskaya küç., 4. Bakı şəhər dumasının binası. Mülki mühəndis İ.V. Qoslavskiy. 1900-1904-cü illər.*

80 il sonra o Bakının tikilməsində özünün bədii mahiyyətini itirmədi və milli memarlıq abidəsi olaraq qalır.

**Nikolayevskaya, 23,** 1880-ci illərdə əsası qoyulmuş, küçənin ilk tikililərindən biri, Qrubşiçə məxsus idi. 1896-cı ildə mülki mühəndis K.Skureviç tərəfindən yenidən inşa edilmişdi. Zəif klassik formalarda fasadın ilkin simasını saxlamaqla, Skureviç interyerləri tamamilə yenidən qurdu və həyəti abadlaşdırdı. Yerin relyefi sayəsində həyət sahəsinə dolğun memarlıq siması verməklə, dirək divarları üsulundan istifadə etdi və heykəlləri yerləşdirdi. Heykəllər istisna olmaqla, həyətin ilkin memarlıq həlli dəyişməz olaraq qaldı.

**Nikolayevskaya,** Mixaylovskiy bağı və ya onu necə ki, tez-tez Qubernatorskiy (4,6 ha) adlandırırdılar, relyefə belə uğurla daxil olmuş, onun son planlaşdırma quruluşu təşəkkül tapana kimi uzun formalaşma mərhələsi keçmişdi. İki qala divarları arasında şəxsi əkilmiş ağacların bazasında 1830-cu illərin əvvəlində meydana gəlmiş bağ, tezliklə yeganə yaşıl xiyabanla birgə bulvara çevrildi. Onun ərazisində tut, zeytun, qovaq, əncir, akasiya, keçisöyüdü, həmçinin üzüm bitirdi. 1859-cu ildə, xarici qala divarları söküldükdən sonra bağın ərazisi genişləndirildi. Şəhər bağının bədii cəhətinə böyük əhəmiyyət verirdilər. 1876-cı ildə bağda, açıq-aydın ifadə olunmuş relyeflə sahələrdə hovuzlar və dirək divarları tikilmişdi. 1904-cü ilin planı son olaraq formalaşmış landşaft üslublu yaşıl orqanizmi müəyyən etdi.

**Nikolayevskaya, 25,** yaşayış evi (mülki mühəndis İ.Qoslavski, 1892-ci il), həcmli-məkan və memarlıq həlli sayəsində şəhərin tarixi məhəllələrində məsul şəhərsalma mövqeyi tutur. Əzəmətli və təntənəli şəkildə təfsir edilmiş klassik simmetrik fasad Bakı şəraitində mənzil tikintisinə olan tələbləri nəzərə almaqla,

*İctimai məclisin binasının. Aerofotoçəkiliş.*



*Nikolayevskaya küç., 4. Bakı şəhər dumasının qülləsi. Ş.S. Fətullayevin rəsmi.*

çox gözəl cızılmış kompozisiyaya malikdir. Fasadın simmetriyası üç mehvərlə xüsusi olaraq nəzərə çarpdırılmışdır: mərkəzi rizalitlə və iki yan, bərkidilmiş ikimərtəbəli erkerlərlə. Klassik formalarda fasadın dolğun plastikası, daş detalların incə şəkildə aydın çəkilməsi, işləmə və mükəmməlliyə çatdırılmış hörgü məharəti, əsl memarlıq abidəsi yaratmış həm memar İ.Qoslavski, həm də ustabənnaların işi dərin emosional heyranlıq hissi doğurur.

**Nikolayevskaya, 27.** 1893-1894-cü illərdə mülki mühəndis İ.Qoslavski tərəfindən inşa edilmiş yaşayış evi bu ön magistralın əhəmiyyətli həlqələrindən biridir və şəhər mərkəzinin tarixi məhəllələrinin həcmli-məkan kompozisiyasına daxildir. Memarlıq kompozisiyası Nikolayevskaya, 25-də yerləşən yaşayış evi kimi eyni üsulda, lakin öz xüsusi ifadəsi ilə həll edilmişdir. Burada istər klassik kompozisiya üsulları, istərsə də order sisteminin element və formalarından istifadə olunmuşdur. Bu yaşayış evində hər bir ayrı detal böyük məhəbbət və ustalıqla aydın çəkilmişdir, fasadın daş hörgüsü naturada elə ustalıqla yerinə yetirilmişdir ki, özü-özlüyündə böyük incəsənət əsərini təcəssüm etdirir. Mərtəbələrin nəcib çıxıntılı hörgüsü, pəncərələrin haşiyələrinin incə profilləri, kapitellər (sütun başlıqları), frizlə (antablementin arxitrav ilə pərvaz arasında yerləşən orta hissə) klassik pərvaz - bunun hamısı daş üzərində dərin naxışlı oyma, milli memarlığın ən yaxşı ənənəsindədir. Yuxarı mərtəbələrin irəli çəkilmiş eyvanları və metal məhəccərlərlə birgə irəli böyük çıxarılma ilə daş kronşteynlər yaşayış evinə xüsusi bir rahatlıq verirdilər. Bərpa edilmə zamanı (1990-cı il) yuxarı mərtəbənin eyvanı söküldü və evin kompozisiyası müəyyən dərəcədə özünün mənimsəmə kəskinliyini itirmiş oldu.

**Nikolayevskaya, 31.** Mirzəbəyovun çoxmərtəbəli gəlir gətirən evinin inşasının sonunda onu Bakı milyonçusu Ağa Musa Nağıyev aldı. Bina 1913-1917-ci il-



*Nikolayevskaya küç., 4. Bakı şəhər dumasının binası.*

*Nikolayevskaya küç., 6. Realnı məktəb binasının fasadının bir hissəsi. Mülki mühəndis D.D. Buynov. 1901-1904-cü illər. Ş.S. Fətullayevin rəsmi.*



lərdə inşa edilmişdi və magistralın şəhərsalma dominantlarından biridir. Kiçik günbəz tamamlanması ilə xüsusi olaraq nəzərə çarpdırılaraq çox sərfəli künc mövqeyini tutmaqla, yaşayış evi nəinki küçənin miqyas və xarakterini müəyyən edir, həm də order sistemində özünün klassik formaları, fasadların qəşəng plastikası ilə bu üslub istiqamətində şəhərin ən yaxşı tikililər sırasına daxil oldu. Burada, Bakı şəraitində, memarlığın klassik üsullar sistemi vasitəsilə müasir tələblərə cavab verən bina yaratmağa cəhd göstərilmişdir: pilləkən meydançaları liftlə təmin edilmişdir, gizli çəkilmiş elektrik şəbəkəsi, mənzillərdə mərmər vannalar və sanitar avadanlığı. Əsas fasadın mərkəzi hissəsi iri Korinf orderi ilə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Zəngin məzmunlu pərvaz bir az yüklənmişdir. Bütöv əhəngdaşı bloklardan dərin relyefli üsulla yonulmuş aslanların, qadın və kişi başlarının maskaları çox gözəldir. Daş memarlıq detalları tamamilə qabarıqdır və dekorativ-tətbiqi incəsənət abidələri olmaqla bədii ifadə forması ilə dolub daşır.

**Nikolayevskaya, 33.** Hərbi xəstəxananın keçmiş binası mülki mühəndis D.Buynov tərəfindən müqəddəs Nina məktəbi kimi yenidən bərpa edilmişdir. Hərbi xəstəxananın bir neçə korpusunu o, tam bir vahiddə birləşdirdi. Əsas fasadın kompozisiya quruluşunun qeyd edilmiş yeganə bir şeyi, Toskana orderinin dördsütunlu portiki idi. Özünün arxitekturasına görə bina detallara ayrılmada, lakin daha azad təfsirdə, pəncərə və detalların rəsmində, klassisizmə meylli olduğunu ifadə etdirir.

**Nikolayevskaya, 35.** Şamaxı taciri Babayevin yaşayış evi, 1886-cı ildə me-

mar Məşədi Mirzə Qafar İsmayılovun layihəsi üzrə inşa edilmişdir. Bina şəhərin mərkəzi magistralının ümumi şəhərsalma sisteminə daxildir, özü-özlüyündə isə fəal memarlıq mövqeyini qoruyub saxlayır. Fasadların həllində klassik order sistemindən istifadə edilmişdir. İncə mütənasib detallara ayrılma, fasadların mənzərəli plastikası və gözəl detallar, şəhərin tarixi irsində bu yaşayış evinin yerini müəyyən etdi.

**Nikolayevskaya, 37.** Yaşayış evi (1890-cı illər) tarixi mərkəzin bədii simasını müəyyən etmiş şəhər magistralının əsas tikililərinin tərkibinə daxildir. Şəhərin bu sahəsinin şəhərsalma sistemində künc mövqeyi tutmaqla ev, üslub cəhətdən ətrafın məzmun-məkan mühitinə daxil olmuşdur. Order sisteminin klassik formalarında inşa edilmiş olduğu halda o, XX əsrin əvvəlinin tikilmə ritmini və miqyasını son dərəcə yaxşı əks etdirir. Frontonlarla (bina fasadının iki maili damı ilə məhdudlaşdırılmış üçbucaq və ya pərgar şəklində yuxarı hissəsi) birgə xüsusi olaraq nəzərə çarpdırılmış yan rizalitləri və mərkəz boyu irəli çıxardılmış daş eyvanlar Bakının memarlıq və iqlim xüsusiyyətlərinə cavab verir. Fasadların zəngin plastikası, detalların elementlərinin aydın çəkilməsinə xüsusi diqqət, əhəngdaşından yerinə yetirilmiş naxışlı qabarıq oyma yaşayış evini şəhərin bədii irsində memarlıq abidəsi kimi əhəmiyyətli edir.

**Nikolayevskaya, 39,** Persidskaya küçəsinin tini (M. Muxtarov), 2 (1910-cu il). Yaşayış evi sahədə, order sisteminin klassik formalarında özünün gözəl həcmli-məkan kompozisiyası ilə əla yerləşdirilmişdir. İki əsas küçənin tinini möhkəmləndirir, Bakının tarixi mərkəzinin formalaşmasında ona şəhərsalma əhəmiyyəti verir. Erkerlərin bazasında yaradılmış və mərtəbələrdə onların eyvanlarını birləşdirən binanın tin hissəsinin maraqlı həlli, kanondan kənara çıxmayan formalarda, memar tərəfindən klassik formalarda ürəkdən dərk edilməklə yaşayış evinin bədii cizgilərini aşkar etdi. Məhz bu, Bakı tikililərinin əsas fərdiyyatını təşkil edir, klassik üsulların azad izhar edilməsində istifadə olunurdu və özünün memarlıq təfsirini əldə edirdi. Birinci mərtəbənin itilənmiş qabarıq dueti, üzərindən ucalan Korinf orderi pilyastrları ilə yonulmuş tin aksenti ilə oxşayıcı boyalardan olan əhəngdaşının bütöv blokların-



*Nikolayevskaya küç., 8. Küçənin tikilməsinin və Tağıyev məktəbinin baş planı. Ş.S. Fətullayevin çertyoju.*





*Nikolayevskaya küç., 8. H.Z. Tağıyevin məktəb binasının ümumi görünüşü. Mülki mühəndis İ.V. Qoslavskiy. 1898-1901-ci illər.*



*Nikolayevskaya küç., 8. H.Z. Tağıyevin qadın məktəbi binası fasadının mərkəzi hissəsi. Ş.S. Fətullayevin rəsmi.*

*Nikolayevskaya küç., 8. H.Z.Tağıyevin qadın məktəbi. Eyvanın kronşteynləri. Ş.S. Fətullayevin rəsmi.*



*Nikolayevskaya küç., 10. Sabir adına bağ tərəfdən "İsmailiyyə" binasının ümumi görünüşü. Mülki mühəndis İ.K. Ploşko. 1907-1913-cü illər.*

dan və incə pilyastr tərəflərini tamamlayan açılmış pərvaz, cənub şəhərinin çox mənalı simasını yaradır. Ev haqlı olaraq şəhərin ən yaxşı tikililər sırasına aiddir və XX əsrin əvvəlinin memarlıq abidəsidir.

**Nikolayevskaya, 41.** Yaşayış evi 1912-ci ildə mülki mühəndis İ. Ploşkonun layihəsi üzrə inşa edilib, yüksək memarlıq və bədii keyfiyyətlərə malik, şəhərin tarixi məhəllələrinin fəal tikililərindəndir. Bina, iki zəif olaraq irəli çıxan rizalitlərlə birgə order sisteminin klassik üsulları əsasında həll edilmişdir. Fasadların memarlıq kompozisiyasının əsas elementi, iki yuxarı mərtəbəni birləşdirən Korinf orderinin pilyastrlarıdır. Fasadların nəcib təvazökar plastikası, detalların incə çəkilməsi səciyyəvidir. Zəngin yapma ilə yarımdairə şəkilli pəncərələrin qıfıl daşlarının dekorativ maskaları, birinci mərtəbənin qabarıq hörgüsü fonunda gerblərin təsviri, evin sahibinin mötəbərliliyini və hansı sosial təbəqəyə aid olduğunu aşkar edirdi. Əsas fasad boyu sürahi bəndlə birgə uzadılmış eyvanlar, üfüqiliyi xüsusi olaraq nəzərə çarpdıran əlavə memarlıq mövzusu olmaqla, kompozisiya quruluşunun vahidliyini təşkil edərək pilyastrların şaqulləri və İoniya yarımsütunları ilə həmahəng şəkildə uyğunlaşırlar. Yaşayış evi, tikilmənin üslub əsasını pozmamaqla ətrafdakı binalarla bir ahənglə işləyir, belə ki, o təqribən bütövlüklə order siste-



*Nikolayevskaya küç., 10. "İsmailiyyə" binası fasadının piştağının arxivoltu (tağ yerinin haşiyəsi).*



*Nikolayevskaya küç., 10. "İsmailiyyə" binası piştağının detalı.*





*Nikolayevskaya küç., 10. "İsmailiyyə" binası fasadının detalı.*

*Nikolayevskaya küç., 10. "İsmailiyyə" binası piştağının girişi.*

minin klassik üsullarında yaradılmışdır. Bina tanınmış Bakı memarı – mülki mühəndis İ.Ploşkonun yaradıcılığına aiddir və şəhərin XX əsrin əvvəlinin memarlıq abidəsidir.

**Nikolayevskaya, 45.** Yaşayış evi iki mərhələdə: birinci mərtəbə 1895-ci ildə, iki yuxarı mərtəbələr – XX əsrin əvvəlində inşa edilib. Tin mövqeyini tutur və magistralın tikilməsində fəal rol oynayır.

*Nikolayevskaya küç., 10. "İsmailiyyə" binasının ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*



Arxitektura orderli və ordersiz sistemlərin təsiri altında inşa edilib. Fasadların ciddi şəkildə detallara ayrılması, həcmli detalların haşiyələri ilə pəncərə yerlərinin ahəngi, ümumi memarlıq kompozisiyası onun həllinin daxili mahiyyətini meydana çıxarır. Onun əhəngdaşından inşası, klassik üsulların bazasında binanın üslub istiqamətinin tektonik quruluşunu aşkarlayır. Nəinki küçənin, həm də bütün şəhərin ümumi memarlıq istiqamətini müəyyən edən tikililərə aiddir; XIX-XX əsrlərin hüdudlarında yaradılıb və Bakının tarixi irsinə ayrılmaz hissə kimi daxildir.

**Mixaylovskaya küçəsi** (indiki Əziz Əliyev), İçərişəhər ətrafında dairəvi magistralın hissəsi, kiçik bir parçası, əsaslı iki-dördmərtəbəli müxtəlif üslub istiqamətli evlərlə tikilmişdir.

**Mixaylovskaya** (Ə.Əliyev), **1,** Dənizkənarı (Neftçilər pr.) 107-nin tini. Z.b.Səlimxanovun (1897-ci il) ikimərtəbəli yaşayış evi öz şəhərsalma mövqeyinə görə Bakının tarixi mərkəzi quruluşunda mühüm yer tutur. İki yuxarı mərtəbənin üstü 1950-ci illərdə tikilmişdir. Memarlıq-məkan həlli böyük zövqlə yerinə yetirilmişdir. Korinf orderinin pilyastrları ilə birgə ikinci mərtəbənin cüt renessans pəncərələri sanki stilobat üzərində, vitrinlərin düzbucaqlı yerləri ilə memarlıq mahiyyəti ilə daha ciddi – birinci mərtəbənin üzərində durur. Renessans pəncərələri ilə fasadın çox parlaq və zərif plastikası, daşda qəşəng işlənmiş alicənab təsvirin böyük çıxarılma kronşteynləri üzərində daş eyvanlarla tamamlanır. Pilyastrlar üzərində qabarıq şəkildə yerinə yetirilmiş Korinf kapitelləri, renessans ornamentli motivləri, fasadın detallara ayrılması, daş memarlığının əsl simfoniyasını ifadə edir. Divarın mövzusu fonunda ustalıqla yerinə yetirilmiş bütün memarlıq detalları çox effektlidir.



*Nikolayevskaya küç., 21. Sadıxov qardaşlarının yaşayış evi binasının fasadının bir hissəsi. 1910-1912-ci illər.*

**Mixaylovskaya** (Ə. Əliyev), **2,** Merkuryevskaya 2 (Azərbaycan pr.), Olginskaya 1 (M. Ə. Rəsulzadə) və Naberejnaya 109 (Neftçilər pr.) küçələrinin tini. Karvansara üslublu ikimərtəbəli yaşayış evi (1882-ci il) Useynova məxsus idi və şəhərin tarixi rayonunda bütöv bir məhəlləni tuturdu. Şəhərsalma sərhədinə malik idi, dənizkənarına və mərkəzi küçələrə işləyirdi. O dövrün yaşayış evləri arasında bina həcmli və memarlıq bütövlüyü ilə seçilirdi. Memarlar Azərbaycanın mülki tikililərinin köhnə ənənələrini davam etdirərək onun üçün



*Nikolayevskaya küç., 21. Sadıxov qardaşlarının yaşayış evi binasının fasadının bir hissəsi.*

müasir həll tapdılar. Geniş və gen-bol həyət, həm həyət, həm də ticarət otaqları üçün əla kompozisiya və funksional element kimi xidmət edən möhtəşəm tağ sırası ilə əhatə edilmişdi. Fasadlar üzərində bütün daxili kompozisiya quruluşu formaların son dərəcə təmkinliyi və ordersiz sistemin bədiiliyi ilə verilmişdir. Fasadlarda həyətin daxili tağ sırası təmkinli plastika ilə tağların yastı ahəngləri ilə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Həm özünün memarlıq-planlaşdırma keyfiyyətlərinə, həm də şəhərsalma roluna görə bina, irsin bir hissəsi və memarlıq abidəsi idi. 1988-ci ildə o söküldü və onun yerində Azərbaycan Demokratik Respublikasının lideri M.Ə.Rəsulzadənin heykəli qoyulacaq bağ salındı.

**Mixaylovskaya** (Ə.Əliyev), **3.** Zəkiyevin yaşayış evi (1898-ci il), klassik formaların sərbəst ötürülməsində özünün həcmli-məkan quruluşu və memarlıq təfsiri sayəsində Bakının tarixi mərkəzinin çox maraqlı tikililərinə aiddir. Fasadın plastikası və memarlıq kompozisiyası hər üç mərtəbədə, lakin fərdi rəsmlə pilyastrların ahəngi ilə ifadə olunur. 1880-ci illərdə inşa edilmiş birinci mərtəbə fasadın həllində yerli motivlərin istifadə tendensiyasını əks etdirir. Memarlıq kütlələrin müəyyən dinamikasını yaradan, şüşələnmiş ikimərtəbəli eyvanlar, "şüşəbənd" formasında fasadın kompozisiyasına fəal həcmli elementlərin daxil edilməsi uğurludur. Düzgün taxta eyvanlar zərifliklə aydın göstərilmiş və işlənmişdir, pəncərələrin çərçivələrində modern elementləri öz yerini tapmışdır. Bakı şəraitində yaşayış evinin əhəmiyyəti sıravi ev tikilişinin çərçivəsindən kənara çıxır, belə ki, onda, evin inkişafında mühüm şərt olan, ikimərtəbəli "şüşəbəndin" daxil edilməsi sayəsində yeni memarlıq kompozisiyası və məzmunu ifadə edilmişdir. Bina - şəhərin tarixi irsinin hissəsidir və öz dövrünün memarlıq abidəsidir.

**Mixaylovskaya** (Ə.Əliyev), **4,** Merkuryevskaya 1 (Azərbaycan pr.), Olginskaya 3 (M.Ə.Rəsulzadə) küçələrinin tini. Gəlir gətirən ev, Bakının məşhur ev



*Nikolayevskaya küç., 21.
Sadıxov qardaşlarının
yaşayış evi binasının
ümumi görünüşü.
Ş. S. Fətullayevin rəsmi.*



*Nikolayevskaya küç., 27. Yaşayış evi binasının fasadının bir hissəsi. Mülki mühəndis İ.V. Qoslavskiy. 1893-1894-cü illər.*



*Nikolayevskaya küç., 27. Yaşayış evi binasının fasadının bir hissəsi.*

sahibləri Dadaşovlara məxsus idi, 1911-ci ildə inşa edilib. Geniş sahəni tutur və şəhərin tarixi məhəllələrinin şəhərsalma sisteminin fəal elementidir. Evin quruluşunda mənzillərin bölmə sistemi ilə evin xüsusiyyətləri dəqiq əks olunmuşdur. Fasadların arxitekturasında yeni tendensiyalar, təmkinliklə ifadə olunmuş divarların plastikasında və həcmli həllə daha diqqətli münasibətdə qeyd olunmuşdur. Bu tendensiyalar, memarlıq kompozisiyasının həcmliliyini möhkəmlədən, hər mərtəbələrdə eyvanların axar şəklində, planda binanın yarımdairəvi formasının tin hissəsinin aydın konturunda xüsusi olaraq nəzərə çarpdırılmışdır. Fasadların ciddi şəkildə detallara ayrılması binanın həcmli-məkan həlli üçün bir fondur. Fasadlara əla keyfiyyətli daşlarla üz çəkilmişdir, divarların isə bədii çıxıntılı hörgü ilə hörülməsi klassik üsulları təcəssüm etdirirdi. Bina irsin bir hissəsi və memarlıq abidəsidir.

**Mixaylovskaya** (Ə.Əliyev), **5, 7.** Yaşayış evləri (1880-1890-cı illər), Avropa memarlığının sərbəst şəkildə istifadəsi çərçivəsində forştadtın memarlıq simasının təşəkkül tapma dövründə inşa edilmişdir. Burada hələ, daha sonrakı dövrdə, tikililərdə müşahidə olunan fasadların o dolğun plastikası mövcud deyil. Fasadların memarlıq formaları və motivləri təmkinli səciyyə daşıyır, lakin artıq, yeni memarlığın potensial imkanlarının genişləndirilməsinə can atma meyli sezilir. Evin bu mövqeyi sayəsində bu çox vacibdir, belə ki, onun memarlıq təfsiri tarixi əhəmiyyətə malikdir.

**Mixaylovskaya** (Ə.Əliyev), **6,** Baryatinskaya (akademik A.K.Əlizadə) 2, Olginskaya (M.Ə.Rəsulzadə) 7 küçələrinin



*Nikolayevskaya küç., 37. Yaşayış evinin planı. 1890-cı illər.*

tini. Yaşayış evi 1896-cı ildə, memar O.Simonson tərəfindən inşa edilib və bütöv bir məhəllənin ön tərəfini tutur. Özünün zəngin plastikliyi, order sisteminin klassik formalarının sərbəst təfsiri sayəsində maraqlı memarlıq həlli əldə etmişdir. Klassik irsin zəngin ehtiyatlarının istifadəsi yolu ilə binanın memarlıq kompozisiyasının səciyyəsinin müəllif tərəfindən xüsusi olaraq nəzərə çarpdırılmasına fəal surətdə can atma müşahidə olunur. Fasadın üzərində, işləmələri heykəltəraşlıq vəziyyətinə çatdırılmış, daş bloklardan yonulmuş şaquli kronşteynlərlə birgə karniz xüsusi yer tutur. Bina, Bakı şəraitində planlaşdırmanın seksiya üslublu prinsiplərində yaşayış evinin simasının formalaşmasında müəyyən mərhələni göstərir.

**Mixaylovskaya** (Ə.Əlyev), **9.** Keçmiş Mixaylovskiy sıraları (1899-cu il), mülki mühəndis İ.Qoslavskinin layihəsi üzrə inşa edilmişdi. Əzəmətli, uzununa uzadılmış ticarət tikilisi, nəinki tağşəkilli fasadla küçənin sahəsini müəyyən edir, həm də tarixi mərkəzin səciyyəsini və miqyasını müəyyən edir. Zəngin çıxıntılı hörgü, mənalı şəkildə hissələrə ayrılma və açılmış üslublu qəşəng pərvazla birgə klassik formaların sərbəst təfsirində inşa edilmişdir. Şaquli çıxıntıların ahəngi və onların arasına daxil edilmiş vitrinlərlə birgə yarımdairəvi tağlar Bakının gözdən keçirdiyimiz dövrünün memarlıq tendensiyaları üçün səciyyəvi olan ticarət tikilisinin obrazını yaratmışdı. Mülki tikili irsdə öz yerini tutdu və dövrün memarlıq abidəsidir.

**Mixaylovskaya** (Ə.Əliyev), **11.** Mənzillərin yaxşı daxili planlaşdırılması ilə seksiya üslublu Aşumovun dördmərtəbəli

*Nikolayevskaya küç., 39. Yaşayış evi binasının ümumi görünüşü. 1910-cu il.*

gəlir gətirən yaşayış evi, 1908-ci ildə inşa edilib. Həcmli-məkan həllinin əzəmətliliyi ilə fərqlənir və şəhərin tarixi məhəllələrinin bədii simasının formalaşmasında fəal iştirak edir. Fasadın çox qəşəng memarlıq kompozisiyası roman memarlığının üslub prinsipləri, lakin sakit modernin böyük əlaməti üzərində inşa edilib. Fasad, yarımdairəvi tağlarla tamamlanan şaquli detallara ayrılma ahəngi vasitəsilə həll edilmişdir. Onun əsas quruluşuna həcm məzmunu verən çox irəli çıxarılma eyvanlar fasadın belə detallara ayrılması prinsipini qabaqcadan müəyyən etdi. Bütöv bloklardan olan daşdan düzəldilmiş kronşteynlərin modernist formaları ilə roman motivlərinin uyğunlaşdırılmasında gözəl əlavələrlə fasadın plastikası ən gözəl mənada önə çıxır. Modern üslubunda eyvanların metal məhəccərlərinin nəfisliyi və qabarıq detalların formalarının ciddiliyi geniş profilli eklektikanı təcəssüm etdirir. Fasadın kompozisiyasının tamamlayıcı elementi kimi bütöv divarın fonunda uğurla yerləşdirilmiş şaquli kronşteynlərlə birgə mürəkkəb üslublu pərvaz göz qabağına gəlir. Bina - tarixi irsin ayrılmaz hissəsidir və Bakıda kapitalizm dövrünün memarlıq abidəsidir.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.). Şəhərin dəniz fasadı sahil zolağı boyu keçir, Bayıl rayonunun sərhədlərindən başlamaqla Hökumət evinin yanında "Azadlıq" meydanında qurtarır. Müxtəlif xarakterli tikilimə boyunca: ikimərtəbəli evlərdən çoxmərtəbəli evlərə qədər, yaşayış binalarından iri inzibati-ictimai binalara qədər. Prospektin tikilməsi – həm kapitalist dövrünə, həm də sovet dövrünə aiddir. Həm tarixi, həm

*Nikolayevskaya küç., 37. Yaşayış evi binasının ümumi görünüşü.*







*Nikolayevskaya küç., 37. Yaşayış evi binasının fasadının bir hissəsi. Ş.S. Fətullayevin rəsmi.*



*Nikolayevsakaya küç., 45. Yaşayış evi binasının fasadı. 1895-ci il. Ş.S. Fətullayevin çertyoju.*

də memarlıq əhəmiyyətinə görə onlar eyni mənalı deyillər. Hündür, memarlıq nöqteyi-nəzərindən dəyərli tikililərlə yanaşı fon tikilmə kimi estetik planda həm də öz funksional yükünü daşıyan sıravi tikililər də mövcuddur. Burada xüsusilə, roman memarlığının modern üslubunda, order sisteminin üslub xüsusiyyətlərinin memarlığını əks etdirən yaşayış evləri önə çıxır. Tikilmənin səciyyəsi – mənzərəlidir, siluet yükünü daşıyır.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **65.** 1907-ci ildə, mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmiş Əmiraslanovların yaşayış evi, magistralın quruluşunda məsul şəhərsalma mövqeyini tutur. Fasadın həllində möhtəşəm profilləri və detalları ilə birgə klassik formalar və üsullar, mərtəbələrin mütənasib şəkildə hissələrə ayrılması dəqiq əks olunmuşdur. Özünün renessans motivləri, həcmli elementlərin nəcib modelləşdirilməsi ilə girişin piştağı xüsusi diqqətə layiqdir. Həllinə görə divar naxışları, yapmalı plafonlarla birgə ön otaqların interyerləri az maraq kəsb etmir. Fasadın zəngin plastikası, yaşayış evinin kompozisiyasının həcmliliyi və mənalığı irsdə onun yerini memarlıq abidəsi kimi; Ploşkonun yaradıcılığında - ən uğurlu işlərdən biri kimi müəyyən etdi.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **79,** Qala döngəsi 1-in tini (1886-cı il). Yaşayış evi tarixi məhəllələrin sıravi tikilməsində inşa edilib. Onun üslub istiqaməti, daha sərbəst təfsirdə klassik üsul və formaların səciyyəvi istifadəsi ilə ötən əsrin 80-ci illərində Bakı şəhərində mövcud olmuş o tendensiyaları əks etdirirdi. Yaşayış evi şəhərin bədii-dəyərli binaları üçün mühit formalaşdırır.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **81,** 1 və 2 Qala döngəsinin tini. 1911-ci ildə inşa edilmiş Dadaşovların yaşayış evi – şəhərin tarixi mərkəzinin tikilməsinin fəal elementidir. Plastik fasadın modern üslubunda mənalı detallarla birgə bədii üsullarının Bakının xüsusiyyətləri ilə təfsiri evin həcmli kompozisiyasını meydana çıxardır. Cüt pəncərə yerləri ilə çıxıntıların şaquli ahəngi, modernin səciyyəvi cizgiləri və fasadın ciddi formasında detalların üfüqi ayrılması cəmdə estetik enerji daşıyır. Eyvanların metaldan düzəldilmiş gözəl məhəccərləri və həcmli plastika ilə xüsusi olaraq nəzərə çarpdırılmış piştağ, şəhər memarlığı abidələrinin bu üslub istiqamətinə məxsus yaşayış evinin mövzu-məkan mühitini tamamlayır.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **83,** Gertsen küçəsi və Qala döngəsi 2-nin tini. Yaşayış evi iki mərhələdə inşa edilmişdir: aşağı iki mərtəbələr H.Z.Tağıyev tərəfindən 1896-cı ildə, yuxarı iki mərtəbələr isə - 1960-cı illərdə ucaldılıb. Özünün həcmli və memarlıq kompozisiyası ilə tin mövqeyini tutur, dəniz kənarının formalaşmasına fəal təsir göstərir. Memarlıq abidəsi kimi yaşayış evinin ümumi quruluşunu qabaqcadan müəyyən etmiş, renessans formaları ilə demək olar ki, fasadın bütün eni boyu "şüşəbənd" üslublu eyvanlardan binada uğurla istifadə olunmuşdur.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **89,** Qala döngəsi tin 4 və Qala döngəsi tin 5 (1880-cı il). Keçmiş karvansaralar faktiki olaraq, qala-şəhər, "İçərişəhərin" fasadının hissələridir və dəniz kənarına yönəlmişlər. Çox maraqlı memarlıq-planlaşdırma və həcmli-mə-

kan kompozisiyası ilə fərqlənirlər. Onların planlaşdırılmasında orta əsrlər tikililərinin, xüsusilə həyat məkanında yerli ənənələr əks olunmuşdur. Fasadların arxitekturası, klassik istiqamətlərin ümumi məcrasında inkişaf etmiş həmin o tendensiyaları öz üzərində sınaqdan keçirmişdi. 1896-cı ildə binaların arxitekturası və daxili planlaşdırması mülki mühəndis İ.V.Qoslavskinin layihəsi üzrə yenidən




*Mixaylovskaya küçəsinin planı.*



*Mixaylovskaya küç., 1. Zeynal bəy Səlimxanovun yaşayış evinin ümumi görünüşü 1897-ci il.*





*Mixaylovskaya küç., 1. Z.b. Səlimxanovun yaşayış evinin piştağının bir hissəsi.*

*Mixaylovskaya küç., 1. Z.b. Səlimxanovun yaşayış evinin eyvanının kronşteyni.*



*Mixaylovskaya küç., 3. Zəkiyevin yaşayış evinin şərq fasadı. 1898-ci il. Ş. S. Fətullayevin rəsmi.*

bərpaya məruz qaldı və daha mənalı quruluş əldə etdi. Bu bina – şəhərin tarixi irsinin və kapitalizm dövrünün memarlıq abidəsinin bir hissəsidir.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **103.** Başennaya küçəsinin tini. Tanınmış Bakı milyonçusu İsa bəy Hacınskinin çoxmərtəbəli yaşayış evi 1912-ci ildə inşa edilib və prospektin dominantlarından biridir. Onun gözəl, fəal siluetli və həcmli kompozisiyası tarixi məhəllələrin quruluşunda aparıcı yer tutdu. Yaşayış evinin memarlıq həllində, əsasən, XX əsrin əvvəlinə xas olan bütün səciyyəvi ziddiyyətləri ilə birgə bədii vəzifələr nöqteyi-nəzərindən roman memarlığının prinsiplərindən istifadə olunmuşdur. Əsas fasadın sərt frontonu ilə tamamlanmış künc erkerin üstünlük təşkil edən şaquliliyi memarlıq vəzifəsinin həlli üçün "açıq vərəq" kimi xidmət göstərdi. Fasadların üzərində, pəncərələrin altında, estetik və bədii keyfiyyətlərə malik, lociya, eyvan və erkerlərin formasında həcmli plastikadan, mozaikadan, rəngli vitrajlardan geniş istifadə olunmuşdur. Burada, həmçinin divarların və plafonların plastikliyinin əsasını təşkil etmiş dekorativ yapma, ön pilləkənlərin və yaşayış otaqlarının interyerlərində çox maraqlı şəkildə öz həllini tapmışdır. Yaşayış evi – irsin bir hissəsi və kapitalizm dövrünün memarlıq abidəsidir.

İmperator Aleksandr II dəniz kənarı (Neftçilər pr.), **105,** Dobrovski (A.S.Quliyev) küçəsinin tini. 1909-cu il. Kazım bəy Hacınskinin yaşayış evi şəhərin tarixi məhəllələrinin ümumi sisteminə daxildir və Bakının bədii simasının formalaşmasında fəal iştirak edir. Klassik prinsiplərlə fasadın quruluşunun sxeminə baxmayaraq, burada binaya yeni cizgilər vermiş modern elementləri və detallarından uğurla istifadə edilmişdir. Giriş-piştağın aydın göstərilməsindən böyük ustalıqla yerinə yetirilmiş pəncərələrin haşiyələrinə qədər tikilinin müəllifinin Bakı şəraitində bu üslub istiqamətinin zərif nüanslarının vermə cəhdi hiss olunur. Yaşayış evi – memarlıq abidəsidir.




*Mixaylovskaya küç., 11. Aşumovun yaşayış evinin fasadının bir hissəsi.*



*Mixaylovskaya küç., 11. Aşumovun yaşayış evinin şərq fasadı. 1908-ci il. Memar V. Məmmədovun çertyoju.*



*Mixaylovskaya küç., 11. Aşumovun yaşayış evinin şərq fasadı.*





*Mixaylovskaya küç., 11. Aşumovun yaşayış evi fasadının bir hissəsi. Ş.S. Fətullayevin rəsmi.*

*İmperator Aleksandr II adına dəniz kənarı küçənin planı.*




*Dəniz kənarı küç., 65. Nuri Əmir-aslanovun yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis İ.K. Ploşko. 1908-1910-cu illər.*






*Dəniz kənarı küç., 65. N. Əmiraslanovun yaşayış evinin giriş piştağı.*

*Dəniz kənarı küç., 65. N. Əmiraslanovun yaşayış evi fasadının detalı.*





*Dəniz kənarı küç., 65. N. Əmiraslanovu yaşayış evi fasadının bir hissəsi.*

*Dəniz kənarı küç., 65. N. Əmiraslanovun yaşayış evi fasadının detalı.*



*Naberejnaya küç. 65. N.Əmiraslanovun yaşayış evinin giriş portalının kapiteli.*



# ŞƏHƏRİN TARİXİ KÜÇƏLƏRİNDƏ MEMARLIQ ABİDƏLƏRİ

En dairəsi istiqamətli **Aziatskaya küçəsi** (A.O.Quliyev), Aşağı Təzə-Pir (Mirzə Fətəli) küçəsindən başlayır və B. Morskaya (Bülbül pr.) küçəsi ilə qurtarır. Bütün uzunluğu boyunca tikilmə, az mərtəbəli, ikimərtəbəli yaşayış evlərindən tutmuş əzəmətli yaşayış evlərinə qədər şəhərin inkişafının müxtəlif mərhələlərini əks etdirir. Küçənin özünəməxsus memarlıq simasında dərin iz qoymuş, yerli memarlığın böyük bir əlaməti ilə onlar üslub cəhətdən klassik formalarda həll edilmişdir. Bir çox binalar memarlıq abidələridir (№№ 35, 36, 37, 44, 49, 52, 65, 74, 92, 116). Özlərinin kompozisiya üsulları, memarlıq formaları və əhəgdaşından əla yerinə yetirilmiş detallarla şəhər memarlığının qızıl fonduna daxil olmuşlar.

**Aziatskaya** (A.O.Quliyev), **35** (1897-ci il). İkimərtəbəli yaşayış evi, memarlıq kompozisiyasının klassik üsullarının tarixi məhəllələrin tikilməsi zamanı, XIX-XX əsrlərin hüdudlarında öz yerini möhkəm tutmaqla, şəhərin üslub tendensiyalarını əks etdirir. Lakin bütün bunlar memarlığın klassik tələblərinin sərt çərçivəsində deyil, tiknti sənətinin ənənələrində yerli xüsusiyyətləri nəzərə almaqla, daha sərbəst həllində baş verdi. Bu sintez, Bakının tikilməsini dövrün memarlıq fenomeninə çevirmiş həmin o müsbət xəlitəni verdi. Yaşayış binasının aydın memarlıq kompozisiyası – profillənmiş üfüqi bölümlər, şaquli qeyd edilmiş pilyastrlar, pəncərə yerlərinin qabarıq sandrikləri ilə ifadə olunur. Bütün bunlar fasadın təmiz yonulmuş daşdan yüksək işləmə mədəniyyəti ilə uyğunlaşdılır. Yaşayış evi – memarlıq abidəsidir.

**Aziatskaya** (A.O.Quliyev), 36 (1896-cı il). Birmərtəbəli yaşayış evinin böyük bədii əhəmiyyəti memarlıq-planlaşdırma həlli ilə deyil, piştağı üzərində və Korinf orderi pilyastrların daşının işləmələri ilə müəyyən edilir. Klassik formalarda əsl incəsənət əsəri kimi yonulmuş, öz dövrünü və Bakının usta bənna-heykəltəraşlarının işini o qədər parlaq əks etdirir ki, təkcə piştağ özü abidə ola bilər.

**Aziatskaya** (A.O.Quliyev), **37,** dalanın tini, 7 (1887-ci il). Yaşayış evi, order və ordersiz sistemlərin klassik formalarının şəhərin tikilməsinə nüfuz etməsinin başlandığı bir vaxtı, bununla belə yerli xüsusiyyətləri və ənənələri qoruyub saxladığı dövrü əks etdirir. O bədii cəhətdən dəyərli binalar üçün mühit və şəhərin XIX əsrin ikinci yarısı irsinin bir hissəsidir.

**Aziatskaya** (A.O.Quliyev), **35, 37, 39** (1898-ci il). Yaşayış evləri, həm həcmli-məkan, həm də memarlıq-planlaşdırma münasibətində vahid bütövlük təşkil edir. Bu tikililər, tarixi məhəllələri əhatə edən mühitə təsir göstərməklə fəal estetik funksiyalar daşıyır. Ümumi memarlıq kompozisiyası, fasadların yumşaq plastikası, pilyastrların şaquli detallara ayrılması və mərtəbələrin üfüqi dartılması




*Aziatskaya küç., 39. Yaşayış evinin fasadı. 1898-ci il. X.Abdullayevin çertyoju.*

ilə uğurla uyğunlaşır. Fasadların təmiz yonulmuş daşla hörgüsü ilə uzlaşan ornamentin incə oyması, şəhərin bədii-dəyərli binaları üçün mühiti təşkil edən yaşayış evlərinin simasını tamamlayır.

**Aziatskaya** (A.O.Quliyev), **40** (1906-cı il). Memarlıq kompozisiyasına görə yaşayış evi, şəhərin tarixi məhəllələri üçün səciyyəvidir. İnkişaf etdirilmiş üslublu "şüşəbənd", ona həcmlilik və plastiklik verməklə fasadın fəal elementidir. Ordersiz sistemdə, lakin klassik formaları və üsulların tətbiq edilməsi ilə inşa edilmiş yaşayış evi, Bakının bədii-dəyərli binaları üçün mühit kimi səciyyələnir.

**Aziatskaya** (A.O.Quliyev), **44** (1889-cu il). İkimərtəbəli yaşayış evi, fasadın həllinin Avropa memarlığının prinsiplərində, lakin yerli memarlıq ənənələrinin səciyyəvi əlaməti ilə, memarlıq-planlaşdırmanın maraqlı nümunəsini təqdim edir. Bu divarların epiqrafikasında, forma və rəsmin müvafiq profilləşdirilməsi ilə pilyastrların işlənməsində, Bakı evində çox geniş yayılmış, stalaktitlər şəklində özünəməxsus qaydada təfsir edilmiş karnizin işlənməsində ifadə olunur. Bina kamera üslubludur, milli memar onun üçün yeni olan tikilmənin memarlıq üsulları və formalarına özünün peşəkar prinsiplərini daxil etdiyi zaman bina iki bədii sistemin sintezini əks etdirir. Yeni sosial-iqtisadi şəraitdə memarlığın inkişafına belə münasibət yaşayış evinin yerini tarixi irsdə milli merlıq abidəsi kimi qabaqcadan müəyyən etdi.

**Aziatskaya** (A.O.Quliyev), **47, 49** (1890-cı illər). Yaşayış evləri, sərbəst təfsirdə, lakin mütənasib hissələrə ayrılmaya, divarların çıxıntılı hörgüsünə və pərvazların aydın şəkildə çəkilməsinə riayət etməklə, order sisteminin klassik formalarının istifadəsinin özünəməxsus nümunələridir. Evlər şəhərin tarixi irsinin bir hissəsi olmaqla, bədii-dəyərli bi-

nalar üçün müvafiq atmosfer və mühit yaradırlar.

**Aziatskaya** (A.O.Quliyev ), **51** (1888-ci il). İkimərtəbəli yaşayış evi, yeni ev tikilişi zamanı hələ yerli evlər üçün səciyyəvi xüsusiyyətlərin qaldığı bir zaman, yeni sosial-iqtisadi şəraitdə şəhər memarlığının formalaşmasını və inkişafını əks etdirir. Bu həcmli-kompozisiyada, yalançı pəncərələrdə, hörgüdə və daşların ölçüsündə, millərin profillərində, daş suaşıranlarda təzahür olunur. Yerli evin səciyyəvi xüsusiyyəti sahənin və otaqların planlaşdırılmasında qorunub saxlanmışdır. Fasadın üzərinə "şüşəbəndin" daxil edilməsi, ümumi həcmli sistemi dəyişdi və ev memarlığının inkişafında yeni istiqamət verdi. Bu kimi ev Bakı forştadtında yeganədir, tarixi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Aziatskaya** (A.O.Quliyev), **52** (1908-ci il). Üçmərtəbəli yaşayış evi, nəinki təkcə həcmli-məkan və memarlıq-planlaşdırma, həm də mənzil tikilişinə yeni miqyas daxil etməsi sayəsində, tarixi məhəllələrin tikilməsi quruluşuna fəal surətdə daxil oldu. Onun üçün bədii cəhətdən dərk edilmiş, klassik formaların yeni, daha peşəkar təfsiri səciyyəvidir. Şaquli çıxıntıların ahənginin xüsusi olaraq nəzərə çarpdırılması, üfüqi xətt boyu mövzuların inkişafının ardıcıllığı, plastikanın dolğunluğu yaşayış evinin fasadını xarakterizə edir. Burada fərqli daş detallar və pərvazı klassik formalarda tamamlayan, divarlara "aqlay" üslublu plitələrlə üzün çəkilməsi, daş üzərində oymanın heykəltəraşlıq uyğunluğu mükəmməllik dərəcəsinə çatdırılmışdır. Yaşayış evi – şəhərin irsinin bir hissəsidir və milli memarlıq abidəsidir.

**Aziatskaya** (A.O.Quliyev), **65** (1910-cu il). Üçmərtəbəli əzəmətli yaşayış evi, şəhərin tarixi məhəllələrinin bədii mühitinin vacib elementidir. O, özünün həcmli-məkan və memarlıq-planlaşdırma quruluşu ilə güclü emosional enerjiyə malikdir. Yaşayış evi Bakı moderninin ən yaxşı ənənələri ilə inşa edilib. Burada memarlıq kütlələrinin həcmli plastikası, fasadın səthinə ustalıqla daxil edilmiş və əhəngdaşı daşından dərin qabarıqla yerinə yetirilmiş modernin dekorativ motivləri ilə uğurla həmahəngdir. Fasadın bütün təsviri, meyli daha sərbəst və daha emosional modernin tərəfində olan, bütövlüklə və detallarda, müəllifin yüksək peşəkarlıq səviyyəsini xarakterizə edir. Bina şəhərin tarixi irsinə daxil olmuş və memarlıq abidəsidir.

**Aziatskaya** (A.O.Quliyev), **69,** Sisianovski tini (T.Türksevər), 26 (1897-ci il). Yaşayış evi, tarixi məhəllələrin quruluşunda şəhər mərkəzinin hazırki sahəsi üçün mühiti formalaşdırır.

**Aziatskaya** (A.O.Quliyev), **74** (1908-ci il). Üçmərtəbəli yaşayış evi – klassik formalarda həcmli-məkan kompozisiyasının həllinin maraqlı nümunəsidir. Bina, sərt üfüqi xətt boyu detallara ayrılma cizgiləri, pəncərələrin qəşəng sandrikləri və inkişaf etdirilmiş pərvaz olmadan özünün plastikliyi, həcmli modelləşdirilməsi ilə fərqlənir. Fasad cinahlardan çıxan şaquli xətlər və döyülmüş metal məhəccərlərlə birgə uzun daş eyvanlar sayəsində memarlıq kütlələrinin üç ölçülü ölçü əldə edir. Onun üçün həmçinin inşa işlərinin yüksək mədəniyyəti də səciyyəvidir. Yaşayış evi – XXI əsrin əvvəlinin irsinin bir hissəsi və memarlıq abidəsidir.



*Aziatskaya küç., 78. Yaşayış evinin şimal fasadının bir hissəsi. 1890-cı illər.*

**Aziatskaya** (A.O.Quliyev), **78** (1890-cı illər). İmarət üslublu ikimərtəbəli bina, eklektikada orijinal tikilini təcəssüm etdirir. Burada həm roman-qotika motivləri, həm yerli elementlər, həm formalar, kapitalizm dövründə memarlığın inkişafının mürəkkəbliyini bəyan etməklə bu kiçik fasadda bir yerə toplaşmışlar. Çox çıxıntılı pilonlarla (naxışlı sütun), tamamlanmış frontonlarla, daha sonra merlonların (iki qüllə arasında divarın bir hissəsi) dişcikləri ilə birgə - xüsusi olaraq nəzərə çarpdırılmış mərkəzi hissə müəllifin orta əsrlərə aid motivlərə olan simpatiyasını xatırladır. İmarət memarlıq abidəsi kimi tarixi məhəllələrinin quruluşuna daxil oldu.

**Aziatskaya** (A.O.Quliyev), **79** (1900-cü illər). Üçmərtəbəli yaşayış evi, ciddi memarlıq kompozisiyasının nümunəsini təcəssüm etdirir, divarların qoyuluşunun yüksək keyfiyyəti ilə fərqlənir, şəhər mərkəzinin hazırki sahəsinin mühitinin formalaşması üçün fon tikilidir. Ev, Azərbaycanın görkəmli aktyoru Ülvi Rəcəbin (1903-1938) yaşadığı bina kimi tarixi əhəmiyyətə malikdir.

**Aziatskaya** (A.O.Quliyev), **91** (1895-ci il). Yaşayış evi, bədii-memarlıq əlamətlərinə görə şəhərin tarixi məhəllələri quruluşunda mühüm yer tutur. Onun simasında, özünün memarlıq təbirini əldə etmiş, yerli tikinti ənənələri və mədəni-məişət şəratini qoruyub saxlamış, orderli və ordersiz sistemin klassik formalarının prinsiplərində həmin üslub istiqamətinin tendensiyaları əks olunmuşdur. Məhz fərqli detallarla, zəngin plastika ilə klassik formaların sərbəst təfsiri, memarlıq abidəsi kimi Bakının irsinin bir hissəsi olan yaşayış evinin estetik simasının orijinallığını qabaqcadan müəyyən etdi.

**Aziatskaya** (A.O.Quliyev), **92** (1887-ci il). İkimərtəbəli yaşayış evi, həcmli və memarlıq-planlaşdırma həlli ilə tarixi məhəllələr üçün nümunəvi oldu və şəhərin tikilməsində möhkəm yer tutdu.

Bu elə bir dövr idi ki, Bakıda memarlar N.Tverdoxlebov, F.Lemkul, A.Koşinskiy, Q.İsmayılov və başqaları, çox layihələşdirir və inşa edirdilər. Onların yaradıcılığı üçün klassik formala-

rın sərbəst təfsiri və memarlığın yerli xüsusiyyətlərinə meyl səciyyəvidir. Yaşayış evi, gözəl formaları və detalları ilə fərqlənən kompozisiyanın mərkəzi-mehvər sisteminə və pəncərə yerlərinin dəqiq ahənginə malikdir. Onların daşda işlənməsi mədəniyyəti mükəmməllik səviyyəsinə çatdırılmışdır. Bu, memarlıq abidəsi və şəhərin irsinin bir hissəsi olan tikilinin bədii siması üçün mühüm əhəmiyyət kəsb edirdi.

**Aziatskaya** (A.O.Quliyev), **96** (1907-ci il). Üçmərtəbəli yaşayış evi, zəngin plastikası, gözəl detalları və yaxşı mütənasib piştağla fərqlənir, bədii-dəyərli binalar üçün mühitdir və şəhərin tarixi irsinin sisteminə daxildir. Qeyd etmək lazımdır ki, № 92, 94, 96 yaşayış evləri, özlərinin fərdi xüsusiyyətləri ilə vahid memarlıq-məkan sistemini təcəssüm etdirir.

**Aziatskaya** (A.O.Quliyev), **102, 104, 106, 107, 108** (1890-1900-cü illər). Bu yaşayış evləri, tarixi mərkəzin hazırki hissəsi üçün səciyyəvi olan mühiti formalaşdırmaqla fon tikilmənin müəyyən funksiyalarını daşıyırlar.

**Aziatskaya** (A.O.Quliyev), **109** (1897-ci il), **111** (1899-cu il). Yaşayış evləri, memarlıq əlamətlərinə görə tarixi məhəllələrin formalaşmasında fəal iştirak edir və şəhərin bədii-dəyərli binaları üçün mühitdir.

**Aziatskaya** (A.O.Quliyev), **116,** Mariinski (R.Rza), 22 küçəsinin tini. Əmiraslanov qardaşlarının əzəmətli üçmərtəbəli yaşayış evi 1899-cu ildə mülki mühəndis İ.V.Qoslavski tərəfindən inşa edilmişdir. Şəhərin tarixi məhəllələrinin quruluşunda fəal memarlıq elementlərindən biridir. Binanın memarlıq kompozisiyası order sisteminin iri klassik formalarında Bakı evinin ən yaxşı ənənələrini təcəssüm etdirir. Fasad kün pilyastrları və pəncərə yerlərinin sakit ahəngi ilə verilmişdir. Burada, mənalı tektonik sistemi təşkil edən, ikimərtəbəli Korinf pilyastrlarının irəli çıxıntıları elə bil birinci mərtəbənin profillənmiş yonulmamış daşına oturacaq kimi söykənərkən, daş memarlığın konstruktiv üsulları qabarıq şəkildə yonulmuş formalarla uğurla uzlaşır. Bu evdə, daşda ustalıqla yerinə yetirilmiş hər bir hissə, hər bir detal, xalq ustalarının, həmçinin bu əsərin yaradıcısı – memarın istedadının zənginliyini, qüdrətini meydana çıxarır. Yaşayış evinin üzlük materialı da böyük əhəmiyyət kəsb edir. Bu binanın suvaqda eyni bədii effekt verməsini təsəvvür etmək çətindir. Yaşayış evinin arxitekturası - Qoslavskinin yaradıcılığında böyük uğurdur, bina irsin bir hissəsi və Azərbaycanda kapitalizm dövrünün memarlıq abidəsidir.

**Aziatskaya** (A.O.Quliyev), **127** (1911). Yaşayış evi Bakı şəraitində çoxmərtəbəli evin maraqlı nümunəsini təcəssüm etdirir. Həcmli-məkan kompozisiyası və memarlıq-planlaşdırma quruluşu sayəsində ev, bədii-dəyərli binalar üçün mühitin formalaşmasında fəal iştirak edir və tarixi irsin bir hissəsidir.

**Abşeronskaya, 7.** 5-ci Parallel (F.İbrahimbəyov), 36 və 4-cü Parallel (S.Salayev), 21 küçələrinin tini. Fiqarov qardaşlarının üçmərtəbəli yaşayış evi 1909-cu ildə, mülki mühəndis N.Q.Bayev tərəfindən inşa edilib. Üç küçəyə yönəldilmişdir və həcmli-məkan həlli sayəsində Şamaxinkanın köhnə rayonunun fəal şəhərsalma elementidir. Küçənin artırılmış işarələrində evin uğurla yerləşdirilməsi, künc və yan erkerlərlə bərkidilmiş həcmli kütlələrin gözəl düzülüşü, detallara ayrılmanın



*Abşeronskaya küç., 7. Fiqarov qardaşlarının yaşayış evinin cənub fasadı. Mülki mühəndis N.Q. Bayev. 1909-cu il.*



*Abşeronskaya küç., 7. Fiqarov qardaşlarının yaşayış evinin ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*

plastikliyi, riflənmiş günbəzlərlə erkerlərin tamamlanmasının səciyyəvi modernist cizgiləri çox maraqlı bədii obraz yaradır. Onun quruluşunda uzaqdan-uzağa orta əsrlərə aid qəsrlərin obrazları sezilir, belə müqayisənin bir qədər şərtiliyinə baxmayaraq, həcmlərinin bədiiliyi və heykəl uyğunluğu sayəsində emosional təsirə malikdir, onların əhəmiyyətini müəyyən etməklə tarixi məhəllələrin arxitektonikasını genişləndirir, memarlıq abidəsidir [36].

**Bazarnaya küçəsi** (H.Hacıyev). Hələ 1810-cu illərdə Şamaxı yolu boyu meydana gəlmiş, tədricən karvansaralar, dükanlar və yaşayış evləri tikilmiş və Zaqafqaziya dəmiryolu çəkilənə qədər şəhərin əsas nəqliyyat arteriyası hesab edilmişdir. O, hələ indi də Bakının planlaşdırılması və tikilməsində özünün aparıcı əhəmiyyətini qoruyub saxlayır. Küçənin bir-ikimərtəbəli tikilməsi XIX-XX əsrlərin hüdudlarında əsaslı görünüş və səciyyəvi istiqamət aldı.1950-ci illərin əsaslı bərpasından sonra küçədə şərq tərəfdən arxitekturası yerli ənənəvi üsullarda təfsir edilmiş beşmərtəbəli yaşayış tikilisi meydana gəldi.

**Bazarnaya küçəsi** (H.Hacıyev), **9,** Torqovaya (Nizami), 49 və Poçtovaya (S.Tağızadə), 78 küçələrinin tini. Keçmiş "İslamiyə" karvansarası, 1884-1885-ci illərdə, yeni sosial-iqtisadi şəraitdə mülki mühəndislər N.P.Tverdoxlebov və A.S.Kandinov tərəfindən inşa edilib.



*Bazarnaya küç., 9. "İslamiyə" karvan saray binasının şərq fasadı. Mülki mühəndislər N.P. Tverdoxlebov, A.S. Kandinov. 1884-1885-ci illər.*

Planlaşdırma cəhətdən kompozisiyanın yerli ənənəvi üsullarını qoruyub saxlamışdır. Həcmli-məkan və memarlıq təfsirində parlaq şəkildə ifadə olunmuş klassik formalarda ordersiz sisteminin üsullarından istifadə edilmişdir. Tikilmənin fəal vahidi kimi şəhərin tarixi mərkəzinin şəhərsalma quruluşunda binanın əhəmiyyəti, mövzu-məkan mühitində üstünlük rolunu qoruyub saxlayan fasadların əzəmətliliyi və onların üç küçəyə yönəldilmələri ilə qabaqcadan müəyyən edilir. Fasadlar çox plastikdir, əla surətdə aydın göstərilmişdir və bədii cəhətdən xeyli maraq kəsb edir. Torqovaya küçəsi tərəfdən fasad rizalitlər və mərkəzi hissə, mehvər yerlərinin ahəngi, memarlıq forma və detallarının dolğunluğu ilə xüsusi olaraq nəzərə çarpdırılmış, həcmli plastika həm dərin çıxıntılı hörgü, həm də künc çıxıntılı pilyastrlarla üzə çıxardılmış, möhtəşəm daş hörgü ilə aşkar edilmişdir. Bazarnaya tərəfdən birinci mərtəbə 1930-cu illərdə piyada pasajına çevrilmişdir. Karvansara Bakının memarlıq abidələrinin sırasına daxildir.

**Bazarnaya küçəsi** (indiki Füzuli), Azərbaycanın gələcək paytaxtını Balaxanı şossesi vasitəsilə en dairəsi xətti istiqanətində Abşeronun kəndləri ilə birləşdirən, şəhərin əsas küçəsi kimi 1870-ci illərdə yaranmağa başladı. XIX-XX əsrlərin hüdudlarında o bütünlüklə formalaşdı və şərqdə vağzal meydanını qərbdə Quba meydanı ilə birləşdirdi. Bütün uzunluğu boyu o enini gah genişlənərək, gah daralaraq dəyişirdi. Bir neçə üçmərtəbəli yaşayış evləri, keçmiş

Mixaylovskaya xəstəxanası və Kişilər üçün gimnaziya istisna olmaqla, planlaşdırma nöqteyi-nəzərindən küçənin şəhərin tikilməsində aparıcı yer tutmasına baxmayaraq, birmərtəbəli dükanlar, emalatxanalar və görkəmsiz yaşayış evləri ilə meydana gəlmişdi.

**Balaxanskaya** (Füzuli), **27.** Ağa Rəhim bəy Məlikovun üçmərtəbəli yaşayış evi, 1905-ci ildə inşa edilib. İlkin layihə modern üslubunda tərtib edilmiş, daha sonra renessans motivlərindən istifadə edilmişdi. Bu küçədə, şəhərin tikinti mədəniyyətinin yüksək keyfiyyəti və ordersiz sisteminin memarlıq formalarının aşkar edildiyi az sayda binalardan biridir. Mərkəzi rizalit və pəncərə yerlərinin ahəngi yaşayış evinin kompozisiyasının əsasını, onun memarlıq detallarını qabaqcadan müəyyən etdi; daş üzərində böyük ustalıqla yerinə yetirilmiş naxışlı oyma, ornamental motivlərlə simmetriya mehvəri boyu pəncərə yerlərinin həllinin plastikliyi və giriş üzərində sahibin monoqramması ilə diqqəti cəlb edir. Memarlıq abidəsi olan binanın fasadının incə çıxıntılı hörgüsü binanın bütün quruluşu üzərinə yumşaq təbəqə ilə çökür.

**Balaxanskaya** (Füzuli), **29** (1881-1913-cü illər). Mixaylovskaya xəstəxanasının keçmiş binası (indi doğum evi) – Bakı şəhərinin ən köhnə tibb müəssisəsi – Nikolayevskiy küçəsində yeni binaya köçmüş müqəddəs Nina binasını tutdu. Xəstəxananın geniş ərazisində, müxtəlif vaxtlarda N.A. fon der Nonne, İ.V.Qoslavski və Zivər-bəy Əhmədbəyovun layihələri üzrə ayrı-ayrı korpuslar inşa edilmişdi. Onların hamısı vahid bütövlük təşkil edir, həm memarlıq, həm də tibbi nöqteyi-nəzərindən maraq kəsb edirlər, tarixi irsin ayrılmaz hissəsi və memarlıq abidəsidirlər.



*Balaxanskaya küç., 27. Ağa Rəhim bəy Məlikovun yaşayış evinin layihəsi. Fasad. 1905-ci il. Ş.S. Fətullayevin çertyoju.*

**Balaxanskaya** (Füzuli), **33.** Bakı üçün tipik olan, səciyyəvi planlaşdırma, qapalı həyət, ikicərgəli tikilmə sistemi ilə Rza-



*Balaxanskaya küç., 33. Rzayevin yaşayış evinin cənub fasadı. Memar İ.V. Edel. 1894-cü il.*

*Balaxanskaya küç., 39. Mariinski küçəsinin tini, 83. Hacınski qardaşlarının yaşayış evinin bir hissəsi. Ş.S. Fətullayevin şəkili.*



*Balaxanskaya küç., 39. Hacınski qardaşlarının yaşayış evinin bir hissəsi. 1908-ci il.*





*Balaxanskaya küç., 39. Hacınski qardaşlarının yaşayış evinin bir hissəsi.1908-ci il.*

*Balaxanskaya küç., 61. Kişilər üçün gimnaziya binasının fasadının bir hissəsi. Ş.S.Fətullayevin rəsmi.*





*Balaxanskaya küç., 61. Kişilər üçün gimnaziya binasının cənub fasadı. Mülki mühəndis K.A. Borisoqlebskiy. 1913-cü il.*

yevin üçmərtəbəli yaşayış evi 1894-cü ildə memar İ.V.Edel tərəfindən inşa edilib. Yastı rizalitlər, "şüşəbənd" üslublu şüşələnmiş eyvanla, klassik formalarda daşdan düzəldilmiş memarlıq detalları ilə gözəl həll edilmiş fasad, küçənin quruluşunda mühüm yer tutdu. Bina böyük bədii maraq kəsb edir və memarlıq abidəsidir.

**Balaxanskaya** (Füzuli), **39,** Mariinskaya (Rəsul Rza), 83 küçəsinin tini. Hacınski qardaşlarının üçmərtəbəli yaşayış evi 1908-ci ildə inşa edilib, fəal künc mövqeyi tutur və şəhərsalma cəhətindən də Bakı moderninin parlaq şəkildə ifadə edilmiş formalarında özünün həcmi ilə ətraf tikilməyə əsaslı şəkildə təsir göstərir. Otaqların ikicərgəli yerləşməsi və "şüşəbənd" üslublu qalereya hər bir pilləkən meydançasında təcrid olunmuş mənzillərə bölünən planlaşdırma quruluşunun əsasını təşkil edir. Mənzillərin interyerləri dekorativ elementlər, qabarıq yapma və çox profillənmiş plafonlarla zənginləşdirilmişdir. Ahəngin və plastikanın sinxron işlədiyi yerdə yaşayış evinin arxitekturası çox dolğun plastik kompozisiyanı təcəssüm etdirir. Fasadın plastikasını zənginləşdirən lociya və erkerlər, cənub iqlim qurşağında çox mühüm rol oynayır və binanın quruluşuna yeni formalaşma elementi gətirirlər. Modern özünün orijinal formaları və elementləri, gözəl surətdə profillənmiş detalları ilə, bu üslubun imkanlarının çeşidliliyini meydana çıxarır. Rəsmin səciyyəvi xətlərində qəsr maskaları və ornamental motivlər ustalıqla, daş memarlığın ənənələrində parlaq surətdə yerinə yetirilmişdir.

**Balaxanskaya** (Füzuli), **61,** Krasnovodskaya (S.Vurğun), 40 küçəsinin tini. Kişilər üçün keçmiş gimnaziya binası (indiki

xəstəxana), 1911-1913-cü illərdə, mülki mühəndis K.A.Borisoqlebskinin layihəsi üzrə inşa edilib, qəşəng yerinə yetirilmiş fasadın detalları ilə birgə özünün əzəmətli həcmi, order sistemində klassik formaları və memarlıq kompozisiyası ilə fəal şəhərsalma mövqeyini tutur. Əsas fasadın irəli çıxardılmış mərkəzi hissəsi, İoniya orderinin iki yuxarı mərtəbəsi boyu əzəmətli portiklə xüsusi olaraq nəzərə çarpdırılmışdır. Aşağı mərtəbənin yonulmamış daşla hörülmüş fonunda olduqca aydın çəkilmiş profillərlə olan üç dörddə bir sütunlar və klassik üslublu pərvaz, müəllifin təmtəraq və dəbdəbəyə can atmasını göstərir. Kişilər üçün gimnaziyanın binası – Bakıda inqilabdan əvvəlki dövrdə yaradılmış tədris tikintisinin az nümunələrindən biridir, memarlıq abidəsidir.




*Baryatinskaya küçəsinin planı.*

**Baryatinskaya küçəsi** (A.K.Əlizadə), **6.** Fasadın həcmli-məkan həllinin əsasını təşkil edən renessans motivləri ilə birlikdə şimal memarlıq üsulları olan Adamovların yaşayış evi 1910-cu ildə inşa edilib.



*Baryatinskaya küç., 6. Yaşayış evi binasının fasadının bir hissəsi.*

*Baryatinskaya küç., 6. Yaşayış evinin bir hissəsi. Ş.S.Fətullayevin rəsmi.*



Asimmetrik kompozisiya, şaquli mehvər xətti, sərt siluet quruluşu çox qəşəng və plastik mövzu mühitini yaradıb. Bədii obrazın açılmasında son rol oynamamış, daşda memarlıq detallarının yüksək işlənməsi mədəniyyəti binanı fərqli edir. Memarın yaradıcılığında mühüm yer tutur və memarlıq abidəsidir.

**Birjevaya küçəsi (Ü.Hacıbəyov),** Molokan bağının ***(indiki 20 yanvar)*** yanından başlayır, en dairəsi xətti istiqamətində inkişaf edir və şəhərin sənaye zonası rayonun-



*Baryatinskaya küç., 6. Yaşayış evinin ümumi görünüşü. 1910-cu il.*

da qurtarır, Mariinski (R.Rza) küçəsinin tinindən Stanislavskiyə (Azadlıq pr.) qədər tikilmə demək olar ki, inqilaba qədər, daha sonra – sovet dövrünə aiddir. Küçənin inqilabdan əvvəlki tikilməsi, № 1-9-a qədər olan sahədə memarlığın klassik üsulları, vahid kompozisiya vasitəsi ilə, həm də fasadların həllinə fərdi yanaşma ilə göstərilərək, əsasən üçmərtəbəli yaşayış evləri ilə təqdim edilmişdir. Bakı şəhərinin bu hissəsinin memarlıq cəhətdən analoqu yoxdur və mərkəzi rayonun həcmli-məkan quruluşunda mühüm həlqəni təşkil edir. Şəhərin bu zonasının əhəmiyyətini genişləndirərək, böyük mövzu-məkan funksiyasını daşıyan Birjevaya meydanı (Azadlıq) da küçələrin sisteminə daxildir. Azərbaycan Pedaqoji Universiteti (keçmiş Kommersiya məktəbi) binasının da daxil olduğu küçənin bədii panoramasında mövcud tikilmə üslub cəhətdən mühüm yer tutur. Stanislavski küçəsində (Azadlıq pr.) tikilmənin üslubu dəyişir, o Hökumət evinin əhatəsinə daxil olur və müasir arxitekturalı 9-mərtəbəli yaşayış evləri ilə təqdim olunur (memar M.Ə.Hüseynov, 1970-ci illər). Küçənin tikilməsində, onun arxitekturasında əks olunmuş kapitalist və sosialist dövrlərinin iki formasiyası müşahidə edilir.

**Birjevaya (Ü.Hacıbəyov). 1,** Qoqol, 2 küçəsinin tini. Yaşayış evi, 1896-cı ildə mülki mühəndis A.S.Kandinov tərəfindən inşa edilib, sonra 1902-ci ildə binanın üstü tikilib artırılmışdır. Keçmiş Mariinski bağının (indiki 9 yanvar bağı) tikilmə quruluşuna daxildir və başlanğıcını oradan götürən küçə Bakının tarixi mərkəzinin fəal həcmli və memarlıq elementidir. Avropa memarlığının klassik formalarında həll edilmiş yaşayış evi, özündə yüksək peşəkarlığın cizgilərini daşıyır. Bina memarlıq və bədii dəyərlərə malikdir. Rizalitlər və incə çəkilmiş profillərlə pəncərə yerlərinin ahəngi, fransız eyvanlarının bəzəkli məhəccərləri və daş üzərində naxışlı oymanın antablementinin yumşaq plastikası maraqlı memarlıq palitrasını təşkil edir. İnteryerlərin zənginliyi pla-

*Birjevaya küçəsinin planı.*





*Birjevaya küç., 1, Qoqol küçəsinin tini. Qoqol küçəsi boyu fasad. 1896-1902-ci illər. Memar R. Bayramovun çertyoju.*

fonların yapması, pərvazların və dekorativ elementlərin mürəkkəb profilləri vasitəsilə göstərilmişdir. Hazırki dövrdə binada xəstəxana yerləşir. XIX-XX əsrlərin hüdudlarında yaradılmış yaşayış evi – şəhərin tarixi irsinin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Birjevaya** (Ü.Hacıbəyov), **3** (1896-cı il). Üçmərtəbəli yaşayış evi – tikilmənin fəal elementidir və küçənin ümumi ansamblına uğurla daxil edilmişdir. Fasadın arxitekturası üçün rizalitlər sistemi, yuxarı mərtəbələrdə pəncərə yerlərinin dəqiq ahəngi və birinci mərtəbədə keçmiş





*Birjevaya küç., 1. Yaşayış evinin ikinci mərtəbəsinin planı.*

*Birjevaya küç., 1. Yaşayış evinin fasadının bir hissəsi.*





*Birjevaya küç., 1. Yaşayış evinin cənub fasadı.*

mağazaların vitrinlərinin böyük ölçüləri səciyyəvidir. Fasad order və ordersiz sistemlərinin klassik formalarında həll edilib, mütənasib detallara ayrılma, divarların dərin çıxıntılı hörgüsü, pəncərə yerlərinin haşiyələrinin zənginliyi və sandriklərin dekorativ elementləri ilə fərqlənir. Vazon (dibçək) üslublu və mürəkkəb profilli daş kronşteynlər vasitəsilə saxlanılan yarımdairəvi eyvanlar və frontonla birgə Korinf orderinin ikisütunlu portik şəklində rizalitlərdə memarlıq cəhətdən zəngin elementlər fasadın kompozisiyasında xüsusi diqqət cəlb edir. Giriş pilləkəninin divar naxışları və təntənəli formalarda həll edilmiş otaqların interyerləri səciyyəvidir. Yaşayış evi XIX əsrin sonlarına aid memarlıq abidəsi kimi Bakının tarixi məhəllələri sırasına daxil oldu.

**Birjevaya** (Ü.Hacıbəyov), **4** (1902-ci il). Üçmərtəbəli yaşayış evi Mariinski bağına yönəldilib və bağın cənub kənarını həcmli-məkan həlli vasitəsilə yaxşı möhkəmləndirməklə şəhərin tarixi məhəllələrinin quruluşunda şəhərsalma funksiyasını fəal surətdə daşıyır. Fasad sadə formalarda, lakin Bakının iqlim şəraitinə

*Birjevaya küç., 3. Yaşayış evinin 3-cü mərtəbəsinin planı. 1896-cı il.*





*Birjevaya küç., 3. Yaşayış evinin cənub fasadının bir hissəsi.*



*Birjevaya küç., 3. Yaşayış evinin kəsiyi. 1896-cı il.*

cavab verən geniş və enli daş eyvanlarla həll edilmişdir. Fasadın "Aqlay" üslublu təmiz yonulmuş daşla işlənməsi keyfiyyəti və profillənmiş memarlıq elementləri sayəsində yaşayış evi bədii – dəyərli binalar üçün müəyyən mühitin formalaşmasında iştirak edir.

**Birjevaya** (Ü.Hacıbəyov), **5** (1908-ci il). Qonşuluqdakı № 3 kimi üçmərtəbəli yaşayış evi də, küçənin ümumi tikilməsinə daxildir və Mariinski bağından Krasnovodski (S.Vurğun) küçəsinə qədər bu bütöv bir memarlıq-planlaşdırma kompozisiyasının fəal vahididir. Planda П–şəkilli yaşayış evi, rahat həyətə, Şərqi Avropa motivləri üzrə naxışlarla bəzədilmiş divarlarla birgə, otaqların ikicərgəli düzülüşünə, dəbdəbəli interyerlərə və pilləkən meydançasına malikdir. Bina, Toskana və İoniya order sistemlərinin cüt pilyastrları ilə dolğunlaşdırılmış, yan rizalitlərlə xüsusi olaraq nəzərə çarpdırılmaqla klassik formalarda inşa edilmişdir. Fasadın mütənasib detallara ayrılması, memarlıq modelləşdirilməsi, daşda qabarıq işlənmə vasitəsilə əldə edilmiş əsas elementlərin gözəl plastikası, memarlıq abidəsinin bədii funksiyasını daşıyan yaşayış evinə diqqəti cəlb edir.

**Birjevaya** (Ü.Hacıbəyov), **7** (1897-ci il). Üçmərtəbəli yaşayış evi, Qoqol və Krasnovodskaya küçələri arasında yer-



*Birjevaya küç., 3. Yaşayış evinin cənub fasadı.*

*Birjevaya küç., 3. Yaşayış evinin fasadının bir hissəsi. Ş.S. Fətullayevin rəsmi.*





*Birjevaya küç., 7. Yaşayış evinin ümumi görünüşü. 1897-ci il.*

ləşən şəhərin tarixi məhəllələrinin quruluşunda həcmli-məkan kompozisiyasının mühüm elementlərindən biridir. Klassik formalarda zəngin plastiklik, mərtəbələrin zərif mütənasib hissələrə ayrılması, daş bloklardan olan gözəl yonulmamış daşla hörgü, həm ayrı-ayrı hissələrin, həm də bütöv fasadın memarlıq detallarının mükəmməl işlənməsi binanı fərqləndirir. Giriş pilləkəninin divarları üzərində bəzəkli naxışlar və yaşayış üçün otaqların interyerlərinin tərtibatı, tarixi irsin ayrılmaz hissəsi və kapitalizm dövrünün memarlıq abidəsi olan bu tikilinin müəllifinin yüksək peşəkarlığını qeyd etməyə imkan verir.

**Birjevaya** (Ü.Hacıbəyov), **8** (1909-cu il). Bu binada 1920-ci ilə qədər Fransa konsulluğu yerləşirdi. Üçmərtəbəli yaşayış evi, keçmiş Mariinski bağının tikilməsinə daxildir və onun mövzu – məkan mühitini müəyyən edir. Şəhərin tarixi mərkəzinin vacib elementi olmaqla tikili, həm də şəhərsalma əhəmiyyətinə malikdir. Müasir və plastik formalarla Bakının tikilməsinə belə uğurla daxil olmuş fasadın memarlıq kompozisiyası modern üslubunda inşa edilib. Xüsusi olaraq nəzərə çarpdırılmış rizalitlər, detallara ayrılmanın şaquliliyi, maraqlı rəng həlli yaratmış fasadın divarlarının daş üzlükləri ilə birgə böyük məziyyətlə istifadə olunmuş şirəli kərpic, eyni zamanda zəngin plastika, detalların zərif aydın çəkilməsi və incə yerinə yetirilməsi yaşayış evinin müasir obrazının yaranmasına səbəb oldu.



*Birjevaya küç., 9. Krasnovodskaya küç., 5-in tini. Yaşayış evinin fasadı. 1906-cı il. Memar R.Bayramovun çertyoju.*

Yaşayış evi – Bakıda modern üslubunun maraqlı nümunələrindən biridir və memarlıq abidəsidir.

**Birjevaya** (Üz.Hacıbəyov), **9,** Krasnovodskaya (S.Vurğun), 5 (1906-cı il) küçəsinin tini. Üçmərtəbəli yaşayış evi, künc mövqeyi tutmaqla, tikilmə sistemində, nəinki məsələn 3, 5, 7, saylı yaşayış evləri, daha məsul şəhərsalma funksiyasını daşıyır. Xüsusi olaraq nəzərə çarpdırılmış künc, yuxarı mərtəbələrdə pəncərə yerlərinin dəqiq ahəngi ilə birgə frontal rizalitlər və birinci mərtəbədə yerləşən mağazaların böyük vitrinləri fasadların əzəmətli xarakterini və memarlıq həllinin dəbdəbəliliyini qabaqcadan müəyyən etdi. Arxitektur detallara və onların daş üzərində mükəmməl işlənməsinə xüsusi diqqət yetirilmişdir. Arxitekturası və yüksək tikilmə mədəniyyəti, yaşayış evini kapitalizm dövründə Bakı şəraitində yaradılmış ən yaxşı evlər sırasına qoyur. Bina memarlıq abidələrinə aiddir.

**Birjevaya** (Ü.Hacıbəyov), **15-17,** Molokanskaya (Xəqani), 18 və Kaspiyskaya (R.Behbudov), 8 küçələrinin tini. Dördmərtəbəli ev, küçənin geniş tikilmə sahəsini tutur və bir fasadla Kaspiyskaya (R.Behbudov) küçəsi tərəfdən Birjevaya meydanının (Azadlıq) şərq hissəsini qapayır. İlk iki mərtəbə 1896-cı ildə, mül-

*Birjevaya küç., 9. Krasnovodskaya küç., 5-in tini. Yaşayış evinin ümumi görünüşü.*





*Birjevaya küç., 9. Yaşayış evinin fasadının bir hissəsi.*

*Birjevaya küç., 9. Yaşayış evinin cənub fasadı.*



*Birjevaya küç., 9. Yaşayış evinin cənub fasadının bir hissəsi.*



ki mühəndis A.S.Kandinovun layihəsi üzrə inşa edilib, iki yuxarı mərtəbələr 1950-ci illərdə tikilərək artırılıb. Özünün yerləşməsinə görə yaşayış evi, şəhərin tarixi məhəllələrinin quruluşunda məsul şəhərsalma mövqeyi tutur. Zəngin plastika ilə birgə fasadların arxitekturasında klassik formaların və üslubların istifadəsi ilə şaquli rizalitlərin nəzərə çarpan ahəngi şəhərin tarixi irsində yaşayış evinin estetik əhəmiyyətini memarlıq abidəsi kimi müəyyən etdi.

**Birjevaya** (Ü.Hacıbəyov), **19** (1909-cu il). Dördmərtəbəli yaşayış evi, şəhərin tikilməsinin tərkib elementi olmasına baxmayaraq, lakin order sisteminin iri detallara ayrılmasında memarlıq həllinin xarakterinə, fasadın həcmi və plastikasına görə, Bakının tarixi mərkəzinin ümumi tikilməsi zəncirinə dəyərli və fəal həlqəsi kimi şəhərin bədii simasına daxil olmuş o tip yaşayış evini müəyyən edir. Gözəl pərvaz və attiklə (dekorativ divar) antablementin inkişaf etdirilmiş formalarını daşıyan, üç mərtəbə hündürlüyündə Korinf orderinin pilyastrlarının ahəngi fasadın üzərində parlaq surətdə görsənir. İncə dekorativ elementlərlə pəncərələrin, mərtəbələrin fərdi qaydada həlli, bəzəkli metal məhəccərlərlə irəli çıxmış eyvanlar, "aqlay" üslublu bloklardan hörgünün yüksək keyfiyyəti, təbii olaraq, şəhərin tarixi irsində və dövrün memarlıq abidəsi kimi onun yerini müəyyən etdi.

**Birjevaya** (Ü.Hacıbəyov), **21.** Dördmərtəbəli yaşayış evi iki mərhələdə inşa edilib: birincisi 1900-cü ildə, ikincisi – 1950-ci illərdə binanın üzərindən tikilb



*Birjevaya küç., 19. Yaşayış evinin cənub fasadının ümumi görünüşü. 1909-cu il.*



*Birjevaya küç., 19. Yaşayış evinin 2-ci mərtəbəsinin planı.*



*Birjevaya küç., 19. Yaşayış evinin cənub fasadı. Memar R. Bayramovun çertyoju.*

*Birjevaya küç., 21. Yaşayış evinin cənub fasadı. Memar R. Bayramovun çertyoju.*

artırılıb. Fasadın həllinin xarakteri, ordersiz sistemin klassik formalarında pəncərə yerlərinin yerləşməsini və hissələrə ayrılmanın şaquliliyini xüsusi olaraq nəzərə çarpdıran rizalitlərin ahəngi ilə müəyyən edilir. Fasadın gözəl plastikası, mərtəbələrin dərin çıxıntılı hörgüsü, memarlıq detallarının heykəltəraşlıq uyğunluğu ilə işlənməsi, Bakının kapitalizm dövrünün memarlıq abidəsi olan yaşayış evinin bədii simasının kompozisiyasının əsasını təşkil etdi.

**Birjevaya** (Ü.Hacıbəyov), **24.** Üçmərtəbəli inzibati bina, 1912-ci ildə, mülki mühəndis N.E.Marçenko tərəfindən inşa edilib. Əsas fasadla keçmiş Birjevaya meydanına yönəldilib, bədii və şəhərsalma nöqteyi-nəzərindən şəhərin tarixi məhəllələrinin formalaşmasına kifayət qədər fəal təsir edir. Fasadın arxitekturası Bakının tikilməsində nadir hallarda rast gəlinən maraqlı kompozisiya quruluşuna malikdir. Alovlanan formalarla seçilməyən, şaquli rizalitlərin ahəngi ilə xüsusi olaraq nəzərə çarpdırılmış, modern üslubunda inşa edilmiş bina, qabarıq plastika və rəng palitrası ilə nəzərə çarpdırılmışdır. Fasadların işlənməsində kompozisiyanın bədii dəyərlərini müəyyən etmiş təmiz yonulma daşlarından olan memarlıq detalları və qırmızı çalarlı kərpiclərdən istifadə edilmişdir. Bina – tarixi irsin ayrılmaz hissəsidir və modern üslubunda memarlıq abidəsidir.





*Birjevaya küç., 24. İnzibati binanın şimal fasadı.*

**Birjevaya** (Ü.Hacıbəyov), **25,** Stanislavski (Azadlıq pr.), 5 küçəsinin tini. Rzayevlərin dördmərtəbəli evi, 1900-cü illərdə üç mərtəbəli formada inşa edilib, 1950-ci illərdə binanın üstü tikilərək artırılıb, künc həcmli-məkan və memarlıq həlli sayəsində şəhərin tarixi məhəllələrinin quruluşunda şəhərsalma əhəmiyyətinə malikdir. Order sisteminin klassik forma və üsullarında inşa edilmiş yaşayış evinin fasadları, plastikanın zənginliyi, memarlıq kompozisiyasının gözəlliyi və daşdan olan detalların yüksək işlənmə səviyyəsi ilə seçilir. Əsas fasadın aksenti, özünün qabarıq detalları ilə ikimərtəbəli daş eyvandır. Yaşayış evi – memarlıq abidəsidir.

**Bolşaya Morskaya küçəsi** (Bülbül prospekti). 1870-ci illərin əvvəllərindən formalaşmağa başladı, lakin Zaqafqaziya dəmiryolunun çəkilməsindən sonra, sənaye zonası və tarixi məhəllələr arasındakı əlaqəyə təkan verən Bakı stansiyasının və vağzalın 1833-cü ildə inşası zamanı bu küçənin fəal surətdə tikintisinə başlanıldı. XIX-XX əsrlərin hüdudlarında prospekt meridional istiqamətdə memarlıq-planlaşdırma inkişafı əldə

etdi. Cənub hissəsi, keçmişdə taxta-şalban anbarlarının və limanın yerləşdiyi Dəniz kənarından başlayır, şimalda isə, əsas təpəcikdə şəhər yanğınsöndürmə dəstəsinin binası inşa edilmişdi (memar İ.K.Ploşko, 1899-1900-cu illər). Mişarlanma şəklində küçənin öndə gedən hissəsi, şəhərin quruluşunda prospektin xarakter və yerini müəyyən edən dördmərtəbəli yaşayış evləri ilə (memar M. Qusman, 1940-cı il) tikilmişdi. Mövcud tikilmə,

*Birjevaya küç., 25. Rzayevlərin yaşayış evinin cənub fasadı. 1990-cı illər.*



başlıca olaraq, memarlığı Avropa memarlığının klassik formalarında davam etdirilmiş, kifayət qədər mənalı və dəyərli binalarla, üç-dörd mərtəbəli olmaqla əsaslıdır. Burada, daş üzərində yerinə yetirilmiş, aydın şəkildə gözəl çəkilməklə order sisteminin prinsiplərindən istifadə edilmişdir. Telefonnaya küçəsinin (28 may) kəsişməsində prospektin mərkəzi hissəsi, küçənin həcmli-məkan quruluşuna yeni məna vermiş, memarlar S.A.Dadaşov və M.Ə.Hüseynovun (1940-cı illər) layihəsi üzrə inşa edilmiş iki ictimai və inzibati binalarla bəzədildi.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **1,** Aleksandr II (Neftçilər pr.), 127, Dəniz kənarının tini. 1887-ci ildə mühəndis N.A. fon der Nonnenin layihəsi üzrə ikimərtəbəli yaşayış evi inşa edilmiş, 1950-ci illərdə daha iki mərtəbə artırılmışdır. Şəhərin tarixi mərkəzinin planlaşdırma quruluşunda özünün künc mövqeyi sayəsində tikilmənin əsas həcmli elementlərindən biridir və vacib şəhərsalma rolunu oynayır. Binanın klassik formaları, mərtəbələrin dərin çıxıntılı hörgüsü, aydın şəkildə yumşaq çəkilmiş memarlıq detalları diqqəti özünə cəlb edir.

**Bolşaya Morskaya** (Bülbül prospekti)**, 2,** Aleksandr II Dəniz kənarının tini, Neftçilər pr. 129. Dadaşovların dördmərtəbəli gəlir gətirən evi 1916-cı ildə inşa edilib. Şəhərin memarlığında yeni, daha çox rasionalist istiqamətini üzə çıxaran, ordersiz sistemin prinsiplərində sadə fasadları ilə birgə Bakının mənzil tikintisində az saylı nümunələrindən biridir. Bina, memarların pəncərə yerlərinin ritmi, proporsional hissələrin aydın çəkmələri sayəsində ifadəliliyə nail



*Bolşaya Morskaya küç., 8. Yaşayış evinin qərb fasadı. Memar İ.V. Edel. 1893-cü il.*

olmaq məqsədilə fasadların dolğunluğundan imtina edərək əvəzinə dekorativ elementlərdən istifadə etdikləri- keçid dövrünə aid tikilidir və yaşayış evinə daha müasir yanaşmaları nəticəsində bina Bakı arxitekturasının memarlıq abidələri siyahısına daxil oldu.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **8**. İkimərtəbəli yaşayış evi 1892-ci ildə mühəndis İ.V.Edel tərəfindən tikilib. Klassik simmetriya prinsipləri ilə ucaldılan bina sifariş sistemi əsasında o zamanlarda yalnız Bakıda deyil, habelə Avropa miqyasında üstünlük təşkil edən istiqaməti əks etdirir. Yaşayış evinin xüsusi olaraq nəzərə çarpan frontonlu mərkəzi və pəncərə haşiyələri və ifadəli daş detalları ilə zəngin yonulmamış daşla hörülmüş mərtəbələri ilə arxitektur kompozisiyanı tarazlaşdıran yan rizalitləri vardır. Tikili memar İ.V.Edelin Bakının demək olar ki, bütün küçələrində gördüyümüz bir çox işlərindən biridir: əzəmətli, aydın incə çəkilmiş və mükəmməl tikilmiş memarlıq abidələri.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **10,** Birjevaya küçəsi (Ü.Hacıbəyov küçəsi) 22 tini (1895-ci il). Üçmərtəbəli yaşayış evi, maraqlı həcm-məkan və arxitektur şərhə malikdir, mükəmməl daş detallı yuxarı mərtəbənin zəngin plastikası ilə heykəltaraşlıq cəhətdən sadə olan aşağı mərtəbəsi uyğunluq təşkil edir.

Şəhərin bu rayonunun intensiv tikinti dövründə tikilən bu bina XIX-XX əsrlərin hüdudunda Bakı memarları arasında geniş yayılmış arxitektur tendensiyaları əks etdirir. Binanın yuxarı hissəsi

1895-ci ildə barokko üslublu formalarda, lakin arxitektur materialın daha azad tərzdə ifadəsi şəklində tikilib artırılmışdı. Daş detallarında naxışların yerinə yetirilməsinin yüksək keyfiyyəti diqqəti özünə cəlb edir. Bina tarixi məhəllələrin strukturuna aktiv nümunə kimi daxil olub və memarlıq abidəsidir.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **16,** Gimnaziçeskaya (Tolstoy) 168 və Qubernskaya (Nizami) küçələrinin tini. Keçmiş məktəbin üçmərtəbəli binası (indi Rəssamlıq məktəbi) 1912-ci ildə mühəndis F.A.Nikulin tərəfindən tikilib, həcm və məkan baxımından şəhər magistralının formalaşmasında, şəhərin tarixi məhəllələrinin strukturunda aktiv şəhər salma rolunu oynayır. Sifariş sistemi prinsipləri ilə klassik üsulları geniş istifadə edərək tikilən bina ahəngdarlığa malikdir, yüksək tikinti mədəniyyəti ilə seçilir və bədii cəhətdən qiymətli binalar üçün mühit yaradır.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **23,** Aziatskaya (A.O.Quliyev), 144 və Karantinnaya (H.Aslanov), 115 küçələrinin tini. Dadaşovların ikimərtəbəli gəlir gətirən evi 1896-cı ildə memar İ.V.Edelin layihəsi ilə memar A.V.Eyxlerin rəhbərliyi altında tikilib, tikintini formalaşdıran binalara aiddir, 1950-ci illərdə tikilərək artırılıb. Mənzillərin seksiyalı sistemi ilə planlaşdırılmış həlli Bakının iqlim şəraitinə uyğundur. Əsaslı surətdə sifariş sistemi olmayan memarlığın üsulları və formalarının istifadəsi ilə tikilən gəlir gətirən ev bədii cəhətdən qiymətli binalar üçün mühiti müəyyən edir.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **25,** Kamenistaya (B.Səfəroğlu), 180, Aziatskaya (A.O.Quliyev), 141 (1886-cı

*Bolşaya Morskaya küç., 29. Yaşayış evinin şərq fasadının fraqmenti. 1900-cü illər.*



*Bolşaya Morskaya küç., 29. Yaşayış evinin şərq fasadının fraqmenti.*



*Bondarnaya küç., 21. Məlikovların yaşayış evinin ümumi görünüşü. 1913-cü il.*

il), 27 küçələrinin tini; Tserkovnaya (Vidadi), 160 və Kamenistaya (B. Səfəroğlu), 211 (1883-cü il) küçələrinin tini. Yaşayış evləri XIX-XX əsrlərin hüdudunda tarixi tikintinin əsasını təşkil edən tikililərə aiddir və klassik formaların azad şərhində Bakının üslubi istiqamətinin xarakterini müəyyən edir. Yaşayış evləri bu üslubda olan digər binalar kimi Bakının tarixi rayonlarının onlarsız mövcud olmadığı elementlər qismində şəhərin simasının ümumi formalaşmasında nəhəng memarlıq və planlaşdırma funksiyasını daşıyır. Evlər bədii cəhətdən qiymətli binalar üçün mühit yaradır.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **29,** Suraxanı (Çingiz Mustafayev), 198 və Tserkovnaya (Vidadi), 189 küçələrinin tini. İki mərtəbəli yaşayış evi 1898-ci ildə tikilib, 1950-ci illərdə tikilib artırılıb. Yüksək arxitektur əlamətləri ilə seçilən bu küçədə yerləşən bəzi binalardan biri. Klassik üslubda tikilmiş, lakin daha da azad şəkildə ifadə olunmuş künc həlli ilə həcm və məkan kompozisiyası maraq təşkil edir. Fasadların zəngin plastikası, yumru heykəltəraşlıq əsərinin elementləri və yerli memarlığın konstruktiv xüsusiyyətləri ilə uyğunlaşan proporsional hissələr bu binanı memarlıq abidələri ilə bir sıraya qoyur.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **63,** Kanni-Tapinskaya (S.Əsgərova) küçəsinin tini. İsa-bəy Hacınskinin 1899-cu ildə tikilmiş ikimərtəbəli gəlir gətirən evi. Şəhərin yüksək nöqtələrində nəhəng sahəni əhatə edir. Fasadların rum-qotik üslubi istiqaməti erkerlərin uğurlu yerləşməsi, pəncərə yerlərinin dolğun haşiyəli ritmi və daş üzərində detalların virtioz işlənməsi ilə qeyd edilir. Bu yaşayış evi memarlıq abidəsi kimi şəhərin ən yaxşı binalarının sayına daxildir.

**Bolşaya Morskaya** (Bülbül prospekti), **65,** Donskoy döngəsinin küncü. Yanğın komandasının binası, 1899-cu ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən tikilib. Tarixi mərkəzin strukturuna ayrılmaz şəkildə daxil olan mülki memarlıq tikililərindən biridir. Həcm və məkan kompozisiyası, arxitektur kütlənin yeni məzmunda gözəl izahı, səmərəli ifadə edilmiş formalar binanın memarlıq abidəsi kimi yerini müəyyən etmişdir.

**Bondarnaya** (Ş.Bədəlbəyli), **21,** (1910-cu il). Məlikovların yaşayış evi şəhərin tarixi məhəllələrinin adi tikildiyi yerdə yerləşir, lakin öz həcmi və arxitektur kompozisiyası ilə Bakıda XX əsrin əvvəllərində tikilmiş maraqlı tikililər sırasına aiddir. Fasad kompozisiyasının tikilmə prinsipində klassik üslub və formalardan istifadə olunub, lakin onun strukturuna xarakter detallarla modern elementləri aktiv olaraq daxil edilib. Fasadın kompozisiyasında klassik üsulların və modern elementlərinin uyğunlaşdırılması binanın emosional əhvalını heç də azaltmır, xüsusən də iki üslubi sistemin arxitektur və dekorativ motivlərinin birləşdirici əsası fasad üçün möhtəşəm naxış materialı olan əhəngdaşıdırsa. Eklektika günbəz və erkerlə mərkəzi ox ilə qeyd edilən estetik cəhətdən effektiv fasadın yaradılmasına maneəçilik törətməyib; fasad müxtəlif arxitektur elementlərlə ifadə olunmuş həcmli plastika ilə doldurulub. Yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Yuxarı Dağlı** (Abdulla Şaiq), **14 küçəsi.** Bakının maraqlı ibadət tikililərinə şəhərin yuxarı hissəsində, Poçtovaya 32



küçəsinin tinində tikilən Həşim məscidini (memar A.V.Eyxler, 1899-1909-cu illər) aid etmək olar. Bu nümunə əsasında ibadət tikililərinin memarlıq üslubunun yaşayış məhəllələrinin adi tikintisinə, ətraf mühitin həcm və məkan strukturunun dəyişməsinə olan təsirini və şəhərdə tikintinin xarakter siluetinin yaranmasını izləmək olar.

Həşim məscidi küçələrin qırmızı xəttindən bir qədər uzaqda yerləşir və ətrafına hündür hasar çəkilib. Darvazadan içəri daxil olduqda gələn insan ox üzrə uzadılmış proporsiya portalı yerləşən həyətin ensiz sahəsinə düşür. Portalın arxasınca ox ilə mehrabla bitən zalın üç sipərli planlaşdırılmış strukturu açılan vestibül gəlir. Özəklərin günbəzlərini daşıyan tağların profili ənənəvi olaraq çatmadır. Bu cür memarlıq-planlaşdırma sistemi müzakirə edilən dövrdə məscidlər üçün klassik sistemə çevrilmişdi. Mərkəzi sipərin axırıncıdan qabaqkı köndələn tağların aşırımı ilə kəsişməsində sütunların üzərindəki tağların sakit ritminə, məscidin daxili sahəsinə dinamika qatan günbəzlə bərabər ucalır. Günbəz ibadət zalının kompozisiyasının təzahür olmağa və eyni zamanda küçəyə öz həcmi və silueti ilə "işləməyə" məcbur edərək arxitektur formaların müəyyən hissəsini pozur.

Həşim məscidinin binasının həm planının, həm ümumi kompozisiyasının həlli plastikdir.

Məscidin ümumi fonunda lociyaların tağ yerlərinin iri formalarında açılmış bütövlüklə şəhərə yönəldilmiş və sahənin relyefi sayəsində sanki hündür stilobat üzərində olan şərq fasadı maraqlı görünür.



*Yuxarı Dağlı küç., 14. Şəhərin şimal-şərq hissəsinin panoramasının fonunda Həşimov məscidinin ümumi görünüşü. Memar A.V. Eyxler. 1899-1909-cu illər.*



*Yuxarı Dağlı küç., 14. Poçtovaya küçəsindən Həşimov məscidi.*



*Yuxarı Dağlı küç., 14. Həşimov məscidinin binasının fraqmenti.*



*Yuxarı Dağlı küç., 14. Həşimov məscidinin ümumi görünüşü.*

Cənubda isə məscidin arxitektur kompozisiyasını Bakı-Abşeron regionunda digər məscidlərin minarələrinin memarlığı ilə oxşar cəhətlərə malik olan, lakin özünəməxsusluğunu qoruyub saxlayan zərif şəkilli minarənin nazikləşən şaquli xətti tamamlayır.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi). Meridional istiqamətdədir, 1880-ci illərdə yaranıb, lakin əsaslı tikintisi əsasən XX əsrin əvvəllərinə aiddir.

Bu Təzə-Pirin ərazisidir, burada hələ XVIII əsrdə saray, karvansara və eyni adlı məscid var idi. Sonunculardan 1905-1914-cü illərdə tikilən Təzə-Pir monumental Came məscidi (mülki mühəndis Z.-b.Əhmədbəyov) ərazisindən başqa artıq heç nə qalmayıb. Küçədə azad şərhə malik klassik formada yaşayış evləri tikilib.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), 15, dalan 1 tini, ev 5 (1904-cü il). Yaşayış evi, Təzə-Pir məscidinin ərazisində yerli milli memarlığın xüsusiyyətlərini əks etdirən ifadəli arxitektur kompozisiyaya, gözəl həcm və məkan strukturuna malik tək ev uslublu bəzi binalardan biridir. Bu uslubda yaşayış evləri milli sənətkarların memarlığa öz görmə, zövq və üslublarını qoyarkən onların bu işdə mühüm dərəcədə iştiraklarının nümunələridir. Bu zaman daha da azad, sərbəst, soyuq professionalizmdən uzaq həll meydana çıxır. Bu evdə zəngin ahəngdarlıq, maraqlı arxitektur detallar və fasadın divarlarının hörülməsində yüksək keyfiyyət izlənilir. Bu yaşayış evi milli irsin bir hissəsi və memarlıq abidəsidir.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **58** (1901-ci il), **60** (1903-cü il), **61** (1900-cü il). Yaşayış evləri tarixi məhəllələr sistemində Təzə-Pir ərazisinin tikilməsini müəyyən edir və Bakının memarlıq irsinin nəfis mühitinin mühüm



*Yuxarı Təzə-pir küç., 28. Təzə-pir məscidi. Əsas fasad. Plan. Bölüm. (Ş.S. Fətullayevə məxsus ölçü və çertyoj).*




elementləridir. Yaşayış evlərinin memarlıq həllinin birliyinə baxmayaraq, onlardan hər biri öz fasadının traktovkası, kompozisiya üsulları və əhəngdaşından əla çəkilmiş detalları ilə müəyyən individual hissə təşkil edir. Məhəllələrin tikilməsində onlar dövrün irsinin bir hissəsini təşkil edərək öz estetik funksiyasını daşıyır, şəhərin bədii cəhətdən qiymətli binaları üçün mühit yaradır.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **63** (1908-ci il). Yaşayış evi şəhərin tarixi məhəllələrinin sistemində ərazinin arxitektur-planlaşdirma həllində maraqlı nümunə təşkil edir, həcm və məkan traktovkası ilə seçilir. Burada yalnız bədii mühiti deyil, həm də öz tarixi funksiyalarını müəyyən edən öz formoloji xüsusiyyətləri ilə şəhər orqanizminin mikrostrukturu meydandadır; küçədən ön tərəfdən balaca sahə həyət və fasad hissələrinə bölünüb, lakin onlar o dərəcədə üzvi surətdə həll olunub ki, memarlıq sistemi üzrə tam vahid təşkil edir. Fasad həyət sahəsinin üfüqi divanı ilə birləşmiş cinahlardan şaquli həcmlərlə ifadə olunub, fasadın aydın çəkilməsi çox incə və plastikdir, burada memarlıq elementlərinin, daşdan olan detalların səciyyəvi şəkli ilə yerli motivlər üstünlük təşkil edir. Küçənin tikintisində bu yaşayış evi memarlıq abidəsi olaraq öz fiziki ölçüləri ilə deyil, ahəngi və kamera kompozisiyası ilə seçilir.



*Yuxarı Təzə-pir küç., 28. Təzə-pir məscidinin şərq fasadının ümumi görünüşü. Mülki memar Zivər-bəy Əhmədbəyov. 1905-1914-cü illər.*

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **65** (1902-ci il), **67** (1907-ci il). Yaşayış evləri yalnız küçələrin tikilməsinin deyil, həm də tarixi məhəllələrin aktiv elementləridir. Onlar şüşəbəndin (şüşələnmiş qalereya) fasadın ensiz ön hissəsinin memarlıq kompozisiyasının mərkəzi kimi xidmət edən uslubuna aiddir. Şəhər məhəllələrinin strukturunda evlər üstünlük təşkil edir və bu Bakı şəhərinin bədii cəhətdən qiymətli binaları üçün mühitin yaradılmasında onların mahiyyətini müəyyən edib.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **74** (1902-ci il), **75** (1900-cü il), **82** (1900-cü il). Yaşayış evləri öz memarlıq-planlaşdırma həllinin prinsipləri sayəsində irsin bir hissəsini təşkil edən və şəhərin bədii cəhətdən qiymətli binaları üçün mühit yaradan şəhər evlərinin uslubuna aiddir.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **121** (1910-cu il). Hacıyevlərin evi, öz həcm, məkan və bədii həllinə görə yalnız memarlıq kompozisiyası nöqteyi-nəzərindən deyil, həm də bədii element qismində modern şəkilli saxsı lövhələrin istifadəsi aspektindən xüsusi maraq təşkil edir. Fasad simmetriya oxu üzrə rizalitlərlə və günbəzli şüşəbənd ilə

*Yuxarı Təzə-pir küç., 121. Hacıyevlərə məxsus yaşayış evinin şərq fasadının fraqmenti. Girişin detalı.*




121



*Yuxarı Təzə-pir küç., 121. Hacıyevlərə məxsus yaşayış evinin şərq fasadının fraqmenti. Eyvan-şüşəbənd.*

*Yuxarı Təzə-pir küç., 121. Hacıyevlərin yaşayış evinin şərq fasadı. Mülki memar N.Q. Bayev. 1910-cu il.*



nəzərə çarpır. Həcm kompozisiyasına üzlük və arxitektur material kimi saxsı lövhələrdən şüşəbəndin daxil edilməsi Bakının memarlığında mühüm məna daşıyan faktdır. Yaşayış evinin obrazının açılmasında müasir tikinti materiallarının istifadəsi sözsüz ki, şəhərin memarlığı üçün maraqlı və müsbət hadisədir. Fasadın kompozisiyası sifariş sistemi şəklində, lakin daha da sərbəst sınma şəklində yerinə yetirilib və şüşəbəndlə birgə tam formoloji struktur təşkil edir və bu bədii fenomen kimi onun qiymətləndirilməsi üçün vacibdir. İnteryer zövqlə yerinə yetirilib, həm pilləkən qəfəsində, həm ön yerlərdə divar naxışlarından istifadə edilib. Mavritan üslubunda ilkin layihə mülki mühəndis N.Q.Bayev tərəfindən tərtib edilmişdi, lakin bu layihə həyata keçirilməmişdi. Bu yaşayış evi irsin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Yuxarı Təzə-Pir küçəsi** (Mustafa Sübhi), **171** (1902-ci il). İki mərtəbəli tək ev uslublu yaşayış evi, küçənin strukturunda isə əsas yerlərdən birini tutur. Burada sifariş sisteminin klassik üslubları geniş, lakin Bakı memarlığının xarakterinin əsasına qoyulan daha da sərbəst interpretasiyada təqdim olunub. Raskrepovka və attikalı karnizlər kimi şaquli və üfüqi hissələr əla ifadə olunub. Daş kronşteynlərlə fasadın bütün ön tərəfi boyunca bütöv eyvan formasında olan ikinci mərtəbə maraqlı həll olunub. Onlar şir heykəlləri şəklində konstruktiv elementlər kimi daxil olub. Onların ekspressiv şəkli dinamika və qüvvə ifadə edir. Bu heykəltəraşlıq

*Yuxarı Təzə-pir küç., 121. Hacıyevlərin yaşayış evinin giriş qapısı.*

kompozisiyasında olan yaşayış evi çox plastik bir aksent alıb. Burada memarlıq kütləsinin sərbəst ifadəsi tarixi məhəllələr strukturunda yeni səslənmə əldə edib, yaşayış evi isə milli memarlıq abidələrinin sırasına daxil olub.

**Yuxarı Priyutskaya küçəsi** (Ş.Əzizbəyov), **44.** Hacıyevin yaşayış evi, küçənin adi heç nə ilə fərqlənməyən tikintisi arasında modern üslubunda ifadə edilmiş hündür arxitektur və gözəl əlamətlərlə seçilir. Binanın assimetrik həcm və məkan kompozisiyası çox maraqlıdır: bədii plastik traktovka qazanan kronşteynli daş erkerlər əsas elementdir, fasadın hissələrinin klassik əsasda tikilməsinə baxmayaraq fasad üzərində plastika nəzakətlə öz yerini tutub, detalların şəkli daş üzərində xüsusi naxış dünyasını açır.



*Yuxarı Təzə-pir küç., 171. Yaşayış evi. Eyvanın kronşteyni.*



*Yuxarı Təzə-pir küç., 171. Yaşayış evinin şərq fasadı. 1902-ci il.*



*Vorontsovskaya küçəsinin planı.*

Yaşayış evi tarixi irsin ayrılmaz hissəsi və özünəməxsus Bakı moderninin memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), əvvəli – "Parapet" bağçasından (Fəvvarələr meydanı) və 1-ci Kanni-Tapinskaya (Salatın Əsgərova küçəsi) küçəsinədək şimal istiqamətində inkişaf edir. Küçənin əsaslı şəkildə əsasən iki, üçmərtəbəli evlərlə tikintisi 1870-ci illərdən etibarən möhkəmlənib və 1910-cu illərədək davam edib. Memarlıq nöqteyi-nəzərindən inkişaf etmiş üslublu binalar 1880-ci illərdən etibarən sifariş sistemi üslubunda Bakı əhəngdaşının nəfis xüsusiyyətlərini istifadə edərək klassik üsullarla təqdim edilib. Küçənin strukturuna qotik üslubda 19 saylı yaşayış evi daxildir (memar İ.V.Qoslavskiy, 1895-1897-ci illər), yüksək estetik əlamətlərlə seçilir. Küçənin memarlığına memarlar Məşədi Mirzə Qafar İsmayılovun, N.A. fon der Nonnenin yaşayış evləri daxildir. Küçənin tikilməsində maraqlı memarlıq-planlaşdırma həlli olan Əliyevlərin hamamları, "Fantaziya" (Meylamovların), "Ermitaj" iştirak edir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **4.** Adamovların üçmərtəbəli yaşayış evi (1867-1895-ci illər), ətrafdakı məhəllələrə münasibətdə öz ayrı yerləşməsi ilə tarixi mərkəzin şəhər salma strukturunda bir məhəllənin bütöv bir tamını təşkil etdiyinə görə çox sərfəli yer tutur.Şəhər magistrallarına və bağçaya tərəf yönələn yaşayış evi şəhərin simmetrik tikinti sistemində həcm və məkan həlli ilə üstünlüyə malikdir. Bina fasadsız olması ilə seçilir, hissələrin şaquli olması və üfüqi kürəkciklərin ritmi eyni zamanda müəyyən konstruktiv sistem və arxitektur həll yaradır. Bağçaya tərəf incə plastik elementlərlə, incə detallarla yönələn cənubi fasad daha da ifadəlidir. Fasadın ümumi kompozisiyasına varlı Mantaşevin sifarişi ilə italyan sənətkarının yumru heykəltəraşlıq əsəri uğurla daxil edilib. Möhtəşəm interyerlər XIX-XX əsrin hüdudunda şəhər üçün xarakter olan memarlıq axtarışlarını əks etdirir. Bina Bakının memarlıq irsinin bir hissəsi və memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **5.** Yaşayış evi, keçmiş karvansara. 1880-ci illərdə tikilib, üç küçəyə yönəlib və bu şəhərin tarixi mərkəzinin şəhərsalma sistemində onun mahiyyətini yüksəldir. Bina planlaşdırılması ənənəvi memarlıq üslubları əks etdirən və bədii cəhətdən qiymətli binalar üçün mühit olan şəhərin ayrılmaz hissəsi kimi onun memarlıq-planlaşdırma irsinin ümumi strukturuna daxil olan bəzi ictimai tikililərdən biridir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **6.** Yaşayış evi, 1886-cı ildə tikilib (memar

N.A. fon der Nonne), şəhərin tarixi mərkəzinin memarlıq və məkan strukturunun əsasını təşkil edən tikililərdən biridir. Fasadlarının ifadəli klassik formaları ilə bu ev öz müasir dövrünü müəyyən edir və Bakının XIX əsrin ikinci yarısına aid memarlıq irsinə daxildir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **7.** İki mərtəbəli tində yerləşən yaşayış evi, 1900-cü ildə tikilib və şəhərin şəhərsalma strukturunda mühüm yer tutur. Müəllif sifarişsiz sistemə aid fasadların dəqiq proporsional hissələri, dərin çıxıntılı hörgülər və ifadəli daş detallarla memarlıq üsullarından istifadə edərək yaşayış evinin böyük ifadəliliyinə nail oldu və bu evin kapitalizm dövründə Bakının memarlıq irsində mahiyyətini müəyyən etdi.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **8.** Üçmərtəbəli yaşayış evi, 1896-cı ildə tikilib, yaşayış tikilisi obrazının yüksək tikinti mədəniyyəti, mərtəbələrarası yerlərin proporsiyası, incə klassik profillər və həcm traktovkası ilə seçilən şəhərin mərkəzi məhəllələrinin şəhərsalma sistemində öz individual yerini tutmuş dəqiq arxitektur həllinin nümunəsidir. Bu yaşayış evi tarixi irs və dövrün memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **9.** İki mərtəbəli yaşayış evi 1890-cı ildə tikilmişdir, adi tikintinin ümumi sistemine daxildir, lakin ətrafdakı evlərin memarlığı ilə ayrılmaz surətdə bağlıdır, şəhərin tarixi mərkəzinin ayrılmaz hissəsidir, forştadtın köhnə rayonunun məhəllələrinin iri miqyaslı vahidi kimi xidmət edir və bədii cəhətdən qiymətli binalar üçün mühit yaradır.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **10,** Poçtovaya (S.Tağızadə), 88 tini. Üçmərtəbəli yaşayış evi, 1900-cü ildə tikilib, tində yerləşir və şəhərin tarixi məhəllələrinin şəhərsalma sistemində həcm və məkan mahiyyətli məsuliyyətli funksiya daşıyır. Memarlıq kompozisiyası klassik üslubda, lakin Bakı memarlığının ruhuna cavab verən daha da sərbəst ifadədə yerinə yetirilib. Fasadların divarlarının daş üzlüyü, ikimərtəbəli erkerlərin plastikası və profillənməsi onların yaradıcıları memarın ideyasını bu dərəcədə candan həyata keçirən sənətkar-bənnalara qarşı dərin hörmət yaradır. Dekorativ heykəltəraşlıq əsəri və pəncərələrin sandrikləri, valyutaların yüngül xətləri və fasadın digər elementləri çox incə və zövqlə işlənib. Bina kapitalizm dövrünün memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **11,** Poçtovaya (S.Tağızadə), 86 küçəsinin tini (1900-cü illər). Üçmərtəbəli yaşayış evi, 10 saylı ev kimi məhəllədə küncdə yerləşir və köhnə forştadtın magistralı istiqamətində öz həcm və məkan kompozisiyası ilə yaxşı işləyir. Assimetrik arxitektur kompozisiya həm üfüqi, həm şaquli xətt üzrə kontrast həll ilə tikilib. Daş blokların üzərində dərin çıxıntılı hörgüsü olan aşağı çox plastik olan mərtəbə klassik formaların, pəncərə yerlərinin nazik profilli hissələrinin, daş detallarının və ornamental motivlərin əla yerinə yetirilməsinin nümunəsidir. Girişin gözəl portalı şaquli xətt üzrə binanın bütün kompozisiyasını tarazlaşdıran və zəif ifadə olunmuş karnizlə bitən dəqiq şəkilli ikimərtəbəli erkerlə davam olunub. Bu yaşayış evi şəhərin memarlıq irsinin ayrılmaz hissəsidir və XX əsrin əvvəlinə aid memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **12,** Poçtovaya (S.Tağızadə) küçəsi, 123 tini

(1880-ci illər). Yaşayış evi tində yerləşir və şəhər memarlığının sifariş və sifarişsiz sistemi ilə Avropa memarlığı qanadı altında inkişaf edən tendensiyalarını əks edir. Lakin bu binada sifariş sisteminin prinsipləri daha sərbəst traktovkada yerli şüurda əks olunan tərzdə istifadə olunub. Bu səbəbdən fasadın arxitektur həllinin səciyyəsi özünəməxsus ifadə əldə edir, xüsusən də ona görə ki, yerli tikinti materialı (əhəngdaşı) profillərin aydın çəkilməsində və dekorativ elementlər üzərində əhəmiyyətli iz qoyur. Yaşayış evi arxitektur həllin dəqiqliyi ilə seçilir, lakin həcm və məkan strukturunu açıqlayan plastika özündə estetik tərzin funksiyalarını daşıyır. Bunun sayəsində bina şəhərin tarixi irsində əhəmiyyət qazanır və XIX əsrə aid memarlıq abidələrinin ümumi sisteminə daxil olur.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **13,** Poçtovaya (S. Tağızadə), 121 və Gimnaziçeskaya (Tolstoy), 136 küçələrinin tini (1900-cü il). Məlikovun ikimərtəbəli yaşayış evi, forştadtın tarixi məhəllələrinin memarlıq-planaşdırma həllinin mühüm elementidir.

Bu evdə tikilinin estetik keyfiyyəti üçün böyük əhəmiyyət kəsb edən yeni tikinti materialı olan qırmızı tökmə kərpiclə order sisteminin zəngin plastikasından uğurla istifadə edilmişdir. Əsas fasad rizalit sistemli daş formanın arxitektur kütlələrin ifadəsinin inkişaf etmiş impulsunu verən xüsusi kompozisiya üsulları ilə fərqlənir. Bina klassik formaların həcmi cəhətdən plastik tarazlığı vasitəsilə ətraf mühitlə məkan əlaqəsi yaradır. Fasadın daşdan yonulmuş arxitektur elementlərin relyefliliyi vasitəsilə nail olunmuş fiqurlu forması mükəmməl həll edilərək XX əsrin əvvəllərində memarlığın mürəkkəb inkişaf prosesi şəraitində binanın bədii mahiyyətinin palitrasını

*Vorontsovskaya küç., 13. Məlikovun yaşayış evinin şərq fasadı. 1900-cü illər.*





*Vorontsovskaya küç., 13. Məlikovun yaşayış evinin fasadının fraqmenti.*



*Vorontsovskaya küçəsi, 13. Məlikovun yaşayış evinin fasadının fraqmenti. Ş.S.Fətullayevin rəsmi.*

meydana çıxarır. Hal-hazırda binada M.Ə.Sabir adına kitabxana yerləşir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **15**, Qimnaziyskaya (Tolstoy) küçəsinin tini, 139 (1880-cı il). İkimərtəbəli yaşayış evi forştadtın əsas magistrallarından birinin təşəkkülü və qeyri-order sisteminin üsullarında üslub istiqamətinin formalaşması dövrünə aiddir. Kompozisiya yaşayış evinin arxitektur obrazını yaradan üfüqi hissələri və yonulmamış daşdan hörülmüş cinahların şaquli ritmi ilə fərqlənir. Divar hörgüsünün və arxitektur detalların yüksək mədəniyyətə uyğun yerinə yetirilməsi öz dövrünün tələblərinə və Bakının tarixi inkişafına cavab verir. Ev bədii cəhətdən dəyərli binalar üçün bir mühitdir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **16**, Qimnaziyskaya (Tolstoy) küçəsinin tini, 141 (1890-cı il). Həkim Qarabəyovun yaşayış evi mülk üslublu bina olaraq, tində yerləşir və forştadtın şəhər əhalisinin tələblərinə cavab verən kiçik köhnə məhəllələrin arxitektur-planlaşdırma xüsusiyyətlərinin aşkara çıxarılmasında müəyyən funksiyalar daşıyır. Mülk istər həcmi, istərsə də arxitekturasının səciyyəsi cəhətindən tarixi mərkəzin şəhərsalma sisteminə uğurla daxil olaraq, memarlıq abidəsi kimi irsimizin tərkib hissəsini təşkil edir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **17**, Karantinnaya (H.Aslanov) küçəsinin tini, 44 (1890-cı illər). Üçmərtəbəli yaşayış evi tində yerləşir və həcmli-məkan həllinə görə yalnız tikililərin deyil, həm də magistralın məsul elementi sayılır. Bu yaşayış evi mərtəbələrə ayrılmış hissələri, pəncərə, qapı frontonları və onların ümumi kompozisiya ilə əlaqəsi sayəsində bədii cəhətdən dəyərli binalar üçün mühit kimi çıxış edərək şəhərin tarixi irsində böyük əhəmiyyət kəsb etmişdir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **19**, Karantinnaya (H.Aslanov) küçəsinin tini, (1895-97-ci illər). Məlikovun məhşur arxitektor, mülki mühəndis İ.V.Qoslavskinin layihəsi üzrə inşa edilən üçmərtəbəli yaşayış evi tində yerləşir və alman variantının qotika üslubunda təqdim olunmuşdur. Ox kompozisiyalı əsas fasad balkon və erker ilə vurğulanmış və fiolalı səciyyəvi dik frontonla tamamlanmışdır; mərtəbələrə ayrılmış hissələr, cüt relyefli işlənmiş pəncərələr isə yüksək bədii funksiyalar daşıyır. Pa-



*Vorontsovskaya küçəsi, 19. Məlikovun yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis İ.V.Qoslavskiy. 1895-1897-ci illər. Ş.S.Fətullayevin rəsmi.*

rad pilləkən, parad zallarının interyeri, dəmir şəbəkəli məhəccəri olan parad qapı incəliklə işlənmişdir. Daş detalların qotik formalar ilə nəcibləşdirilmiş plastikası şəhərin sözügedən stil istiqamətində ətraf tikililərin maddi-məkan mühitinin strukturuna memarlıq abidəsi kimi daxil olan yaşayış evinin həcmli kompozisiyasının əsasını təşkil etmişdir (18).

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **20**, Karantinnaya (H.Aslanov) küçəsinin tini, 45, (1880-ci il). Bu yaşayış evi şəhər tikintisinin xarakterini və ritmini müəyyən edən, Bakının şəhərsalma strukturunun əsas elementləri olan tikililərdən biridir.

*Vorontsovskaya küçəsi, 21. Yaşayış evinin fasadının fraqmenti. 1896-cı il.*




Qeyri-order arxitekturası sistemində həll olunmuş bu bina plastik formaları və ifadəli detalları ilə şəhərin tarixi mərkəzinin məhz memarlıq irsinin funksiyalarını daşıyan və kapitalizm dövrü arxitekturasının abidələrindən olan tikililərinin özəyinə daxildir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **21**, (1896-cı il), **23** (1898-ci il). Üçmərtəbəli yaşayış evləri tarixi mərkəzin ritmini və miqyasını müəyyənləşdirərək yalnız məhəllənin deyil, həmçinin küçənin də abadlaşdırılmasında aktiv həcmli-məkan elementləri kimi çıxış edirlər. Klassik formalarda, zəngin fasad detalları ilə inşa edilən yaşayış evləri memarlıq abidələri və tarixi irsin ayrılmaz hissələri kimi şəhər tikintisinin ümumi sistemində əhəmiyyətli rol oynayırlar.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **25**, Aziatskaya (A.O.Quliyev) küçəsinin tini, 73, (1896-cı il). Bu ikimərtəbəli ev şəhərsalmanın klassik sistemin himayəsi altında üslub istiqamətinin müəyyənləşdiyi illərdə inşa edilmişdir, lakin burada XIX əsrin ikinci yarısına xas olan eklektika əlamətlər ilə öz əksini tapmışdır.

Sözügedən yaşayış evi tarixi şəhər tikintisinin əsasını təşkil edən binalardan biridir. O, forştadtın bu hissəsinin demək olar ki, bütünlüklə tikən mühəndis N.A. fon der Nonnenin yaradıcılığına aiddir. Bina öz dövrünün memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **26**, Tserkovnaya (Vidadi) küçəsinin tini, 94, (1886-cı il). Yaşayış evi tində yerləşir və öz həcmi ilə küçə tikintisinin arxitektur mənzərəsinə uğurlu şəkildə daxil olmuşdur. Arxitektur motivlər, daş de-

tallar, pəncərələrin frontonları 1880-ci illərdə, Bakının arxitektur praktikası üçün səciyyəvi hal kimi Avropa arxitekturasına münasibətdə daha sərbəst davranış zamanlarında şəhərin tikintisinin stil istiqamətini əks etdirirdilər. Şəhər arxitekturasının bu dövrü Bakının yaşayış evlərinin üslub xüsusiyyətlərinin inkişafında tarixi məqamı göstərir və özünüifadə meyllərini aşkara çıxarır. Bina tarixi məhəllələrin strukturuna qətiyyətlə daxil olmuşdur və XIX əsrin ikinci yarısına aid memarlıq abidəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **35**, (1890-cı il). Əsaslı şəkildə inşa edilmiş üçmərtəbəli ev maraqlı həcmi-məkan və arxitektur məzmuna malikdir. Tikinti işlərinin yüksək keyfiyyəti, pəncərələrin düzgün seçilmiş proporsiyaları, binanın tinlərinin yonulmamış daşla hörgüsü və nəhayət, klassik üslublu portal şəhərin tarixi irsində bu evin əhəmiyyətini təsdiq edir. Sözügedən ev bədii cəhətdən dəyərli binalar üçün mühit kimi çıxış edir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **36**, Çadrovaya (M.A.Əliyev) küçəsinin tini, 149, (1890-cı il). İki mənzilli birmərtəbəli yaşayış evi fəaliyyəti ilə Bakının planlaşmasında və tikintisində parlaq iz buraxan arxitektor M.K.İsmayılovun yaradıcılığına aiddir. Order sisteminin klassik forma və üsullarından istifadə edən memar nisbətən kiçik evdə parlaq ifadəliliyə və həcmin plastikliyinə nail olmuşdur. Simmetriya oxu üzərində ikitağlı portal və ciddi rəsmli pəncərə yerlərinin ritmi Bakının memarlıq irsinin tərkib hissəsi və memarlıq abidəsi olan yaşayış evinin özünəməxsus arxitektur kompozisiyasını yaratmışlar.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **40**, keçmişdə Terentyevin şərab-araq zavodunun binası (1883-cü il). Mühəndis N.A. fon der Nonnenin layihəsi üzrə tikilən bu bina şəhərin məskunlaşmış hissəsində sənaye tikintisinin azsaylı uğurlu nümunələrindən biridir. Həcmi-məkan kompozisiyasında istehsalat binasının səciyyəvi əlamətləri əks olunmuşdur, hərçənd ki, fasadların arxitektur həllində ümumiləşdirilmiş şəkildə və məharətlə yerinə yetirilmiş klassik üsul və formalardan istifadə edilmişdir. Binanın qülləvari dişli tac kompozisiyası ilə vurğulanmış tin hissəsi orta əsrlərə aid qəsrin fraqmentini xatırladır. Burada Bakı arxitekturası şəraitində romantizmin əlamətləri bəlli olur. Bu binada müəllifin arxitektur formalarda yaşayış arxitekturası üçün fərqli olan yeni bir tikili obrazı tapmaq cəhdi müşahidə olunur. Binanın həcmi şərhindəki monumentallıq şəhərin o zamana aid arxitekturasına xas olan klassik formalarla uyğunlaşdırılmışdır. Bu bina yaşayış məhəllələri çərçivəsində istehsalat obyektinin həllinin maraqlı nümunəsidir və o memarlıq abidəsi olaraq şəhər irsinin ayrılmaz hissəsidir.

**Vorontsovskaya küçəsi** (İ.Səfərli), **49**, Çadrovaya (M.A.Əliyev), 147 və Bazar (H.Hacıyev), 6 küçələrinin tini (1902-ci il). Mülk üslublu ikimərtəbəli bina forştadtın ən köhnə küçələrindən biri olan bu küçənin həcmli-məkan strukturunun təşkilinə ayrılmaz hissə kimi daxil olmuşdur. Bina üç küçəyə baxır və onun müəyyən modern əlamətli arxitekturası elə bil ki, ətraf tikililər arasında bədii obrazının əhəmiyyətini təsbit edir. Fasadın nisbətən sadə fonunda frontal və tin erkerləri şaquli cinahların ritmi ilə yüksək həcmi plastika yaratmaq imkanı verirlər. Fasad kompozisiyasının ümumi




*Vorontsovskaya küçəsi, 49. Yaşayış evinin şərq fasadı. 1902-ci il.*

sisteminə daxil olan daşdan yonulmuş dekorativ forma və elementlər yalnız binanın strukturunu deyil, həm də şəhərin maddi-məkan mühitini zənginləşdirirlər. Bu yaşayış evi memarlıq abidəsi və tarixi irsin bir hissəsidir.

**Vranqelskaya küçəsi** (Ə.Cavad). 1820-ci ildə salınmışdır, ancaq ilk əvvəl birmərtəbəli cazibəsiz yaşayış evləri ilə abadlaşdırılırdı. XIX-XX əsrlərin keçidində bu küçə formalaşaraq mərkəzi küçələrdən birinə çevrilir. Onun aşağı hissəsində şəhərin strukturuna bədii-arxitektur məna verən Aleksandr-Nevski cərgələri (arxitektor A.A.Nikitin, 1911-1913-cü illər), yuxarı hissəsində isə 1898-ci ildə A.Nevski kilsəsi (akad. arxitektorlar R.R.Marfeld) tikildi. Küçənin baş hissəsində 1940-cı illərdə "monolit" yaşayış binası (arxitektor K.İ.Sençixin), diaqonalı üzrə isə 1930-cu illərdə konstruktiv formalarda "Azərnəşr" binası (arxitektor S.Pen) tikilmişdir.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **4** (1909-cu il). Mənzərəli fasad kompozisiyasına malik üçmərtəbəli yaşayış evi "şüşəbənd"inin və ayrı-ayrı detallarının həllində modern əlamətlərilə yerinə yetirilmişdir. Fasadın hissələri və pəncərələrin bəzəyi şəhərin XIX əsrin axırlarında arxitektur inkişafını əks etdirir. Parad pilləkənin qəfəsinin həlli, divar naxışları və interyerin zənginliyi yaşayış evinin şəhərin irsində yerini müəyyən edir.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **6**, Fars (Murtuza Muxtarov), 5, 8, 7 küçəsinin tini (1909-1912-ci illər). Yaşayış evləri tarixi dövrün tikililəri olaraq, öz həcmi və arxitektur kompozisiyaları ilə müəyyən bədii və şəhərsalma funksiyaları daşıyırlar. Çoxsaylı yaşayış və mülki tikinti abidələri olan Bakının estetik simasının əsasını təşkil edən xəzinəyə malik olaraq, onlar şəhərin tarixi məhəllələrinin salınması prosesinə ayrılmaz şəkildə daxil olmuşlar. Yaşayış evləri bədii cəhətdən dəyərli binalar üçün mühit kimi çıxış edir və irsin ayrılmaz hissəsini təşkil edirlər.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **12**, Doktorskiy dalanının tini, 7, Hacınskinin mülkü. Bu mülk 1899-cu ildə Bakı arxitekturası üçün səciyyəvi olan proporsiyalı hissələrin saxlanılması şərti ilə klassik formalarda inşa edilərək küçənin həcmli-məkan strukturunun ümumi sisteminə daxildir. Kompozisiyanın üçoxlu sistemi rizalitlərlə ifadə olunmuş, mərkəzi hissə isə özünəməxsus kartuş ilə vurğulanmışdır. Burada fasadın divarların mürəkkəb çıxıntılı hörgüsü, pəncərə haşiyələri və detalların işlənməsi ilə müəyyənləşən ifadəli plastikası vardır. Təbii daşla üzlənmə də, həmçinin binanın estetik əhəmiyyətinin bir elementidir. Təbii olaraq, bu tikilinin bədii keyfiyyətini suvağa nisbətən xeyli artırır. İrsimizin ayrılmaz hissəsi və memarlıq abidəsi olan bu binanın həm görkəmi, həm də monumentallığı məhz yuxarıda qeyd edilmiş səbəblərdən irəli gəlir.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **14**, Doktorskiy dalanının tini, 6 (1909-cu il). Həcmi və arxitektur şərhi sayəsində üçmərtəbəli yaşayış evi şəhərin tarixi məhəllələrinin sisteminə aktiv bədii vahid kimi daxil olmuşdur. Klassik formalarda inşa olunaraq, öz dövrünü, xüsusilə də Bakı şəhərinin iqlim və məişət şəraitini nəzərə almaqla onun yaşayış tikintisinin xüsusiyyətlərini əks etdirir. Üçoxlu kompozisiya sisteminə malik fasad iki yuxarı mərtəbədə yanlardan binanın ümumi



*Vranqelskaya küçəsi, 14. Yaşayış evinin planı. 1909-cu il. Ş.S.Fətullayevin çertyoju.*



*Vranqelskaya küçəsi, 14. Yaşayış evinin ümumi görünüşü.*

tektonik strukturuna uğurla daxil olan erkerlərlə möhkəmləndirilmişdir. Küçənin tikintisinin formalaşdığı zaman buraya gözəl mənzərə və siluetlik bəxş edən fasadın həcm cəhətdən bu cür həlli üsulu onun müsbət tərəflərini üzə çıxarmışdır. Bu yaşayış evi memarlıq abidəsidir.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **16**, Doktorskiy dalanının tini, 5 (1886-cı il). Tində yerləşən bu ikimərtəbəli yaşayış evi kompozisiyasının monumentallığına görə deyil, arxitektur detallarının zənginliyi sayəsində tarixi məhəllələrin strukturunda öz müəyyən yerini tutur və məkanının məhdudiyyəti, həcmi-məkan siluetinin səciyyəvi həlli ilə fərqlənir. Tinlərin kompozisiyası planda yarımdairəvi balkon və attik valyutları ilə bərkidilmişdir. Binanın obrazının şərhində ona yeni əlamətlər bəxş edən ciddilik və sadəlik müşahidə olunur.

**Vranqelskaya küçəsi** (Ə.Cavad), **19**. 1911-1913-cü illərdə mülki mühəndis A.A.Nikitin tərəfindən inşa edilən keçmiş Aleksandr-Nevski cərgələri XX əsrin əvvəllərində ucaldılan azsaylı mülki tikililərin üslubuna aiddir. Onlar ətraf tikililərin yerli elementlərindən olsalar da, öz arxitektur-planlaşma və konstruktiv xüsusiyyətlərilə modern əlamətli yeni arxitekturanın xassələrini əks etdirirlər. Parallel passajlar formasında inşa edilərək, fasadlarda iri girişin qapı yerləri formasında iki oxla vurğulanmışlar. Fasadın əhəngdaşla və oxra rəngli kərpiclə birgə şaquli və üfüqi hissələrə ayrılması sadə modernin stil üsullarını üzə çıxardı. Eyni zamanda əhəmiyyətli bu mülki tikilinin fasadının şərhində həcmli plastika və müəyyən siluetlik müşahidə olunur ki, bu da onu şəhərin irsinə və memarlıq abidəsinə aid edilməsinə imkan yaratmışdır.



*Gimnaziçeskaya küçəsinin planı.*

**Gimnaziyskaya küçəsi** (Tolstoy). En istiqamətlidir, şəhərin tarixi məhəllələrinin ərazisində yerləşir. Öz başlanğıcını qərbdə Təzə-Pir (Mustafa Sübhi) küçəsindən götürür və V.Morskaya (Bülbül prospekti) küçəsi ilə bitir. Qarışıq xarakterli küçədir: xüsusən kapitalizm dövrünə aid birmərtəbəli evlərdən dördmərtəbəli evlərədək vardır. Stil münasibətində daha çox yerli interpretasiyada order sisteminin klassik üsullarından istifadə edilmişdir ki, bu da küçənin bütövlükdə strukturunda iz buraxmışdır. Küçə tikililəri arasında mülk üslublu binalar üstünlük təşkil edir, arxitekturası ətraf mühiti formalaşdıran plastik forma və üsulların zənginliyi ilə fərqlənir. Sovetlər dövründə küçənin sistemində xüsusi dəyişikliklər baş vermədi, yalnız mərkəzi hissədə küçənin arxitekturasına heç bir şəkildə təsir göstərməyən məktəb və yaşayış evi tikilmişdir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **66** (1880-ci il). Bu yaşayış evi həm kompozisiya həllinə, həm də keyfiyyətinə görə köhnə rayonlardan biri şəhərin tarixi mərkəzi olan Təzə-Pir rayonunun tikintisinin və arxitekturasının xarakterini müəyyən edir. O, şəhərin bu ərazisi üçün səciyyəvi olan mühiti formalaşdıran fon tikilisidir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **74, 76** (1897-ci il). Buranın yaşayış evləri şəhərin bədii cəhətdən dəyərli binaları üçün müəyyən mühit yaradan tikililərə aiddir ki, bu da onların arxitektur keyfiyyətləri və tarixiliyi sayəsində mümkün olmuşdur. Bu yaşayış evləri kompozisiya üsullarının özünəməxsusluğu və arxitektur formalarının şərhi ilə fərqlənir, daşdan yonulmuş gözəl detallara malikdirlər və irsimizin ayrılmaz hissəsidirlər.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **89** (1887-ci il). Bu yaşayış evi xalq memarının yaradıcılığını, onun yerli milli ənənələr prizmasından yeni arxitektur forma və üsulları görmə və dərk etmə qabiliyyətini səciyyələndirən tarixi mərkəzin qiymətli tikililərindən biridir. Bu nisbətən kiçik

ikimərtəbəli evdə həm onun müəllifinin fantaziyası, həm də fasad üzərində yerli və Avropa tərzlərinin vəhdətini yaratmaq qabiliyyəti meydana çıxır. Fasadın ikinci mərtəbədə şaquli cinahlar sistemi və cüt profillənmiş pəncərələr vasitəsilə həlli olduqca plastik və relyefli şəkildə yerinə yetirilmişdir. Üfüqi bölmələr arxitektur kütlələrin ümumi yerləşməsini uğurla formalaşdırır. Ornament detalları və stalaktit üslublu pərvaz da həmçinin, ümumi struktura müvəffəqiyyətlə daxil edilmişdir. Yaşayış evi şəhərin irsinin bir hissəsi və memarlıq abidəsidir. O, xalq memarının yaradıcılığı olduğu üçün qiymətli sayılır.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **93** (1902-ci il). Bu yaşayış evi Bakıda XIX-XX əsrlərin keçidində geniş yayılan yaşayış tikililəri üslubuna aiddir və şəhərin tarixi məhəllələrinin bədii cəhətdən dəyərli binaları üçün mühitin yaradılmasında əhəmiyyətli rolu olmuşdur. Binanı "şüşəbənd"-in bilavasitə iştirakı ilə onun şaquli cinahları və üfüqi bölmələri xarakterizə edir. Stil sistemi klassik üslublar çərçivəsində, lakin onun imkanlarından daha sərbəst istifadə ilə ifadə olunmuşdur. Bina şəhərin arxitektur irsinin bir hissəsidir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **128** (1883-cü il). Bu yaşayış evi tarixi məhəllələrin şəhərin formalaşmasında və inkişafında əsas həcmi və arxitektur element kimi çıxış edən tikililərindən biridir. Fasadın arxitekturası zövqlə həll olunmuşdur ki, bu da bölmələrdə və profillərdə, pəncərə kompozisiyasının şərhində, onların bədii tərtibatında, daşdan yonulmuş detalların işlənməsində özünü göstərir. Bu cür səciyyəli binalardan çox az qalmışdır. Sözügedən ev memarlıq abidəsidir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **131,** Bazar (H.Hacıyev) küçəsinin tini, 1911-ci il. Üçmərtəbəli bu yaşayış

*Gimnaziçeskaya küçəsi, 131. Yaşayış evi. Portalın detalı.*






*Gimnaziçeskaya küçəsi, 131. Yaşayış evinin fasadının fraqmenti. 1911-ci il.*

evi şəhərin tarixi mərkəzinin sıravi məhəllələrinin strukturunda arxitektur həllin maraqlı nümunəsini nümayiş etdirir. Təəssüf ki, dar küçələrə və kiçik məhəllələrə malik mərkəzin planlaşma kompozisiyası bu və ya digər tikilinin bədii özünəməxsusluğunu tamlıqla ifadəsinə imkan vermir, hərçənd ki, bu tikililərdə böyük emosional yüklülük vardır. Bu cür tikililərə monumental həcmə, Bakı moderni stilində ciddi, amma ifadəli fasada malik 131 nömrəli ev aiddir ki, bu da onun bədii əsər kimi arxitektur dəyərinin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən çox vacibdir. Burada yerli tikinti sənətinin nəzərə alınması şərtilə, ciddi modern prinsipləri məhz Bakı moderninin xüsusiyyətlərini müəyyənləşdirən müsbət yeni keyfiyyəti üzə çıxardılar. Qeyd edək ki, bu modernə Bakı arxitekturasında unikal bir hal kimi yanaşmaq lazımdır. Onun mahiyyəti bu stil istiqamətində adi fasad tikintisi çərçivəsi hüdudlarından çıxır. Genişləndirilmiş fasad şaquli bölmələr ritmi ilə kompozisiyanın üçoxlu sistemini müəyyən etdi. Düzgün proporsiyalara əsaslanan və hər hansı haşiyədən azad pəncərə proyomları şərhinin ciddiliyi, üfüqi bölmələrin nisbətən kiçik profilləri və girişin kifayət qədər məzmunlu portalı fasad strukturunun ümumi inkişafını müəyyənləşdirdilər. Yaşayış evi Bakı moderninin ən yaxşı nümunələrinə aid edilir, irsimizin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **151** (1901-ci il), **153** (1903-cü il), **155** (1900-cü il). Yaşayış evləri fasadlarının ciddi və ifadəli formaları, divarlarının "ağlay" daş bloklarla üzlənməsinin yüksək keyfiyyəti, ifadəli detalları, profillənmiş haşiyəli pəncərə proyomlarının ritmi ilə şəhərin tarixi məhəlləsinin arxitektur-planlaşma strukturunda daimi yer tutmuşlar. Parad pilləkən qəfəslərinin və yaşayış otaqlarının interyerləri daha aşkar və zəngin şəkildə təqdim edilmişdir. Burada plafonların lepkası və heykəltəraşlıq yaşayış mühitinin bədii palitrasını formalaşdırır. Yaşayış evləri memarlıq abidələri olaraq, vahid sistem yaratmışlar.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **156,** Qoqol küçəsinin tini, 7. Mülki mühəndis N.A. fon der Nonne tərəfindən 1897-ci ildə inşa edilən bu yaşayış evi öz klassik formaları, divarların mərtəbə-mərtəbə çıxıntılı hörgüsü fonunda əsas arxitektur elementlərin yerləşdirilməsi ilə seçilir. Fasadın dominant mövqe tutan üfüqi bölmələrinə ustalıqla işlənmiş zəngin haşiyə və sandrikə malik pəncərə proyomları sistemi daxil edilmişdir. Həcmli plastika burada dominant mövqe tutmuşdur. Həyətin tərtibatı da maraqlı şəkildə həll olunmuşdur - burada birinci mərtəbənin yarımdairəvi tağlarının iri daş formalarına qarşı ikinci mərtəbənin həndəsi şəkilli çərçivələri olan ağacdan şüşəbənd qoyulmuşdur. Maddi mühitin bu cür ziddiyyətli quruluşu qeyri-order sisteminin bədii ifadəsini qazandı. Yaşayış evi irsimizin bir hissəsi və dövrün memarlıq abidəsidir.

**Gimnaziyskaya küçəsi** (Tolstoy), **160,** Artistiçeskaya dalanının tini (1898-ci il). Yaşayış evi toskana variantının daha sərbəst ifadəsilə italyan renessansı üslubunda inşa edilmişdir. Burada birinci mərtəbənin çıxıntılı hörgüsü ilə haşiyələnmiş pəncərə proyomları ritmi ikinci mərtəbənin daha ciddi plastikası ilə təzad yaradır. Enli və uzun balkon-




*Bakının mərkəzi hissəsində Qoqol küçəsinin planı.*

lar cənub yaşayış evinin tikintisində iqlim şəraitinin mahiyyətini təsdiq etdilər. Bina şəhərin arxitektur irsinə daxildir və memarlıq abidəsidir.

**Qoqol küçəsi**. 1850-ci illərdə formalaşmağa və inkişaf etməyə başlamışdır. Sonradan keçmiş Mariinskiy və ya Molokanskiy ***(9 yanvar bağı)*** bağının strukturuna daxil olmuşdur. Bu küçə şimalda Tserkovnaya (Vidadi) küçəsi ilə kəsişməsindən əvvəl düz istiqamətə malikdir, sonra isə məhəllələrin mürəkkəb şəbəkəsinə daxil olaraq, öz düzbucaqlı formasını itirir. Küçə tikililəri yalnız tarixi məhəllələr çərçivəsində əsasən həm fasad, həm də interyerlərinin fərdi ifadəsilə səciyyələnən order arxitekturasının üslub istiqamətini saxlayır. Burada İ.K.Ploşko (16, 20 nömrəli evlər), İ.V.Edel (9 nömrəli ev), İ.V.Qoslavski (28 nömrəli ev) kimi arxitektorların yaradıcılığı təqdim edilmişdir. Sözügedən küçənin bu və digər obyektləri memarlıq abidələridirlər və dövlət tərəfindən qorunurlar.

**Qoqol küçəsi, 3, Torqovaya** (Nizami) küçəsinin tini, **56**. Üçmərtəbəli ya-



*Qoqol küçəsi, 9. Şəmsi Əsədullayevin yaşayış evinin birinci mərtəbəsinin planı. Memar İ.V. Edel. 1896-cı il.*

şayış evi 1890-cı ildə memar İ.V.Edel tərəfindən inşa edilmişdir. Tində yerləşir və mərkəzin tarixi məhəllələrinin şəhərsalma strukturunda aktiv iştirak edir. Arxitektur kompozisiyası qeyri-order sisteminin prinsipləri zəminində qurulmuşdur. Pəncərə yerlərinin ritmi Bakı şəhərinin spesifikasını və iqlim şəraitini əks etdirir. Mərtəbələrin divarlarının çıxıntılı hörgüsü, mərtəbələrarası tyaqaların klassik profilləri, sandriklərin zənginliyi və pəncərə haşiyələri, daş detalların yüksək keyfiyyəti maraqlı bədii kompozisiya yaradır. Bina memarlıq abidəsi sayılır.

*Qoqol küçəsi, 9. Şəmsi Əsədullayevin yaşayış evinin fasadının fraqmenti.*



**Qoqol küçəsi, 4** (1880-ci il). Nisbətən kiçik ikimərtəbəli bu ev keçmiş Mariinskiy bağının tikililərinin ümumi sisteminə daxil olaraq, 1880-ci illərin əvvəllərində Bakıda mövcud olan arxitektura tendensiyalarını əks etdirir. Fasadın ikinci mərtəbədə yarımdairəvi pəncərə ritmi ilə ciddi arxitektur kompozisiyası memarların öz işlərində istifadə etdikləri arxitektur forma və üsulların xüsusiyyətlərini meydana çıxarır. Bu həm fasadın plastikasında, həm də onun modelləşdirilməsində gözə çarpan Avropa arxitekturası tikintisinə daha sadə formada nüfuz etmə dövrü idi. Lakin yaşayış evi tarixi və arxitektur dəyərə malikdir və memarlıq abidəsidir.

**Qoqol küçəsi, 6 və 8** (1907-ci il), **Molokanskaya** (Xəqani) küçəsinin tini, **2** (1890-cı il). Yaşayış evləri keçmiş Mariinskiy bağının tikililərinin tərkib hissəsidir ki, bu da onların həcmli-məkan strukturunu və kompozisiyasını müəyyənləşdirir. Klassik formalar, cənub evlərinin səciyyəsi və müvafiq memarlıq obrazı tarixi irsin ayrılmaz hissəsi və bədii cəhətdən dəyərli binalar üçün mühit olan bu tikililərin mahiyyətinin əsasını təşkil edir.

**Qoqol küçəsi, 9,** Gimnaziyskaya (Tolstoy), 183 və Karantinnaya (H.Aslanov), 84 küçələrinin tini. Öz zamanında "Neft və kerosin kralı" adlandırılan Bakı milyonçusu Şəmsi Əsədullayevin saray üslublu binası 1896-cı ildə arxitektor İ.V.Edel tərəfindən inşa edilmişdir. Bina üç küçəyə baxır və öz monumental fasadı və həcmi ilə tarixi mərkəzin şəhərsalma

*Qoqol küçəsi, 9. Şəmsi Əsədulla-yevin yaşayış evinin cənub-şərqdən ümumi görünüşü.*





*Qoqol küçəsi, 9. Şəmsi Əsədullayevin yaşayış evinin fasadının fraqmenti.*



*Qoqol küçəsi, 9. Şəmsi Əsədullayevin yaşayış evinin fasadının tin həlli. Ş.S.Fətullayevin rəsmi.*



*Qoqol küçəsi, 9. Şəmsi Əsədul-layevin yaşayış evinin fasadının fraqmenti.*



*Qoqol küçəsi, 9. Şəmsi Əsədullayevin yaşayış evinin fasadının detalı.*

sistemində əhəmiyyətli yer tutur. Onun arxitektur həllinin səciyyəvi cəhətini evin vacib hissələrini müvəffəqiyyətlə bərkidən günbəzlə tamamlanmış yarımdairəvi künclər təşkil edir. Ərazinin səmərəli istifadəsi, təmtəraqlı mənzillərin planlaşma üsulları, parad otaqlarının bəzədilməsi ilə interyerin zənginliyi bu binanın əhəmiyyətini müəyyənləşdirir. Binanın arxitekturası klassik formalarda verilmiş, həcmi plastika, mərtəbələrin dərin çıxıntılı hörgüsü fonunda pəncərə proyomlarının ritmi və iri daş kronşteynli çoxsaylı balkonlarla zənginləşdirilmişdir. Bina şəhərin memarlıq abidələrinin sırasına daxildir və arxitektor İ.V.Edelin ən yaxşı işlərindən biridir.

**Qoqol küçəsi, 11,** Aziatskaya (A.O.Quliyev), 126 və Karantinnaya (H.Aslanov), 101 küçələrinin tini (1895-ci il). Üçmərtəbəli yaşayış evi tarixi məhəllələrin çərgəvi tikililəri arasında yerləşmişdir. Həcmli-məkan və arxitektur-planlaşma keyfiyyətlərinə görə bina ətraf mühitlə çox gözəl uyğunlaşmışdır. Fasadın sadə plastikası, arxitektur forma və detalların ciddiliyi şəhərin bədii cəhətdən dəyərli binaları üçün mühit rolunu oynayan bu yaşayış evinin kompozisiyasının ümumi ifadəliliyinə səbəb olur.

**Qoqol küçəsi, 12,** (1911-ci il). Çoxmərtəbəli yaşayış evi şəhər arxitekturasının inkişafı dövründə mənzil tikintisinin ən maraqlı nümunələrindəndir. Əvvəlki, arxitektur detallarla zənginləşdirilmiş fasad yerinə, burada fasad strukturunun həllinə və onun formalaşmasına daha səmərəli yanaşma müşahidə olunur. Yaşayış evinin obraz arxitekturasının estetikasında arxitektur kütlələrin qurulması sistemini bəsit və sadə vasitələrlə həll etmək cəhdi durur. Yaşayış evinin fasadının hamar səthi və uğurlu proporsiyalar seçiminə malik xeyli dərəcədə qarşıya çıxan balkonları ilə birgə nazik haşiyəli pəncərə və qapı yerlərinin ritmi arxitektur və üslub keyfiyyətlərinə görə memarlıq abidəsi olan bu binanın bədii istiqamətini müəyyən etmişlər.

**Qoqol küçəsi, 13,** Kamenistaya (B.Səfəroğlu), 163 və Aziatskaya (A.O.Quliyev), 129 küçələrinin tini (1898-ci il). Yaşayış evi üç küçəyə baxır və klassik formalı monumental fasadları, zəngin plastikası və ifadəli detalları ilə şəhərin tarixi məhəllələrin strukturuna çox gözəl şəkildə daxil olmuşdur. Burada fasad detallarının incəliklə işlənməsi binanın həcmi-məkan kompozisiyası ilə çox gözəl tutuşur. Yaşayış evinin əsas aksentini şüşəbənd uslublu mənzərəli balkon təşkil edir. Binanın bu cür arxitektur kompozisiyası tarixi irsimizin bir hissəsi və memarlıq abidəsi olan bu yaşayış evinin bütün bədii xüsusiyyətlərini üzə çıxarır.

**Qoqol küçəsi, 14,** Torqovaya (Nizami), 58 küçəsinin tini. Üçmərtəbəli yaşayış evinin iki mərtəbəsi 1896-cı ildə arxitektor İ.V.Edel tərəfindən tikilmiş, üçüncü mərtəbə isə 1954-cü ildə əlavə edilmişdir. Tində yerləşir və order sistemində klassik üsullardan istifadə edilərək qurulan fasadı sayəsində ətraf tikililər arasında mühüm rol oynayır. Tikintinin yüksək keyfiyyəti, arxitektur detalların işlənmə mədəniyyəti və həcmi həllinin rizalitlər sayəsində nail olunmuş plastikliyi binanı memarlıq abidələrinə aid etməyə imkan verir.

**Qoqol küçəsi, 15,** Tserkovnaya (Vidadi), 146 və Kamenistaya (B.Səfəroğlu), 197 küçələrinin tini. Balayevlərin dörd-



mərtəbəli yaşayış evi 1912-ci ildə inşa edilmişdir. Binanın həcmli-məkan və stil həlli küçənin estetik təşkilatında mühüm rol oynayır və şəhərsalma münasibətində məsul mövqe tutur. Yaşayış evi ümumilikdə sistemin klassik üsullarının əsası qorunub saxlanılmaqla sadə modern üslubunda inşa edilən azsaylı tikililərdən biridir. Fasad kompozisiyasının həllində arxitektur kütlələrin bölüşdürülməsinə rasional yanaşmanı, element və detalların bacarıqla yerləşdirilməsini və onların bədii funksiyalarının nəzərə alınmasını qeyd etmək olar. Fasadın ciddi plastikası alovlanan modern üslubunda yerinə yetirilmiş ifadəli və çox gözəl işlənmiş detallarla, xüsusilə də parad girişinin detalları ilə uyğunlaşır. Portalın müəyyən kompozisiyasını təşkil edən səciyyəvi axar cizgilərə malik qadın maskası yaşayış evinin bədii əhəmiyyətini artırır. Divarın və arxitektur detalların daşla peşəkarlıqla işlənməsi mükəmməlliklə yerinə yetirilmişdir. Bu yaşayış evi Bakı moderninin ən yaxşı abidələrindən biridir.

**Qoqol küçəsi, 16,** Torqovaya (Nizami), 81 küçəsi və Artistiçeskaya, 1 dalanının tini. Murtuza Muxtarovun gəlmələr üçün dördmərtəbəli evi - üç mərtəbəsi 1896-cı ildə arxitektor İ.V.Edelin layihəsi üzrə inşa edilmiş, dördüncü mərtəbəsi isə 1910-cu ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən əlavə edilmişdir. Tin hissənin günbəzlə qurtaran yarımdairəvi həlli şəhərin tarixi mərkəzinin bu hissəsini çox gözəl tamamlayır və aktiv şəhərsalma elementi qismində çıxış edir. Stil nöqteyi-nəzərindən fasadların arxitekturasında order sisteminin klassik üsullarından istifadə olunmuşdur. Çoxotaqlı rahat mənzilləri, zəngin interyeri ilə fərqlənir. Vurğulanmış rizalitlər, ifadəli üfüqi bölmələr, pəncərələr üzərində bitki ornamentli motivlər, pilyastrlı pəncərə yerlərinin ritmi, metal məhəccərlərə malik uzun daş balkonlar fa-

*Qoqol küçəsi, 15. Balayevin yaşayış evinin fasadı. 1912-ci il. Memar R.Bayramovun çertyoju.*

*Qoqol küçəsi, 16. Murtuza Muxtarovun yaşayış evinin ümumi görünüşü. Memar İ.V.Edel, 1896-cı il; mülki mühəndis İ.K.Ploşko, 1910-cu il.*



sadın mülayim plastikasını müəyyən edirlər. Bu çoxmərtəbəli yaşayış evi şəhərsalmanın xarakterini yaradır və Bakının bədii obrazını formalaşdıran zəruri komponentlərdən biri olaraq memarlıq abidələri sırasına daxildir.

**Qoqol küçəsi, 20,** Gimnaziçeskaya (Tolstoy), 185 küçəsinin tini. Bəylərovların üçmərtəbəli bu yaşayış evi 1908-ci ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmişdir və şüşəbəndlərin mövcudluğu ilə şərtlənən maraqlı həcmli-məkan strukturuna malikdir. Fasadların arxitektur kompozisiyası klassik formalarda qurulmuşdur. Bina bədii obrazının ciddiliyi və ifadəli bölmələri ilə seçilir. Blokların təmiz yonulmuş "ağlay" daşlarından bloklarla hörgüsü və arxitektur detallar mükəmməlliklə yerinə yetirilmişdir. Sözügedən yaşayış evi tarixi irsimizin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Qoqol küçəsi, 22,** Karantinnaya (H.Aslanov), 86, 26 küçəsinin tini, Kamenistaya (B.Səfəroğlu), 170 küçəsinin tini, Aziatskaya (A.O.Quliyev), 131 (1890-cı illər). Bu yaşayış evləri şəhərin mərkəzi məhəllələrinin tarixi və arxitektur simasının formalaşmasında əhəmiyyətli rol oynayırlar, gözəl arxitektur detallara və planlaşma keyfiyyətinə malikdirlər, Bakının XIX-XX əsrlərin keçidində mənzil tikintisi sahəsində müşahidə olunan tendensiyaları əks etdirirlər. Evlər bədii cəhətdən dəyərli olan binalar üçün mühit rolunu oynayırlar.

**Qoqol küçəsi, 28,** Tserkovnaya (Vidadi), 148 və Kamenistaya (B.Səfəroğlu), 189 küçələrinin tini. Teymur bəy Aşurbəyovun zəngin üslublu üçmərtəbəli yaşayış evi 1904-cü ildə mülki mühəndis İ.V.Qoslavski tərəfindən inşa edilmişdir. Xudmani həyət, komfortlu otaqlar, daxili interyerin zənginliyi, pilləkən qə-

*Qoqol küçəsi, 28. Teymur bəy Aşurbəyovun yaşayış evinin fasadı. 1904-cü il. Ş.S.Fətullayevin çertyoju.*



*Qoqol küçəsi, 28. Teymur bəy Aşurbəyovun yaşayış evinin cənub fasadının fraqmenti.*





*Qoqol küçəsi, 28. Teymur bəy Aşurbəyovun yaşayış evinin fasadının fraqmenti.*

fəslərinin həllində divar rəsmlərinin istifadəsilə nail olunmuş təntənəlilik öz zamanında Bakı arxitekturasının aparıcı lideri olan İ.V.Qoslavskinin yaradıcılığı üçün səciyyəvidir. Binanın tinlərinin günbəzlə tamamlanan həcmi ilə vurğulanmış arxitektur kompozisiya tarixi məhəllələrin strukturunda şəhərsalma mövqeyini də həll edir. Üslub cəhətdən ev barokko formalarında inşa edilmişdir, lakin ritm və bölmələr klassik üsulu əks etdirir. Bu saray üslublu bina XX əsrin əvvəllərinə aid memarlıq abidəsi kimi şəhərin ən yaxşı tikililərinə aid edilir.



*Qoqol küçəsi, 28. Teymur bəy Aşurbəyovun yaşayış evinin üçüncü mərtəbəsinin planı. Ş.S.Fətullayevin çertyoju.*



*M.Qorki küçəsinin planı.*

**M.Qorki küçəsi.** 1820-ci illərdə yaradılmışdır, ancaq formalaşmağa 1860-cı illərdən başlamışdır. Əsas hissə "Parapet"dən (indiki Fontanlar bağı) başlayır və Priyutskaya küçəsində başa çatır. O, şəhərin tarixi hissəsinə şimal-cənub istiqamətindən daxil olur və müxtəlif profilli iki və üçmərtəbəli sıravi evlərlə abadlaşdırılsa da, burada dominat element kimi order arxitekturası çıxış edir. Küçə şəhərin strukturunda davamlı yer tutmuşdur, onun nisbətən sakit silueti əhalinin kiçik daxili həyati və yerli profilli arxitekturası olan özünəməxsus mülk üslubunu bəyənən orta təbəqəsinin sosial xarakterini əks etdirir. Tikililər arasında modern arxitektur həllinə malik bir neçə yaşayış evi seçilir.

**M.Qorki küçəsi, 3,** Poçtovaya (S.Tağızadə), 90 və Torqovaya (Nizami), 63 küçələrinin tini (1870-1880). Bu yaşayış evi şəhərin tarixi tikililərinin sisteminə Bakıda neft həyəcanı dövründə forştadtın ən erkən tikililərindən biri kimi daxildir. Onun arxitektur-planlaşma strukturu qeyri-order sistemində arxitekturanın inkişafının erkən dövrünün tendensiyalarını əks etdirir. Fasadların həllinə məlum dərəcədə bu memarlığa yerli sərbəst yanaşma prizmasından keçirilən rus klassisizminin prinsipləri təsir göstərmişdir. Bina tarixi irsimizin ayrılmaz hissəsidir və müəyyən zamanın arxitekturasının inkişafını əks etdirən memarlıq abidəsidir.

**M.Qorki küçəsi, 5,** Poçtovaya (S.Tağızadə), 125 küçəsinin tini (1886-cı il). Yaşayış evi küçədə mühüm binalardan biridir. Onun yerli konstruktiv xüsusiyyətlərlə order sistemi formalarında həll edilmiş həcmli-məkan strukturu şəhərdə peşəkar memarlar meydana çıxdıqdan sonra yaranan tendensiyaları çox aşkar şəkildə əks etdirir. (M.Qorki küçəsinin planı) Lakin onlar order və qeyri-order sistemlərini təsdiq bir nümunə kimi qəbul etmirdilər. Fasadların xarakteri onlara ifadəlilik bəxş edən klassik forma və motivlərin sərbəst şərhi ilə müəyyən edilmişdir ki, bu da arxitekturası formalaşma və inkişaf səviyyəsində olan şəhər üçün müsbət hal idi. Sözügedən yaşayış evi dövrünün səciyyəvi əlamətlərini müvəffəqiyyətlə əks etdirən memarlıq abidəsidir və məşhur Bakı arxitektoru N.A. fon der Nonnenin yaradıcılığına aiddir.

**M.Qorki küçəsi, 6** (1881-ci il). İkimərtəbəli bu yaşayış evi forştadtın aktiv abadlaşdırılması dövründə inşa edilmişdir ki, bu da şəhərin tarixi məhəllələrinin arxitektur-planlaşdırma strukturunu formalaşdırmışdır. Onun görünüşündə Bakı arxitekturasının Avropa stil istiqamətlərinin himayəsi altında formalaşması dövrünün təsiri



əks olunmuşdur. Bina ciddi fasadı, sadə bölmələri və kiçik ölçülü daş detalları ilə seçilir. Lakin yaşayış evinin mahiyyəti sıravi ev inşaatının çərçivəsindən kənara çıxır, çünki tikili şəhərin bədii cəhətdən dəyərli olan binaları üçün mühit rolunu oynayır.

**M.Qorki küçəsi, 7,** Vorontsovskaya (İ.Səfərli), 14 və Gimnaziçeskaya (Tolstoy), 138 küçələrinin tini. İnqilabdan əvvəl binada Bakı şəhər kredit cəmiyyəti yerləşirdi. Yaşayış evi 1896-cı ildə arxitektor A.Varşamov tərəfindən inşa edilmişdir. Onun arxitektur kompozisiyası, şübhəsiz ki, order sisteminin klassik formalarının mənimsənilməsi və təbliğatında konkret bir dövrü müəyyənləşdirir. Burada Bakı şəraitində yaşayış evinin obraz həllinə mənzil planlaşmasının yeni üsullarının və onların sanitar-texniki avadanlıqla təchizatının nəzərə alınması şərtilə fərdi yanaşma müşahidə olunur. İnteryerlərin zənginliyi plafon

*M.Qorki küçəsi, 7. Yaşayış evinin qərb fasadı. 1896-cı il.*



*M.Qorki küçəsi, 7. Yaşayış evinin qərb fasadının fraqmenti.*



*M.Qorki küçəsi, 7. Yaşayış evinin qərb fasadının fraqmenti.*



lepkalarından geniş istifadə ilə, naxışlarla və buxarılarla özünü göstərir. Binanın monumentallığı onun həcmi həlli ilə, vurğulanmış kürsülük hissə ilə, birinci mərtəbənin yonulmamış daşla əsaslı işlənməsilə, həmçinin daha plastik olan ikinci mərtəbənin ümumiləşdirilmiş formaları ilə müəyyənləşir. Zəngin haşiyəli pəncərə proyomlarına malik mərkəzi və tin rizalitləri yaşayış evinin arxitektur obrazına özünəməxsusluq bəxş etmişlər. Daş üzərində əla işlənmiş və yerinə yetirilmiş arxitektur detallarla zənginləşən bu yaşayış evi tək tarixi mərkəzin bədii elementi deyil, həm də memarlıq abidəsidir.

**M.Qorki küçəsi, 10,** Gimnaziçeskaya (Tolstoy), 140 (1909-cu il). Üçmərtəbəli yaşayış evi tin tərəflərdən vurğulanmış həcmiməkan və arxitektur həllə malikdir. Aşağı mərtəbə suvanmışdır və ciddi formaları ilə fərqlənir. Açıq oxra rəngində kərpicdən olan iki yuxarı mərtəbə tin erkerlərin orijinal həllinin modelləşməsində, arxitektur motivlərin işlənməsində, pərvazın ifadəli seçilmiş elementlərində və digər detallarda açıqlanan modern stilində inşa edilmişdir. Yaşayış evi modern stilində incəliklə həll edilmiş ən yaxşı nümunələrdəndir və XX əsrin memarlıq abidəsidir.

**M.Qorki küçəsi, 11,** Karantinnaya (H.Aslanov), 49 küçəsinin tini (1889-cu il). Yaşayış evi şəhərin tarixi mərkəzinin dar küçələrinin və kiçik məhəllələrinin strukturunda küçənin əsas elementlərindən biri kimi çıxış edir. Burada arxitektur kompozisiya prinsiplərdə daha tamlıqla şərh olunur, klassik forma və üsullardan düşüncəli tərzdə, ancaq Bakı şəhərinin yaşayış tələblərinin nəzərə alınması şərtilə istifadə edilir ki, bu da fasadların

arxitekturasında öz əksini tapır. Fasadlar order sistemində üfüqi bölmələrlə, mərtəbələrin yonulmamış daşla dərin işlənməsilə və bu elementlərin məzmununun əhəmiyyətini vurğulayan pəncərə proyomlarının dəqiq çəkilməsilə həll edilmişdir. Birinci mərtəbənin nisbətən sadə olan fasadlarına qarşı klassik antablementli cüt pilyastrlarla, zəngin sandrikli pəncərə yerləri ilə, daş memarlığı ənənələrinə uyğun həll olunmuş arxitektur detallarla vurğulanan yuxarı mərtəbə qoyulmuşdur. Yaşayış evi şəhərin bədii irsinin bir hissəsi və memarlıq abidəsidir.

**M.Qorki küçəsi, 13,** Karantinnaya (H.Aslanov), 47 küçəsinin tini. Çoxmərtəbəli yaşayış evi 1911-ci ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmişdir. Mənzillərinin səmərəli planlaşması ilə fərqlənir. Fasadların şərhi şəhər memarlığının inkişafında divarların dekorativ işlənməsində memarların tikililərin tektonikliyini azaldan xırdalıqlardan imtina etdiyi yeni mərhələni başladır. Burada fasadın ciddiliyi, yuxarı mərtəbələrdə azsaylı üfüqi bölmələrlə erkerlər vasitəsilə nail olunmuş həcmilik modernin şübhəsiz təsirinə dəlalət edir, hərçənd ki, bu tikilinin bədii görünüşündə özünü bir o qədər də büruzə vermir. Fasadın arxitekturası artıq gələcəyə, müasir arxitekturanın inkişafının rasionalistik mərhələsinə yönəlmişdir ki, ba da şəhərin irsində sözügedən evin XX əsrin memarlıq abidəsi qismində əhəmiyyətini müəyyənləşdirir.

**M.Qorki küçəsi, 16,** Karantinnaya (H.Aslanov), 50 küçəsinin tini (1900-cü il). Üçmərtəbəli yaşayış evi küçənin məkan təşkilatında sıravi tikililərin elementi kimi çıxış edir, lakin ciddi formaları, arxitektur bölmələri və əhəngdaşından hörgüsünün keyfiyyəti sayəsində şəhərin tarixi məhəllələrinin arxitektur simasının formalaşmasında aktiv iştirak edir, Bakının bədii cəhətdən dəyərli binaları üçün mühiti müəyyənləşdirir.

**M.Qorki küçəsi, 18,** Karantinnaya (H.Aslanov), 49 və Aziatskaya (A.O.Quliyev), 88 küçələrinin tini (1889-cu il). İkimərtəbəli yaşayış evi rus klassizminin müəyyən təsiri altında, lakin yerli daş memarlığı əlamətlərilə inşa edilmişdir ki, bu da böyük daş su aşırana malik pərvazın işlənməsində, yarus xarakterli kronşteynlərdə və mənzillərin strukturunun daxili planlaşmasında müşahidə

*M.Qorki küçəsi, 10. Yaşayış evinin ümumi görünüşü. 1909-cu il.)*



olunur. Yaşayış evinin arxitekturasının ciddi xarakteri ona küçə məkanında, tarixi məhəllələrin bədii həllində memarlıq abidəsi qismində aktiv yer tutmağa mane olmur.

**M.Qorki küçəsi, 20, Aziatskaya** (A.O.Quliyev), **77 küçəsinin tini** (1900-cü illər). Qeyri-order arxitekturasının ciddi formalarında inşa edimiş otaqların ikicərgəli quruluşu və həyət tərəfdən şüşəbəndi olan bu üçmərtəbəli yaşayış evi yerli iqlim və mədəni-məişət xüsusiyyətlərinə cavab verir. Ona ayrı-ayrı arxitektur detalların əla işlənməsi və fasad divarlarının hörgüsünün yüksək keyfiyyəti xasdır. Ev bədii cəhətdən dəyərli olan binalar üçün mühit kimi çıxış edir.

*M.Qorki küçəsi, 13. Yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis İ.K.Ploşko. 1911-ci il.*



**M.Qorki küçəsi, 25, Suraxanskaya** (Çingiz Mustafayev), **119 küçəsinin tini** (1909-cu il). Birmərtəbəli yaşayış evi tində yerləşir və kiçik ölçülərinə baxmayaraq, arxitekturasında modernin bəzi əlamətlərinə rast gəlinən bu şəhərin mənzil tikintisində maraqlı nümunələrdən biri kimi təqdim olunur. Əsaslı şəkildə tikilmiş, yaxşı işlənmiş əsas fasad yüksək tikinti mədəniyyəti və arxitektur detalları ilə seçilir. Tarixi mərkəzin şəhərsalma strukturunun ümumi sisteminə daxil olaraq, ev bədii cəhətdən dəyərli olan binalar üçün mühit rolunu oynayır.

**M.Qorki küçəsi, 26** (1912-ci il). Üçmərtəbəli yaşayış evi şəhərin tarixi məhəllələrinin strukturunda müəyyən yer tutur, mərkəzin estetik simasının formalaşmasında rol oynayır. Arxitekturasında modernin əlamətləri müşahidə olunan bu binanın fasadları ciddi bölmələrə malikdir. Ev fasadının daş detallarla və "ağlay" uslublu bloklarla yüksək keyfiyyətlə işlənməsi sayəsində üstünlük əldə edir. Bədii cəhətdən dəyərli olan binalar üçün mühit rolunu oynayır.

**M.Qorki küçəsi, 27** (1916-cı il). İkimərtəbəli yaşayış evi küçəni formalaşdıran tikililərdən biri olaraq, onun klassik yönəmli Avropa memarlığının ümumi formalarında üslub istiqamətini müəyyən edir. Böyük ölçülərə malik olaraq, yaşayış evi, əsaslı şəkildə ciddi formalarda tikilmişdir, proyomlarının proporsiyaları

düzgün verilmiş, profillərinin proporsiyaları ifadəlidir. Frontonunda daşdan yonulmuş gerbli ornament motivi olan parad girişinin portalı fasadın ifadəli kompozisiya elementidir. Ev bədii cəhətdən dəyərli olan binalar sırasına daxildir.

**M.Qorki küçəsi, 28, Tserkovnaya** (Vidadi), **96 küçəsinin tini** (1897-ci il). İkimərtəbəli yaşayış evi XIX-XX əsrlərin keçidində geniş yayılmış bina uslublarına aiddir. 1880-cı illərin tikililərindən fasad plastikasının zənginliyi, mərtəbələrin yonulmamış daşla dərindən işlənməsi, arxitektur detallara yüksək diqqət yetirilməsilə fərqlənir. Fasadların həllinə bu cür yanaşma yaradıcılıqlarında əhəngdaşından arxitektur detallardan istifadə edən o zamanın arxitektorları üçün səciyyəvidir. Asan emal olunan tikinti materialı ustaların əllərində skulptur formalara çevrilən əla elementlər yaratmağa imkan verirdi ki, bu da arxitektur kompozisiyalara xüsusi ifadəlilik bəxş edirdi. Bədii cəhətdən dəyərli olan binalar üçün mühiti formalaşdıran bu yaşayış evi məhz bu cür tikililərə aiddir.

**M.Qorki küçəsi, 32** (1901-ci il). İkimərtəbəli yaşayış evi, eninə görə kiçik olan fasad yerli iqlim şəraiti nəzərə alınmaqla Bakıda geniş yayılan tendensiyaları əks etdirərək qeyri-order sisteminin əsas prinsiplərini qoruyub saxlayır. Memarlıq abidəsidir.

**M.Qorki küçəsi, 33, Vorontsovskaya** (İ.Səfərli), **38** və **Bondarnaya** (Ş.Bədəlbəyli), **8 küçələrinin tini.** Abdullayevlərin yaşayış evi 1903-cü ildə inşa edilmişdir. Fasadların arxitekturası klassik formaların vahid sistemində şərh olunmuşdur. Tikintinin yüksək mədəniyyəti, binanın aydın kompozisiyası, fasadların plastikliyi, detalların əla işlənməsi, hörgünün relyefi yaşayış evini memarlıq abidələrinə aid etməyə imkan verir.



*M.Qorki küçəsi, 28. Yaşayış evinin ümumi görünüşü. 1897-ci il.*

(M.Qorki küçəsi, 13. Yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis İ.K.Ploşko.1911-ci il) (M.Qorki küçəsi, 28. Yaşayış evinin ümumi görünüşü. 1897-ci il.) (M.Qorki küçəsi, 34. Yaşayış evinin ümumi görünüşü. 1904-cü il.)

**M.Qorki küçəsi, 34, Suraxanskaya** (Çingiz Mustafayev), **116 küçəsinin tini** (1904-cü il). Üçmərtəbəli yaşayış evi öz həcmli-məkan və arxitektur həlli ilə istər tarixi mərkəzin şəhərsalma sisteminə, istərsə də şəhərin mərkəzi məhəllələrinin bədii strukturuna uyğunlaşmışdır. Fasadların



*M.Qorki küçəsi, 34. Yaşayış evinin ümumi görünüşü. 1904-cü il.*

arxitektur kompozisiyası order sisteminin sərbəst tərzində, lakin klassik üsulların xüsusiyyətlərindən bacarıqla istifadə olunmaqla həll edilmişdir. Birinci mərtəbənin yonulmamış daşla işlənməsinin zəngin plastikası, yuxarı mərtəbələrin proporsional bölmələri, daşdan yonulmuş gözəl arxitektur detallar evə özünəməxsusluq bəxş edir. Yaşayış evi ətraf tikililərə memarlıq abidəsi kimi təsir göstərir.

**M.Qorki küçəsi, 36** (1908-ci il), **46** (1900-cü illər), **54** (1900-cü illər), **66** (1908-ci il). Bu yaşayış evləri plastikasının zənginliyi, ifadəli arxitektur detalları ilə fərqlənir və bədii cəhətdən dəyərli olan binalar üçün mühit rolunu oynayırlar.

**Qorçakovskaya** (H.Z.Tağıyev) **küçəsi**. Şəhərin Baş planında 1860-cı illərdə əmələ gəlmiş, formalaşmağa isə XIX-XX əsrlərin keçidində başlamışdır. Onun tikilərək abadlaşması qısa ölçülərinə baxmayaraq, Bakı şəhərinin strukturunda arxitektur səciyyəli yeni səhifə açdı. Burada saray üslublu bank və yaşayış binaları cəmlənmişdir. Onların arasında Şimal bankının binası (№ 3, 1903-1905-ci illər), H.Z.Tağıyevin sarayı (№ 4, 1893-1902-ci illər, mülki mühəndis İ.V.Qoslavski), Ağa Musa Nağıyevin "Yeni Avropa" mehmanxanası (№ 13, 1913-cü il, mülki mühəndis İ.K.Ploşko) vardır. Küçənin həcmi-məkan və arxitektur cəhətdən ifadəli binalarla dolğunluğu, tikintinin yerli memarlıq ənənələrində yüksək mədəniyyəti kapitalizm dövründə Bakının bədii simasında onun yerini müəyyən etdi.

**Qorçakovskaya** (H.Z.Tağıyev), **küçəsi, 3** (1903-1905-ci illər). Peterburq Şimal bankının Bakı bölməsinin və

*Qorçakovskaya küçəsinin sxemi.*





*Qorçakovskaya küçəsi 3. "Şimal bank" binasının cənub fasadı.*


9




həmçinin, şəhərin mərkəzi küçələrinin tinində yerləşən "Rusiya-Asiya bankı"nın keçmiş binası Bakının tarixi mərkəzinin şəhərsalma sistemində aktiv rol oynayırlar. Bakı moderni stilində yüksək arxitektur səviyyədə tikilmiş bu monumental bina böyük tikinti mədəniyyəti ilə fərqlənir. Binanın çox maraqlı tərzdə həll olunmuş qüllәvari bucaq hissəsi və şaquli cinahlarının ritmi onun kompozisiya strukturunun qaməti və həcmi kütlələrinin quruluş məntiqi ilə vurğulanan arxitektur sistemini öncədən müəyyənləşdirdi. Arxitektur element və detalların incəliklə işlənməsi, modernin stil mahiyyətinin düzgün qavranılması binanın bədii həllinin əsasını təşkil etmişdir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **4**, keçmiş H.Z.A.Tağıyev sarayı (indiki Azərbaycan Tarix muzeyi), 1893-1902-ci illərdə mülki mühəndis İ.V.Qoslavski tərəfindən inşa edilmişdir. Bina şəhərin mərkəzi hissəsində bütöv bir məhəlləni əhatə edir. Bina dolğun planlaşdırılmış struktura malikdir. Evlərin ikicərgəli tikilməsi planlaşdırmanın bünövrəsini təşkil edir. İki daxili həyətin ətrafında parad və yaşayış otaqları qruplaşır. Parad hissəsinin ikiyə ayrılmış mərmər pilləkənləri qərb istiqamətinə yönəlmişdir. Parad girişləri, bağlı lociyalı şərq və Avropa xassəli zallar planın kompozisiyasının əsas elementləridir. Şərq zalının interyeri işləmə zənginliyi ilə fərqlənir, üfüqi və şaquli ayrıntılar divar

*Qorçakovskaya küçəsi, 3. Şimal bankının binası. Portalın detalı. 1903-1905-ci illər.*

*Qorçakovskaya küçəsi 3. "Şimal bank"ın binasının künc hissəsi.*



*Mülki memar İ.V. Qoslavskiy. (1865-1904-cü illər).*



*Qorçakovskaya küçəsi 4. H.Z.A. Tağıyev sarayı ətrafında yerləşən inşaatın əsas (baş) planı.*

müstəvilərini nəbatət xüsusiyyətli ornament motivli zəngin ekranlara parçalayır. Dirəklərdən biri mavritaniya orderinin nazik kolonnaları (sütun) üzərində üçtağlı oyuqla bəzədilmişdir. Keçmişdə həmin kolonnanın arxasında Tağıyevin sifarişi ilə yaradılmış K. Ayvazovskinin rəsmi asılmış idi. Həndəsi şəkil elementlərindən yığılma taxta plafon çox maraqlı görünür, Qoslavskinin rəsmlərinə əsasən kabinet, yeməkxana, qonaq otağı və digər otaqlar palıd ağacından zövqlü şəkildə düzəldilmiş parketlərlə işlənilmişdir. Əsas simmetrik fasad öz həllini italyan intibahının təmtəraqlı formalarında tapmışdır. Şəhərsalmada məsul pozisiyaya malik binaya dəqiq mərtəbə bölgüsü, divarların dərin çıxıntılı hörgüsü və memarlıq plastikasının zənginliyi xasdır. Saray - Qoslavskinin ən yaxşı işlərindən biri və memarlıq abidəsidir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **5** (1890-cı il). Cavad Quliyevin ikimərtəbəli yaşayış evi klassik formada inşa edilib, onun gözəl memarlıq kompozisiyası Bakının üslubi yönünə uyğun gəlir. Bina fasadın zəngin plastikası, giriş hissəsinin yüngül raskrepovkası, pəncərələrin yarımpərgar ritmi, eyvanların heyrətamiz daş kronşteynləri, millərin nazik şaquli şəkildə ayrılması və güzgü-şüşəli mağazaların vitrinlərinin dəqiq düzbucaqlı oyuqları ilə fərqlənir. Bu cür yaşayış evi inşaatın yüksək mədəniyyətinin, memarlığın bədii izharının nümunəsi və öz dövrünün abidəsidir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **6.** Burada 1920-ci ilədək "Tiflis zadəgan ərazi bankı" və "Volqo-Kamsk ticarət bankı" yerləşirdi. İkimərtəbəli yaşayış evi 1896-cı ildə Y.Y.Skibinski tərəfindən



*H.Z.A. Tağıyev sarayının qərb fasadının ümumi görünüşü. Mülki memar İ.V. Qoslavskiy. 1893-1902-ci illər.*

*Qorçakovskaya küçəsi 4. H.Z.A. Tağıyev sarayının kartuşu.*




*Qorçakovskaya küçəsi 4. H.Z.A. Tağıyev sarayı. Şərq zalının interyeri.*



inşa edilmiş və Bakının tarixi mərkəzinin əksər tikililəri kimi şəhərin həcmli və memarlıq-planlaşdırma strukturunun əsas elementidir. Bina ordersiz memarlıq sistemində öz həllini tapmış və gözəl çəkilmişdir. O, tarixi irs və memarlıq abidəsi olub Skibinski yaradıcılığında mühüm bir yer tutur.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **7** (1898-ci il). Üçmərtəbəli yaşayış evi roma -qotika formalarında inşa edilmiş, yalnız onun proporsional ayrıntıları klassik sistemə uyğun saxlanılmışdır. Uzun şəkilli yan raskrepovkalar, erkerlə bərkidilmiş mərkəzi ox kompozisiyası, kronşteynli ağır daş eyvanlar fasadın fərdilik daşıyan həcmli plastikasını üzə çıxarır. Daş detalların əla tərtibi, heykəltəraşlıq elementlərinin yivlə işlənilməsi, həmçinin eyvanların incə rəsmlərlə işlənilmiş barmaqlıqlarının dekorativ forması xüsusilə diqqətə layiqdir. Həmçinin, qadın fiqurlu incə barelyefləri və yaşayış otaqlarının interyeri ilə parad hissənin pilləkən qəfəsi də çox maraqlı təsvir edilmişdir. Bina tanınmış Bakı memarı İ.V.Qoslavskinin yaradıcılığına məxsusdur. İ.V.Qoslavskinin adı ilə şəhərin yüksək peşəkar memarlıq mədəniyyəti sıx əlaqədədir. Onun bütün inşa etdiyi binalar milli-memarlıq abidələri siyahısına daxil edilib.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **8.** Üçmərtəbəli yaşayış evi 1897-1899-cu illərdə memar Y.Y.Skibinski tərəfindən inşa edilib. Öz klassik forma və maraqlı kompozisiya xüsusiyyəti ilə fərqlənən tikililərə bənzəyir. Xüsusi əhəmiyyət daşıyan mərkəzi-ox raskrepovkası binanın üslub yönünü müəyyən etmişdir. Burada incə profilli və zəngin haşiyəli pəncərə oyuqlarının ahəngi, mərtəbələrdə yonulmamış daşla-



*Qorçakovskaya küçəsi 4. H.Z.A. Tağıyev sarayının cənub fasadı.*



*Qorçakovskaya küçəsi 4. H.Z.A. Tağıyev sarayının parad pilləkənlərinin interyerində istifadə edilən heykəl.*

*Qorçakovskaya küçəsi 5. Cavad Quliyevin yaşayış evi. Plan, fasad. 1890-cı.*




*Qorçakovskaya küçəsi 5. Cavad Quliyevin yaşayış evinin ümumi görünüşü.*





*Qorçakovskaya küçəsi 7. Yaşayış evi. Plan, fasad. 1898-ci il. Ş.S. Fətullayevin çertyoju.*



*Qorçakovskaya küçəsi 7. Yaşayış evinin cənub fasadının fraqmenti.*



*Qorçakovskaya küçəsi 7. Yaşayış evinin cənub fasadının fraqmenti.*

rın məharətlə işlənilməsi yaşayış evinin həcmli plastikasını aşkara çıxardır. Burada memarlıq detallarının daş oymaçılığı ələlxüsus giriş portalında qabarıq şəkildə meydana çıxır. Memar Skibinskinin yaradıcılığında bu yaşayış evi əhəmiyyətli yer tutur və şəhərin XIX-XX əsr kəsiyində inşa edilmiş memarlıq abidəsidir.

**Qorçakovskaya** (H.Z.A. Tağıyev), **10** (1896). Üçmərtəbəli yaşayış evinin inşası iki mərhələdə həyata keçirilib: ilkin iki mərtəbə 1896-cı ildə, üçüncü mərtəbə isə 1961-ci ildə. Fasad klassik formada nümayiş etdirilib. Pəncərə oyuqlarının və yastı pilyastrlı incə profilləşmiş frontonların ahənginin həllində italyan intibahının zəngin imkanlarından məharətlə istifadə edilib. Metoplu və triqlifli klassik karniz də həmin üslubda öz həllini tapıb. Daş detalların emal səciyyəsinə çox böyük diqqət yetirilib. Fasadın yastı olması ilə yanaşı yaşayış evinin bədii surətinin üzə çıxmasında eyvanlardan geniş şəkildə istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu yaşayış evi - tarixi irsin ayrılmaz bir hissəsi olan memarlıq abidələrindən biridir və kapitalizm dövrü şəhərinin zahiri görünüşünün formalaşmasında öz əsas estetik funksiyalarını daşıyır.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **11**, Baryatinski küç. küncü (A.N.Əlizadə), 9 (1913-1914-cü illər). XX əsrin əvvəllərində çox olmayan inzibati-ictimai tikililərdən biri də "H.Z.A.Tağıyevin tacir bankının" və Sankt-Peterburqun "Beynəlxalq ticarət bankının" keçmiş binasıdır. Şəhərin tarixi məhəllələrinin strukturunda bina əlverişli künc mövqe tutur. O, Bakının mərkəzinin şəhərsalma məğzinə fəal surətdə sirayət edir və sözsüz ki, tarixi mühitin estetik simasının yaranmasında mühüm memarlıq ünsürü kimi xidmət edir. Daş memarlığın ən yaxşı ənənələrinə dayanaraq inşa edilmiş klassik formalı bina onun bədii xüsusiyyətlərini meydana çıxarır. Ənənəvi zalın, parad otaqları və pilləkən qəfəsinin interyeri mülki-memarlıq tikilisi olan binanın daxili hissəsinin maraqlı arxitektur ifadə nümunələrindəndir.




*Qorçakovskaya küçəsi 11. H.Z.A. Tağıyevin tacir bankı"nın və Sankt-Peterburqun "Beynəlxalq ticarət bankın"ın binası. İkinci mərtəbənin planı. 1913-1914-cü illər.*



*Qorçakovskaya küçəsi 11. "H.Z.A. Tağıyevin tacir bankı"nın ümumi görünüşü. 1913-1914-cü illər.*

*Qorçakovskaya küçəsi 11. "H.Z.A. Tağıyevin tacir bankı"nın əməliyyat zalının interyerindən fraqment.*





*Qorçakovskaya küçəsi 11. "H.Z.A. Tağıyevin tacir bankı"nın cənub fasadı.*



*Qorçakovskaya küçəsi 11. "H.Z.A. Tağıyevin tacir bankı"nın cənub fasadından fraqment.*

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **12.** Yaşayış evi 1896-cı ildə memar Y.Y.Skibinski tərəfindən inşa edilib. Bina şəhərin tarixi mərkəzinin ümumi sisteminə daxildir, şəhərin tikilməsinin əsasını təşkil və Bakıda kapitalizm dövrünün yaşayış inşaatını xarakterizə edir. Bu evdə klassik memarlıq əsası daha azad şəkildə bölünmələr, plastik kütlələrin proporsional quruluşu, daş detal və elementlər də öz izharını tapır. Şəhərin bədii simasında aşkar iz qoymuş Skibinski yaradıcılığı burada yaşayış memarlığının özünəməxsus tərzi ilə təqdim olunub. Yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

*Qorçakovskaya küçəsi 13. Musa Nağıyevə məxsus "Yeni Avropa" mehmanxanasının şimal fasadı. Mülki mühəndis İ.K. Ploşko 1913-cü il.*



**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **13,** Kontrolnıy küncü döngə 4. Ən varlı Bakı milyoneri Ağa Musa Nağıyevə məxsus "Yeni Avropa" mehmanxanasının binası 1913-cü ildə m. m. İ.K.Ploşko tərəfindən inşa edilib. Mehmanxana 4 lift, sanitar-texniki avadanlıqlar, buxar isidiciləri, gizli elektrik şəbəkəsi ilə təchiz edilmişdir. Binanın əsas konstruksiyası kimi burada dəmir-betondan (dayaqlar, örtürmələr və s.) geniş istifadə olunub. Liftlər olan hissə və pilləkən qəfəsinin önündə geniş künc vestibül yerləşir. Yastı damın üstündə estradasılı (çıxış etmək üçün səhnə) yay restoranı yerləşirdi. Otaqlar dəhlizin hər iki tərəfində yerləşirdi. Binanın həcmi - eyvanların plastikası və şaquli erkerlərin ahəngi sayəsində uğurlu memarlıq həllini tapmışdır. Birinci mərtəbənin yarımpərgar şəkilli yastı taxçaları və yonulmamış daşla hörülmüş kürəkciklər müəllifin keçmişdə order sisteminə olan meylini büruzə verir.

Burada biz memarlığa tamamilə yeni yanaşmanı, konstruksiya həllinin daha rasional axtarışını görürük. Mehmanxana binasını tam modern üslubuna aid etmək olmaz. Bu gələcək konstruktivizminin şəhərin renessans üslublu tikililərinin fonunda müəyyən bir ifadəliyə malik olmayan özünəməxsus təsiridir. Mehmanxana, əsərləri çoxdan Azərbaycanın memarlıq abidələrinə çevrilmiş inqilabdan əvvəlki Bakı memarlarının parlaq nümayəndəsi - Ploşkonun yaradıcılığında mühüm bir yer tutur və irsin ayrılmaz bir hissəsidir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **14** (1904-cü il). Yaşayış evi öz memarlıq kompozisiyası ilə seçilməsə də, bu cür evlərin inşaatı tarixi mərkəzin ümumi sisteminə



*Qorçakovskaya küçəsi 16-18. Dördüncü mərtəbənin planı və yaşayış evinin kəsiyi. Memar A.Polyakov. 1912-ci il.*

orqanik şəkildə daxildir. Onlar XIX-XX əsr Bakısının memarlıq abidələrinin qızıl fonduna daxil olan bədii-dəyərli binaların mühitini təşkil edir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **17** (1887-ci il). Burada Sovet hakimiyyətindən əvvəl Avstriya-Macarıstan konsulluğu yerləşirdi. İkimərtəbəli yaşayış evi Bakı şəhərinin tarixi mərkəzinin simasının formalaşmağa başladığı zaman inşa edilmiş binalardan biridir və bina onun təkamül inkişafının meydana çıxmasında vacib mərhələ olmuşdur. Bu binada, sonralar unudulmuş (yəni XIX-XX əsrin kəsişməsində) yaşayış bina inşaatı xüsusiyyətləri qorunmuşdur: gözəl yaradılmış yarımpərgarlı tağlarla açıq qalereya üslublu həyət, mənzillərin müstəqil planlaşdırılması, fasadda klassik üsulun taktiki istifadəsi. Yaşayış evi irsin bir hissəsi və XIX əsrin ikinci yarısının memarlıq abidəsidir.

**Qorçakovskaya** (H.Z.A.Tağıyev), **16-18**. Memar A.Polyakov tərəfindən inşa edilmiş dördmərtəbəli evlər, mənzillərin



*Qorçakovskaya küçəsi 16-18. 16 saylı yaşayış evinin qərb fasadından fraqment. Ş.S. Fətullayevin rəsmi.*

*Qorçakovskaya küçəsi 16-18. 16 saylı yaşayış evinin qərb fasadının ümumi görünüşü.*






*Qorçakovskaya küçəsi 16-18. 18 saylı yaşayış evinin qərb fasadının ümumi görünüşü.*



*Qubernskaya-Torqovaya küçəsi 45. Yaşayış evinin ümumi görünüşü. 1880-1890-cı illər.*



*Qubernskaya-Torqovaya küçəsi 47. Yaşayış evinin cənub fasadının fraqmenti. 1890-cı illər.*

daxili təşkili planı üzrə bina vahidlik təşkil edir. Yaşayış evləri ümumi klassik əsaslı modern çalarlarına malik gözəl fasad ilə tarixi məhəllələrin şəhərsalma strukturuna fəal surətdə daxildir. Binalar aydın bədii tərz, həmçinin uğurla istifadə edilmiş plastik fraqmentlər, daşdan olan rövnəq detallar ilə fərqlənir. Şaquli raskrepovkaların təzadlı ahəngi - bir hissədə təmkinli ayrıntılar və incə dekorativ motivlər, digər hissədə isə təraşlanmış erkerlər şəklində olan memarlıq kütlələrinin dinamikası, karnizin əyri xətli rəsmi və çadır uslublu dam örtüyü diqqəti cəlb edir. Eyni zamanda burada zəngin plastika, məharətlə yaradılmış gerblərlə divar müstəvilərinin heykəltəraşlıq əsərləri ilə bəzədilməsi öz yerini tutur. Yaşayış evi - memar Polyakovun ən maraqlı işi və XX əsr memarlığının abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami). Şəhər mərkəzinin bütün tarixi məhəllələrini əhatə edib geniş yönlü və ən uzun küçələrindəndir. Şəhər ərazisinin genişlənməsi ilə tədricən üç mərhələdə tikilmişdir: I mərhələ - forştadtın (şəhər ətrafının) ən "köhnə" məhəllələri yerləşdiyi Vorontsovskiy (İ.Səfərli) və Persidskiy (M.Muxtarov) küçələrinin arası, II mərhələ -Təzə-Pir sahəsi tərəf və III - vağzal tərəf. Hər inşaat mərhələsi tikintini, həcmli-məkan həllinin prinsipləri və üslub izharını səciyyələndirir. Bu mərhələlər öz xüsusiyyətləri ilə fərqlənən küçənin ümumi memarlıq panoramasının yaranmasına səbəb olmuşdur ki, burada da şəhərin siluetində əsas rol oynayan memarlıq-kompozisiya aksenti üstünlük təşkil edirdi. Bütünlüklə inşaat - qarışıq xarakterlidir (xüsusiyyətli): Təzə-Pir rayonunda olan birmərtəbəli binaların yanında əsaslı, üslub cəhətdən yaxşı həll edilmiş üç-dördmərtəbəli yaşayış binaları yerləşir. Köhnə məhəllələr mühitində - birdəfəlik, ikimərtəbəli inşaat əsasən mühəndis N.A. fon der Nonne və memar M.M.Qafar

İsmayılovun layihəsi üzrə inşa edilib. Üçüncü mərhələ inşaatı ümumilikdə XIX-XX əsrin sərhədini əhatə edir ki, bu da ən mühüm bina layihələrinin inşa edildiyi dövrdür: İ.K.Ploşko layihəsinə əsasən - Qubernskaya-Torqovaya (Nizami), 48, Mariinskaya küncü (R.Rza), 23, 93, mülki mühəndis İ.V.Qoslavski layihəsi üzrə - № 115, on ay ərzində mülki mühəndis N.Q.Bayev tərəfindən inşa edilmiş Mayılov teatrı. Sovet dönəmində Krasnovodskaya (S.Vurğun) küçəsinin tinində yaşayış evləri inşa edilmişdir (memarlar S.A.Dadaşov, M.A.Useynov, 1950-ci illər).

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **45** (1890-cı illər). İkimərtəbəli yaşayış evinin bütövlükdə həcmli-məkan və memarlıq-planlaşdırma kompozisiyası renessans motivli yerli element olan "şüşəbənd" üzərində qurulmuş tikililərdən biridir. Fasadın divarı bu şüşəli taxta eyvanın fonudur. Memarlıq formaları burada yarımpərgar şəkilli pəncərələrin ahəngində bədii element kimi işlənilib. Eyvanın plafonunun iri bölmələrində kessonlaşdırma həlli xüsusən diqqəti cəlb edir. Yaşayış evi - irsin bir hissəsi və memarlıq abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **47** (1900-cü illər). Yan rizolitli və pəncərə haşiyələrinin ahəngi ilə üçmərtəbəli yaşayış evi roman memarlığının element və detallarının istifadəsilə klassik üslubun prinsipləri əsasında inşa edilib. Bu, oyuqların haşiyələrində, kolonna və kapitellərin proporsiyalarında vurğulanıb. Ələlxüsus divarların üzlənməsi və memarlıq detallarının xoş, səmimi çalarlarında olan əhəngdaşından istifadə zamanı eklektika binanın bədii dəyərini artırır. İncə xətli rəsmlə bəzədilmiş girişin metal eyvanı heyrətamizdir. Yaşayış evi kapitalizm dövrünün memarlıq abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **52, 54,** (1880-ci illər). İkimərtəbəli yaşayış evləri tarixi məhəllələrin ümumi inşasına və şəhərin aparıcı magistrallarından birinin sisteminə daxildir. Öz memarlıq əlamətlərinə əsasən onlar mükəmməl daş detallı Avropa memarlığı sistemindən istifadə edilmiş tikililərə aid edilir. Yuxarı mərtəbədəki pəncərə oyuqlarının ahəngi ilə şaquli kürəkciklərin və birinci mərtəbədə mağaza vitrinlərinin prinsipi binanın şəhər memarlıq abidəsi üçün fon kimi həcmli həllinin əsasıdır.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **58.** Üçmərtəbəli yaşayış evi iki mərhələyə inşa edilib: ilk iki mərtəbə 1902-ci ildə memar İ.V.Edel tərəfindən inşa edilib, üst mərtəbə isə 1960-cı ildə tikilib. Binanın künc mövqeyi onun həcmli plastika və yan rizalitlərlə vurğulanan həllini əvvəlcədən müəyyən etmişdi. Xarakterik üslublu yaşayış evinin bütün strukturu şaquli bölgü ahəngi və kompozisiya modelləşdirilməsi ilə renessans motivinin klassik əsasında inşa edilib. Antresollu mağazaların iri yarımpərgar şəkilli vitrinlərilə ümumi həcm sxemi, yonulmamış daşın əzəmətli blokları və ikinci mərtəbənin bölgü ahəngi ilə mükəmməlləşdirilən incə cızılmış pəncərələr yüksək estetik funksiya daşıyır. Bu, Edel yaradıcılığında uğurlu işlərdən biri və memarlıq abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **62** (1908-ci il). Asimmetrik fasadlı monumental üçmərtəbəli ev şəhərin tarixi məhəllələrinin bədii simasının formalaşmasında fəal iştirak edir. Binanın üfüqi

*Qubernskaya-Torqovaya küçəsi 93. Ağa Musa Nağıyevə məxsus yaşayış evinin üçüncü mərtəbəsinin planı. Mülki memar İ.K. Ploşko. 1910-cu il. N. Şükürovanın çertyoju.*



həcmdə olduğu təqdirdə raskrepovkanın şaquliliyinin vurğulanması memarlıq kütlələrinin dinamikasını yaratmışdır. Onun klassik formaları uğurlu proporsional, daş detalların işlənilməsi və "ağlay" blokları ilə yüksək keyfiyyətlə üzlənməsi ilə fərqlənir. Yaşayış evi ayrılmaz surətdə həm inşaat sisteminə, həm də memarlıq abidələri sırasına daxil olmuşdur.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **90**, Molokanskaya küçəsi (Xəqani), 45 (1904-cü il). Skobolyov qardaşlarının dəyirmanı şəhərin tarixi mərkəzində qorunub saxlanılan nadir istehsalat tikililərindən biridir. O, öz monumental iri miqyaslı həcmli-məkan həlli ilə ətraf tikililər arasında əsas yer tutur. Nəhəng buxar vərdənəli dəyirmanın binası müvafiq dekorativ işləmələrə məruz qalmışdır. Binanın künc hissəsi frontonlarla vurğulanıb. Divarların hamar malalanmış düz hissələri, beş mərtəbə boyunca rustə edilmiş kürəkciklər ilə ayrılıb. Klassik üslublu karniz profilləri tağ şəkilli frontonlar ilə kəsilir. Pəncərə oyuqlarının

*Qubernskaya-Torqovaya küçəsi 93. Ağa Musa Nağıyevə məxsus yaşayış evinin ümumi görünüşü.*





*Qubernskaya-Torqovaya küçəsi 93. Ağa Musa Nağıyevə məxsus yaşayış evinin fasadından fraqment.*

*Qubernskaya-Torqovaya küçəsi 93. Ağa Musa Nağıyevə məxsus yaşayış evinin fasadından fraqment.*



ahəngi çərçivələrlə haşiyələnib. Burada obyektin konstruktivliyindən irəli gələn özünəməxsus memarlıq üsulu istifadə edilmişdir. Dəyirman memarlıq abidələri sırasına daxildir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **93.** Mülki mühəndis Ploşko tərəfindən 1908-1910-cu illərdə inşa edilmiş Ağa Musa Nağıyevin keçmiş gəlir gətirən evi. Bina şəhər inşaatının miqyasını, küçənin memarlıq həllinin səciyyəsini təyin edən və əhəmiyyətli estetik yük daşıyan çoxmərtəbəli tikililərə məxsusdur. Bakı moderni üslubunda icra edilib, yan raskrepovkalara ayrılıb və dekorativ plastika ilə dolğun qoşa pəncərə oyuqlarına bölünüb. Fasadın inşaat strukturu, əsas memarlıq kütlələri və bədii elementlərin bölgüsü bu monumental binanın mahiyyətini meydana çıxarır. Evin dörd küncündə üç marşlı pilləkənlərin yerləşdirilməsilə planlaşdırma həlli, həmçinin mənzillərin interyeri diqqəti çəkir. Yaşayış evi - Ploşko tərəfindən yaradılmış kompleksin əsas elementlərindən biridir ki, bu da onun yaradıcılığında mühüm yer tutur və bu üslub yönünün Bakıda olan memarlıq abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **95.** M.F.Axundov adına Opera və Balet Teatrı mülki mühəndis N.Q.Bayevin layihəsi əsasında Mayılov qardaşları tərəfindən on ay ərzində (1910-1911-ci illər) inşa edilib. Binanın memarlıq həlli, ümumi kompozisiyası və həcmli tikilməsi onun məzmununu ifadə edir. Modern və ona məxsus üslublaşdırma fasadın dekorativ işlənməsi və interyerini təyin edir. Bakı şəraitində sement malası ilə



*Qubernskaya-Torqovaya küçəsi 95. Mayılov teatrının ümumi görünüşü. Mülkü memar N.Q. Bayev. 1910-1911-ci illər.*



*Qubernskaya-Torqovaya küçəsi 115. Rus İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin ümumi görünüşü. Mülki mühəndis İ.V. Qoslavskiy. 1899-ci il.*

kərpicin ahəngi üzərində qurulmuş dekor - tikinti materiallarının memarlıq keyfiyyətinin və onların estetik uyumunun özünəməxsus sınağıdır. Fasadın simmetrik kompozisiyası portik-veranda və iki bütöv kiçik flankir qüllələr ilə vurğulanıb. Fasadın həllində şaqulilik kürəkciklərin divar səthində ahəng sayəsində üstünlük təşkil edirdi ki, bu da nəticə etibarilə teatrın memarlıq şərhinin səciyyəsini müəyyənləşdirir. Fasadın mənzərəli kompozisiyası ümumşəkilli həcmli dekorativ elementlərlə zəngindir ki, bu da daha çox kərpic və betonla işlənilmiş modern yönlü üslubu müəyyən edir. Foyenin interyeri və zəngin yapmalı (lepka) tamaşa zalı həm ümumi kompozisiya, həm də detalların işlənmə xarakteri ilə güclü təəssürat yaradır. Bayev yaradıcılığında teatr onun ən yaxşı işi, mədəni irsin bir hissəsi və memarlıq abidəsidir.

**Qubernskaya-Torqovaya küçəsi** (Nizami), **115.** Rus İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin keçmiş binası (indi Neft Akademiyasının korpuslarından biri) 1899-cu ildə mülki mühəndis İ.V.Qoslavski tərəfindən inşa edilib.

Bina künc mövqeyi tutur və plastik formada həll edilmiş haşiyələrin aydın ifadə olunan kompozisiya elementləri və klassik üslublu sandriklər ilə vurğulanan künc rizalitlərilə bəzədilib. Əsas fasadın oxu parad pilləkənlər ilə iki kolonlu portik şəklində olan obyektin memarlıq cəhətdən inkişaf etmiş formasını qoruyub saxlayır. Başqa memarlıq motivlərilə birgə mənzərəli və ifadəli maddi-məkan mühitini təşkil edən yonulmamış divar daşlarının və pəncərə oyuqlarının relyef baxımından həlli məharətlə istifadə edilib.



*Qubernskaya-Torqovaya küçəsi 115. Rus İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi binasının zal interyeri.*

*Qubernskaya-Torqovaya küçəsi 115. Rus İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi binasının cənub fasadında fraqment.*





*Qubernskaya-Torqovaya küçəsi 115. Rus İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi binasının cənub fasadı.*

Klassik ifadə formasının ən geniş aspektdə təsvir edildiyi zal, kitabxanalar, həmçinin və sair otaqlarının interyeri maraq doğurur. Qoslavski yaradıcılığında bina qeyri-adi yer tutur, o - memarlıq abidəsidir.

**Zavedenskaya küçəsi** (B.Sərdarov) tarixi məhəllələr sisteminə daxildir və Nikolayevskaya küçəsində (İstiqlaliyyət) başlayır və Verxnyaya Naqornayada bitir. Küçə uzun olmasa da, memarlıq-planlaşdırma baxımından və həcmli-məkan strukturu ilə çox məzmunludur. Burada məktəb binaları (keçmiş müqəddəs Nina müəssisəsi, indiki № 132, 134 saylı məktəblər), Yuxarı Naqornaya küçəsində isə yaşayış evləri yerləşir. Küçənin tikilməsində məkan mühitinin memarlıq xarakterini müəyyənləşdirən M. M. Q. İsmayılov (№ 2, 1896-cı il), Hacıbəy Axundov (№ 11, 1912-ci il) yaradıcılığı təqdim olunub. Klassikadan modernədək cürbəcür üslub üsulları küçənin panoramasında öz yerlərini tapır və bu binaların fəal dərk edilməsinə səbəb olur.



*Zavedenskaya küçəsinin planı.*



*Kamenistaya küçəsinin planı.*

**Zavedenskaya küçəsi** (B.Sərdarov), **15, 20, 21, 23** (1900-cü illər). Yaşayış evləri həcmli-məkan həlli və klassik formalı fasad kompozisiyalarının şərhi sayəsində, onların daha asan ötürülmə xüsusiyyətləri ilə şəhərin tarixi məhəllələrinin memarlıq-planlaşdırma strukturunda fəal rol oynayırlar. Evlər gözəl daş detallar, mükəmməl "ağlay" bloklarının işlənməsi ilə fərqlənir və şəhər mərkəzinin mühitini formalaşdırırlar.

**Zavedenskaya küçəsi** (B.Sərdarov), **17**, Vaqif küç. küncü. Yaşayış evi 1908-ci ildə inşa edilib, şəhərin tarixi məhəllələrinin planlaşdırma strukturunda əhəmiyyətli mövqe tutur. Binanın memarlıq kompozisiyası formaların sərtliyi və inşaat mədəniyyətinin yüksək səviyyəsi ilə fərqlənir. Ev Bakının bədii-dəyərli binaları üçün bir mühitdir.

**Zavedenskaya küçəsi** (B.Sərdarov), **24**, Y.Naqornaya küncü, 8, Torqovaya (Nizami), 2. Məktəb 1912-ci ildə tikilib, ərazinin relyefini və küçənin sonunu XX əsrin əvvəllərinə xas memarlığın rasional tendensiyası əks olunan öz həcmli-məkan həlli və memarlıq-planlaşdırma kompozisiyası ilə uğurla vurğulayır. Məktəb binasına kompozisiya üsullarının sərtliyi, pilonların şaquli bölüm ahəngi nəticəsində əldə edilən həcmliyi, dekorativliyin yoxluğu xasdır ki, bu da məktəbin Bakı şəraitində öz dövrünün memarlıq abidəsi kimi əhəmiyyətini müəyyənləşdirir.

**Kamenistaya küçəsi** (B.Səfəroğlu). Geniş yönlü küçə çox dar olaraq şəhərin Dağlıq sahəsindən başlayaraq Kaspiyskaya küçəsinə (R.Behbudov) çıxır. O, bütün uzunluğu boyunca bir məscid və bir neçə hamamlar istisna olmaqla yaşayış küçəsidir. Yuxarı hissədə kənd üslublu evlərlə təqdim olunurdusa, mərkəzi məhəllələr sahəsində mərtəbələr çoxalır və tikinti daha əsaslı olur. Binaların memarlığı öz fərdiyyətlərinə malikdir. Burada küçənin bədii simasında əks olunan orderli və ordersiz sistemlərin klassik üsulları istifadə edilib. Eyni zamanda, yaşayış evləri yerli xüsusiyyətləri qoruyaraq eyvanlarla dolğundur ki, bu da binaların həcmli plastikasını zənginləşdirir.

**Kamenistaya** (B.Səfəroğlu), **68, 70, 76, 78,** (1898-ci il). Yaşayış evləri şəhərin tarixi məhəllələrinin sıra inşaatında yerləşirlər. Burada klassik formanın ordersiz sistemdən azad istifadə olunub və xalq ustalarının birbaşa iştirakı üslublu Bakı binalarının özünəməxsus memarlıq şərhini yaradıb. Təbii ki, bu Bakıda memarlıq yaşayış evlərinin xüsusi növünün formalaşmasında tikililərin əhəmiyyətini müəyyənləşdirir. Evlər - bədii-dəyərli binalar üçün mühitdirlər.



**Kamenistaya** (B.Səfəroğlu), **83,** (1880-ci illər). Yaşayış evi - o dövrün şəhərsalmasına səciyyəvi tikilidir. O, plastikliyin və klassik elementlərin işlənilməsinin daha çox ifadə azadlığı ilə fərqlənir, çünki onun yaranmasında iştirak edən ustalar öz ənənəvi evtikmə bacarıqlarını burada istifadə edirlər. Ev - şəhərin bədii-dəyərli binalar mühitinin yaranmasında fəal rol oynayır.

**Kamenistaya** (B.Səfəroğlu), **84,** Persidskaya küçəsinin küncü (M.Muxtarov), 34. Aslan bəy Hacınskinin monumental üçmərtəbəli yaşayış evi 1908-ci ildə inşa edilib. Bina yerli mədəni fenomenin bədii mühitinin yaranması zamanı öz memarlıq qanunauyğunluğuna malik olan yeni Avropa elementlərilə qarşılaşdığı dövrdə yaradılıb. Yaşayış evi məhz bu növ tikilidir. Onun fasadında klassik rust (yonulmamış daş) yerli elementlərlə uzlaşır və pəncərə oyuqlarının ahəngi ilə mükəmməl divar hörümünün fonunda rövnəq daş detallar və məharətlə yonulmuş heykəltəraşlıq motivləri nəzərə çarpır. Yaşayış evi şəhərin memarlıq abidələrinin ümumi sisteminə daxildir və onun tarixi irsinin bir hissəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **90, 93, 95** (1890-cı illər). Kiçik ikimərtəbəli yaşayış evləri küçənin tikilməsinə və şəhərin tarixi məhəllələrinin strukturuna möhkəm şəkildə daxil olublar. Onlar diqqəti öz kamerallığı, memarlıq dekorunun təmkinliliyi və hamar fasad divarlarının fonunda uğurla yerləşdirilmiş ornament elementləri ilə cəlb edirlər. Yaşayış evləri bədii-dəyərli binalar üçün yararlı mühitdir.

**Kamenistaya** (B.Səfəroğlu), **102.** Babayevlərin yaşayış evi 1899-cu ildə inşa edilib, imarət üslublu tikililərə aiddir. O, ordersiz sistemin klassik formaları, fasadın zəngin plastikası, otaqların və pilləkən qəfəsinin naxışlı interyerinin maraqlı memarlıq kompozisiyası ilə fərqlənir. Burada mərtəbələrarası karnizlərin üfüqi şəkildə bölünməsi, iri daş bloklarından hazırlanmış dərin profilləşmiş rust (yonulmamış daş), gücləndirilmiş karniz və attikli raskrepovkanın (bərkitmə) şaquliliyi pəncərə oyuqlarının haşiyəli, sandrikli ahəngi əsas yer tutan fasadın memarlıq strukturunu aşkar edir. Həcmli plastikada yaradılan yaşayış evi - irsin bir hissəsi və Bakı şəhəri memarlığının abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **103,** Persidskaya küçəsinin küncü (M.Muxtarov), 38 (1897-ci il). Məscid künc mövqe tutur və ərazi relyefini nəzərə alaraq küçənin tikilməsində fəal element kimi iştirak edir. Yerli memarlıq ənənələrinə uyğun tikilən məscid həm həcmli-məkan kompozisiyası, həm də keramik plitəli günbəz üzərində firuzə rənginin işlənməsi ilə maraq doğurur. Məscid - şəhərin azsay-



*Kamenistaya küçəsi 105. Hacıyeva məxsus yaşayış evinin cənub fasadından fraqment. 1903-ci il.*



*Kamenistaya küçəsi 105. Hacıyeva məxsus yaşayış evinin cənub fasadı. 1903-ci il.*

lı məhəllə üslublu dini tikilisidir və XIX əsrin axırlarının milli memarlığının ümumi abidələr sisteminə daxildir.

**Kamenistaya** (B.Səfəroğlu), **105** (1903-cü il). Hacıyevlərin üçmərtəbəli yaşayış evi memarlıq tərzinin həcmliyi və monumentallığıyla fərqlənir. Avropasayağı mənzərəli şəkildə tikilmiş fasad divarları "ağlay" üslublu blokların qüsursuz hörgüsü ilə uzlaşır. Yerli memarlıq ənənələri ilə klassikaya xas proporsional ayrıntıların burada böyük ustalıqla uzlaşması həm arxitektura, həm də dekorativ detallarda nəzərə çarpır. Şaquli şəkildə vurğulanan asimmetrik-ox kompozisiyası pəncərə oyuqları ahəngilə paralel inkişaf etdirilir. Fasad boyunca çıxarılmış daş kronşteynli eyvanlar uğurlu həcm elementləridir. Yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **119.** Üçmərtəbəli yaşayış evi 1897-ci ildə mülki mühəndis K.B.Skureviç tərəfindən inşa edilib. Künc mövqe tutur və mərtəbəli eyvan sistemilə küncün həlli sayəsində fəal mövqeyə malikdir. Fasadlar plastikdir və Avropanın klassik yönlü memarlığının qəti prinsipləri üzrə şərh edilib. Yaşayış evləri şəhərin bədii-dəyərli binaları üçün yararlı mühitdir.

**Kamenistaya** (B. Səfəroğlu), **130, Vorontsovskaya küçəsi, 24 tini (İ. Səfərli), Qorki, 17, Aziatskaya** (A.O.Quliyev), **75.** Əliyevlər hamamının binası Avropa üslubludur, 1883-cü ildə inşa edilib və demək olar ki, bütün şəhər məhəlləsini əhatə edir. Burada iri gözləmə zalının binanın ortasında, şəxsi otaqların isə, dəhlizin perimetr boyunca yerləşməsi ümumi daxili planlaşdırmada öz maraqlı həllini tapıb. Sərt, amma ifadəli fasadlar raskrepovka sıraları və yarımpərgar şəkilli pəncərə oyuqlarının ahənginə ayrılıb, üfüqi bölümlər dartmalarla təqdim olunub. Bu tikili, həmin növdə olan azsaylı mülki tikililərdəndir və XIX əsrin ikinci yarısının memarlıq abidəsi kimi tanınmağa layiqdir.

**Kamenistaya** (B.Səfəroğlu), **132, 134** (1890-cı illər). Yaşayış evləri XIX-XX əsr sərhədində yaranmış tikili üslubunu təmsil edirlər. Onlar, Bakı memarlığının ordersiz sistem ənənələrinə malik memarlıq kompozisiyası ilə şəhərin tarixi məhəllələrinə uğurlu şəkildə daxildirlər. Yaşayış evləri plastikliyi, memarlıq detallarının zənginliyi ilə fərqlənir və bədii-dəyərli binalar üçün mühitdir.

**Kamenistaya** (B.Səfəroğlu), **136** (1910-cu il). Hənifə Səlimovun çoxmərtəbəli gəlir gətirən evi. Şəhərin tarixi məhəllələrinin salınmasının sıra sisteminə daxildir, yaşayış evlərinin inşaatının formalaşması və inkişafında əhəmiyyətli yer tutur və Bakıda belə tikililərin yeni üslubudur. Fasad öz tərz həllinə görə italyan renessans formasında klassik nümunə kimi təsvir edilib. Yaşayış evinin kompozisiyası həcmli kütlələrin proporsional quruluşu, fasadın rövnəq plastikası, pilyastr və dəbdəbəli sandrik formalı pəncərə haşiyələrinin zəngin ahəngi ilə tamamilə fərqlənir. Ayrılmış fronton daşıyan gerbli korinf orderinin pilyastrlarıyla bəzədilən giriş portalı da maraqlı üsulda həll edilib. Bunların hamısı qabarıq formada cızılıb və daşda rövnəq şəkildə icra edilib. Qar-



*Kamenistaya küçəsi 132. Yaşayış evinin portalı. 1890-cı illər. Ş.S. Fətullayevin rəsmi.*




*Kamenistaya küçəsi 136. Hənifə Səlimovun yaşayış evi. Giriş portalı. 1910-cu il.*



*Kamenistaya küçəsi 136. Hənifə Səlimovun yaşayış evi. Giriş portalından fraqment. Ş.S. Fətullayevin rəsmi.*



*Kamenistaya küçəsi 136. Hənifə Səlimovun yaşayış evi. Şimal fasadın fraqmenti.*



şınızda həmin dövrün yüksək nümunəsi olduğu heç bir şübhə doğurmur. Yaşayış evi nəinki Bakının, həmçinin bütün Azərbaycanın tarixi irsinin ayrılmaz bir hissəsidir və memarlıq abidələrinin ümumi sırasına daxildir.

**Kamenistaya** (B.Səfəroğlu), **138** (1911-ci il). Cəbiyevin çoxmərtəbəli gəlir gətirən evi məkan strukturu və memarlıq modelləşdirilməsinə görə ətraf tikintiyə əhəmiyyətli təsir bağışlayır və Bakının estetik simasına böyük bədii qüvvə bəxş edir. Burada 136 saylı evlə müqayisədə iri pəncərə oyuqları və daş karnizin nəzərə çarpdığı fasadın bəzədilməsində memarlıq kompozisiyası həllinin qətiliyi, rasionallığı daha çoxdur. Bu ev həmçinin memarlıq abidəsidir və Bakı irsinin bir hissəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **147** (1897-ci il), **151** (1886-cı il), **153-155** (1899-cu il), **157** (1897-ci il), **159** (1895-ci il), **161** (1891-ci il). Yaşayış evləri küçənin müəyyən bir hissəsinin kompleks inşaatını təşkil edir, bütöv şəhərsalma kompozisiyası yaradır və bununla məhəllələrin tarixi sistemində ümumi dəyərlərini müəyyənləşdirirlər. Yaşayış evləri şəhərin bədii-dəyərli binaları üçün mühitdir.

**Kamenistaya** (B.Səfəroğlu), **146, 148,** (1898-ci il), **160** (1890-cı illər). Yaşayış evləri, Bakıda XIX-XX əsr kəsiyində bina inşaatı inkişafında müəyyən dövrü təmsil edir. Plastik fasadlar, memarlıq detalları və ahəngdaşıyla keyfiyyətli şəkildə üzlənmiş yaşayış evləri şəhərin tarixi məhəllələrinin bədii-dəyərli binaları üçün gözəl mühit yaradır.

**Kamenistaya** (B.Səfəroğlu), **165** (1913-cü il). Məmməd Sadığa məxsus yaşayış evi memarlıq kütlələri, fasadın kompozisiya sxemi və order sisteminin monumental quruluşu sayəsində küçənin strukturunda öz üstün mövqeyilə fərqlənir.

Bu, modernlə bərabər bol detal və dekorativ motivli klassik memarlıq formalarının istifadə olunduğu dövr idi. Fasad, mükəmməlləşdirilmiş detal və oymanı özündə ayrılmaz şəkildə cəmləşdirən azad memarlıq kompozisiyası kimi nüma-

*Kamenistaya küçəsi 136. Hənifə Səlimovun yaşayış evi. Giriş portalının detalı. Ş.S. Fətullayevin rəsmi.*



*Kamenistaya küçəsi 138. Cəbiyevin yaşayış evi. Giriş portalı. 1911-ci il.*

*Kamenistaya küçəsi 138. Cəbiyevin yaşayış evi. Giriş portalının detalı. Ş.S. Fətullayevin rəsmi.*



*Kamenistaya küçəsi 174. Meylamovun-yaşayış evi. Qərb fasadın fraqmenti. 1899-cu il.*

yiş etdirilir. Fasadın relyefşəkilli olması binaya heykəltəraşlıq, dəqiq müstəvilər isə bir qədər təmkinlilik abu-havası verir. Ev şəhərin tarixi məhəllələri sisteminə əsaslı şəkildə daxil olub və XX əsrin əvvəlinin memarlıq abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **174,** Krasnovodskaya küçəsinin küncü (S.Vurğun), **28** (1899-cu il). Meylamovların üçmərtəbəli yaşayış evi bağçalı kiçik meydanın qarşısında yerləşir. Öz iştirakıyla ətraf tikintinin maddi-məkan mühitinin yaranmasının bədii təməlini qoyur. Memarlıq baxımından yaşayış evi vurğulanmış küncə və plastik şəkildə həll edilmiş fasada malikdir. Üçmərtəbəli yaşayış evinin birinci mərtəbəsi ağır, digər mərtəbələri isə daha yüngül rustovka ilə bölünüb. Klassik üsul və formalar qəbul olunub. Order sistemi mənzərəli şəkildə istifadə edilib. Zəngin sandrikli pəncərə oyuqları - həcmli plastikanın xüsusi formasıdır ki, burada daş detallar heykəltəraşlıq dərəcəsinə çatdırılıb. Parad otaqları və pilləkən qəfəsinin interyeri bədii üsulların memarlıq şərhinə malikdirlər. Yaşayış evi - irsin bir hissəsi və memarlıq abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **176** (1898-ci il). İkimərtəbəli ev imarət üslublu tikililərə aiddir və şəhərin tarixi məhəllələri sistemində bədii rol oynayır. Ev bir qədər azad şəkildə istifadə edilmiş klassik memarlıq prinsipləri əsasında həll edilib. Detallar və rizalitlərin rustikası sayəsində evin fasadı plastik görünüş


26





alıb. Yaşayış evi XIX əsrin sonunun memarlıq abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **203, 205** (1880-ci illər). Yaşayış evləri şəhərin evsalma inkişafının müəyyən mərhələlərindəndir. Onlar irsin bir hissəsi kimi, Bakının tarixi və bədii simasından ayrılmazdır. Binalar çoxlu orijinallıq, zəngin və mənzərəli interyerə malikdirlər. Əlalxüsus, 203 saylı evin mənzillərinin modern və yerli milli memarlıq üslubunda, stalaktit kəmər və həndəsi şəkilli kessonlaşdırılmış plafon vasitəsi ilə təqdim olunan interyeri maraq doğurur. Yaşayış evləri Bakı şəhərinin bədii-dəyərli binaları üçün mühit yaradır.

**Kamenistaya** (B.Səfəroğlu), **215,** (1914-cü il). Yaşayış evi küçənin salınmasının sıra sisteminə daxildir. Öz mənzərəli həcmli strukturu və modern ruhlu kompozisiyası ilə Bakı memarlığının həmin üslub yönünün inkişafında əhəmiyyətli rol oynayır. Fasad yan hissələrdə işlənmiş erkerli raskrepovka və karnizin qırıq xətti ilə təsvir edilib. Simmetriya oxu eyvanlar vasitəsilə ekspressiv naxışlı daş kronşteynlərə bərkidilib. Bütün fasad həcmli plastika və eyvanların dəmir barmaqlı işləmələri ilə zəngindir. Öz bədii əsasları və inşaatın yüksək mədəniyyətinə görə yaşayış evi modern üslubunun ən yaxşı nümunələrinə aiddir və memarlıq abidəsidir.

**Kamenistaya** (B.Səfəroğlu), **219,** (1912-ci il). Üçmərtəbəli yaşayış evi 215 saylı ev kimi modern üslubunda həll edilib. Yan tərəflərdə zəif ifadəli raskrepov-

*Kamenistaya küçəsi 174. Meylamovun yaşayış evi. Üçüncü mərtəbənin planı.*

*Kamenistaya küçəsi 174. Meylamovun yaşayış evi. Qərb fasadı. Ş.S. Fətullayevin rəsmi.*




*Kamenistaya küçəsi 215. Yaşayış evinin ümumi görünüşü. 1914-cü il.*

*Kamenistaya küçəsi 215. Yaşayış evinin cənub fasadı.*





*Kamenistaya küçəsi 215. Yaşayış evinin ümumi görünüşü. 1912-ci il.*

kalarla bərkidilmiş fasadın simmetrik-ox sisteminə malikdir. Giriş plastik portalla vurğulanıb, təmkinli səciyyə daşıyan pəncərə ahəngi inkişaf etdirilmiş karnizlə tamamlanır. Yaşayış evi irsin bir hissəsi və modern üslublu abidədir.

**Kamenistaya** (B.Səfəroğlu), **223,** (1901-ci il). Keçmiş məktəb binası memar A.V.Eyxler tərəfindən künc və yan rizalitlərlə vurğulanmış neoyunan üslubunda inşa edilib. Bina küncdən giriş frontonlu toskan orderinə aid ikikolonnlu (ikisütünlu) portik şəklində nümayiş etdirilib. Monumental fasadlar mükəmməl şəkildə rustə (yonulmamış daş) edilib, pəncərə oyuqlarının ahəngi isə memarlıq üsulunun qətiliyi ilə fərqlənir. Eyxler yaradıcılığında məktəb ən uğurlu işlərdən biridir və mülki memarlığa məxsus memarlıq abidəsidir.

**Karantinnaya küçəsi** (Həzi Aslanov) XIX əsrin ortalarında yaranmış və Bakının Rus İmperiyasının neft paytaxtına çevrilməyə başladığı zaman - 1870-ci ilin məşhur neft bumundan sonra fəal inkişafa başlamışdır. İndiki Qoqol və Karantinnaya (Həzi Aslanov) küçələrinin kəsişməsində karantin binalar kompleksi yerləşirdi ki, bu da küçənin belə ad daşımasına səbəb olmuşdur. Küçə, qərbdə - Persidskaya küçəsindən (M.Muxtarov) başlayır və tarixi məhəllələr arası ilə ke-



*Karantinnaya küçəsinin planı.*

çərək genişlənir və şərqdə - B.Morskaya (Bülbül) küçəsində bitir.

Bütün küçə boyunca tikililər yaşayış məqsədli, iki, üçmərtəbəli, ətraf evlərə baxanda daha miqyaslıdılar. Küçə tarixi mühiti formalaşdıran küçələrdən biridir. Yaşayış evləri arası kəsilmədən qırmızı xətt boyunca düzülüb, yalnız məhəllənin daxilinə aparan kiçik dar dalanlar böyük məsafədə spesifik planlaşdırma ahəngi yaradırlar. Burada fasadlar kiçik ölçülüdürlər və əsasən, aşağı mərtəbələri ətraf evlərin orta imkanlı əhaliyə xidmət göstərən dükanlar tuturdu. şəhərin strukturunda şəhərsalma səciyyəli küçə olaraq, öz inşaatına XIX-XX əsrin irsi memarlıq abidələri kimi çoxlu yaşayış evləri, hamam, məscidlər daxil edir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **3**. Üçmərtəbəli yaşayış evi (1907-ci il) şəhərin tarixi məhəllələrinin salınması sırasına daxildir. Yerli interpretasiya (şərh) ilə klassik formada həll edilən həcmli-məkan və memarlıq xüsusiyyətləri sayəsində gözəl plastikalı fasadın kompozisiya həlli çox güclü təəssürat bağışlayır. Burada inşaatın keyfiyyətinə, memarlıq detallarının işlənilməsi və onların daş üzərində məharətlə istifadəsinə diqqət daha çox ayrılıb.

**Karantinnaya küçəsi** (H.Aslanov), **5**. 1898-ci ildə inşa edilib, şəhərin XIX əsrin axırlarının yaşayış evləri inşaatının maraqlı nümunələrindən biridir və küçəsalınma sırasında yerinə baxmayaraq, tarixi məhəllələrin salınma səciyyəsi və əhəmiyyətini müəyyənləşdirir. Yüksək emosionallığa malik fasadın memarlıq kompozisiyası proporsional bölgüləri əsas və köməkçi elementlərin məharətlə yerləşdirilməsi, daşdan mükəmməl şəkildə yonulan memarlıq və dekorativ detalların mükəmməl şəkli ilə fərqlənir. Birlikdə bədii strukturu təşkil edən inşaatın yüksək mədəniyyəti və hər daşın ustalıqla cilalanması valeh edicidir. Yaşayış evi kapitalizm dövrünün memarlıq abidəsidir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **11**. İkimərtəbəli yaşayış evi 1894-cü ildə tikilib və tarixi məhəllələr strukturunda şəhərsalma funksiyasından başqa böyük estetik enerji daşıyır, ətraf tikililərə olan təsir mühitini əhəmiyyətli dərəcədə genişləndirir. Fasad, Bakının yerli xüsusiyyətlərini nəzərə alaraq, ordersiz sistem şəklində həll edilib. Relyefli icra edilmiş üfüqi bölümlər, pəncərə oyuqlarının haşiyələnməsi və hər biri heykəltəraşlıq işi olan daş memarlıq detalları sayəsində böyük plastikliyi ilə fərqlənir. Fasadın



hörülmə keyfiyyəti və daş blokların hər biri binanın memarlıq abidəsi kimi əhəmiyyətini təsdiqləyir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **13.** Bina 11 saylı yaşayış evi kimi tarixi məhəllələrin salınma sırasındadır, ancaq memarlıq və bədii əsaslar sayəsində küçə strukturunda fəal yer tutur. Çox böyük zövqlə inşa edilib, fasadın memarlığı ordersiz sistemdə çox plastik şəkildə həllini tapıb. Qeyd etmək lazımdır ki, Bakı ustalar üçün səciyyəvi olan daş üzərində işləmələr ənənəsinin istifadəsi və onların XIX-XX əsr sərhədində mükəmməlləşdirilməsi bu materialı əks etdirən yeni memarlıq sisteminin yaranmasına keyfiyyətli təkan vermişdir ki, bu da təbii olaraq bir çox binaların zahiri görünüşünə təsir etmişdir və bura 13 saylı yaşayış evini də aid etmək olar.

**Karantinnaya küçəsi** (H.Aslanov), **21.** İkimərtəbəli yaşayış evi 1908-ci ildə inşa edilib. Yüksək estetik və bədii keyfiyyətlərilə həm tarixi məhəllələrin şəhərsalma strukturunda, həm də şəhərin memarlıq xronikasında mühüm yer tutur. Uzunluğu böyük olmayan yaşayış evi plastikliyi, fasadda tektonik kütlələrin düzgün yerləşdirilməsi, detalların incəliyi ilə özünə diqqət cəlb edən memarlıq kompozisiyasına malikdir. Daşdan heykəltəraşlıq üslubunda hazırlanmış və klassik formalar sistemində cilalanmış detallar, monolit kütlə təşkil edən əla yonulmuş ayrı-ayrı kiçik daş bloklardan hörülmüş fasadın orqanik elementləri kimi irəli çıxırlar. Ev - şəhərin tarixi irsinin ayrılmaz bir hissəsidir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **23.** Qasım bəy məscidi 1890-cı ildə memar Məşədi Mirzə Qafar İsmayılov tərəfindən Təzə-Pirə yaxın sahədə inşa edilib. Geniş veranda, vestibül və üçnefli dua zalı yerli memarlığın iri formaları ilə interyerdə ifadə olunan məscidin memarlıq-planlaşdırma sistemini müəyyənləşdirir. Cənub divarda yer tutan zəngin mehrab otağın oxu boyu daş detallarla vurğulanıb, xaçşəkilli qübbələrlə örtüklər, həmçinin nervürlərlə bəzədilib. Mərkəzi hissə təbildə şaquli ox kimi çıxış edir. Həcmli-məkan kompozisiyasının eyvani-şərəfəsi çox gözəl rəsmli stalaktit kəmərilə vurğulanan qamətli minarə ilə bərkidilib. Stalaktitlər altında yer tutan Quran məzmunlu ərəb yazısının epiqrafik növü kompozisiya sisteminə xüsusi çalar bəxş edir. Məscid - memarın ən yaxşı işlərindən biridir, minarə isə Bakının XIX-XX əsr sərhədində inşa edilmiş dini

tikililəri arasında tayı-bərabəri olmayan bir əsərdir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **31.** İkimərtəbəli yaşayış evi 1896-cı ildə inşa edilib. Tarixi məhəllələr strukturunda şəhərsalma mənası ilə yanaşı şəhərin bu köhnə rayonunun əksər yaşayış evləri kimi ətraf tikintiyə yüksək estetik keyfiyyətlərlə emosional təsir bağışlayır. Order sisteminin azad şərhində inşa edilən fasad, Bakı daş memarlığı əsasında özünəməxsus sapmaya məruz qalır ki, burada da memarlıq detallarının rəsmi rövnəq və relyefli olması sayəsində meydana gələn zəngin plastika evin memarlığında fərqli potensial imkanlarına təkan verir. Fasadın memarlıq kompozisiyasının ümumi sxeminə yerli və şərq incəsənətinin dərin relyefli ornamentli taxmaları, xronoloji və başqa səciyyəli zəngin informasiyalı epiqrafik süjet şəklində ifadə olunan element və motivlər daxildirlər. XIX-XX əsr sərhəddində Bakıda yaşayış evlərinin salınmasında bu cür fasad həllinə ilk dəfə rast gəlinir və milli-romantik yönün Azərbaycan memarlığına cüzi sirayətinə yol açır. Memarların yerli memarlıq irsinə müraciəti yerli əhalinin maraqları önəmsənən sosial-siyasi şəraitlə diktə olunurdu. İrsə maraq məhz bu üzdən yaranır və bu milli-memarlıq əlamətli tikililərin az da olsa müəyyən sayda peyda olmasını doğurur. Yaşayış evində yerli memarlıq xüsusiyyətləri sadə, lakin qabarıq şəkildə əks etdirilib və bu onun XIX-XX əsr sərhəddinin memarlıq abidəsi kimi əhəmiyyətini müəyyənləşdirir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **32.** Üçmərtəbəli yaşayış evi 1900-cü illərin əvvəlləri inşa edilib və tarixi məhəlləsalma sırasında yerləşdiyinə baxmayaraq, həcmli-məkan və memarlıq həlli ilə şəhərin bədii simasında əsas yerlərdən birini tutur. Order sisteminin klassik formalı fasadının mükəmməl memarlıq kompozisiyası emosional baxımdan çox effektlidir. Effekt ilk mərtəbənin relyefli rustovkası ilə fasadın proporsional şəkildə bölünməsi, korinf orderinin pilyastrları və xoş rəngli əhəngdaşından yonulmuş detalların rövnəq elementləri sayəsində əldə edilmişdir. Fasadın kompozisiya səciyyəsinin açılmasında klassik profil, kapitel və sair detallar əhəmiyyətli rol oynayır və bunlar fasadın daş bloklarla hörülməsilə yanaşı öz əlamətləri baxımından kapitalizm dövrünün memarlıq abidəsi olan binanın arxitektur həllinin əsasını təşkil edir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **36.** Yaşayış evi 1894-cü ildə inşa edilib və Bakının köhnə forştadtında yaşayış məhəllələrinin sıravi salınmasında yer tutur. Fasadın plastik həlli, memarlıq kütlələrinin gözəl ifadəsi nəticəsində tarixi mərkəzin şəhərsalma şəraitində mühüm vəzifə icra edir. Fasadın kompozisiya quruluşu ordersiz sistemin maraqlı üsullarından istifadə edərək profilləşdirilmiş dartmalar, pəncərə oyuqları haşiyələrinin və rustovka şəklində hörülmüş divarlar fonunda rövnəq sandriklərin inkişaf etdirilmiş formasında yaşayış evinin şəhər irsində bir memarlıq abidəsi kimi ümumi önəmini göstərir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **37.** Yaşayış evi 1908-ci ilin tikililərinə aiddir və şəhərin yaşayış binalarının inşasında maraqlı bir nümunə kimi çıxış edir. Burada Bakının klassik yönlü memarlıq ənənələrinin davamı yerli memarlıqla,

daş üzərində oyma sənəti ilə uzlaşır. Order sisteminin klassik formalarında inşa edilən Bakı yaşayış evi özünəməxsus bənzərsiz bədii tərzdə yaradılıb. Fasad dərin emosionallığa malikdir. Fasadın proporsional bölünmələri, divar rustovkasının səciyyəsi və rəsmi, inkişaf etdirilmiş profilləşdirilmiş dartmalar, rizalit motivlərinin modelirovkasında nəzərə çarpan kompozisiya cənub şəraitində əsl yaşayış evi tərzini yaradır. Bu kompozisiyanın ümumi fikrini vurğulayaraq, qəşəng karnizlə bitirilən dərin relyefli sandriklərlə zəngin bəzədilmiş pəncərə oyuqları ilə ikinci mərtəbə binanın tərzinin daxili məzmununu aşkara çıxarır. Burada daşdan mükəmməl şəkildə oyulmuş hərbir arxitektur detal heykəltəraşlıq təcəssümü kimi meydana çıxır. Sübuta ehtiyac yoxdur ki, yaşayış evi tarixi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **42.** Yaşayış evi 1897-ci ildə tikilib və memarlıq dəyərinə malik olmaqdan başqa həmçinin şəhərin tarixi mərkəzinin şəhərsalma strukturunda müəyyən rol oynayan tikililərdən biridir. Bu binada 1880-cı ilin tikililəri ilə müqayisədə Bakı ev inşaatı ənənələri daha geniş şəkildə davam etdirilib. Burada dərin rust, fasad kompozisiyasını tamamlayan element - geniş profilləşdirilmiş dartmalar və karniz istifadə edilib. Ev şəhər mühitinin ümumi bədii sistemınə daxil olaraq, Bakının memarlıq irsində öz fərdi funksiyasını daşıyır.

**Karantinnaya küçəsi** (H. Aslanov), **52.** Üçmərtəbəli yaşayış evi 1900-cü ildə tikilib, həm həcmli-məkan, həm də memarlıq-planlaşdırma baxımından şəhərin tarixi mərkəzində mühüm yer tutur. Fasadın memarlıq kompozisiyası yeni sosial-iqtisadi şəraitdə yaranan, ancaq daşın cilalanmasında yerli ənənələri nəzərə alan klassik formaların prinsiplərini həyata keçirir. Fasad mərtəbəarası örtüklər və pəncərə oyuqları səviyyəsində profilləşdirilmiş dartmalarla həll edilir. Burada yaşayış evinin tərzinin formalaşmasında rustə olunmuş divarlarda zəngin sandriklər öz estetik funksiyalarını daşıyır. İnkişaf etdirilmiş daş karniz və zəngin bəzədilmiş simmetriya oxunda yerləşən giriş portalı evin fasad kompozisiyasının tamamlığını başa çatdırır. Ev, Bakının arxitektur irsində memarlıq dövrünün abidəsidir.

**Karantinnaya küçəsi** (H. Aslanov), **55.** İkimərtəbəli yaşayış evi 1889-cu ildə inşa edilib, öz dövrünü aydın və onun üslub yönünü xarakterizə edən şəhərin tarixi mərkəzinin şəhərsalma strukturuna fəal şəkildə daxil olan tikililərə aiddir. Ev, detalların yüksək dərəcədə zənginləşdirilməsi və fasad kompozisiyasında formaların plastik həlli ilə başlayan order sisteminin təvazölü kompozisiyalarının öz apogeyinə çatdığı zaman - Bakı memarlığının keçid dövründə tikilib. Bakı memarlıq sənəti ənənələri fasadların memarlığı əsasında order sistemi tərəfindən şərh edilir. Profilləşdirilmiş dartmalar, toskan orderli pilyastrlarla döyülmüş rizalitlər diqqət çəkir. Fasad üzərində memarlıq kütlələrinin klassik tikilmə prinsipləri aparıcı yer tutub. Ələlxüsus, bu ikinci mərtəbənin tamamlanmış antamblementi və karniz, friz, arxitravın dəqiq ayrılması ilə order sistemində biruzə olunur. Şəhərin bu memarlıq dövrü, memarların öz işlərində şəhərin yaşayış evləri tikintisində yerli xüsusiyyətləri nəzərə alaraq klassik əsas-

lara riayət etdiyi zamana təsadüf edir. Bakı memarlığının bu dövrünün ən yaxşı xüsusiyyətləri həmin yaşayış evində əks etdirilib və ev kapitalizm dövrünün memarlıq abidələri sırasına daxildir.

**Karantinnaya küçəsi** (H.Aslanov), **56.** Üçmərtəbəli yaşayış evi 1911-ci ildə tikilib, küçə salma sırasına daxildir, ancaq həcmli-məkan və memarlıq-planlaşdırma həllinə görə şəhərin tarixi mərkəzinin fəal elementidir. Order sisteminin proporsional bölünməsinə baxmayaraq, fasad kompozisiyasının tərtib sxeminə, "alovlanan modern"də olduğundan daha sakit tərzdə modern elementləri də daxil edilib. Buna görə yaşayış evi fasadının həlli səciyyəsi ətraf tikililərin memarlığı ilə ziddiyyət təşkil etmir, əksinə öz forma və elementlərilə məhəllə strukturuna bir ayrılmaz vahid kimi daxildir. Mükəmməl yonulmuş pəncərə detalları və ayrı daş bloklardan ibarət karniz formaları, eləcə də ayrıca memarlıq taxmaları Bakının tarixi irsində memarlıq abidəsi kimi yaşayış evinin əhəmiyyətini artırır.

**Karantinnaya** (H.Aslanov), **68.** İkimərtəbəli yaşayış evidir. 1900-cü illərin əvvəlinə aid tikili, əsaslı bina, memarlıq baxımından isə şəhərin tarixi mərkəzində, mərkəzin müəyyən hissəsi üçün tikinti formalaşdıraraq müəyyən dərəcədə fon elelmentidir.

**Karantinnaya** (H.Aslanov), **80.** İkimərtəbəli mətbəə binasıdır (1908-ci il), 1930-cu illərdə bir mərtəbə artırılaraq, fasadının rəvan əyrisi ilə küçənin çevrəsinə uğurla daxil edilmişdir. Fasad, şaquli kürəklər və uzadılmış oyuqlar vasitəsi ilə kompozisiyanın ümumi sxemini göstərir, onun təmkinli memarlıq həlli binanın daxili məzmununu əks etdirir. Kompozisiya motivi qismində Abşeron memarlığının yerli nümunə portalından istifadə edilmişdir. İstehsalat sahəsinə aid tikilidə milli - romantizm istiqaməti özünü tam gücü ilə göstərir və şəhərin tarixi mərkəzinin digər tikililərində ondan istifadə imkanlarını aşkara çıxarır. Portal kompozisiyanın milli-memarlığın ən yaxşı ənənələrində ifadə edilməsi onu, mülki mühəndis Zivər bəy Əhmədbəyovun Bakıdakı yaşayış evinin portalı ilə yaxınlaşdırır və məhz onun mətbəə binasının müəllifi olması ilə bağlı ehtimalları irəli sürməyə imkan verir. Bina Bakının tarixi irsinin bir hissəsi və həmin dövrün memarlıq abidəsidir.

**Karantinnaya** (H.Aslanov), **85**, Mariinskaya küçəsinin tini (Rəsul Rza), **20.** Məscid - forştadtın (şəhər ətrafının) erkən dövrlərə aid dini tikililərindən biridir, 1872-ci ildə inşa edilmiş, lakin sonradan 1887-ci ilə qədər ərazisi dəfələrlə genişləndirilimişdir. Künc sahədə yerləşir və buna baxmayaraq, fasadın xüsusilə Mariinskaya küçəsi tərəfindən sakit (mötədil) həlli həm tarixi həm də memarlıq - planlaşdırma nöqteyi - nəzərindən maraq doğurur. Birincisi, mərkəzin tarixi məhəllələrinin bu hissəsində məscid - müstəsna hadisə, ikincisi isə, yerli memarlıq üsulları və Avropa formalarının bədii cəhətdən uğurla ifadə edildiyi özünəməxsus arxitektur və həcmi-fəza həllidir. Məscidin portal hissəsinin arxitektur şərhi, gediş yolunun konstruktiv formaları, fasaddakı epiqrafik fonlar məşhur "neft həyəcanından" sonra yaranmış yeni sosial - iqtisadi şəraitlərdə, dini tikililərin inkişafını izləməyə imkan verir. Bütün bunlar binanı Bakı şəhərində XIX əsrin ikinci yarısına

təsadüf edən memarlıq abidələrinə aid etməyə şərait yaradır.

**Karantinnaya** (H. Aslanov), **113**. Dadaşovun dördmərtəbəli yaşayış binasıdır, 1910-cu ildə inşa edilmiş, fasadın memarlıq kompozisiyası və həcmi şərhinə görə tarixi mərkəzin XX əsrin əvvəli üçün səciyyəvi olan tikililərinə aiddir. Fasadın qurulmasında yalnız oyuqları ahəngliyi və eyvanların həlli deyil, eləcə də dekorativ elelmentlər və daşdan olan detallar, hörgünün özünəməxsus təsvirinin istifadə edildiyi birinci mərtəbənin oyuqlarının işlənilməsi diqqəti cəlb edir. Yaşayış evlərindəki bu nüanslar XX əsrin əvvəlində Bakı şəhərinin memarlığının inkişafında bu və ya digər memarlıq istiqamətlərinə imkan yaratmışdılar. Bu yaşayış evi - tarixi irsin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Karaulnıy döngəsi**, **4**, **Poctovaya** (S.Tağızadə) **küç. 60,** tini,. Əlibəyovların yaşayış evidir, 1903- ü ildə akademik A.Prokofyevin layihəsi üzrə inşa edilmişdir, künc ərazidə uğurla yerləşən varlı malikanə üslubuna aiddir. Relyefdə bina istər həcmli modelləşdirilməsi istərsə də arxitektur şərhi (təsviri) ilə şəhərin tarixi məhəllələr strukturuna daxil edilmiş və yaşayış evinin yüksək estetik səviyyədə həllinin maraqlı nümunəsi kimi çıxış

*Karaulniy döngəsi, 4. Əlibəyovların yaşayış evinin ümumi görünüşü. Fasadın qərb hissəsi. Memarlıq üzrə akademik A.Prokofyev. 1903-cü il.*





*Karaulniy döngəsi., 4. Əlibəyovların yaşayış evi. Qərb fasadının fraqmenti.*



edir. Burada "şüşəbənd" formasında yerli memarlığın klassik üsulları və həcmli elementlərindən istifadə edilmişdir ki, bu da özünəməxsus memarlıq kompozisiyasının yaranmasını şərtləndirmişdir. Forma və elementlərinin zənginliyi, üsul və heykəltəraşlıq motivlərinin müxtəlifliyi malikanənin bədii tərəfini açmışdır. Pilləkən qəfəsinin və divar naxışları, zəngin yapmalar ilə olan yaşayış yerlərinin (otaqlarının) interyerləri diqqəti cəlb edir, onlar, həndəsi şəklin dolğun plafonu ilə olan şərqi otaq və stalaktit karniz məxsusi olaraq böyük zövqlə yerinə yetirilmişdir. Bina Peterburq memarının yaradıcılığında mühüm yer tutur, memarlıq irsinin bir hissəsi və memarlıq abidəsidir.

**Kaspiyskaya küçəsi** (hazırkı R.Behbudov). Meridional istiqamətə malikdir, sahil küçəsindən başlayır və Bakıxa-

*Karaulnıy döngəsi, 4. Əlibəyovların yaşayış evi. Qərb fasadının detalı.*



*Karaulniy döngəsi, 4. Əlibəyovların yaşayış evi. İkinci mərtəbənin planı və kəsiyi.*

*Karaulniy döngəsi, 4. Əlibəyovların yaşayış evi. Giriş portalı.*





*Karaulniy döngəsi, 4. Əlibəyovların yaşayış evi. Giriş portalının fraqmenti.*

nov küçəsində başa çatır, şəhərin şimal hissəsinin yüksəklik nöqtələrində yerləşir. Formalaşmağa 1890-cı illərdən etibarən başlamış, lakin, nə memarlıq, nə də planlaşdırma baxımından yekun həllini tapmamışdır. Küçənin baş hissəsi dəniz kənarı ərazisində 1913-cü ildə keçmiş Kommersiya məktəbinin binası meydana gəlmişdir. 1930-cu illərdə Kommersiya məktəbinin binasının qarşısında İdman sarayı (memar - K.İ. Sençixin), 1940-cı illərdə keçmiş Polşa kostyolunun (mülki mühəndis İ.K. Ploşko) yerində Dzerjinski adına klub (memar - Q.A. Məcidov) inşa edilmişdir. Beləliklə, bu sahə şəhərin müəyyən ictimai və mədəni mərkəzinə çevrilmişdir. Keçmişin irsində şəhər memarlarının arxitektur ənənələrinin varisliyini vurğulayaraq, küçənin tikilib abad edilməsində köhnə və yeni tikililər bir - birilə qonşuluq edir. Yaşayış tikilisi üç - dördmərtəbəli binalarla təqdim edilmişdir, burada parlaq stilistika baxımından order (arxitektura kompozisiyası növlərindən biri) sisteminin forma və üsulları üstünlük təşkil edir. Küçənin yuxarı hissəsi, ümumi arxitektur görünüşünün dəyişilməsi üçün yenidən qurulmasına ehtiyacı olan və az əhəmiyyət kəsb edən birmərtəbəli tikili ilə səciyyələnir.

**Kaspiyskaya** (R. Behbudov), **12, Torqovaya** (Nizami) **küç**. tini 1912-ci il.




*Kaspiyskaya küç.,12. Sinaqoq binası. Əsas fasadın portiki. 1912-ci il.*

Keçmiş sinaqoq binasıdır, künc sahədə qırmızı xətdən kənarda yerləşir, şəhərin tarixi mərkəzinin fəal elementlərindəndir. İoniya orderinin (memarlıq kompozisiyası) portikindən (binaya bitişik sütunlu eyvan) istifadə edilməsi ilə klassik məbədləri üslubu üzrə inşa edilmişdir. Bakı şəhərində bu cür memarlıq kompozisiyası malik binaya rast gəlinir. Arxitektur kütlələrinin maraqlı şərhi, yan fasadlarındakı pəncərə ouqlarının ahəngliyi və eyvanları olan ibadət zalı ilə fərqlənir. Sütunlar, kapitellər (arxit. sütun başlığı) və digər memarlıq elelmentlərinin daşda işlənilməsi mükəmməl şəkilə çatdırılmışdır; bina - memarlıq irsinin bir hissəsi və memarlıq abidəsidir.

**Kaspiyskaya** (R.Behbudov), **25**. Murtuza Muxtarovun yaşayış evidir, 1910-cu ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmiş, memarlıq kompozisiyasının italyan intibahı formalarında ifadəli həllinin nümunəsini təşkil edir, memarın yaradıcılığında mühüm yer tutur və memarlıq abidəsidir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn). Yaşayış evi xüsusiyyətlərinə malik olan iki - üçmərtəbəli binalardır, memarlıq həlli müxtəlif fərdi tərzlərdə ifadə edilmişdir, lakin onların hamısını bütün kompozisiya çalarları ilə Avropa order sistemi prinsiplərində olan stilistik istiqamət yaxınlaşdırır. Yerli iqlim xüsusiyyətlərini

*Kaspiyskaya küçəsi.,12. Sinaqoq binası. Portik fraqmenti.*



*Kaspiyskaya küçəsi., 25. Murtuza Muxtarovun yaşayış evi. Şərq fasadının ümumi görünüşü. Mülki mühəndis İ.K. Ploşko. 1910-cu il.*



*Kaspiyskaya küçəsi., 25. Murtuza Muxtarovun yaşayış evi. Şərq fasadının fraqmenti.*



nəzərə almaqla hazırda bu struktura müasir memarlığın yaşayış binaları daxildir, burada eyvanların və lociyaların (binaya birləşik yaxud onun tərkibinə daxil olan açıq, sütunlu qalereya) çoxluğu ətrafdakı tikililərin predmet - fəza mühitini qoruyub saxlayır. Lakin çoxmərtəbəli binalar tarixi məhəllələrin miqyaslılığına mənfi təsir göstərir və tam bədii effekti bəxş etmir. Tikilidə həkim Əbdül - Xalıq Axundovun yaşayış evi məxsusi olaraq seçilir (79 saylı ev, memar - Hacı bəy Axundov, 1912-ci il).

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **61,** Parkovıy döngəsinin tini (1906-cı il). Bu yaşayış evi - küçənin mənzərəli tikililərindən biridir, şəhərin tarixi məhəllələrinin spesifikasını və xarakterini müəyyən edir. Bina ərazidə çox uğurla yerləşmişdir və şəhərsalma baxımından mühüm rol oynayır. Aralama və yan rizalitlərlə (binanın irəli çıxan hissəsi) vurğulanmış künc hissə yaşayış evinin həcmli məkan cəhətindən ifadə edilməsinə şərait yaratmışdır. Fasadların zəngin plastikası, ifadəli haşiyələrlə olan pəncərə oyuqlarının ahəngliyi, klassik formaların sərbəst ifadədə olan modelləşdirməsi, memarlıq daş detallarının mükəmməl işlənilməsinə və divar hörgüsünə görə bina XX əsrin əvvəllərində Bakının tarixi irsində bədii əhəmiyyət kəsb edir. Yaşayış evi şəhərin estetik görkəmində möhkəm yer tutmuş şəhər tikilisi üslubudur və milli memarlıq abidəsidir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **63 (1901-ci il), 65 (1903-cü il)**. Bu yaşayış evləri, şəhərin tarixi məhəllələrinin strukturunda müəyyən arxitektur əhəmiyyətə malikdirlər və bədii cəhətdən əhəmiyyətli olan binalar üçün mü-

*Kladbişenskaya küçəsi, 61. Yaşayış evinin ümumi görünüşü. 1906-cı il.*





*Kladbişenskaya küçəsi, 69. Yaşayış evi. Şərq fasadı. 1902-ci il. Memar R. Bayramovun çertyoju.*



*Kladbişenskaya küçəsi, 69. Yaşayış evinin ümumi görünüşü. Şərq fasadı. 1902-cı il.*



*Kladbişenskaya küçəsi, 73. Fərzanənin yaşayış evi. Şərq fasadı. 1902-cı il. Memar R. Bayramovun çertyoju.*

hit formalaşdıraraq şəhərsalmaya aid öz həcmi-fəza funksiyalarını daşıyırlar.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **69**, Pozenovskaya küç. tini (M.İ.A.Cəfərovlar), 17, (1902-ci il). Dördmərtəbəli yaşayış evidir, iki mərhələdə inşa edilmişdir: binanın üç mərtəbəsinin tikintisi 1902-ci ildə, sonuncu mərtəbəsinin isə, 1960-cı ilin əvvəlində həyata keçirilmişdir. Bakı şəhərinin, öz monumental həcmi və təmkinli memarlıq həlli ilə tarixi məhəllələrin tikilələri sırasına fəal şəkildə daxil edilmiş binalardan biridir. Erker ilə (ev divarında, pəncərələri olan yarımdairə şəklində və ya tin-tin çıxıntı) vurğulanan künc və intihab dövrünə aid pəncərələr ilə incə tinləmə - nəcib proprsiyalar, ədəblə istifadə edilmiş modern elementlərdə bu binanın kompozisiya baxımından mahiyyətini aşkar etmişdirlər. Interyerlər Şərq və Avropa memarlıq motivlərində gözəl ifadə olunmuşdurlar. Yaşayış evi memarlıq irsinin bir hissəsi və şəhərin memarlıq abidəsidir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **73**, Kosov döngəsinin tini 1. Fərzanənin üçmərtəbəli yaşayış evidir, 1902-ci ildə inşa edilmişdir. Fasadın arxitektur keyfiyyətləri və həcmi şəhərin tarixi məhəllələrinin vacib elementlərindən biridir. Çox gözəl memarlıq detalları, daş üzərində zərif oymalarla erker - eyvan daş memarlıq ənənələrində maraqlı şəkildə yerinə yetirilmişdir. Bu yaşayış evi, Bakı şəhərinin bədii baxımdan dəyərli olan binalar üçün mühiti müəyyən edir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **75**, Krasnokrestovskaya küç. tini (Şeyx Şamil), 1896-cı il. Dördmərtəbəli yaşayış evidir, 69 saylı ev kimi inşaası iki mərhələdə həyata keçirilmişdir: ilk üç mərtəbə 1896-cı ildə dördüncü mərtəbə isə 1960-cı illərdə inşa edilmişdir. Əsas prinsipial arxitektur mövqeləri tam oxşardır, yalnız 75 saylı ev daha erkən inşa edilmiş və onun kompozisiya

motivləri 69 saylı evə əhəmiyyətli təsir göstərmişdirlər. Monumental həcm, zəif ifadə edilən tinləmələr, təmkinli şəkildə həll olunan pəncərələrin ahəngliyi onun bədii - arxitektur strukturunu təşkil edir. Burada fasadın küncləri yerli memarlıq üçün səciyyəvi olan üsullarla çox zərif və orijinal şəkildə ifadə olunmuş və yerinə yetirilmişdir. Yaşayış evi - memarlıq abidəsidir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **79**, Zavedenskaya küç. tini (B.Sərdarov). Əbdül - Xalıq Axundovun dördmərtəbəli evidir, 1912-ci ildə mühəndis Hacı bəy Axundov tərəfindən inşa edilmişdir, künc sahədə və şəhərin aşağı və yuxarı hissələrini birləşdirən magistral küçələrin kəsişməsində yerləşir. Binanın bu cür yerləşməsi onun şəhərsalma əhəmiyyətini əvvəlcədən müəyyən etmişdir. Memarlıq kompozisiyası yaşayış evinin rasionalizm cizgiləri ilə, həcmli plastikasını göstərən erkerlər ilə vurğulanmış, modern üslubu da burada bir qədər yer almışdır. Zəif ifadə edilən haşiyələrlə pəncərələrin böyük oyuqları ilə detalların şaquliliyi - eklektikaya haqq verir, bu isə binanın görkəmini və memarlıq istiqamətini əhəmiyyətli dərəcədə dəyişir. Mənzillərin planlaşdırma strukturunda sanitar - texniki təchizatın gizli elektrik şəbəkə, mərkəzləşdirilmiş isitmə sistemi və örtüklərin dəmir - daş üsulları ilə yanaşı dəmir - beton konstruksiyaları

*Kladbişenskaya küçəsi, 73. Fərzanənin yaşayış evi. Şərq fasadı. 1902-ci il.*



kimi bütün proqressiv formalarından istifadə edilmişdir. Binanın iki qanadını birləşdirən açıq üslublu, metaldan düzəldilən həyət pilləkəni çox maraqlı həll edilmişdir. Dünyasını erkən dəyişən mühəndis Hacı bəy Axundovun yaradıcılığında bu yaşayış binası mühüm yer tutur və memarlıq abidəsidir.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **80**, (1911-ci il). İkimərtəbəli yaşayış evidir, Bakı şəhər yaşayış tikintisinin maraqlı nümunəsidir. Burada daş memarlığı ənənəsindən istifadə ilə bərabər fasad klassik formalarda çox incəliklə təsvir edilmişdir. Birinci mərtəbənin yonulmamış daşla hörülməsi hamar daşlı ikinci mərtəbə üçün sanki pyedestal funksiyasını yerinə yetirir, burada pəncərələrin ahəngliyi ifadəli sandrik (kiçik pərvaz) və haşiyələrlə zənginləşdirilmişdir. Ara hissələr (divarın pəncərə və qapılar arasındakı hissəsi) müstəsna olaraq incə çəkilmiş bədii - memar atributlardan olan dekorativ elementlər ilə doldurulmuşdur. Fasadın bu elementləri "aqlay" üslublu bloklardan olan yüksək səviyyəli hörgü ilə birlikdə memarlıq irsinin bir hissəsi və memarlıq abidəsi olan binanın bədii görünüşünü yaradırlar.

**Kladbişenskaya küçəsi** (Mehdi Hüseyn), **86**, Pozenovskaya küç. tini (M.İ.A.Cəfərovlar), 12 (1911-ci il). İkimərtəbəli yaşayış evidir - Bakı şəhəri üçün səciyyəvi olan Korinf sütunları order sistemində

*Kladbişenskaya küçəsi, 79. Əbdül – Xalıq Axundovun yaşayış evinin ümumi görünüşü. Mühəndis Hacı bəy Axundov. 1912- ci il.*





*Orlovskaya küçəsi., 3. Mitrofanovun yaşayış evinin şimal fasadı. 1903-cü il.*



*Orlovskaya küçəsi., 3. Mitrofanovun yaşayış evi. 3-cü mərtəbənin planı.*

bina həllinin nümunəsidir. Şəhərin tarixi məhəllələrində fəal bədii mövqe tutaraq, plastikliyi, daşdan yonulmuş nazik profil və detalları ilə fərqlənir və milli-memarlıq abidəsidir.

**Orlovskaya** (Muxtadır), **3**, Vodovoznaya küç. tini 6. Mitrofanovun çox böyük, gəlirli, üçmərtəbəli evidir, 1903-cü ildə memar İ.V.Edel tərəfindən inşa edilmişdir, ətrafda olan tikililər arasında üstün mövqeyə malikdir. Künc mövqeyini uğurla vurğulayan monumental həcmi - fəza həlli ilə fərqlənir. Həcmin üfüqiliyi pəncərə dəliklərinin ritmi ilə vurğulanan binanın ümumi strukturunu tarazlaşdıraraq bir sıra tinləmələrə bölünmüşdür. Binanın memarlığında klassik formaların bütün elementləri ilə order sistemindən istifadə edilmişdir. İri Korinf orderi fasadların həllində ən vacib element kimi binanın bütün memarlıq kompozisiyasına daxil olur. Zəngin plastikası və yüksək səviyyəli inşaat mədəniyyəti ilə cənub məskəni obrazını yaradan, müxtəlif üslubda çoxlu eyvanları olan yaşayış evi Bakı şəhərinin tarixi mərkəz tikililəri arasında çox böyük əhəmiyyət kəsb edir. Fasadların bədii həllində möhtəşəm memarlıq palitrası ilə bərabər çoxlu üsul və formalarla dekorativ heykəltəraşlıdan istifadə diqqəti cəlb edir. Bunlar hamısı daşdan yonulub və memarlıq detalları kimi mükəmməlliyə çatdırılmışdır. Yaşayış binası - memar İ.V.Edelin yaradıcılığında ən yaxşı işlərdəndir biri və memarlıq abidəsidir.

**Kolyubakinskaya küçəsi** (N.Rəfibəyli) şəhərin tarixi məhəllələrinin mərkəzində kiçik bir hissədə yerləşir, 1860-cı illərin əvvəlində meydana gəlmişdir. Burada, memarlıq irsinə arxitektur abidələr



*Orlovskaya küçəsi., 3. Mitrofanovun yaşayış evinin fasadının fraqmenti.*



*Orlovskaya küçəsi., 3. Mitrofanovun yaşayış evi. Fasadın fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*



*Kolyubakinskaya küçəsinin planı.*

kimi daxil olan bir - və ikimərtəbəli əsaslı yaşayış evlər inşa edilmişdir. Stilistika cəhətindən order sistemində inşa ediliblər, fərdi xüsusiyyətlərdən asılı olaraq ciddi və ya zəngin plastik formada təqdim olunmuşdurlar. Bir çox evlərin üzərində milli ustaların iştirakı ilə yerli inşaat məktəbinin izi müşahidə olunur. Binaların arasında memarlıq və bədii dəyəri ilə 35 saylı ev (memar - M.M.Q. İsmaylov, 1888-ci il), Ağa Musa Nağıyevin icarəyə verilməsi üçün nəzərədə tutlan evi, Mariinskaya tini (R.Rza), mülki mühəndis İ.K.Ploşko (1910-cu il) məxsusi olaraq seçilir.

**Kolyubakinskaya küçəsi** (N.Rəfibəyli), **9, Persidskaya** (M.Muxtarov) **küç.** tini, **10** (1892-ci il). Yaşayış evidir - küçənin ən maraqlı, özünün kamera üslublu həcmi - fəza kompozisiyası və neobarokko üslubunda olan memarlığı, eyni zamanda fasad, memarlıq motivləri və dekorativ detalların çox incəliklə təsvir edilməsi ilə fərqlənən tikililərindən biridir. Fasadın üzərində cüt pəncərələri ilə kompozisiyanın mərkəzini təşkil edən portal hissə məxsusi olaraq seçilir. Haşiyələrin çox zərif profilləri və aralıqların (divarın pəncərə və qapılar arasındakı hissəsi) dekorativ motivləri ilə pəncərə oyuqlarınının ahəngliyi yaşayış evinin mahiyyətini açıqlayır. Üzərinə suvaq çəkilmiş fasad və portal işlənilmə və yerinə yetirilməsinə görə daş üzərindəki ənənəvi işləmədən geri qalmırlar və yüksək ustalığı ilə fərqlənirlər. Malikanə üslublu tikililərə aid olan bu bina, memarlıq irsinin bir hissəsi və memarlıq abidəsidir.

*Kolyubakinskaya küçəsi., 9. Yaşayış evinin fasadının fraqmenti. 1892-ci il.*



**Kolyubakinskaya küçəsi** (N.Rəfibəyli), **11** (1899-cu il). Yaşayış evidir, küçənin tikililəri sırasına çox gözəl şəkildə daxil edilmişdir və tarixi irsin elementi olaraq öz memarlıq funksiyasını daşıyır, qonşu ərazilərdə yerləşən evlərə uyğunlaşaraq, şəhər mərkəzinin bu hissəsi üçün səciyyəvi olan mühiti formalaşdırır.

**Kolyubakinskaya küçəsi** (N.Rəfibəyli), **35**, Qubernskaya (Nizami) döngəsinin tini, 2 və Qubernskaya - Torqovaya (Nizami), 44. Yaşayış evidir, 1888-ci ildə memar M.M.Q.İsmayılov tərəfindən inşa edilmişdir, üç küçəyə yönəlib, bununla da şəhərin tarixi mərkəzi strukturunda onun şəhərsalma mahiyyəti möhkəmləndirilmişdir. Bina, aralarında cüt pəncərələrin olduğu şaquli kürəklər ahəngliyinə və birinci mərtəbə böyük mağaza oyuqlarına bölünmüşdür. Burada hissələrə bölünmənin ciddiliyi, pəncərə haşiyələrinin yumşaq plastikası və kürəklərin dərin çıxıntılı hörgüsü və vitrinlərin qıfıl daşları ilə uyğunlaşır. Klassik üsulların və daş memarlığı motivlərinin sərbəst ifadəsi, İsmayılovun yaradıcılığında evin əhəmiyyətini əvvəlcədən müəyyən etmişdir. Yaşayış evi - memarlıq irsinin bir hissəsi və memarlıq abidəsidir.

**Kolyubakinskaya küçəsi** (N.Rəfibəyli), **37** (ikinci fasad Qubernskaya - Torqovaya, 46 küç. çıxır, 1895-ci il). Yaşayış evidir, order sisteminin klassik formalarında inşa edilmişdir. İki yan rizalitlə (binanın irəli çıxan hissəsi) və pəncərə oyuqlarının ahəngliyi ilə fasadın bütün kompozisiya əsası göstərilmişdir. Burada

*Kolyubakinskaya küçəsi., 37. Yaşayış evinin ümumi görünüşü. 1895-ci il.*



frontonlar ilə ionik sütunların portal formasında olan oxlu izahı vurğulanmışdır. Memarlıq elementlərinin dolğunluğu və ikinci mərtəbənin həcmli plastikası şəhər memarlıq abidələri sırasına daxil olmuş yaşayış evinin kompozisiyasının bütün mahiyyətini göstərmişdir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun). Dəniz kənarında başlayır və 12-ci Naqornaya rayonunda başa çatır. Şəhərin əsas meridional arteriyalarından biridir. XIX-XX əsrlərin sərhədində mərkəzi məhəllələr rayonunda əsasən üçmərtəbəli əsaslı yaşayış evləri inşa edilmişdir. Bütün uzunluğu boyunca dəqiq istiqamətə malikdir, yalnız eni dəyişir. Tikili order sisteminin klassik üsulları apogeydə olduğu dövrə təsadüf edir. Binaları fasadların zəngin plastikası, həcmli elementlərlə, eyvanlarla dolğunluğu, yüksək mədəniyyətli inşaat işləri fərqləndirir. Memarlıq elementləri və əhəngdaşdan olan detalları mükəmməlliyə çatdırılmışdırlar. Binanın bəzi küncləri qala həcmləri ilə vurğulanıblar. 1950-ci illərdə Krasnovodskaya (Səməd Vurğun) və Qubernskaya - Torqovaya (Nizami) küçələrinin kəsişməsində memar S.A.Dadaşov və memar M.A Hüseynov tərəfindən milli - romantik istiqamətdə olan beşmərtəbəli yaşayış binaları inşa edilmişdir. Küçənin yuxarı hissəsində, təpədə memarlıq və şəhərsalma aksenti kimi yaxşı işləyən sirk inşa edilmişdir. Əsası 1898-1900-cü illərdə mühəndis N.A. fon der Nonne tərəfindən qoyulmuş Bakının baş planında küçə sirk

*Kolyubakinskaya küçəsi., 38. Yaşayış evinin ümumi görünüşü. 1896-cı il.*





*Krasnovodskaya küçəsinin planı.*

rayonunda geniş bulvar əvəzinə ensiz yaşıl zolaqda yerləşirdi.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), 7 (1898-ci il). Yaşayış evidir, öz həcmi, miqyaslığı və klassik formaların azad təfsirində olan memarlıq həllinin xarakteri ilə şəhərin bu hissəsinin memarlıq - planlaşdırma strukturunda üstün mövqe tutur. Klassik formalarda olan monumental fasadlara, memarlıq kütlələrinin mütənasib bölünmələri, künc və ön tərəfin tinləmələri, order sisteminin ünsürlərinin məharətli istifadəsinə görə bu ev Bakının arxitekturasında böyük əhəmiyyət kəsb edirdi. Oyuqların gözəl ahəngliliyi mərtəbələrin plastik çıxıntılı



*Krasnovodskaya küçəsi., 12. Ağa Musa Nağıyevin qış İctimai məclisinin binasının ümumi görünüşü. Mülki mühəndis A.S. Kandinov. 1890-cı illər.*



hörgüsü ilə uyğunlaşır. Böyük ustalıqla yonulmuş daş detalların işlənilməsi heyran edir. Edelin yaradıcılığında ev mühüm yer tutur və memarlıq abidəsidir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **12** və Birjevaya küç. tini (Ü.Hacıbəyov), 11. Ağa Musa Nağıyevin qış İctimai məclisinin keçmiş binasıdır, mülki mühəndis A.S.Kandinov tərəfindən 1890-cı ildə inşa edilmişdir, kifayət qədər böyük tikilidir və şəhərin tarixi mərkəzinin şəhərsalma strukturunda mühüm yer tutur. Krasnovodskaya küçəsi (Səməd Vurğun) tərəfindən olan əsas fasad mərkəzdə yüksək mərtəbələrin sayı ilə seçilir, order sisteminin iri formaları ilə həll edilmiş-



*Krasnovodskaya küçəsi., 12. Ağa Musa Nağıyevin qış İctimai məclisinin binası. Qərb fasadının fraqmenti.*



dir, burada italyan renessansının üsul və elementlərindən istifadə edilmişdir. Fasadın əsas bölünmələrinin üslub təmkinliyi ilə bərabər (relyef baxımından həll edilmiş, iki yuxarı mərtəbəni zalın palladian pəncərələri ilə birləşdirən pilyastrın (bir tərəfi divara bitişmiş dördkənarlı sütun) yerləşdirilməsi və detalların plastik işlənilməsi) ümumi kompozisiyada stilləşdirmə (bir sənət əsərinə müəyyən üslubun (stilin) xüsusiyyətlərini vermə) dövrünün prinsipləri qorunub saxlanılır. Bina ciddi fasadları, oyuqlarının ahəngliyi, detalların əminliklə ifadə edilməsi ilə fərqlənir. Kandinovun yaradıcılığında - ən yaxşı işidir və memarlıq abidəsidir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **13**, Qubernskaya - Torqovaya (Nizami) küç. tini 64 (1911-ci il). Yaşayış evidir, tarixi mərkəzin fəal həcmli - fəza elementidir və şəhərin künc hissəsinin şəhərsalma mövqeyində üstün yer tutur.

*Krasnovodskaya küçəsi., 12. Ağa Musa Nağıyevin qış İctimai məclisinin binası. Qərb fasadının fraqmenti.*



*Krasnovodskaya küçəsi., 13. Yaşayış evinin ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*

*Krasnovodskaya küçəsi., 13. Yaşayış evinin şimal fasadı. 1913-cü il.*



*Krasnovodskaya küçəsi., 13. Yaşayış evinin fasadının fraqmenti.*



*Krasnovodskaya küçəsi., 13. Yaşayış evinin şimal fasadının fraqmenti.*



*Krasnovodskaya küçəsi., 13. Yaşayış evinin şimal fasadının fraqmenti.*



*Krasnovodskaya küçəsi., 22. Yaşayış evinin qərb fasadının fraqmenti.*

Künc qülləsi olan evdir, çox mənzərəlidir, üslubda bir qədər klassisizm hiss olunur, bütövlükdə - açıq eklektikadır. Burada erkerin bütün fasad boyu uzadılmış eyvanla və kronşteynlərin inkişaf etmiş formaları ilə vurğulanan maraqlı uyğunlaşmasını görmək olar. Yaşayış evi - XX əsrin əvvəlinin memarlıq abidəsidir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **19**, Aziatskaya (A.O. Quliyev) və Karantinnaya (H.Aslanov) küçələrinin tini, 1886-cı il. Keçmiş yaşayış evidir (hal hazırda mətbəədir), memarlıq formalarının təmkinliyinə baxmayaraq üç küçəyə yönələn sahədə yerləşdiyinə görə, şəhərin bədii cəhətdən dəyərli binaları üçün mühit olaraq tarixi mərkəzin strukturuna çox uğurla daxil olmuşdur.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **21**, Aziatskaya (A.O.Quliyev) küçəsinin tini, 133, Kamennstoy (B.Səfəroğlu), 172 (1896-cı il). Tağıyev qardaşlarının yaşayış evidir, məhəllənin geniş sahəsini tutur, Bakının tarixi mərkəzinin ətraf tikililəri arasında arxitektur - planlaşdırma mütəşəkkilliyi ilə seçilir, burada bina həcmi - fəza strukturuna görə üstünlük təşkil edir. Üçoxlu kompozisiya sistemi rizalitlərlə, mərkəzdə isə erkerlə qeyd edilmişdir. Dərin çıxıntılı hörgüsü və birinci mərtəbədə olan mağaza vitrinlərinin böyük oyuqları ilə sərbəst Bakı təfsirində olan klassik forma və üsullar baş fasadın həllinin əsasını təşkil edir. Burada memarlıq plastikası özünəməxsus təfsirdə və pəncərə oyuqlarının səlis ahəngliyi eklektika dövrünün memarlıq abidəsi olan yaşayış evinin üslub istiqamətini əks etdirir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **22, Karantinnaya** (H.Aslanov)

*Krasnovodskaya küçəsi., 22. Yaşayış evinin ümumi görünüşü. 1900-cü il.*




КАФЕСИ





**küç.** tini, 1900-cü illər. Yaşayış evidir, şəhərin tarixi mərkəzi sistemində künc sahəni əhatə edir. İtalyan intibah dövrünə məxsus formalarda olan mənzərəli fasad, Bakı memarlarının şəhər şəraitində bu klassik sistemə rəğbətini və bağlılığını çox gözəl əks etdirir. Xüsusi olaraq nəzərə çarpdırılan künc və fasad üzərində olan iri Korinf orderi ilə yan rizalitlər binanın kompozisiya strukturuna ahəngdarlı şəkildə daxil olmuşdurlar. Pilyastrın şaquli təfsir edilməsi ilə daş kronşteynlərlə üfüqi şəkildə uzadılmış eyvanlar müqayisə edilir. Fasadların bütün səthi, mərtəbələrin sırasına mütənasib şəkildə yonulmamış daşla hörülmüşdür. Daşdan olan memarlıq detalları sanki yapılıblar, Bakı ustalarının icrasında onlar çox mükəmməldirlər. Yerli ustalar Şərq memarlığı haqqında yaxşı məlumata malik olmaqla yanaşı, Avropa memarlıq formalarını tez bir zamanda öyrənmişdirlər, bu da təbiətdə bu cür maraqlı obyektlərin meydana gəlməsinə şərait yaratmışdır. Bina - öz dövrünün memarlıq abidəsi və Bakı şəhər tarixi irsinin bir hissəsidir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **24**, Aziatskaya (A.O.Quliyev) küç. 134 tini, və Karantinnaya (H.Aslanov) küç. tini. Dadaşovlar ailəsinin çoxmərtəbəli mədaxil evidir, 1916-cı ildə mülki mühəndis F.A.Nikulin tərəfindən inşa edilmişdir. Şəhərin tarixi mərkəzinin şəhərsalma sistemində məsuliyyətli (vacib) rol oynayır, rasionalizm istiqamətində olan öz monumental və ağır fasadları ilə Bakı şəhər memarlığında yeni üslubu əks

*Krasnovodskaya küçəsi., 22. Yaşayış evi. 1-ci mərtəbənin planı.*

*Krasnovodskaya küçəsi., 22. Yaşayış evinin fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*



*Krasnovodskaya küçəsi., 22. Yaşayış evinin qərb fasadının fraqmenti.*



*Krasnovodskaya küçəsi., 22. Yaşayış evinin qərb fasadının giriş portalı.*



*Krasnovodskaya küçəsi., 22.Yaşayış evinin fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*

etdirir. Yaşayış evidir - Nikulinın ən uğurlu işlərindən biri və memarlıq abidəsidir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **25** (1880-ci illər). Quberniya idarəsinin keçmiş binasıdır, kiçik şəhər bağçasının yanında uğurlu yerləşməsinə görə, şəhərin bu hissəsinin inşaasında şəhərsalma baxımından rolu böyükdür. Fasadlar rus klassisizmin ciddi formalarında icra edilmişdirlər. Kürəklərin səlis şaquli ahəngliyi və eyvanlar ilə olan yüksək mərkəzi hissə cüt pəncərə oyuqlarının ahəngliyi ilə əsas fasadın arxitektur kompozisiya xarakterini müəyyən etmişdirlər. Bina, şəhərin bədii cəhətdən dəyərli tikililəri üçün mühitdir.

**Krasnovodskaya küçəsi** (Səməd Vurğun), **76.** "İttifaq" məscidi (2 mart 1912 - 3 dekabr 1913-cü il) dini tikilinin maraqlı nümunəsidir. Məscidin layihəsi Əhmədbəyov tərəfindən tərtib edilmişdir, 1911-ci ildə isə təsdiqini tapmışdır. 1912-ci ildə Qanlı - Təpə rayonunda Bakının az sayda tikinti işlərinin həyata keçirildiyi şimal - şərq hissəsində, Krasnovodskaya küçəsi, 76 və Kanni-Tepinskaya küçələri tinində birmərtəbəli köhnə tikilinin yerində məscid binasının təməlinin qoyulması baş tutmuşdur.

Məscid Krasnovodskaya küçəsinə nisbətdə künc altında yerləşir, bunun da sayəsində onun həcmli görünüşə malik olması təsəvvürü yaranır və həyət tərəfdən çox yaxşı görünür. Həyətin sərhədləri, üzərində məscid binası yüksələn təpənin kənarı boyunca keçir, burada birmərtəbəli tikili ilə vadi açılır. Təpə, məscid üçün bu rayonun ətrafda olan az əhəmiyyət kəsb edən tikililərindən azad olan özünəməxsus təbii pyedestaldır. Məscid landşafta çox yaxşı daxil olmuş və hər zaman fokusdadır, hansı tərəfdən baxmaqdan asılı olmayaraq insanların diqqətindədir. Binanın bu cür seyr edilməsi - şəhər şəraitində tikililərdə rast gəlinən nadir keyfiyyətdir. Şübhəsiz ki, bu yerin topoqrafik imkanları memar tərəfindən məharətlə istifadə edilmişdir və məscidin həcmli inşasında öz müsbət rolunu oynamışdır.

Təzə-Pir məscidindən fərqli olaraq "İttifaq"-ın ümumi plan həlli daha mərhəm rol oynayır bu isə, onun məhəllə məscidi kimi təyinata malik olması ilə müəyyən edilir. İbadət zalının əsas kvadrat həcminə şərqdən - portal - vestibül, arkada - eyvan və küncdə ayrıca yerləşən minarə, şimaldan - qadınlara aid ikimərtəbəli həcm, cənub - qərbdən isə - mihrab birləşir.

Yonulmuş hündür baraban üzərində günbəzi olan ibadət zalının həcmi və kvadrat bünövrə üzərində mükəmməl formada olan minarə, "İttifaq" məscidinin arxitektur kompozisiyasının əsasını təşkil edirlər. Gözəl proporsiyaları olan portal və ona birləşik yerləşən arkada - eyvan dini tikilinin əsas komponentlərini ayrılmaz surətdə tamamlayırlar. Təzə-Pir və Əmircandakı Muxtarovskaya məscidlərindən fərqli olaraq, burada yüksək baraban üzərində olan günbəz kompozisiyanın açıqlanmasında və obrazın formalaşmasında daha fəal iştirak edir.

Alçaq baraban üzərində yastı günbəzdən istifadə etməməkdə müəllifin, inkişaf etmiş baraban konstruksiyası vasitəsi ilə məscidin ümumi siluetində onun əhəmiyyətini və rolunu məxsusi olaraq qeyd etmək cəhdi görünür. Beləliklə, günbəz artıq yalnız geniş məkanın daxili fəzasını təşkil edən həcmli element kimi



*Krasnovodskaya küçəsi., 76. Hacı Əjdər bəy Aşurbəyovun "İttifaq" məsçidinin cənub fasadı. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1912 -1913-cü illər. Ş.S. Fətullayevin rəsmi.*

*Krasnovodskaya küçəsi., 76. Aşurbəyovun məsçidinin şərq fasadının ümumi görünüşü. Mülki mühəndis Zivər bəy Əhmədbəyov.*



deyil, eyni zamanda arxitektur kompozisiyanın üstünlük təşkil edən əsas forması kimi iştirak edir. Bakı - Abşeron bölgəsinin əvvəlcədən gözdən keçirilən dini tikililərində məxsusi olaraq Təzə-Pir və Muxtarovskaya məscidlərində günbəz həcmli ifadə edilmişdir, lakin burada "İttifaq" sonra isə, Şamaxinka rayonundakı Soltan - Əli məscidindəki kimi inkişaf etdirilmiş formada deyildir. "İttifaq" məscidində ibadət zalının əsas həcmi ilə onunla bütövlük təşkil edən və tikilinin ümumi xarakterində aparıcı yeri müəyyən edən, memarlıq cəhətdən işlənmiş günbəz müqayisə edilir.

"İttifaq"-ın fəza strukturu həcmlərin artması təzadı üzərində və memarlığın yerli və şərq elementlərindən istifadə əsasında qurulmuşdur, bu isə daha effektli və mənzərəli tikilini inşa etməyə şərait yaratmışdır. Məğrib ölkələri memarlığının, məxsusi olaraq arkada - eyvanın həllində, nalşəkilli alaqapılarla olan portalın kompozisiyasında və detalların səciyyəvi ornamentli işlənilməsində müəllifə təsiri nəzərə çarpacaq qədər hiss edilir. Bu və ya digər tikilinin layihələndirilməsində memarlar həmin dövrdə məlum memarlıq nümunələrinə sərbəst müraciət edirdilər. Məscid layihəsinin tərtibatında Əhmədbəyov təbii olaraq müsəlman memarlığının ənənələrindən istifadə etmişdir. "İttifaq" məscidində portalın bəzi element və detallarının rəsmi, "şərəfə" stalaktit (mağaraların tavanında sızan damcılardan əmələ gələn əhəngli ərp) karniz, divarların ornamentli fon şəkilləri - bu memarlıq elementlərinin Təzə-Pir məscidinin arxitekturası ilə bənzərliyi haqqında xəbər verir, lakin bu, müəllifə silueti və bədii kompozisiyasına görə maraqlı və olan müstəqil memarlıq əsəri yaratmağa mane olmayıb.

Məscid XX əsrin memarlıq abidəsi kimi şəhərin müasir tikililəri sırsasına çox uğurla daxil olmuşdur. Divarların üzlənməsi, memarlıq detallarının işlənilməsi, daşların üzərində oyma işlərinin aparılması rəssam - bənnalar tərəfindən çox böyük ustalıqla yerinə yetirilmişdir. "İttifaq" məscidinin inşasını oyma ustası kimi Təzə-Pir və Bakı şəhər Dumasının inşasından tanınan usta Salman Atayev yerinə yetirmişdir.

Bakı - Abşeron bölgəsinin dini tikililəri arasında böyük maraq doğuran Persidskaya və 1-ci Qanlı - Təpə tinində yerləşən Soltan-Əli məscididir. Layihə 1910-cu ilin sonunda - 1911-ci ilin əvvəlində tərtib edilmişdir, 1912-ci ilin yanvarında isə təsdiqlənmişdir.

Tikilinin müəllifini müəyyən etməkdə çətinliklər yaranır, çünki məlum olduğu kimi məscidlərin layihəsi Z.-b. Əhmədbəyov və İ.K.Ploşko tərəfindən tərtib edilmişdir. Lakin Ploşko tərəfindən Bakıda hər hansı bir tikilini inşa edib-edilməməsi ilə bağlı suala cavab vermək bir qədər çətindir, çünki Əhmədbəyovun arxivində aşkar edilən və onun 1909-cu ildə tərtib etdiyi layihələrin iki surəti Şamaxı Cümə - Məscidinə və həyata keçirilməmiş məscidin layihəsinə aiddir. Məlum olmayan məscidin layihəsində 1909-cu ildən sonra Bakıda inşa edilmiş məscidlər ilə oxşar olan heç bir xüsusiyyət aşkar edilməmişdir. Sentrik xarakter daşıyan bu layihədə məscid dəqiq xəttlər, ümumiləşdirilmiş formalar, memarlığın bir qədər modernist şəkilləri ilə işlənilmişdir. Minarənin şaquli hissəsi türk memarlığının açıq təsiri altında ay-

dın çəkilmişdir, baraban üzərində olan günbəz isə, Orta Asiya mənşəlidir. Buna baxmayaraq, memarın, tikiliyə daha da müasir planda yanaşması, hamıya məlum olan müsəlman memarlığının ənənəvi formalarından müəyyən dərəcədə kənarlaşması, tikilini yeni üsullarla həll etməsi təşəbbüsü müsbət əhəmiyyət daşıyırdı.

"Soltan - Əli" məscidi, künc sahənin küçəyə münasibətdə yerləşmə mövqeyini nəzərə alaraq Şərq memarlığının ənənəvi formalarında inşa edilmişdir. Sahənin kiçik ərazisi (450 kv.m) istər məscdin daxili həcminin istərsə də həyət fəzasının dəqiq planlaşdırmasının təşkil olunmasını tələb edirdi. Ərazinin məhdudluğu sifarişçilərin monumental dini tikilisi inşa etmək tələblərini istisna etmirdi. Bu cür tapşırıqda şaquli həcm kompozisiyasına ehtiyac var idi və bu da müəllif tərəfindən təklif edilmişdir. Sahənin künc hissəsi kiçik həyət kimi istifadə edilmiş, digər bir hissəsini isə, vestibüllə ibadət zalı və minarə ilə əlavə tikili əhatə etmişdir.

Məscidin minarəsi Persidskaya küçəsinə ibadət zalı isə, Qanlı-Təpə küçəsinə çıxırdı, bununla da daş hasar və darvazanın ön alaqapılarına sayəsində sanki dərin tikintini yaradırdı. Tikilinin çıxışı yarıqaranlıq vestibülə aparır, buradan ziyarətçi oktoqonal formalı, oxvari profili olan alaqapı - camaxatanı olan işıq dolu ibadət zalına daxil olur. Zalda kompozisiyanın aydın ifadə edilmiş şaquliliyı üstünlük təşkil edir. Daxili məkanın dərinliyə və perspektivə malik olduğu Bakı - Abşeron bölgəsinin digər məşçidlərindən fərqli olaraq, bu ibadət zalında şaquli üstünlük təşkil edir: zalın təqribən 22 metrlik hündürlüyü bölünmələrin (hissələrə ayrılması) digər ahəngliyini, digər bədii - arxitektur səslənməni yaradır.

Məscid kompozisiyasının şaquliliyi, onun memarlıq həlli müəyyən dərəcədə binanın İ.K. Ploşkonun əsəri olması kimi fikrin yaranmasına gətirib çıxarır

Bakı - Abşeron bölgəsinin dini tikililərində ibadət zalının inşa edilməsində maraqlı xüsusiyyət müşahidə edilir: interyerlərin tərtibatında müəyyən üslublaşdırma və eklektikaya baxmayaraq, tikilinin memarlıq - konstruktiv quruluşu məkan həllinin əsasını təşkil edən iri oxvari alaqapılar üzərində həyata keçirilmişdir. Onlar yerli memarlıq ənənələrinin özünəməxsusluğunu və XIX - XX əsrlərin sərhədində onların möhkəmliyini açıqlayan əsas elementlərdir. Şəhərin yuxarı hissəsində, Poçtovaya və V. Naqornaya küç., 14 tinində inşa edilmiş Haşımovskaya məscidini (memar - A.V.Eyxler, 1899 -1909-cu illər) maraqlı dini tikililərə aid etmək olar.

Bu nümunədə, dini tikililəri memarlığının yaşayış məhəllələrinin cərgə şəklində inşa edilmiş tikililərinə təsirini, ətraf mühitin həcmi - fəza strukturunun dəyişilməsini və şəhər tikilisinin səciyyəvi siluetinin meydana gəlməyini görmək olar.

Bakının kütləvi yaşayış tikintisi kompozisiyanın şaquliliyı ilə fərqlənmirdi, əsasən o, yaşayış binalarının kub həcmləri ilə təqdim edilmişdir. Məhz bu səbəbdən Bakı amfiteatrının terrassalarında yerləşmiş minarələrinin vertikalları ilə və günbəzlərin görkəmli həcmləri ilə dini tikililəri şəhər tikilisinin çoxpilləli tipik şəklini yaradırlar. Hazırda şəhərin tarixi



*Krasnokrestovskaya küçəsinin planı.*

məhəllələrinin yenidən qurulmasında bunu nəzərə almamaq olmaz, çünki etinasızlıq dəyərli mədəni irsin memarlıq xüsusiyyətlərinin itirilməsinə aparır.

Haşımovskaya məscidi küçələrin qırmızı xəttindən bir qədər uzaqlaşıb və hündür hasarla əhatə edilmişdir. Darvazadan daxil olarkən, ziyarətçi həyət məkanının ensiz zolağına düşür. Uzadılmış proporsiya portalı həyət məkanının mehvərində yerləşir. Portaldan sonra vestibül yerləşir, buradan zalın üçnefli planlaşdırılmış və mehrabla qurtaran strukturu açılır. Özəklərin günbəzini saxlayan alaqapıların profili - ənənəvi oxvaridir. Bu cür arxitektur - planlaşdırma sistemi, nəzərdən keçirilən dövrün məscidləri üçün klassik olub. Alaqapıların əvvəlki köndələn yerləşməsi ilə mərkəzi nefin kəsişməsində, sütunların üzərində, alaqapıların sakit ritminə və məscidin daxili məkanına dinamika əlavə edən baraban üzərində günbəz ucaldılmışdır. Günbəz memarlıq formaların yerli həlqəsini pozur və bununlada ibadət zalının kompozisiyasını səslənməyə eyni zamanda öz həcm və silueti ilə küçəyə "xidmət göstərməyə" məcbur edir.

Haşımovskaya məscidi binasının ümumi kompozisiya və planının memarlıq həlli - plastikdir.

Məscidin ümumi fonunda lociyaların, alaqapılarının dəliklərinin iri formalarında açıqlanan, bütövlüklə şəhərə baxan və yerin relyefinə görə hündür stilobat üzərində yer alan (sütunlar üçün özül) şərq fasadı maraqlı görünür.

Cənubda məscidin arxitektur kompozisiyasını minarənin incələşdirmə ilə zərif şəkilli şaquliliyi tamamlayır, Bakı - Abşeron bölgəsinin digər məscidlərinin minarə memarlığı ilə eyni cizgilərə malikdir, lakin öz fərdiliyini qoruyub saxlamışdır.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), öz inkişafına 1880-ci illərin sonunda, **Nikolayevskaya** (İstiqlal) **küçəsi** müəyyən dərəcədə müqəddəs Nina keçmiş qadın müəssisəsinin ərazisində formalaşmışdır. Məhz bu məktəbdən küçə Dağlıq hissəyə, şəhərin qərb hissəsinə, Çəmbərəkənd ərazisinə istiqamət alıb. Kiçik bir hissədə yerləşir, sərt yoxuşludur, əsasən yaşayış profilli müxtəlif mərtəbəli binalar inşa edilmişdir. Binalar kapital, memarlıq cəhətdən klassik forma və üsullarda ifadə edilmişdir, lakin

yerli Bakı bədii elementlərindən istifadə də hiss olunur, bu isə öz təzahürünü "şüşəbənd" eyvanlarının həllində və öz spesifik görünüşü olan həyət məkanının xarakterində tapmışdır.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **3**. Burada Sovet hökuməti qurulana qədər İran konsulluğu yerləşirdi. Üçmərtəbəli yaşayış evidir, 1913-cü ildə inşa edilmiş və şəhərin tarixi mərkəzi strukturuna fəal vahid kimi daxil olmuşdur. Fasadın mənzərəli memarlıq kompozisiyası ampir üslubunda olan üsullar üzərində qurulub. Fasadın erkerlər hesabına vurğulanan şaquliliyi və İoniya orderin pilyastrlarının müəyyən ahəngliyi, ona səciyyəli pilləli nüktə və yarımçevrə şəkilli pəncərə ilə diqqəti cəlb edirlər və Bakı memarlığında vətəndaşlıq hüququ alaraq şəhər tikilisi sırasına uğurla daxil olmuşlar.

Pəncərə altında ampir şəklində əla yerinə yetirilmiş daş detalları, antik məşəllər ilə dəfnə yarpağından çələngə haşiyəyə salınan şir maskaları və pilyastrların nazik yonulmuş İonik kapitelləri memarlığın qiymətli daşları kimi fasad üzərində öz yerini tapıblar. Bina - şəhərin tarixi irsinin ayrılmaz hissəsi və memarlıq abidəsidir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **8.** İkimərtəbəli yaşayış evidir, evin tikinitisi 1896-cı ildə memar Y.Y.Skibinskiy tərəfindən həyata keçirilmişdir, binanın üst qatı 1950-ci illərdə inşa edilmişdir. Küçənin cərgə şəklində inşa edilmiş tikililəri sisteminə daxildir, lakin öz klassik memarlıq formaları ilə, plastik ifadənin zənginliyi ilə, nazik yonulmuş daş detalları ilə ətraf tikililərin fəal həcmli elementlərindən biri kimi seçilir. Bakı tikililərini fərqləndirən yüksək inşaat mədəniyyəti burada da tam gücü ilə özünü biruzə verir və Bakının tarixi irsinə kapitalizm dövrünün memarlıq abidəsi kimi daxil olmuş bu emosional əsəri yaradan memar və ustalara dərin hörmət hissini aşılayır.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **9.** İkimərtəbəli yaşayış evidir, 1897-ci ildə inşa edilmişdir, mənzərəli asimmetrik kompozisiyası ilə birinci mərtəbənin qabarıq çıxıntılı hörgüsündə ifadə olunan, üfüqi bölünmələrində, ikinci mərtəbənin yarımçevrə şəkilli pəncərələrində klassik üsul və formaların istifadəsi ilə fərqlənir. Binanın əsasına memarın ilhamı və bənnaların böyük ustalığı qoyulmuşdur. Bu, yonulmamış daşın, alaqapıların, kapitellərin və eyvan altında daş kronşteynlərin nazik profillərinin aydın çəkilməsində görünür. Kronşteynlərin daşda aydın çəkilməsinin məharətlə yerinə yetirilməsi sadəcə heyrətləndirir, profil, mürəkkəb ornamentli motiv ilə dərin oyma məharətlə yerinə yetirilmişdir. Yaşayış evi küçənin bütün tikililərinin üslub istiqamətini əks etdirir və memarlıq abidəsidir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **10.** İkimərtəbəli yaşayış evidir, tikintisi 1889-cu ildə aparılmışdır, binanın üst qatı 1950-ci illərdə inşa edilib. Öz memarlıq kompozisiyasına görə vurğulanmış mərkəz, təmkinli yan hissələri ilə simmetriyanın klassik nümunəsidir, fasadın zəif relyefliyinə baxmayaraq burada mərtəbələrin çıxıntılı hörgüsü ilə, pəncərə sandriklərinin şəkili ilə, üfüqi şəkildə hissələrə ayrılmalar yolu ilə kompozisiyanın əsas xüsusiyyətləri aşkar edilmişdir. Yaşayış evi tarixi mərkəzin şəhərsalma sisteminə fəal daxil olmuşdur və memarlıq abidəsidir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **11.** İkimərtəbəli yaşayış evidir, 1901-ci ildə inşa edilmişdir, ərazinin relyefinə və plastik memarlıq kompozisiyasına görə fəal şəhərsalma funksiyası daşıyır, fasad üzərində bir qədər sakit modern hiss olunur, qabarıq çıxıntılı hörgüdən, tinləmə ilə nazik bölünmələrdən, memarlıq detalları ilə daş üzərində oymadan da istifadə olunub. Eyvanların metal qəfəsi və onun bitki formasında olması diqqəti cəlb edir. Bunlar hamısı fasad strukturunun mənzərəliyini və binanın ətraf tikililərə emosional təsirini müəyyən edir. Ev tarixi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **12.** Üçmərtəbəli yaşayış evidir, 1895-ci ildə iki mərhələdə inşa edilmişdir: 1880-ci illərdə - birinci mərtəbə, sonra isə XIX-XX əsrlərin hüdudunda daha iki mərtəbə tikintisi aparılmışdır. Fasad üzərində mərtəbələrin arxitektur həllini asan görmək olar. Birinci mərtəbə, 1880-ci illərdə şəhər tikilisinin formalaşması mərhələsində şəhər memarlığının istiqamətini əks etdirir. Bu memarlıq sənətinin bədii təzahürlərinin mahiyyətini məxsusi şəkildə başa düşmədən Avropa memarlıq sistemindən istifadə dövrü idi. Yaşayış evinin fasadının həllində formal olaraq klassik üslublu istiqamət formalarından istifadə etmək təşəbbüsü irəli sürülmüşdür. Burada üfüqi bölünmələr və yaxın yerləşdirilmiş pəncərələrin ahəngliyi ilə müəyyən plastika mövcuddur.

İki yuxarı mərtəbə, Bakı memarlığına modern motivlərindən istifadəyə başlandığı dövrdə inşa edilmişdir, lakin daha təmkinli ifadədə. Yuxarı mərtəbələrin plastikası məhz bu planda işlənilmişdir, baxmayaraq ki, ordersiz sistemin prinsipləri öz gücünü qoruyub saxlayırlar. Bu yaşayış evi iki stilistik sistemin memarlıq həllinin maraqlı nümunəsi və memarlıq abidəsi olaraq şəhərin tarixi irsinə daxil olmuşdur.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **13.** İkimərtəbəli yaşayış evidir, 1898-ci ildə ordersiz sisteminin prinsipləri əsasında inşa edilmişdir. Rizalitlərlə vurğulanan fasadın simmetrik arxitektur kompozisiyası küçənin ümumi tikililərinə fəal şəkildə daxil olmuşdur və divarların yonulmamış daşlarına görə, pəncərələrin qabarıq sandriklərinə görə və mərtəbələrin mütanasib bölünməsinə görə müəyyən bədii funksiya daşıyır. Yaşayış evi şəhərin memarlıq irsinin əsasını təşkil edən tikililərdəndir, dövrün üslub istiqamətini əks etdirir və memarlıq abidəsidir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **14.** Hamam binasıdır, 1886-cı ildə inşa edilmişdir, şəxsi istifadə üçün nəzərdə tutulan otaqlar ilə, lakin fasadların şərq memarlığı üslubunda işlənməsi ilə Avropa üslublu ilk binalardandır. Onun künc sahədə yerləşməsi, modelləşməsinin səciyyəsii və memarlıq kompozisiyası tarixi irsin ayrılmaz hissəsini təşkil edir və memarlıq abidəsi olaraq şəhər strukturunda bu obyektin əhəmiyyətinin təsdiqi kimi xidmət edir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **15.** İkimərtəbəli yaşayış evidir, həmin dövrdə Bakı şəhərinin təcrübəsində geniş yayılmış klassik istiqamətə malik Avropa memarlıq sisteminin prinsipləri əsasında 1893-cü ildə inşa edilib. Şərq zövqündə olan əla interyerlər yaşayış və təmtəraqlı otaqların həllinin əsasına daxil edilmişdir. Təmkinli memarlıq kompozisiyası,

inşaatın yüksək keyfiyyəti və fasadın plastikası ilə yaşayış evi tarixi məhəllələrin səiciyyəsni müəyyən edir, Bakı memarlıq irsinin bir hissəsidir və bədii baxımından dəyərli binalar üçün mühitdir.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **17,** Parkovaya (Mehdi Hüseyn) küçəsinin tini. Üçmərtəbəli yaşayış evidir, 1896-cı ildə memar Y.Y.Skibinskinin layihəsi əsasında inşa edilmişdir, 1950-ci illərin əvvəlində bir mərtəbə əlavə olaraq tikilmişdir, ətraf tikilinin şəhərsalma strukturunda üstün mövqe tuturdu. Binanı mərtəbələr bölünmə, divarların plastikası, dərin yonulmamış daş və detalların məxsusi olaraq pəncərə sandriklarının və inkişaf etmiş karnizin incəliklə və aydın çəkilməsi fərqləndirir. Künc rizalitlərin intibah pəncərələri bu monumental yaşayış binasının tarixi irs və memarlıq abidəsi olaraq əhəmiyyətini daha da vurğulayırlar.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **19, 21** (1889-cu il). İkimərtəbəli yaşayış evləridir, o dövrün bir çox tikililərinə məxsus olan memarlıq üslubunda inşa edilmişdirlər. Yüksək bədii keyfiyyətlərə malik deyillər, lakin buna baxmayaraq onlar şəhərin tarixi mərkəzinin cərgə şəklində inşa eidlmiş tikililəri sırasına daxil olublar və bu ərazi üçün səciyyəvi olan mühit formalaşdıraraq özlərinin fəal fon funksiyasını daşıyırlar.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **23.** Üçmərtəbəli yaşayış evidir, fasadına görə böyük deyil, 1887-ci ildə Bakı şəhər yaşayış tikintisinin xüsusiyyətlərini nəzərə alaraq inşa edilmişdir. Ordersiz sisteminin elementlərindən istifadə edilməsi və divar hörgüsünün yüksək keyfiyyəti şəhərin tarixi məhəllələrinin strukturunda onun estetik imkanlarının açıqlanmasına şərait yaradırlar. Bina, Çəmbərəkənd rayonu üçün səciyyəvi olan mühit formalaşdırır.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **25, Vagif küç.** tini, **26.** Dördmərtəbəli yaşayış evidir, 1911-ci ildə inşa edilmişdir, künc sahədə yerləşir və özünün həcmli - fəza həlli ilə ətrafda olan tikililərdə şəhərsalma baxımından əhəmiyyətini müəyyən edir. Onun xəsis (zəif) daş dekorativ detallarla olan yonulmamış daşla hörülmüş fasadları və böyük eyvanları kapitalizm dövrünün tarixi irsində yaşayış evinin memarlıq məzmununu vurğulayırlar. Bu dördmərtəbəli yaşayış evi şəhər mərkəzinin mühitini formalaşdırır.

**Krasnokrestovskaya küçəsi** (Şeyx Şamil), **29.** H.Z.A. Tağıyevin dördmərtəbəli yaşayış evidir, 1899-1902-ci illərdə inşa edilmişdir, parlaq ifadə olunmuş relyef üzərində əla yerləşib və mənzərəli həcmli - fəza kompozisiyası sayəsində Bakı şəhərindəki şəraitdə yaşayış tikintisində çox maraqlı səhifədir. Burada inkişaf etmiş formada "şüşəbənd"dən istifadə edilmişdir. "Şüşəbənd" XIX-XX əsrlərin hüdudunda fasadların, onlara yerli kolorit verərək memarlıq kompozisiyasının vacib elementi əhəmiyyətini əldə etmişdir. "Şüşəbənd"- in xüsusiyyətlərini memarlar, öz tikililərində bədii mükəmməlliyə çatdıra bilmişdilər. Yeni sosial - iqtisadi şəraitdə fasadlar. kompozisiyada onların inkişafını göstərən yer tutmuşlar. Memarlıq dövrünün əsl abidəsi olan bu ev məhz qeyd edilən binalar sırasına aiddir.

**Kubinskaya küçəsi** (Zivər bəy Əhmədbəyov), Şamaxı yoluna keçən bu küçə 1870-ci illərin sonunda tikilməyə başlamışdır və nəticədə əlverişli görkəm almışdır, Kanni - Tepinsakaya (S.Əsgərova) küçəsindən

başlayır və həmin dövr üçün nisbətən geniş zolağa malikdir. Baş hissədə müxtəlif üslub təfsirində, lakin yerli struktura malik olan iki - üç mərtəbəli yaşayış evləri tikilmişdir. XX əsrin əvvəlində sağ tərəfdən, qırmızı xəttdən bir qədər dərinlikdə H.Z.A. Tağıyevin dəyirmanı tikilmişdir. Sonralar bu dəyirman Bakı qradonaçalniki (keçmişdə: şəhər rəisi) Martınov tərəfindən şəhər dustaqxanasına çevrilmişdir. Balaxanı kəndindən olan Hacı Soltan - Əli tərəfindən Kanni - Tepinsakaya (S.Əsgərova) və Persidskaya (M.Muxtarov) küçələrinin tinində, istər memarlıq - planlaşdırma istərsə də həcmli - fəza baxımından maraqlı olan məscid inşa edilmişdir (1910-cu il).

**Kubinskaya küçəsi** (Zivər bəy Əhmədbəyov), **15**, İkinci fasadı ilə Şamaxı (C.Cabbarlı, 16) küçəsinə baxır. İkimərtəbəli yaşayış evidir, qonşu tikililərlə birlikdə şəhərin köhnə rayonu olan Şamaxinkanın tarixi abidələrinin formalaşmasında şəxsi fərdi memarlıq funksiyasına malikdir (çıxış edir). Onun arxitektur - planlaşdırma strukturu şəhərin konkret rayonunda yaşayış tikintisinin eyni zamanda şəhərin bədii cəhətdən dəyərli binaları üçün mühitin təşəkkül və inkişaf mərhələlərini izləməyə imkan verir.

**Kubinskaya küçəsi** (Zivər bəy Əhmədbəyov), **19**, 2-ci Paralel, 67 (B.Məcidov) və Şamaxinskaya 20, 21 (C.Cabbarlı) küçələrinin tini. Yaşayış evləridir, şəhərin tarixi məhəllələr strukturuna uğurla daxil olmuşdurlar, ifadəli həcmli həlli ilə fərqlənirlər. Klassik formalarda fasadların mütənasib bölünmələri, təravətli plastikası, daşdan əminliklə yerinə yetirilmiş detallar bu yaşayış evlərinin şəhərin bədii cəhətdən dəyərli binaları üçün mühit kimi əhəmiyyətini müəyyən etmişdirlər.

**Kubinskaya küçəsi** (Zivər bəy Əhmədbəyov), **33**, 5-ci Paralel (F.İbrahimbəyli) və 5-ci paralel (S.Salayev), 15 küç.



*Kubinskaya küçəsi., 33. Yaşayış evinin şərq fasadının fraqmenti.*

*Kubinskaya küçəsi., 33. Yaşayış evinin mərkəzi hissəsi. 1909-cu illər.*





*Kubinskaya küşəsi., 33. Yaşayış evinin giriş portalı.*

tini. Yaşayış evidir, 1900-cü illərdə inşa edilmişdir, fəal şəhərsalma mövqeyinə malikdir. Monumental həcm, simmetrik kompozisiya, təntənəli tağ görünüşündə klassik formalarda qeyd olunan mərkəzi hissə zəngin evin ifadəli obrazını yaradır. Burada fasadların təravətli plastikası, daş bloklardan olan dərin profilləşmiş çıxıntılı hörgü, pəncərələrin memarlıq cəhətdən işlənilmiş ahəngliyi və şaquli hissələrə ayrılması oxvari bölünməsi Bakı memarlığının ən yaxşı ənənələrində ifadə olunmuşdurlar. Bina kapitalizm dövrünün memarlıq abidələrinə aiddir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi.** Meridional istiqamətə malikdir, dəniz kənarında başlayır 3-cü Paralel (Əbilov) küçəsində başa çatır. Bütün ərazisində yaşayış binaları inşa edilmiş, şəhərin mərkəzində iki - üç mərtəbəli binalar, tarixi məhəllələr kənarında isə birmərtəbəli binalar vardır. Kapital tikililərdir, üslub baxımından klassik formalar prinsipləri əsasında inşa edilmişdirlər. Eyni zamanda küçənin strukturuna - 7, 14, 23, 83, 89 saylı və bir çox digər yaşayış evləri də daxildir. Binalar arxitektur və kompozisiya həlli ilə, obrazının heykəl üçün uyğunluğu ilə, mükəmməlliyə çatdırılmış daş detalların işlənilməsi ilə fərqlənirlər. Burada tanınmış Bakı memarı İ.K.Ploşkonun yaradıcılığı təqdim edilmişdir. İ.K. Ploşko öz tikililəri ilə Bakı memarlığına yeni nəfəs gətirmişdir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi 4.** Yaşayış evidir, Bakının tarixi mərkəzinin ümumi sisteminə daxildir, şəhər tikilisinin tərkib elementlərindən biridir. Bu elementlər şəhərin fərdi görünüşünün, onun estetik və bədii keyfiyyətlərinin xarakter və əhəmiyyətini müəyyən edirlər. Binanın iki mərtəbəsinin tikintisi 1886-cı ildə, iki yuxarı mərtəbənin isə 1950-ci illərdə həyata keçirilimişdir. Klassik formalarda inşa edilmiş yaşayış evi fasadın zəngin plastikası, yüksək daş oyması mədəniyyəti, ətraf mühitə fəal işləyən memarlıq kompozisiyası, detalların aydın çəkilməsi və Korinf kapitellərinin filiqran (şəbəkəli nazik metal tellərindən hörülmüş) işlənilməsi ilə fərqlənir. Bu evin əsasını qoymuş ustalar uzun əsrlərdən bəri davam edən daş oyması ənənəsini davam etdirmişdirlər. Bina öz dövrünün yaşayış tikintisinin tarixi inkişafını əks etdirir və memarlıq abidəsidir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 5, Baryatinskaya** (A.K.Əlizadə), **16 küç. tini** (1884-cü il). Yaşayış evidir, şəhər məhəllələrinin memarlığının formalaşması prosesi baş verəndə inşa edilmişdir, onun memarlığında o dövr Bakı memarlarına xas olan stilistik istiqamətləri və konstruktiv həllin tendensiyaları əks edilirlər. Burada order sisteminin elementlərindən sərbəst istifadə edilmişdir, lakin yerli memarlıq ənənələri də həmçinin hiss olunur, bu öz təzahürünü karnizlərin həllində, birinci mərtəbənin plastik formalarının aydın çəkilməsində tapmışdır. Yaşayış evi Bakının tarixi mərkəzi strukturuna daxildir, bədii cəhətdən dəyərli olan binalar üçün mühitdir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 6** (1891-ci il). Yaşayış evidir, fasadları, memarlıq kompozisiyası, zəngin plastikası ilə şəhərin həcmli - fəza strukturuna bədii axın daxil edirlər (əlavə etmişdir), şəhər mühitində onun emosional imkanlarını aşkara çıxarırlar. Klassik formalarda, müvafiq mütənasib parçalamalarda inşa edilən, daş üzərində detalların son

dərəcə gözəl oyması ilə olan bu yaşayış evi şəhərin ümumi üslub istiqamətliliyini əks etdirir. Korinf kapitellərinin, profillərin, pəncərə üstündə olan sandrikların daşdan ustalıqla və ruhla yerinə yetirilməsi heyran edir. Memarlıq forma və motivlərin zəhginliyi tarixi irsə daxil olan bir çox şəhər tikililərinin əsasını təşkil edir və kapitalizm dövrünün memarlıq sənətinin abidələridirlər.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 7, Baryatinskaya** (A.K.Əlizadə), **15 küç. tini** (1895-ci il). Zeysin keçmiş yaşayış evidir, qabarıq günbəzlərlə qeyd olunan yonulmuş künc və yan rizalitlər onun həcmli - fəza kompozisiyasının əsasını təşkil etmişlər. Burada klassik orderlərin şaquli ritmləri barka üslubunda plastik istiqamətliliyi müəyyən ediblər. Burada yuxarı mərtəbələr sakit yonulmamış daşla hörülmüş birinci mərtəbə ilə müqayisə edilir. Zəngin memarlıq fantaziya, ənənəvi motivlər, pəncərə dəliklərinin təmtərağı, dərin effektlərlə sandrikların dolğunluğu diqqəti cəlb edir. Memarlıq detalları və maskalar ilə mürəkkəb kapitellər görünüşündə olan elementlər, riflənmiş camı olan yarımdairəvi eyvanların həlli, monoqramın təmtəraqlı hörmə naxışı mükəmməlliyə çatdırılmış daşda

*Mariinski küçəsi., 7. Zeysin yaşayış evinin cənub fasadının fraqmenti.*






*Mariinski küçəsi., 7. Zeysin yaşayış evi. 2-ci mərtəbənin planı. Ş.S. Fətullayevin çertyoju.*



*Mariinski küçəsi., 7. Zeysin yaşayış evinin şərq fasadı. 1895-ci il. Ş.S.Fətullayevin rəsmi.*

ustalıqla əks ediliblər. Bina bu üslub istiqamətinin maraqlı nümunəsidir və memarlıq abidəsidir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 8** (1893-cü il). Üçmərtəbəli yaşayış evidir, klassik formalarda təmtəraqlı tikilidir, maraqlı memarlıq kompozisiyaya malikdir, fasadların zəngin plastikası vardır. Mərkəzin şəhər məhəllələrinin ətraf tikililəri sırasında fəal iştirak edir, plastik elementlərinə görə müəyyən bədii funksiya daşıyır və XIX-XX əsr memarlıq abidəsidir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 9.** Dördmərtəbəli yaşayış evidir, əvvəlcə 1892-ci ildə inşa edilmişdir və iki mərtəbədən ibarət idi, yuxarı mərtəbələrin tikintisi 1938-ci ildə həyata keçirilmişdir. Ev, order sisteminin üsulları, aksentsiz kompozisiya əsasında inşa edilmişdir, fasad nazik plastika, karnizlərin və memarlıq detallarının aydın çəkilməsi ilə fərqlənir. Böyük miqyasın həlqəsi (bir hissəsi) kimi tarixi mərkəzin şəhərsalma strukturuna daxildir. Bu hissələr olmadıqda nə şəhər memarlığı, nə də ki, onun bədii irsi ola bilməz. Bina memarlıq abidələri üçün mühit kimi çıxış edir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 10, Birjevaya** (Ü.Hacıbəyov), **2 küç. tini.** Üçmərtəbəli yaşayış evidir, həcm və memarlıq cəhətindən künc mövqeyə malikdir, Mariinski baxçasına (9 yanvar) açılır və şəhər mühitinin formalaşmasında fəal rol oynayır. Klassik formaları, frontonları (1. bina fasadının iki maili damla məhdudlaşmış üçbucaq və ya pərgar şəklində yuxarı hissəsi; 2. qapıların, pəncərələrin üstündə bu cür bəzək) olan pəncərələrin uğurlu yerləşməsi ilə, qabarıq ornamenti, binanın memarlıq kom-



*Mariinski küçəsi., 7. Zeysin yaşayış evinin fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*

pozisiyasının ifadə olunması üçün divar mövzusunun istifadəsi və yüksək tikinti mədəniyyəti ilə fərqlənir. Bu keyfiyyətlər demək olar ki, Bakının bütün tikililərinə xasdır. Şəhər tikilisində olan bu cəhət usta - bənnalara, öz nəcib işinin çox gözəl rəssamlarına hörmət hissi aşılayır. Onların oyduğu detallar göz oxşayırlar, öz mükəmməlliyi ilə təxəyyülü həyəcanlandırırlar. Bina öz dövrünün memarlıq abidəsidir.

**Mariinskaya** (Rəsul Rza) **küçəsi, 11.** Dadaşovların çoxmərtəbəli gəlir gətirən evidir, 1914-1916-cı illərdə mülki mühəndis F.A.Nikulin tərəfindən inşa edilmişdir, ətraf məkanın tərkib elementlərindən biri olaraq keçmiş Mariinskaya baxçasının tikililəri sırasına daxildir. Strukturu üzrə sərt (ciddi), həcm kompozisiyası, fasadın erker şəklində olan şaquli oxlu elementlərinə görə mənzərəli olan bu bina müasir arxitektura üçün səciyyəvi olan yeni rasionalizm üsullarının meydana gəlməsini qeyd edir. Eyni zamanda klassik elementlər, pəncərə haşiyələri, onların profilləşməsinə müəyyən yer verilir, lakin bununla belə dolğun plastika müşahidə edilmir, memarlıq formalarının ifadəsində nəcib təmkinlik və yüksək tikinti mədəniyyəti mövcuddur. Vaxtilə Bakı şəhər dumasının iclasında məhz bu cür təmkinli formalarda fasadın həllini müzakirə edirdilər, dekorativ



*Mariinski küçəsi., 11. Dadaşovun yaşayış evinin şərq fasadı. Mülki mühəndis F.A. Nikulin. 1914-1916-cı illər.*



*Mariinski küçəsi., 14. Tağıyev qardaşlarının yaşayış evinin fasadının fraqmenti. 1912-ci il.*



*Mariinski küçəsi., 14. Tağıyev qardaşlarının yaşayış evinin fasadının fraqmenti. 1912-ci il.*

elementlərin və memarlıq detallarının olmadığı üslub istiqamətliliyinə son qoymağı (ondan istifadə etməməyi) tələb edirdilər. Bu yaşayış evi - Bakı şəhər memarlığında və Nikulinin yaradıcılığında rasionalizm istiqamətinin ən yaxşı nümunələrindəndir və memarlıq abidəsidir.

**Mariinski** (Rəsul Rza), **13** (1886-cı il), **15** (1898-ci il), **17** (1901-ci il). Bu yaşayış binaları Mariinski parkının tikinti sistemindəki vəziyyətinə görə onun əsas sahəsini təşkil edirlər. Onlar şəhərin bu hissəsində mövcud inkişaf miqyasını saxlayıb memarlığın orderli və ordersiz sistemlərinin klassik xüsusiyyətlərini özlərində cəmləşdirmişdir. Bu evlər irsən Bakının tarixinə ötürülmüş və şəhərin ən qiymətli - bədii binaları arasında xüsusi yer tutmuşdur.

**Mariinski** (Rəsul Rza) **14, Qubernski-Torqovı** (Nizami) **küçəsinin tini, 50.** Tağıyev qardaşları üçün mülki mühəndis Q.M.Termikelov tərəfindən 1912-ci ildə inşa edilmiş dördmərtəbəli yaşayış evi. Bina yüksək estetik və bədii keyfiyyətləri ilə yanaşı, həm də planlaşdırma əhəmiyyətinə malik çoxmərtəbəli yaşayış binalarının Bakıdakı parlaq nümunəsidir. Şəhərin magistral küçələrini bir nöqtədə birləşdirən yarımdairəvi künc hissə planda çox uğurla verilmişdir. Yaşayış evi dar küçələr şəraitində aktiv dominantdır. Neoklassik stil üslubunda tikilən bina Bakıda italyan renessansının qəbulunda yeni dövrün qələbəsinin təsdiqidir. Binanın memarlıq kompozisiyasında orderli sistemdən böyük ustalıq və həssaslıqla istifadə olunmuşdur. Onun bədii simasının əsasını isə fasadının plastikliyi təşkil edir. Orderin ayrı-ayrı element və detallarının, parlaq pəncərə sandriklərinin, maska-kronşteynlərin və klassik karnizin



*Mariinski küç. 14. Torqovı küçəsinin tini, 50. Tağıyev qardaşlarının yaşayış evinin şimal fasadının fraqmenti.*



*Mariinski küç.23. Ağa-Musa Nağıyevin yaşayış evinin cənub fasadının fraqmenti.*

attika ilə işlənməsi bu yaşayış evinin Bakının tarixi məhəllələrinin strukturunda yüksək bədii dəyərə malik bir memarlıq abidəsi olduğunu göstərir.

**Mariinski** (Rəsul Rza) **21, Kolyubakinski** (N.Rəfibəyli) küçəsinin tini. 1899-cu ildə tikilmiş bu yaşayış binası Mariinski (Rəsul Rza) və Politseyski (Məmmədəliyev) küçələri arasındakı bütün məhəlləni birləşdirib mühüm planlaşdırma mövqeyi tutur. Binanın memarlığı və mərtəbələrinin klassik üslubda proporsional bölgüsü onun mühüm bir obyekt olduğunu və Mariinski parkı tikintisindəki əhəmiyyətini xarakterizə edir. Yaşayış evi özünün kəsik küncləri, aydın görünən raskrepovkaları, erkerlərinin və balkonlarının həcmi, həmçinin parlaq daş detalları ilə məhəllənin strukturuna çox uğurla daxil edilmişdir. Burada dekorativ dairəvi heykəltəraşlıqdan yerində istifadə olunmuşdur ki, bu da şəhərin bədii simasının əsas nüanslarından biri olduğu üçün bina Bakının irsi tarixinə memarlıq abidəsi kimi daxil olmuşdur.

**Mariinski** (Rəsul Rza) **23, Qubernski-Torqovıy** (Nizami) **küçəsinin tini, 48** və **Kolyubakinski küçəsi** (N.Rəfibəy-

*Mariinski küç.23. Ağa- Musa Nağıyevin evinin ümumi görünüşü.*





*Mariinski küçəsi., 23. Ağa Musa Nağıyevin yaşayış evinin şərq fasadı. Mülki mühəndis İ.K. Ploşko. 1909-1910-cu illər.*

*Mariinski küç.23. Ağa- Musa Nağıyevin yaşayış evinin cənub fasadının fraqmenti.*



*Mariinski küç. 23. Ağa-Musa Nağıyevin yaşayış evinin cənub fasadının fraqmenti.*



*Mariinski küçəsi., 23. Ağa Musa Nağıyevin yaşayış evi. 4- cü mərtəbənin planı. Ş.S. Fətullayevin çertyoju.*



*Mariinski küçəsi., 23. Ağa- Musa Nağıyevin yaşayış evinin fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*



li), **39.** Mülki mühəndis İ.K.Ploşko tərəfindən Ağa Musa Nağıyev qardaşları üçün 1909-1910-cu illərdə inşa edilmiş dördmərtəbəli yaşayış evi. Bina tarixi şəhər mərkəzinin məhəllələri strukturuna zəngin plastikliyi olan monumental fasadları və parlaq barok memarlıq formaları ilə daxil edilmişdir. İnşaat və bəzək işlərindəki mədəniyyət son dərəcə yüksəkdir. Bütövlükdə XX əsrin əvvəlləri üçün yaşayış evlərinin bədii nümunəsi yaradılmışdır. Burada fasadların memarlığının hər bir element və detalı yüksək səviyyədə işlənmişdir. Yuxarıdakı üç mərtəbənin pəncərə oyuqlarının ritmi tam bir memarlıq kompozisiyasını təşkil edir. Bu kompozisiya sanki plastik kütlənin qurulmasından alınan, əslində isə daş üzərində mükəmməl işlənmiş və tam bir blokdan oyulmuş heykəltəraşlıq elementlərindən ibarətdir. Ploşkoya məxsus belə iş sistemi memarlıq kompozisiyalarında həmişə müsbət effekt vermiş və onun əsərlərinin şəhər tarixində dövrün memarlıq abidəsi kimi yer tutmasına səbəb olmuşdur. Həmin bina isə İ.K.Ploşkonun yaradıcılığının ən böyük uğurlarından biri sayılır.

**Mariinski** (Rəsul Rza) 24. **Kamenist** (B.Səfəroğlu), **158** və **Aziatski** (A.O.Quliyev) **küçəsinin tini, 121.** 1904-cü ildə Əmiraslanov qardaşları üçün tikilmiş üçmərtəbəli yaşayış evi. Binanın fasadı üç küçədə yerləşdiyindən, məxsusi həcmi-məkan quruluşa malik olub tarixi şəhər mərkəzinin planlaşdırma və inkişafında vacib bir detalı təşkil edir.

**Mariinski** (R.Rza), **27, Qubernski-Torqovıy** (Nizami) **küçəsinin tini, 75** (1908-ci il). Bu dördmərtəbəli yaşayış binası tarixi şəhər mərkəzinin strukturunda mühüm bir



*Mariinski küç. 24. Əmiraslanovların yaşayış evinin ümumi görünüşü. 1904-cü il.*



*Mariinski küç. 24. Əmiraslanovların yaşayış evinin fraqmenti.*



*Mariinski küç.24. Əmiraslanovların yaşayış evinin qərb fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*



*Mariinski küç. 24. Əmiraslanovların yaşayış evinin qərb fasadının fraqmenti.*

*Mariinski küç. 24. Əmiraslanovların yaşayış evinin qərb fasadının fraqmenti.*



memarlıq-planlaşdırma və həcmi-məkan vahididir. Klassik formalarda işlənmiş fasad mərtəbələrarası karnizlərin, pəncərə sandriklərinin əla profilləri, divarların zəngin plastikliyi ilə xarakterizə olunur. Mərtəbələrdəki parlaq və dərin çıxıntılı hörgü binanın memarlıq xüsusiyyətlərini ortaya qoyur. Buradakı inşaatın keyfiyyət və mədəniyyəti kompozisiyanın açılışında önəmli yer tutur. Bu yaşayış evi həmin dövrdən tariximizə irsən ötürülmüş memarlıq abidələrindən biridir.

**Mariinski** (R.Rza) **30, Tserkovnı** (Vidadi), **134** (1901-ci il). Üçmərtəbəli yaşayış binası şəhərin inkişafının müəyyən dövrünü xarakterizə edib tarixi məhəllələrin strukturunun fonunu müəyyən edir. Bina mərtəbələrinin ciddi bölgüsü, parlaq və dərin çıxıntılı hörgüsü, zövqlə işlənmiş daş detalları ilə fərqlənir. Bu fon binaları olmadan şəhərin irsi tarixinin ayrılmaz bir hissəsi olan bədii mühiti də olmazdı.

**Mariinski** (R.Rza), 31 (1910-cu il). Dördmərtəbəli yaşayış binası tarixi məhəllələrin inkişaf sistemində fəal bir həcmi-məkan, memarlıq-planlaşdırma vahidi olub şəhərin bədii simasının formalaşmasında yeni bir mərhələnin yaranması və Bakı şəraitində modern stil istiqamətinin inkişafının təcəssümüdür. Burada memarlıq və kompozisiya nailiyyətlərindən əlavə, onun tam xarakterini açmaq üçün cənub ev elementlərindən də geniş istifadə olunmuşdur. Bu, yaşayış binalarının tikintisində müsbət bir hal olub stil və kompozisiya istiqamətlərinin müxtəlifliyi ilə əlaqələndirilir. Burada keçmişdə şəhərsalmada olduğu kimi, çoxlu memarlıq və dekorativ detallarının istifadəsindən imtina edilmişdir. Memarlar ifadəli görünüş əldə etmək üçün daha böyük memarlıq kütləsini işlədib daha az plastiklikdən istifadə etməyə çalışırdılar. Bu isə müasir memarlığın bütün problemlərini dərk edən yeni bir cərəyanın meydana gəlməsi demək idi. Bu cərəyan yeni istiqamətlərin axtarışları xaosunda özünə yol tapmağa çalışırdı. Binanın şaquliliyi, siluetin erkerlər vasitəsi ilə göstərilmiş rəngkarlığı və günbəzli yüksək hissələri yaşayış evinin maraqlı

*Mariinski küç. 31. Yaşayış evinin ümumi görünüşü. 1910-cu il.*



və ifadəli kompozisiyasını yaratmışdır. Bütün bunlar isə yaşayış evinin bir memarlıq abidəsi olduğunu sübut edir.

**Mariinski** (R.Rza) **39, Karantinnaya** (H.Aslanov) küçəsinin tini, **76** (1911-ci il). Üçmərtəbəli yaşayış binası maraqlı həcmi-məkan və memarlıq-planlaşdırma kompozisiyası ilə seçilib şəhərin tarixi küçə və məhəllələrinin tərkibinin əsas elementlərindən biri sayılır. Kompozisiyasındakı ciddilik, yaşayış evinin strukturunda dekorativ elementlərin olmaması Bakının memarlıq təcrübəsində o zaman müşahidə olunan bir cərəyanın təzahürü idi. Fasadların qurulmasında dekorativizmdən, müasir inkişafa mane olan element və formalardan imtina etmək prinsipi yarandı. Bu mənada yaşayış binası şəhərin qiymətli bədii mühitinin formalaşmasının bir hissəsidir.




*Mariinski küç. 89. Məcidovun yaşayış evi. 3-cü mərtəbənin planı. Ş.S. Fətullayevin çertyoju.*

**Mariinski** (R.Rza) **68, 70** (1890-cı il). Bu yaşayış evləri də digər unikal tikililər kimi müəyyən memarlıq funksiyalarını daşıyıb irsi tarixin ayrılmaz bir hissəsini təşkil edir. Çünki, bu fon tikililəri olmadan memarlıq abidələri də mövcud olmazdı.

**Mariinski** (R.Rza), **87** (1897-ci il). İkimərtəbəli yaşayış evi sıravi bir tikinti elementi olub memarlıqda ordersiz sistemin sərbəst ifadəsinə bir nümunədir. Bina zəngin görünüşlü fasadı, mərtəbələrinin bölgüsü, yumşaq çıxıntılı hörgüsü və digər memarlıq detalları ilə şəhərin qiymətli-bədii mühitinin formalaşmasında iştirak edir.

**Mariinski** (R.Rza) **89.** 1903-cü ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən Məcidovlar üçün tikilmiş üçmərtəbəli yaşayış evi. Nobelin işçiləri bu evdə yaşamışlar. Bina küçə planında künc vəziyyətini tutmuş, erkerlərlə təsdiqlənmiş ifadəli bir görünüşə malikdir. Klassik formalarda işlənmiş fasadların plastikliyi, orta mərtəbənin renessans pəncərələrinin işlənmə ritmi nəzəri cəlb edir. Nazik profillərə malik yarımdairəvi arkaları isə pilyastrların ionik orderinə söykənmişdir. Bina həm də planlaşdırma quruluşuna görə fərqlənir. Memar Bakı şəraitində həyət tərəfdən ənənəvi "şüşəbənd" qoymaqdan imtina etmişdir. Binanın fasadları rəngkarlığı və yüksək inşaat mədəniyyəti ilə fərqlənir. Memarlıq element və detalları daş üzərində mükəmməl işlənmişdir. Bina memarın yaradıcılığında əsas yer tutur və memarlıq abidələrindən biri sayılır.

**Mariinski** (R.Rza) **93, 95** (1900-cü illər). Şəhərin tarixi məhəllələrinin sıravi tikililəri olan ikimərtəbəli yaşayış binaları. Binalar sərbəst klassik formalarda



*Mariinski küç. 89. Məcidovun yaşayış evinin fasadının fraqmenti. Mülki mühəndis İ.K. Ploş-ko. 1903-cü il.*

*Mariinski küç. 89. Məcidovun yaşayış evinin şimal fasadının fraqmenti.*



*Mariinski küç. 89. Məcidovun yaşayış evinin ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*





*Mariinski küç. 89. Məcidovun yaşayış evinin şimal fasadının fraqmenti.*





işlənmiş fasadları, əla daş detalları və yüksək keyfiyyətlə qoyulmuş divarları ilə bir memarlıq əsəri olub Bakının estetik simasında mühüm rol oynayır.

**Mariinski** (R.Rza) **97**, (1901-ci il). Əli Zərbəliyevin üçmərtəbəli yaşayış evi orderli sistemin sərbəst üslubunda işlənmiş fasadı ilə rəngkar memarlıq kompozisiyasının maraqlı bir nümunəsidir. Fasadının zəngin plastikliyi, məharətlə işlənmiş memarlıq detalları, birinci mərtəbənin monumental çıxıntılı hörgüsü və Bakının iqlim şəraitinə uyğun olaraq modern stildə əlavə olunmuş "şüşəbəndlər" evin bədii xüsusiyyətlərini ifadə edir. Tamlıq və bütövlük bu memarlıq kompozisiyasının səciyyəvi xüsusiyyətləridir, bu da onun XX əsrin əvvəllərinin memarlıq abidəsi kimi estetik dəyərini müəyyən edir.

**Merkuryevski** (Azərbaycan prospekti). Bakının mərkəzi hissəsinin əsas eninə magistrallarından biri. Mixaylovski (A.Əliyev) küçəsindən başlayıb tarixi məhəllələrdən keçərək sənaye zonasına daxil olur. Tərkibinə Tağıyev passajı və teatr, Şimal bankın (1903-1905-ci illər), Dövlət Bankının (mülki mühəndis K.B.Skureviç, 1899-cu il) 27 saylı, şəhər poçtunun 33 saylı (mülki mühəndis Skureviç, 1899-cu il), keçmiş kommersiya peşə məktəbinin (1913-cü il) 39 saylı binaları daxil olan üçmərtəbəli yaşayış evi. Binaların memarlığı müxtəlif stil istiqamətlərində təqdim olunmuşdur. Yaşayış evində orderli sistemin klassik üslubunun, ictimai-inzibati binalarda isə mavritan, modern, romano-qotik istiqamətlərinin xüsusiyyətləri hökm sürürdü.

*Mariinski küç. 89. Məcidovun yaşayış evinin şimal fasadının fraqmentləri.*



*Merkuryevski küçəsinin planı.*




*Merkuryevski küç. 8. H.Z.A.Tağıyev teatrının keçmiş binası. Ş.S. Fətullayevin çertyoju.*

**Merkuryevski** (Azərbaycan prospekti) **19, 21, 23, 25** (1880-1890-cı illər). Bu yaşayış binaları bütöv bir məhəllə cəbhəsini əhatə edib tarixi şəhər mərkəzinin ümumi tikinti sisteminə vahid memarlıq kompozisiyası kimi daxil olmuşdur. Klassik forma və istiqamətlərinə, fasadların qurulma qaydası və əhəngdaşı kimi tikinti materiallarının istifadəsinə görə onlar Y.Y.Skibinski və N.A. fon der Nonnenin yaradıcılığına aiddir. Qeyd olunmuş künclər, raskrepovkaların və pəncərə oyuqlarının ritmi, mərtəbələrin çıxıntılı hörgüsü, memarlıq detallarının plastikliyi və daş üzərindəki işləmələrin xarakteri vahid bir kompleksdə birləşir ki, bu da binaların şəhərin həcmi-məkan strukturundakı əhəmiyyətini artırır. Bu yaşayış binaları XIX əsrin sonu üçün Bakı memarlıq abidələridir.

**Merkuryevski** (Azərbaycan prospekti), **18** (1898-ci il). Keçmişdə üçmərtəbəli olan, 1950-ci illərdə isə bir mərtəbədə inşa edilən yaşayış evi. Binanın

*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evinin cənub fasadının fraqmenti. 1898-ci il.*






*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evinin cənub fasadı. Ş.S. Fətullayevin çertyoju.*




*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evi. Kəsik. Ş.S. Fətullayevin çertyoju.*

*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evi. İnteryer plafonu.*



*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evi. Otağın interyeri. Buxarı.*





*Merkuryevski küç. 18. Ağa-Musa Nağıyevin yaşayış evi. Otağın interyeri. Buxarının fraqmenti.*

həcm və memarlıq kompozisiyası italyan renessansının təsiri altında klassik forma və istiqamətlərdə işlənmişdir. Üçoxlu sistemli fasadın simmetrik quruluşu, pəncərə oyuqlarının ritmi, mərkəzin və yan hissələrin raskrepovkaları xüsusi maraq doğurur. Bütün bu xüsusiyyətlər isə binanın quraşdırma işlərinin əsasını təşkil edir. Zəngin plastiklik, memarlıq forma və motivləri, incə daş detalları, xüsusilə heykəltəraşlıq səviyyəsində işlənmiş korinf kapitelləri yaşayış evini digərlərindən çox fərqləndirir. Üzərinə bu qədər ustalıq və estetika qoyulmuş bina tarixi mirasın bir hissəsi olan memarlıq abidəsi sayılır.

**Merkuryevski** (Azərbaycan prospekti) **27, Krasnovodsk** (S.Vurğun) **küçəsinin tini, 6 saylı bina** (indiki Respublika Maliyyə Nazirliyi). Dövlət bankının binası şəhərdə sayca çox olmayan mülki memarlıq tikililərindən biri olub 1899-cu ildə mülki mühəndis K.B.Skureviç tərəfindən salınmışdır. Burada künclər memarlıq detalları ilə verilməmişdi. Aşağıda iki mərtəbə bank əməliyyatları üçün nəzərdə tutulmuş, yuxarıda isə işçilərin mənzilləri yerləşdirilmişdi. Fasadların memarlıq işləmələrində orderli sistemin element və detalları bir qədər romanizə edilmiş üslubda, sütun və roman kapitellərə uyğun proporsiyalarla verilmişdir. Bankın binası əla işlənmiş memarlıq de-



*Merkuryevski küç. 39. Kommersiya peşə məktəbi binasının ümumi görünüşü. 1913-cü il.*

talları, "ağlay" daş blok üslubundan yüksək keyfiyyətlə qoyulmuş divarları, zövqlə qurulmuş interyerləri ilə memarlıq abidəsi nümunəsi olub Skureviçin yaradıcılığında görkəmli yer tutur.

**Merkuryevski** (Azərbaycan prospekti) **33**. Şəhər baş poçtunun binası. 1899-cu ildə mülki mühəndis K.B.Skureviç tərəfindən tikilmiş və küçə tikintisinin aktiv elementlərindən biri olmuşdur. Tikili təkcə həcmi-məkan kompozisiyası ilə deyil, həm də orderli sistemdə işlənmiş memarlıq kütlələrinin monumentallığı ilə fərqlənir. Simmetrik oxlu kompozisiya mərkəzi hissə və yan hissələrin rizalitləri ilə ifadə olunmuşdur. Yuxarı mərtəbələrin mərkəzi hissəsi yan hissələrdəki pəncərə oyuqları ritmləri fonunda ionik orderin iri pilyastrları ilə təqdim olunmuşdu. Pəncərə oyuqları sandriklər və nazik çəkilmiş profilli çərçivələrlə dolğun bir şəkildə bəzədilmişdi. Bina attika ilə işlənmiş artırılma karnizi ilə tamamlanır. Poçt binası tanınmış bakılı memarın yaradıcılıq fəaliyyətində mühüm yer tutur və dövrünün memarlıq abidələrindən biri sayılır.

**Merkuryevski** (Azərbaycan prospekti) **39**, R.Behbudov küçəsinin tini, 6. Keçmiş Kommersiya peşə məktəbinin (indiki Azərbaycan Pedaqoji Universite-



*Merkuryevski küç. 39. Kommersiya peşə məktəbi binası. Giriş portalı.*

ti) binası, 1913-cü ildə mülki mühəndis Q.M.Termikelov tərəfindən müsabiqə üzrə inşa edilmişdir. Bu bina Bakının tarixi mərkəzinin planlaşdırma strukturuna rəngkar həcmi-məkan kompozisiyası və memarlıq-planlaşdırma xüsusiyyətləri ilə daxil olmuşdur.

Tikintinin əsasında Qərbi Avropa memarlığı formaları istifadə olunmuşdu. Burada şimal ölkələrinin əyrixətli frontonlu dam örtüyü, fasad divarlarının yapma və dekorativ naxışlarsız ciddi müstəviləri üstünlük təşkil edirdi. Binada qüllənin şaquli oxunun fənərlə bitən mürəkkəb sonluğu və iri pəncərə oyuqları, fasad divarlarının yastı düz səthləri hökm sürür. Prinsipcə, bütün bunlar istifadə olunan materialların - əhəngdaşın və suvağın ciddilik və gözəlliyini qoruyub saxlayır. Daş, divar suvağının fonundan qabarıq şəkildə ayrılır. Ondan həm də kürsünün üzlüyü üçün, divar künclərinin, pəncərə çərçivələrinin və qapıların haşiyələnməsi üçün istifadə olunmuşdur. Ciddi şimal memarlığı fonunda klassik forma və renessans detallarına giriş portalı nəzəri cəlb edir. Qüllə və frontonların şaquli xətti, kirəmitlə örtülmüş dam örtüyü tikintinin bədii mahiyyətini açan son bəndlərdir. Bu bina memarın yaradıcılı-

ğında xüsusi yer tutur. Burada müəllifin dəst-xəttinə xas olmayan tamamilə yeni bir stil istiqamətindən istifadə olunmuşdur. Bina XX əsrin əvvəlləri üçün Bakı memarlığının nümunəsi olub irsi mirasın bir hissəsidir.

**Milyutinski** küçəsi (indiki T.Əliyarbəyov). Bakının tarixi mərkəzinin əsas küçələrindən biri olub 1870-ci illərdən - şəhər sürətlə inkişaf edib kapital binalarla zənginləşdikdən sonra formalaşmağa başlamışdı. Bu kapital binalar isə Avropa memarlığının orderli sistem stil istiqamətini əks etdirirdi. Deməkolar ki, bütün küçə memarların tarixi-memarlıq mirası kimi təqdim olunmuşdu: Memarlardan A.N.Kandinovun (ev №3, 1890-1892-ci illər.), İ.V.Edelin (№8, 1891-ci il) tikintiləri bir-birindən dəqiq kompozisiyaları, əhəngdaşı detallarının yüksək işlənmə mədəniyyəti və bədii keyfiyyəti ilə fərqlənirdi.

**Milyutinski** (T.Əliyarbəyov) 3, Azərbaycan prospektinin tini, 5. 1920-ci ilə qədər binada "Rus sənaye-ticarət kommersiya bankı" yerləşmişdi. Krasilnikovun yaşayış evi 1892-ci ildə mülki mühəndis A.N.Kandinov tərəfindən tikilmişdi. Bina üç küçəyə açılır, Bakının tarixi məhəllələrinin mərkəzində geniş bir sahəni tutur və iki həyətdən ibarətdir ki, bu da perimetr üzrə salınmış şəhər şəraitində nadir haldır. Həcmi-məkan həlli ilə ətrafdakı tikintinin xarakterini müəyyən edib Bakının planlaşdırma sisteminin aktiv elementini təşkil edir. Yaşayış evinin memarlığı klassik forma və motivlərə əsaslanıb özündə stilləşmənin xüsusiyyətlərini daşıyır. Fasadların şa-



*Milyutinski küçəsinin planı.*



*Milyutinski küç. 3. Krasilnikovun yaşayış evinin şərq fasadının fraqmenti. Mülki mühəndis. A.S.Kandinov. 1890-cı il.*

*Milyutinski küç. 4. Dadaşovun yaşayış evinin fraqmenti. 1897-ci il.*



quli raskrepovkaların ritmi ilə qurulması memarlıq kütlələrinin forma və istiqamətini müəyyən edir. Eyni zamanda mərkəzi hissə və künclər rizalitlərlə vurğulanmışdı. Bu da bütün həcm kompozisiyasının tam açılmasına kömək edir. Burada daş blokların dərin çıxıntılı hörgüsü və klassik profillərin dəqiq üfüqi xətləri nəzəri cəlb edir. Bu bina mülki mühəndis A.N.Kandinovun çoxlu sayda işləri arasında haqlı olaraq birinci yeri tutur və memarlıq abidəsi sayılır.

**Milyutinski** (T.Əliyarbəyov), 4-6 (1897-ci il). Bu binada 1920-ci ilə qədər "Birləşmiş bank" yerləşirdi. Yaşayış evi əslində ayrı-ayrı həyətləri və keçidi olan bir evdən ibarətdir. Üç küçəyə baxan binanın küncləri planda sonunda qüllələr olan yarımdairəvi formalarla verilmişdir. Klassik formada inşa edilmiş evin kompozisiyası zəngin plastikliyi, daş üzərindəki bəzək işlərinin parlaq forma və

*Milyutinski küç. 4. Dadaşovun yaşayış evinin fraqmenti.*



yüksək mədəniyyəti ilə fərqlənir. Burada korinf orderinin pilyastrlarının sandrik və gerblərlə haşiyələnməsində pəncərə oyuqlarının dəqiq ritmi gözlənilir. Dərin çıxıntılı hörgü ilə hörülmüş aşağı mərtəbə bütöv daş blokların istifadə olunduğu daş memarlığının xarakterini müəyyən edir. Bu daşlar çox böyük ustalıqla oyulub memarlıq estetikasını tərənnüm edərək sərbəst bədii əsərə çevrilir. Yerli palitra həmçinin "şüşəbənd" formalarının qurulmasında, iri stalaktit kapitellərdə - həyətlərə keçidin künclərindəki əlavələrdə iştirak edir. Bu elementlər Avropa memarlığı əhatəsi dairəsində tarixi irsin əhəmiyyətini qoruyub saxlamışdır. Bu yaşayış evləri də milli memarlıq abidələrinin nümunələridir.

**Milyutinski** (T.Əliyarbəyov), **5, Baryatinski** (A.K.Əlizadə) küçəsinin tini, 5. Keçmiş Tiflis kommersiya bankının (indiki "Bilik" cəmiyyəti) binası. 1901-ci ildə mülki mühəndislər A.N.Kalqin və Q.M.Termikelov tərəfindən inşa edilmişdi. Bina Bakı modern memarlığının parlaq nümunəsi olub şəhərin tarixi mərkəzinin həcmi-məkan və planlaşdırma sisteminin aktiv bir elementi sayılır. Bina planda künc vəziyyətini tutub görkəmli bir siluetə malikdir. Yuxarısı taraşlanmış qüllə şəkilli forma ilə tamamlanmışdı. Künc hissəsi binanın kompozisiyasının memarlıq və planlaşdırma mərkəzidir. Bina çox plastik görünüşə malik olub dərin asma-arkaları və incə işlənmiş oymaları ilə memarlıq kütlələrinin düz mütənasibliyini saxlayır. Birbaşa əməliyyat zalına aparıb çıxaran, günbəzlə örtülmüş, birmarşlı planda verilmiş yarımdairəvi mərmər pilləkən nəzəri cəlb edir. Balkon kronşteynlərinin, frizlərin, arka timpanları detallarının və digər elementlərin modern şəkilləri Şirvan-Abşeron məktəbinin daş üzərində oymasının yüksək ənənələri çərçivəsində işlənmişdir. Təbii materialların, memarlıq forma və elementlərinin faktura keyfiyyəti düzgün istifadə olunduğundan, plastiklik və binanin həcm effektliyinə nail olunmuşdur. Bununla da yaşayış evi müəlliflərin yaradıcılığında mühüm yer tutaraq Bakının memarlıq abidələri sırasına daxil olmuşdur.



*Milyutinski küç. 4. Dadaşovun yaşayış evi. Həyət pilləkəni.*



*Milyutinski küç. 5. Tiflis bankı binasının ümumi görünüşü. Mülki mühəndislər A.N. Kalgin, Q.M. Termikelov. 1901-ci il.*



*Milyutinski küç. 5. Tiflis bankı fasadının fraqmenti.*

**Milyutinski** (T.Əliyarbəyov), **7** (1889-cu il). "Köhnə Avropa" hotelinin ikimərtəbəli binası. Bina Bakının 1880-ci illərinin memarlıq ideyalarını əks etdirirdi. O zaman şəhərin memarlıq stil istiqaməti hələ tam müəyyən olunmamışdı. Buna baxmayaraq, bu tikili mərkəzi məhəllələrin planlaşdırma strukturuna şəhər tarixi inkişafının aralıq dövrü kimi daxil olmuşdu. Bina özündə memarlığın sonrakı inkişaf dövrünün xüsusiyyətlərini daşıyırdı. Künc vəziyyətində olan bina həcm vahidi kimi "işləyir", fasadları dekorativ elementlərsiz deyildi. Bu da onu şəhərin bədii-dəyərli əsərlərinin bir hissəsi kimi formalaşdırmışdı.

**Milyutinski** (T.Əliyarbəyov) **8, Baryatinski** (A.K.Əlizadə) **küçəsinin tini, 7** və **Nəzarət döngəsinin tini, 2.** Kolesnikovun ikimərtəbəli yaşayış evi 1891-ci ildə memar İ.V.Edel tərəfindən tikilmişdi. Burada 1920-ci ilə qədər "Bakı qarşılıqlı kredit cəmiyyəti" yerləşirdi. Bina üç küçəyə açılır və tarixi məhəllələrin planlaşdırma strukturunda mühüm bir mövqe tuturdu. Yaşayış evi öz bədii-memarlıq göstəricilərinə görə Bakı şəraitində klassik formalardan istifadənin maraqlı bir nümunəsidir. Əsas fasad toskan orderinin monumental formaları ilə təsvir olunmuş mərkəz və yan rizalitlərlə müəyyən olunurdu. İtalyan pəncərələrinin ritmi

*Milyutinski küç. 8. Kolesnikovun yaşayış evinin şərq fasadının fraqmenti. Memar İ.V. Edel. 1891-1893-cü illər.*







*Milyutinski küç. 8. Kolesnikovun yaşayış evinin fasadının fraqmenti.*

*Milyutinski küç. 8. Kolesnikovun yaşayış evinin fraqmenti.*




*Milyutinski küç. 8. Kolesnikovun yaşayış evinin 2-ci mərtəbəsinin planı.*

*Milyutinski küç. 9. Karvan-saray fasadının fraqmenti. Memar Qasım-bəy Hacıbababəyov. 1860-1870-ci illər.*



memarlıq kompozisiyasının inkişafında əsas rola malik mərkəzi hissəyə daxildir. Fasadların qurulmasında ustaların məharəti sayəsində heykəltəraşlıq formalarına çevrilən üzlük materialın - daş və əhəngdaşın əhəmiyyəti çox böyükdür. Divarların qoyulması və memarlıq elementləri qürur duyulacaq qədər ideal səviyyədə işlənmişdir. Bu ev Edelin yaradıcılığında mühüm yer tutur və memarlıq abidələrindən biri sayılır.

**Molokanski küçəsi** (Xəqani). Molokanski bağının yanından və ya Mariinski parkından başlayıb şəhərin sənaye zonasının şərqində bitir. Küçədə XIX-XX əsrlər ərəfəsində kapital üslublu binalar salınmışdı. Bu binaların stil əsası Avropa memarlığının klassik formalarında qoyulmuşdu. İnterpretasiya müəlliflərin fərdi xüsusiyyətlərini əks etdirir ki, bu da yüksək istedad və peşəkarlıq sayəsində bədii-yaradıcılıq obyektlərinin yaranmasına gətirib çıxarırdı. Tikintidə küçənin inkişafının xronologiyasını izləyə bilərik: 1880-ci illərdən başlayaraq bizim günlərə qədər. 1, 3, 5 saylı yaşayış evləri memarlığın sərbəst ifadə tərzində tikilmişlər. Klassik prinsiplər hələ o zaman binaların layihələşdirmə strukturuna daxil olmamışdı. XIX-XX əsrlər ərəfəsində diplomlu memarların gəlişindən sonra binaların memarlıq işlərində vəziyyət kökündən dəyişdi, fasadların və interyerlərin qurulmasında daha maraqlı kompozisiyalar meydana gəldi. Bu kompozisiyalar öz bədiiliyi ilə fərqlənirdi. Küçə özünəməxsus aksentləri, meydanları və rahat məkan elementləri ilə birlikdə şəxsi simasını əldə etdi. Memarlar A.S.Kandinov və İ.K.Ploşko küçənin memarlığına çox böyük töhfə vermişlər.

**Molokanski** (Xəqani), **1** (1890-cı il). Bu bina keçmiş Mariinski parkının ümumi tikinti sisteminə daxil olub həmin dövr üçün yaşayış evləri inşaatında memarlığın inkişafını əks etdirirdi. Onun memarlığında klassik forma və üslublardan xəsisliklə, lakin sərbəst ifadə tərzində istifadə olunmuşdur. Fasadlar üçün xarakterik cəhətlər ikinci mərtəbədəki pəncərə oyuqlarının ritmi və birinci mərtəbədəki mağaza vitrinləridir. Stalaktit rəsmli məxsusi karniz də çox əhəmiyyətlidir. Bu bina şəhərin irsi tarixinin bir hissəsi olub XIX əsrin sonlarının memarlıq abidəsidir.

**Molokanski** (Xəqani), **4** (1897-ci il). Yaşayış evi şəhərin tarixi məhəllələrinin sıravi bir tikintisi olub Bakının bədii simasında mühüm yer tutur. Bina ifadəli memarlıq kompozisiyası, parlaq detalları və klassik stil istiqamətində işlənmiş plastik fasadı ilə fərqlənir. Fasadın quruluşunun açılmasında pəncərə oyuqlarının ritmi, memarlıq formalarının iri həcmi və "ağlay" növlü daş blokdan qoyulmuş divarları iştirak edir. Bu yaşayış evi memarlıq abidəsidir.

**Molokanski** (Xəqani), **5, Qoqol küçəsinin tini, 1** (1886-cı il ). Şəxsi ev tipli bu bina həyətin içərisinin yarımdairəvi qalereya arkaları sistemindən ibarət olması ilə fərqlənir. Yaşayış evi 1880-cı illərin şəhər tikintisini, onun stil istiqamətini əks etdirirdi. Burada pəncərə oyuqlarının yerləşməsi, çərçivələrin işlənməsi, daş-əhəngdaşdan hazırlanmış digər detallar aydın görünürdü. Yaşayış evi irsi tarixin bir hissəsi olub öz dövrünün memarlıq abidəsi sayılır.

**Molokanski** (Xəqani) **9** (indiki İraq səfirliyi). Memar İ.V.Edel tərəfindən




*Molokanski küçəsinin planı.*

1896-cı ildə tikilmişdir. Bina şəhərdə sayca çox olmayan əsil villalardan biri idi. Bağçalı bina qırmızı xətdən kənarda olan ərazidə yerləşirdi ki, bu da tarixi məhəllələrin salınmasında nadir hal idi. Stil cəhətdən daha çox italyan renessansına meyl edir. Burada korinf sütunları və klassik formalı eyvanlardan istifadə olunmuşdur. Bina fasadının plastikliyi, incə qurulmuş interyerləri və evin ümumi planlaşdırması ilə fərqlənir. Villa İ.V.Edelin uğurlu işlərindən biri olub memarlıq abidəsi sayılır.

**Molokanski** (Xəqani), **14.** Ağa-Musa Nağıyevin evinin mebelləşdirilmiş otaqları. 1910-cu ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən tikilmişdi. Ploşko burada klassik forma və üslubun orderli sistem stil istiqamətindən istifadə etmişdi. İonik sütunların iri pilyastrları küncdəki rizalitləri və mərkəzi hissəni iki mərtəbə üçün portik şəklində bağlamışdı. Növbələşən əyrixətli və düzbucaqlı sandrikləri, bahalı çərçivələri olan pəncərə oyuqlarının ritmi mərtəbələrarası dartmanın proporsional bölgüsü və müvəffəqiyyətlə artırılmış karnizi ilə seçilən fasadın həcm plastikliyini müəyyən edir. Əla renessans tipli balkon məhəccərləri də nəzəri cəlb edir və evin bədii obrazının verilməsində fəal iştirak edir. Bina Ploşkonun yaradıcılığında mühüm yer tutub tarixi mirasın bir hissəsi və memarlıq abidəsidir.

**Molokanski** (Xəqani), **23** (1911-ci il). Beşmərtəbəli yaşayış evi keçmiş birja meydanının cənub kənarının strukturuna ayrılmaz surətdə daxil olmuş və şəhərin tarixi məhəllələrinin tikintisinin aktiv elementlərindən biri olmuşdur. Onun şaquli kompozisiyasında ampir prinsiplərininin daha sərbəst ifadə tərzindən istifadə olunmuşdur. Fasadın asimmetrik quruluşu raskrepovka ilə qeyd olunub və taraşlanmış erkerlə təsdiqlənmişdi. Binanın rəngkar həcmiməkan strukturu təmiz malalanmış fasad divarı fonunda ciddi pəncərə oyuqları ilə ziddiyyət təşkil edir. Bu yaşayış evinin memarlıq kompozisiyasında verilən həcmli kütlələrin tikintisində bütöv və ayrı-ayrı elementlərin proporsiyaları nəzəri cəlb edir. Bina Bakı şəhərində bu stil memarlıq abidələrinin bir nümunəsidir.

**Molokanski** (Xəqani), **25** (1915-ci il). Keçmiş yaşayış evi (indiki Azərbaycan Respublikasının Yazıçılar İttifaqı), am-




pir elementləri ilə zəngin italyan renessansının motiv və formalarından geniş istifadə etməklə, asimmetrik memarlıq kompozisiyasında tikilmişdir. Burada orderli sistem ionik sütunların pilyastrları, kənarlarda isə taraşlanmış erker və mərtəbələrin dərin lociyaları ilə təsbit edilmişdir. Fasadın memarlıq və dekorativ elementlərlə dolğunluğu heç də onun əhəmiyyətini azaltmır. Burada fasad xalis üzlük daşla işlənmişdir. Hər bir element və detal heykəltəraşlıq forması



*Molokanski küç. 23. Yaşayış evinin ümumi görünüşü. 1911-ci il.*

*Molokanski küç. 25. Yaşayış evinin ümumi görünüşü. 1915-ci il.*

səviyyəsində hazırlanmışdır. Mərmər pillәkənin, rəsmi otaqların interyerləri, xüsusilə ağ zal çox böyük zözqlə hazırlanmışdı. Ağ zal azacıq irəli çıxan pilyastrlara, yapılma plafona və nazik profilləri olan karnizə malikdir. Bina tarixi mirasın bir hissəsi və Bakıda kapitalizm dövrünün memarlıq nümunəsidir.

**Molokanski** (Xəqani), **47**. Ağa Musa Nağıyevin 1912-ci ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən tikilən bina Bakıdakı yaşayış evləri tikintisinin maraqlı bir nümunəsi olub həcmi-məkan strukturunun zənginliyi ilə fərqlənir. Bu da fasadların bir az ciddi modern ifadəsi olan memarlıq forması ilə yaxşı uyğun-





*Molokanski küç. 47. Ağa-Musa Nağıyevin yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis Ploşko. 1910-cu il. Ş.S.Fətullayevin rəsmi.*

laşır. Binanın küncdə yerləşməsi və çoxsaylı balkonlar, erkerlər və lociyalarla zəngin siluetinin ümumi görünüşü onun şəhərin tarixi məhəllələr sistemindəki memarlıq və planlaşdırma əhəmiyyətini əvvəlcədən müəyyən edir. Raskrepovkaların öz şaquli oxlarına uyğun olaraq ritmik düzülüşü, dekorativ günbəzli taraşlanmış erkerlə vurğulanmış küncü binanın çoxplanlılığı və həcm plastikliyinin ifadəsi idi. Bu quruluşda divarların üzlük materialı, memarlıq detallarında isə əhəngdaşı fəal rol oynayır. Bütün bunlar tektoniki həmin dövr üçün şəhərin bədii simasını formalaşdıran memarlıq abidəsi sırasına daxil etmişdir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli) **küçəsi.** Bakı amfiteatrının orta terrasını əhatə edən Təzə-Pir tarixi məhəllənin əsas küçələrindən biridir. Meridional istiqamətli olub özünün memarlıq-planlaşdırma



*Molokanski küç. 47. Ağa-Musa Nağıyevin yaşayış evinin fasadının fraqmenti.*



*Mülki mühəndis Zivər-bəy Əhmədbəyov. 1873-1925-ci illər.*

strukturunu saxlamışdı. Küçədə əsasən azmərtəbəli binalar salınmasına baxmayaraq üç-dörd mərtəbəli binalar da mövcud idi. Küçə xüsusi stil səciyyəvi xüsusiyyətləri ilə fərqlənməyib, keçmişdə kasıb yerli camaatın evləri ilə təqdim olunub. Ayrı-ayrı yaşayış tikililəri memarlığın orderli sisteminin proporsional bölgüsü vasitəsi ilə tikilib, xalis əhəngdaşla və tikintiyə bədiilik verən detallarla işlənmişdi.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **1, Poçt** (S.Tağızadə) **küçəsinin tinindəki 45 və 3** (1909-cu il). Bu binalar Bakı memarlığının şəhərin tarixi məhəllələrinə çox asan nüfuz edən modern stildə formalaşıb inkişaf etməsində yeni dövrün başlanmasına nümunədir. Fasadların qurulmasında müəyyən dərəcədə ordersiz sistemdən istifadə olunmasına baxmayaraq, bu stil istiqamətinin bilavasitə təsiri altında 1, 3 №-li yaşayış evləri tikilmişlər. Burada memarlıq obrazının yaradılmasında, plastiklik və həcm modelləşməsində tamamilə yeni keyfiyyət təzahürləri müşahidə olunur. Fasadın quruluşunda ona məxsusi səciyyə verib Peterburq və ya Moskva modernindən fərqləndirən Bakı daş memarlığının ənənələri hökm sürürdü. Valehedici rəsmə malik modern stildəki portal, yüksək məharətlə oyulmuş daş kronşteynlər, balkon kons-

*Təzə-Pir məscidi rayonunun ümumi görünüşü.*



truksiyaları və həmçinin binanın maraqlı interyerləri ürəkləri fəth edir. Bu yaşayış binaları şəhərin tarixi mirasının və XX əsrin əvvəllərinin memarlıq abidələrinin ayrılmaz bir hissəsini təşkil edir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **5, Gimnaziya** (Tolstoy) **küçəsinin tini,** (1900-cü illər), **68.** Yaşayış binası Bakı memarlığının ordersiz sisteminin ən gözəl şəkildə istifadə olunduğu həcmi-məkan və memarlıq-planlaşdırma strukturu ilə şəhərin yaşayış binaları tikintisinin maraqlı nümunəsidir. Burada fasadın memarlıq traktovkası və onun daş üzərində təcəssümü sinxron "işləyir". Bu da tarixi məhəllələrin bədii mühitində binanın əhəmiyyətini müəyyənləşdirir. Yaşayış evi tarixi mirasın bir hissəsi və memarlıq abidəsidir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), 9. Təzə-Pir məscidi Nabat xanımın vəsaiti ilə mülki mühəndis Zivər-bəy Əhmədbəyov tərəfindən tikilmişdi. Təzə-Pir təkcə Bakının planlaşdırma stukturunda mühüm yer tutmaqla kifayətlənməyib, özünün həcmi-məkan strukturuna və memarlıq əhəmiyyətinə görə Abşeron ibadət tikintilərinin inkişafında tamamilə yeni bir dövrün qələbəsini tərənnüm edir. 1905-ci ilin 23 iyulunda birmərtəbəli görkəmsiz məscidin yerində Təzə-Pir ellık məscidinin bünövrəsinin ilk daşı qoyulmuşdu. 1976-cı ilin planına görə Təzə-pir rayonundakı tikintilər içərisində ondan qədimi yox idi. Ellik məscidin şəhər mərkəzindən uzaqda tikilməsinə baxmayaraq onun təpədə yerləşməsi, şəhərin bir çox rayonlarından yaxşı görünməsi Təzə-Piri oriyentir silueti edir. Bu, şəhər tikintisi ikimərtəbəli binalardan ibarət olduğu dövrdə daha aydın hiss olunurdu.



*Təzə-Pir məscidi fasadının fraqmenti. Mülki mühəndis Z.Əhmədbəyov. 1905-1914-cü illər.*

İri həcmdə olub daha çox əhali üçün nəzərdə tutulan məscid yerli memarlığın monumental formalarında işlənmişdi. Daşdan bu həcmdə ibadət binası Bakıda ilk dəfə olaraq tikilirdi. Məscidin detallarının forma və elementlərinin ərəb Şərqinin memarlığı ilə oxşar cəhətlərinə baxmayaraq onun modelləşib tikilməsi Bakı Şirvanşahlar saray məscidinin yerli memarlıq xüsusiyyətlərinin təcəssümüdür. Bu, Təzə-Pir minarələrinə baxarkən daha aydın görünür. Onlar forma və detalları ilə Bakı Şirvanşahlar saray məscidinin minarələrini xatırladır.

Təzə-pir məscidinin əsas fasadı üçarkalı portikdən - eyvan, cinahlardakı minarələr və onların arxasından sərt xətti görünən günbəzdən ibarətdir. Bu da tikilinin aydın və təmtəraqlı kompozisiyasını yaradır. Plan üzrə kvadrat olan məscidin içərisində çox böyük (19,6x19,6), alçaq təbilin üzərində qoyulmuş sferik günbəzlə örtülən ibadət zalı yerləşir. Tikilinin interyerində yerli memarlığın motivləri, daha doğrusu təbil və üzərindəki günbəzi saxlayan arkaların iri formaları istifadə olunmuşdur.

Təzə-Pir məscidinin əzəmətini üçarkalı portik-eyvan, minarə və günbəzin hökmlü görünüşü müəyyən edirdi. Məscid onunla diqqəti cəlb edir ki, şəhərin müxtəlif nöqtələrindən ona baxdıqda effektli memarlıq-məkan kompozisiyası yaradan iri həcmli modelləşmə görürük.

Eyni zamanda məscidin monumental səciyyəsini qeyd edək; kompozisiyanın bütövlük və ciddiliyi, əhəngdaşın mükəmməl səviyyədə istifadəsi zamanı inşaat işlərinin yüksək keyfiyyəti. Burada öz işlərinin mütəxəssisi olan ustaların xidməti az deyildi. Təzə-Pir tikintisində Hacı-Abbas - baş bənna, usta Hacı-Xeyrulla və Məmməd-Hənifə - daşqoyanlar, usta Kərbəlayı Mirzə (1855-1965-ci illər), Salman Atayev və Soltan-daşyonanlar, həmçinin Kərbəlayi Məcid və Kərbəlayi Sadıq -məscidin interyer tərtibatçıları kimi məşhur memarlar iştirak edirdilər. Əhmədbəyovun yaradıcılığının ən böyük nailiyyəti olan məscid memarlıq abidələri arasında özünəməxsus yer tutur.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **13** (1915-ci il). Malikanə üslublu ikimərtəbəli ev, çox maraqli həcm-kompozisiyası ilə təqdim olunmuşdur. Yan rizalitləri olan fasad erkerlər və yığcam profilləşməyə malik pəncərə oyuqlarının ritmi ilə vurğulanmışdı. Binanın stil istiqaməti - moderndir. Həyətə keçid, dekorativ element və memarlıq formalarının ifadəli kontur xətləri ilə işlənmiş giriş portalı nəzəri cəlb edir. Binanın ümumi quruluşu rasional xarakterli dəqiq və qrafik həcmli elementlərdən ibarətdir. "Ağlay" daş blokundan qoyulmuş təmiz divarlar da milli mirasın bir hissəsi, memarlıq abidələrindən biri olan bu yaşayış binasının kompozisiya sisteminə müsbət təsir göstərir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **25** (1902-ci il). Bu yaşayış binası tarixi məhəllələr tikintisinin vacib elementlərindən biridir. Onun fasadının memarlıq kompozisiyasının əsasını ordersiz sistemi, proporsional quruluşu, parlaq plastikliyi və daş üzərində oymaları ilə birlikdə XIX-XX əsrlər ərəfəsindəki Bakı memarlığı ənənələri təşkil edir. Bütün bunlar isə yeni sosial-iqtisadi şəraitdə milli-memarlıq xüsusiyyətlərinin varlığını təsdiqləyərək yaşayış evini şəhərin bədii-dəyərli mühitinin bir hissəsi edir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **28, Kamenistıy** (B. Səfəroğlu) **küçəsinin tini** (1887-ci il). Yaşayış binası daş memarlığı ənənələri çərçivəsində şəhərin tarixi məhəllələrinin özünəməxsus memarlıq sisteminin fasadlların plastikliyi ilə formalaşdığı bir periodda Baki üçün zaman kəsiyində binalar üslubuna aiddir. Burada düzgün profilli fasad müstəvilərinin şaquli bölgüsü ilə ikinci mərtəbənin yarımdairəvi pəncərə oyuqlarının ritmi maraqlı bir şəkildə təqdim olunmuşdur. Bu da şəhərin memarlıq abidələri sırasına daxil olan binanın memarlıq kompozisiyasının bədii dəyərini müəyyənləşdirir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **30** (1900-cü il), **32** (1902-ci il). Bu yaşayış binaları şəhərin tarixi məhəllələr strukturunda müəyyən memarlıq istiqamətinin bir nümunəsidir. Onlar bir-birindən tikilini şəhərin bədii-dəyərli mühitinin bir hissəsi edən memarlıq motivləri və fasadlarındakı möhtəşəm heykəltəraşlıq detalları ilə fərqlənirlər.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **43** (1900-cü il). Bu yaşayış binası XX əsrin əvvəllərinin Bakı memarlığı inkişafı zəncirinin aktiv bir həlqəsi olan şəhərin tarixi məhəllərinin sıravi tikintisinə daxildir. Bina üç nümunədən biridir ki, burada həcmlərin yeni formaya salınmasında ordersiz sistemin qanunauyğunluqlarından istifadə olunmasına baxmayaraq, yerli memarlıq xüsusiyyətlərinin daxili mahiyyətinə nüfuz edildiyini də qeyd etmək lazımdır. Fasadın memarlıq xarakterində proporsional bölgülər saxlanmış, həmçinin yeni bədii dünyagörüşlü element və detalları ilə birlikdə yerli daş memarlığın prinsipləri ifadə olunmuşdu. Yeni üslublu binada özünəməxsus stalaktit elementləri olan karnizləri də qeyd etmək lazımdır. Çünki, bu karnizlər Bakının yaşayış tikintisi abidələrindən biri olan binanın fasadına ümumi kompozisiya baxımından xüsusi görünüş verir.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **45** (1909-cu il). Bu yaşayış binası Bakı şərai-

*Aşağı Təzə-Pirski küçəsi 45. Yaşayış evinin fasadı. 1909-cu il. Memar X.B. Abdullayevin çertyoju.*



*Aşağı Təzə-Pirski küç. 52. Yaşayış evinin fasadı. 1898-ci il. Memar X.B. Abdullayevin çertyoju.*




*Aşağı Təzə-Pirski küç. 105. "Qoşa-hamam". Fasad. 1889-cu il. Ş.S.Fətullayevin çertyoju.*



tində ənənəvi daş memarlığının güclü təsiri altında orderli sistemin sərbəst üslubuna bir nümunədir. Fasad klassik formaları, rəngkarlıq interpretasiyası elementləri ilə verilmiş yan raskrepovkaları və dolğun mərkəzi vasitəsi ilə sərbəst fərdi görünüş almışdı. Memarlıq kompozisiyası, həcmli kütlələrin rəngkarlıq həlli, böyük ustalıqla işlənmiş daş detalları, "ağlay" üslublu daş bloklardan yüksək keyfiyyətlə qoyulmuş divarları sayəsində bina şəhərin tarixi memarlıq abidələri sırasına daxil olmuşdur.

**Aşağı Təzə-Pirski** (Mirzə Fətəli), **52** (1898-ci il). Yaşayış binası fasadların klassizm stili təsiri altında, ancaq daha sərbəst üsulda qurulmasının uğurlu bir nümunəsidir ki, bu da onun özünəməxsusluğunu və kaloritini müəyyənləşdirir. İkinci mərtəbədəki pəncərə oyuqlarının ritmi və üfüqi profillərlə bölgülərin şaquliliyi fasadın memarlıq quruluşunun əsasını təşkil edir. Bakı forştadtında bu üslubda memarlıq kompozisiyası nadir bir hal olsa da, "İçərişəhərdə" xeyli yayılmışdı. Tikilidə Avropa memarlığı ilə yanaşı, yerli memarlıq məktəbinin xüsusiyyətləri də özünü göstərirdi. Bu da fasadların qurulması, "ağlay" üslublu daş bloklardan divar qoyulması, bədii e lement və detalların xarakterik formalarında aktiv ifadə olunurdu. Yaşayış binası tarixi mirasın bir hissəsi olub memarlıq abidəsi sayılır.

**Aşağı Təzə Pirski** (Mirzə Fətəli), **105** (1889-cu il). "Qoşa-hamam", Bakıdakı üç buxar üslublu hamamdan biri. Eyni memarlıq-planlaşdırma strukturuna malik, bir dairənin içərisində yerləşən, ümumi su və istilik sistemi ilə təchiz olunan kişi və qadın bölmələrindən ibarətdir. Bina Azərbaycan hamamlarının klassik sistemi üzrə tikilmişdir; vestibül, arakəsməli kameralarla soyunma və yuyunma zalları , soyuq və isti su xəzinəsi (saxlanılan yer) və külxan (istilik sistemi üçün yer). Bütün bunlar hamamın içərisində çoxlu sayda arka, sərdaba və günbəzlərin cəmlənməsindən yaranan mürəkkəb memarlıq-konstruksiya sistemini təşkil edib dolğun və mənalı bədii kompozisiya yaradırlar. Hamam zahirdən üzərində mənalı formalı günbəzlərin hökm sürdüyü üfüqi həcm kimi təqdim olunub. Bu tikili yerli memarlığın ənənəvi üslublu olub mülki memarlıq əsəri kimi maraq doğurmaqla yanaşı, memarlıq abidəsi kimi də şəhərin tarixi mirasının ayrılmaz bir hissəsini təşkil edir.

**Olqinski küçəsi** (M.Ə.Rəsulzadə), **4, Merkuryevski** (Azərbaycan pr.) **küçəsinin tini, 3, Baryatinski** (A.K.Əlizadə), **3,** H.Z.A.Tağıyevin keçmiş passajı 1896-1898-ci illərdə mülki mühəndis K.B.Skureviç tərəfindən inşa edilmişdi. Şəhərin tarixi məhəllələrinin üç mərkəzi küçəsinə açılan bina şəhərin bu rayonunun planlaşdırma strukturunun vacib həcmi-məkan elementlərindən biridir. Bina Bakı mülki memarlığının əsas nümunələrindən olub orderli sistemin iri formaları ilə təqdim olunmuşdu. Vurğulanmış künclər, divar pilyastrlarının şaquli ritmi, fərdiləşdirilmiş portik şəklində ionik sütunlara malik ön qapılar, rus ampir stilinin klassik üsulları passajın stil istiqamətini müəyyən edir. Həcm plastikliyi, memarlıq forma və elementləri bölgüsünün qabarıqlığı binaya monumental görünüş verir. Burada memarlıq detalları üzərindəki oyma işləri böyük ustalıqla yerinə yetirilmişdir. Xüsusilə diqqəti, heykəltəraşlıq elementlərinə

*Olqinski küçəsinin planı.*



çevrilən mürəkkəb formaya malik ionik və korinf kapitellərin yüksək məharətlə işlənməsi cəlb edir. Passaj Skureviçin ən yaxşı işi və kapitalizm dövrünün memarlıq abidəsidir.

**Olqinski küçəsi** (M.Ə.Rəsulzadə), **5.** Keçmiş Olqinski sıraları, 1912-ci ildə mülki mühəndis K.A.Borisoqlebski tərəfindən tikilmişlər. Tağıyev passajı ilə üzbəüz yerləşən bina kompozisiya və

*Olqinski küç. XX əsrin əvvəllərinin ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*






*Olqinski küç. 4. H.Z.A. Tağıyev passajının binası. Mülki mühəndis K.B. Skureviç. 1896-1899-cu illər.*



*Olqinski küç.4. H.Z.A.Tağıyev passajının binasının interyeri.*

*Olqinski küç. 4. H.Z.A. Tağıyev passajının binasının interyerinin detalı.*



*Olqinski küç. 4. H.Z.A.Tağıyev passajının binasının qərb fasadının detalı. Ş.S. Fətullayevin rəsmi.*



stil istiqamətində onun memarlıq təsiri altına düşməyə bilmədi. Burada dəyişən miqyas və üslub idi. Fasad raskrepovkalar və dükan vitrinlərinin yarımdairəvi oyuqlarının ritmi ilə ifadə olunmuş şaquli bölgülərin dəqiq traktovkasına malikdir. Klassik proporsionallıq, orderli sistemin stil təmizliyi, memarlıq formalarının qüsursuz işlənmələri, ornament elementlərinin yumşaq plastikliyi və



*Olqinskaya küçəsi, 5. Olqinsakaya sıra binası. Şərq fasadının fraqmenti. Mülki mühəndis K.A. Borisoqlebski. 1912-ci il.*

*Olqinskaya küçəsi, 5. Olqinsakaya sıra binası. Şərq fasadının fraqmenti.*






*Olqinskaya küçəsi, 5. Olqinsakaya sıra binası. Giriş portalı. Mülki mühəndis K.A.Borisoqlebski. 1912-ci il.*

*Olqinskaya küçəsi, 5. Olqinsakaya sıra binası. Giriş portalının bir hissəsi.*





*Olqinskaya küçəsi, 6. Lalayevin passajının binasının ümumi görünüşü. Mülki mühəndis N.P. Tverdoxlebov (1883-cü il), memar Y.Y. Skibinski (1896-cı il).*

nəhayət, daş detalların mükəmməl səviyyədə düzəldilməsi mülki tikintini digərlərindən fərqləndirir. K.A.Borisoqlebskinin bu işi memarlıq abidələri siyahısına daxil edilmişdir.

**Olqinski küçəsi** (M.Ə.Rəsulzadə), **6**. Keçmiş Lalayevski passajı mülki mühəndis N.P.Tvyordovun (1883-cü il) və memar Y.Y.Skibinskinin (1896-cı il) layihələri əsasında tikilmişdi. Burada sovet hakimiyyəti qurulana qədər "Qrand-hotel" və "Bristol" hoteli yerləşirdi. Tikili üç küçəyə açılır və tarixi mərkəzin əsas sahələrindən birini tuturdu. Bina şəhər tikintisi kompozisiyasının aktiv həcmi-məkan elementlərindən biridir. Binanın memarlığı bu mülki tikintinin bədii obrazını açan orderli sistem, klassik forma və detallara əsaslanmışdır. Əsas fasad cinahlardakı raskrepovkalar və ayrı-ayrı dayanmış, fərdi səslənməyə malik sütunların şaquli ritm kompozisiyasının mərkəzi-ox sisteminə malikdir. Bu üslub nəticəsində memarlıq kütlələrinin zəngin plastikliyi əldə olunur, fasadın bədii palitrası və onun cismi-məkan mühitinə təsiri genişlənir. Bina mülki memarlıq abidələri sırasına daxil olub Tvyordoxlebovun və Skibinskinin yaradıcılığında mühüm yer tutur.

**Olqinskaya** (M.Ə.Rasulzadə), **8**. Bina 1870-1880-ci illərdə memar Qasım bəy Hacıbababəyov tərəfindən inşa edilmişdir. Bina əvvələr karvansara, hotel və yaşayış yerlərinin yerləşdiyi geniş məhəlləni əhatə edirdi. Şəhərsalma baxımından bu məhəllə şəhərin tarixi məhəllələrinin planlaşdırma və inşasında vacib yer tutur. Binanın memarlığında həmin dövrdə şəhərə xas olan tendensiyalar öz əksini tapmışdır, onlar üçün klassik memarlıq sisteminin sərbəst tətbiqi səciyyəvi hesab edilir. Fasadların



*Olqinsakaya küçəsi, 6. Pasajın fasadından fraqment.*



*Olqinsakaya küçəsi, 6. Passaj binasının daxili tərtibatından (interyerindən) fraqment.*



*Olqinskaya küçəsi, 6. Passaj binasının qərb fasadından fraqment.*

memarlığında zərif və yüngül şəkildə çəkilmiş yastı pilyastrların Barokko elementi və ritmi mövcuddur. "Ağlay" üslublu daşlar ilə üzlənmiş bir çox digər binalardan fərqli olaraq fasadın üzərinə suvaq çəkilmişdir, lakin üfüqi şəkildə hissələrə ayrılmalar (üfüqi bölünmələr), pilyastrlar, pəncərələrin haşiyə və sandrikaları, karniz bütövlükdə daş bloklardan hazırlanmışdır. Bu bina – Qasım bəy Hacıbababəyovun yaradıcılığında vacib səhifədir və memarlıq abidəsidir.

**Olqinskaya** (M.Ə.Rasulzadə), **9** (1910-cu il). Keçmişdə binada "Çanax-qala" kafesi və mebellərin olduğu otaqlar (hazırkı Azərbaycan kinoteatrı) yerləşirdi. Bina, sakit modern üslubunda plastik fasadları və həcmi-fəza kompozisiyası ilə ətraf tikiliyə yaxşı uyğunlaşmışdır. Şaquli kürəklərin ahəngdarlığı, üfüqi bölünmələr və daşdan olan hissələr onun tarixi irsdə memarlıq abidəsi kimi yerini müəyyən etmişdir.

**Ofitserskaya küçəsi** (Musəvi). Böyük ərazini əhatə etmirdi, Bakının tikinti mədəniyyəti ilə klassik memarlığın ciddi formalarının əks olunduğu iki-üçmərtəbəli yaşayış evləri formasında inşa edilmişdir. Müstəvi tipli yaşayış evlərində həcmli plastik formalar yox idi. Kamera tipli küçədə güclü kompozisiya aksentlərinin olmamasına baxmayaraq əlverişli məkan mühiti mövcuddur. Ayrı-ayrı binaların ahəngdarlığı ümumilikdə vahid kompleks ilə qəbul edilir. Sakit fasad səthləri ilə yanaşı yalnız nəzərə çarpacaq dərəcədə vurğulanmış girişlər öz üzərində mövcud funksiyaları daşıyırlar.

**Ofitserskaya** (Musəvi), **3** (1883-cü il), **4** (1880-ci il), **6** (1883-cü il). İki mərtəbəli yaşayış evləri şəhərin planlaşdırma strukturunda vacib yer tutur, onların həcmi-fəza və arxitektur şərhi peşəkar memarların öz yaradıcılıqları ilə şəhərin memarlığına klassik istiqamətin motiv və formalarını daha sərbəst ifadədə daxil etdikləri dövrlə sıx əlaqədardır. Bu kiçik küçədə Bakının şəraitlərinə tətbiq edilmiş (uyğunlaşdırılmış) dövrün memarlıq tendensiyaları aydın şəkildə ifadə edilmişdir. Burada hər bir yaşayış evi fərdidir, şəxsi memarlıq kompozisiyası, öz üsulları və motivlərinə malikdir. Onları ümumi bölünmələr (hissələrə ayrılmalar), pəncərələrin ahəngliyi və detalların profillənməsi birləşdirir. Onlar memarlıq abidələridir və şəhərin tarixi irsinə daxildirlər.

**Ofitserskaya** (Musəvi), **7, Çemberekendskaya** (Lermontov) küçəsinin tini, 82 (1884-cü il). Bu küçədə əvvəllər inşa edilmiş evlər ilə müqayisədə üçmərtəbəli yaşayış evi şəhərin memarlığının inkişafının yeni mərhələsini əks etdirir. Binaların memarlıq kompozisiyasının əsas prinsiplərinin qorunub saxlandığı zaman memarların peşəkar səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Yenilik yalnız arxitektur kütlələrin proporsional bölünməsində deyil, həmçinin plastik vasitələrin zənginləşdirilməsində, eləcə də ayrı-ayrı detalların ifadə edilməsinə (vurğulanmasına) böyük diqqətin ayrılmasında müşahidə edilir. Buna görə yaşayış evi memarlıq kompozisiyası, öz obrazının daxili məzmunu, plastik modelləşdirmə və yüksək tikinti mədəniyyəti ilə özünə diqqəti çəkir ki, bu da onun şəhərin irsində memarlıq abidəsi kimi əhəmiyyətini müəyyən edir.

**Persidskaya küçəsi** (Murtuza Muxtarov). 1850-ci ildə ilk əvvəl Şamaxinka rayonunda meydana gəlmişdir, onun tikintisi kənarlardan (ətraflardan) mərkəzə doğru aparılırdı. İki-üçmərtəbəli binaların tikintisinə xüsusi diqqətin ayrıldığı XIX-XX əsrlərin hüdudunda intensiv şə-

kildə inkişaf etməyə başlamışdır. Burada Aleksandr-Nevski Baş kilsə kimi böyük tikili inşa edilmişdir (memarlıq akademiki R.R.Marfeld, 1888-1898-ci illər). Aleksandr-Nevski Baş kilsəsinin inşaatçısı mülki mühəndis İ.V.Qoslavski olmuşdur. Kilsənin qarşısında Rotşildin firmasının kontoru (mülki mühəndis K.B.Skureviç, 1897-1899-cu illər, 13 saylı ev) inşa edilmişdir. 1911-1912-ci illərdə ünvan № 6-da mülki mühəndis İ.K.Ploşkonun layihəsi üzrə gözəl saray ucaldılmışdır, öz həcmi-fəza həlli və memarlığı ilə fransız qotik üslubunda şəhərin bu ərazisinin estetik görünüşünü müəyyən etmişdir. Küçənin şimali sərhədlərində "Uşaq xəstəxanası" binaları kompleksi meydana gəlmişdir (mülki mühəndis Z.-b. Əhmədbəyov, 1914-1916-cı illər. № 207).

**Persidskaya** (Murtuza Muxtarov), **3** (1890-cı illər). Yaşayış evi şəhərin arxitektur və stilistik istiqamətini müəyyən edərək onun tarixi məhəllələrini formalaşdıran və inkişaf etdirən tikililərə aiddir. Bina,Bakının memarlıq – planlaşdırma strukturunda öz bədii funksiyasından əlavə heç bir şəhərin mövcud ola bilməyəcəyi tarixin zəruri gücünü daşıyır. Yaşayış evi irsin bir hissəsi olaraq bədii cəhətdən dəyərli olan binaların mühitini formalaşdırır.

**Persidskaya** (Murtuza Muxtarov), **6.** Bakı milyonçusu Murtuza Muxtarovun sarayı 1912-ci ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmişdir. İnsanlar qarşısında detalları fransız qotika ruhunda incəliklə yerinə yetirilən fasadlara malik mərkəzi künc qüllə hissəsi kimi meydana gəlir. Binanın krablar və digər qotik üslubunun dekorativ elementlərilə bəzədilmiş əsas portalı ilə ümumi arxitektur kompozisiyası marağa səbəb olmur. Həmçinin üzərində kəsişən tağları daşıyan və həcmli plastikanın xüsusi dünyasını yaradan nazik sütunlarla olan fasadlardakı lodjiyaları da diqqəti cəlb edir. Burada iti uclu frontonlar və hissələrə bölünmələr ilə şaquli şəkildə vurğulanmış (qeyd edilmiş) rizalitlərin ahəngi binanın parlaq siluetliliyini aşkar edir. Sarayın üslubu onun daşda geniş və dərin şəkildə təsvir edilmiş mahiyyətini müəyyən etmişdir. Memar bə-

*Persidsakaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının mərkəzi hissəsi. Mülki mühəndis İ.K. Ploşko. 1911-1912-ci illər.*





*Persidsakaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının fasadından fraqment.*



*Persidsakaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının fasadından bir hissə (detal). Rıtsarın heykəli.*



*Persidsakaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının vestibülü və təntənəli pilləkəni.*



*Persidsakaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının daxili tərtibatı.*



dii keyfiyyətləri maksimum dərəcədə istifadə etməyə cəhd göstərirdi. Zəngin plafon ilə təmtəraqlı pilləkən və otaqlar xüsusilə də qotik üslubunda işlənmiş kitabxana kimi daxili tərtibat heç də az maraq doğurmur. Muxtarovun sarayı bu üslub istiqamətində böyük əhəmiyyət daşıyan işlərdən biridir və XX əsrin əvvəlində şəhərin ən yaxşı tikilisi və tarixi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Persidskaya** (Murtuza Muxtarov), **12, Torqovaya** (Nizami) **küçəsinin tini, 33** (1896-cı il). Küncdə yerləşərək yaşayış evi şəhər mərkəzinin strukturunun aktiv bədii elementini təşkil edir. Estetik keyfiyyətlərindən əlavə bina, şəhərin öz inkişafında iqlim, dini-məişət və tikinti ənənələrini əks etdirən yaşayış evləri sırasına aiddir. Fasadların səliqəli işlənməsi, yonulmamış daşdan iki mərtəbədə istifadə edilməsi, profillənmiş haşiyələr ilə pəncərə oyuqlarının ahəngdarlığı – bütün qeyd edilənlər tarixi əhəmiyyət kəsb edən Bakı şəhərinin müəyyən dövrünün milli memarlıq abidəsi olan yaşayış evinin arxitektur kompozisiyasının əsasını təşkil etmişdir.

*Persidskaya küçəsi, 6. Murtuza Muxtarovun sarayının ümumi görünüşü. Ş.S. Fətullayevin rəsmi.*

**Persidskaya** (Murtuza Muxtarov), **13.** Rotşildin kontorunun keçmiş binasıdır, burada Niderland Krallığının konsulluğu yerləşirdi. 1899-cu ildə mülki mühəndis K.B.Skureviç ilə inşa edilmişdir, həcmi-fəza

*Persidskaya küçəsi, 13. Rotşildin kontorunun binasının cənub-şərqdən ümumi görünüşü.*





həlli sayəsində vacib şəhərsalma rolunu oynayır. Bina gözəl proporsiyaları, roman üslubunun elementləri ilə arxitektur izahı, müstəsna olaraq fasadların relyef plastikası, arxitektur motivlərin təsvir edilməsi və heykəltəraşlıq detallar ilə daşdan incəliklə düzəldilmiş oyuqların ahəngdarlığı ilə fərqlənir. Fasadların divarlarının "ağlay" üslublu bloklardan hörülməsi özü-özünə bədii mövzunu təşkil edirdi, çünki üfuqi və şaquli tikişlər kifayət qədər əsaslı surətdə seçilmiş və onların səthləri işlənmişdir. Bu tikilidə yaratdıqları işlər və ustalıqları Bakı şəhərinin bədii görünüşünün yaranmasına köməklik göstərən ustalar böyük rol oynamışdırlar. Skureviçin yaradıcılığında bina müstəsna yer tutur.

**Persidskaya** (Murtuza Muxtarov), **24.** Bakı milyonçusu Ağa Bala Quliyevin malikanə üslublu ikimərtəbəli yaşayış evi 1899-cu ildə memar Y.Y.Skibinski tərəfindən milli-romantizm istiqamətində (üslubunda) inşa edilmişdir. Simmetrik ox kompozisiya ilə üç küçəyə doğru istiqamətlənən əsas fasad, mərkəzdə erker və daşın üzərində bədii işlənmə ilə örtülmüş stalaktitlər və timpanlar sisteminə əsaslanan çıxıntılı yarım günbəzli yan rizalitlər-portarlar ilə vurğulanmışdır. Bu portallar Bakıdakı Şirvanşahlar Sarayı Kompleksinin memarlığının birbaşa təsirini əks etdirirlər. Stalaktit karniz və merlonlarla tamamlanmış qabarıq künc rizalitlər ilə olan binanın həcmi kompozisiyası bütövlükdə (vahid şəkildə) həll edilmiş və böyük plastikliyi ilə fərqlənir. Burada memarlıq ilə müqayisədə heykəltəraşlıq üslubuna aid əlamətlər görünür. Keçmişin irsinə müraciət edilməsi Azərbaycanın memarlığında milli-romantizm istiqamətini dərinləşdirir, onun XX əsrin başlanğıcında inkişaf etməsinə köməklik göstərir. Mərmərdən olan pilləkən qəfəsləri və bütün otaqların daxili tərtibatı zəngin və maraqlı arxitektur ifadədə təqdim edilmişdir. Yaşayış evi – Skibinskinin yaradıcılığında ən yaxşı bina və XIX-XX əsrlərinin hüdudunda Azərbaycan memarlığında ən gözəl tikililərdən biri və milli memarlıq abidəsidir.

**Persidskaya** (Murtuza Muxtarov), **26.** Memar M.M.Q.İsamyılov tərəfindən inşa edilmiş üçmərtəbəli yaşayış evi (1896-cı il) künc mövqe tutaraq ətrafdakı tikililərin şəhərsalma strukturunun fəal elementi olmuşdur. Arxitektur kompozisiya, xüsusi olaraq vurğulanmış mər-

*Persidskaya küçəsi, 13. Rotşildin kontorunun binasının ümumi görünüşü. Mülki mühəndis K.B. Skureviç. 1898-1899-cu illər*



*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin fasadından fraqment.*





*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin pilləkən qəfəsinin interyeri.*

*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin ümumi görünüşü. Memar Y.Y. Skibinski. 1899-cu il*

*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin pilləkən qəfəsində heykəl.*





*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin otağındakı plafon.*

*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin otağındakı plafon.*





*Persidskaya küçəsi, 24. Ağa Bala Quliyevin yaşayış evinin zalının interyeri.*

kəz və plastik həllin xarakteri Bakı üçün səciyyəvi olan və yerli material olan əhəngdaşının fasadlara təsirinin açıq-aşkar edildiyi obrazını, onun üfüqi qurşaqlar ilə proporsional şəkildə hissələrə ayrılmasını, pəncərə oyuqlarının ahəngdarlığı, detalların klassik formalarda işlənməsini yaradırlar. Burada daha sadə olan aşağı mərtəbələr və gözəl işlənmiş detallar, yenilənmiş karniz ilə kifayət qədər plastik və qabarıq yuxarı mərtəbələr arasındakı kontrastlıq maraqlı şəkildə şərh edilmişdir. Bu yaşayış evi İsmayılovun yaradıcılığında vacib yer tutur və memarlıq abidəsi hesab edilir.

**Persidskaya** (Murtuza Muxtarov), **29.** Yaşayış evi şəhərin memarlıq istiqamətini (üslubunu) və Bakı memarlarının yaradıcılıq xüsusiyyətlərini əks etdirir. Memarlıq kompozisiyası plastik vasitələr hesabına aşkar edilmişdir.



*Persidskaya küçəsi, 26. Yaşayış evinin ümumi görünüşü. Memar Məşədi Mirzə Qafar İzmayılov. 1896-cı il.*

Fasad klassik memarlıq formalarından istifadə etməklə üfüqi və şaquli şəkildə hissələr bölünmələrin dəqiq strukturuna malikdir. Pəncərə və qapıların zəngin dekorlaşdırılmış sandrikləri ilə mərtəbə kürəklərinin qabarıq tinlənməsi şəhərin irsinin vacib elementi kimi tarixi mərkəzin şəhərsalma sistemində yaşayış evinin əhəmiyyətini aşkar edir. Ev – bədii cəhətdən qiymətli binalar üçün mühitdir.

**Persidskaya** (Murtuza Muxtarov), **30.** İkimərtəbəli yaşayış evi memar M.M.Q.İsmayılov tərəfindən 1894-cü ildə inşa edilmişdir, künc mövqedə yerləşir və bununla əlaqədar olaraq tarixi məhəllələr sistemində şəhərsalma baxımından müəyyən rol oynayır. Burada fasadların Bakı şəhərinin memarlığı üçün səciyyəvi olan klassik formalarda, lakin daha sərbəst ifadə olunması nəzərə çarpır. Yaşayış evi müəllifin emosional əhval-ruhiyyəsi, onun ustalığını əsasən müəyyən edilən xüsusiyyətləri ilə fərqlənirdi. Bu ilk əvvəl fasadların ümumi miqyasını xarakterizə edən üfüqi formada hissələrə ayrılmalar, detalların relyef həll ilə ifadə edilmiş zəngin plastika ilə pəncərələrin ahəngli qurulmasıdır. Ev yüksək səviyyəli tikinti mədəniyyəti ilə fərqlənir, İsmayılovun yaradıcılığında görkəmli yer tutur və XIX-XX əsrlərin hüdudunda Bakının memarlıq abidəsidir.




*Persidskaya küçəsi, 83. Fasad, plan, hamamın kəsimi. 1888-ci il. Ş.S. Fətullayevin çertyojları.*

**Persidskaya** (Murtuza Muxtarov), **43,** Tserkovnaya küçəsinin tini (Vidadi), 56, 45, Tserkovnaya küçəsinin tini (Vidadi), 51, 47 (1900-cü illər). Yaşayış evləri həcmi-fəza və kompozisiya üsulları ruhunda Bakının yaşayış yerlərinin yerli xüsusiyyətlərinin davamı kimi inkişaf edən maraqlı növünü təşkil edir. Yaşayış evinin arxitektur kompozisiyasında "şüşəbənd" fəal çıxış edən elementdir. Burada fasadın bütövlükdə şərh edilməsi, gözəl plastika, eləcə də daşdan olan relyef detallar sanki şüşəbəndə tabe olurlar. Yaşayış evləri Bakı şəhərinin bədii cəhətdən dəyərli binalarının mühitini müəyyən edirlər.

**Persidskaya** (Murtuza Muxtarov), **83** (1888-ci il). Ciddi fasadı, ifadəli həcmi-fəza həlli ilə hamam binası şəhərin sıra şəklində inşa edilmiş tarixi tikililərinə əla uyğunlaşdırılmışdır. Milli formalarda daş tektonikasının mükəmməl şəkilə çatdırıldığı Azərbaycan memarlıq ənənələrində hamam maraqlı daxili memarlıq-planlaşdırma və konstruktiv strukturu



*Persidskaya küçəsi, Kanni-Təpinskaya küçəsi, 75 tini. "Hacı Soltan Əli" məscidinin ümumi görünüşü. Mülki mühəndis İ.K. Ploşko (?). 1910-cu il.*

*Persidskaya küçəsi, Kanni-Təpinskaya küçəsi, 75 tini. "Hacı Soltan Əli" məscidinin qərb fasadı.*



ilə fərqlənirdi. Tarixi irsin bir hissəsi olan milli-memarlıq abidələrinə aiddir.

**Persidskaya** (Murtuza Muxtarov), **105**, (1902-ci il), **115** (1900-cü il). XX əsrin başlanğıcında şəhərin yaşayış tikililərinin (tikintisinin) ayrıca yaşayış mənzilinin xüsusiyyətlərinə, Bakının mövcud şəraitlərində əhalinin orta təbəqəsinin tələbatlarına daha məsuliyyətli yanaşmaq kimi tələblərinə uyğun idi və onların bir nümunəsi kimi çıxış edirdilər. Fərdi yaşayış evinin eyni zamanda həcmi-fəza kompozisiyasının formoloji quruluşu şəhərin strukturunda həmçinin vacib yer tutur. Bu yaşayış evlərinin obraz həlli buradan irəli gəlir. Qeyd edilən yaşayış evlərində onların plastikliyi, arxitektur motivləri və ayrı-ayrı detallarının yerli şəraitlər üslubunda əla şərh edilməsi ilə Bakıda evlərin tikintisi ənənələri dərin şəkildə birləşir. Evlər Bakının bədii cəhətdən dəyərli binaları üçün fəal şəkildə mühiti formalaşdırır.

**Pozenovskaya küçəsi** (M.İ.A.Cəfərovlar), **19.** Həsənovlar qardaşlarının kirayə verilən evi (gəlir gətirən evi) 1910-cu ildə inşa edilmişdir, həyətin П-şəkilli



*Pozenovskaya küçəsi, 19. Həsənovlar qardaşlarının yaşayış evinin planı. 1910-cu il.*



*Pozenovskaya küçəsi, 19. Həsənovlar qardaşlarının yaşayış evinin fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*


БР. ГАСАНОВЫХЪ

planlaşdırma növü ilə kompozisiyanın çox maraqlı həllinin nümunəsini təşkil edir. Burada, yeni üsullar və planlaşdırma tələbləri nəzərə alınmaqla və həyət tərəfdən korpus və şüşələnmiş galereya "şüşəbəndlərinin" dərinliyində otaqların iki cərgəli yerləşmə sistemini qoruyub saxlamaqla Bakının mövcud şəraitlərində yaşayış evinin inşasının ən yaxşı ənənələri əks olunmuşdur. Həyət fəzasının fasadlarının bu cür işlənməsi xüsusi ifadəlik və bədii effekti təmin etmişdir. Əsas fasadın zəngin mənzərəli arxitektur kompozisiyası modern və barokko elementlərinin tətbiq edilməsi ilə həll edilmişdir. Fasadın mərkəzdəki simmetrik oxlu kompozisiyası yarım sirkul frontonlar, yan tərəflərdə isə tinlənmələri ilə tamamlanır. Bina həcmli plastikası, relyef formada hissələrə ayrılmaları, inkişaf etdirilmiş (mükəmməlləşdirilmiş) gözəl detalları, əla işlənməsi ilə fərqlənirdi. Daş üzərində işlənmə zəngin karniz, arxitektur və dekorativ motivlər şəklində fasadda uğurla istifadə edilmişdir. Fasad möhtəşəmdir, memar, memar-inşaatçıların ustalığı öznünü büruzə verir. Bina irsin bir hissəsi və XX əsrin başlanğacında Bakı şəhərinin yaşayış evlərinin tikintisinin abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev). Şəhərin Baş planında 1870-ci ilin başlanğıcında göstərilmişdir, lakin yalnız XIX-XX əsrlərin hüdudunda inşası tam olaraq başa çatdırılmışdır. Kiçik ərazidə sıx şəkildə möhkəm yaşayış binaları inşa edilmişdir. Avropa order sisteminin arxitektur prinsiplərindən istifadə edilmişdir. Tikilinin xarakterinin əsasını tikinti



*Pozenovskaya küçəsi, 19. Həsənovlar qardaşlarının yaşayış evinin fasadının fraqmentləri.*



*Politseyskaya küçəsinin planı.*

incəsənətinin yerli koloriti təşkil edirdi. Burada daşdan olan hörgü şəhər mühitinin arxitektur istiqamətini həmçinin müəyyənləşdirir və tikilidə əsas yer tutur. Küçədə yerləşən hər bir bina müəllif interpretasiyasının fərdi formasında təqdim edilmişdir və böyük estetik funksiyalar daşıyırdı. Onlar arasında memarlığın milli-romantizm istiqamətinə görə Rılskiy qardaşlarının keçmiş 11 saylı evi (memar İ.K.Ploşko, 1912-ci il), Avropa memarlığının klassik formalarına görə isə 20 saylı yaşayış evi (memar İ.V.Edel, 1896-cı il) xüsusi olaraq diqqəti çəlb edir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **2, Merkuryevskaya küçəsi** (Azərbaycan prospekti) və **Dəniz kənarının tini** (Neftçilər prospekti), **112.** Dadaşovların çox mərtəbəli gəlir gətirən evi mühəndis F.A.Nikulin tərəfindən 1912-ci ildə inşa edilmişdir. Şəhərin tarixi mərkəzində istər həcmi kompozisiyası, istərsə də son-




*Politseyskaya küçəsi, 2. Dadşevin yaşayış evinin 4-cü mərtəbəsinin planı. Mülki mühəndis F.A. Nikulin. 1912-ci il. Ş.S. Fətullayevin çertyoju.*

rakı dövrə aid modern üslubdakı memarlığı sayəsində aparıcı mövqe tutması ilə xarakterizə edilir. Bina ciddi, lakin həmin dövrün yaşayış evinin zəngin plastikası və parlaq obrazını yaradan ifadəli formaları ilə fərqlənir. Vurğulanmış mərkəzi hissə və bucaqlı künc rizalitlər siluet kompozisiyası istiqamətində inkişaf edən üfüqi bölünmələrin ahəngdarlığı vasitəsilə aşkar edilmişdir. Bu yaşayış evi müasir ev inşasının prinsiplərinin ifadə edilməsində (göstərilməsində) yeni mərhələni açır və



*Politseyskaya küçəsi, 2. Dadaşevin yaşayış evinin qərbi fasadının fraqmenti.*

*Politseyskaya küçəsi, 2. Dadaşevin yaşayış evinin ümumi görünüşü.*



F.A.Nikulinin yaradıcılığında vacib yer tutur. Bina – Bakı şəhərinin irsinin bir hissəsi və memarlıq abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **4, 6** (1890-cı il). Yaşayış evləri şəhərin tarixi mərkəzinin köhnə tikililəridir, həmin dövrün tikilisinin memarlıq-planlaşdırma səciyyəvi xüsusiyyətini müəyyən edirlər. Fasadların həllinin təmkinli kompozisiya üsullarına baxmayaraq onlarda şəhərin ahəngdarlığı və miqyası əvvəlcədən dəqiq aşkar edilmişdir. Bu tikililərdə şəhərin üslub istiqamətinin qurulması və formalaşmasının müəyyən mərhələsi izlənilir ki, bu da Bakının memarlıq irsinin obyektiv qiymətləndirilməsi zamanı olduqca vacibdir. Yaşayış evləri şəhərin bədii cəhətdən dəyərli binaları üçün mühiti təşkil edirlər.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **7** (1880-ci il). Bakıda məhşur "neft istiliyinin" başlandığı dövrün bu cür memarlığı üçün səciyyəvi olan və istər şəhərin tarixi mərkəzinin kiçik qabarit sahələrində yaşayış evinin planlaşdırma həllinin inkişafı, istərsə də ordersiz sistemin təmkinli formalarda fasadın memarlıq şərh edilməsi ilə fərqlənən üslubun (onun istiqamətinin) formalaşmasının misalı kimi çıxış edir, bu da binanı dövrün memarlıq irsinin abidəsinə çevirir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **8,** Baryatinskaya küçəsinin tini (A.K.Əlizadə), 13. 1920-ci ilə qədər bu binada "Xarici ticarət üçün rus bankı" yerləşirdi. Yaşayış evi 1890-cı ildə memar Y.Y.Skibinski tərəfindən inşa edilmişdir, fasadların əzəmətliyi, kompozisiyanın plastikliyi, klassik formaların əla təsviri və yüksək tikinti mədəniyyəti ilə fərqlənir. Bina şəhərin tarixi mərkəzinin

stilistik xüsusiyyətlərini müəyyən edir, Bakının şəhərsalma strukturunda miqyaslı vahid kimi çıxış edir. Burada fasadların arxitekturasının həllinin konkretlik prinsiplərinə riayət edilmişdir, profillənmiş naliçniklər ilə vurğulanmış, frontonlar və zəngin karniz ilə tamamlanan və sıx olmayan pəncərələrin yerləşdiyi divarlar vardır. Divarın hörgüsü özü-özlüyündə bədii həllin xüsusi növünü təşkil edir. Skibinskinin yaradıcılığında yaşayış evi – arxitektur fəallığın təzahürünün yeni forması, irsin bir hissəsi və memarlıq abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **9,** (1888-ci il). Bu yaşayış evinin şəhərin tarixi məhəllələrində öz yeri var. Binanın fərdiliyi fasadın plastik və zəngin həlli, detalların yumşaq təsvir edilməsi, kompozisiyanın proporsional bölünməsi və order sistemi ilə vurğulanır, divar daş ilə üzlənməmişdir, üzərinə suvaq çəkilmişdir, lakin buna baxmayaraq arxitektur formalar və elementlər, xüsusilə də klassik formalar ilə korinf sütunlar yüksək tikinti incəsənəti səviyyəsində təqdim edilmişdir. Yaşayış evi küçənin ümumi tikililər sisteminə daxil olmuşdur və Bakıda kapitalizm dövrünə aid memarlıq abidəsi kimi yer tutmuşdur.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **10,** (1890-cı il). Burada 1920-ci ilə qədər "Don Torpaq bankı" ("Donskoy Zemelnıy bank") yerləşirdi. Ev, yüksək daş memarlığı səviyyəsində yerinə yetirilmiş öz plastik fasadı, klassik formaları və nazik profilləri sayəsində aktiv həcmi vahid kimi şəhərin tarixi mərkəzinin arxitektur-planlaşdırma strukturuna daxildir. Yaşayış evi 9 saylı ev ilə eyni memarlıq üslubda işlənmişdir. Lakin burada birinci mərtəbə daha həcmli və predmet-fəza mühitində bədii cəhətdən daha çox açıqlanmışdır. Yaşayış evi kapitalizm dövrünün memarlıq abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **11.** Rılskiy qardaşlarının 1912-ci ildə mülki mühəndis İ.K.Ploşko tərəfindən inşa edilmiş evidir, arxitektur-planlaşdırma və həcmi-fəza həllinə görə kolorit binalardan biridir. İrsə lazımi diqqətin ayrılmadığı bir dövrdə vətəndaşlıq hüququ almışdır. Arxitektur kompozisiyası,

*Politseyskaya küçəsi, 11. Rılski qardaşlarının yaşayış evinin şərq fasadı. Mülki mühəndis İ.K.Ploşko. 1912-ci il.*







*Politseyskaya küçəsi, 11. Rılski qardaşlarının yaşayış evinin fasadının fraqmenti. Mülki mühəndis İ.K. Ploşko. 1912-ci il.*

*Politseyskaya küçəsi, 11. Rılski qardaşlarının yaşayış evinin giriş portalı.*

həcmi kütlələrin ustalıqla həll edilməsi, istər fasadın elementlərinin gözəl təsvir, istərsə də pilləkən qəfəsi və otaqların daxili tərtibatının işlənməsi sayəsində bina yüksək bədii keyfiyyətləri ilə fərqlənir. Fasadın ox üzrə klassika baxımından simmetrik şaquli kompozisiyası açıq tip erker, yüngül arxitektur formalar ilə pəncərə oyuqlarının ahəngdarlığı, haşiyələrin gözəl xətləri və merlonlarla inkişaf etdirilmiş növdə stalaktit karniz ilə vurğulanmışdır. Bu yaşayış evi Ploşkonun ən yaxşı işlərindən biridir, şəhərin memarlıq abidələri sırasına daxildir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **12** (1896-cı il). Üçmərtəbəli yaşayış evi şəhərin tarixi mərkəzinin arxitektur-planlaşdırma strukturunun əsasını təşkil edir, onun tikililəri arasında öz yerini tutur. Klassik formalarda inşa edilmiş tikili eyni zamanda fasadın kompozisiya həllinin xarakteri, mərtəbələrin proporsional inşası, pəncərə oyuqlarının ahəngdarlığı, yaşayış evinin cənub növünün bədii cəhətdən açılışda daş hörgünün imkanlarından istifadəsinə görə spesifik olaraq Bakı tikililəri sırasına daxildir. Bina – XIX-XX əsrlərin hüdudunda Bakının arxitektur irsini müəyyənləşdirən ən yaxşı evlərdən biridir və memarlıq abidəsidir.

*Politseyskaya küçəsi, 16. Yaşayış evinin qərb fasadı. Ş.S. Fətullayevin çertyoju.*



**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **14** (1912-ci il). Ordersiz sistem ənənələrində inşa edilmiş dörd mərtəbəli yaşayış evi şəhərin ev inşasının kapitalizm dövrünə aid tendensiyalarını əks etdirir. Burada Bakı şəhərinin mövcud şəraitlərində gəlir gətirən evin obrazı geniş daş eyvanları, pəncərə oyuqlarının birbirinə yaxın yerləşməsinin ahəngdarlığı, zərif və zövqlə aydın şəkildə çəkilmiş metal qəfəsləri ilə öz əksini tapmışdır. Fasadın proporsional şəkildə hissələrə ayrılması, mərtəbələrin zəngin çıxıntılı hörgüsü, detallar və profillərin ifadəli palitrası, portalın elementlərinin incəliklə oyması bu ev üçün səciyyəvidir. Yaşayış evi yalnız məhəllənin tikintisində deyil, eləcə də memarlıq abidəsi olaraq şəhərin tarixi mərkəzində də fəal rol oynayır.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **15** (1900-cü il). İkimərtəbəli yaşayış evinin əsasında bir qədər modern üslubunun əlamətləri ilə order sistemində hissələrə proporsional bölünmə durur. Ev tarixi mərkəzin şəhərsalma strukturuna daxil olmuşdur. Maraqlı arxitektur kompozisiya ilə birlikdə yüksək tikinti mədəniyyəti, eləcə də daş detallar öz dövrünün memarlıq abidəsi kimi Bakının irsində yaşayış evinin yerini müəyyən etmişdir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **16** (1900-cü il). Bu yaşayış evi tarixi mərkəzin tikintisinin fəal elementidir. Fasadın arxitektur kompozisiyasının üfüqi formada mərkəzi tinləmə və yanlarda güclü atlantlar (dayaqlar) üzərində duran erker ilə təqdim edilmiş üç oxlu sistemi çox maraqlı predmet-



*Politseyskaya küçəsi, 16. Yaşayış evinin erkeri altında atlantın heykəli.*



*Politseyskaya küçəsi, 16. Yaşayış evinin qərb fasadının fraqmenti.*



fəza mühitini yaratmışdırlar. Mənzərəli kompozisiya, arxitektur kütlələrinin proporsional bölünməsi, order sisteminin elementlərinin bacarıqlı paylaşdırılması, incəsənətlərin sintezi, interyerlərin zənginliyi memarlıq abidəsi kimi binanı yaşayış evlərinin ən yaxşı nümunələrinə aid etməyə imkan verir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **17** (1883-cü il). İnqilaba qədər binada Avstriya-Macarıstan konsulluğu yerləşirdi. Bu ikimərtəbəli yaşayış evi XIX əsrin sonunda tarixi mərkəzin üslub xüsusiyyətini müəyyən edən və Bakı şəhərinin gələcəkdəki inkişafının əsasını təşkil edən binalar aiddir. Bina yalnız fasadın həlli ilə deyil, eləcə də şəhərin bədii cəhətdən qiymətli olan evləri üşün mühit təşkil edərək burjuaziya məhəllələrinin yaşayış binları fonunda öz tarixiliyi ilə qiymətləndirilir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **19.** Zeynal bəy Səlimxanovun çox mərtəbəli yaşayış evi 1913-1914-cü illərdə mülki mühəndis A.A.Nikitin tərəfindən inşa edilmişdir. Mənzərəli və siluet xarakterli arxitektur kompozisiya mərkəzdə yuxarı mərtəbələrdəki özünəməxsus portik və planda əyri xətli erkerlər ilə vurğulanmış üç oxlu sistemə malikdir. Üslub baxımından yaşayış evi yerli istiqamətin bütün incəlikləri ilə modern üslubda təqdim edilmişdir. Maraqlı həcm, formaların dinamik qurulması, daş detalların cəsarətlə təsvir edilməsi və tikinti işlərinin yüksək mədəniyyəti ilə fərqlənirdi. Burada modern üslubuna aid motivlər və detallar arxitektur baxımından ifadə etmənin xüsusi formasını

*Politseyskaya küçəsi, 16. Yaşayış evinin qərb fasadının fraqmenti. Təntənəli giriş. 1900-cü il.*



*Politseyskaya küçəsi, 19. Zeynal bəy Səlimxanovun yaşayış evinin qərb fasadının ümumi görünüşü. Mülki mühəndis A.A.Nikitin. 1913-1914-cü illər.*



*Politseyskaya küçəsi, 19. Zeynal bəy Səlimxanovun yaşayış evinin fasadının fraqmenti.*



*Politseyskaya küçəsi, 19. Zeynal bəy Səlimxanovun yaşayış evinin fasadının fraqmenti.*



*Yaşayış evinin fraqmenti. Ş.S.Fətullayevin rəsmi.*

almışdırlar. Fasadın kompozisiyasına eyvanların metal qəfəsləri və pəncərəlin alt hissəsindəki ornamental əlavələr uğurla daxil edilmişdir. Fasadın bədii həllində daş əvəzedilməz rol oynamış və onun həcmi plastikdakı imkanlarını açmışdır. Nikitinin yaradıcılığında yaşayış evi aparıcı yer tutmuş, memarlıq abidələr sırasına daxil olmuşdur.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **20.** Malikanə (mülk) tipdə olan yaşayış evi 1894-1896-cı illərdə memar İ.V.Edel tərəfindən inşa edilmişdir və bu kiçik, lakin rahat küçənin tikililəri üçün səciyyəvidir. Bina öz klassik formaları, kompozisiyasının zərifliyi və arxitektur elementlərin və detalların incəliklə təsvir edilməsi fərqlənirdi. Burada neo-yunan cərəyanının təsiri müəyyən dərəcədə hiss olunur ki, bu da elektika və üslublaşdır-



*Politseyskaya küçəsi, 19. Zeynal bəy Səlimxanovun yaşayış evinin planı və kəsimi.*



*Politseyskaya küçəsi, 20. Yaşayış evinin 2-ci mərtəbəsinin planı.*



*Politseyskaya küçəsi, 20. Yaşayış evinin mərkəzi hissəsinin fasadının fraqmenti. Memar İ.V. Edel. 1894-1896-cı illər.*



*Politseyskaya küçəsi, 20. Yaşayış evinin fasadının fraqmenti. Təntənəli giriş.*



*Politseyskaya küçəsi, 20. Yaşayış evinin fasadının fraqmenti. Təntənəli girişin detalı.*



*Politseyskaya küçəsi, 20. Yaşayış evinin fasadının fraqmenti.*

ma dövründə təəccüblü deyildir. Fasad frontonlar və yan tinlənmələrlə mərkəzi hissə vasitəsilə üç oxlu sistemi ilə qeyd edilmişdir. İoniya sütunlar və geniş şəkildə tinlənmiş pilonlar ilə mərkəzin yuxarı hissəsi portik şəklində xüsusilə gözəl təsvir edilmişdir. Təntənəli otaqların interyerləri karnizlərin inkişaf etmiş forması, plafonların gözəl xətləri sayəsində estetik funksiyalar daşıyırlar. Edelin yaradıcılığında malikanə (mülk) xüsusi yer tutur və memarlıq abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **21** (1889-cu il). Yaşayış evinin əsas fasadı şəhərin həmin dövrə aid səciyyəvi xüsusiyyətlərini müəyyən edir. Qeyd edilən dövrdə Bakının bədii görünüşündə klassik üsullar və formalar daha sərbəst şərh edilməsi ilə üstünlük təşkil edirdilər. Fasadın arxitektur həllinin bu cür prinsipi şəhərin memarlığının ümumi istiqaməti ilə ziddiyyət yaratmırdı. Bu yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **22** (1895-ci il). Arxitektur həllin xarakterinə görə üçmərtəbəli yaşayış evi tarixi mərkəzin cərgəli tikililər sırasına aid olsa da, bununla belə Bakı şəhərinin tikintisi təcrübəsində istifadə edilən üslub və arxitektur istiqamətlər haqqında düzgün təsəvvür yaratmağa imkan verir. Buna görə bu bina memarlıq irsinə daxildir və şəhərin bədii cəhətdən qiymətli binaları üçün mühiti müəyyən edir.

**Politseyskaya küçəsi** (Y.Məmmədəliyev), **24** (1896-cı il). 22 saylı ev kimi üçmərtəbəli bu yaşayış evi tarixi mərkəzinin yaşayış məhəllələrinin cərgəli tikililərinə daxildir. Öz obraz həllinə görə Bakının iqlim şəraitlərinə cavab verir və bu tikililər növü üçün eyvanlar səciyyəvidir. Mərtəbələr üzrə tyaqaların bölünməsi, pəncərə və qapıların haşiyələrinin dərin profilləri ilə olan və üzərinə suvaq çəkilmiş fasad müəyyən plastik formanı formalaşdırır və şəhərin bədii cəhətdən qiymətli binaları üçün mühiti formalaşdırır.

**Poçtovaya küçəsi** (S.Tağızadə). M.Qorki küçəsindən başlayır və relyefin kifayət qədər qalxması ilə qərb istiqamətində inkişaf edir. Şəhərin ən köhnə küçələrindən birinə aiddir. Əsasən tikili ikimərtəbəlidir. Üslub baxımından 1880-1890-cı illərin arxitektur və kompozisiya üsullarını əks etdirir. Qeyd edilən illərdə order sisteminin klassik formaları şəhərin həcmi-fəza strukturunda üstünlük təşkil edirdilər. Daş sənətinin həqiqi əsərləri və əhəngdaşından yonulmuş əla arxitektur detallar ilə olan yaşayış evləri burada təqdim edilmişdir. Bu tikililər arasında H.Z.Tağıyevin 70 saylı ikimərtəbəli ya-

*Poçtovaya küçəsinin planı.*





*Poçtovaya küçəsi, 43. Yaşayış evinin fasadının fraqmenti. 1900-cu illər.*

şayış evi xüsusilə nəzərə çarpır (mülki mühəndis İ.V.Qoslavski, 1893-cü il).

**Poçtovaya küçəsi** (S.Tağızadə), **31, Orlovskaya küçəsinin** (Muhtadır) **tini, 23** (1887-ci il). Bu ikimərtəbəli yaşayış evi 1880-ci illərin başlanğıcında Avropa memarlığının ordersiz sisteminin prinsiplərinin təsiri altında hələ də formalaşma prosesində olan tikililər növü aiddir. Lakin onun kompozisiya strukturunda ənənəvi üsul və formaların ötürülməsindəki öz vasitəsizliyi ilə xalq memarının iştirakı aydın şəkildə aşkar edilir. Bu evdə ümumi həlli sxemini müəyyən edən kürək-pilyastrlar ilə fasadın kompozisiya baxımından şərh edilməsi maraq yaradır. Arxitektur-dekortiv elementlər ilə kompozisiya üsulları əla birləşir (uyğunlaşır) ki, bu da vacib xüsusiyyəti təşkil edir və memarlıq abidəsi kimi xalq memarının binasının əhəmiyyətini sübut edir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **43** (XIX əsr - XX əsrin başlanğıcı). Kamara xarakterli, barokko üslubunda olan birmərətbəli yaşayış evi. Oxlu kompozisiya ilə assimetrik fasad dekorativ lepkalar ilə işlənmiş pəncərə oyuqlarının ahəngdarlığı vasitəsilə çox zərif strukturu təşkil edirlər. Suvaqdan olan arxitek-

tur profillərin zərif rəsmi, hörük şəkilli naxışlardan pilyastr və frizlərin korinf kapitelləri iki-üçmərtəbəli daş binaların əhatəsində bədii mühiti formalaşdırdılar. Malikanə (mülk) irsin bir hissəsi və memarlıq abidəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **51** (1888-ci il). Bu yaşayış evi fasadın səciyyəvi tikinti sxemi ilə ordersiz kompozisiyanın plastik həllinin misalı kimi göstərilə bilər. Burada fasad bədii cəhətdən qiymətli binalar üçün mühit təşkil edən tikiliyə ümumilikdə əhəmiyyət bəxş edən, zəngin haşiyələr və digər arxitektur elementlər ilə pəncərələr üçün müəyyən çərçivəni formalaşdıran pilyastr sistemi ilə bölünmüşdür.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **54, Təzə-Pir küçəsi,** (Mustafa Sübhi) **10** (1909-cu il). General Trusovun malikanə üslublu ikimərtəbəli yaşayış evi, maraqlı həcmi-fəza və arxitektur-planlaşdırma kompozisiyasından misaldır. Qeyd edilmiş ox ilə fasadın erker ilə bərkidilmiş assimetrik strukturu order sisteminin bütün müxtəlifliklərini aşkara çıxarır. Ustalıqla və ahəngdarlı şəkildə daşdan yonulmuş həcmi kütlələr və mənzərəli formalar, dekorativ elementlər və detalların zəngin plastikası sərbəst ifadə də fasadın arxitektur fasadını müəyyən edirlər. Birinci mərtəbənin relyef və profillənmiş tinlənməsi xüsusi diqqət çəkir. Balkon və erkerin kronşteynləri daş üzrə oyma sənətinin sərbəst əsərləridir, buna görə yaşayış evi həm memarlıq abidəsi, həm də Azərbaycanın bədii irsinin ayrılmaz hissəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **56** (1907-ci il). Əzəmətli üçmərtəbəli yaşayış evi küçədəki və şəhərin tarixi məhəllələrinin tikililərinin aparıcı elementlərindən biridir. Fasadın arxitektur kompozisiyası Bakıda geniş şəkildə yayılmış klassik istiqamətin üslub tendensiyalarını əks etdirir. Bu evdə zəngin plastika ciddi üfüqi bölünmələr, pəncərələrin profillənmiş haşiyələrinin ahəngdarlığı isə inkişaf etdirilmiş karniz ilə uğurla uyğunlaşır. Bütün bunlar tikinti

*Poçtovaya küçəsi, 54. Trusovun yaşayış evinin fraqmenti.*



*Poçtovaya küçəsi, 54. Trusovun yaşayış evinin ümumi görünüşü. 1909-cu il.*





*Poçtovaya küçəsi, 54. Trusovun yaşayış evinin fasadının detalı.*



*Poçtovaya küçəsi, 54. Trusovun yaşayış evinin fasadının detalı.*

incəsənətinin yüksək mədəniyyəti ilə tamamlanır və yaşayış evinin nəinki memarlıq kimi, eləcə də tarixi əhəmiyyətli abidə kimi əhəmiyyətini müəyyən edir, çünki burada dahi Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə yaşamışdır (1886-1932-ci illər).

**Poçtovaya küçəsi** (S.Tağızadə), **58, Karaulnaya prospektinin tini, 5** (1887-ci il). Nuru Əmiraslanovun evində yerli dekorativ-tətbiqi ənənələrdə yerinə yetirilmiş və heyvan qorelyefləri (hündür qabarıqlı skulptura, naxış) ilə olan portal istər bədii, istərsə də tarixi nöqteyinəzərindən maraq yaradır. Portal milli mədəniyyət abidəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **59, Persidskaya küçəsi, 15** (M.Muxtarov) **tini.** Aşurlı (Aşurbəyovların) yaşayış evi iki mərhələdə inşa edilmişdir: birinci mərtəbənin inşası 1880-ci il, ikinci mərtəbənin inşası isə 1898-ci ildə həyata




*Poçtovaya küçəsi, 58. N.Əmiraslanovun binasının fasadının fraqmenti.*



*Poçtovaya küçəsi, 59. Aşurlının yaşayış evinin fasadının fraqmenti*



*Poçtovaya küçəsi, 59. Aşurlının (Aşurbəyovun) yaşayış evinin qərb fasadı. 1898-ci il.*

*Poçtovaya küçəsi, 59. Aşurlının yaşayış evinin cənub fasadı. Təntənəli giriş.*



keçirilmişdir. Küncdə yerləşməsi və həcmi-fəza həlli sayəsində ev şəhərin tarixi məhəllələri strukturunda vacib əhəmiyyət daşıyır. "Şüşəbənd" tipli eyvanlar ilə olan binanın mənzərəli arxitektur kompozisiyası şəhər mərkəzinin bu sahəsinin bədii görünüşünün formalaşmasında öz müsbət rolunu oynamışdır. Künc və yan mövqeləri tutaraq "şüşəbənd" şəhər tikilisində ilk dəfə çıxış edir. "Şüşəbənd"lər xüsusilə də geometrik rəsm ilə taxta plafonları bədii cəhətdən təkmilləşdirilən həcmi elementləri təşkil edirlər. Yaşayış evində istər sərbəst ifadə də klassik istiqamətin forma və üsulları, istərsə də yerli formalaşmalar cəmlənmişdir ki, bunun da sayəsində ev özünəməxsus həcmi elementə çevrilmişdir. Evin interyeri həmçinin marağa səbəb olur. Evin interyerindən bəstəkar Ü.Hacıbəyovun məşhur milli "Leyli və Məcnun" operasının teatr səhnəsində nümayiş etdirilməzdən əvvəl ilk dəfə ev şəraitlərində tamaşaya qoyulması zamanı istifadə edilmişdi. Beləliklə, bu yaşayış evi nəinki memarlıq abidəsidir, həmçinin milli-musiqi mədəniyyətinin dəyərli irsi kimi tarixi-memorial əhəmiyyətə malik idi.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **62** (1890-cı il), **67** (1890-cı illər), **73** (1880-ci il), **74** (1880-ci illər). Yaşayış evləri estetik qayda funksiyalarını daşıyır və şəhərin tarixi məhəllələrinin formalaşmasında fəal iştirak edir. Onların həcmi-fəza və arxitektur-planlaşdırma xüsusiyyətləri Bakı şəhərinin şəraitlərində yaşayış evlərinin tikintisi təcrübəsində yayılmış üslub tendensiyalarını əks etdirir. Evlər bədii cəhətdən qiymətli binalar üçün mühiti təşkil edirlər.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **66** (1896-cı il). Yaşayış evi həcmi və arxitektur-planlaşdırma həlli sayəsində tarixi mərkəzin maraqlı tikililərindən biridir. Şəhərin həyətin təşkili və arxitektur işlənməsinin az sayda aparıldığı bir çox binalarından fərqli olaraq burada həyətin istər planlaşdırılması, istərsə də onun bədii həllinə daha çox diqqət ayrılmışdır. Burada "şüşəbənd"lər əla proporsiyalar ilə daş dayaqlarında həyət fəzasının fasadını təşkil edirlər. Pəncərə oyuqlarının ahəngdarlığı, haşiyələr, kronşteynlərlə sandrikalar və "ağlay" daş plitələrindən olan nazik yonulmamış daş ilə fasadın əsas kompozisiyası klassik üslublarda üslub istiqamətini müəyyən etmişdirlər. Bu yaşayış evi memarlıq abidəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **70.** H.Z.Tağıyevin ikimərtəbəli malikanəsi 1895-ci ildə mülki mühəndis İ.V.Qoslavski tərəfindən inşa edilmişdir. Əvvəlcə planda üçmərtəbəli yaşayış evinin inşası nəzərdə tutulmuşdur. Bakının tarixi məhəllələrinin cərgəli tikililər sırasına daxil olaraq yaşayış evi əla memarlıq əsərinin keyfiyyətlərinə məxsus idi. Fasadın Toskana intibah formalarda həlli sayəsində bina küçənin tikintisinin vacib elementlərindən birinə çevrilmişdir. Bu formalar italyan sarayının nazik proporsional bölünmələri, əzəmətli çıxıntılı hörgü və detallarının ifadəli təsviri ilə onun obrazını xatırladırdılar. Yan rizalitlər və çıxıntılı hörgü və şəklinə görə son dərəcə dinamik kronşteynlər ilə haşiyəyə salınmış pəncərə oyuqlarının ahəngdarlığı çox maraqlı kompozisiyanın yaranmasına səbəb olmuşdur. Malikanə Qoslavskinin ən yaxşı işlərindən biridir, memarlıq abidələrinə daxildir və tarixi irsin bir hissəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **76** (1887-ci il). Hamam küçədəki cərgəli tikililər sırasına daxildir. Ənənəvi prinsip

*Poçtovaya küçəsi, 70. H.Z.A. Tağıyevin yaşayış evinin fasadı fraqmenti. Mülki mühəndis İ.V. Qoslavski. 1893-cü il.*



üzrə inşa edilmiş hamam milli-memarlığın ən yaxşı xüsusiyyətlərini qoruyub saxlayır ki, bu da fasad, daxili fəza, tikintinin konstruktiv xüsusiyyətləri və üsullarında öz əksini tapır. Abşeron tipli portal ilə vurğulanmış assimetrik kompozisiya və oyuqların ahəngdarlığı binanın ümumi arxitektur istiqamətini müəyyən etmişdir. XX əsrin başlanğıcında hamamım üstündə əlavə olaraq yaşayış mərtəbəsini inşa etmişlər, mərtəbə fasadın ümumi strukturuna əla daxil edilmişdir. Hamamın binası küçənin tikintisinin qorunub saxlanmasına köməklik edir, keçmişin estetik obrazına cavab verir, XIX-XX əsrlərin hüdudunda Azərbaycanın milli memarlığının abidələr sırasına daxildir.

**Poçtovaya küçəsi** (S.Tağızadə**), 79, Spasskya küçəsi** (Zərgərpalan), **11 tini** (1911-ci il). Burada yerləşən ikimərtəbəli yaşayış evi künc mövqe tutur və maraqlı arxitektur-planlaşdırma xüsusiyyətlərinə malikdir. Bu da eyni zamanda tikintinin xüsusiyyətinin qorunub saxlanması üçün olduqca vacibdir, eləcə də küçəyə şəxsi siluet və fərdi xarakter bəxş edən miqyaslılıq qorunur. Arxitektur kompozisiya sərbəst ifadədə ordersiz sisteminin formalarında həll edilmişdir. Bu yaşayış evi Bakı şəhərinin memarlıq abidəsidir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **80-82, Bazarnaya** (H.Hacıyev) **küçəsi, 12 tini** (1909-cu il). Bina şəhərin tarixi məhəllələri strukturunda əzəmətli binalardan biridir. Arxitektur kütlələrin həcmi quruluşu, Bakıdakı mövcud şəraitlərdə zəngin yaşayış evi üçün səciyyəvi olan üslub xüsusiyyətlərini ifadə edən klassik formalar sayəsində bina şəhər mərkəzinin tikilməsində aparıcı yer tutmuşdur. Tinlənmiş mərtəbələrin əla üfüqi bölünmələri, pəncərə oyuqlarının ahəngdarlığı, ifadəli sandrika və detallar, gözəl işlənmə ilə yaşayış evi inkişaf etdirilmişdir. Yüksək tikinti incəsənəti ilə birləşmədə həcmi plastiklik evin həmin dövrün memarlıq abidəsi kimi əhəmiyyətini müəyyən edir.

**Poçtovaya küçəsi** (S.Tağızadə), **85** (1886-cı il**).** Kiçik ikimərtəbəli ev fasadın bölünmələr, kompozisiyanın şaquliliyi və üzərlərində yonulmuş formada eyvanı daşıyan arxitektur-konstruktiv detallar olan kronşteynlərlə fərqlənən ciddi, lakin ifadəli arxitektur formalarda icrasının maraqlı nümunəsini təqdim edir. Burada məhdudlaşdırılmış arxitektur vasitələr ilə elə bir emosional əhval-ruhiyyə əldə edilmişdir ki, öz kiçik fiziki ölçülərinə baxmayaraq ev memarlıq abidəsi kimi tarixi məhəllələrin bədii görünüşünün formalaşmasında fəal iştirak edir.

**Priyutskaya küçəsi** (akademik Ş.Əzizbəyov), **101** (1896-cı il**).** Yaşayış evi şəhərin tarixi məhəllələrinin cərgəli tikililəri sırasında yerləşir. Fasad klassik irsin sərbəst şərh edilmiş formalarında həll edilmiş, zəngin plastikası ilə fərqlənir. Bədii cəhətdən qiymətli binalar üçün mühit formalaşdırır.

**Priyutskaya küçəsi** (akademik Ş.Əzizbəyov), **103, Melniçnaya küçəsi** (A.D.Qurbanov), **1 tini.** Balayevin yaşayış evi 1909-cu ildə inşa edilmişdir, fasadların modern üslubda həll edilməsində arxitektur kütlələrin tam ahəngdarlığı əldə edilmişdir. Fasadlardakı arxitektur elementlər və detalların ifadəliyi bənnaların və daşdan arxitektur detalların işlənməsi üzrə mütəxəssislərin ustalığı sayəsində tam aşkar edilmişdir, heykəltəraş obraza qədər çatdırılmış şirlərin daş maskaları xüsusi olaraq diqqətə layiqdir. Binanın kompozisiyasından əlavə hər

bir detal şəhərin bədii görünüşü üçün fəal "işləyir". Bu yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan). Meridional istiqamətdə olan və inkişafına ilk dəfə 1870-ci illərdə başlanmış, lakin XIX əsrin 90-cı illlərinin əvvəllərində tamamilə formalaşmışdır, yaşayış təyinatlı binalarla bu küçənin strukturuna Bakı şəhərində və Abşeronda daha çox yayılmış mülki tikinti obyektləri olan hamamlar da əlavə edilmişdir. Bir-ikimərətəbli tikili vardır, yerli şərh edilmədə order sistemindən istifadə edilmişdir, lakin burada yüksək modern üslubunda olan fasadlar ilə binalar daxil edilmişdir (13 saylı ev). Ayrı-ayrı tikililər xüsusilə də strukturuna "Flostkaya kilsəsi"nin (1845-ci il) əlavə edildiyi karvansara (38 saylı ev) hələ xanlar dövründən qorunub saxlanmışdır. Küçənin tikintisində Hacı bəy Axundov (5 saylı ev), Zivər bəy Əhmədbəyov (133 saylı ev) kimi mühəndislər, memar A.V.Eyxler (127, 135 saylı evlər) iştirak etmişdirlər.

**Spasskaya küçəsi** (Zərgərpalan), **5, 11.** Əmiraslanovlar qardaşlarının ikimərtəbəli binası 1912-ci ildə mühəndis Hacı bəy Axundov tərəfindən inşa edilmişdir. Birinci mərtəbədə ticarət dükanlar vardır, ikinci mərtəbə yaşayış üçün icarəyə verilirdi. Geniş həyət Bakı şəhərindəki şəraitlər üçün nadir hal idi. Şəhərin tarixi hissəsində yerləşməsinə görə və şəhərsalma baxımından cavabdeh sahəni əhatə edir. Erkerlərin oxların şaquliliyini vurğulayan ahəngdarlığı, klassik formaların ifadəliyi, daş memarlığı ənənələrində yumşaq profillər və konstruktiv həllər yaşayış evinə memarlıq abidəsi əhəmiyyətini bəxş etdilər. Bina Hacıbəy Axundovun yaradıcılığında görkəmli yer tutur.

**Spasskaya küçəsi** (Zərgərpalan), **7, Qubernskya – Torqovaya** (Nizami) **küçələri, 43 tini** (1900-cü illər). Bu yaşayış evi, həcmləri və arxitektur-planlaşdırma həlləri ilə tarixi məhəllələrin strukturuna fəal şəkildə daxil olan və bədii cəhətdən əhəmiyyətli tikililər üçün mühiti təşkil edən binaların bir nümunəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **8, Qubernskya – Torqovaya** (Nizami) **küçələri, 45 tini** (1897-ci il). Bu yaşayış evi künc mövqe tutur, ərazinin relyefi ən əlverişli şəhərsalma aspektində təqdim edilmişdir. Üslub baxımından müəyyən dərəcədə rus ampir üslubuna yaxınlaşır, lakin bu arxitektur motivlərdən yalnız şərti olaraq istifadədir. Burada arxitektur kompozisiyanın vacib elementi klassik formalarda "şüşəbənd" üslublu eyvandır. Bu həcmli element arxitektur kütlələr sisteminə dinamikanı, yaşayış evinin kompozisiyasına yeni və daha bədii məzmun daxil etmişdir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **9, Poçtovaya** (S.Tağızadə) **küçəsi, 72.** Üçmərtəbəli yaşayış evi 1911-ci ildə inşa edilmişdir. Bakı təkminli modern üslubunda inşa edilmiş əzəmətli bina. Burada istər ümumi arxitektur kompozisiya, istərsə də əsas fasadın məsələn, daşdan yonulmuş ornamental haşiyələnməsi ilə portal, relyef dekor kimi aksent elementləri maraqlı şəkildə həll edilmişdir. Pilləkən qəfəs zövqlə icra edilmiş divar naxışları ilə həmçinin fərqlənir. Həyətin kiçik olmasına (fəzasına) baxmayaraq şəbəkəli (zərif) metal pilləkənli daş karkas ilə əhatə edilmiş "şüşəbənd" müəyyən arxitektur rol oynayır. Bütün qeyd

edilənlər yaşayış evinin XX əsrin başlanğıcında memarlıq abidəsi kimi əhəmiyyətini müəyyən etmişdirlər.

**Spasskaya küçəsi** (Zərgərpalan), **12, Poçtovaya** (S.Tağızadə) **küçəsi, 81.** İkimərtəbəli yaşayış evi 1886-cı ildə inşa edilmişdir, həcmi həllin prinsipləri, arxitektur quruluşunun xarakteri, karkasın özünəməxsus sxemini təşkil edən pilyastr-kürəklər ilə fasadların şaquli bölünmələr üsulu ilə şəhərin tarixi məhəllərinin tikintisinə daxil olmuş növdür. Fasadların bu cür qurulması zamanı divarlar neytral fon kimi çıxış edirdilər, burada daş və oymadan istifadənin mükəmməlləşdirilmiş bədii formada təcəssüm etdirildiyi zəngin sandriklar ilə olan pəncərələr yerləşirdilər. Bütün arxitektur "orqanizmdə" yerli memarlıq üçün səciyyəvi olan artistizmin (yüksək sənətkarlıq) yüngül əlaməti hiss edilirdi. Bina irsin bir hissəsi və XIX əsrin sonuna aid memarlıq abidəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **16, Gimnaztiçeskaya** (Tolstoy) **küçəsi, 104 tini.** Ağa Musa Nağıyevin ikimərtəbəli yaşayış evi 1887-c ildə inşa edilmişdir, çox mənzərəli həcmi-fəza və arxitektur-planlaşdırma kompozisiyasını təşkil edir. Kamera üslublu ev emosional fəallığı ilə şəhərin tarixi məhəllələrinin tikintisinə daxil olmuşdur. Bina arxitektur kütlələrin sərbəst şərh edilməsi, böyük plastikliyi və daş üzərində nazik (incə) oyması ilə fərqlənir. Yaşayış evinin obrazını tamamlayan maraqlı detal ekspressiya elementi və arxitektur kompozisiyanı daxil edən və xalq ustasının peşəkar memar ilə birliyi haqqında təsəvvür yaratmağa imkan verən küncdəki məharətlə yonulmuş daş fənərdir. Bu yaşayış evi memarlıq abidəsi və irsin bir hissəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **19, Karantinnaya** (H.Aslanov), **12** və **Gimnaztiçeskaya** (Tolstoy), **küçəsi, 117 tini.** "Hacı Qurban Aşurovun hamamı" yaşayış məhəlləri arasında 1886-cı ildə inşa edilmişdir. Yalnız ənənəvi tipdə dini-məişət tikilisi kimi deyil, həmçinin milli-memarlıq formalarında həll edilməsinin nümunəsi kimi diqqətəlayiqdir. Səssiz (bütöv) fasadlar nəzərə çarpır, lakin onların arxasında vestibül, geyim (soyunma otağı) və çimmək üçün bölmələr, soyuq və isti su üçün nəzərdə tutulmuş xaznalar (anbarlar) və külxanalar (qızdırılma otaqları) şəklində mürəkkəb planlaşdırma və həcmi-fəza sistemi durur. Otaqların bütün daxili sistemi, qarşılıqlı əlaqədə olan və konstruktiv baxımından arxitektur birlik yaradan tağtavan və günbəzlərin tağ formalarında təqdim edilmişdir. Hamam mülki memarlığın maraqlı abidələr sırasına aiddir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **21, Karantinnaya küçəsi** (H.Aslanov), **17 tini.** Bu yaşayış evi 1910-cu ildə inşa edilmişdir və Hacı Qurban Aşurovun oğlu Ağa Aşurova məxsusdur. Klassik formaların sərbəst ifadə edilməsi, plastikanın təmkinliyi, lakin əla şəkildə inkişaf etdirilmiş karniz ilə fərqlənir. Bu yaşayış evi şəhərin bədii cəhətdən əhəmiyyətli tikililəri üçün mühitin elementi kimi daxil olur.

**Spasskaya küçəsi** (Zərgərpalan), **30** (1990-cı illər). İtalyan intihabının klassik formaları ruhunda işlənmiş fasadın bütün enliliyini əhatə edən "şüşəbənd"in bədii kompozisiyanın tək həcmi və arxitektur elementi kimi çıxış etdiyi şəhərdə, bu ikimərtəbəli yaşayış evi yaşayış evlərinin tikintisinin bir çox nümunələrindən biridir. "Şüşəbəndlərin" əla proporsional

bölünmələri, arxitektur həllin plastikliyi, ağacın üzərində oyma və ifadəli təsvir yaşayış evinin tarixi mühitə fəal amil kimi daxil olmağına və memarlıq abidəsi olmağında köməklik göstərmişdir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **35, Tserkovnaya** (Vidadi) **küçəsi, 70 tini** (1903-cü il). Öz arxitekturası ilə ikimərtəbəli yaşayış evi, yerli stilistik xüsusiyyətləri və Bakı modern üslubu ilə yanaşı şəhərin tarixi məhəllələrinin strukturuna möhkəm surətdə daxil olmuş ordersiz sistemin klassik formalarından istifadənin inkişafda olan tendensiyasını davam etdirir. Bu, bina və onun memarın yaradıcılıq prinsipi və sifarişçinin tələbinə əsasən fasadda ifadə edilmiş elementlərində arxitektur kompozisiyanın ümumi xarakterində iz buraxır. Yaşayış evindəki ordersiz sistemin sərbəst şərhi fasadın həllində, əla təsvir edilmiş pəncərələrin ahəngdarlığında, tyaqa və karnizlərin və çıxıntılı hörgü ilə qeyd edilmiş künc pilyastrların sərt üfüqi bölünmələrində maraqlı şəkildə ifadə edilmişdir. "Ağlay" üslublu bloklardan təmiz yonulmuş fasadın divarları fonunda arxitektur elementlər və detallar bu bədii strukturun tektonik strukturunu tamamilə aşkar etmişlər və bu yaşayış evinin memarlıq abidəsi sıralarına daxil olması üçün imkan yaratdılar.

**Spasskaya küçəsi** (Zərgərpalan), **40, Tserkovnaya** (Vidadi) **küçəsi, 71, 43 tini, Suraxanskaya** (Çingiz Mustafayev), küçəsi, 99 tini (1914-cü il). Yaşayış evləri plastikliyə, arxitektura baxımından əla işlənmiş və tikililərə dinamizm və bədii effekt bəxş edən "şüşəbənd"lərə malikdirlər. Əgər birinci bina klassik formalar və üsulların prinsipində həll edilmişdirlərsə, bu zaman ikinci bina modern cizgilərini daşıyır. Onlar bədii cəhətdən əhəmiyyətli tikililəri üçün mühiti təşkil edirlər.

**Spasskaya küçəsi** (Zərgərpalan), **48, Suraxanskaya** (Çingiz Mustafayev), **küçəsi, 101 tini** (1886-cı il). Hamamım binası yerli üslublu hamamların maraqlı nümunələrindən biridir. Binanın strukturunda Bakı-Abşeron memarlığının ənənəvi həcmi-fəza və arxitektur-konstruktiv üsullarından istifadə edilmişdir. Tikilinin bədii əhəmiyyəti artıq məlumdur və daxili fəzanın təşkili, ən yaxşı ənənələrdə şəxsi memarlıq dünyasını yaradan ciddi, lakin ifadəli konstruktiv formalar və elementlər ilə müəyyən edilir. Bu bina, Azərbaycanın memarlıq tarixinin maraqlı səhifəsini təşkil edən və memarlıq abidəsi olan dini – məişət tikililərinin həlqəsindən biridir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **66** (1901-ci il). İkimərtəbəli yaşayış evi istər Avropa, istərsə də yerli memarlığın həcmi-fəza və arxitektur-planlaşdırma prinsiplərinin birləşdiyi və çox mənzərəli kompozisiya həllini bəxş edən tikililər növünü təşkil edir. Burada klassik sisteminin təmiz formaları mövcud deyil, sərbəst şərhdə müxtəlif motivlər üstünlük təşkil edir. Bina həcmi plastikliyi, relyef arxitektur detalları ilə fərqlənir. Fasadın kompozisiya mərkəzi onun bədii əsası olan "şüşəbənd"dir. Ev XX əsrin başlanğıcının memarlıq abidəsi olaraq şəhərin tarixi məhəllələrinin predmet-fəza mühitinə uyğunlaşmışdır.

**Spasskaya küçəsi** (Zərgərpalan), **68** (1900-cü illər), **74** (1900-cü il), **117** (1887-ci il), **128, Şemaxinskaya** (C.Cabbarlı) küçəsi, 17 tini. Bu yaşayış evləri tarixi

məhəllərin tikilməsinin fəal elementləridir, müəyyən estetik funksiyalar daşıyırlar və həcmi həllər ilə bədii cəhətdən əhəmiyyətli tikililəri üçün mühiti təşkil edir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **71** (1931-cü il). İkimərtəbəli yaşayış evi inkişaf etdirilmiş həcmi həll ilə mənzərəli arxitektur kompozisiyanı təşkil edir. Klassik formalar və üsulların sərbəst şərhi sayəsində fasad şəxsi görünüşünü, maraqlı plastikasını, arxitektur detallarını almışdir. Ev memarlıq abidələrinə aiddir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **82** (1900-cü il). Yaşayış evi, order və ya mülki mühəndislər və memarlar tərəfindən ordersiz sistemin klassik üsullarından asılı olmayaraq istər tikinti, istərsə də planlaşdırma məsələlərinə peşəkar yanaşmanın əsası qoyulduqdan sonra Bakıdakı mövcud şəraitlərdə arxitektur inkişafın müəyyən yolu keçmiş tikili növüdür. Yaşayış evində kompozisiya üsulları klassik formaların üslub istiqamətinə uyğundur, lakin məhz daş memarlığının xüsusiyyətləri və ənənələri nəzərə alınmaqla eklektika və üslublaşdırma dövründə yer tutmuş sərbəst şərh edilmə ilə həyata keçirilmişdir. Fasadın məlum formalar və üsullarda faktiki olaraq bütün arxitektur həlli yaşayış evinin kompozisiyasında mərkəzi mövqe tutan "şüşəbənd" eyvanı üçün fəal fondur. Fasadda əla daş detallar, birinci mərtəbənin pəncərələrində metal qəfəslər, "ağlay" bloklarından üzlənmənin yüksək yerinə yetirmə mədəniyyəti mövcuddur. Ev memarlıq abidələri sırasına daxil olmuşdur.

**Spasskaya küçəsi** (Zərgərpalan), **87** (1899-cu il). Hamamım binası Bakı-Abşeron bölgəsinin dini-məişət tikililərinin ənənəvi növlərinə məxsusdur və milli memarlığın arxitektur və konstruktiv xüsusiyyətlərinin parlaq ifadə edildiyi maraqlı nümunələrdən biridir. Hamamın planlaşdırma həlli bu növ tikililərin digər nümunələrində müşahidə edilməyən fərdi cizgilərə, eləcə də istər geyimin soyunulması, istərsə də çimmək üçün nəzərdə tutulmuş qrupların daxili strukturuna təsir göstərmiş və sahədə tikinti işlərinin aparılması ilə əlaqədar olan texmoloji sxemə malikdir. Hamamın binası milli irsin ayrılmaz hissəsidir və memarlıq abidələri sırasına daxildir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **92** (1904-cü il). Bu yaşayış evi 82 saylı ev kimi eyni tikilini təşkil edir, lakin burada həcmi kompozisiyanın prinsipləri daha təmkinli şəkildə şərh edilir, "şüşəbənd" mövcud deyil, bunun da sayəsində evlərin həcmi-fəza həlləri bir-birindən fərqlənirlər. Lakin tikintinin yüksək keyfiyyətli olması və fasadın klassik formalarda bəzədilməsi, portalların ifadəli plastikası və daş detalları onun tarixi məhəllələrdə memarlıq abidəsi kimi yerini müəyyən etmişdirlər.

**Spasskaya küçəsi** (Zərgərpalan), **125, Kanni-Tepinskaya** (S.Əsgərov) **küçəsi, 64 tini**. Yaşayış evi 1894-cü ildə mühəndis M.M.Q.İsmayılov tərəfindən inşa edilmişdir, bu əzəmətli tikili order sisteminin sərbəst şərh edilmiş klassik formalarında işlənmişdir. Həcm istər yan, istərsə də mərkəzi rizalitlər ilə vurğulanmışdır. Böyük bloklardan çıxıntılı hörgü, pəncərələrin relyef şəkildə yerinə yetirilmiş haşiyələri və kamera detalları ilə formalaşmış plastika arxitektur kompozisiyada fəal iştirak etmişlər. Divarları haşiyəyə salınmış, pilləkənin metal qəfəsinin ümumi kompozisiyaya uğurla uyğunlaşdığı

həyətin məhdudlaşdırılmış fəzası heç də az maraq yaratmayan şəkildə həll edilmişdir. Bina tarixi irsin bir hissəsidir və Bakı şəhərinin maraqlı şəhərsalma strukturunun yarandığı və tikilinin monumental istiqamətinin müəyyən edildiyi dövrdə memarlıq abidəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **130, Şamaxinskaya** (C.Cabbarlı) **küçəsi, 19** və **20-ci Parallelnaya** (B.Məcidov) **küçəsi, 54 tini** (1900-cü illər). İkimərtəbəli yaşayış evi çox uğurla yerləşmişdir, fasadları ilə üç küçəyə doğru istiqamətlənmişdir. Bununla da onun şəhərin tarixi məhəllələri sistemində yeri əvvəlcədən müəyyən edilmişdir. Daş monumental kronşteynlər ilə künc və cərgəli eyvanların olması, rizalitlərin tinlənməsi və çıxıntılı hörgü, eləcə də bütöv daş bloklardan inkişaf etdirilmiş karniz tikilinin həcmi plastikliyini aşkar edir və üslub istiqamətində modern üslubunun böyük hissəsi olan memarlıq abidəsi kimi tarixi irsdə onun yerini müəyyən edir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **133.** Bu yaşayış evi 1911-ci ildə inşa edilmişdir, binanın arxitektur kompozisiyasını ampir üslubu ən mənzərəli formalarda həll edən mülki mühəndis Zivər bəy Əhmədbəyovun memarlığının maraqlı səhifələrindən biridir. Yaşayış evinin həcmi-fəza kompozisiyası eyvanlar və erkerlər sayəsində böyük ifadəliyi və emosional əhval-ruhiyyə ilə fərqlənir. Bu ev şəhər tikilisinin vacib elementi kimi tarixi məhəllələrin ümumi sisteminə daxildir. Plastik formalar və arxitektur detallar tam vahidə birləşmişdir. Bakıda

*Spasskaya küçəsi, 133. Yaşayış evinin ümumi görünüşü. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1911-ci il. Ş.S. Fətullayevin rəsmi.*



bu cür arxitektur və həcmi kompozisiya ilə rastlaşmırıq, istər üslub, istərsə də mənzərə baxımından şəhərin tikililəri arasında malikanə (mülk) tipli tək yaşayış binasıdır. Bu yaşayış evi irsin bir hissəsi və memarlıq abidəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **135, 1-ci Parallelnaya küçəsi** (Əli bəy Hüseynzadə), **56 tini.** Bir mərtəbəli yaşayış evi 1902-ci ildə mühəndis A.V.Eyxler tərəfindən sakit modern üslubunda inşa edilmişdir, yüksək tikinti mədəniyyəti, gözəl arxitektur və dekorativ keyfiyyətlər, "ağlay" üslublu bloklardan tikilmiş hörgü fonunda daşdan yonulmuş ən yaxşı formalarda ifadəli detallar ilə fərqlənir. Bina memarlıq abidəsidir.

**Spasskaya küçəsi** (Zərgərpalan), **137, 1-ci Parallelnaya küçəsi** (Əli bəy Hüseynzadə), **61 tini.** Üçmərtəbəli yaşayış evi künc hissə sayəsində böyük ifadəliyi əldə etmişdir. Binanın arxitektur kompozisiyasının həlli zamanı İoniya order sisteminin fasadların plastikliyi ilə zəngin olan evin monumental obrazının yaradılmasına köməklik göstərən klassik formalarından istifadə edilmişdir. Eyni zamanda bəzək formalarında incəliklə özünü büruzə vermiş modern üslubunun elementlərindən istifadə edilmişdir. Yaşayış evi irsin bir hissəsi və Bakıda kapitalizm dövrünə aid memarlıq abidəsidir.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), XIX-XX əsrlərin hüdudunda formalaşmağa başlamışdır, K.Marks abidəsi ərazisində dəniz kənarından müasir məhəllələrə qədər dəqiq inkişaf xəttinə malik və meridional istiqamətli tək küçədir. Onun tikintisi qarışıq səciyyəni qoruyub saxlayır, çünki kapitalizm dövrünün kapital binaları və XX əsrin əvvəllərinə aid birmərtəbəli görkəmsiz binalar ilə yanaşı 1960-1970-ci illərdə çox sayda yaşayış binaları inşa edilmişdir. Müxtəlif dövrlərin üslub istiqamətlərindən asılı olaraq küçənin arxitekturası tikilinin özünəməxsus portretlərini yaradırdı, bu zaman order sisteminin kompozisiya üsulları və formaları ilə yanaşı Bakının modern üslubunda binalar mövcud idi. Fasadların bölünməsi, təmiz yonma daşından olan divarların tam üzlənməsi ilə əhəngdaşından icra edilmiş arxitektur elementlər və detallar bu cür struktur formaya qarşı maraq yaradırlar. Küçənin ansamblna Neft Akademiyası (1895, 1930, 1950), Sabunçu vağzalı (1926-cı il) kimi binaların inşa edildiyi geniş məhəllə şəklində arxitektur komplekslər əlavə edilmişdir. Modern üslubunda 33, 43 saylı yaşayış evləri, eləcə də qotik kilsə (1900-cü illər) küçənin memarlığında digər bir həlqəni təşkil edirlər, şəhərin planlaşdırmasında prospektin mövqeyini genişləndirərək yeni estetik prinsipləri daşıyırlar.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 20, Bakı orta texniki məktəbin keçmiş binası (hazırda Neft Akademiyası), faktiki olaraq milyonçu H.Z.Tağıyevin vəsaitləri hesabına 1898-1900-cü illərdə mülki mühəndis İ.Qoslavski tərəfindən inşa edilmişdir, ətrafdakı tarixi tikiliyə münasibətdə məsuliyyətli planlaşdırma mövqeyinə malikdir. İnqilabaqədərki Rusiyanın təhsil müəssisələrinin ən yaxşı ənənələrində ucaldılmış məktəbin binası yalnız order sistemi deyil, həmçinin fasadın üzlənməsi zamanı yeni tikinti materiallarından geniş şəkildə istifadə etməklə öz aktivində arxitektur kompozisiyanın klassik üsullarına malikdir. Bina olduqca plastikdir, arxitektur detallar incəliklə

işlənmişdir. Relyef arxitektur elementlər ilə tyaqaların üfüqi bölünmələri və əsas fasadın şaquli tinlənməsi həcmi kütlələrin nisbətini əvvəlcədən müəyyən etmişdirlər ki, bu da yüksək bədii göstəricilər ilə tikililərin yaradılmasına köməklik göstərmişdir. Bu bina Qoslavskinin yaradıcılığında vacib yer tutur və mülki memarlıq abidəsidir.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 25, Bondarnaya küçəsi (Ş.Bədəlbəyli), 106 tini. Qasumovların gəlir gətirən evi 1911-ci ildə inşa edilmişdir. Dördmərtəbəli əzəmətli bina məhəllədə künc mövqeyi tutur, Öz həcmi və arxitektur kompozisiyası ilə tikilinin fəal elementi kimi tarixi mərkəzinin strukturuna daxil olmuşdur. Bu evdə modern üslubunun əlamətləri ilə XIX-XX əsrlərin hüdudunda duran məsələlərdən fərqli olan yeni arxitektur məsələlər həll edilir. Burada divarın tikintisinə rasional yanaşma, binanın arxitekturasının ciddi, lakin ifadəli elementlərinin axtarışları nəzərə çarpır. Fasadlar üzrə kürəklərin şaquli ahəngdarlığı daş memarlığının ənənələrində yerinə yetirilmiş konstruktiv sxemin karkas xarakterini vurğulayır. Daş memarlığının ənənələrində yerinə yetirilməsi bu binanı qonşu tikililər ilə yaxınlaşdırır, eyni zamanda da küçənin tikintisində onun yerini müəyyən edir. Fasadların təmkinli plastikası onların emosional əhval-ruhiyyəsinə diqqəti cəlb edir. Bina tarixi irsin bir hissəsi və XX əsrin əvvəlində şəhərin memarlıq abidəsidir.

*Stanislavski küçəsi, 25. Qasımov qardaşlarının yaşayış evinin qərb fasadı. 1911-ci il.*



**Stanislavski küçəsi** (Azadlıq prosp.), 32, Kanni-Təpinskaya küçəsi (S.Əsgərova), 166 tini. Bu yaşayış evi 1912-ci ildə memar A.Polyakov tərəfindən inşa edilmişdir, uğurlu künc mövqeyə malikdir və həcmi-fəza və arxitektur-planlaşdırma həlli sayəsində tarixi məhəllələrin strukturuna fəal vahid kimi daxil olur.

Stilistik əsası rus ampir üslubudur, lakin daha müasir interpretasiyada. Şəhərin bir çox tikililərindən fərqli olaraq iki yuxarıkı mərtəbəyə suvaq çəkilmişdir ki, bu da ətrafdakı məhəllələrin ümumi arxitektur-konstruktiv və rəngli qammasından bir qədər kənarlaşır. Lakin binanın fəza kütlələrin xarakteri, əsas motivlər

və detalların təsvirində ifadə olunmuş mənzərəli həcmi kompozisiyası və arxitektur həlli onun müsbət xüsusiyyətləridir. Künc hissənin həlli fasadlardakı erkerlərin formaları və rəsmi ilə uyğunlaşır. İstifadə edilən tikinti materialından asılı olaraq divarların üzlənməsindəki rəng nisbəti maraq yaradır. "Ağlay" üslublu bloklardan üzlənmiş aşağıdakı birinci mərtəbə yüngül arxitektur formalar ilə suvaq çəkilmiş yuxarı mərtəbələrlə müqayisə edilmişdir. Binanın ümumi kompozisiyasını karnizlərin üfüqi bölünmələr ilə olan fasadların frontonlarının səciyyəvi xətləri tamamlayır. Ev, rus ampiri üslubunda olan binanın maraqlı nümunəsi kimi tarixi məhəllələrin strukturuna daxil olmuş və memarlıq abidəsidir.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 34, Kanni-Təpinskaya küçəsi (S.Əsgərova), 195 tini (1913-cü il). Üçmərtəbəli yaşayış evi şəhərin mərkəzinin strukturunda künc mövqeyə malikdir, Bakının memarlığında səciyyəvi miqyası və üslub istiqamətini müəyyən edən binaların ümumi sisteminə daxildir. Bina tarixi irsin bir hissəsidir, XX əsrin əvvəlində şəhərin bədii cəhətdən əhəmiyyətli tikililəri üçün mühiti formalaşdırır.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 37, N.Priyutskaya (S.Rəhimov) küçəsi, 186 tini (1912-ci il). Yaşayış evi şəhərin tarixi mərkəzinin əzəmətli tikililərinə məxsusdur. Zəngin həcmi-fəza kompo-

*Stanislavski küçəsi, 32. Yaşayış evinin ümumi görünüşü. Memar A.Polyakov. 1912-ci il.*



zisiya ilə binanın künc mövqeyi onun şəhərsalma sistemində əhəmiyyətini müəyyən edir. Fasadların arxitekturası modern üslubunda, lakin daha sakit ifadə də həll edilmişdir. Əsas arxitektur kütlələrin qurulmasında, karnizlərin xətlərinin xarakterində, detalların elementlərinin rəsmində bu üslubun müsbət nəticələrini görmək olar. Modern üslubu Qərbin müasir arxitekturasının qurulması üçün səbəblər yaratmışdır, həmin dövrün bir çox tikililərinin əsasında duran yeni bədii formaları aşkar etmişdir. Modern üslubu Bakıda – bu, çox maraqlı bədii məzmunlu, yerli şəraitlərdə yaranmış arxitektur ənənələr sayəsində öz xüsusiyyətlərinə malik olan haldır. Buna görə modern üslubunda olan tikililər Abşeron əhəngdaşının tətbiq edilməsi ilə əlaqədar xüsusiyyəti ilə fərqlənir. Yaşayış evi modern üslubunda olan ən yaxşı tikililər sırasında göstərilir və Bakı şəhərinin memarlıq abidəsidir.

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 43, V.Priyutskaya (akademik Ş.Əzizbəyov) küçəsi, 156 tini (1910-cu il). Yaşayış evinin fasadlarından şəhərin bu hissəsinin tikintisində istifadə edilir, yerli material olan əhəngdaşının təsiri altında modern üslubunda arxitektur həllin nümunəsidir. Bu evdə dinamik üslub istiqamətinin XX əsrin əvvəlində şəhərin binalarının bədii obrazına fəal şəkildə daxil olmuş formaları və motivləri aşkar edilmişdir. Burada müxtəlif formalı və şəkilli pəncərə oyuqlarla birləşmədə şaquli bölünmələrin ahəngdarlığı üstünlük təşkil edir, bu da kompozisiyaya maraqlı arxitektur həll bəxş edir. Bina şəhərin tarixi irsinin vacib elementi və öz dövrünün memarlıq abidəsidir.



*Stanislavski küçəsi, 43. Yaşayış evinin qərb fasadı. 1900-cu illər.*



*Stanislavski küçəsi, 43. Yaşayış evinin qərb fasadının fraqmenti.*



*Stanislavski küçəsi, 49. Kilsənin binasının ümumi görünüşü. 1901-ci il.*

**Stanislavski küçəsi** (Azadlıq prosp.), 49 (1901-ci il). Keçmiş kostyol (hazırkı "Şəfəq" kinoteatr) qotik memarlığın ən yaxşı ənənələrində inşa edilmiş ifadəli kiçik binadır. Arxitektur kütlələrin təmkinli arxitektur şərhinə baxmayaraq maraqlı bədii kompozisiyanı təşkil edir. Təmiz şəkildə yonulmuş divar fonunda portalın həcmi plastikliyi və karnizin kiçik arkaturu ilə vurğulanmış fronton fasadın açılışında vacib həqlədir.

Bina öz formaları və mənzərəli həcmi ilə şəhərin tarixi məhəllələr sisteminə uğurla əlavə edilmişdir və Bakı şəhərində bu üslub istiqamətin memarlıq abidəsidir.



*Stanislavski küçəsi, 49. Kilsənin binasının fasadından fraqment.*

*Stanislavski küçəsi, 49. Kilsənin binasının fasadından fraqment.*



**Stanislavski küçəsi** (Azadlıq prosp.), 66, Dagestanskaya küçəsi, 23 tini (1910-cu il). Keçmiş məktəb binası küçənin tikintisində yalnız modern üslubunun sərbəst şərh edilməsində həcmi ilə deyil, həmçinin arxitekturası ilə vacib yer tutan tikililər sırasına daxildir. Burada yerli arxitektur məktəbin ənənələri modern üslubunun üsulları və formaları ilə əla uyğunlaşmışdır ki, bu da maraqlı bədii interpretasiyanı bəxş etmişdir. Binanın mərkəzi hissəsindəki açıq "şüşəbənd" ilə olduqca irəli sürülmüş monumental üslublu daş rizalitlər müqayisə edilir. Mərkəzi ox üzrə "şüşəbəndə" daxil edilmiş ümumiləşdirilmiş növdə portal yalnız bu tikilidə arxitektur sistemin xarakterini və onun kompozisiyadakı yerini vurğulayır. Portalın taxtadan olan reylef qapıları diqqəti cəlb edir. Bina irsin bir hissəsidir və memarlıq abidəsidir.

*Stanislavski küçəsi, 66. Məktəb binasının qərb fasadının ümumi görünüşü. 1910-cu il.*

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev). XIX əsrin ikinci yarısında enlilik istiqamətində əsas magistrallardan biri kimi meydana gəlmişdir və Abşeron ilə sıx əlaqədədir. Bu proses 1870-ci illərin otkup sisteminin ləğv edilməsindən sonra "neft həyəcanı" dövründə xüsusilə güclənmişdir. Onun ilkin azmərtəbəli tikintisi malikanə üslublu zəngin yaşayış evlərinin inşası hesabına tədricən öz görünüşünü dəyişirdi. Bu evlərin arxitekturasında klassik üsullar və formalarda üslub istiqaməti izlənilir. Yaşayış tikilisi ilə küçənin predmet-fəza mühiti "Fantaziya" hamam, 114 saylı (1880-ci illər), Pirverdi oğlunuin



hamamı (A.M.-b. Tobçubaşov küçəsinin tini, memar F.Lemkul, 1886-cı il), 155 saylı məscid (1883-cü il) kimi mülki və dini tikililər ilə fəal şəkildə zənginləşdirilir. XIX-XX əsrlərin hüdudunda Bakı texniki məktəbinin (hazırkı Neft Akademiyası, mülki mühəndis İ.V.Qoslavski, 1890-cı illər) binası və modern üslubunda məktəblər inşa edilmişdir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **47 (1893-cü il).** İkimərtəbəli yaşayış evi şəhərin tarixi məhəllələrinin fəal elementidir. Yaşayış evinin həcmi-fəza strukturunun qurulmasının kamera xarakterinə baxmayaraq arxitektur kompozisiya inkişaf etdirilmiş "orqanizmin" cizgilərini özündə daşıyır. Bu, mərtəbələrin çıxıntılı hörgüsü, əsas hissələrin proporsional bölünməsi, klassik profillər və ifadəli detallar ilə əldə edilir. Daşın üzərində oyma tarixi irsin bir hissəsi olan evin fasadının arxitektur xüsusiyyətlərinin açıqlanmasında vacib həlqəni təşkil edir və bədii cəhətdən əhəmiyyət kəsb edən binalar üçün mühiti formalaşdırır.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **49 (1896-cı il).** İkimərtəbəli yaşayış evi şəhərin tarixi məhəllələrinin strukturuna sıx şəkildə daxil olmuş tikililərə məxsusdur. Fasadın üzərinə suvaq çəkilmiş divarları fonunda arxitektur kompozisiyanın əsas elementləri, yonulmamış daş ilə təmiz yonulmanın künc daş pilyastrları, pəncərələrin profillənmiş haşiyələri və "ağlay" üslublu bloklardan inşa edilmiş giriş hissə relyef olaraq (qabarıq şəkildə) qeyd edilir. Bu yaşayış evi şəhərin bədii cəhətdən əhəmiyyət kəsb edən binalar üçün mühitdir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **52 (1889-cu il).** İkimərtəbəli yaşayış evi tarixi məhəllələrin bədii mühitinin təşkilində fəal iştirak edir və kompozisiyasının ifadəliyi ilə fərqlənir. Fasadın inşası üsulu daha sərbəst şərh edilmədə klassik üsullara əsaslanmışdır. Bu sərbəst şərh Bakı şəraitində öz xüsusi interpretasiyasını almışdır ki, bu da yaşayış evinin fərdi arxitekturasının yaranmasına gətirib çıxarmışdır. Fasadın arxitekturası divarın sakit sahəsindən təmiz yonmanın ahəngdarlı şəkildə yerləşdirilmiş pilyastlarına qədər, birinci mərtəbənin yerli pəncərələrindən ikinci mərtəbənin profillənmiş yarımçevrə şəkilli formalı cüt pəncərələrinə qədər kontrastlıq əsasında qurulmuşdur. Bütün bunlar evin XIX əsrin ikinci yarısına aid abidə kimi şəhərin arxitektur irsində əhəmiyyətini müəyyənləşdirir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **53,** Təzə-Pirskaya küçəsi (Mustafa Sübhi), 59 **tini (1897-ci il).** Bu yaşayış evi şəhərin tarixi məhəllərinin strukturunda müəyyən yer tutur.

Xalq memarları tərəfindən onların Avropa memarlığının daxili mahiyyətinin qanunauyğunluqları haqqında şəxsi təsəvvürləri əsasında inşa edilmiş bina müəyyən mühiti yaradır və ətrafdakı tikililər arasında tarixi-arxitektur dəyərə malikdir. Bu ev XIX əsrin sonlarının irsində vacib rol oynayır və memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **57 (1887-ci il).** İkimərtəbəli yaşayış evi keçid dövrdə inşa edilmişdir. Bu dövrdə şəhərin yaşayış evlərinin tikintisinin inkişafında maraqlı kompozisiya həllərinin alınmasına gətirib çıxaran tamamilə təzə arxitektur-planlaşdırma üsullarından istifadə etməklə yeni istiqamət yaranmışdır. Burada sərbəst şərhdə arxitektur həllərin Avropa qanunauy-

ğunluqları, fasadların kompozisiyasında yerli elementlərə çevrilən hallara gətirib çıxaran yeni istiqamət əldə edirlər. Yaşayış evi, pilyastr-lopataların ahəngdarlığı, yastı haşiyələr və sandrikalarda pəncərə oyuqları ilə təqdim edilmiş fasadın təmkinliyi ilə fərqlənirlər. Burada üfüqi bölünmələr çox zəif ifadə edilmişdir. Bina irsi müəyyən edən və öz dövrünün memarlıq abidəsi olan binalardan biridir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 61,** Nijne-Təzə-Pirskaya küçəsi (Mirzə Fətəli), 35 **tini (1896-cı il).** İkimərtəbəli yaşayış evi yalnız künc yerləşmə ilə deyil, həmçinin Avropa formalarında həll edilmiş həcmi-fəza kompozisiya ilə maraq yaradır. Evin fasadlarının arxitekturası xalq memarlarının iştirakı sayəsində meydana gəlmiş yerli xarakterli öz spesifik xüsusiyyətlərini əks etdirir. Bu memarlar faktiki olaraq şəxsi üslub sistemini yaratmışlar. Fasad üfüqi bölünmələr ilə bir sıra qurşaqlara ayrılmış, şaquli bölünmələr vasitəsilə isə zəif ifadə edilmiş pilyastrlar ilə vurğulanmışdır. Yonulmamış daş iki mərtəbəni doldurur. Bu yaşayış evi dövrün memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 60-62 (1904-cü il).** Üçmərtəbəli yaşayış evləri küçə kəsiyində yerləşən və şəhərin tarixi məhəllələrinin tikintisində vacib yer tutan monumental tikililərindən biridir. Binaların həcmi-fəza və arxitektur həlli tikililər strukturunda rasionalizm tendensiyalarını, fasadlarda arxitektur və dekorativ elementlərdən çox sayda istifadəsindən imtinanı əks etdirir. Fasad, böyük pəncərə oyuqları ilə şaquli pilyastrların ahəngdarlığı, incəliklə profillənmiş sandrikalar və inkişaf etdirilmiş karniz ilə təqdim edilmişdir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 67, 69, 71, 75 (1890-cı il).** Yaşayış evləri çox maraqlı həcmi-fəza və arxitektur-planlaşdırma kompozisiyanı təşkil edirlər. Onlar ərazinin açıq ifadə edilmiş relyefi, tikililərin eyni zamanda inşa edilməsi və milli kolorit ilə klassik formaların sərbəst şərhi sayəsində hər bir obyektin fərdi xüsusiyyətlərini qoruyub saxlamaqla vahid həcmi sistemi təşkil edirlər. Onların bir-birindən ayrılmış şəkildə nəzərdən keçirilməsi həm arxitektur, həm də bədii planlarda vahid tamlıq kimi əhəmiyyətinin azalmasına gətirib çıxara bilərdi. Həlli və koloriti üzrə yaşayış evləri bir-birlərini tamamlayırlar, eyni zamanda küçənin bu ərazisində irsin bir hissəsi və milli-memarlıq abidəsi olan tarixi məhəllələrin ifadəli komponentini yaradırlar.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 68, 70, 72 (1840-cı illər).** Arxitektur həllin xarakteri, həcmi kütlələrin obraz quruluşuna görə yaşayış evləri vahid bədii mühiti təşkil edirlər. Hər bir tikili fərdi obraza, öz kompozisiya cizgiləri və vahid tamlığa qarşı ziddiyyət təşkil etməyən arxitektur motivlərə malikdir. Yaşayış evləri mənzərəli və gözəl detalları, nazik, proporsional bölünmələr, tamlığın və detalların yüksək işlənmə mədəniyyəti ilə fərqlənirdilər. Onlar eyni zamanda ordersiz sistemin sərt sxemlərindən azad yaşayış evlərinin tikintisinin üslub istiqamətini açırlar. Yaşayış evləri "şüşəbənd" (68 saylı), pəncərə oyuqlarının sakit ahəngdarlığı (70 saylı), assimetrik-oxlu kompozisiya (72 saylı) ilə fərqlənirlər. Onlar tarixi irsin bir hissəsini təşkil edirlər və küçənin tikilməsinin tək fraqmenti kimi XIX əsrin sonunda milli-memarlığın abidələridir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **78,** Persidkaya küçəsi (M.Muxtarov), 50 tini **(1950-ci illər).** Keçmiş məktəb binası (hazırda müxtəlif müəssisələr) ərazinin relyefi sayəsində iki yanaşı küçələrin tikilməsinin strukturunda fəal mövqe tuturlar. Arxitektur kompozisiyada tikinti materiallarının kontrastlıq üsullarından istifadə edilmişdir: cavabdeh qovşaqlarda üzərilərinə suvaq vurulmuş divarlar fonunda təmiz yonulma daşından olan elementlərin tətbiq edilməsi. Haşiyələri divarlardan bir qədər kənara çıxaraq binanın həcmi strukturuna müəyyən plastiklik və qabarıqlıq bəxş edən və barokko üslubunda tərtibatı ilə pəncərə oyuqları fasadların sahələrində uğurla tətbiq edilmişdir. Əla konstruktiv elementlər, xaç şəkilli tağtavanlar həyətin qalereyasını bəzəyirlər. Daş konstruksiyalarında ifadə edilmiş bu cür element tikilinin ümumi kompozisiyasının vacib hissəsini təşkil edir. Bu tikili tarixi məhəllələrin bədii mühitinə məhdud şəkildə əlavə edilir. Bina irsin bir hissəsi və mülki memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **82** (1909-cu il). Malikanə üslublu ikimərtəbəli ev yaşayış evinin arxitektur kompozisiyasının həllinin maraqlı misallarından biridir. Bu cür arxitekturaya malik fasad order sisteminin mənzərəli əsaslarında qurulmuşdur, lakin klassik motiv və üsullar daha sərbəst şərh edilmişdir ki, bu da tikilinin obrazına özünəməxsus yerli kolorit bəxş edir. İfadəli yonulmamış daş, pəncərələrin korinf orderinin pilyastrları şəklində zəngin işlənmiş haşiyələri, inkişaf etdirilmiş formada karniz və epiqrafika burada aydın şəkildə ifadə edilir. Yan tinləmələr fasadın ümumi strukturunu gücləndirirlər. Heykəltəraşlıq incəsənətinin xüsusi növü olan və böyük sevgi ilə daşdan yonulmuş detallar xüsusi diqqətə layiqdirlər. Bu yaşayış evi öz arxitektur göstəriciləri ilə yaşayış evinin bu üslub istiqamətində ümumi inkişaf prosesini yekunlaşdırır. Malikanə irsin bir hissəsi və XX əsrin başlanğıcına aid memarlıq abidəsidir. Bu evdə məşhur Azərbaycan bəstəkarı Asəf Zeynallı yaşamışdır.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **84** (1896-cı il). 82 saylı qonşu evdən fərqlənməsinə baxmayaraq ikimərtəbəli yaşayış evi eyni arxitektur-planlaşdırma və həcmi-fəza kompozisiyasına malikdir. Bu binanın tikintisində xalq memarları (ustalar) fəal iştirak etmişdirlər. Onlar Bakının yaşayış evlərinə fasadların kompozisiyasının həllində və bədii obrazların yaradılmasında orijinallıq bəxş edən özünəməxsusluq daxil edirlər. Bu yaşayış evi risin bir hisssəsi və milli-memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **89** (1892-ci il). İkimərtəbəli yaşayış evi şəhərin tikintisinin maraqlı nümunələrindən biridir. Fasadda binanın kompozisiya həllinin əsas komponentləri, onun proporsional bölünmələri, işıq və kölgə effektini verən çıxıntılı hörgü aydın şəkildə aşkar edilmişdir, pəncərələrin relyef haşiyələri və təmiz yonulma daşından olan divar fonunda müəyyən bədii əhval-ruhiyyə yaradan detallar plastika üçün heç də az əhəmiyyətə malik deyillər. Bu tikili öz stilistik göstəricilərinə görə M.M.Q.İsmayılovun tərzi və yaradıcılığına və ya onu əhatə edən dairəsinə yaxındır, memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **90** (XX əsr). Məhəllə məscidi (hey-

*Suraxanskaya küçəsi, 114. "Fantaziya" hamamı. Fasaddan fraqment. Fəvvarə. Ş.S. Fətullayevin rəsmi.*

kəltəraş İ.Zeynalovun emalatxanası), küçənin qırmızı xəttindən boş yerdə yerləşmişdir, onun assimetrik həlli ənənəvi üslublu dərin portal, haşiyələri və sandrikaları olmayan böyük pəncərə oyuqları ilə təqdim edilmişdir. Çatma tağın bəzədilmiş arxivoltu ilə olan bir qədər irəli çıxarılmış və divarın təmiz sahəsi fonunda qismən yonulmamış daşla hörülmüş portal dini tikilinin kompozisiyasının əsas özəyini təşkil edir. Məscid XX əsrin əvvəlində milli-memarlığına aid abidədir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **110,** Sisianovski küçəsi (T.Xəlilbəyli), 40 tini (1908-ci il). Monumental üslublu üçmərtəbəli yaşayış evi şəhərin tarixi mərkəzinin fəal həcmi elementidir. Bu yaşayış evi səciyyəvi plastikliyi, zəngin işlənmiş arxitektur detallar, divarların "ağlay" üslublu bloklarının daşından üzlənməsinin yüksək keyfiyyəti ilə fərqlənir. Mərtəbələrdəki böyük və geniş eyvanlar şəhər mərkəzinin sisteminə daxil olan binaya həcmilik və mənzərəlik bəxş etmişdirlər. Bina bədii cəhətdən əhəmiyyətə malik evlər üçün mühitdir.

*Suraxanskaya küçəsi, 114. "Fantaziya" hamamının binasının ümumi görünüşü. 1886-ci il.*



**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **112,** Vorontsov küçəsi (İ.Səfərli), 43 tini (1896-cı il). Bu üçmərtəbəli yaşayış evi iki mərhələdə inşa edilmişdir ki, bu da onun arxitektur-planlaşdırma strukturunda aydın şəkildə ifadə edilmişdir. Səciyyəvi şərh ilə birinci mərtəbə 1880-ci illərdə yaşayış yerlərində geniş şəkildə yayılmış yaradıcılıq tendensiyalarının mahiyyətini aşkar edir. Fasadların sərt arxitektur işlənməsi (memar Y.Y.Skibinski), kiçik bölünmələr ilə iki yuxarıkı mərtəbə XIX-XX əsrlərin hüdudunda rasionalizm ideyalarının nəticəsidir ki, bu da Bakının tarixi məhəllərinin tikintisində yaşayış evinin əhəmiyyətini müəyyənləşdirir. Öz nəcib proporsiyaları, arxitektur formaları, plastik detalları ilə tarix irs sisteminə daxildir və memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **114,** Tserkovnaya küçəsi (Vidadi), 99, Qorki, 23, Vorontsov (İ.Səfərli) 28 tini (1887-ci il). «Fantaziya» hamamının binası Bakının mərkəzinin demək olar ki, bütün məhəlləsini əhatə edir və şəhərdəki Avropa üslublu hamamlardan birinə aiddir. Gözəl daxili planlaşdırma strukturu, zəngin plafon ilə gözləmə zalının interyerinin həlli, bədii rəngli sujetli keramik plitələr ilə bəzədilmiş divarlar, fərdi otaqların əla bəzədilməsi müşahidə edilir. Fasadlar fontonlar ilə uğurlu yarı dairəvi künclər ilə order sisteminin klassik formalarında yerinə yetirilmişdir. Əsas fasad yan rizalitli simmetrik-oxlu struktur ilə vurğulanmışdır. Bütün binanın ümumi həcmi plastikası yüksək səviyyədə təşkil edilmiş, əhəngdaşı ilə üzlənmişdir. Burada klassik üsullar geniş şəkildə və ustalıqla istifadə edilmiş-


7.01.1993



*Suraxanskaya küçəsi, 114. "Fantaziya" hamamı. Fasaddan fraqment. Fəvvarə. Ş.S. Fətullayevin rəsmi.*

dir. "Fantaziya" hamamı şəhərin ən yaxşı memarlıq abidələri sırasına daxildir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 115,** Sisianovski küçəsi (T.Xəlilbəyli), 42, Vorontsov (İ.Səfərli), 45 tini (1886-cı il). İkimərtəbəli yaşayış evi məhəllədə böyük sahəni əhatə edir və Bakının tarixi mərkəzinin formalaşmasında fəal iştirak edir. Əsas fasad Suraxanskaya küçəsi (Çingiz Mustafayev) tərəfində inşa edilmişdir, həcmi künclər və mərkəz zəif, lakin fasada həcmi plastikliyi bəxş etmək üçün kifayət qədər nəzərə çarpan rizalitlər ilə qeyd edilmişdir. Şəhərin arxitektur istiqamətinin yarandığı dövrdə fasadlar həll edilmişdir. Şəhərin arxitektur istiqaməti Bakı üçün səciyyəvi olan, order və ordersiz sistemlərin klassik formalarını əks etdirmişdir. Bu, binanın ümumi kompozisiyasının qurulması, proporsional bölünmələr, yüksək səviyyədə daşdan yerinə yetirilmiş mərtəbələrarası tyaqaların və karnizin təsvir edilməsində nəzərə çarpır. Bu yaşayış evi fon der Nonnenin yaradıcılığında tarixi və şəhərsalma irsinin bir hissəsi və öz dövrünün memarlıq abidəsi kimi mühüm yer tutur.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 122.** Hacıyevlərin ikimərtəbəli yaşayış evi 1904-cü ildə inşa edilmişdir, eklektika və üslublaşdırma dövrünü onların Bakı şəhərinin inkişafı şəraitlərində bütün xüsusiyyətləri ilə xarkterizə edir. Bu yaşayış evi pəncərə oyuqlarının ahəngdarlığının zəngin dekorativ həlli, ifadəli daş oyma, obrazın bədii ifadə edilməsinin xüsusi forması ilə arxitektur sənətinin qiymətli elementi kimi fasadın plastikliyinin maraqlı nümunəsidir. Ayrı-ayrı otaqların daxili fəzasının estetikasını təşkil edən ağacın üzərində oyma, divarlarda yazılar, kaşı ilə örtülmüş gözəl sobaların istifadə edildiyi interyerlər heç də az maraq doğurmur. Bu yaşayış evi memarlıq abidələri sırasına daxil olmuş və tarixi irsin bir hissəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 153** (1911-ci il). Məktəb binası Bakının modern üslubunun özünəməxsus şəkildə şərhi ilə qeyd edilir, fasadda ahəngli şəkildə yerləşən pilyastrların qabarıq formada kənara çıxması sayəsində həcmi plastikliyi ilə fərqlənir. Binanın bu cür şərhi onun şəhərin mərkəzinin fəal elementi kimi yerini müəyyən etmişdir. Məktəb – irsin ayrılmaz hissəsidir və mülki memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev)**, 155** (1883-cü il). Məscidin binası ki-



*Suraxanskaya küçəsi, 155. Məscid binasının hasarının ümumi görünüşü. 1883-cü il.*

çik ərazinin həyətində yerləşir və forştadt ərazisində Abşeron memarlığının arxitektur-planlaşdırma sxemi üzrə ucaldılmış tək dini tikilidir. 1915-ci ildə məscidin həyətinə girişi təmtəraqlı mənzərəli portal bəzəmişdir. Burada maraqlı motivlər, daşın üzərində oyma ilə yerli memarlıq sisteminin prinsiplərindən istifadə edilmişdir. Həyət tərəfdən portalda gözəl fəvvarə yonulmuşdur. Fəvvarə məşhur usta tərəfindən ornament ilə ustalıqla bəzədilmişdir. Burada Abşeron memarlığı ənənələrindən məharətlə istifadə edilmişdir. Portal ilə məscid – irsin bir hissəsi və öz dövrünün memarlıq abidəsidir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev**), 158, 160** (1909-cu il). Bu yaşayış evləri istər həcmi, istərsə də arxitektur struktur üzrə vahid bütövlük təşkil edirlər. Bu




*Suraxanskaya küçəsi, 155. Məscid binasının həyətinə giriş portalı.*

evlər ordersiz sistemin sərbəst şərhi ilə Bakı memarlığı ruhunda inşa edilmiş olduqca gözəl tikililərdir, şəhər tikintisinə böyük emosional güc daxil edirlər. Yaşayış evləri mənzərəli arxitektur kompozisiya ilə fərqlənirlər, burada üfüqi bölünmələr, çıxıntılı hörgü, gözəl ifadəli və əla şəkildə yonulmuş detallar, fasadların əhəngdaşının gözə oxşayan tonları ilə yüksək bəzədilmə mədəniyyəti fəal rol oynayırlar.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **195** (1897-ci il). Əzəmətli üçmərtəbəli yaşayış evi şəhərin tikintisində öz fərdi yerini tutmuşdur. Mərkəzi və yan rizalitlər ilə fasadın arxitektur kompozisiyasının klassik sxemi tyaqaların üfüqi bölünmələrində, mərtəbələrin çıxıntılı hörgüsündə, pəncərələrin zəngin haşiyələri və inkişaf etdirilmiş karniz növündə öz parlaq əksini tapmışdır. Bu memarlıq abidəsi şəhərin XIX əsrin sonunda üslub istiqamətini xarakterizə edərək onun tarixi irsi sisteminə sıx şəkildə daxil olmuşdur.

*Suraxanskaya küçəsi, 202. Yaşayış evinin ümumi görünüşü. 1912-ci il.*



**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **202** (1911-ci il). Keçmiş yaşayış evi binası (hazırda Xarici Dillər İnstitutunun korpuslarından biri) iki mərhələdə inşa edilmişdir ki, bu da şəhərin bir çox tikililəri üçün səciyyəvi idi. Daşdan olan birinci mərtəbə 1890-cı illərdə, sonra isə iki əsas və bir mansard mərtəbə əlavə olaraq inşa edilmişdir. Binanın kompozisiyası memarlıqda rasionalizm tendensiyalarını, çox sayda detalların olması, fasadların bölünməsindən imtina olunmasını əks etdirir. Simmetrik kompozisiya yan tərəflərdə yonulmuş erkerlər ilə bərkidilmişdir, sakit yerləşən pəncərələrin ahəngdarlığı isə arxitektur həllin mahiyyətinə uyğundur. Mənzərəli mansard şəhər yaşayış evlərinin tikintisində yeni kompozisiya imkanları açır.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **207** (1890-cı il). Malikanə (mülk) üslublu yaşayış evi, ikinci mərtəbənin mərkəzində erker ilə bərkidilmiş parlaq profilin simmetrik oxlu kompozisiyası həcmi plastika ilə zəngindirlər. Fasadın bütün strukturu klassik üsul və formalarda inşa edilmişdir, erker və yan pəncərələrin pəncərə oyuqları hərtərəfli haşiyələr və sandrikalar ilə həll edilmişdir. Parapet ilə mürəkkəb üslublu



*Suraxanskaya küçəsi, 216. Məktəb binasının şimal fasadının ümumi görünüşü. 1912-ci il.*

klassik karniz fasadın kompozisiyasını tamamlayır, memarlıqda fransız yazıçısı Teofil Qotyenin yüksək qiymətləndirdiyi daş üzərində oyma isə binanın arxitektur görünüşündə xüsusi yer tutur. 1854-cü ildə Peterburqdakı üzərinə suvaq çəkilmiş Nevski prospektini təsvir edərkən Teofil Qotye yazırdı: "Bütün bu ansamblı həddindən artıq yaxından və təfsilatları ilə öyrənməyə ehtiyac yoxdur, çünki yalnız daşdan yerinə yetirilmiş iş ornamentin tətbiq edilməsinə qiymət verir, rəssamın özünün işini birbaşa qoruyub saxlayır...". Bu yaşayış evi memarlıq abidələri sırasına daxildir.

**Suraxanskaya küçəsi** (Ç.Mustafayev), **216** (1912-ci il). Məktəb binası şəhərin tarixi məhəllələrinin fəal bədii elementlərindən biridir. Arxitektur kütlələrin yeni şərhi, kompozisiya üsulları, estetikası ilə qəbul edilmiş üslub istiqaməti modern şəhərin məhəllərinin strukturuna çox sayda yeniliklər daxil etmiş və nəticədə müasir memarlığın rasionalizm tendensiyalarına səbəb olmuşdur. Bina yerli xüsusiyyətləri əks etdirir, çünki "ağlay" blokları şəklində divar hörgüsündə istifadə edilmiş əhəngdaşı onun bədii görünüşünə müvafiq çalar bəxş edir ki, bu da Bakıda modern üslubunun inkişafı üçün vacib əhəmiyyətə malik olmuşdur. Fasad pilyastrların agəngliyi və yan tinləmələr, vurğulanmış böyük pəncərə oyuqlarından ibarətdir. Bölünmələrin (hissələrə ayrılmaların) şaquliliyi və birinci mərtəbənin çıxıntılı hörgüsünün üfüqiliyi səciyyəvi elementlər ilə sakit modern üslubunun meydana gəlməsinə köməklik göstərmişdir. Bu bina irsin bir hissəsi və XX əsrin əvvəllərində memarlıq abidəsi olmaqla böyük estetik yükü daşıyan və modern üslubda inşa edilmiş tikililərdən biridir.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov). Meridional istiqamətə malik idi, şəhərin mərkəzində Qubernskaya-Torqovaya (Nizami) küçəsindən başlayan və şimalda V.Priyutskaya (akademik Ş.Əzizbəyov) küçəsi ilə qurtarırdı. 1870-ci illərdən başlayaraq formalaşmışdır, magistral küçə hesab edilmirdi, lakin arxitektur-planlaşdırma strukturunda tikintinin profili və yaşayış və mülki tikililər ilə əhəmiyyətinə görə fərdi yer tuturdu. Əsasən tikilmə ikimərtəbəli yaşayış evləri, Hacıbaba Pirverdi oğlu Aşumovun hamamı (memar F.Lemkul, 1887-ci il) və tikintisində N.A. fon der Nonne (1880-ci illər), İ.V.Qoslavski (1898-ci il), Zivər bəy Əhmədbəyovun (1912-ci il) iştirak etdiyi Mixaylov xəstəxanası kompleksi ilə təqdim edilmişdir. Küçədə tikililərin inşasında klassik üsullar, yerli milli ənənələr, roman memarlığının elementlərindən istifadə edilmişdir. Bütün bunlar Bakı şəhərinin qiymətli tarixi-arxitektur plastını təşkil edirdilər.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 25, Kamnistaya (B.Səfəroğlu) küçəsi, 140 tini (1899-cu il). İkimərtəbəli yaşayış evi künc sahədə yerləşir və maraqlı arxitektur kompozisiya, divar materialı əhəngdaşının estetik keyfiyyətlərindən istifadə və arxitektur detalların işlənməsi ilə ətrafdakı binalar arasında kifayət qədər uğurla nəzərə çarpır. Fasadların qurulması prinsipi birinci mərtəbənin səciyyəvi çıxıntılı hörgüsü, yuxarıkı mərtəbənin üfüqi bölünmələri və zərif plastikası ilə Bakıda evlərin tikinti ənənələrini davam etdirir. İki mərtəbədə bir qədər kənara çıxan pilyastrlar, inkişaf etdirilmiş parapet ilə səmərli təsvir olunmuş karniz ümumi kompozisiyanı başa çatdırır və bu yaşayış evinin həmin dövrün memarlıq abidəsi kimi Bakının arxitektur irsində yerini müəyyən etməyə imkan verir.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 40, Suraxanskaya (Ç.Mustafayev) küçəsinin tini, keçmiş Aşumov hamamı 1887-ci ildə memar F.Lemkulun layihəsi üzrə inşa edilmişdir, künc mövqeyə malikdir və həcm və üstünlük təşkil edən günbəzlər sayəsində ətraf mühitdə şəhərsalma baxımından fəal rol oynayır. Hamam vestibül, soyunma və çimmək üçün nəzərdə tutulmuş bölmələr ilə yerli memarlıq ənənələrində inşa edilmişdir. Daxili fəza tağlar və müəyyən bədii mühiti yaradan günbəzlər şəklində təqdim edilmişdir. Bu hamam yerli tip mülki memarlığın maraqlı nümunələrindən biri və memarlıq abidəsidir.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 57, Çadrovaya (M.A.Əliyev) küçəsi, 177 tini (1896-cı il). Yerləşməsi və həcmi-fəza həlli sayəsində ikimərtəbəli yaşayış evi tarixi mərkəzin şəhərsalma sistemində vacib elementdir. Yonulmamış daşla hörülmüş birinci mərtəbədə mövcud böyük oyuqlar, dekorativ elementlərlə pəncərə oyuqlarının sıx ahəngliyi, profillənmiş tyaqalar və daş medalyonlarla mənzərəli karniz bu evi Bakının tarixi irsində memarlıq abidələri sırasına daxil edirlər.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 62, Bondarnaya (Ş.Bədəlbəyli) küçəsi, 27 tini (1902-ci il). İkimərtəbəli yaşayış evi iki yuxarı mərtəbənin yerləşdiyi kürsülük mərtəbəsinə malikdirlər. Şəhərin yaşayış yerlərinin tikintisində arxitektur kompozisiya həllərinin müxtəlifliyi ordersiz sistemin elementləri, motivləri və formalarından istifadə edilməsi sayəsində müəyyən

bədii və dekorativ üsullara əsaslanır. Bu Bakı memarlarına özünəməxsus tipdə yerli memarlığı yaratmağa imkan vermişdir. Bu halda yonulmamış daşla hörülmüş divarlar, tyaqaların zərif profillənməsi, zəngin karniz ilə pəncərə oyuqlarının ifadəli şəkildə işlənməsi yaşayış evinin memarlıq abidəsi kimi üslub xüsusiyyətlərini aşkara çıxarmış və yerini müəyyən etmişdirlər.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 65, Bondarnaya (Ş.Bədəlbəyli) küçəsi, 25 tini (1901-ci il). Kiçik, lakin çox plastik ikimərtəbəli yaşayış evi şəhərin tarixi mərkəzinin ətraf tikilisinə yaxşı əlavə edilmişdir. Fasadın şərhində mərtəbələrin işlənməsinin kontrastlığı maraqlı şəkildə istifadə edilmişdir. Birinci mərtəbə - bu, yaşayış otaqlarıdır, onun xarakteri pəncərə və qapıların yerləşməsi ilə aşkar edilmiş, ikinci mərtəbədə isə zalın təmtəraqlı girişi yerləşir. Birinci mərtəbədə kompozisiyada metal qəfəs, daş dekorativ detallar, daşdan əla şəkildə hazırlanmış qadın maskası ilə olan qabarıq medalyondan istifadə etməklə təşkil olunmuş qapı oyuğunun tərtibatı xüsusi yer tutur. Daş detallar kiçik yaşayış evlərinin fasadlarının ən yaxşı bəzəkləridir. İkinci mərtəbədə qabarıq profillər və tamamlanmış karniz ilə pəncərə oyuqlarından ibarət tağ sırası istifadə edilmişdir. Bu cür kompozisiya fasadın ifadəliyini və memarlıq abidəsi kimi XX əsrin başlanğıcında şəhərin tarixi irsində fərdi yerini təmin etmişdir.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 70, Balaxanskaya (Füzuli) küçəsi, 31 tini (1897-ci il). Böyük ölçüyə malik birmərtəbəli yaşayış evi 1880-ci illərin sonunda inkişaf etməyə başlayan növü təşkil edirdi. Sonra inkişaf prosesində ordersiz sistem əsasında şəxsi strukrurunu əldə etmişdir. Fasadın simmetrik kompozisiyası vurğulanmış mərkəzin və yaxşı təsvir edilmiş pəncərələrin ahəngdarlığının bir qədər dəyişməsinə baxmayaraq məhəllənin tikintilməsinə düzgün miqyas verir. Yaşayış evinin müəyyən edilmiş həcmi-fəza kompozisiyası şəhərin tarixi mərkəzində şəhərsalma funksiyalarını daşıyır. Ev öz dövrünün memarlıq abidələri sırasına daxildir.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 74 (1907-ci il). Üçmərətəbəli yaşayış evi tarixi mərkəzin arxitektur-planlaşdırma strukturuna ətrafdakı tikililərin həcmi-fəza kompozisiyasının fəal elementi kimi daxil olmuşdur. Fasadın inşası XIX-XX əsrlərin hüdudunda Bakı memarlığına xas olan tendensiyaları əks etdirir. Bu dövrdə klassik üsullardan bacarıqlı şəkildə istifadə edilirdi. Fasadda mərtəbələr güclü kürsülük üzərində dururlar, yonulmamış qabarıq daş ilə vurğulanmışdır. Qabarıq yonulmamış daş, profilənmiş tyaqalar, pəncərələrin təmkinli tərtibatı kifayət qədər təkmilləşdirilmiş karniz ilə tamamlanan yaşayış evinin strukturunda estetik funksiyaları daşıyırlar. Daşdan yonulmuş böyük incəsənətin nümunəsini təmsil edən klassik profillər ilə karniz blokları ustaların ustalığının yüksək səviyyəsini əks etdirir. Bu ustalar öz ustalığı ilə memarın ideyasını canlandıraraq demək olar ki, əhəngdaşından möcüzələr yaradırdılar.

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 78, V.Priyutsakaya (Ş.Əzizbəyov), 116 tini (1904-cü il). Uğurlu həcmi-fəza sayəsində yaşayış evi künc sahədə yer tutmuşdur, fasadların klassik üsulların tətbiq edilməsi ilə qurulmuş arxi-




*Telefonnaya küçəsinin planı.*

tektur kompozisiyası isə şəhərin tarixi məhəllərinin tikilməsində vacib elementə çevrilmişdir. Fasadların profillənmiş tyaqalar ilə dəqiq proporsional bölünməsi, mərtəbələrin yonulmamış daşla hörgüsü ilə birlikdə pəncərə oyuqlarının ahəngliyi əla yonulmuş daş detallarla ümumilikdə XX əsrin əvvəlində Bakının memarlığına xas yaşayış evinin obrazını yaradırlar. Bina - mövcud dövrün memarlıq abidəsidir.



*Telefonnaya küçəsi, 4. Ağa Musa Nağıyevin yaşayış evinin 4-cü mərtəbəsinin planı. Mülki mühəndis İ.K. Ploşko. 1910-cu il. Ş.S.Fətullayevin çertyoju.*

**Tatarskaya küçəsi** (A.M.-b. Topçubaşov), 80, 82 (1900-cü illər). Bu yaşayış evləri şəhərin tarixi mərkəzinin strukturuna sıx daxil olmuşdurlar. Onlar ətrafdakı tikililərə təsir göstərə biləcək arxitektur göstəricilərə malikdirlər. Bu yaşayış evləri irsin bir hissəsi və memarlıq abidələridir.

**Telefonnaya küçəsi (28 May).** 1880-ci illərin sonları və 1890-cı illərin əvvəlində meydana gəlmişdir, bu rayonda vağzal ilə dəmiryolunun inşasından və sənaye zonasının Qara şəhər ilə əlaqələrinin yoluna düşdükdən sonra intensiv inkişaf etməyə başlamışdır. Şəhər strukturunda küçənin malik olduğu mövqe onun nəqliyyat, ticarət və ictimai əhəmiyyətini şəhərin şimal-qərb istiqamətində vacib arteriya kimi əhəmiyyətini müəyyən etmişdir. Qısa müddət ərzində yüksək səviyyəli sanitar qrup ilə təmin edilmiş rahat mebellər ilə kapital üç-dörd mərətəbli gəlir gətirən evləri inşa edilmişdir. Modern üsulunda 1908-1909-cu illərdə İ.K.Ploşkonun layihəsi üzrə inşa edilmiş Bakı milyoneri Ağa Musa Nağıyevin 4-6,10 saylı evləri, memar İ.V.Edelin fransız intibahı ruhunda tikilimiş böyük 5 saylı ev xüsusilə qeyd




*Telefonnaya küçəsi, 4. Ağa Musa Nağıyevin yaşayış evinin şimal fasadının ümumi görünüşü.*

edilirdi. Küçənin strukturuna alman qotika üslubunda olan alman kilsəsinin əzəmətli binası əlavə edilmişdir (memar A.V.Eyxler, 1895-1898-ci illər). Küçə öz səciyyəsinə görə arxitektur üsullar və dekorativ formaların müxtəlifliyi ilə öz dövrünün stilistik xüsusiyyətlərini əks etdirirdi.

**Telefonnaya küçəsi (28 May), 3,** Kamenistaya (B.Səfəroğlu) küçəsi, 184 tini. Üçmərtəbəli yaşayış evi 1897-ci ildə inşa edilmişdir, şəhərin tarixi mərkəzinin tikililərinin əsasını təşkil edən, öz monumental həcmi-fəza strukturu sayəsində fəal elementləri olan binalardan biridir. Bina-vağzalı Bakı şəhərinin mərkəzi hissəsi ilə birləşdirən magistralın bir həlqəsi olan və şəhərsalma baxımından olduqca böyük əhəmiyyət kəsb edən məhəllənin bir hissəsini formalaşdırır. Arxitektur kompozisiya neo-rus üslubunun təsiri altında qurulmuşdur. Vurğulanmış künc və səciyyəvi frontonlar ilə tinlənmələr ahəngliyi piramida şəkilli çadrlar ilə bərkidilmiş oxların şaquliliyini qeyd edirlər. Ev, şəhərin arxitektur görünüşündə müəyyən estetik funksiyanı daşıyır və memarlıq abidəsidir.

**Telefonnaya küçəsi (28 May), 4-6** (əks fasadlar Gimnaziçeskaya (Tolstoy) küçəsi, 199, 201 istiqamətinə açılırlar**).** Məşhur Bakı milyonçusu Ağa Musa Nağıyevin gəlir gətirən evləri 1908-1910-cu illərdə İ.K.Ploşko tərəfindən inşa edilmişdir. Onlar bu magistral küçənin ümumi tikintisində vacib yer tuturlar. Yeganə arxitektur-planlaşdırma kompozisiya burada həll edilmişdir. Birinci mərtəbədə mağazalar, dəbdəbəli növə aid və möhtəşəm interyerlər ilə olan yaşayış evləri isə modellər, paduqlar və karnizlərin xüsusi profilləri vasitəsilə otaqlarda bədii mühiti açır. Yaşayış evi



*Telefonnaya küçəsi, 4-6. Ağa Musa Nağıyevin yaşayış evləri. Mülki mühəndis İ.K. Ploşko. 1910-cu il.*

*Telefonnaya küçəsi, 5. Yaşayış evinin ümumi görünüşü. Memar İ.V. Edel.*

– rəsmin xətləri vasitəsilə vurğulanmış erkerlərin şaquli oxlarının ahəngliyi ilə Bakı modern üslubunun parlaq nümunəsidir. Daşın üzərində dərin relyefin arxitektur və dekorativ plastikası bu fərdi üslub istiqamətin potensial imkanlarını aşkar edir. Burada hər bir arxitektur detal fasadın ümumi strukturu ilə kontekstdə heykəl səviyyəsinə qədər işlənmişdir. Bu yaşayış evləri məşhur Bakı memarı İ.K.Ploşkonun yaradıcılığında vacib yer tutur və memarlıq abidələrinə aiddir.

**Telefonnaya küçəsi** (28 May), 5, Kamenistoy küçəsinin tini (B. Səfəroğlu), 186 və Xəzər küç. 15 (R. Behbudov). 1895-ci ildə inşa edilmiş (İ.V.Edel) üçmərtəbəli kommersiya evi, birinci mərtəbəsində mövcud dükanları ilə şəhərin salınmasında özünəməxsus mövqe tutaraq iki mərkəzi magistral xətlərin kəsişməsində yerləşir və eyni zamanda üç küçəyə çıxışı mövcuddur. Memarlıq və planlaşdırma xüsusiyyətlərinə görə fransız stilli inhibarlara aid edilir. Fasadın ordersiz sisteminin gümbəzlə vurğulanmış qalın künclərli, ümumi görünüşü və korinf sütunları yaşayış evinin ümumi kompozisiyasının əsası olmuşdur. Bina fasadının



*Telefonnaya küçəsi, 5. Yaşayış evinin 3-cü mərtəbəsinin planı. Memar İ.V. Edel. 1890-cı illər. Ş.S. Fətullayevin çertyoju.*



*Telefonnaya küçəsi, 5. Yaşayış evinin cənub fasadından fraqment. Memar İ.V. Edel.*



*Telefonnaya küçəsi, 5. Yaşayış evinin cənub fasadının mərkəzi hissəsindən fraqment. Ş.S.Fətullayevin rəsmi.*



*Telefonnaya küç. 5, Yaşayış evinin cənub fasadından hissə.*





plastikliyi, pilləkəndəki naxışları ümumi dekoru və interyeri ilə Avropa və qərb motivlərini xatırladır.

Binanın tərtibatı bölmələr (seksiya) şəklindədir. Arxitektor İ.V.Edelin yaradıcılığında yaşayış evlərinin tikintisi mühüm yer tutmuşdur və memarlıq abidələrinə çevrilmişdirlər.

**Telefonnaya küçəsi** (28 May), 7, Xəzər küçəsinin tini (R.Behbudov ), 22, (1896). İlk əvvəl ev iki mərtəbədən inşa edilmişdir, lakin 1950-ci ildə ilkin versiyanın üslubunun xüsusiyyətlərini qorumaq şərti ilə daha iki mərtəbə ucaldılmışdır. Binanın geniş ərazisi, memarlıq forması, daxili tərtibatı və tikinti işlərinin keyfiyyətli olması bu binanı qiymətli incəsənət abidəsinə aid etməyə imkan verir.

**Telefonnaya küçəsi** (28 May), 9, ikinci fasad Suraxanı küçəsinə çevrilmiş-

*Telefonnaya küçəsi, 5. Yaşayış evinin şərq fasadının ümumi görünüşü. Ş.S.Fətullayevin rəsmi.*



*Telefonnaya küçəsi, 5. Yaşayış evinin cənub fasadından fraqment.*

*Telefonnaya küç. 10, Ağa-Musa Nağıyevın yaşayış evindən hissə . İ.K. Ploşko. 1910-cu il.*



dir (Ç.Mustafayev), 212, (1890-cı il). İkimərtəbəli ev 1950-ci ildə tikilib artırılaraq ordersiz tikinti sisteminə daxil edilmişdir, lakin italyan renessansı üslubunun klassik forması və fasadın özünəməxsus plastikasına görə tarixi şəhər mərkəzinin xarakter və miqyasını təyin edir.

Yaşayış evi Bakı tərtibatı üslubundadı və imarət evlərinə xas ərazisi vardı. Otaqların quruluşu seksiya formasındadır və ikinci mərtəbəsində qalereya mövcuddur. Bu bina tarixi irs və memarlıq abidəsi sayılır.

**Telefonnaya küçəsi** (28 May), 10. 1908-1910-cu illərdə İ.K.Ploşko tərəfindən inşa edilmiş Ağa Musa Nağıyevin gəlir gətirən evi küçələrdə şəhər-tikinti elementlərindən biridir. Memarlıq – incəsənət əlamətlərinə görə müasir stilli, lakin müəyyən hissələrində klassik üslub qorunan tikililərə aid edilir. Fasad zəif açılmış çökəklikli erkerləri ilə ifadə olunmuşdur. Vurğulanmış oxvari sistem, özünəməxsus ayna oyuqlarının ahəngi və çoxsaylı heykəltəraşlıq əsərləri maraqlı kompozisiya təşkil edir. Fasadın tərtibatında istifadə olunmuş dekorativ qırmızı kərpic əhəngdaşı ilə birgə mənzərəli palitra təşkil edir.

Daş üzərində oyulmuş memarlıq işləmələri yüksək səviyyədə işlənib hazırlanaraq heykəltəraşlıq əsərinə çevrilmişdir. Sözü gedən yaşayış evi İ.K.Ploşkonun ən uğurlu işlərindən sayılaraq şəhərin memarlıq abidələri siyahısına düşmüşdür.

**Telefonnaya küçəsi** (28 May), 11, 2-ci döngə, Telefonnaya (28 May) döngəsi, 1, Suraxanı küçəsi (Ç.Mustafayev), 214 (1910-cu il). Üçmərtəbəli gəlir gətirən ev şəhərin tarixi kvartalları sırasında fəal yer tutur. Vurğulanmış ana fasad simmetrik oxvarı forması və bir sıra çıxıntılar ilə birgə memarlıq kompozisiyasını klassik üsluba aid etməyə imkan verir. Mərtəbələrin çıxıntılı hörgüsü, proporsional bölgüləri və ayna oyuqlarının səlis işlənib hazırlanması bu tarixi abidəni daha da mənalı edir. Əlavə olaraq eyvanların füsunkar metalik məhəccərlə tərtib olunmasını qeyd etmək lazımdır. Binanın daxili tərtibatının bölmə şəklində olması və geniş yaşıllıqlı həyəti xüsusi diqqət çəkir.



*Memar Adolf Vilqelmovic Eyxler (185?-1911-ci il).*

**Telefonnaya küçəsi** (28 May), 13, (1894-cü il). 1950-ci ildə inşa edilmiş ikimərtəbəli ev, birinci mərtəbəsində yerləşmiş olan dükanları ilə şəhər mərkəzinin ümumi tikinti sisteminə daxil edilir. Fasadın forması mərkəzi-oxvari struktur və kənarlardan kəskin rizalit ilə ifadə olunmuşdur. Fasadın geniş plastikası mərtəbələrin incə çıxıntılı hörgüsü və əhəngdaşından olan memarlıq elementləri

ilə bərkidilmişdir. Mənzillərin tərtibatında ənənəvi "şüşəbənd" çox uğurlu şəkildə tətbiq edilmişdir. Evin həyətində qotik formada "məhəllə məktəbi" üslubunda kiçik bir tikili mövcuddur. Bina Bakının kapitalizm dövrünün mirası və memarlıq abidəsidir. Bina şəhərin memarlıq abidələri siyahısına daxil edilmişdir.

**Telefonnaya küçəsi** (28 May), 14, Xəzər küçəsi (R.Behbudov) küçəsinin döngəsi, 20. Dadaşova məxsus çoxmərtəbəli ev 1911-ci ildə A.A.Nikitin tərəfindən inşa edilmişdir. Yaşayış evinin monumental həcmi tarixi kvartalların tikintisində önəmli yer tutmaqdadır. Bəzi ordersiz sisteminin elementlərinin mövcudluğuna baxmayaraq fasadın strukturunda rasionalistik tendensiyalar müşahidə olunur və dekorativ elementlərdən imtina edilərək, sərt bölgülər, ayna naxışları və keyfiyyətli fasad üzlüyü nəticəsində binaya xüsusi ifadəlilik verilmişdir.

**Telefonnaya küçəsi** (28 May), 15, (1896-cı il) Küçənin qırmızı xətti üzrə yerləşən dördmərtəbəli yaşayış evinin tutduğu ərazisi, fasadın quruluşu, neoqotik memarlıq üslubu tikintinin əsas elementlərindən biri hesab edilir. Bina 3 mərhələli şəkildə inşa edilmişdir: ilkin olaraq - qotik elementlərdən ibarət olan birinci mərtəbə, daha sonra klassik elementlə üstünlük təşkil edən ikinci mərtəbə və 1950-ci ildə binanın digər iki mərtəbəsi tikilmişdir.

Böyük ehtimalla inqilabdan əvvəl inşa edilmiş mərtəbələr ətrafındakı kilsə və alman qotik üslubunda olan xidməti

*Telefonnaya küç. 14 Dadaşovun yaşayış evinin emumi görünüşü. A.A. Nikitin. 1911-ci il.*



binalar ilə birgə memar A.V.Eyxler tərəfindən inşa edilmişdir. Küçənin bu istiqamət üzrə inşa edilmiş bütün yaşayış evləri bir-birindən seçilmir çünki onlar hamısı eyni vaxtda, eyni üslubda və eyni konstruksiyalarda inşa edildiyindən vahid bütövlük təşkil edirlər.

**Telefonnaya küçəsi** (28 May ), 17. Lüteran kilsəsi (indiki orqan musiqi zalı) 1895-1898-ci illərdə alman mənşəli sakinlərin istəyi əsasında Elenendrof (indiki Xanlar) koloniyasındakı kilsəyə bənzər memarlıq nümunəsi memar A.V.Eyxler tərəfindən inşa edilmişdir. Eyxlerin yüksək erudisiyası və peşəkarlığı kilsənin arxitekturasını əsl alman qotika üslubunda inşa etməsinə imkan verdi. Tikinti və bəzək işlərinin yüksək keyfiyyətdə olması bu binanı sıravi tikililərdən fərqləndirərək ətrafındakı yaşayış evləri ilə birgə onu vahid bir kompleksə



*Telefonnaya küç. 17. Kirxanın ümumi görünüşü. Memar I.V. Eyxler. 1895-1898-ci illər. Ş.S. Fətullatevin rəsmi.*



*Telefonnaya küç. 17. Kirxanın binasının fasadından hissə. Giriş hissəsi.*



*Telefonnaya küç 17 Yaşayış evinin kilsə fonunda ümumi görünüşü. Memar A.V. Eyxler. 1895-1898-ci illər.*



*Telefonnaya küç. 17. Kirxanın binasının ümumi görünüşü. Memar A.V. Eyxler. 1895-1898-ci illər.*

çevirir. Kilsənin şaquli tək-qülləli kompozisiyası həyatin dərinliyində yerləşir. Kilsə qamətli quruluşu, əsas hissələrinin dəqiq bölgüləri və ifratsız qotik elementləri sayəsində xüsusi ifadəlik əldə edir. Sərt və bir qədər çıxıntılı dekorativ frontonlarla bitən naxışlı sütunlar (pilonlar) mərkəzi portalı daha da ifadələşdirir. Şübhəsiz Marburqdakı müqəddəs Elizaveta kilsəsi Eyxleri ilhamlandırırdı, lakin burada tikilin miqyası və ərazisi daha böyük önəm kəsb edirdi. Kilsə dini memarlıq abidəsi olaraq memar A.V.Eyxlerin yaradıcılığında əsas yer tutur.

**Telefonnaya küçəsi (28 May), 18** Dördmərtəbəli yaşayış evi iki mərhələdə inşa edilmişdir: 1-ci 1880-ci ildə ordersiz sisteminin klassik üsulları ilə və ikinci 1908-ci il Bakıda müasirliyin çiçəkləndiyi vaxtda tikilmişdir. Fasadın 1880-ci ildəki tərtibi ritmi və bölgüsü üst hissədə də qorunub saxlanmışdır. Arxitektur elementlərinin şaquli forması, haşiyələrin naxışları binanın müasir üslubda olmasını göstərir. Fasadın arxitekturasının Bakı müasirliyi formasında olması bu istiqamətin daxili mahiyyətini əks etdirir. Daş memarlığı təsiri altında özünəməxsus incəsənət çalarları əldə etmiş bu bina şəhərin memarlıq abidələri sırasına daxil edilmişdir.

**Telefonnaya küçəsi** (28 May), 19, Stanislav küçəsinin döngəsi (Azadlıq pr.), 17, (1899-cu il). Üçmərtəbəli yaşayış evi ümumi tarixi şəhərsalma kvartalı strukturuna daxil edilir. Bu kvartalların fasadlarının klassik formada olması ona daha da böyük mənalıq verərək şəhərin dəyərli-incəsənət əsərinə çevirmişdir.

**Tserkovnaya küçəsi** (Vidadi) 1810-cu ildən sonra formalaşan tikililər kateqoriyasına aiddir və şəhərin əsas damarı sayılan – Bazarnaya küçəsindən (H. Hacıyev) şərq və qərb istiqamətində tikilmişdir. Sıravi küçələrdən biri dairəvi şəkildə müxtəlif mərtəbəli evlərdən tikilmişdir. İncə kontrasta daha sərbəst şəkilli klassik üslubda olan üç-dördmərtəbəli evlərin mövcudluğu müdaxilə edir. Küçədə



*Telefonnaya küç. 17. Kirxa binasının zalının interyeri.*



*Telefonnaya küç. 18. Yaşayış evi fasadından bir hissə 1908-ci il.*



*Tserkovnaya küçəsinin planı.*

bəzi: memarlıq abidələri, incəsənət abhavası yaradan binalar və fon xarakterli tikililər aşkar edilmişdir. Bütün bu tikililər küçənin tarixi və psixoloji əsasını qoruyub saxlamaqdadır.

**Tserkovnaya küçəsi** (Vidadi), 31, Aşağı Təzə-Pir (Mirzə Fətəli) küçəsinin döngəsi, 38. 1880-ci ildə inşa edilmiş bu ikimərtəbəli yaşayış evi şəhərin ümumi tarixi kvartallarına aid edilərək və memarlıq-şəhərsalma funksiyası daşıyaraq Bakının tipik açıqlanmasını əks etdirir.

**Tserkovnaya küçəsi** (Vidadi), 33. İkimərtəbəli yaşayış evi (1880-1890-cı illər) yerli memarların klassik Avropa memarlıq formalarının mənimsəyib tətbiq etdiyi dövrlərin tikililərinə aid edilir. Fasadın kompozisiyasının sxemində bir qədər fərqli Avropa memarlığı üslubunun təsiri binanın ümumi görünüşündə öz əksini tapmışdır. Fasadın zəngin plastikası, detalların özünəməxsus təfsiri və fərqli ornamental motivləri bir incəsənət kompozisiyası təşkil etmişdir. Fasadın bütün görünüşünün yerli koloritlərlə təchiz edilməsi bu binaya böyük mənalıq verərək Azərbaycanın memarlıq irsində memarlıq abidəsinə çevrilmişdir.

**Tserkovnaya küçəsi** (Vidadi), 37, 1880-ci ildə inşa edilmiş bu yaşayış evi bu dövrlərdə Bakıda üstünlük təşkil edən memarlıq sisteminin əksidir. Sərt fasadı olan bu tikili şəhərin ümumi görünüşündə özünəməxsus funksiyalar daşıyır və dəyərli incəsənət binalarına aid edilir.

**Tserkovnaya küçəsi** (Vidadi), 44 (1886-cı il). Ön tərəfdən bir qədər yığcam olan bu tikilinin fasadında və ümumi kompozisiyasında yerli sənətkarın memarlıq üslubunun tətbiqi hiss olunur. Bu ev dəyərli incəsənət binalarına aid edilir.

**Tserkovnaya küçəsi** (Vidadi), 50 (1903-cü il). Üçmərtəbəli yaşayış evi geniş yayılmış evlərdən biridir. Fasad Avropa memarlıq sisteminə uyğun şəkildə inşa edilərək bir qədər klassik forma və motivləri özündə əks etdirir. Ev plastikliyi, daş üzərində ifadəli detalları və fasad naxışları ilə fərqlənir. Buna dəyərli incəsənət tikilisi olaraq tarixi irsin ayrılmaz hissəsi sayılır.




**Tserkovnaya küçəsi** (Vidadi), 53, 55 (1890-cı il). Yaşayış evləri vahid tikililər təşkil edərək ordersiz sistemində tikilmişdir.

Fasad zəngin plastika, fərqli incəliklər və daş üzərində peşəkar işləmələr ilə təchiz edilmişdir.

Yaşayış evinin maraqlı görünüşü onu dəyərli incəsənət əsəri olmağında əsas rol oynayır.

**Tserkovnaya küçəsi** (Vidadi), 57 (1884-cü il). İkimərtəbəli yaşayış evinin hər bir mərtəbəsində bir keçid mövcuddur. Binanın ensiz fasadı onun qonşu binaların ümumi kompozisiyasına daxil olmağa mane olmur.

**Tserkovnaya küçəsi** (Vidadi), 59 (1902-ci il). Bu yaşayış evi şəhərin tarixi kvartalları arasında fəal elementlərindən biridir.

Binanın ordersiz sisteminin ən yaxşı ənənələri əsasında inşa edilən bu ev, plastik kompozisiyası, üfüqi və şaquli bölgüləri, ifadəli divar çıxıntıları və daşlardan ibarət memarlıq hissələri onu dəyərli incəsənət abidəsinə çevirir.

**Tserkovnaya küçəsi** (Vidadi), 58, Persidskaya küç. döngəsi (M. Muxtarov), 46, 60, 64 (1893-cü il). Yaşayış evi sıravi tarixi tikililərə daxil edilərək, ümumi görünüşü, kompozisiyası, proporsional bölgüsü və plastik fasadı ona yerli memarlıq ənənələrinə xas dəyərlər verir. Ona yerli memarlıq və dekorativ elementləri, "ağlay" bloklarından tikilmiş divar hörgüsü və mükəmməl şəkildə işlənmiş daş naxışları xasdır. Bina şəhərin ayrılmaz irsi sayılaraq dəyərli incəsənət binaları sırasına daxil edilir.

**Tserkovnaya küçəsi** (Vidadi), 68 (1902-ci il). Memarlıq dəyərlərinə görə şəhərin tarixi kvartalları arasında dəyərli incəsənət binası hesab edilir. Memarlıq elementlərinin ahəngliyi və yüksək səviyyəli bəzək işlərinin "ağlay" üslublu daşdan olması fasadı daha da fərqləndirir.

**Tserkovnaya küçəsi** (Vidadi), 73. Hüseynova məxsus çoxmərtəbəli yaşayış evi 1910-cu ildə inşa edilmişdir. Tarixi kvartalların tikintisində əsas binalardan biridir. Geniş ərazisi və memarlıq-planlaşması sayəsində şəhərin təsviri incəsənətinin formalaşıb inkişaf etməsində fəal rol oynayır. Bina çox gö-

*Tserkovnaya küçəsi 73. Hüseynovun yaşayış evinin ümumi görünüşü. XX əsrin əvvəli.*





*Tserkovnaya küçəsi 73. Hüseynovun yaşayış evinin cənub fasadından bir hissə.*

zəldir. Rizalitlər bölgülərin şaquliliyini vurğulayır və daşdan ovulmuş heykəltəraşlıq hissələri artıq özü-özlüyündə daş incəsənət əsərlərinə aid edilir. Yaşayış evi - memarlıq abidəsidir.

**Tserkovnaya küçəsi** (Vidadi), 75. 1886-cı ildə inşa edilmiş bu tikili gözəl fasadı və xüsusi sevgi ilə işlənib hazırlanmış daşdan olan naxışları ilə dəyərli tarixi incəsənət binalarının əsasını təşkil edir.

**Tserkovnaya küçəsi** (Vidadi), 80, 90, 112, 125. 1880-ci ildə tikilmiş bu sıravi yaşayış evlərinin kiçik fasadları ilə Bakının dəyərli incəsənət binalarından sayılır.

**Tserkovnaya küçəsi** (Vidadi), 88. Sisianov küç. döngəsi (T.Xəlilbəyli), 34 (1904-cü il). Üçmərtəbəli yaşayış evi küncvari quruluşuna görə şəhərin tarixi kvartalları arasında mühüm rol oynayır. Gözəlliyi ilə fərqlənən bu binanın fasadları heykəltəraşlıq və dekorativ naxışları ilə zəngindir. Üç alaqapılı daş eyvan müasir işləmələri ilə birgə mərtəbələrin şaquli istiqamətdə olan divarları birləşdirərək əsas fasada gözəllik verir.

**Tserkovnaya küçəsi (Vidadi),** 89. Sisianov küçəsinin tini (T.Xəlilbəyli). Hamamın binası 1887-ci ildə ənənəvi üslubda inşa edilmişdir. Hamamda soyunub-geyinmə otağı, çimmək yeri, isti və soyuq su anbarı və külxanası (qızdırılma ərazisi) vardır. Hamam yeraltı kanallar vasitəsi ilə qızdırılırdı. Binanın daxili kompozisiyasının əsasında vurğulanmış arka, qübbə, günbəz, eləcə də yerli memarlıq və konstruktiv üslubları tətbiq edilmişdir. Hamamın binası xalq memarlığı abidələrinə aid edilir.

**Tserkovnaya küçəsi (Vidadi) 105.** 1912-ci ildə inşa edilmiş üçmərtəbəli ya-

şayış evi tarixi Bakı kvartalları arasında maraqlı nümunə ifadə edir. Şəhərin bir çox tikililərindən fərqli olaraq burada ön plana binanın tək üslubu deyil, səthi fasadı geniş modeli və forması da diqqət çəkməkdədir. Geniş kompozisiyanın Bakıda torpaq qıtlığı zamanı yer alması böyük diqqət çəkərək memarlıqda müsbət inkişaf tendensiyasının göstəricisidir. Bu dövrdə Bakı memarları öz işlərində müasir dekorativ elementlərindən geniş şəkildə istifadə edirlər. Yaşayış evinin memarlıq kompozisiyasında digər fasadlara xas olan xırdalıqlar mövcud deyildir və daha çox ordersiz sisteminə xas element və formalar tətbiq olunmuşdur. Binanın memarlıq quruluşunun əsasına müasirlik prinsipləri qoyulmuşdur və tikintisində istifadə olunmuş əhəngdaşı ona millilik xüsusiyyətləri vermişdir. Giriş qapı tətbiq olunan müasir elementlər və dekorativ üzlük fasadın bəzək naxışları hesab edilir. Bu yaşayış evi Bakının müasir üslubda olan maraqlı tikililərindən biridir və dövrün tarixi memarlıq abidəsidir.

**Tserkovnaya küçəsi (Vidadi), 107**. Bu yaşayış evi 1907-ci ildə inşa edilmişdir. Kapitalizm dövrünə aid bu tikilinin fasadının kompozisiyasında tətbiq edilən klassik elementlər və naxışlar o dövrkü Bakı bənnalarının peşəkarlığı və bacarıqları haqda xəbər verir. Yaşayış evi Bakının tarixi irsinin ayrılmaz hissəsidir.

**Tserkovnaya küçəsi (Vidadi), 133 (1896-cı il).** Kiçik kamera üslubunda olan bu yaşayış evi ordersiz sisteminin xüsusiyyətləri ilə yerli iqlim şəraitinə uyğun şəkildə tikilmişdir. Fasadın kompozisiyasında istifadə olunan "şüşəbənd" tikiliyə xüsusi gözəllik vermişdir. "Şüşəbənd"ə Avropa elementlərinin olmasına baxmayaraq əsasən yerli üslubda tikilmişdir. "Şüşəbənd"lə olan buna bənzər tikililərin rəssamlıq simasının xarakterik elementidir.

**Tserkovnaya küçəsi (Vidadi), 137**. 1903-cü ildə inşa edilmiş bu tikili şəhərin dəyərli incəsənət binaları mühitinin qorunmasında əsas rol oynayır.

**Tserkovnaya küçəsi (Vidadi) 140** və Kamenistoy küç. döngəsi (B. Səfəroğlu) 191 (1909-cu il). Rzayevlərin üçmərtəbəli yaşayış evinin paralel küçələrə baxan fasadı Bakı şəraitində kvartalın çox böyük bir hissəsini əhatə edir. İki əks küçələrə baxan tikinti üslubu kapitalizm dövrünün şəhərsalınma xüsusiyyətlərinə xasdır. Yaşayış evi şəhərin XX əsrin evlərindən öz emosional ərazi genişliyi və memarlıq üslubuna görə fərqlənir. Fasadın memarlıq kompozisiyasında ordersiz sisteminin üslubları tətbiq olunmuşdur. Fasadın ümumi strukturu, həcmli hissələrinin modeli, ümumi memarlıq detalları daxili müasirliyin ən yaxşı nümunələridir.

**Tserkovnaya küçəsi (Vidadi) 141** (1910-cu il). Çoxmərtəbəli yaşayış evi klassik memarlıq üslubu və fasadda rəssamlıq formalarının olması maraqlı memarlıq nümunəsi yaradır. Bina plastika, ifadəli memarlıq naxışları və divar çıxıntıları ilə zəngindir.

**Tserkovnaya küçəsi (Vidadi), 144** (1900-cü il). Üçmərtəbəli yaşayış evi – plastik fasadı, fərqli naxışları və "ağlay" blokunun daş qırıntılarından olan bəzəkləri sayəsində tarixi mərkəzin əsas elementlərindəndir. Bina dəyərli incəsənət binaları üçün əlverişli mühit yaradır.

**Tserkovnaya küçəsi (Vidadi), 145,** Mariinskaya döngəsi (Rəsul Rza) küç., 55 (1898-ci il). Fərdi ev tipində olan ikimərtəbəli yaşayış evi künc forması ilə tarixi

kvartallar arasında fəal şəhərsalma pozisiyası daşıyır. Baş fasad ordersiz sisteminin klassik formasının sərbəst üslublu plastikliyi və əhəngdaşından işlənmiş naxışları ilə fərqlənir. Bina dəyərli incəsənət binaları üçün əlverişli mühit yaradır.

**Tserkovnaya küçəsi (Vidadi), 149** (1912-ci il). Çoxmərtəbəli yaşayış evi yeni miqyaslı şəhər tikililərinə aid edilərək onlar arasında önəmli yer tutmuşdur. Çoxmərtəbəli yaşayış evləri artıq özü özlüyündə yeni memarlıq və konstruktiv üslublarında mütərəqqi ifadə edirdi. Mərtəbələrin sayı artdıqca memarlıq kompozisiyası bir qədər mürəkkəbləşərək yeni fasad tikililərinə şərait yaradırdı. Bu halda klassik memarlıq üsulları, sərbəst şəkilli ordersiz sistemi müəllifə şaquli rizalitlərin ritmi və plastika ilə zəngin kompozisiya yaratmağa imkan verdi. Müxtəlif memarlıq və dekorativ naxışların işlənib hazırlanmasında yerli ustaların rolu çox böyükdür. Onların istedadı və peşəkarlığı sayəsində mürəkkəb pəncərə haşiyələri, giriş portalının zəngin işləmələri və karnizləri fasadın kompozisiyasında estetik yer almışdırlar. Fasadın tək daş naxışı qayğı ilə qorunmalıdır, çünki yaşayış evi Bakıda çoxmərtəbəli tikililərin inkişafında yeni mərhələdir. Ümumi tarixi irsə daxil olaraq memarlıq abidəsi sayılır.

**Tserkovnaya küçəsi (Vidadi), 152 (1911-ci il).** Siravi kvartallar sırasında yerləşən bu tarixi tikili Bakının maraqlı müasir binalarından biridir. Fasadın arxitekturasında bu üsluba aid tendensiyalar əks olunmuşdur. Yaşayış evi kapitalizm dövrünün memarlıq abidəsidir.

**Tserkovnaya küçəsi (Vidadi), 153** (1896-cı il). İkimərtəbəli yaşayış evi tarixi sıravi kvartallar tikililərini daxil edilir, lakin bəzi fərqli estetik xüsusiyyətləri ətraf tikililərə təsir edir və incəsənət binaları mühitinin qorunmasında əsas rol oynayır.

**Tserkovnaya küçəsi (Vidadi), 159** (1886-cı il), **161** (1893-cü il), **163** (1886-cı il). Bu yaşayış evləri əslində sıravi tikililərə aid edilir, lakin plastikliyi, fasadın proporsional bölgüsü, daş üzərində canlı naxışlar dəyərli incəsənət binaları mühiti yaradır.

**Tserkovnaya küçəsi (Vidadi) 179.** İkimərtəbəli yaşayış evi 1893-cü ildə mühəndis İ.V.Qoslovskinin layihəsi əsasında inşa edilmişdir və fərdi yaşayış evlərinə aid edilir. Öz geniş ərazisi və kompozisiyasına görə yerli ordersiz sisteminin maraqlı nümunəsidir. Binada istifadə edilmiş "şüşəbənd" arxitekturanın əsas elementi olaraq tikiliyə xüsusi bədiilik verir. Yaşayış evi – XIX-XX əsrin şəhər memarlıq irsinin parlaq nümunəsidir və memarlıq abidəsidir.

**Sisianov küçəsi (T.Xəlilbəyli).** 1810-cu ildə forştadtın törədilməsinin ilkin dövründə hələ şahlar dövründə mövcud binaların zamanı tikilmişdir. Cənubdan küçə hasarın başlandığı hissədən başlayır və şimalda Balaxanı (Füzuli) küç. ilə bitir. Tikili ikimərtəbəlidir və bir, üçmərtəbəli evləri özünə əlavə edir. Tikilinin üslubu ordersiz sistemin klassik üsulları ilə ifadələnmişdir və yerli Bakı tikinti şərtləri nəzərə alınmışdır. Bu küçədə A.A.Nikitin, N.A. fon der Nonne, Q. İsmayılov kimi memarların yaradıcılığı qorunub saxlanmışdır.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), 7 Quberniya-Torqovaya (Nizami) küçələrinin döngəsi. 55 Poctovaya (S.Tağızadə), 82. 1883-cü ildə memar Q.İsmayılov tərə-



*Sisianov küçəsinin planı.*

findən inşa edilmiş ev mərkəzin ümumi tikintisinə daxil edilir və şəhərsalınma dövrü zamanı Bakının memarlıq xüsusiyyətlərini təyin edir. Bu yaşayış evi tarixi irsin ən potensial elementi olaraq Bakının mühüm incəsənət simalarının meydana çıxmasına səbəb olmuşdur. Bina memarlıq abidələri siyahısına daxildir.

**Sisianov küçəsi (T.Xəlilbəyli) 10,** Poctavaya küç. döngəsi (S.Tağızadə), 84. 1892-ci ildə N.A. fon der Nonne tərəfindən inşa edilmişdir. Bina klassik formada olan zəngin fasad plastikası, ənənəvi daşdan olan hörgüsü, bütün memarlıq elementlərinin xarakteri ilə fərqlənir. Yaşayış evi memarlıq abidələrinə aid edilir.

**Sisianov küçəsi (T.Xəlilbəyli), 11, 12, 14,** Poctavaya (S.Tağızadə) küçəsinin döngəsi. 119, Gimnazistkaya küç., döngəsi 134. Kompozisiyanın memarlıq üslubları, konstruktiv formaları və planlaşdırma xüsusiyyəti Bakı-Abşeron memarlıq istiqamətini xatırladır. Onlar şahlar dövründən qalma forştadt üzərində olan tək obyektlərdir və o zamanki dövrün abidələridir.

Sisianov **küçəsi** (T.Xəlilbəyli), 16, Gimnaziçeskaya (Tolstoy) küç., 137 (1908). Bu yaşayış evi – öz kalssik üslubu, gözəl naxışları və inşaat incəsənəti ənənələri ilə şəhərin gözəlliyində böyük estetik rolu vardır.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **17,** Gimnaziçeskaya (Tolstoy) 135, küç. kəsişməsi. Gözəl klassik formalı parlaq şəkilli order sistemdə həll edilmiş üçmərtəbəli yaşayış evi, 1911-ci ildə mülki mühəndis A.A.Nikitinin layihəsi üzrə inşa edilib, böyük emosional gücə malikdir. Pilyastrların üfüqi hissələrinin və bu mühitə əlavə olunmuş balkonların ritmi yaşayış binasının həcmli kompozisiyasının cənub xarakterini ifadə edir. Binanın rəssamlıq palitrasına müəyyən dəyişiklik gətirən daş və taxta arxitektur-konstruktiv həllin erkerləri fasadlarla böyük taktla, lakin cəsarətlə istifadə edilib. Yaşayış binası küçənin quruluşunda mühüm rola malikdir, şəhərin ritm və həcmini saxlayır, XX əsrin 20-ci illərində arxitekturada rasionalizmə gətirən yeni tendensiyaları özündə əks etdirir.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **19,** Karantinnıy (H.Aslanov), 40 (1889-cu il) küç. kəsişməsi. İkimərtəbəli yaşayış binası şəhərin tarixi mərkəzinin ümumi arxitektur-planlaşdırma sisteminə aiddir. Ətraf binaların fonunda klassik formaların gözəl və azad traktovkası və arxitektur həllin xarakterlərinə görə fərqlənir. Geniş formalı plastik pəncərə yerləri olan xüsusi künc rizalitlər bu istiqamətdə yerli memarlığın özünəməxsus cizgisini göstərir. Daş bloklu fasadların dərin

işlənməsi böyük mənası olan rəssamlıq tərəfi olub tarixi irsdə divar həllinin yeni impulsunu üzə çıxardıb.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **20,** Karantinnıy (H.Aslanov), 41 (1885-ci il) küç. kəsişməsi. İkimərtəbəli yaşayış binası şəhərin tarixi irsinin ümumi sisteminə daxil olan binaların kateqoriyasına daxildir və mərkəz tikililəri üçün xarakterikdir, fəal şəhərsalma funksiyasını daşıyırlar. İmarət üslublu bina, order sisteminin klassik üsullarından istifadə etməklə fasadların arxitekturasının həllində əks olunan Bakı şəraitində özünəməxsus yerli xarakterli funksiya əldə edib. Bina XIX əsrin ikinci yarısında şəhər arxitektura abidələrinin sırasına daxil edilib.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **21,** Karantinnıy (H.Aslanov), 39 (1883-cü il), 22 (1900-cü il) küç. kəsişməsi. Yaşayış binası şəhərin tarixi mərkəzinin cərgəli tikilisinin yerli elementi sayılır, amma əhatəsindəki binalarla birlikdə bədiidəyərli binaların mühitini müəyyən edərək, Bakının tarixi irsinin özəyini yaradaraq, həm arxitektur-planlaşdırma, həm də həcmi-məkan cəhətdən tək vəhdət əmələ gətirir.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **23,** Aziatskiy (A.O.Quliyev), 76 küç. kəsişməsi. İmarət üslublu yaşayış binası 1891-ci ildə arx. M.K.K. İsmayılov tərəfindən tikilib, qonşu binalar kimi şəhərin qədim rayonunun tarixi tikilisinin əsas elementi sayılır, onun şəhərsalma və həcmi-məkan strukturunu müəyyən edir. Klassik formaların sərbəst interpretasiyasında həll edilən bina simmetrik kompozisiya ilə nişanlanıb və əsas fasadda həcmi plastikanı bərkidən erkerlərlə qeyd edilib. Bakının yaşayış evlərinin interyerində



*Sisianov küçəsi, 19. Yaşayış evinin şərq fasadı. 1890-cı il.*



*Sisianovskaya küçəsi, 23. Mailovun yaşayış evinin şərq fasadı. Memar M.M. Qafar İzmaylov. 1891-ci il.*

əhəmiyyətli yerə malik olan divar naxışlı birinci mərtəbənin vestibulu gözəl təqdim edilib. Daxili həyət patio tipli bircərgəli tikililərlə əhatələnib. Həyətin divarına böyük diqqət yetirilib, burada yerli ənənələr "şüşəbənd" (şüşələnmiş qalereya) üsulunda qapalı məkan həllində öz əksini tapıb. Bina şəhərin incəsənət irsinə daxildir və XIX-XX əsrlərin arxitektura abidəsidir.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **24**, Aziatskiy (O.A.Quliyev), 78 küç. kəsişməsi. Yaşayış binası 1894-cü ildə tikilib, künc vəziyyətində dayanır və qotik formalara, detal elementlərinə və bədii ifadələri sayəsində gözəl həcmi-məkan həllinə malikdir. O, tarixi mərkəzin strukturunda fəal şəhərsalma mövqeyinə malikdir və öz dövrünün arxitektura abidəsi sayılır.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **25**, Aziatskiy (O.A.Quliyev) **67** küç. kəsişməsi. Üçmərtəbəli yaşayış binası 1898-1900-cü illərdə tikilib. Üslub strukturu daş detallarla saxlanılan dəqiq üfüqi və şaquli hissəli klassik formalar üzərində qurulub. Sonradan salınan şüşəli balkonlar fasadın ümumi arxitektur-məkan kompozisiyasını pozmuş və onun bu yenidənqurma tədbirlərinə qədər saxladığı fəal şəhərsalma mövqeyindən məhrum edib. Yaşayış binası şəhərin bədii-qiymətli evləri üçün mühit formalaşdırır.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **34**, Serkovnıy (Vidadi), (1880-ci il) küç. kəsişməsi. Üçmərtəbəli yaşayış binası qədim forştadt rayonun arxitektur-planlaşdırma quruluşunda mühüm yer tutur. Əsas fasadın arxitektur kompozisiyasında klassik, lakin daha sərbəst interpretasiyada, üsullardan istifadə edilib, eyni zamanda erkerin traktovkasında yaşayış binasının üfüqi hissələrinin sakit ritmini pozmayan roman motivlərdən istifadə olunub. Mərtəbələrdəki geniş balkonlar yerli yaşayışın həcmi plastikasına yenilik gətirib və onun arxitektur məzmununu zənginləşdiriblər, evlərin interyerlərindəki və pilləkən qəfəslərindəki divar naxışları binanın arxitektura abidəsi kimi əhəmiyyətini artırıblar.

**Sisianov küçəsi** (T.Xəlilbəyli), **39**. Üçmərtəbəli yaşayış binası XX əsrin əvvəlində tikilib. Bakı modernin sakit formalarındakı fasadın sərbəst arxitektura kompozisiyası ətraf tikiliyə öz ritmi və həcmini bəxş edib. Fasadların quruluşunda oyuqların özünəməxsus formalı erkerlərin əmələ gəlməsi, detalların şaquliliyi və arxitektur detalların cizgilərinin incəliyi dolğun xarakterli həcmi plastika və şəhərin irsi tarixində yer verib.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), enli istiqamətdə, 1-ci Xrebtovıydan başlayır, Yurevskiy küçəsi (Nərimanov pr.) ilə kəsişir, Kubinskiya (Füzuli meydanı) daxil olur və M.Qorki küçəsində sona çatır. Küçənin başının qabarıq olması, yaşayanların sosial tərkibi, xüsusən az imkanlı əhali stilistik traktovkadan məhrum olmuş binanın xarakterini qabaqcadan müəyyən etmişdi. XIX-XX əsrlərdə Kubinskiy meydanındakı küçə müəyyən stilistik istiqamət əldə edir, birmərtəbəli binalarla yanaşı, sərbəst ifadəli, yerli iqlim xüsusiyyətlərindən istifadə etməklə tədricən iki-üçmərtəbəli binalar da salınır.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **102** (1916-cı il). İmarət üslublu yaşayış binası bədii-arxitektur maraq kəsb edən bir neçə küçə binalarına aid olub onun tikintisində mühüm yerə malikdir. Fasadın arxitekturasında arxitektur həllərin yerli şərtlərinə

bağlı sərbəst interpretasiyada olan barokko stilistik xüsusiyyətlərindən istifadə edilib. Cinahlardan erkerləri və mürəkkəb sonluqlu mehvərlə vurulan kompozisiyanın simmetrik traktovkalı kiçik dar fasadı fəal həcmi vahid kimi çıxış edir, hissələrinə, arxitektura çoxluğunun proporsional quruluşuna, heykəltəraşlıq forması sayılan daş detalların çoxlu naxışlarına görə seçilir. Yaşayış binası Bakı şəhərinin arxitektur abidələrinə aiddir və öz estetik funksiyalarını maddi-məkan mühitində daşıyır.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **115** (1910-cu il). Qulam Şərifzadənin üçmərtəbəli yaşayış binası tarixi mərkəzin ümumi sisteminə daxildir və kapitalizm dövründə şəhərin şəhərsalma strukturunda xüsusi yerə malikdir. Fasadın kompozisiya sxeminə arxitekturanın ordersiz elementləri salınsa da, təmkinli formada modernin müəyyən əlamətləri müşayiət olunur. Bütün bu xırda fərqlər iki vacib elementi olan fasadın maraqlı plastikasını yaradıb – daş naxışlı detallar və geniş karnizi olan portal kompozisiya.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **119** (1983-cü il). İkimərtəbəli yaşayış evi daşdan yonulmuş əla dekorativ bəzəkli arxitektur kompozisiyasının çox maraqlı, zəngin plastikası olan binadır; bədii-zəngin binalar üçün mühit olub tarixi irsin əsasını təşkil edir.

**Çadrovıy küçəsi** (M.A. Əliyev) **124**, Persidskiy (Murtuza Muxtarov) küç. kəsişməsi. Təhməzov qardaşlarının ikimərtəbəli yaşayış evi 1900-cü ildə tikilib, geniş sahəli və arxitektur planlaşdırma quruluşuna görə özünə diqqəti cəlb edən tikililərdən biridir. Şəhərin tarixi mərkəzinin ümumi sisteminə tikilinin qiymətli elementi kimi girərkən yaşayış binası, həmçinin onun əhəmiyyətini bir az da yüksəldən şəhərsalma funksiyalarını da daşıyır. Tikinti sahəsində küncdə duran bina erker və balkonların asimmetrik yerləşməsi sayəsində çox mənzərəli görsənir. Evin modern həllində olmasına baxmayaraq ordersiz sistem proporsional hissələrdə, karniz və bir neçə daş detallarda öz qüvvəsini saxlayır. Lakin modernin element və motivləri yaşayış evinin bütün tarixi kompozisiyasından keçir. Ayrıca detalların, kronşteynlərin erker altında şəklinin çəkilməsi həm də bənnaların ustalığını əks etdirən heykəltəraş forması ilə seçilir. Bina arxitektura abidəsidir və şəhərin tarixi irsinin ayrılmaz hissəsidir.

**Çadrovıy küçəsi** (M.A. Əliyev), **126**, Persidskiy (Murtuza Muxtarov), 62 (1890-cı il) küç. kəsişməsi. Üçmərtəbəli yaşayış binası order və ordersiz sistemindən istifadənin üstünlük təşkil etdiyi dövrdə Bakının şəhər tikilisinin arxitektur-sahə istiqamətini müəyyən edən binalara aiddir. Bu prinsip yonulmamış daşla hörülmüş kürəciklərin şaquli ritmli fasadların arxitektur düzülüşündə qorunur. Arxitektur kompozisiyanı nəinki zənginləşdirən, həmçinin xüsusi incəlik və dimanizm gətirən ayna üzlükləri və nazik profil edilmiş sandriklər sayəsində yaşayış binasının fasadının plastikası zəngindir. Şəhərin tarixi irsində fasadlara monumentallıq və əhəmiyyət verən arxitektur elementlər və detallar daş arxitekturası ənənələrində yonulub. Bina bədii-zəngin binalar üçün mühit kəsb edir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **153**, M.Qorki, 42 və Çadrovıy (M.A.Əliyev) küç. ilə dalan nömrə 13 kəsişməsi. Yaşayış binası 1890-cı ildə arxitektor M.K.K.İs-

mayılov tərəfindən tikilib. Forştadtın mərkəzi kvartallarının mövqeyi və formalaşmasında mühüm şəhərsalma yeri tutur. Fasadların arxitekturasında klassik üslublardan, lakin o dövr Bakı arxitekturası üçün xarakterik olan daha sərbəst üsuldan istifadə edilib. İrsi binaya belə yanaşma binanın estetik xüsusiyyətlərini azaltmır, ona yerli arxitekturanın orijinallığını bəxş edir. Mərtəbələrin proporsional bölünməsi, tyaqa pəncərələrin zəngin sandrikləri, daşla ovulmuş ayrıca detallar, həmçinin yüksək tikinti mədəniyyəti şəhərin tarixi irsində yaşayış evinin əhəmiyyətinə səbəb olur.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **155** (1880-cı il). İkimərtəbəli yaşayış evi tarixi mərkəzin kvartalının sıravi tikintisinə daxil olsa da fərdi xüsusiyyətlərə malikdir. O, klassik istiqamətin ordersiz sistemi prinsipi ilə tikilib, ciddilik və monumentallıqla sıxıcı arxitektur detalların ahəngi XIX əsrin sonları şəhər irsinə aid olan və bədii-zəngin binalar üçün irs olan bu tikilini digərlərindən fərqləndirir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **157** (1890-cı il). Üçmərtəbəli yaşayış evi tarixi mərkəzin sıravi tikinti sistemində yerləşməklə şəhərin bədii görünüşünün formalaşmasına kömək etməklə aktiv olan həcmli element sayılır. Fasadın arxitekturası klassik formalarda qurulub. Hər mərtəbə üzrə dərin çıxıntılı hörgü, fasadların bütün elementlərinin naxışlarının gözəlliyi, klassik tipdə daş karniz bədii zəngin binalar üçün mühit olmaqla bu tikilinin arxitektur ənənələrlə zəngin olan şəhərin irsində əhəmiyyətindən xəbər verir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **163** (1900-cü il). Üçmərtəbəli yaşayış evi kvartalların sıravi tikintisində yerləşir, lakin parlaq həcmli sahə və arxitektur traktovkası sayəsində irsin bədii tərəflərini açaraq şəhərin tarixi mərkəzinin ümumi sistemində mühüm yerə malikdir. Öz həcm həllinə görə 1880-ci illərin Bakı yaşayış tikintisinin ənənələrini davam etdirir və bunu dekorativ rifli günbəzi olan "şüşəbəndin" (şüşələnmiş ayna) fasadın mərkəzinə çevrildiyi dövr, yəni XX əsrin müvafiq arxitektur tendensiyasında davam edir. Fasadın arxitekturasında dərin yonulmamış daşlı, ayna yerlərinin nəfis işləməsi və açılmış karnizli klassik formalardan və ordersiz sistem üslublarında istifadə edilib. Lakin yaşayış binasının görünüşündə sakit modernin ümumi izləri mövcuddur, əhəngdaşının tünd tonlarında hazırlanmış fasadın arxitekturası tektonik və daha təsirli olur. Yerli Bakı həyatının arxitektur sistemi üçün səciyyəvi olan balkon-şüşəbənd fasadda çox uğurla nəzərə çarpır. Bina arxitektura abidəsi və şəhərin tarixi irsidir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **170** (1899-cu il). Üçmərtəbəli yaşayış evi sıravi üslublu tikili olsa da şəhərin tarixi mərkəzinin şəhərsalma sistemini müəyyən edən element kimi küçənin həcmli tikintisində və fasadın arxitekturasında yer alıb. Fasadın arxitekturasında Bakı ev tikintisinin mərtəbələrə şaquli bölünmə, üfüqi kürəkciklərin yonulmamış daşla hörülməsi, karniz və pəncərələrin ehtiyatlı sandrikləri kimi xarakterik olan prinsiplərdən istifadə olunub. Bütün bunlar XIX-XX əsrlərdə tikili və şəhər irsini zənginləşdirən arxitektur əhval-ruhiyyə bəxş edir. Bina bədii-zəngin evlər üçün mühitdir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **179** (1909-cü il) Tatarskiy (A.M.-b.Topçıba-

şov) 52 küç kəsişməsi. Yaşayış evi - sıravi tip tikilisidir, lakin o, küçənin kəsişməsini gözəl şəkildə birləşdirir və şəhərin bədii-zəngin binaları üçün mühit yaratmaqla modern arxitekturasında öz fasadları ilə mərkəzin tarixi kvartallarının quruluşuna daxil olur.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **201**, Mariinskiy (Rəsul Rza) küç., kəsişməsi, 1880-ci illər. İkimərtəbəli yaşayış evi Bakının arxitekturasının Avropa istiqamətinin himayəsi altında təşəkkül və formalaşması dövründə tikilib. Arxitektur üsullar və yeni istiqamətin motivləri ordersiz sistemin proporsional detalları dəqiq müşahidə edilməməklə sərbəst ifadə tərzində istifadə edilib. Maraqlısı odur ki, yaşayış evinin arxitekturasına həm mərtəbələr arası örtmə səviyyəsində, həm də karnizin friz hissəsində orijinal stalaktik xətt şəklində yerli arxitektura elementləri salınıb. Bu cür yerli tip motiv nəticədə arxitekturada geniş yayıldı və XIX-XX əsrlərdə Bakının yaşayış tikintisində milli elementlərin yayılmasında müsbət rol oynayıb. Yaşayış binası bədii-zəngin evlər üçün mühit və tarixi irsin ayrılmaz hissəsidir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **202**, Çadrovıy küç. (1900-cü illər) boyunca dalan nömrə 10. Order və ordersiz sistemin təsiri altında arxitektur istiqamət müəyyən edilən dövrdə tikilən üçmərtəbəli yaşayış evi. Sahibinin ictimai-iqtisadi imkanlarından və memarların şəxsi bacarıqlarından asılı olaraq bütün yaşayış evləri bu sistemlərin prinsiplərindən istifadə etməklə bu və ya digər arxitektur həllini tapırlar. Yaşayış evi - üfüqi hissələrin və şaquli arxaların dəqiq sxemi olan əsaslı evdir. Hər mərtəbədə olan geniş balkon bədii-zəngin evlərin mühiti olaraq tarixi irsin ayrılmaz hissəsi ilə şəhər tikintisinə daxil olan evin fasadının ümumi kompozisiyasına, onun oxu boyunca həcm və sonluq elementini artırır.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **203** (1908-ci il). Şəmsəddin Xələfovun üçmərtəbəli evi modern stilinin mərkəzin tarixi məhəllələrinin tikililərinə nüfuz edib Bakının bədii görünüşündə nüfuzlu yer tutduğu zamanlarda, XX əsrin əvvəlində şəhərin arxitekturasında özünü göstərən tendensiyaları əks etdirir. Yeni istiqamətdə stilin nüfuz etməsi müəyyən mənada order və ordersiz sistemlərdə fasad həllərin sxemini pozdu və şəhər arxitekturasına yeni kompozisiya üsulları və motivləri gətirdi. Bu ev, gözəl və mənalı detalları olan modern stilinin bəzi misallarındandır, o, tikmənin əsas elementi və arxitektura abidəsi kimi arxitektur irsə daxil edilib.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **204** (1900-cü illər). İmarət üslublu ikimərtəbəli ev təkcə tarixi mərkəzin məhəllələrinin estetik görünüşünü formalaşdıran yox, həmçinin yüksək həcmi-məkan və arxitektur-planlaşdırma xüsusiyyətləri sayəsində emosional qüvvə gətirən şəhər tikililərinə aiddir. Qarşımızda təkcə küçənin sıra tikilisli binası deyil, həmçinin Bakının şəhərsalma sisteminin fəal elementi dayanır. Fasadın arxitektur kompozisiyası flank rizalitlərdən istifadə etməklə order sistemin ən yaxşı formalarında tikilib. Fasadın naxışlı sxemi klassik formalı ayna yerlərinin ən gözəl sandriklərinin də, fonunda gözəl iz kimi buraxılan inkişaf etmiş hörülməmiş daşla zəngindir. Portalın və daş arxitektur detallı və səciyyəvi naxışlı karnizin tamamlayıcı mürəkkəb

şəklinin zənginliyi fasadın skulpturasını və həcm kütləsinin dinamikasını yaradır. Bina tarixi irs və kapitalizm dövrünün arxitektura abidəsi sayılır.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **205** (1902-ci il). Səlimovun üçmərtəbəli evi fasadın arxitektur kompozisiyasında klassik formalardan istifadə nümunəsini təşkil edir. Bu formalar ordersiz sistemə uyğun olaraq fasadın hissələrinin, skulptur olaraq daşdan düzəlmiş detalların divarlarının daşdan yonulmuş elementlərinin həllinin əsasında dayanır. Şəhərin tarixi irsinin istiqaməti fasadın xarakterinə dərin iz buraxıb. Bina milli arxitektur abidəsidir.

Çadrovıy **küçəsi** (M.A.Əliyev), 206, 208, 210 (1886-cı il). Yaşayış evləri XIX əsrin sonlarında Bakıda azmərtəbəli tikililərin tikintisi haqda təsəvvür oyadır. Bu tip yaşayış evlərinin arxitekturası iki və çoxmərtəbəlilərlə uyğundur, lakin bir qədər də ordersiz sistemin təmkinli formasında. Buna baxmayaraq, belə arxitektur traktovkalı üslublu yaşayış binası bədii-dəyərli binaların mühitini formalaşdıraraq şəhər tikilisində vətəndaşlıq hüququ qazanıb.

Çadrovıy **küçəsi** (M.A.Əliyev), 221, 223, 224, 225 (1890-cü illər). Yaşayış evləri arxitektura kompozisiyası, detal və elementləri ilə fərqlənərək tarixi məhəllələrin ardıcıl tikilisinin ümumi sistemınə daxil olurlar, şəhərin tarixi irsində bədii-zəngin binaların mühitini müəyyən etməklə onların mahiyyətini vurğulayır.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **226** (1893-cü il). Birmərtəbəli bina bu istiqamətdə olan digər binalardan fərqli olaraq daha sərbəst traktovkada olub order sisteminin klassik formalarında imarət üslublu kapital tikinti mahiyyətini daşıyır. Fasadın korinf yarımsütünlardan olan portal girişli asimmetrik kompozisiyası və yarım çevrə şəkilli pəncərələrin böyük yerləri yonulmuş tikmə üzərində həcm həllinin əsası olub. Fasadın çox vacib elementi korinf kapiteli halında daş üzrə naxış və maskarona formasında saray daşları olub. Bina şəhər arxitektura abidələri sırasına daxil olub.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **228** (1903-cü il). İkimərtəbəli yaşayış binası iki tikinti materialından tikilib: birinci mərtəbə təmiz yonulmuş daşlardan, ikinci mərtəbə kərpicdən. Buna baxmayaraq bu kombinasiya arxitektur kompozisiyanın order sisteminin bir neçə əlamətləri olan Avropa memarlığı prinsiplərində yaranmasına mane olmadı. Ev tarixi mərkəzin yaşayış məhəllələrinin ardıcıl tikilisinə daxildir, lakin irsin ayrılmaz hissəsi və bədii-dəyərli binaların mühitidir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **227, 229, 231, 233, 235, 236, 237, 238, 239** (1890-1910-cu illər). Yaşayış evləri Avropa memarlığının arxitektur formalarında yaşayış məhəllələrinin yaranmasına səbəb olan fəal tikili elementləri kimi şəhərin tarixi mərkəzinin şəhərsalma quruluşunda mühüm yerə malikdir. Bu yaşayış evlərinin arxitektur kompozisiyası yerli memarlığın daş, detalların nazik yonulması, daş üzrə əla keyfiyyətli halqa və Avropa klassikasının məşhur formalarında naxış materialın skulptur anlamı ənənələri ilə bir-birinə qarışır. Yaşayış evləri bədii-zəngin binalar üçün mühiti müəyyənləşdirir.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **234** (1911-ci il). Çoxmərtəbəli ev şəhərin tarixi məhəllələrinin ardıcıl tikilisinə aiddir, amma monumental arxitektur detallar

və tikilmə keyfiyyəti sayəsində, şübhəsiz ki, bədii-zəngin tikintilərinin mühitini müəyyən edən həmin o binaların fəal fon elementidir.

**Çadrovıy küçəsi** (M.A. Əliyev), **245**, (1897-ci il). Klassik forma və elementlərdən istifadə etməklə müəyyən arxitektur sistem yarananda bu bina tikilmişdi. Bu özünü proporsional hissələrə ayırmada, mərtəbələrin yonulmuş daşla hörülməsində, fasadlarda geniş və uzun balkonların salınmasında, yerli ustaların memarlığa və hər daşa sevgisinin bəslənməsində özünü göstərib. Bütün bu xüsusiyyətlər bədii-zəngin binalar üçün formalaşan mühit kimi şəhərin tarixi irsində onun mahiyyətini müəyyən edib yaşayış binasının əsasını təşkil etdi.

**Çadrovıy küçəsi** (M.A.Əliyev), **241** (1884-cü il), **247, 249** (1897-ci il), **251** (1895-ci il). Yaşayış evləri şəhərin tarixi məhəllələrinin tikilməsində fəal elementlərdir, çox maraqlı həcmi-məkan və arxitektur-planlaşdırma faktlarına malikdirlər.

**Şamaxinka küçəsi** (C.Cabbarlı). Azərbaycanı şimal rayonları ilə birləşdirən şəhərin əsas tarixi arteriyası 1880-cı illərdə tikilməyə başlanılıb. Əsas hissədə iki-üçmərtəbəli tikililər şimalda stil istiqamətindən məhrum olmuş birmərtəbəlilərlə əvəzlənir, əsas, kapital olanlar yüksək professionallıq əlamətlərinə görə seçilirlər. Order sistemin klassik üslubları və küçənin tikilisinin arxitektur görünüşünə güclü təsir edən modern stil hökmranlıq edir. Hacıyevin evi nömrə 4, 12 onlara aiddir (mülki mühəndis İ.K.Ploşko, 1912-ci il) və Bakı modern üslubunun qiymətli binalarından biridir.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **4** (qarşıdakı fasad Kubinski küçəsinə, indiki Zivərbəy Əhmədbəyov küç. baxır). Kərbəlayi Ələsgər Hacıyevə məxsus yaşayış evi 1912-ci ildə mülki mühəndis A.Polyakov tərəfindən tikilib. Özünün həcmi-məkan göstəriciləri və Bakı moderninin ən yaxşı ənənələrindəki arxitektura həllinə görə şübhəsiz ki, bu stil istiqamətin maraqlı nümunəsi sayılır. Üfüqi həcmdə həm flankir erkerlərin hissələrin, həm də arxaların şaquliyi stil motiv və elementlərin daha dəqiq vurğulanmış xarakteri üzə çıxır. Gözəl hazırlanmış portal və nəcib əhəngdaşından hazırlanmış şirlər-kronşteynlər fasad-

*Şamaxinskaya küçəsinin planı.*



ların həcmi plastikasına daxil olaraq arxitektura abidəsi sayılan yaşayış evinin kompozisiyasını gözəlləşdiriblər.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **12**. Kərbəlayi İsrafil Hacıyevə məxsus yaşayış evi 1910-1912-ci illərdə mülki mühəndis İ.K.Ploşko tərəfindən tikilib. Ümumi kompozisiyası özünün həcmli sahələrinin modelləşdirilməsilə klassik ənənələrin pozulması haqda məlumat verir. Fasadın tikintisi işıq və kölgə üsulu ilə həll edilibsə, onda kompozisiyanın sxemi kifayət qədər dinamikdir və parlaq modernə məxsus keyfiyyətlərə malikdir. Fasadın aydın çəkilməsi yeni arxitektura formasının mənzərəli və eyni zamanda mənalı anlayışını təqdim edir. Flank rezalitlərinin iki qala formalı tamamlanması, arka xətlərinin səciyyəliyi, mərtəbələr arası yerlər, detallarının çoxluğu fasadın kompozisiyası arxitekturanın xüsusi dünyasını yaradıb. Detalların zənginliyi ümumilikdə harmoniyanı pozmayıb. Arkaların timpanlarının, daş üstü naxışların dərin relyefi verilən ayrı-ayrı arxitektura detallarının tamamlanmış rezalitlərinin gözəl aydın çəkilməsi Bakı modernini beton və malalı Peterburq və Moskva modernindən fərqləndirir. Fasadın plastikası modern arxitektura detalları ilə divar səthinin perspektivli arka yerlərinin karnizin qırıq xəttində davam edir. Mərmər ön qapı pilləkənin interyeri, karnizin şəkillərinin xarakterik xətləri, vitraj plafon və qapılar daha ifadəli məna daşıyır. Kabinetin plafonu xüsusilə diqqəti cəlb edir. Hacıyevin yaşayış evinin arxitekturası – Bakı moderni və Ploşko yaradıcılığının şah əsəridir. Ev arxitektura abidəsi və şəhərin tarixi irsinin ayrılmaz hissəsidir.



*Şamaxinskaya küç., 4. K.A. Hacıyevin yaşayış evinin qərb fasadı. 1912-1914-cü illər. Memar A.Polyakov.*



*Şamaxinskaya küç., 4. K.A. Hacıyevin yaşayış evinin qərb fasadının fraqmenti.*

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **14** (qarşıdakı fasad Kubinski küçəsinə, indiki Zivərbəy Əhmədbəyov küç. 13-ə baxır (1900-cü illər). Yaşayış binası – üçmərtəbəli kapital evdir, ordersiz sistemdə, ancaq yax-

şı proporsiya, uğurlu detallarda və tutumlu plastikada tikilib ki, bu da onun estetik keyfiyyətini artırır. Bina, küçənin quruluşuna tikilinin xarakterini saxlamaqla, Şamaxinka rayonunun tarixi xüsusiyyətlərini qorumaqla, aktiv həcmi-məkan vahidi kimi daxil olub. Öz xüsusiyyətlərinə görə bədii-zəngin binaların mühitidir.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **15** (qarşıdakı fasad Spasskiy, Zərgərpalan küç. 126-ya baxır 1900-cü illər). Üçmərtəbəli yaşayış evi Şamaxinka rayonunda ən qədim magistral yolların ardıcıl tikilisinə daxil olan bina nümunəsidir. Fasad plastikdir, klassik formalarda həll edilib, amma Bakı üçün səciyyəvi olan sərbəst traktovkada. Binanın küçənin siravi tikintisində dayanmasına baxmayaraq, yaşayış evi magistralın bədii görünüşünün formalaşmasında aktiv rol oynayır və şəhərin yaşayış arxitekturasının abidəsidir.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **18,** Kubinskiy (Zivərbəy Əhmədbəyov) 17 və 2 Paralelnıy (B.Məcidov), 56 (1899-cu il) küç. kəsişməsi. Üçmərtəbəli yaşayış evi üç küçənin kəsişməsində yerləşir, yalnız həcm-sahəsi strukturuna görə deyil, həmçinin kompozisiyanın təmkinliyi, stilistik cəhətdən klassik üslublara yaxın formalı quruluşda olması sayəsində tarixi kvartallar sistemində məsuliyyətli arxitekur və şəhərsalma funksiyası daşıyır. Binanın fasadlarında ayna yerlərinin ritmi və addımı vasitəsilə yaşayış evinin mahiyyəti əks olunub, mənzillərin evlər üzrə bölünməsi ifadə olunub. Binanın arxitektur həllinin mahiyyəti mərtəbələrin ayrılması, sadə plastika, divarların nazik hörülməsi, daş detallar və yerli xarakterli gözəl karnizlə müəyyən olunur. Bina irsin bir hissəsi və arxitektur abidəsidir.



*Şamaxinskaya küç., 12. K.İ. Hacıyevin mülkünün fasadının fraqmenti. Ş.S. Fətullayevin rəsmi.*



*Şamaxinskiy küç., 12. K.İ. Hacıyevin mülkünün fasadının fraqmenti. Mülki mühəndis İ.K.Ploşko. 1912.*

*Şamaxinskiy küç., 12. K.İ. Hacıyevin mülkünün fasadının fraqmenti. Mülki mühəndis İ.K.Ploşko. 1912.*



*Şamaxinskaya küç., 12. K.İ. Hacıyevin mülkünün fasadının fraqmenti.*





*Şamaxinskaya küç., 12. K.İ. Hacıyevin mülkünün ümumi görünüşü.*

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **21**, 2-ci Paralelnıy küç. (B.Məcidov), 65 (1900-cü illər) kəsişməsi. Üçmərtəbəli yaşayış evi iki mərhələdə tikilib: ilk iki mərtəbə - 1900-cü illərdə, üçüncü – 1950-ci ildə. Küncdə yerləşir, fəal şəhərsalma rolunu oynayır. Fasadlar modern stildə həll edilib, mükəmməl çəkilib və yerinə yetirilib. Evin arxitektoru Bakıda modern stil istiqamətinin inkişafını əks etdirir. Ev şəhərin bədii-zəngin binaları üçün gözəl nümunədir.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **24**, 3-cü Paralelnıy, (Əbilov), 66 (1899-cu il) küç. kəsişməsi. İkimərtəbəli ev küncdə dayanır, əsas fasad Avropa memarlığının üslub nişanları ilə klassik ahənglik prinsiplərində həll edilib, uğurlu proporsiya, dəqiq ayrılma, arxitektur dekoruna görə seçilir. Detallar zövqlə çəkilib. Fasadın rezalitlə vurulan üç ox sistemi var, evin yerli iqlim xüsusiyyətləri geniş balkonda və daxili planirovkada öz yerini tapıb. Bədii elementlərə malikdir, irs parçasıdır və arxitektura abidəsidir.

**Şamaxinka küçəsi** (C.Cabbarlı), **28** (1900-cü illər). İkimərtəbəli yaşayış evi, kapital binadır, klassik formada həll olunub, tarixi mərkəzin ən yaxşı tikililəri sırasına daxildir. Rezalit, həcmi hissələrin proporsional ayrılması, zəngin üzlüklər, ifadəli profil və arxitektur elementlərin yüngül plastikası ilə işlənib. Divarların tökməsi daş bloklardandır və detallar qüsursuz oyulub. Yaşayış evi arxitektura abidələri sırasına daxil olunmuşdur.

# NƏTİCƏ

Bakı kimi özünəməxsus arxitektur-planlaşdırma inkişaflı şəhər təsəvvür etmək çətindir. Erkən orta əsrlər dövründə yaranan, sasanilər dövründən məşhur "neft bumu" dövrünə qədər tarixi inkişafın bütün çevrilişlərindən keçən şəhər ərazi bütövlüyünü, arxitektur yüksəlişin bütün mərhələlərini saxlayıb.

Şəhərin başlama anı od məbədlərinin yaranması, şəhərsalma strukturunun formalaşmasının başlanğıcı kimi "Qız qalası" ətrafında məbədlərin tikilməsidir. Varisliyi İslam dövründə inkişaf formasında artıq müəyyən edilmiş Bakının gələcək planlaşdırma sisteminin prinsipial mövqeyi salınırdı. Məhz bu dövrdə şəhərdə od məbədləri üzərində tikilən Məhəmməd məscidi (1078/79-cu illər), Ləzgi-məscid (1169-cu il), Cümə məscidi (XIV əsr) kimi əsas dini tikililər meydana gəlir. Dini tikililər ətrafında ilkin məhəllələr formalaşmağa başlayır, Cümə məscidi və "Qız qalası"nı birləşdirən əsas planlaşdırma yolunun salınması və sahil xəttindən başlayaraq Bakı təpəliyinin bütün istiqamətləri üzrə tikinti işlərinin həyata keçirilməsi nəzərdə tutulur.

XII əsrdə şəhərdə ərazinin relyefinə uyğun olaraq bütün perimetr üzrə qala divarlar, yarım dairəvi qalalar və darvazalar inşa edilir. Bakı, əlverişli buxtası olan alınmaz (ələ keçirilməz) qalaya və eyni zamanda Şərq və Qərb arasında, ərazisindən məşhur "Böyük ipək yolu"-nun canlanma ilə keçdiyi, ticarət mərkəzinə çevrilmişdir.

XV əsrin birinci yarısında Şirvanşahlar – Bakı sülaləsinin ikinci iqamətgahı inkişafın yeni impulsunu alır. Azərbaycan arxitekturasında yeni səhifə açmış Şirvanşahlar Saray Kompleksi Bakı təpəliyində tikilir. Onunla sahilboyu xətt arasında böyük karvansara, həmçinin Qasım-bəy, Buxari və Multani, hamamlar, məscidlər olan xətt üslublu ticarət mərkəzidir. Əvvəlki dini tikililər və "Qız qalası" da bu struktura daxildir. Bakı qalasının ərazisi onun divarlarının, saray və ticarət kompleksinin tikilməsindən sonra tam tikilmişdi, özünün kiçik mərkəzləri və məhəlli məscidləri olan məhəllələr yarandı. Bakı faktiki olaraq tikinti və mərtəbələri yüksəltmək yolu ilə daxili ehtiyat hesabına inkişaf edən və yenilənən qapalı ərazi vahidi idi. Bu, özünü XIX əsrin ikinci yarısında köhnə tikililər söküləndə və yeniləri, xüsusən də rahat planlaşdırılması olan tikililər qurulanda aydın göstərdi. "İçərişəhərin" yenilənməsi və yenidənqurulmasının onun qədim dini və mülki tikililərini dəyməməsi onun ləyaqətini göstərir. Qədim Bakının tarixi simvolu olan "Qız"qalası"dan başqa məscidi və karvansarayları olan Torqovaya küçəsi özünün əvvəlki təyinatı üzrə xidmət göstərirdi.

Şəhərin qala divarlarından kənarda, forştadta şəhərin inkişafının yeni dövrü,

Azərbaycanın arxitekturasının inkişafı tarixində tikinti prosesinin proqressiv mərhələsinin əks olunduğu kapitalizm dövründən başlayır. Sürətlə və keyfiyyətlə tikilən Bakı tikililəri öz intensivliyinə görə dünyanın bir çox şəhərləri ilə müqayisə oluna bilərdi.

Bakının tarixi mərkəzinin sistematik analizi və kapitalist dövrü Rusiya şəhərləri ilə müqayisə həcmli-məkan və arxitektur kompozisiyasının fərdiliyini üzə çıxartdı və nəinki özünün arxitektur-bədii yerini tutmaq, həmçinin yerli xarakterik xüsusiyyətlərini çoxobrazlılıqda açmaq imkanı verdi. Bu, həm binaların obrazlı həlli, həm həcmi-fəza modelləşdirilməsində, eləcə də arxitektur kütlələrin tektonikasında özünü biruzə verirdi. Məhəllələrin strukturu yalnız fərqli xarakterli istiqamətlərdə olan tikililərlə deyil, onların istər həcm, istərsə də üslub baxımından tamlıq təşkil edən sıralarının vahidliyi ilə müəyyən edilir. Məhəllə, küçə, meydanın bu cür tikilmə forması yalnız fərdi həcmi vahidinin deyil, həmçinin zəngin ənənələrə malik olan şəhərin arxitektur-planlaşdırma quruluşunun mahiyyətini əvvəlcədən müəyyən etdi.

Tarixi mərkəzin strukturunda arxitektur abidələrin yerləşdirilməsinin qrup şəklində olan sistemi yaranmışdır, onlar cərgə şəklində inşa edilmiş tikililər arasında ada mövqeyində yerləşməsi vasitəsilə (sayəsində) bütövlükdə və ya qismən mərkəzi məhəllələri əhatə etməyə, ayrı-ayrı küçələrdə yığcam şəkildə yerləşməyə başlayırlar.

Bakının tarixi hissəsinin mərkəzi məhəllələrinin tikintisi geniş diapazonlu abidələri ilə arxitektura irsinin ayrılmaz hissəsinə çevrildi. Burada keçmiş burjuaziyanın sarayları, yaşayış evləri və şəhərin inzibati-ictimai tikililəri də mərkəzləşib. Şəhərin tarixi məhəllələrinin ərazisində arxitektura abidələrinin belə xarakteri Bakının bu hissəsinin həcmli-məkan strukturuna xüsusi məna verir. Bu tikililər arxitektur mahiyyətilə yanaşı tarixi qiymət də daşıyırlar.

Şəhər ərazisində, tikililərin rus ampir üslubunda həyata keçirilməsi məqsədi ilə edilən ilk cəhdlərdən başlayaraq XIX-XX əsrlərin hüdudunda milli-romantik tikililərə qədər bütün üslub halları və istiqamətlərinin formalaşması və inkişafı mərhələləri kompleks şəkildə meydana çıxarılmışdır. Bu dövr, order sisteminin yerli xüsusiyyətlər ilə birlikdə yaşayış evləri və ictimai binaların fasadlarında parlaq şəkildə ifadə edilməsi, daş memarlığının uzun əsrlərdən bəri davam edən ənənələrinin prizması vasitəsilə Bakı ustalarının şəxsi xəyallarında klassik formalarda bədii plastikanın ən yüksək zirvəyə çatması ilə maraq yaradır. Daşdan yonulmuş mürəkkəb formalara baxmayaraq, onların yaradıcılığı şəhərin həqiqi arxitektur irsinin yaradıcılarına qarşı qeyri-ixtiyari şəkildə dərin hörmət bəslənəcək dərəcədə orijinal, tektonikdir. Bu, yalnız order sistemin mənzərəli traktovkasında deyil, eləcə də qotika, modern və milli-romantik istiqamətdə də öz inandırıcı əksini tapmışdır. Düzdür, arxitekturanın bu istiqamətləri Rusiya imperiyasının digər şəhərlərində də geniş yayılmışdı, lakin burada Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı nüfuzu sayəsində inkişafın digər növləri yer almışdır. XIX-XX əsrlərdə Bakıda iki böyük mədəniyyətin sintezi şəhərin özünəməxsus inkişafını

müəyyən etmişdir, bu da Bakı şəhərini arxitektura baxımından fərqləndirirdi. Bu, binaların planlaşdırma və həcmi-fəza həllərində və fasadların traktovkasında özünü göstərmişdir.

Məsələn, Bakının inşasında qotik formaların yaranması yaşayış binalarının və dini tikililərin çatma formalarının qotikanı yerli memarlıqla yaxınlaşdırdığı, onun məzmununu tamamladığı şəhərin ümumi bədii strukturuna ziddiyyət yaratmırdı. Polşa, alman və fransız qotika üslubunda inşa edilmiş möhtəşəm Bakı binaları, öz dövrünün memarlıq abidəsi kimi şəhərin tarixi mərkəzinin müvafiq həcmi-fəza və arxitektur mühitini yaratmışdırlar.

Modern üslubunda inşa edilmiş tikililər, yalnız Azərbaycan arxitektura tarixində deyil, eləcə də bu üslubun Rusiyada inkişaf etməsində yeni səhifə açırlar. Modern üslubunda inşa edilmiş binalar, şəhərin arxitekturasına daxil olaraq, özünün ifadəli, emosional, müasir obrazları, plastik fasadları və daşdan olan detalların işlənməsinin yüksək mədəniyyəti ilə onun bədii görünüşünü dəyişdirmişdirlər. Şəhərin tarixi mərkəzinin müxtəlif yerlərində yerləşən modern üslubunda inşa edilmiş binalar, ətrafdakı tikililər arasında vacib elementlərə çevrilmişdirlər. Onların yeni tərzdə şərh edilmiş fasadları, siluetin rəvan xətti ilə həcmlərinin kompozisiya həlli və arxitektur formaya münasibət şəhərin tarixi irsinin əsasını təşkil etmişdirlər.

Əgər Bakıda müxtəlif üslub istiqamətləri qismən yerli rəssamların və tikinti ənənələrinin təsiri altında müəyyən dəyişikliklərə məruz qalırdırlarsa, bu zaman doğma mühitdə milli memarlıq da yeni arxitektur və konstruktiv xüsusiyyətlərin təsiri altında inkişaf edirdi ki, bu da Azərbaycan arxitekturasında əvvəllər məlum olmayan məzmun və həcminə görə tamamilə yeni tikililərin yaranmasına səbəb olmuşdur. Milli-romantik istiqamətdə inşa edilmiş imarətlər və çoxmərtəbəli yaşayış evlərilə yanaşı, həmin dövrün arxitekturasının müsbət hallarının əks olunduğu böyük və monumental dini tikililər, mədəni-məişət təyinatlı tikililər də meydana gəlmişdir.

Bakı şəhərinin tarixi məhəllələrində tikinti işlərinin aparılmasının arxitektur irsi, ümumilikdə Azərbaycanın unikal mədəniyyətinin ayrılmaz hissəsini təşkil edən və bütöv küçələr, meydanlar və ayrı-ayrı tikililər şəklində memarlar və yerli ustadlar nəsli tərəfindən yaradılan sərvəti təşkil edir. Bakının arxitektur və şəhərsalma sənətinin abidələrinin qorunması, öyrənilməsi, həmçinin onlar ilə ehtiyatla davranmaq – nəsillərin ən vacib vəzifəsidir, çünki şəhər bu baxımdan böyük bədii və tarixi dəyər fenomenidir.

# ƏDƏBİYYAT SİYAHISI


1. Агаев А.-б. В мечети. Газ. «Каспий». 1903. 16 ноября.
2. Ашурбейли С.В. Очерк истории средневекового Баку. АН Аз. ССР. Б., 1964, 336 с.
3. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Б., 1986, 310 с.
4. Бартольд В.В. Ориентировка первых мусульманских мечетей. М., 1956. Т. 6., 784 с.
5. Березин И.Н. Путешествие по Дагестану и Закавказью. М., 1849, 128 с.
6. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. М., 1963, 558 с.
7. Бунин А.В. История градостроительного искусства. М., 1973.Т.2.
8. Бутник-Сиверский Б.С. Исторический план г. Баку. Науч. архив Ин-та истории АН Аз. ССР; Инв. № 679, 680.
9. Вебер А. Рост городов в девятнадцатом столетии: Пер. с англ.-СПб, 1903, 464 с.
10. Гияси Дж.А. Архитектурные памятники эпохи Низами. Б., 1991, 264 с.
11. Груза И. Теория города. М, 1972, 246 с.
12. Гулишанбаров С. И. План Черного городка. СПб., 1879, 12 с.
13. Диканский М.Г. Постройка городов, их план и красота. Пг., 1915, 306 с.
14. Дубелир Г.Д. Планировка городов. СПб., 1910, 79 с.
15. Евлахов И. Неделя в Баку. Газ. «Кавказ». 1861, № 98,100.
16. Зуммер В.М. Художественные памятники Азербайджана. Б., 1926,136 с.
17. Иваницкий А.П. Планировка г. Баку. 1924-1927 гг. Пояснительная записка. (Архив Бакгорисполкома), 220 с.
18. Иконников В.А. Архитектура города. М., 1972, 215 с.
19. Кириченко Е.И. Русская архитектура 1830-1910-х годов. М., 1978, 399 с.
20. Легкобытов Б. Бакинская провинция / Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношении. СПб., 1836,401 с.
21. Лившиц Я. Перепланировка города Баку. Красный Баку. 1925, №8.
22. Мамедзаде К.М. Строительное искусство Азербайджана (IV-XVI в.). Б.,1978, 207 с. (На азерб. яз.).
23. Михайловский Е.В. Реставрация памятников архитектуры. М., 1971, 190 с.
24. Неймат М.Х. Корпус эпиграфических памятников Азербайджана. Б., 1991, 176 с.
25. Пилявский В.И Градостроительные мероприятия и образцовые проекты в России в начале XIX века. Архитектурная практика и история архитектуры. Л.-М., 1958.

26. Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Б., 1964. 253 с.
27. Сидоров В. По России. Путевые заметки и впечатления. СПб., 1897.
28. Симанович В. Нефть и нефтяная промышленность в России: Историко- статистический очерк. СПб., 1909.
29. Смирнов В. Развитие города Баку. / Коммунальная жизнь. 1923, №1.
30. Спасский-Автономов К. Ф. Жизнь в Баку. Газ. «Кавказ». 1853, N437.
31. Усейнов М.А., Бретаницкий Л.С., Саламзаде А.В. История архитектуры Азербайджана. М., 1963, 336 с.
32. Фатуллаев Ш.С. Жилые дома в застройке городов Азербайджана на рубеже XIX-XX веков. Б., 1963,118 с.
33. Фатуллаев Ш.С. Баку - архитектурный феномен /на англ. яз/. Доклад на Международном конгрессе по турецкому искусству в Стамбуле. Анкара, 1995.
34. Фатуллаев Ш.С. Градостроительство Баку XIX - начала XX веков. Л., 1978, 285 с.
35. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX - начала XX веков. Л., 1986, 455 с.
36. Фатуллаев Ш.С. Архитектура мечетей Азербайджана XIX-XX вв. Тегеран, 1996, 101 с, (На фарс. яз.).
37. Фон дер Нонне Н.А. План существующего и проектированного расположения губернского города Баку, с показанием предлагаемого урегулирования и распространения. СПб., 1901.
38. Чабров Г.Н. Русские архитекторы дореволюционного Туркистана (1865-1916). Архитектурное наследие Узбекистана. Ташкент, I960, 249 с.
39. Швидковский О.А. Градостроительная культура социалистической Чехословакии. М., 1963, 391 с.
40. Юницкий А. История церквей и приходов бакинской губернии (1815-1905 гг.). Б., 1906, 188 с,
41. Акты, собранные Кавказской археографической комиссией за разные годы. Тифлис, 1904. Т. 12.
42 Баку. Кавказский календарь на 1874 год. Тифлис, 1873.
43. Большие города, их общественное, политическое и экономическое значение; Сб. статей. СПб., 1905.
44. История Азербайджана. Б., 1960. Т.2, 953 с.

# BAKININ TARİXİ VƏ MÜASİR KÜÇƏ VƏ MEYDANLARININ ADLARI

***KÜÇƏLƏR***

Aziatskaya – A.O.Quliyeva
Abşeronskaya – Abşeron
Bazarnıy – H.Hacıyev
Balaxanskiy – Füzuli
Baryatinskiy – Akad. A.K.Əlizadə
Birjevoy – Üzeyir Hacıbəyov
Bolşaya Morskaya – Bülbül pr.
Bondarnıy – Ş.Bədəlbəyli
Verxniy Naqornıy – A. Şaiq
Verxniy Taza Pirskiy – Mustafa Sübhi
Verxnaya Priutskaya – Akad. Ş.Əzizbəyova
Vorontsovskiy – İ. Səfərli
Vranqelskiy – Ə.Cavad
Qimnaziya – Tolstoy
Qoqol – Qoqol
Qorçakovskiy – H.Z.A. Tağıyev
Qubernskiy-Torqovıy – Nizami
Zavedenskaya – B.Sərdarov
Kamenistıy – B.Səfəroğlu
Karantinnıy – H.Aslanov
Karaulnaya- Karaulnaya
Kaspiyskiy – R.Behbudov
Kladbişenskaya – M.Hüseyn
Orlovskiy – Muxtadır
Kolubakinskaya – N.Rəfibəyli
Krasnovodskiy – S.Vurğun
Krasnı-krestovskiy – Şeyx Şamil
Kubinskiy – Zivərbəy Əhmədbəyov
Mariinskiy – Rəsul Rza
Merkuryevskiy – Azərbaycan pr.
Milyutinskiy – T.Əliyarbəyov
Mixaylovsk – Ə.Əliyev
Malakanskiy – Xəqani
Naberejnaya imperatora Aleksandra II – Neftçilər pr.
Nijnaya-Taza Pirskaya – Mirzə Fətəli
Nikolayevskaya – İstiqlal
Nobeleveskiy prospekt – Nobel pr.
1 paralelniy – A.-b.Hüseynzadə
2 paralelniy- B.Məcidov
3 paralelniy – Əbilov
4 paralelniy – S.Salayeva
Olqinskaya – M.Ə.Rəsulzadə
Ofiserskiy – Musəvi
Persidskiy- M.Muxtarov
Pozenovskiy – Cəfərovlar qar.
Politseyskiy – Məmmədəliyev
Poçtovıy – S.Tağızadə
Petrovskaya nab. – Neftçilər pr.
Sadovaya- Niyazi
Spasskaya – Zərgərpalan
Stanislavskiy – Azadlıq pr.
Suraxanskiy – Ç.Mustafayev
Tatarskiy – A.M.-b. Topçubaşov
Telefonnaya – 28 May
Serkovnaya – Vidadi
Sisianovsk – T.Xəlilbəyli
Çadrovıy – M.A.Əliyev
Çəmbərəkənd – Lermontov
Şamaxinka – C.Cabbarlı

***MEYDANLAR***

Aşumovsk və ya Dumskaya – Molodeji
Birjevaya – Azadlıq
Voronsovskiy-rınok – Şamaxinka rayonunda Kömür meydanı
Parapet – Fəvvarələr meydanı
Yarmaroçnaya – S.Vurğun meydanı

# QƏBUL EDİLMİŞ İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| Az SSR MDTA | – Az SSR Mərkəzi dövlət tarixi arxivi (Bakı) |
| Gürc. SSR MDTA | – Gürcüstan SSR Mərkəzi dövlət tarixi arxivi (Tiflis) |
| SSRİ MDTA | – SSRİ Mərkəzi dövlət tarixi arxivi (Leninqrad) |
| SSRİ MDHTA | – SSRİ Mərkəzi dövlət hərbi-tarixi arxivi (Leninqrad) |
| SSRİ HDDMDA | – SSRİ Hərbi dəniz donanması mərkəzi dövlət arxivi (Leninqrad) |
| BŞDX | – Bakı şəhər Dumasının xəbərləri (Bakı) |

*Qeyd: arxivlərdə iş 1950-1980-c,ı illərə aiddir.*

# MÜNDƏRİCAT

Müəllif sözü .......... 4

Bakı – memarlıq fenomenidir .......... 8

XIX-XX əsrlərin əvvəllərində Bakının şəhərsalması .......... 15

İşərişəhər – Qala şəhər .......... 79

İşərişəhərin ətrafı boyunca dairəvi magistral .......... 127

Şəhərin tarixi küşələrində memarlıq abidələri .......... 175

Nəticə .......... 518

Ədəbiyyat siyahısı .......... 521

Bakının küşə və meydanlarının tarixi və müasir adlandırılması .......... 523

Qəbul edilmiş ixtisarların siyahısı .......... 524

Şərq-Qərb
1986-cı ildən
East West
since 1986
BAKI
2013

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Təqdim olunmuş materiallara uyğun surətdə
“Şərq-Qərb” Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Çapa imzalanmışdır 20.08.2013. Formatı 70x90 1/16
Ofset çap üsulu. Fiziki çap vərəqi 33
Sifariş № 13297. Tiraj 1000